

# HEYDƏR ƏLİYEV

# və

# QANUNÇULUQ

# HEYDƏR ƏLİYEV
# və
# QANUNÇULUQ

# HEYDƏR ƏLİYEV
# və
# QANUNÇULUQ

*çıxışlar ✸ nitqlər ✸ müraciətlər*
*müsahibələr ✸ bəyanatlar ✸ fərmanlar*

"Adiloğlu" nəşriyyatı
Bakı 2008

# HEYDƏR ƏLİYEV
# və
# QANUNÇULUQ

*Birinci kitab*

“Adiloğlu” nəşriyyatı
Bakı 2008

Az
T 53

Redaktor və ön söz müəllifi
**XANLAR VƏLİYEV**

T 53 **HEYDƏR ƏLİYEV VƏ QANUNÇULUQ**
Bakı «Adiloğlu» nəşriyyatı, 2008, 432 səh.

Kitabda müasir Azərbaycan dövlətinin memarı, ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin iyunundan sonrakı dövrdə müstəqil dövlətimizin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi, qanunçuluğun, insan hüquq və azadlıqlarının təmin olunması, respublikamızda konstitusiya quruluşunun, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin əsaslarının cinayətkar qəsdlərdən qorunması sahəsində gördüyü işlər, eləcə də hüquq-mühafizə orqanları ilə keçirdiyi çoxsaylı görüşləri, söhbətləri, çıxışları, müraciətləri, bəyanatları, müvafiq fərman və sərəncamları əksini tapmışdır.

Ümummilli liderin miras qoyduğu, dövlətçiliyin inkişaf etdirilməsində, qanunçuluğun daha da möhkəmləndirilməsində mühüm rol oynayan, hüquq-mühafizə orqanlarının fəaliyyətində hər zaman onlara doğru yol göstərən proqram xarakterli tezislər bu kitabda təqdim olunmuşdur.

$T\frac{0801000000}{121\text{-}2008}$ qrifli nəşr

© Təhməzov Ə., 2008

# KİTABIN İÇİNDƏKİLƏR

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*11 mart 2008-ci il*

ÖN SÖZ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN
İCLASINDA ÇIXIŞ
*15 iyun 1993-cü il*

BAKIDA ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ ÇIXIŞ
*24 avqust 1993-cü il*

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR
NAZİRLİYİNDƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ
*20 sentyabr 1993-cü il*

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN
İCLASINDA RESPUBLİKADA QANUNSUZ HƏBSLƏR
OLUB-OLMAMASI HAQQINDA MƏSƏLƏNİN
MÜZAKİRƏSİ İLƏ BAĞLI ÇIXIŞ
*29 sentyabr 1993-cü il*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ANDİÇMƏ
MƏRASİMİNDƏ NİTQ
*10 oktyabr 1993-cü il*

PREZİDENT SARAYINDA DAXİLİ İŞLƏR NAZİRLİYİ RƏHBƏR
İŞÇİLƏRİNİN GENİŞ MÜŞAVİRƏSİNDƏ GİRİŞ SÖZÜ
*29 aprel 1994-cü il*

CİNAYƏTKARLIĞA QARŞI MÜBARİZƏNİN GÜCLƏNDİRİLMƏSİ,
QANUNÇULUĞUN VƏ HÜQUQ QAYDASININ
MÖHKƏMLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*4 avqust 1994-cü il*

RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ
*3 oktyabr 1994-cü il*

DÜNYANIN BÜTÜN DÖVLƏTLƏRİNƏ, HÖKUMƏTLƏRİNƏ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARINA MÜRACİƏT
*4 oktyabr 1994-cü il*

RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT
*4 oktyabr 1994-cü il*

ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİNİN TOPLANTISINDA GİRİŞ SÖZÜ
*28 noyabr 1994-cü il*

MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT
*15 mart 1995-ci il*

AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN QORUNUB SAXLANMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ
*17 mart 1995-ci il*

RESPUBLİKA HÜQUQ-MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*4 avqust 1995-ci il*

RESPUBLİKA HÜQUQİ İSLAHAT KOMİSSİYASININ İLK İCLASINDA GİRİŞ SÖZÜ
*4 mart 1996-cı il*

AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK KOMİTƏSİNİN YARADILMASININ 5-ci İLDÖNÜMÜNƏ VƏ GÖMRÜK ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*30 yanvar 1997-ci il*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ MOSKVA DÖVLƏT HÜQUQ AKADEMİYASININ FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*29 mart 1997-ci il*

RESPUBLİKANIN MİLLİ TƏHLÜKƏSİZLİK
ORQANLARI ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI
GÜNÜNÜN TƏSİS EDİLMƏSİNƏ HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*5 iyul 1997-ci il*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVİN BƏYANATI
*22 yanvar 1998-ci il*

AZƏRBAYCAN RESPUBLİKASINDA ÖLÜM HÖKMÜNÜN
LƏĞV EDİLMƏSİ HAQQINDA MİLLİ MƏCLİSƏ
MÜRACİƏT
*3 fevral 1998-ci il*

İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ
TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ TƏDBİRLƏR HAQQINDA
FƏRMANI
*22 fevral 1998-ci il*

AZƏRBAYCAN MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ
ƏMƏKDAŞLARININ BİR QRUPU İLƏ GÖRÜŞDƏ NİTQ
*28 mart 1998-ci il*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ HÜQUQ
MƏSƏLƏLƏRİ VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN İNSAN
HÜQUQLARI ÜZRƏ YARDIMÇI KOMİTƏSİNİN NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*1 aprel 1998-ci il*

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR
ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ
*1 iyul 1998-ci il*

AZƏRBAYCAN POLİSİNİN 80 İLLİK YUBİLEYİNƏ VƏ POLİS
GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*2 iyul 1998-ci il*

AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ
ORQANLARININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ

YIĞINCAQDA NİTQ
*28 noyabr 1998-ci il*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK XİDMƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*26 mart 1999-cu il*

AZƏRBAYCAN MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ
*27 mart 1999-cu il*

# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

*2008-ci il may ayının 10-da müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin 85 illiyi tamam olur.*

*Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir.*

*1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir. Qısa müddətdə iqtisadiyyat sahəsində nailiyyətlər əldə olunmuş, mədəniyyətin yüksəlişi və milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmışdır. O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir.*

*Heydər Əliyev həmin dövrdə özünün dövlət idarəçiliyi strateji proqramında mədəni və mənəvi intibahı həmişə iqtisadiyyatda və sənayedəki uğurlarla əlaqələndirərək vahid məcrada həyata keçirmişdir. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır.*

*Heydər Əliyevin idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı 1982-ci ildən SSRİ-nin dövlət başçılarından biri kimi fəaliyyət göstərdiyi və irimiqyaslı layihələrə rəhbərlik etdiyi vaxtlarda özünü xüsusilə parlaq surətdə təzahür etdirmişdir. Həmin dövrdə Heydər Əliyev fenomeni ümumittifaq miqyasında etiraf olunurdu. O, ölkədə baş verən ən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə iştirakçısı olması sayəsində dövlətin ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdi.*

*Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyev tərəfindən verilən kəskin bəyanat artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasını bildirirdi. O, kommunist partiyası sıralarından çıxmasına dair ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdi.*

*Heydər Əliyevin Azərbaycan parlamentindəki çıxışları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən qəbul etdiyi qərarlar və Naxçıvan Ali Məclisinin binası üzərində üçrəngli bayrağımızı ucaltması suverenliyin qazanılması istiqamətində atılmış ilk addımlardandır.*

*Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra, xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar etmişdir. Onun təkidli istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtarmış, qanunçuluğu bərpa etmiş və cəmiyyəti vahid məfkurə ətrafında birləşdirmişdir. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq özünün əsl xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş günü kimi yazmışdır.*

*Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın*

*əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli şəxsən Heydər Əliyevin xidmətləridir.*

*1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını təmin edən «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycan xalqının öz maddi sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrilmişdir. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açmış, dinamik inkişafın təməlini təşkil edərək müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın bu gün dünyada analoqu olmayan templə davamlı inkişafı üçün zəmin yaratmışdır. Hazırda Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri xalqımızın ümummilli liderinin ideyalarının gerçəkləşməsinin parlaq təcəssümüdür.*

*Müstəqil dövlətçiliyimizin Heydər Əliyev tərəfindən formalaşdırılan mənəvi-ideoloji əsası dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində həlledici rol oynamışdır. Azərbaycan ziyalısını son əsrlərdə ciddi düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti sayəsində strateji dövlət siyasətinə, əməli siyasi müstəviyə keçmiş və nəticədə azərbaycançılıq məfkurəsi şüurlara hakim kəsilmişdir. İki əsrin və iki minilliyin qovuşuğunda xalqımız məhz onun sayəsində milli-mənəvi dəyərləri layiqincə qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir.*

*2003-cü il dekabrın 12-də əbədiyyətə qovuşmuş Heydər Əliyevi son mənzilə yola salmağa yüz minlərlə soydaşımız gəlmişdi. Vida mərasimində ardı-arası kəsilməyən həmin insan seli isə on il əvvəl – 1993-cü ildə Vətən darda ikən millətin nicat yolunu Heydər Əliyevin simasında görənlərin birliyindən yaranmışdı. Bu möhtəşəm izdihamı ilə xalq ən kədərli günündə həmrəylik nümayiş etdirməklə Heydər Əliyevin ruhu*

*qarşısında mənəvi borcunu ödəyir, Heydər Əliyev ideyalarına sonsuz sədaqətini ifadə edirdi.*

*Çoxəsrlik dövlətçiliyimiz tarixində xüsusi yeri olan Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. Beynəlxalq aləmdə cərəyan edən proseslərə təsiri baxımından həmişə seçilən və qlobal dünyanın ən aktual çağırışlarına cavab verən Azərbaycan rəhbəri zəmanəmizin tanınmış siyasi xadimləri sırasında şərəfli yer tutmuşdur.*

*Özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə qüvvətli təkan verərək, onu daimi yüksəliş yoluna çıxaran Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz tarixi xidmətlərini, o cümlədən xalqımızın müstəqillik arzusunun həyata keçməsində, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində və müasir Azərbaycan dövlətinin yaşadılmasında müstəsna rolunu nəzərə alaraq qərara alıram:*

***1.** Azərbaycan Respublikasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi dövlət səviyyəsində geniş qeyd edilsin.*

***2.** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı və Azərbaycan Respublikasının Nazirlər Kabineti aidiyyəti qurumlarla birlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinin keçirilməsi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirsin.*

***3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
***Bakı şəhəri, 11 mart 2008-ci il***

# ÖN SÖZ

***«Hüquq-mühafizə orqanlarında sağlam mənəviyyat, sağlam mühit olmalıdır. İnsanlar, yəni bu orqanlarda işləyən vətəndaşlarımız anlamalıdırlar ki, onlara xüsusi etimad göstərilib, onlar xüsusi imtiyazlara, xüsusi səlahiyyətlərə malikdirlər, onlar Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və inkişaf etməsində xüsusi rol oynamalıdırlar. Bunların hamısı da Azərbaycanda cinayətkarlıqla, cinayətkarlığın bütün formaları ilə mübarizəni gücləndirmək, qanunun aliliyini təmin etmək, hər bir məsələnin araşdırılmasında ədalət prinsipini ən yüksək tutmaq və beləliklə də, ölkəmizdə gedən demokratikləşmə prosesini inkişaf etdirmək üçündür».***

**Heydər ƏLİYEV**

Tarix dəfələrlə sübut etmişdir ki, müxtəlif zaman və məkanlarda yaranan əlverişli şəraitdə xalq malik olduğu mənəvi-intellektual potensialı, zəngin mədəniyyəti və milli özünüdərk səviyyəsi ilə özünün yüksək azadlıq idealına, tarixin yaddaşında saxlanan milli dövlətçilik, müstəqillik ənənələrinin bərpasına can atır. Cərəyan edən ictimai-siyasi proseslərin axarında xalqın əsrlərdən keçib gələn intellektual potensialının üzə çıxması və bəşəri dühaların meydana gəlməsi üçün şərait yaranır. Hər hansı millət heç də sayının çoxluğu və ölkəsinin ərazisinin böyüklüyü ilə deyil, onun naminə yüksək ideallara xidməti özünə həyat amalı seçmiş övladlarının yaratdığı güclü dövlətlə əzəmətli, möhtəşəm, əbədi və yenilməz olur. Bununla belə, fitri istedadı və xarizmatik keyfiyyətləri ilə ağılları, ürəkləri fəth edərək zamanın fövqündə dayanmaq, milyonların qəlbində ölməzlik məşəli yandıraraq onlara müstəqillik, azadlıq hissini bütün varlığı ilə yaşatmaq, millətinin iradəsini ifadə etmək xoşbəxtliyi isə çox az liderlərə nəsib olur. Belə fenomenal liderlər xalqın əsrlər boyu formalaşmış və ümumbəşəri dəyərlərlə çulğalaşmış siyasi dünyagörüşü əsasında özlərinin mükəmməl dövlətçilik

konsepsiyasını ortaya qoyur. XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı da üzləşdiyi bir sıra faciələri məhz ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə aradan qaldırmış, milli varlıq və idrakının, özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 34 illik hakimiyyətinin ikinci mərhələsi nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi, ən əsası, doğma Vətəni düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə aparan təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə və firavan gələcəyə inamını qaytarmağa müvəffəq olan yeganə qüvvə olmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində ağır anlar, gərgin məqamlar çox olsa da, 1993-cü ilin iyununda Azərbaycanın düçar olduğu təhlükəli və gərgin vəziyyət onu həyatının bəlkə də ən çətin sınağı ilə üzləşdirmişdi. Ölkədə hakimiyyət böhranı yaranmış, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərc-mərclik mühiti formalaşmış, vətəndaş qarşıdurması dərinləşmiş, qanunçuluq və hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Bu sarsıntı və təlatümlər təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşə malik xarizmatik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaşatmaq kimi ağır tarixi missiyanın öhdəsindən gələ bilər. Böyük öndərimizin rəhbərliyi altında hakimiyyət böhranı qısa müddətdə tam aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrindəki qanunsuz silahlı dəstələr, dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər zərərsizləşdirilmişdir. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli surətdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı vermişdir.

Ümummilli liderimiz Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik dəyərlərin daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına hər zaman xüsusi diqqətlə yanaşmışdır. Heydər Əliyevin «**Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında**» 9 avqust 1994-cü il tarixli fərmanı ilə cinayətkarlığa qarşı qətiyyətli və barışmaz mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. Fərmanda cəmiyyətdə sosial bəlaya çevrilmiş rüşvətxorluq və korrupsiya kimi cinayətlərin geniş yayılmasının xüsusi narahatlıq doğurduğu vurğulanmış, bu kimi neqativ təzahürlərə qarşı mübarizənin gücləndirilməsi üçün konkret mexanizmlər öz əksini tapmışdır.

Heydər Əliyev dahi şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Məhz ulu öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılmışdır. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulmuş, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirilmişdir.

Bu gün Heydər Əliyev dühasına tükənməz ictimai hörmət və dərin ehtiram təsadüfi deyildir – Geniş ürəyə və dəmir əqidəyə malik bu əzəmətli və dahi şəxsiyyət yüksək humanizmi, mənəvi təmizliyi və böyük qayğıkeşliyi ilə hər bir ailənin yaxın üzvünə, hamisinə çevrilmişdir. Xalqımız Heydər

Əliyevin daxili və xarici siyasət kursunu, həyata keçirdiyi mütərəqqi islahatları dəstəkləmişdir. Alternativi olmayan bu siyasət təkcə ümummilli deyil, həm də fərdi maraqları özündə ehtiva etmiş, hər bir vətəndaşın qanuni mənafelərini uca tutmuşdur. Peşəkar siyasətçi çox yaxşı bilirdi ki, insanların fərdi mənafelərini nəzərə almadan ümumi topluma aid maraqları təmin etmək mümkün deyildir. Bu da onun müdrik, ədalətli və insanpərvər rəhbər olmasının daha bir təsdiqidir. Polad iradəsi, qanunsuz əməllərə qarşı barışmazlığı ilə hər cür cinayətkarlığın qarşısına sədd çəkən son dərəcə ədalətli dövlət rəhbəri olan Heydər Əliyev ləyaqətli və şərəfli hər bir kəsə vurulan haqsız zərbəni özünə dəymiş kimi qəbul edərək bir tərəfdən bu haqsızlığa görə əzab çəkirdisə, digər tərəfdən belə halların qarşısının alınması və bir daha təkrarlanmaması üçün qətiyyətli mübarizə aparırdı. **«Dövlət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda».** Milli öndərimizin bu sözləri onun insan hüquqları və azadlıqlarına necə böyük sayğı və hörmətlə yanaşdığının əyani təzahürüdür. Ümummilli liderimiz vətəndaş cəmiyyəti quruculuğu prosesinin uğurla həyata keçirilməsi üçün fundamental insan və vətəndaş hüquq və azadlıqlarının təminatına maksimum şərait yaratmağın vacibliyini daim diqqət mərkəzində saxlayırdı. Respublikamızda azad və demokratik cəmiyyətin bərqərar olmasını özünün ali prinsiplərindən biri elan etmiş Heydər Əliyev bu məqsədə yönəlmiş çoxşaxəli islahatların həyata keçirilməsini də ən vacib məsələlərdən hesab edirdi.

Ulu öndərimiz Heydər Əliyevin siyasi uzaqgörənliyinin, misilsiz qətiyyətinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə «Əsrin müqaviləsi»nin əfsanədən reallığa çevrilməsi ölkə iqtisadiyyatının bütün strateji əhəmiyyətli sahələrinin inkişafına güclü təkan verməklə yanaşı, Azərbaycanda hüquqi islahatların daha

sürətlə aparılmasına geniş imkanlar açmışdır. Ulu öndərimizin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çəkmişdir. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. Əsas Qanunda irqindən, cinsindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Bu Qanunda təsbit olunmuş bir sıra mühüm müddəalar məhkəmə hakimiyyətinin müstəqilliyinə ciddi təminat yaratmış, bu prinsipə əsas diqqət yetirilməklə sonrakı mərhələdə keyfiyyətcə yeni, dövrün tələblərinə cavab verən bir sıra qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir. 1996-1997-ci illərdə Azərbaycan insan və vətəndaş hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Ulu öndərimizin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. O vaxt, hətta Avropa Şurasının üzvü olan bir sıra dövlətlər analoji addımı hələ atmamışdılar. 2001-ci ildə müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edildikdən sonra bu təşkilatla səmərəli əməkdaşlıq milli qanunvericiliyimizin Avropa standartlarına uyğunlaşdırılmasına, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına əlverişli şərait yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevi böyük şəxsiyyət və insan kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdən biri də onun yeritdiyi siyasətin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanmasıdır. **Böyük qəlb və zəngin mənəviyyat sahibi kimi Heydər Əliyev günahkarları cəzalandırmağı da, imkan verərək bağışlamağı, islah etməyi də bacarırdı. Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə institutunun bərpası da bu məziyyətlərin bariz nümunəsi kimi xüsusi vurğulanmalıdır. Bu humanizmin nəticəsidir ki, son 10 ildə respublikamızda əfv fərmanlarının imzalanması, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir.** 1995-2003-cü illər ərzində ulu öndərimizin imzaladığı 32 əfv fərmanı əsasında 3091 məhkum fərdi qaydada bağışlanmış, həmçinin dahi rəhbərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisin 1996-2001-ci illərdə qəbul etdiyi 8 amnistiya aktı ilə 31584 məhkum azadlığa buraxılmış və ya cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır. Bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cinayət törətmiş şəxslərin islah olunmasına yönəlmiş, ölkədə cinayətkarlığın azalmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT ilə Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış **«İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında»** memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci ilin 22 fevralında ümummilli liderimiz Heydər Əliyev

**«İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında»** fərman imzalamışdır. Fərmanda insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası dəqiq müəyyən edilmişdir. Bu sahədə proqram rolunu oynayan həmin sənədlə insan hüquqları məsələsi başlıca ümumdövlət vəzifələri səviyyəsinə qaldırılmışdır. 18 iyul 1998-ci il tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə **«İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı»** təsdiq olunmuşdur. Dövlət Proqramına əsasən, Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır.

Hüquq-mühafizə orqanlarının müstəqilliyinin təmin edilməsini respublikamızda həyata keçirilən hüquq islahatlarının əsas qayəsi və məqsədi kimi önə çəkən ulu öndərimiz Heydər Əliyev bu vacib vəzifəni uğurla həyata keçirmək məqsədilə 21 fevral 1996-cı ildə Hüquq İslahat Komissiyasının yaradılması barədə sərəncam imzalamışdır. Həmin komissiya tərəfindən hazırlanmış «Konstitusiya məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Prokurorluq haqqında», «Polis haqqında», «Əməliyyat-axtarış tədbirləri haqqında», «Notariat haqqında» və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin və insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən, məhkəmə-hüquq islahatlarının memarı - ümummilli

liderimiz Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur. Məhz ulu öndərimizin rəhbərliyi altında 1993-cü ildən etibarən hərtərəfli islahatların həyata keçirildiyi bir şəraitdə prokurorluğun bu proseslərdən kənarda qalması, yığılıb qalmış problemlərin həlli istiqamətində səmərəli tədbirlərin görülməməsi məsələyə dövlət başçısı səviyyəsində müdaxilə edilməsi zərurətini yaratmışdı. Müstəqil Respublikamızın əsas Qanununda ilk dəfə olaraq ölkəmizin dövlət quruluşu sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericik qaydasında təsbit edilməsi Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin yerinə yetirilməsi nəticəsində mümkün olmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 7 dekabr 1999-cu ildə «Prokurorluq haqqında» qanunun qəbulu qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmış, prokurorluq orqanlarının daha da demokratikləşməsini, bu orqanların qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir.

Azərbaycan dövlətinin banisi, ümummilli liderimiz Heydər Əliyevin 17 iyul 1998-ci il Sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində ulu öndərimiz demişdir: **«Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu**

**edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram».**

Azərbaycanın milli təhlükəsizlik orqanlarının inkişaf tarixi bilavasitə ömrünün böyük bir hissəsini bu orqana həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu öndərimizin Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyata rəhbərlik etdiyi illər ərzində, xüsusilə də komitə rəhbərliyinə irəli çəkildiyi 1964-cü ildən sonrakı dövrdə bu orqana milli kadrların cəlb olunması, onların yerləşdirilib, həlledici iş sahələrində rəhbər vəzifələrinə təyin olunması nəzərəçarpacaq şəkildə geniş vüsət almağa başladı. Ulu öndərimiz Heydər Əliyev respublika və ittifaq rəhbərliyində çalışdığı dövrdə də Azərbaycanın xüsusi xidmət orqanlarının fəaliyyətini daim diqqətdə saxlamış, öz qayğısını bu orqandan əsirgəməmişdir. Məhz Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi və siyasi uzaqgörənliyi, idarəçilik və təşkilatçılıq bacarığı, gərgin səyləri sayəsində, bütün sahələrdə olduğu kimi, milli təhlükəsizlik sahəsində də milli maraqlara xidmət edən təhlükəsizlik orqanlarının fəaliyyətinin yeni təməl prinsipləri və istiqamətləri müəyyən olunmuş və Azərbaycanın təhlükəsizlik orqanlarının xalqa, vətənə sadiq quruma çevrilməsi mümkün olmuşdur.

Uzun illər ərzində dövlət başçılarından heç biri təhlükəsizlik xidməti işçilərinin peşə bayramı gününü təsis etmək barədə düşünməmişdi. Lakin Ümummilli liderimiz Heydər Əliyev Milli Təhlükəsizlik Nazirliyinə münasibətdə də doğma mövqe nümayiş etdirərək, 1997-ci il 23 mart tarixli sərəncamı ilə hər il mart ayının 28-nin milli təhlükəsizlik

orqanlarının peşə bayramı günü kimi qeyd olunmasını rəsmiləşdirdi ki, bu da xüsusi xidmət orqanı barədə tarixi reallığın bərpası, milli təhlükəsizlik orqanları işçilərinə dövlət səviyyəsində yüksək qayğı göstərilməsinin və fəaliyyətlərinə layiqli qiymət verilməsinin parlaq təzahürüdür.

Bu gün Heydər Əliyev kimi dahi və tarixi bir şəxsiyyətin peşəkarlıq irsinə söykənən Milli Təhlükəsizlik Nazirliyi ölkənin milli maraqlarının qorunması və hərtərəfli təmin olunması istiqamətində ən zəruri tədbirlər həyata keçirir. Bütün bunlar yalnız bir məqsədə, milli maraqların və mənafelərin qorunmasında Heydər Əliyev ənənələrinin, amallarının yaradılmasına xidmət edir.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə respublikada qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, eləcə də güclü dövlətçilik intizamı və dövlət orqanları arasında normal, işgüzar münasibətlərin yaradılması ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatının hər bir sahəsi üzrə ciddi irəliləyişlərə, o cümlədən cinayətkarlıqla mübarizənin də uğurla aparılmasına təkan vermişdir. Azərbaycanın daxili işlər orqanlarının fəaliyyətinin məqsədyönlü təşkili nəticəsində cinayətkarlıqla mübarizənin 1994-cü ildən başlayaraq yüksələn xətt üzrə səmərəliliyi və daim müşahidə olunan müsbət dinamikası qorunub saxlanır. Respublikada cinayətkarlıqla mübarizənin müsbət nəticələri, ictimai-siyasi sabitliyin təmini, mənəvi və maddi ziyan vurulmuş yüz minlərlə insanın hüquqlarının qorunması Heydər Əliyevin dövlətçilik kursunun, siyasətinin təntənəsidir.

Müdrik rəhbərimiz Heydər Əliyevin 29 may 1998-ci il tarixli fərmanı ilə iyulun 2-nin Azərbaycan polisi günü elan olunması milli polisin çoxillik tarixi və peşə ənənələrinin davam etdirilməsinə təkan verməklə yanaşı, həm də polis əməkdaşlarının əməyinə, fədakarlığına Ümummilli liderimiz

tərəfindən verilən qiymətin, göstərilən diqqətin qanunauyğun nəticəsidir.

İndi ölkəmiz cəmiyyət həyatının bütün sferalarında əsaslı keyfiyyət dəyişikliklərini özündə təcəssüm etdirən renessans dövrünə qədəm qoymuşdur.

Müharibə şəraitində yaşayan bir ölkədə belə sürətli sosial-iqtisadi inkişafa nail olmaq fenomeni yalnız ölkə rəhbərinin nadir dövlətçilik istedadına, yüksək erudisiyaya, dərin intellektə, tükənməz enerjiyə, unikal idarəçilik keyfiyyətlərinə və qətiyyətli siyasi iradəyə malik olduğu halda mümkündür.

Bu gün hüquq-mühafizə orqanları üzərlərinə düşən məsuliyyəti, dövlət başçısının yüksək etimadını dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa səy göstərirlər. Hüquq-mühafizə orqanlarında aparılan islahatlar, qəbul edilmiş yeni qanunlar və digər qanunvericilik aktları daha fəal və səmərəli fəaliyyətin, qanunların aliliyinin təmin edilməsi uğrunda daha barışmaz və prinsipial mübarizə aparılmasının stimullaşdırıcısı və qarantıdır. Ümummilli liderimiz Heydər Əliyevin **«Vətənimizin işıqlı gələcəyini, cəmiyyətimizin sivil və hüquqi, dövlətmizin isə möhkəm, qüdrətli, sabit dövlət olmasını arzu edən hər bir vətəndaşın və qurumun bu cəmiyyətin formalaşmasında öz töhfəsi, öz əməyi olmalıdır» –** fikri hüquq-mühafizə orqanlarının insan hüquq və azadlıqlarının pozulmasına, cinayətkarlığa qarşı barışmaz mübariz olmağa, insan amili ilə bağlı olan hər bir məsələdə həssaslıq göstərməyə təşviq edir. Hüquq-mühafizə orqanları dövlətimizin əbədi yaşaması, səadəti, rifahı naminə üzərinə götürdüyü ali missiyanı Heydər Əliyev ideallarına layiq şəkildə davam etdirir, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu prosesində qanunla üzərinə düşən bütün vəzifələrin icrası istiqamətində səmərəli fəaliyyət göstərir.

Bu il may ayının 10-da müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin 85 illiyi tamam olur. Martın 11-də Möhtərəm Prezidentimiz İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin 85 illik yubileyi haqqında Sərəncam imzalamışdır.

Belə bir sərəncamın imzalanması ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısındakı xidmətlərinə xalq və dövlət başçısı səviyyəsində verilən ən yüksək qiymətdir.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin ulu öndərimiz Heydər Əliyevin 85 illiyi haqqında imzaladığı fərmanda deyilir: **«Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra, xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar etmişdir. Onun təkidli istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtarmış, qanunçuluğu bərpa etmiş və cəmiyyəti vahid məfkurə ətrafında birləşdirmişdir. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq özünün əsl xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş günü kimi yazmışdır».**

Oxuculara təqdim edilən bu kitaba ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyunundan sonrakı dövrlərdə müstəqil dövlətimizin qorunub saxlanılması, ölkəmizdə insan hüquq və azadlıqlarının həyata keçirilməsi istiqamətində gördüyü işlər, eləcə də hüquq-mühafizə orqanları ilə keçirdiyi çoxsaylı görüşlərin, söhbətlərin mətnləri daxil edilmişdir. Ulu öndərimizin böyük siyasətə yenidən qayıdışından sonrakı illərin hər günü, hər saatı, hər dəqiqəsi xalqımızın bu gününə və sabahına, dövlət müstəqilliyimizin zərrə-zərrə qorunub sax-

lanılmasına, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına həsr edilmişdir.

XX əsr Azərbaycan tarixinin ən yaddaqalan siması olan Heydər Əliyevin qeyri-adi irsi olduqca zəngin və əhatəlidir. Çünki bu irs siyasi baxımdan yetkin, dövlətçilik baxımından şərəfli, ideoloji baxımdan zəngin, millətimizin gələcəyi baxımından isə nurlu və işıqlıdır.

İllər keçdikcə, artıq bəşəri sərvətə çevrilən bu irsin əhəmiyyətini daha çox dərk edir, sehrinə daha çox düşür, Vətəni necə sevmək, xalqa necə xidmət etmək nümunəsi olan şəxsi həyatını və fəaliyyətini örnək kimi qəbul edirsən. «Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram», – deyən ümummilli liderimiz Heydər Əliyev məhz xalq üçün yaratdığı dəyərlərdə, ondan həyat dərsi, millətə, dövlətə sevgi nümunəsi, siyasi mədəniyyət əxz etmiş milyonların xatirəsində yaşayır və əbədi yaşayacaqdır.

**Xanlar VƏLİYEV,**
**ədliyyə general-leytenantı,**
**hüquq elmləri namizədi**

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA ÇIXIŞ

***15 iyun 1993-cü il***

Hörmətli millət vəkilləri, hörmətli prezident!

Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Mən burada böyük bir nitq söyləmək niyyətində deyiləm. Yalnız bir neçə kəlmə mütləq deməliyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərki-

binə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək. Keçmiş Sovetlər ittifaqının bərpa olunması, Azərbaycan Respublikasının da ora daxil olması ehtimalı haqqında bəzi şayiələr, fikirlər gəzir. Bunlar xülyadır. Mən bu fikirləri rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını bu fikirləri rədd etməyə dəvət edirəm.

Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əmin-amanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır. Ona görə də bu məsələ əsas məsələlərdən biridir. Bundan sonra da bu məsələlər Ali Məclisin diqqət mərkəzində olmalıdır. Sizi bu barədə tam əmin edirəm.

Dünən elan olunan Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Türkiyənin təşəbbüsü nəticəsində imzalanmış sənəd bizim müharibə şəraitindən tədricən çıxmağımız üçün ilk addımdır. Yəqin ki, bu sahədə gələcəkdə daha da güclü tədbirlər görülməlidir ki, Azərbaycan Respublikası bütün ərazisinin sahibi olsun və bizim xalqımız müharibə şəraitindən çıxa bilsin.

Beləliklə, Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsip-

ləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir sənə bundan öncə başladığı yola davam etməlidir. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam.

İndi bizim respublikanın gərgin vəziyyətdə olmasının əsas səbəblərindən biri iyun ayının 4-də Gəncədə baş vermiş hadisələrdir. Hadisələr dəhşətlidir, qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmişlər hansı tərəfdən asılı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdır. Bu məsələ ilə deputat-istintaq komissiyası məşğul olur. Biz isə gərək tezliklə yaranmış gərginliyi aradan qaldıraq. Dünən prezident Əbülfəz Elçibəylə danışıqlarımız olub, Gəncədə də mən danışıqlar aparmışam, mənimlə gedən şəxslərlə və təkbətək. Ona görə mən güman edirəm ki, bizim bütün səylərimiz bu gərginliyi aradan götürməyi, bu qarşıdurmanı aradan götürməyi təmin edə biləcəkdir. Ancaq demişəm, bir də deyirəm: heç vəchlə silah işlədilməsinin tərəfdarı ola bilmərəm. Bu gərginlik, qarşıdurma ancaq sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır. Güman edirəm ki, bizim xalqımızın müdrikliyi, nüfuzlu adamların, Azərbaycanın ziyalılarının, Azərbaycanın ağsaqqallarının hamısının bir yerdə səyi və bizim hamımızın bir yerdə çalışmamız şühbəsiz ki, bunları təmin edə biləcək.

Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nüma-

yiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil demokratik bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi ənənələrimiz, həm dini mənbəyimiz olan islam dini hamısı birlikdə çox böyük əsas yaradır. Vəzifəmiz bundan ibarətdir ki, bunlardan səmərəli istifadə edək.

Azərbaycanda gərginlik bir tək Qarabağ problemi ilə, yəni Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar olan səbəblərdən deyil. İndi Gəncə hadisələri baş verdi. Təəssüf ki, gərginliyi yaradan səbəblərdən biri də Azərbaycanda uzun illər bir yerdə yaşayan millətlər, etnik qruplar arasındakı münasibətlərin bir qədər pozulmasıdır. Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu bizim əsas vəzifələrimizdən biridir. Güman edirəm ki, biz buna nail olacağıq.

Xarici siyasət sahəsində keçən bir il müddətində çox iş görülüb. Ancaq görüləsi işlər daha da çoxdur. Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal müna-

sibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır. Keçmiş Sovetlər ittifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə – Ukrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüzilliklərlə çox yaxın olub. Bunları qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir.

Azərbaycan Respublikası artıq ümumdünya miqyasına çıxıbdır. Azərbaycan Respublikasına Amerika Birləşmiş Ştatları tərəfindən son zamanlar müsbət münasibətlər hamımızı sevindirir və güman edirəm ki, bu münasibətlər daha da genişlənib inkişaf etdirilməlidir. Bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Xüsusən İngiltərə, Fransa, Almaniya və başqa Avropa ölkələri ilə. Bütün müsəlman ölkələri ilə, ərəb ölkələri ilə, türkdilli ölkələrlə bizim əlaqələrimiz daha da sürətlə inkişaf etməlidir. Bir sözlə, sadəcə olaraq, xarici siyasət sahəsində öz mövqeyimi bildirmək istəyirəm. Ali Sovetin sədri kimi bu istiqamətdə fəaliyyət göstərəcəm, bizim prezidentimizin fəaliy-

yətinin, Ali Sovetin, hökumətin fəaliyyətinin uğurlu olması yolunda çalışacağam.

Ancaq bunların hamısından ümdə indi Gəncədə baş vermiş hadisələri, bununla əmələ gəlmiş gərginliyi aradan götürməkdən ibarətdir. Mən burada Milli Məclisin iclasında, bu tribunadan üzümü bütün Azərbaycan vətəndaşlarına tuturam, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tuturam və müraciət edirəm və bildirirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Bizim ən böyük çətinliyimiz, bir də deyirəm, işğal olunan torpaqlarımızı geri qaytarıb Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməkdən ibarətdir. Ona görə bütün daxili iğtişaşlar, daxili didişmələr kənara qoyulmalıdır. Mən müraciət edirəm bütün Azərbaycan xalqına, mən Gəncə əhalisinə, Azərbaycan Respublikasının deputatı Surət Hüseynova müraciət edirəm, onun silahdaşlarına müraciət edirəm və onların hamısını müdrikliyə, insani münasibətlərə dəvət edirəm. Bizim respublikamızın indi buna çox böyük ehtiyacı var və onlar da bilməlidir, bütün xalq da bilməlidir ki, indi biz hamımız bir olmalıyıq. Azərbaycanın bu faciəli dövründə biz böyük fəlakət qarşısındayıq. Bu dövrdə bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ya ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir. Hamı kin-küdurəti kənara qoymalıdır, hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq. Güman edirəm ki, Gəncə əhalisi, Gəncənin ətrafındakı rayonlarda yaşayan insanlar mənim bu səsimi eşidəcəklər, buna səs verəcəklər. Surət Hüseynov mənim bu səsimi eşidəcək, özünü müdrik aparacaq və biz bu bəladan tamamilə qurtara biləcəyik. Mən sizin hamınızı da bu sahədə fəaliyyət göstərməyə, birləşməyə dəvət edirəm. Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq lazımdır, xırda dedi-qodunu kənara qoymaq la-

zımdır, bunların vaxtı gələr. Kimin kiminlə nə haqq-hesabı var, sonra edər. İndi bunun vaxtı deyil.

Bununla əlaqədar olaraq bir məsələyə də toxunmaq istəyirəm. Bəzi dairələrdə mənim haqqımda belə söhbətlər gedir ki, Heydər Əliyev əgər yenidən Azərbaycanda bir vəzifəyə gələrsə, kimdənsə qisas alacaq. Kimsə onun əleyhinə vaxtilə olub, yaxud kimsə ona pis münasibət göstərib, ona qarşı pis münasibət göstərəcək. Mən sizin qarşınızda tam məsuliyyətlə deyirəm və bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qisasçılıq hissiyyatı yoxdur. Bunu, sadəcə olaraq, ayrı-ayrı adamlar süni surətdə yaradıblar və görsənir ki, bir mənə ləkə vurmaq üçün yox, ümumiyyətlə, bizi parçalamaq üçün. Sizə söz verirəm ki, heç vaxt qisasçılıq hissiyyatına qapılmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam. Mən özümü o hisslərin səviyyəsinə heç vaxt salmamışam və salmayacağam. Ona görə yox ki, siz mənə indi etimad göstərdiniz, mən belə bir vəzifəyə gəldim. Yox. Mən sadəcə bir vətəndaş kimi də heç vaxt heç kəslə ədavət aparmaq, qisas almaq, yaxud da ki, kiməsə pislik etmək istəməmişəm və istəməyəcəyəm. Ancaq vəzifə çərçivəsində, şübhəsiz ki, biz hamımız nizam-intizama tabe olmalıyıq, biz hamımız qanuna tabe olmalıyıq, biz hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolda şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm.

Güman edirəm ki, Ali Sovetlə, Azərbaycan prezidenti Əbülfəz Elçibəylə birlikdə, hamımız birlikdə biz bu vəziyyətdən çıxa biləcəyik. Sizin hamınızı bu yolda birliyə dəvət edirəm. Sağ olun.

**İ.İbrahimov:** Heydər bəy, ...Sizin Ali Sovetin sədri olmağınız vəziyyətdən çıxmaq üçün bizə – bir millət vəkili

kimi mənə və mənim yoldaşlarıma, bütünlükdə Azərbaycan xalqına qarant verə bilərsiniz, yoxsa yox?

**H.Əliyev:** Mən qeyd etdim, bir də bildirmək istəyirəm ki, Gəncədə vəziyyət həddindən artıq gərgindir. Bu məsələlərin həll olunması böyük səylər tələb edir. Ona görə də mən indi Gəncədəki vəziyyət haqqında, apardığım danışıqların məzmunu haqqında məlumat verməyi məsləhət görmürəm. Mən Gəncədən qayıdan kimi dərhal Azərbaycan prezidenti Əbülfəz Elçibəyin yanında olmuşam, bir neçə saat bütün məlumatları Əbülfəz Elçibəyə vermişəm. Əgər mən bu işə, bir də qeyd edirəm, öz vicdanımın tələbi ilə və ən çox Azərbaycan Respublikasının əhalisinin cürbəcür təbəqələrinin nümayəndələrinin təkidi və tələbi ilə, Azərbaycan prezidenti Əbülfəz Elçibəyin xahişi ilə cəlb olunmuşamsa, demək mən burda, bu işlərin həll olunması üçün bütün imkanlarımdan istifadə edəcəyəm. Bu barədə heç kəsin şübhəsi olmasın. Burada bu məsələnin müzakirəsində cürbəcür sözlər deyib, bu məsələnin ayrı-ayrı istiqamətlərə yönəldilməsi məndə çox ciddi narazılıq doğurur. Mən Naxçıvandan bura özüm gəlməmişəm. Məni bura dəvət eləyiblər, məndən dəfələrlə İsa Qəmbər, Pənah Hüseynov və Azərbaycanın prezidenti Əbülfəz Elçibəy xahiş eləyiblər ki, gəlim burda bir vəzifə tutum, bərabər bu məsələlərin həll olunmasında iştirak edim. Neçə gündür ki, mənimlə danışıqlar gedir. Mən bu vəzifələrdən imtina etmişəm. Bu gün də imtina edirəm. Ona görə də mən hiddətlənirəm ki, bəzi adamlar, on gündür ki, Azərbaycan bərbad vəziyyətdədir, barmaq-barmağa vurmayıblar, Azərbaycandan kənarda gəzirlər, kabinetlərdə cürbəcür işlərlə məşğul olurlar, indi də başlayıblar işarə verməyə ki, kimsə kreslo tutmaq istəyir. Mən heç bir kreslo tutmaq istəmirəm, heç bir vəzifə tutmaq istəmirəm. 1991-ci ilin fevral ayında bu salonda, bu tribunadan çıxış edərkən demişdim.

"Mən Azərbaycana xalqımla bir yerdə olmaq və xalqımın bu ağır günündə ona kömək olmaq üçün respublikaya qayıtmışam". Onda məni qəbul etmədilər. Ondan sonra da dəfələrlə demişəm. Mən heç bir vəzifə tutmaq iddiasında deyiləm. Bu gün də deyirəm. Bu dəqiqə burdan çıxıb gedə bilərəm. Ancaq bəzi adamların heç bir iş görmədən zalda oturub bu ağır vəziyyətdə məsələni mürəkkəbləşdirməsi məni hiddətləndirir. Mən heç kəsə heç bir qarantiya vermirəm, mən özümü peyğəmbər hesab etmirəm. Fəqət, bu ağır vəziyyətdən çıxmaq üçün, vətəndaş kimi, Ali Sovetin deputatı kimi, Ali Sovetin sədrinin müavini kimi, əgər etimad göstərsəniz, baxmayaraq ki, mən bunu istəmirəm, Ali Sovetin sədri kimi fəaliyyət göstərməyə hazıram. Mən bu yola ancaq xalqın ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur. Burda danışan adamların bəziləri ancaq məqsəd üçün bura gəliblər. Ona görə də mən heç kəsə heç bir qarantiya vermirəm. Ancaq hesab edirəm ki, Azərbaycan xalqı müdrik xalqdır. Millətimizdə böyük potensial var, hamını birləşdirib, bu vəziyyətdən çıxmaq olar.

# BAKIDA ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ ÇIXIŞ

*24 avqust 1993-cü il*

Azərbaycan Respublikası, xalq, Azərbaycan vətəndaşları ağır günlər keçirirlər. Bunun səbəbləri məlumdur. Azərbaycan müharibə vəziyyətindədir. Müharibədə buraxılan səhvlər, günahlar nəticəsində biz bəzi yerlərdə məğlubiyyətə uğrayırıq, insanlar həlak olur, didərgin düşür, kəndlərimiz əldən gedir və bu, son illərdə Azərbaycanın həyatının adi bir amili olmuşdur. Bəziləri buna biganədir, bəziləri belə vəziyyətə sanki öyrəşmişlər, ancaq bütünlükdə xalq isə, şübhəsiz ki, bundan əziyyət çəkir, çox böyük çətinliklərə məruz qalır.

Bu sahədə görülən tədbirlər və aparılan işlər hələlik öz nəticəsini vermir. Bunun əsas səbəblərindən biri son illərdə Azərbaycanın müdafiə qüdrətinin yaradılmaması, ordunun lazımi səviyyədə olmaması, son bir il-ilyarım ərzində isə yox dərəcəsində olması və eyni zamanda respublikanın daxilində ayrı-ayrı qüvvələrin olmasıdır. Onların bəziləri özlərini siyasi qüvvə adlandırır, bəziləri isə adicə mafioz qruplar, qüvvələrdir. Hər biri öz şəxsi niyyətlərinə, məqsədlərinə nail olmaq üçün, şəxsi mənfəət naminə Azərbaycanın ağır şəraitini daha da ağırlaşdırır, təxribatlar aparır.

Mən indi bu məsələləri təhlil etmək fikrində deyiləm. Tam həqiqətdir ki, Azərbaycanda əvvəlki dövrlərdə olduğu kimi, indi də cəbhə bölgələrində böyük təxribat işləri aparılır. Xüsusən son vaxtlarda Azərbaycanın daxilində siyasi gərginlik artdığına görə, ayrı-ayrı qüvvələr bir-birinə qarşı durduğuna görə və bəzi şəxslər, bəzi qruplar xalq

qarşısında tamamilə ifşa olunduqlarına görə təxribat əməllərini daha da genişləndirmişlər. Onlar həmin əməlləri gizlətmək üçün, çirkin niyyətlərinə nail olmaqdan ötrü xalqı, milləti, torpağı qana bulamağa, torpağı satmağa, xalqa xəyanət etməyə nəinki hazırdırlar, hətta bunu həyata keçirirlər.

Güman edirəm ki, bugünkü həyatımız, gələcək günlər, illər xalqın indiki dövrdə olan vəziyyətinə tam qiymət verəcək və hər bir şəxs tutduğu vəzifədən, yaxud siyasi mənsubiyyətindən asılı olmayaraq, xalqın qarşısında cavab verəcəkdir. Birbaşa olmasa da, tarix hərənin qiymətini özünə verəcəkdir. Eyni zamanda sizə bildirmək istəyirəm ki, Azərbaycan xalqının qüdrəti də var, imkanı da var. Azərbaycan xalqı və onun qabaqcıl, işıqlı fikirli adamları, xalqa sədaqətli övladları, xalq üçün ürəyi yanan şəxsləri birləşərək Azərbaycanı bu ağır vəziyyətdən çıxaracaqlar.

Təxribatçılar, Azərbaycanın bu ağır günündən öz şəxsi mənafeləri üçün istifadə edənlər heç də düşünməsinlər ki, öz məqsədlərinə nail olacaqlar. Xeyr, belə olmayacaq. Mən dəfələrlə qeyd etmişəm və yenə təkrar edə bilərəm ki, Azərbaycan xalqı öz tarixində çox ağır dövrlər yaşamışdır. Lakin bütün sınaqlardan çıxaraq mənliyini, xəlqiliyini, azərbaycanlılığını, müsəlmanlığını itirməmişdir və heç vaxt da itirməyəcəkdir.

Güman edirəm ki, qara günün ömrü az olacaq, xalqımız ağ günlərə çıxacaq. İnanıram ki, xalqımızda bu qüdrət, bu imkan, bu potensial var, sadəcə olaraq, hamımız birləşib bunlardan istifadə etməliyik, bunları hərəkətə gətirməliyik.

Son dövrün ən əcaib hadisələrindən və Azərbaycanda gərginliyi ağırlaşdıran hallardan biri də Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar rayonlarında bir neçə aydan bəri baş vermiş proseslər və orada Əlikram Hümbətovun, onun ətrafında olan quldur, cinayətkar,

xəyanətkar adamların– Azərbaycanın ayrı-ayrı dairələrindən, təkcə Azərbaycanda yox, ondan kənarda olan, ona xəyanət edən şəxslər tərəfindən dəstəklənən bu qrupların, bu dəstənin həmin bölgədə apardıqları cinayətkar işlər, qanunsuz hərəkətlərdir.

Əgər bu, sadəcə olaraq, o bölgədə cinayətkarlıqla, qanunsuzluqla bitmiş olsaydı, bəlkə də Azərbaycanın ümumi həyatına və bu gününə o qədər də mənfi təsir göstərə bilməzdi. Ancaq iş burasındadır ki, həmin bu cinayətkar dəstələr, qruplar – Əlikram Hümbətov və onu dəstəkləyən adamlar orada Azərbaycanın ordu hissəsinin bir qismini əlində saxlayaraq onların cəbhəyə göndərilməsinin qarşısını alırlar. Ordumuzun hərbi texnikasının, silahlarının böyük bir qismi onların əlindədir. Həmin hərbi hissələrdən ayrı-ayrı bölmələr, dəstələr döyüş bölgələrində vuruşurlarsa, onları Əlikram Hümbətovun dəstəsi, onun batalyonu adlandırırlar. Belə çıxır ki, həmin qüvvələr onun göstərişi ilə geri çəkilməli, irəli getməli, cəbhə bölgəsini tərk etməlidirlər.

Belə hallar adətə çevrilmişdir və bəzi adamlar, xüsusən indi respublikanın rəhbərliyində olan adamlar da hesab edirlər ki, belə də olar. Çünki təəssüf ki, son illərdə Azərbaycanın müdafiəsi ordunun əlində olmamışdır, ayrı-ayrı silahlı dəstələrin, qrupların, ayrı-ayrı mafioz qruplara mənsub olan silahlı dəstələrin əlində olmuşdur. Biri bunlara könüllü dəstəsi deyir, biri Xalq Cəbhəsinin batalyonu deyir, biri, nə bilim, kiminsə şəxsi dəstəsi deyir. Bu cür dəstələr Vətəni, torpağı müdafiə etmək əvəzinə öz şəxsi mənafelərini güdmüşlər. Onlar Azərbaycanı nə günə salmışlar, nə dəhşətli vəziyyətə salmışlar – indi hamıya aydındır, hamının gözü qarşısındadır.

Ona görə də Lənkəranda və onun ətrafındakı rayonlarda gedən proseslər Azərbaycan ictimaiyyətini, respubli-

kanın dövlət orqanlarını - həm Ali Soveti, həm də bütün başqa dövlət orqanlarını narahat etməyə bilməzdi. Ancaq bu məsələnin bəzi adamların təklifi ilə guya sülh, danışıq yolu ilə həll olunması fikrini qəbul edərək çox vaxt itirdik. Bu müddətdə bəzi adamlar bizə vəd edirdilər ki, məsələ sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunacaqdır. Həmin dövrdə isə bu adamlara imkan yaranırdı, bəlkə də bu adamların özləri də imkan yaratdılar ki, Əlikram və onun ətrafındakı cinayətkar adamlar daha da quduzlaşsınlar, cinayətkar hərəkətlərini yerinə yetirə bilsinlər və eyni zamanda siyasi pərdə altında - "Talış-Muğan Respublikası" yaratmaq, beləliklə, Azərbaycanı parçalamaq, talışköklü Azərbaycan vətəndaşlarını respublikanın başqa hissəsinə qarşı qoymaq kimi hallara əl atdılar. Bu məsələlərin hamısı sizə məlumdur.

Nəhayət, avqustun 16-17-də bu salonda Milli Məclisin iclasında həmin məsələlər geniş müzakirə olunaraq qərar qəbul edilmişdir. Ona görə də bu proseslərin mənbəyi, başlanğıcı və necə deyərlər, aparıcı qüvvələri, onları dəstəkləyənlər, ilham verənlər, bu xəyanətkar, cinayətkar yola sövq edən adamlar artıq məlumdurlar. Bir neçəsinin adı çəkilib, bəzilərinin adları ola bilər, sonra çəkiləcəkdir. Onların adları məlumdur, ona görə də sizin vaxtınızı almaq istəmirəm. Ancaq onu bildirmək istəyirəm ki, avqustun 17-də Milli Məclis iki günlük müzakirədən sonra Lənkəranda va onun ətrafındakı rayonlarda baş verən hadisələrə, Əlikram Hümbətovun özünün və onun silahlı dəstələrinin cinayətkarlıqlarına, ümumiyyətlə, orada gedən proseslərə öz münasibətini bildirərək bu barədə qəti qərar qəbul etdi. Qərar artıq məlumdur. Baş nazir Surət Hüseynova tapşırıldı ki, bu qərarın üç gün müddətində həyata keçirilməsi təmin olunsun.

Təəssüf ki, bu qərarın yerinə yetirilməsi təmin olunmadı. Qərar qəbul edildikdən sonra Lənkəranda və onun ətrafındakı rayonlarda əhali, xalq Azərbaycanın dövlət orqanlarının bu hadisələrə, proseslərə münasibətini tam bildikdən sonra ayağa qalxdı, öz hüquqlarını müdafiə etməyə çalışdı, cinayətkar, qanunsuz hərəkətlərə qarşı etirazını bildirməyə başladı. Beləliklə də bu qərarımızın ilk təsiri çox müsbət oldu. Əlikram Hümbətov və onun ətrafında olan adamlar müəyyən qədər anladılar ki, dövlətlə, xalqla mübarizə aparmaları, yaxud da dövlətə qarşı təcavüz etmələri artıq mümkün deyildir. Onlar özlərinin fəaliyyət çərçivəsini yavaş-yavaş dağıtdılar və güman etmək olardı ki, əgər bizim qərarımız qətiyyətlə yerinə yetirilsəydi və lazımi şəxslər, tapşırılmış şəxslər bununla məşğul olsaydılar, bəlkə də qərar tezliklə həyata keçirilər, cinayətkarlıq, qanunsuzluq hallarına son qoyar və bu bölgədə sabitliyi təmin edə bilərdik.

Lakin təəssüf ki, belə olmadı. Avqustun 19-da Gəncədə baş nazir Surət Hüseynov bir müşavirə keçirdi. Əlikram Hümbətov da oraya dəvət olundu, təmtəraqla qəbul edildi. Bundan sonra isə Əlikram Hümbətov Lənkərana qayıdaraq orada televiziya ilə böyük təbliğat apardı - həm özü, həm də ətrafında olan adamlar çıxış etdilər. Gəncədə onların dəstəkləndiklərini, onlarla həmrəy olduqlarını bildirdilər. Beləliklə də onlarda yeni bir canlanma başlandı. Xalqa qarşı təcavüzü nəinki davam etdirməyə, hətta gücləndirməyə başladılar.

Biz yenə də bu məsələlərə təmkinli, səbrli yanaşdıq. Çalışdıq adamları başa salaq ki, belə qanunsuz hərəkətlərin, xalqa, konstitusiyaya zidd hərəkətlərin axırı yoxdur. Ancaq buna nail ola bilmədik. Fəqət, Lənkəran şəhəri və rayonunun, Astara, Masallı, Cəlilabad, Yardımlı, Biləsuvar, Lerik rayonlarının əhalisi ayağa qalxdı, öz hüquqlarını

müdafiə etməyə çalışdı. Adamlar Əlikram Hümbətovun bu çirkin əməllərinə qarşı etirazlarını açıq, cəsarətlə bildirdilər və bu, orada mitinqlər keçirilməsi ilə başlandı. Srağagün Lənkəran şəhərində böyük mitinq oldu. Bu barədə mən dünən xalqa müraciətimdə məlumat vermişəm, vaxtınızı alıb təkrar etmək istəmirəm. Həmin mitinqdə minlərlə lənkəranlı Əlikram Hümbətovu xəyanətkar, cinayətkar, satqın adam kimi qiymətləndirdi. Onu aradan təcrid etməyə çalışdılar. O, silah işlətmək istədi, lakin bunu edə bilmədi. Beləliklə də xalq müəyyən qədər öz təzyiqini göstərərək, Əlikram Hümbətova sübut etdi ki, onun əlində nə qədər çox silah olsa da, ətrafında cinayətkar, quldur dəstə olsa da, xalqın qarşısında dura bilməz. Həm Əlikram, həm də onu dəstəkləyən adamlar yəqin ki, bunu hiss etdilər. Ancaq Əlikram və onun dəstələri xalqa təcavüz etmək, ona qarşı silah işlətmək yoluna düşdülər.

Biz əhalinin bu hərəkətini şübhəsiz ki, bəyəndik və bildirdik ki, siz düzgün hərəkət etmisiniz. Bizim başqa yolumuz yoxdur. Bu proseslər bir neçə aydır ki, davam edir. Təəssüf ki, əvvəllər, yəni iyun ayına qədər Azərbaycana rəhbərlik etmiş şəxslər - Azərbaycan prezidenti Əbülfəz Elçibəy, respublika parlamenti, Milli Məclis və onun rəhbərləri, Nazirlər Kabineti Əlikram Hümbətovun, onu dəstəkləyən Rəhim Qazıyevin və başqalarının hərəkətlərinə qiymət verməmişdilər, bu məsələdə barışdırıcı, yaxud da passiv mövqe tutmuşdular.

Sonrakı dövrdə isə – mən bunu açıq demək istəyirəm, - xüsusən iyun ayının sonundan hadisələr başlayan dövrdən baş nazir Surət Hüseynov bu məsələni öz üzərinə götürmüşdür və Əlikram Hümbətovla yaxın əlaqələri olduğuna görə bu məsələnin sülh yolu ilə həll olunmasını boynuna almışdır. Biz ona inanaraq belə hesab etmişdik ki, onsuz da daxilimizdə ağır proseslər çoxdur, sərhəd bölgələrində mü-

haribə gedir, qan tökülür. Ona görə də burada güc işlətmək, silah tətbiq etmək, qan tökmək lazım deyil. Baş nazir bu məsələni həll etməyə söz vermişdir və qoy həll etsin. Lakin bilirsiniz ki, baş nazirin avqustun 3-də Lənkərana getməsi də bir nəticə vermədi. Sizə bildirdiyim kimi, avqustun 12-də Əlikram Hümbətovla, baş nazir Surət Hüseynovla birlikdə bizim apardığımız danışıqların da nəticəsi olmadı. Avqustun 13-də geniş müşavirə keçirdik. Ondan da bir nəticə hasil olmadı. Nəhayət, avqustun 16-da bu məsələni Milli Məclisin müzakirəsinə çıxardıq.

Sizə bildirmək istəyirəm ki, əgər iyun ayına qədər Azərbaycanın dövlət başçıları bu məsələyə nədənsə, - səbəbini özləri izah edərlər - toxunmayıblarsa, biganə qalıblarsa və o bölgədə xalqın, əhalinin hüquqlarının pozulmasına lazımi qiymət verməyiblərsə, əgər biz də iyun ayının axırlarından son vaxtlara qədər bu işlərdə müəyyən dərəcədə barışdırıcı mövqedə olmuşuqsa - baş nazir Surət Hüseynovun verdiyi vədlərə görə - beləliklə biz, ümumiyyətlə, vaxt itirmişik, bu dövrdə isə Əlikram Hümbətov və onun tərəfdarları bu vaxtdan, bu fürsətdən istifadə edib, həm öz cinayətkar hərəkətlərinin dairəsini genişləndiriblər, həm də bu məsələni cinayətkarlıq, quldurluq, mafiozluq istiqamətindən və məzmunundan artıq müəyyən qədər millətlərarası münaqişə həddinə, yaxud da ki, qondarma "Talış-Muğan Respublikası" yaratmaq həddinə gətirib çıxarıblar.

Həm Milli Məclisdə, həm də avqust ayının 13-də keçirdiyimiz müşavirədə bəzi iradlar tutublar ki, Azərbaycan Respublikası rəhbərlərinin, dövlət orqanlarının mövqeyi məlum olmadığına görə xalq da çaş-baş qalmışdır. Bəli, bu iradlar haqlıdır, ola bilər bu, bizim də müəyyən qədər günahımızdır. Biz günahımızı boynumuza almağa hazırıq. Ancaq mən sizə proseslərin gedişini, mərhələlərini izah

edərkən, yəqin ki, siz və bizi eşidənlərin hamısı bu günahlarımızın o qədər də böyük olmadığını dərk edərlər.

Qeyd etdiyim kimi, biz Milli Məclisdə bu məsələni iki gün ciddi müzakirə etdik, ciddi qərar qəbul etdik. Lakin sonra fikir belə oldu ki, bu qərarın elan olunması hələ dayandırılsın, çünki Əlikram Hümbətovla əlavə danışıqlar aparılacaqdır. Bu danışıqlar Gəncədə aparıldı, ancaq nəinki müsbət nəticə vermədi, hətta daha mənfi hallara gətirib çıxardı və belə bir halda, srağagün Lənkəranda xalq ayağa qalxdığı dövrdə Əlikram Hümbətov yenə silahdan, gücdən istifadə etməyə çalışdı. Xalq isə öz iradəsini göstərdi və srağagün Lənkəranda və onun ətrafında olan rayonlarda Əlikram Hümbətova bildirdi ki, xalq, əhali bu qanunsuz hərəkətlərə, cinayətkar hallara daha yol verməyəcəkdir.

Dünən səhərdən vəziyyət daha da gərginləşdi. Dünən səhər bizə məlumat gəldi ki, Lənkəranın əhalisi toplaşıb Əlikram Hümbətova öz etirazını bildirir, ondan tələb edir ki, bütün bu əməllərindən əl çəksin, silahları yerə qoysun. Əhali, yəni oraya toplaşan minlərlə adam bizim icra hakimi təyin etdiyimiz Dilrubə Camalovanı İcra Hakimiyyətinin binasına gətirmişdir. Əlikram Hümbətov isə xalqın təzyiqinə dözə bilməyib qaçmış, ancaq yenə də öz cinayətkar, quduz hərəkətlərini davam etdirmişdir.

O, meydanda dinc əhaliyə, əliyalın silahsız adamlara atəş açmış, onları qorxutmağa çalışmış, əhali isə bundan qorxmamış və çəkinməmişdir.

Dünən vəziyyət böhran halına gəlib çatdı. Ona görə də biz milli təhlükəsizlik naziri Nəriman İmranovu, daxili işlər naziri Vaqif Novruzovu, daxili işlər və milli təhlükəsizlik orqanlarının bir qrup işçisini vertolyotlarla Lənkərana göndərdik.

Orada vəziyyət çox gərgin olduğuna görə mən dünən Azərbaycan televiziyası ilə xalqa müraciət etməyə məcbur

oldum. Bu müraciət də sizə məlumdur. Dünən bizə gələn məlumatlardan, telefon zənglərindən, teleqramlardan və ümumi ictimai rəydən məlum olur ki, bu müraciəti xalq çoxdan gözləyirmiş. Müraciət ümumən bəyənilir, xalq tərəfindən rəğbətlə qarşılanıb, xalqda canlanma və böyük ümid yaradıbdır ki, Azərbaycanda daha hakimiyyətsizlik yoxdur, dövlət orqanları fəaliyyətdədir və respublikanın bu ağır dövründə Azərbaycan dövlətçiliyini qoruyub saxlamağa iqtidarı var və bundan sonra da olacaqdır. Mən dünəndən indiyə qədər bu müraciətimizə müsbət əks-səda verən bütün şəxslərə, kollektivlərə, bütün əhaliyə minnətdarlığımı bildirirəm. Onların bizimlə həmrəy olması gücümüzü artırır, bizə daha da ürək-dirək verir, iradəmizi daha da möhkəmləndirir. Hamını əmin etmək istəyirəm ki, biz bu yoldan çəkinməyəcəyik, Azərbaycanın dövlətçiliyini, müstəqilliyini qoruyacağıq və respublikanın parçalanmasına yol verməyəcəyik.

Dünən Lənkəranda gedən proseslər faciə ilə qurtarmışdır. Əhali, xalq Əlikram Hümbətovun və onun cinayətkar dəstəsinin əleyhinə qalxdığı vaxtda Əlikram Hümbətov qaçıb gizləndi. Onu axtardılar. Bir məlumat gəldi ki, o, meşələrə qaçıb; bir məlumat gəldi ki, başqa yerlərə qaçıb. Sonra isə ora gedən nümayəndələrimiz məlumat verdilər ki, orada keçmiş Sovet Ordusu diviziyasının qərargahı Əlikram Hümbətovun əlindədir. Bu, xəyanətkar Azərbaycan rəhbərlərinin, keçmiş müdafiə naziri Rəhim Qazıyevin fəaliyyəti nəticəsində olub. Əlikram orada gizlənib. O qərargah böyük hasarla əhatəyə alınmışdır. Silahlı adamlar heç kimi yaxına buraxmırlar, orada gizlənirlər. Əhali qərargahı mühasirəyə almışdır. Dünən bütün gecə səhərə qədər qərargah mühasirədə olmuşdur.

Bir məsələni də sizə çatdırmaq, müdafiə nazirinin müavini Vahid Musayev haqqında məlumat vermək istəyi-

rəm. Sizə danışdım ki, Rəhim Qazıyev mənim burada işlədiyim ilk günlərdə onun müdafiə naziri təyin olunmasını təkidlə təklif etmişdir. Sizə bildirdim ki, sonra Əlikram Hümbətov mənimlə görüşlərinin ikisində də məhz onun müdafiə naziri təyin olunması barədə öz fikrini söyləmişdir. Əlikram Hümbətovla görüşdüyümüz günün sabahısı baş nazir Surət Hüseynov heç bir səlahiyyəti olmadan, özbaşına gedib Müdafiə Nazirliyində Vahid Musayevi nazir kimi təqdim etmişdir. Biz bunu təkzib etməyə məcbur olduq. Sonra isə Surət Hüseynov mənə belə izahat verdi ki, guya Vahid Musayev Əlikramla çox yaxın adamdır və onun müdafiə naziri kimi təqdim olunmasının əsas səbəbi budur ki, o, Əlikram Hümbətovu tərksilah edəcək və həmin silahlı dəstələri Azərbaycanın Müdafiə Nazirliyinə tabe edəcəkdir.

Şübhəsiz ki, mən belə səbatsız hərəkətlərlə razılaşa bilməzdim. Mən buna yol vermədim. Ancaq sonra Vahid Musayev bir neçə şəxsə müraciət etmişdir ki, Heydər Əliyev məni qəbul etsin. Mən onu qəbul edəndə söhbətimiz zamanı həm Rəhim Qazıyevin, həm də Surət Hüseynovun haqqında mənfi sözlər danışdı və bildirdi ki, guya çox saf niyyətli bir adamdır. Ancaq mən dedim ki, bunlar məni maraqlandırmır. Mən sizi bundan ötrü qəbul etməmişəm. Xahiş etmisiniz ki, sizi qəbul edim. Deyin görüm nə istəyirsiniz? Mənə bildirirlər ki, siz Əlikram Hümbətovla yaxın adamsınız. Siz müdafiə nazirinin müavinisiniz. Görürsünüz ki, neçə aydır bu hərbi hissə Müdafiə Nazirliyinə tabe olmur və cinayətkar işlər görür. Əgər siz həqiqətən onunla yaxın adamsınızsa, gedin ora, bu işləri qurtarın. Bilirsinizmi, iğtişaşı, bu münaqişəni dərinləşdirmək bizə lazım deyil. Biz bunların üstündən keçib getməliyik ki, ümumi işimizi təmin edək. Gedin, bu məsələni həll edin.

O mənə dedi ki, anladım, gedib məsələni həll edəcəyəm. Mən isə bundan sonra heç nə demədim. Dünən Vahid Musayev Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ora göndərilibmiş. Təəssüf ki, o gedib ora gec çatıbdır. Çünki bizim iki nazirimiz - daxili işlər naziri və milli təhlükəsizlik naziri vertolyotlarla gedib ora çatanda bir neçə saat onu arayıb tapa bilməmişlər. Sonra məlum olmuşdur ki, o, Əlikram Hümbətovun yuvasna, gizləndiyi yerə girib, orada olmuşdur. Axşam mənə məlumat verdilər ki, orada Əlikram Hümbətovla danışıqlar aparıb, guya onu yola gətirməyə çalışıb. Ancaq bunların heç birisi nəticə vermədi.

Beləliklə, gecə səhərə qədər bu proseslər davam edib. Əhali dünən bütün günü, axşam, gecə ayaq üstə meydanlarda, o hərbi hissənin ətrafında olub. Bunların hamısı da istənilən nəticəni verməyib. Ancaq bir faciəli nəticə: bu da ondan ibarətdir ki, Əlikram Hümbətovun dəstələri onun göstərişi ilə əliyalın Lənkəran vətəndaşlarına atəş açmışlar. Üç adam həlak olmuş, beş adam yaralanmışdır. Şübhəsiz ki, cani, cinayətkar, xain adamdan başqa şey gözləmək mümkün deyildi. Ancaq bu, təkcə Əlikram Hümbətovun işi deyil. Onu dəstəkləyən Rəhim Qazıyevin, Əlikram Hümbətovla əlaqə saxlayıb onun yanına emissarlar göndərən Ayaz Mütəllibovun, Ayaz Mütəllibovu Azərbaycana hakimiyyətə gətirmək istəyən Əlikram Hümbətovun və onunla əlaqədar olan başqa adamların fəaliyyətinin cinayətkar nəticəsidir. Bu, dəhşətli bir şeydir.

Azərbaycan xalqı beş ildir müharibə içərisindədir, şəhidlər verir. 1990-cı il yanvarın 20-də xalqımıza qarşı hərbi təcavüz olub. Azərbaycan ilk şəhidlərini onda verib. İndi şəhidlər xiyabanı Azərbaycanın həm faciə meydanına, həm də müqəddəs bir meydana dönüb. Ondan sonra Azərbaycanın ərazisinə Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində hər gün, hər ay, hər il şəhidlər verilir.

Bəli, hər bir adamın tələf olması bizim üçün böyük ürək ağrısıdır, matəmdir. Bu, bizim üçün faciədir, ancaq bir tərəfdən yanvarın 20-də xalqımıza qarşı kommunist partiyasının rəhbərliyi tərəfindən hərbi təcavüz olmuşdur, ikinci tərəfdən Ermənistanın silahlı qüvvələri Azərbaycana hərbi təcavüz edirlər. Xalqımız yanvarın 20-də öz milli qüdrətini, milli şərəfini, namusunu qoruyaraq şəhidlər verdi. Cəbhələrdə Azərbaycan xalqı öz torpaqlarını, öz ərazisini, öz müstəqilliyini qoruyaraq şəhidlər verir. İndi isə Lənkəranda bu xəyanətkar adamların - onların adlarını çəkdim və bir çoxlarının da adları çəkiləcək - bunların fəaliyyəti nəticəsində böyük bir cinayət, faciə baş vermişdir. Bizim öz azərbaycanlılarımıza, sülh şəraitində yaşayan, müharibə bölgəsində olmayan azərbaycanlılarımıza atəş açıblar. Bunu öz cinayətkar niyyətlərini həyata keçirmək üçün ediblər. Üç nəfər həlak olub.

Bu, dəhşətli bir haldır. Əlikram Hümbətovun, Rəhim Qazıyevin, Ayaz Mütəllibovun və onları dəstəkləyən adamların əli Azərbaycan xalqının oğullarının həlak olması ilə əlaqədar qana batıb. Bu gün mən onları Azərbaycan xalqı qarşısında xəyanətkar elan edirəm. Şübhəsiz ki, bunlara ədalət məhkəməsi öz qiymətini verəcəkdir. Ancaq mən bir vətəndaş kimi, bir insan kimi, ürəyi qan içində olan bir insan kimi və Azərbaycan dövlətinin başçısı vəzifəsini icra edən adam kimi buna öz mənəvi-siyasi qiymətimi verirəm. Mən hesab edirəm ki, həlak olanlar Azərbaycan Respublikasının dövlətçiliyini müdafiə etmək, onun suverenliyini qorumaq, Azərbaycan Respublikasının müstəqilliyini, bütövlüyünü müdafiə etmək yolunda cinayətkar adamlar tərəfindən, Azərbaycana təcavüz edən adamlar tərəfindən həlak edilmişlər. Onlar millət yolunda, Azərbaycan xalqının gələcək səadəti yolunda həlak olmuşlar.

Həlak olanlar - Bayramov Sultan Nemət oğlu, 1936-cı ildə anadan olmuş, Lənkəran şəhərinin sakinidir, ailəsi var, uşaqları var, hərbi qospitalda rentgen texniki işləmişdir; Əliyev Etibar Böyükağa oğlu, 1953-cü ildə anadan olmuş, dülgərdir, Lənkəran şəhərinin sakinidir, üç övladı var; Təhməzov Paşa Qurban oğlu, 1946-cı ildə anadan olmuş, Əhaliyə Məişət Xidməti idarəsinin işçisidir, Lənkəran şəhərinin sakinidir, ailəsi var, uşaqları var.

Mən rica edirəm, Azərbaycanın bütövlüyü yolunda, müstəqilliyi yolunda həlak olanların xatirəsini yad etmək üçün bir dəqiqə ayağa qalxıb sükut edək. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun.

Bu gün Lənkəran şəhərində Azərbaycanın bütövlüyü yolunda, müstəqilliyi yolunda həlak olanların dəfn mərasimi keçiriləcəkdir. Biz oraya nümayəndə heyəti göndərmişik və nümayəndələrimiz Azərbaycan Respublikasının dövləti adından dəfn mərasimində iştirak edəcəklər. Dünən bu barədə məsləhətləşib belə bir qərara gəlmişik ki, həlak olmuş adamların şücaətini, qəhrəmanlığını yüksək səviyyədə qeyd edək. Mən elan edirəm ki, Azərbaycanın Prezidenti səlahiyyətlərini icra edən şəxs kimi fərmanımla Bayramov Sultan Nemət oğlu, Əliyev Etibar Böyükağa oğlu və Təhməzov Paşa Qurban oğlu Milli Qəhrəman elan olunurlar. Şübhəsiz ki, Azərbaycan dövləti həlak olanların ailələrinə hər cür qayğı və hörmət göstərəcəkdir və güman edirəm ki, Azərbaycan xalqı bu sadə azərbaycanlıların böyük şücaətini heç vaxt unutmayacaqdır. Onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

Orada beş nəfər yaralanıbdır. Onlar müalicə olunurlar. Şübhəsiz ki, indi onların müalicəsi üçün lazımi tədbirlər görülür. Yaralıların özlərinə və ailələrinə qayğı göstəriləcək və lazımi tədbirlər görüləcəkdir. Siz, bütün Azərbaycan əhalisi əmin ola bilər ki, biz Vətən yolunda, xalq yolunda,

Azərbaycanın suverenliyi, bütövlüyü yolunda həlak olan, canını qurban verən, şəhid olan adamların hər birinin şücaətini, qəhrəmanlığını heç vaxt unutmayacağıq. Onlar həmişə, daim xalqın yaddaşında yaşayacaqlar.

Lakin bu faciəyə baxmayaraq, orada səhərə qədər fəaliyyət göstərən inzibati orqanlarımız təəssüf ki, lazımi nəticəyə gələ bilməmişlər. Bizə verilən məlumatlardan belə aydın olur ki, Vahid Musayev guya Əlikramın o quldur yuvasında olaraq, sonra bizim nazirlərlə əlaqə saxlayaraq onun oradan çıxmasını, yəni qan tökülmədən, əlavə hərbi əməliyyat aparılmadan çıxmasını təmin etməyə söz vermiş, əhali qərargahı əhatəyə alıb səhərə qədər mühasirədə saxlamışdır. Guya belə məlum olmuşdur ki, Əlikram Hümbətov gəlib təslim olacaqdır. Lakin bizə verilən məlumatlara görə, o, hamını aldadıb. Səhərə yaxın oradan üç maşın çıxıbdır. Guya bu maşınlar nəzarət altında imiş. Onların birində Əlikram və onun bir-iki nəfər adamı çıxıb qaçıbdır və aldığımız məlumatlara görə, Lənkəranın meşələrində gizlənir. İndi orada axtarışlar gedir.

Əlikram Hümbətov guya ona daim tabe olan silahlı qüvvələri, məsələn, Prişibdə onun bir polku var, onu deyə bilmərəm, ancaq bəzi adamlar bunu bizim beynimizə yeridiblər, - həmin o silahlı qüvvələrin hamısı ondan imtina edibdir. Onun qərargahında, o quldur yuvasında olan əsgərlərin çoxu silahlarını təhvil verib çıxıb, ətrafında olan başqa adamların çoxu ondan imtina edib, uzaqlaşıbdır. Ancaq bir qrup, sayca az da olsa, silahlı adamlar, onunla bilavasitə cinayət etmiş adamlar Əlikramla bərabər qaçıblar (düzdür, onun şəxsi qoruyucuları da, başqaları da tutulubdur). Onlar qaçıblar, indi axtarışlar gedir və güman edirəm ki, oradakı inzibati orqanlarımız və buradan gedən qüvvələr onu axtarıb tapacaqlar və o, ədalət məhkəməsi qarşısında cavab verəcəkdir. Nəinki o, həm də ona hava-

darlıq edənlər, ona istiqamət verənlər - ya Ayaz Mütəllibov olsun, Rəhim Qazıyev olsun, yaxud da ki, başqaları olsun - onun başını sığallayan adamların hamısı cavab verəcəkdir. Buna heç kəsin şübhəsi olmasın.

Dünən bizi qorxudurdular ki, guya Ağcabədi zonasında həmin o hissədən olan batalyonlar var, onlar guya Əlikram Hümbətovun göstərişi ilə döyüş bölgələrini tərk edib çıxırlar. Ancaq, bu yalandır. Orada olan döyüşçülər, əsgərlər, Azərbaycanın övladları öz yerlərindədirlər, fəaliyyət göstərirlər və onların da hamısı Əlikram Hümbətovdan imtina edibdir.

Bunların hamısı onu göstərir ki, Əlikram Hümbətov heç bir kəsdir. Biz bunu dəfələrlə demişik ki, o, ayrı-ayrı qrupların əlində bir alətdir, bir silahdır. Dünən televiziya ilə müraciətimdə bildirdim ki, o, hətta İrana keçmək niyyətində olmuşdur. Mən İran hökumətinə, İranın səfirliyinə xəbərdarlıq elədim. Onlar dedilər ki, siz narahat olmayın, İranda onu heç kəs qəbul edə bilməz. Ancaq belə şayiələr yaranır ki, guya bir tərəfdən onu Moskva dəstəkləyir, nə bilim, kiminsə, haranınsa, agentidir, bir tərəfdən İran dəstəkləyir. Bunların hamısı yalandır. Mən demişəm - nə Rusiya dövləti, nə İran dövləti belə bir quldur adamla təmasda ola bilməzlər.

Ancaq Rəhim Qazıyev kimi, Ayaz Mütəllibov kimi adamlara və onlarla birgə olanlara lazım idi ki, belə bir mif, belə bir əhval-ruhiyyə, camaatda vahimə yaratsınlar, əhalini qorxutsunlar və beləliklə, bizə təzyiq etsinlər. Mən dünən televiziya ilə müraciətimdə dedim. Bir də deyirəm ki, bunların hamısı indi Azərbaycanda vəziyyəti düzəltmək üçün, daxili sabitlik yaratmaq üçün, cəbhələrdə vəziyyəti düzəltmək üçün apardığımız tədbirlərə mane olmaq və şəxsən mənə, Heydər Əliyevə təzyiq göstərmək məqsədi güdür.

Mən dəfələrlə demişəm, bu gün bir daha bəyan edirəm ki, heç bir kəs mənə təzyiq edə bilməz. Mən öz iradəmdən - bu isə xalqın iradəsidir, bir namuslu vətəndaş kimi mənim şəxsi iradəmdir - istifadə edərək Azərbaycanın bu vəziyyətdən çıxması üçün son damla qanıma qədər çalışacağam və heç kəs də məni qorxuda bilməz.

Görürsünüz, iki aydır bizim başımızı aldadırlar ki, Əlikram Hümbətov belə olsa, elə olsa, nə bilim, dünya dağılacaqdır. Heç bir şey olmadı. Düzdür, üç adam canını qurban verdi, şəhid oldu. Ancaq lazımdır ki, o qan Vətəni qoruyarkən tökülsün. Düzdür, bu Azərbaycan övladları Vətəni ermənilərdən, başqa düşmənlərdən qorumaq üçün yox, daxili düşmənlərimizdən qorumaq üçün, Azərbaycanın dövlətçiliyini saxlamaq üçün həlak olublar, şəhid olublar. Bu, Vətənin Vətən olmasını bir daha sübut edir.

Bir daha qeyd edirəm ki, biz qəbul etdiyimiz qərarı həyata keçirəcəyik. İradəmiz möhkəmdir və Azərbaycanda sabitliyi təmin edəcəyik, Azərbaycanı bu ağır vəziyyətdən çıxaracağıq. Kim ki, bu yolda bizə mane olacaq, o bizim düşmənimizdir, xalqımızın düşmənidir. Güman edirəm ki, bu gün bu proseslər başa çatacaqdır. Bir daha qeyd edirəm ki, Əlikram Hümbətov kimi quldurun ətrafında yaranmış mif artıq dağıldı, xalq ona öz münasibətini göstərdi. Lənkəran rayonunun icra hakimi Dilrubə Camalova fəaliyyətdədir. Qadın bir çox kişilərdən, minlərlə kişidən qeyrətli çıxdı. Başqa rayonlara - Astara rayonuna da, Cəlilabad rayonuna da, Biləsuvar rayonuna da icra hakimləri artıq təyin olunubdur. Digər rayonlara da təyin ediləcək. Bu rayonlarda Azərbaycanın qanuni hakimiyyəti dünən, bu gün bərpa olunub və bərpa olunacaqdır. Azərbaycan dövlətini, dövlətçiliyini bütün bölgələrdə təmin etməyə heç kəs mane ola bilməz.

Düzdür, biz heç də belə fikirdə deyilik ki, bunlar asan yolla gedəcək. Müqavimətlər də olacaq. Son vaxtlar yaranmış cürbəcür quldur dəstələri Azərbaycanın bəzi regionlarında cinayətkar işlər görürlər. Məsələn, Yevlaxda bir banda yaranıb, iki dəfə gedib Balakən rayonuna, orada insanlara təcavüz edib və süni olaraq azərbaycanlılarla avarlar arasında qarışıqlıqlar yaradıbdır. O dəstə kimin tərəfindən idarə olunur adamlar bunu da bilirlər. Ancaq orada nə avar, nə də azərbaycanlı bir-birinə qarşı durmayacaqdır. Və heç bir yerdə durmayacaqdır. Azərbaycanda millətlər arasında, etnik qruplar arasında heç kəs münaqişə, yaxud qarşıdurma yarada bilməz. Kimin daxilində belə niyyəti varsa, mən xəbərdarlıq edirəm, çəkilsinlər kənara. Heç kəs münaqişə yarada bilməz. Azərbaycan bütövdür. Azərbaycan xalqı birdir və bu birliklə də biz bu ağır vəziyyətdən çıxacağıq.

Füzuli, Cəbrayıl bölgələrində son günlər vəziyyət çox ağırdır. Bu barədə mən dünən xalqa müraciətimdə qısaca dedim. Biz demək olar ki, gecə-gündüz bu işlərlə məşğuluq, əlimizdən gələn tədbirləri görürük. Mən indi bu məsələləri geniş açmaq istəmirəm. Ancaq təəssüflər olsun ki, dünən də, ondan bir gün qabaq da Füzulidən, Cəbrayıldan gələn məlumatlar göstərir ki, bu torpaqları satan, birinci növbədə, oranın ayrı-ayrı mafioz qüvvələri və həm Cəbrayılda, həm də Füzulidə icra hakimləri olmuşlar. Onlar və onlarla əlaqədar adamlar, bəzən ordu hissəsindən olan adamlar Ermənistanın silahlı dəstələri tərəfindən heç bir hücum olmadan gəlib xalqı qorxudurlar, qaçırdırlar, var-dövlətini qarət edirlər, özləri də çıxıb qaçırlar.

Mən dünən də Ermənistanın rəhbərləri ilə danışıqlar aparmışam. Məcbur olmuşuq, Dağlıq Qarabağın rəhbərləri ilə bizim adamlar danışıqlar aparıblar. Moskva ilə danışıqlar aparmışam. Vəziyyət çox ağırdır, çox böhranlıdır.

Ona görə də bu gün biz xüsusi təyyarə göndərmişik. Rusiya Xarici İşlər Nazirliyinin məsul işçisi, xüsusi tapşırıqlar üzrə səfir Vladimir Nikolayeviç Kazimirovu dəvət eləmişəm. Bu gün o, bizim nümayəndələrlə bərabər Füzuli və Cəbrayıl bölgələrinə gedəcək, orada olan vəziyyəti araşdıracaqlar. Demişəm ora jurnalistlər də getsin, başqa nümayəndələr də gedəcəklər. Güman edirəm ki, biz bu vəziyyətdən də çıxacağıq.

Ancaq təəssüf doğuran budur ki, bizim hissələr o yerlərdən pərakəndə vəziyyətdə çıxırlar, vuruşmurlar, döyüşmürlər. Məsələn, dünən həm Moskva ilə, həm Yerevanla əlaqəyə girmişik, həm də bizim adamlar Xankəndi ilə əlaqəyə giriblər. Deyirlər ki, oranı həm hərbi hissə, həm də camaat qoyub qaçıbdır. Qaraxanbəyli deyilən bir yerdə ermənilərin kəşfiyyat qrupu gəlib görüb ki, bir dənə sağ-salamat tankı, iki dənə zirehli texnikanı, iki-üç maşını başlı-başına buraxıb çıxıb gediblər. Ermənilər də görürlər ki, burada heç kəs yoxdur, bütün bu texnikanı dartıcı maşınlara qoşub öz ərazilərinə aparmaq istəyirlər.

Bax, görün, mən bir fakt deyirəm. Bunları açıb demək istəmirdim. Çünki əhali, zənnimcə, bunların hamısını bilməməlidir. Ancaq biz bu faktların çoxunu bilirik. Dəhşətli vəziyyətdir və bunların hamısını mən dünən də dedim. Biri Rəhim Qazıyevə qulluq edir, biri, nə bilim, Əlisoy batalyonudur, biri Xalq Cəbhəsinə qulluq edir, biri, nə bilim, həmin o Əlikram Hümbətova qulluq edir, biri o birisinə qulluq edir. Təxribat təxribatın içərisindədir.

Bizim Azərbaycan xalqı tarix boyunca yüksək mənəvi keyfiyyətlərə malik xalq olub. İndi də belədir. Mən təxribatları xalqa aid edə bilmərəm. Ancaq bizim ayrı-ayrı azərbaycanlıların bu qədər satqın, bu qədər xəyanətkar, bu qədər ləyaqətsiz olması insanın ürəyini partladır, insanı dəhşətə gətirir. Görün, biz nə qədər ləkələndik. Təkcə ona

görə yox ki, torpaqlarımız əldən gedibdir. Ona görə ki, torpağımıza təcavüz edən ermənilər deyirlər ki, sizin adamlarınız heç biz gəlməmiş çıxıb qaçırlar. Bunu onlar deyirlər.

Füzuli, Cəbrayıl gedib. Neçə nəfər adam ölüb orada, neçə nəfər həlak olub, desinlər. Yoxdur. Ona görə də mən bu məsələni geniş açmağı lazım bilmirəm. Biz gecə yarıya qədər, ola bilsin, səhər saat 4-ə qədər bu məsələlərlə məşğul olmuşuq, müzakirə aparmışıq. Qaçqınlara lazımi yardım göstərmək və o rayonların geri qaytarılmasını, adamların yenidən oraya dönməsini təmin etmək istəyirik. Bu gün nümayəndə heyətimiz Moskvanın nümayəndəsi ilə birlikdə oraya gedəcəkdir. Xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin nümayəndələrini dəvət etmişəm, jurnalistləri də dəvət etmişəm. Vertolyotlarla oraya gedəcəklər. Güman edirəm ki, bir neçə günə bu bölgədə vəziyyəti müəyyən qədər sabitləşdirəcəyik.

Ən nəhayət, bir məsələyə də toxunmaq istəyirəm. Bu gün buraya Məclis üzvləri, xalq deputatları, respublikanın nazirləri və komitə sədrləri, rəhbər işçiləri, rayonların icra başçıları dəvət olunublar. İcra hakimiyyəti başçılarının bəziləri əvvəldən həmin vəzifədə olanlardır. Bəzisi bu qarışıqlıq vaxtı kimlər tərəfindənsə, naməlum adamlar tərəfindən gətirilib qoyulmuş icra başçılarıdır. Bəziləri şəxsən mənim fərmanımla təyin olunmuşlar. Ancaq onların hamısı əgər azərbaycanlıdırsa, hamısında azərbaycanlı qanı vardırsa, fərqi yoxdur, beş ay bundan qabaq təyin olunmuşdur, kimsə onu özbaşına gətirib qoyub, yaxud indi biz onu təyin etmişik - fərqi yoxdur. Əgər doğrudan da, onlar öz xalqını, vətənini azacıq da olsa sevirlərsə, dədə-babalarının qəbirlərinə hörmət edirlərsə, özlərinin bu gününü, övladlarının gələcəyini düşünürlərsə, gərək namuslu olsunlar. Mən onlara müraciət edirəm. Onlar bu gün gərək mənəviyyatca yüksəlsinlər, gərək

bütün çirkin əməllərindən əl çəksinlər, bu gün gərək ümumxalq mənafeyindən çıxış etsinlər. Rica edirəm sizdən, şəxsi ambisiyalarınızı kənara qoyun, şəxsi instinktlərinizi, şəxsi mənafelərinizi, şəxsi məqsədlərinizi kənara qoyun, düşünün, Azərbaycan Respublikasının dövlətçiliyi təhlükə altındadır. Uzun illərdən, əsrlərdən bəri Azərbaycan dünyada müstəqil dövlət kimi tanınmışdır. İndi bu, təhlükə altındadır. Azərbaycanın ərazi bütövlüyü təhlükə altındadır. Düşünün bunu, fikirləşin və anlayın ki, hər biriniz məsuliyyət daşıyırsınız. Mən hamınıza deyirəm. Birinci növbədə xalqın qarşısında, öz ailəniz, qohum-əqrəbanız, övladlarınız, ata-babalarınızın ruhu qarşısında məsuliyyət daşıyırsınız. Müstəqil Azərbaycan dövləti qarşısında məsuliyyət daşıyırsınız. Ona görə də bu gün hər biriniz öz iş yerinizdə bu məsuliyyət hissi ilə işləməlisiniz, çalışmalısınız.

İndi bizim qarşımızda iki vəzifə durur. Birincisi, erməni təcavüzünün qarşısını almaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq, xalqı bu qırğından qurtarmaq. İkincisi isə Azərbaycanın daxilində sabitliyi təmin etmək, bu çəkişmədən qurtarmaq, xalqı bu çəkişmədən yaranan əziyyətdən xilas etmək lazımdır. Bu vəzifələri yerinə yetirmək üçün sizin hamınıza müraciət edirəm, bütün Azərbaycan xalqına müraciət edirəm: Düşünün, anlayın, ayılın. Bilin ki, Azərbaycan xalqı bir xalq kimi bundan sonra nəinki yaşamalıdır, daha da qüdrətlənməli, daha da inkişaf etməlidir. Müstəqil Azərbaycan Respublikası hələ tutmamış qatıqdır. O gərək bərkisin, möhkəmlənsin, gərək öz qüdrətini toplayaraq daxili potensialından öz xalqının rifahı üçün istifadə edib, müstəqil dövlət kimi gələcək nəsillərə bizdən yadigar olsun. Gələcək nəsillərimiz daim azad, müstəqil, öz milli ənənələrinə, tarixi ənənələrinə sədaqətli olaraq yaşaya bilsinlər. Xahiş edirəm, düşünün,

fikirləşin. Bütün sahələrdə hər şey sizin fəaliyyətinizdən asılıdır. Əgər bundan sonra müvəffəqiyyətləriniz də olsa, bunlar hamımızın - sizin və bizim müvəffəqiyyətlərimiz olacaqdır. Uğursuzluqlarımız da olsa, heç kəs özünü kənara çəkə bilməz. Ona görə də sizə müraciət edirəm, bütün Azərbaycan xalqına müraciət edirəm və güman edirəm ki, xalq, insan daxili gücünü, iradəsini həmişə ağır dövrlərdə büruzə verir.

Biz, yəni Azərbaycan xalqı böyük imtahan içindəyik və bu imtahandan ləyaqətlə çıxmalıyıq. Hər bir azərbaycanlı, əgər onun qəlbində doğrudan da azərbaycanlı hissiyyatı varsa, nəbzi Azərbaycan xalqının ümumi nəbzi ilə həmahəng vurursa, bu yolla getməlidir.

Ümid edirəm ki, xalqımızın, buraya toplaşmış rəhbər işçilərimizin əksəriyyəti məhz belə düşünürlər, məhz bu istiqamətdə hərəkət edirlər və belə də hərəkət edəcəklər.

Bu baxımdan qarşımızda bir siyasi problem də durur. Ayın 29-da Azərbaycanın prezidenti Əbülfəz Elçibəyə münasibət barədə ümumxalq referendumu keçiriləcək. Siz bilirsiniz, artıq hamıya aydındır ki, iyunun 17-dən 18-nə keçən gecə Azərbaycanın prezidenti Əbülfəz Elçibəy Bakını tərk edib və iki aydan artıqdır ki, Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndində yaşayır. Şübhəsiz ki, bu, Əbülfəz Elçibəyin öz işidir. Əlbəttə, indi onun hərəkətlərinə qiymət vermək olar, lakin biz cavabdeh deyilik. Ancaq xalq tərəfindən seçilmiş adam öz eqoizmini gərək xalqın mənafeyindən yüksək tutmayaydı. Mən Əbülfəz Elçibəyə o vaxt telefonla da dedim ki, əgər siz xalqın təəssübünü çəkirsinizsə, xalqın içində olmalısınız. Əgər həlak olsaydınız da bir qəhrəman kimi həlak olacaqdınız. Ancaq gedib kənddə gizlənməklə və deməklə ki, mən hələ prezidentəm, prezident olaraq qalacağam - bundan sonra prezident olmaq mümkün deyil.

Mən bununla deməmk istəmirəm ki, xalq öz iradəsini istədiyi kimi bildirməsin. Ancaq xalq da başa düşməlidir: əgər prezident iki aydan artıqdır ki, Azərbaycandan uzaqlaşıbsa, deməli, xalq bilməlidir ki, onun dövründə buraxılan səhvlər, günahlar, Azərbaycanın bu vəziyyətə düşməsi, ordumuzun belə bərbad vəziyyətdə olması - bunun əsas günahkarı Rəhim Qazıyevdirsə, onunla yanaşı həm də Azərbaycanın rəhbərləri, o cümlədən Azərbaycan prezidenti günahkardır. Təkcə bu prezident deyil, ondan əvvəlki prezident də günahkardır. Bunlar hamısı məlum şeylərdir. Ona görə də güman edirəm ki, bu referendum layiqli səviyyədə keçməlidir.

Bilirsiniz ki, bu salonda Milli Məclisin üzvlərinin bir çoxu, bəlkə də əksəriyyəti bu məsələ müzakirə olunarkən dəfələrlə təklif edib ki, Azərbaycan Konstitusiyasının 121-ci maddəsinin 6-7-ci bəndlərinə əsasən, Əbülfəz Elçibəy prezidentlik vəzifəsini həyata keçirə bilmədiyinə görə parlamentin onu bu vəzifədən kənar etməyə ixtiyarı var. Bu həqiqətdir, parlamentin belə hüququ var. Bu təkliflər əsaslı təkliflər olmuşdur. Fəqət bilirsiniz ki, mən bu təklifin qəbul olunmasına yol vermədim. Təkcə ona görə ki, istədim hər şey demokratik şəkildə olsun, xalqın iradəsi ilə olsun. Yada salmaq istəyirəm ki, 1992-ci il iyunun 7-də Əbülfəz Elçibəy xalq tərəfindən prezident seçilmişdir. 1992-ci il iyunun 17-də Əbülfəz Elçibəy bu salonda Qurana, Azərbaycanın Konstitusiyasına and içib ki, prezident vəzifəsini ləyaqətlə yerinə yetirəcəkdir. 1993-cü il iyun ayının 17-də, düz bir il sonra, Əbülfəz Elçibəy bu vəzifəni ataraq qaçıb Kələki kəndində gizlənmişdir.

İndi xalq qoy özü desin: Nə olmalıdır, nə etməliyik? Əgər xalq yenə də bu vəziyyətdə yaşamaq istəyirsə, öz fikrini bildirsin. Yaxud başqa vəziyyətdə yaşamaq istəyir-

sə, yenə də fikrini bildirsin. Mən bu sözlərimlə nə xalqa, nə də ayrı-ayrı seçicilərə heç bir təsir və təzyiq göstərmək istəmirəm. Mən ancaq vəziyyəti danışıram və demək istəyirəm ki, iki aydan artıqdır prezident yoxdur, mən həm Azərbaycan parlamentinin sədri vəzifəsindəyəm, həm də Azərbaycan prezidentinin səlahiyyətini həyata keçirirəm. Bu iki vəzifəni eyni vaxtda aparmaq mənə nə qədər ağır da olsa, mən bunu aparıram və nə qədər ki, xalq mənə etimad göstərir, o vaxtadək aparacağam. Ancaq Azərbaycan xalqını, bu böyüklükdə Azərbaycan Respublikasını, müstəqil Azərbaycan dövlətini şəxsi ambisiyalara görə, eqoizm əhval-ruhiyyəsindən irəli gələn fikirlərə görə artıq bu vəziyyətdə saxlamaq olmaz. Əgər xalqa Əbülfəz Elçibəy lazımdırsa, desinlər, gəlsin otursun burada. Əgər lazım deyilsə - yəqin ki, bunu əksəriyyət hiss etmişdir, mən də bu fikirdəyəm, Əbülfəz Elçibəy bir il müddətində də sübut etmişdir ki, o prezidentlik edə bilmir və Azərbaycanın bu ağır vəziyyətində də kənddə oturmaqla prezidentlik etmək olmaz - öz münasibətini bildirsin.

Ancaq mən yenə deyirəm, bütün işlər demokratik əsaslarla getməlidir. Biz xarici ölkələrdən müşahidəçilər dəvət etmişik. Seçki komissiyaları düzgün işləməlidir. Buraya icra hakimiyyətinin başçıları, şəhər və rayon seçki komissiyalarının sədrləri, bir çox rayonların ictimai təşkilatlarının rəhbərləri, siyasi partiyaların, təşkilatların, inzibati orqanların nümayəndələri dəvət olunublar. Tam demokratik şəkildə, tam aşkarlıq şəraitində ölçün-biçin. Eyni zamanda, bir şey hamı üçün hər şeydən üstün olmalıdır: Azərbaycanın bugünkü ağır vəziyyəti, bu günü və gələcəyi, onun müqəddəratı, Azərbaycan xalqının bu ağır vəziyyətdən çıxması. Ona görə də bütün icra hakimiyyəti başçılarından, rayon, şəhər sovetlərinin sədrlərindən,

Azərbaycanın rəhbər işçilərindən, seçki komissiyaları üzvlərinin hamısından xahiş edirik - vaxt azdır, baş qarışıqdır, qarşıya hər gün yeni məsələlər çıxır, adi məsələləri həll etməyimizə imkan vermir - qalan günlərdə bu işi daha yaxşı təşkil etmək lazımdır. Avqustun 29-da referendum keçirilməlidir. Azərbaycan xalqı gərək öz gələcək müqəddəratını həll etsin. Onun müqəddəratı öz əlindədir, öz sözündən asılıdır. Mənim sizə müraciətim ondan ibarətdir ki, bu günlərdə referendumun hazırlanmasını, keçirilməsini lazımi, layiqli səviyyədə təşkil edəsiniz, demokratik prinsiplər əsasında düzgün aparasınız və düşünəsiniz ki, ayın 29-da Azərbaycan üçün yeni bir mərhələ açılır. Biz bu iki aydan artıq dövrü çox ağır vəziyyətdə, həddindən artıq ağır vəziyyətdə keçirmişik. Ancaq əgər ayın 29-da biz bu məsələni düzgün, doğru, demokratik şəkildə həll edə bilməsək, daha da ağır ola bilər.

Mən yenə də deyirəm: baxmayaraq ki, referenduma yarım milyard rubl pul xərclənmişdir, baxmayaraq ki, bu ağır vəziyyətimizdə həm mərkəzdə, həm də yerlərdə olduqca çox adamlar bu işə cəlb olunublar, yəni belə vəziyyətimizdə adamlar daha zəruri işlərlə məşğul olmaq əvəzinə referenduma hazırlaşırlar, seçki komissiyalarında işləyirlər, bülletenlər hazırlayırlar, yazırlar, pozurlar, vətəndaşlara dəvətnamələr göndərirlər və sairə - təsəvvür edin ki, bu Azərbaycana nə qədər zərər vurur - ancaq biz bunların hamısına dözürük, xalq da dözür. Şəxsən mən də parlamentin sədri kimi buna razı olmuşam ki, heç kəs deməsin burada demokratiyaya zidd bir şey olub. Ancaq indi o Kələki kəndində Əbülfəz Elçibəyin özünün qəlbində, doğrudan da, Azərbaycan xalqının dərdi olsaydı, o imkan verməzdi ki, biz bu vəziyyətə düşək. O, birillik fəaliyyəti ilə xalqı gətirib bu vəziyyətə saldı. İndi də iki aydan artıqdır ki, qaçıb Kələki

kəndində gizlənib, Azərbaycan xalqını bu vəziyyətə gətirib. Təsəvvür edin, axı bir adam nədir ki, ondan ötrü xalq bu vəziyyətə düşsün. Ola bilər, mənim bu sözlərimi indi Əbülfəz Elçibəy də eşidir, yaxşı olardı ki, eşitsin. Mən ona bir insan kimi həmişə hörmət etmişəm, hörmət edirəm. Ancaq o bilməlidir ki, öz şəxsi ambisiyası ilə xalqı bu vəziyyətə salmamalıdır.

Referendum keçirilməlidir. Yolun çox hissəsini keçmişik, azı qalıb. Bu gün ayın 24-dür, dörd gündən sonra, avqustun 29-da referendumdur. Xalq öz sözünü deməlidir. Xalq necə yaşamaq istəyirsə, qoy desin, əgər indiyə qədərki kimi, bundan da pis yaşamaq istəyirsə, qoy desin. Əgər xalq doğrudan da ağır vəziyyətdən xilas olmaq istəyirsə, qoy onu da desin.

Nəhayət, bütün bu məlumatları sizə verərək, öz fikirlərimlə sizi tanış edərək, sizinlə bölüşərək bir daha bildirmək istəyirəm: Azərbaycanın bu vəziyyətdən çıxmağa imkanı var, Azərbaycan dövlətçiliyi qorunacaqdır, Azərbaycan xalqının hüquqları qorunacaqdır. Biz - mən öz adımdan deyirəm, həm Azərbaycan parlamentinin sədri, həm də prezidentin səlahiyyətini həyata keçirən adam kimi deyirəm ki, ətrafımda olan adamlarla birlikdə biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik. Bilin ki, qəti ciddi addımlar atacağıq, Azərbaycanda - həm Bakıda, həm də bütün başqa bölgələrdə - şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə sabitlik yaratmağa çalışacağıq, cinayətkarlarla mübarizəni gücləndirəcəyik, Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa qadirik və çıxaracağıq. Buna əmin ola bilərsiniz. Mənim dünənki müraciətimdən sonra əhalidən, xalqdan aldığım həmrəylik hissləri mənə daha çox güc verir. İnanın ki, mənim gücüm daha da artıb və bilin ki, mən bunun hamısını Azərbaycanı bu vəziyyətdən çıxarmağa sərf edəcəyəm. Buna heç kimin şübhəsi

olmasın. Mən xalqa müraciət edərək sizin qarşınızda deyirəm ki, bəli, biz xalqı bu ağır vəziyyətdən çıxaracaq, sabitlik yaradacağıq.

Lənkəranda yaranmış həmin o mif haqqındakı fikir dünən, bu gün pozuldu və gördünüz ki, bizi qəti addımlar atmağa qoymurdular. Qəti addım atan kimi bu, öz nəticəsini verdi. Düzdür, şəhidlər də verdik, ancaq Azərbaycanın müstəqilliyi yolunda biz çox şəhidlər vermişik. Ola bilər, bundan sonra da verək, Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, Azərbaycan Respublikasının bütövlüyü hər bir adamın həyatından qat-qat yüksəkdir, mənim də həyatımdan yüksəkdir. Mən də müstəqil Azərbaycanın dövlətçiliyini, suverenliyini, bütövlüyünü qorumaq üçün həyatımı qurban verməyə hazıram. Sizə söz verirəm və güman edirəm ki, hamımız birlikdə bu vəziyyətdən çıxa biləcəyik.

Sizə çatdırmaq istədiyim sözləri dedim. Bilmirəm, müzakirəyə, çıxışlara ehtiyac varmı? (Salondan səslər: Yoxdur). Əgər məsələ aydındırsa, vəzifələr aydındırsa, onda bəlkə vaxt itirməyək. Nəriman İmranov Lənkərandan səhər tezdən çıxıb. Mən müşavirəni bir qədər ləngitdim ki, dedim bəlkə o, daha geniş məlumat verə bilər. Ancaq mən oradan aldığım məlumatlar əsasında ümumi vəziyyəti sizə çatdırdım.

Bu gün canlı yayım gedir, bütün xalq bunu eşidir. Əlavə məlumatlar televiziya ilə verilər. Ona görə də gəlin bununla görüşümüzü qurtaraq. Mən indi dövlət başçısı vəzifəsini icra edən adam kimi sizin hamınıza ümid bəsləyirəm. Xalq gözünü bu salona dikib, bizə dikib və gələcək günlərimizin müqəddəratı bizim hamımızın birliyindən, ümumi iradəmizdən asılıdır. Hamınıza cansağlığı, işinizdə müvəffəqiyyət, uğurlar arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*20 sentyabr 1993-cü il*

Hörmətli zabitlər, Daxili İşlər Nazirliyinin əməkdaşları, polis işçiləri! Azərbaycan Respublikası öz tarixinin ağır mərhələsini keçirir. Bu mərhələnin nə qədər ağır, məsuliyyətli, çətin olduğu aydındır və əsas səbəbləri də məlumdur. Bildiyiniz kimi, beş ildən artıqdır ki, Azərbaycan Respublikası Ermənistanın silahlı qüvvələri tərəfindən hərbi təcavüzə məruz qalmış və nəticədə torpaqlarımızın bir qismi işğal olunmuş, şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz dağılıb viran olunmuş, yüz minlərlə həmvətənimiz, vətəndaşımız qaçqın düşmüşdür.

Son dövrdə Azərbaycan böyük sosial-iqtisadi, ictimai-siyasi böhran içərisindədir. Şübhəsiz ki, bu böhranın əsas səbəblərindən biri Azərbaycanın beş ildən artıq bir müddətdə müharibə vəziyyətində olması, eyni zamanda, son illərdə onun həm ictimai-siyasi, həm də sosial-iqtisadi həyatında özündən asılı olan və olmayan mütəmadi dəyişikliklərdir. Bunların hamısı Azərbaycan Respublikasını çox ağır vəziyyətə salmışdır. Şübhəsiz ki, bu ağır vəziyyət respublika vətəndaşlarının həyat tərzini gərginləşdirmiş, çətinləşdirmiş və respublikada ümumi gərgin bir vəziyyət yaratmışdır.

Eyni zamanda, son dövrün ən əlamətdar hadisəsi ondan ibarətdir ki, Azərbaycan Respublikası müstəqil dövlət olmuşdur. Azərbaycan xalqı indi artıq öz həyatını müstəqil dövlət çərçivəsində, öz arzu və niyyətləri əsasında qurmaq imkanına malik olmuşdur. Beləliklə, bir tərəfdən Azərbaycan müstəqil dövlət kimi böyük imkanlar əldə edibsə, ikinci tərəfdən bu imkanlardan istifadə etmək həddindən artıq çətinləşmiş və

ağırlaşmışdır. Ona görə də indi Azərbaycan Respublikasının hər bir vətəndaşı qarşısında, Vətənini sevən, ona xidmət etmək istəyən hər kəs qarşısında böyük və məsuliyyətli vəzifələr durur.

Azərbaycan Respublikasının müstəqil dövlət olması tarixi bir hadisədir. Biz, Azərbaycanın indiki nəsli, bu imkanlardan bütün sahələrdə səmərəli istifadə etməliyik. Bunun üçün çox iş görülməlidir. Təəssüf ki, Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra – əslində bu, az vaxt deyil, - müstəqilliyi möhkəmləndirmək, daimi etmək, müstəqillik əsasında respublikada həm siyasi-iqtisadi sistemi, həm cəmiyyəti tənzimləmək məsələləri çox axsayıb, hətta demək olar ki, həyata keçirilməyib və bu dövr Azərbaycan xalqı üçün daha da ağır, əziyyətli dövr olmuşdur.

Azərbaycan Respublikasının dövlət atributlarından biri də Azərbaycanın ordusu ilə yanaşı, Daxili İşlər Nazirliyidir, bu nazirliyin sistemində olan idarələr və qoşun hissələridir, polis orqanlarıdır. Məlumdur ki, hər bir müstəqil dövlət bir neçə böyük sütun üstündə fəaliyyət göstərə bilir. Hər bir dövlət üçün, o cümlədən müstəqil Azərbaycan dövləti üçün bu sütunlardan biri Daxili İşlər Nazirliyi, polis orqanlarıdır.

Daxili İşlər Nazirliyinin, polis orqanlarının vəzifəsi sizin üçün aydındır. Ancaq mən bir də qeyd etmək istəyirəm ki, Azərbaycanın müstəqilliyini təmin etmək üçün, Azərbaycanda müstəqil dövlət prinsiplərini həyata keçirmək üçün, müstəqil dövlətin bütün imkanlarından respublika vətəndaşlarının istənilən səviyyədə bəhrələnməsi üçün daxili işlər orqanlarının, polis orqanlarının fəaliyyətindən çox şey asılıdır. Ona görə də biz Azərbaycan Dövlətinin müstəqilliyini təmin etmək, bu müstəqillikdən günü-gündən səmərəli istifadə etmək üçün daxili işlər orqanlarının, polis orqanlarının işinə xüsusi fikir veririk. Güman edirik ki, daxili işlər orqanlarında çalışan əməkdaşlar bunu hiss edirlər və hiss etməlidirlər, öz məsuliy-

yətlərini dərk edərək bu tələblər səviyyəsində fəaliyyət göstərməlidirlər.

Azərbaycanın iqtisadi, elmi, mədəni, intellektual potensialı ilə yanaşı, daxili işlər orqanları sistemi sahəsində də böyük potensialı vardır. Qeyd etdim ki, müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onlardan biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi orqanları, polis orqanlarıdır. Əgər keçmiş dövrdə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu, müstəqil olmadığı bir dövrdə onun müstəqil ordusu yox idisə, müstəqil xarici siyasət yeritmirdisə, Azərbaycanın Daxili İşlər Nazirliyi daim fəaliyyət göstərib, polis orqanları (o vaxt buna milis orqanları deyirdik) daim fəaliyyətdə olub. Keçmiş dövrə nəzər salsaq, 70 il ərzində sovetlər birliyinin daxilində yaşayan Azərbaycan Respublikası bu müddətdə bacarıqlı, yüksək imkanlı daxili işlər orqanları yaradıb inkişaf etdirə bilmişdir. Yəni bu sahədə bizim işimiz tam sıfırdan başlamır, boş yerdən başlamır. Bu sahədə bizim böyük potensialımız var, mühüm təməl qoyulubdur. Nəinki təməl, böyük bir orqan vardır.

Bəziləri belə hesab edirlər ki, Sovet İttifaqı vaxtında mövcud olan bütün orqanlar indi yaramır və təzədən yeni orqanlar, yeni strukturlar yaranmalıdır. Mən bu fikirlə heç cür razı ola bilmərəm. Bu, nəinki yanlış fikirdir, həm də Azərbaycan Respublikasının milli mənafeyinə, onun müstəqilliyinə zidd fikirdir. Bu fikir bir tərəfdən təəccüb, bir tərəfdən isə təəssüf doğurur. Amma eyni zamanda, təəccüblənməli də deyil, çünki bu fikri söyləyənlər, bu iddiada olanlar həm siyasi, həm də dövlət təcrübəsi olmayan adamlardır. Onlar heç bir dövlət sistemində işləməmişlər, heç bir siyasi fəaliyyəti, heç bir təcrübəsi olmadan böyük vəzifələrə gələrkən hesab edirdilər ki, hər yerdə belə adamlar işləyə bilərlər. Xeyr.

Əgər biz indi Azərbaycanın qüdrətli ordusunu yaratmaq istəyiriksə, bu ordu yalnız və yalnız təcrübəli, bilikli, səriştəli,

hərbi təhsilə malik olan zabitlər, hərbi qulluqçular tərəfindən yarana bilər. Hərbi işi bilməyən, hərbi təhsili olmayan, hərbi qulluqda olmayan adamlar qüdrətli, layiqli ordu yarada bilməzlər. Eləcə də polis orqanları. Polis xüsusi bir peşədir. Dünyanın bütün ölkələrində belədir. Adamlar polis peşəsinə anadangəlmə malik olmurlar. Yəni heç kim anadan polis kimi doğulmur. Bunun üçün xüsusi təhsil almaq, pillə-pillə keçib təcrübə toplamaq lazımdır. İş prosesində cürbəcür vəziyyətlərə düşüb, bu vəziyyətlərdən çıxış yolları axtarmaq, vərdiş qazanmaq lazımdır.

Polis peşəsi ağır peşədir. O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir. Bunların hamısı bir yerdə cəmləşməsə, biz layiqli polis nəfərlərinə, zabitlərinə, işçilərinə malik ola bilmərik. Bunlar da olmasa, polis orqanları Azərbaycanın müstəqilliyini təmin edən böyük bir orqan kimi lazımi səviyyədə fəaliyyət göstərə bilməz.

Bir sözlə demək istəyirəm, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük kadr potensialı, maddi-texniki bazası vardır, xüsusi əməliyyatlar aparmaq üçün lazımi səviyyədə təchizatı vardır. Bunların hamısı illər, on illər ərzində yaranan imkanlardır və daxili işlər orqanlarının ümumi potensialıdır. Təəssüf ki, bu potensialı qoruyub saxlamaq, ondan səmərəli istifadə etmək əvəzinə, müstəqillik qazanandan sonra onu dünyanın başqa ölkələrində olan təcrübə ilə zənginləşdirmək əvəzinə, son illərdə cürbəcür polis orqanlarının başçıları və onları dəstəkləyən Azərbaycan Respublikasının rəhbərləri bu potensialı dağıtmaq, polis orqanlarını, daxili işlər orqanlarını loru dillə desək, bazara çevirmək fikrində olublar. Çox təəssüf ki, buna müəyyən qədər nail olublar.

Ancaq mən güman edirəm ki, bizim daxili işlər orqanlarında, polis orqanlarında illər boyu yaradılmış potensial o qədər möhkəmdir ki, belə adamlar onu dağıda bilməzdilər. Düz-

dür, zərər vurublar – həm mənəvi, həm də maddi zərər vurublar. Düzdür, insanların bir hissəsinin beyinlərini zəhərləyiblər, onların psixologiyasını korlayıblar – bunların hamısı göz qabağındadır, – ancaq yaranmış potensialı dağıda bilməyiblər və bunu dağıtmağa onların heç gücü də çatmazdı.

Ona görə də mən sizin qarşınızda çıxış edərək bildirmək istəyirəm ki, Azərbaycanın dövlət orqanları, rəhbərlik Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, polis orqanlarının, onun qoşun hissələrinin illər boyu yaratdığı böyük potensialı yüksək qiymətləndirirlər. Bu potensialın əsasını peşə hazırlığı olan bilikli kadrlarımız təşkil edir. Biz onların biliyini, bacarığını, peşə hazırlığı keyfiyyətlərini yüksək qiymətləndiririk. Biz Daxili İşlər Nazirliyinin bütün şəxsi heyətinə, onun kadr, maddi-texniki, həm də xüsusi işlər üçün mövcud olan potensialına güvənirik, bel bağlayırıq və güman edirik ki, bunların hamısından Azərbaycanın müstəqilliyini təmin etmək, respublika daxilində ictimai-siyasi vəziyyəti tənzimləmək və normallaşdırmaq üçün səmərəli istifadə olunacaqdır.

Son illərdə daxili işlər orqanlarına çox böyük zərbələr vurulub. Bu zərbələrdən ən ağırı odur ki, daxili işlər orqanlarının tərkibi müəyyən qədər – bu söz nə qədər kəskin olsa da, mən onu işlətməliyəm – zibillənibdir. Daxili işlər orqanları, polis orqanları ayrı-ayrı səriştəsiz, ləyaqətsiz adamlar, böyük vəzifələr tutmuş adamlar tərəfindən siyasətə cəlb olunub, burada əcaib proseslər meydana çıxıb, hətta inkişaf tapıb.

Dünyanın heç bir ölkəsində, o cümlədən demokratiya nöqteyi-nəzərindən, dövlətçilik baxımından ən inkişaf etmiş ölkələrdə polis orqanları siyasətə qoşulmur, siyasətdən kənarda durur, heç bir siyasi tədbirdə, siyasi proseslərdə iştirak edə bilməz. Onlar dövlətə xidmət edir, dövlətin möhkəmlənməsinə, dövlət orqanlarının fəaliyyətinin təmin olunmasına xidmət edirlər. Bu, Amerikada da belədir. İngiltərədə də, Fransada da, Türkiyədə də, İranda da və başqa ölkələrdə də belədir.

Lakin yadınıza salın, bu binanın divarları içərisində nə kimi çirkin əhval-ruhiyyə, hallar meydana çıxdı. Buraya gəlmiş, polis işini bilməyən adam, peşə hazırlığı olmayan adam və mənəviyyatca pozğun mövqelərdə duran adamlar burada cürbəcür təşkilatlar yaradıb – «Boz qurd» təşkilatı, «Boz qurd» fəxri adı... Bu bina, bu orqan Azərbaycanda dövləti qorumaq əvəzinə, dövlətə xidmət etmək, ictimai asayişi qorumaq, cinayətkarlığa qarşı mübarizə aparmaq əvəzinə bəzən cinayətkarlar yuvasına döndü, burada cürbəcür siyasi proseslər və sizə deyə bilərəm ki, çox primitiv səviyyədə, mədəniyyətdən kənar səviyyədə siyasi proseslər meydana çıxdı. Təəssüf ki, Azərbaycanın o vaxt ümumi mühiti elə idi ki, onlar bizim informasiya orqanları tərəfindən təbliğ edilirdi, hətta bəzi adamlar tərəfindən böyük ruh yüksəkliyi ilə qəbul olunurdu. Şübhəsiz ki, onlar da elə o səviyyədə olan adamlar idi.

Mən Türkiyənin dövlət rəhbərləri ilə dəfələrlə söhbət aparmışam. «Boz qurd» ümumiyyətlə Türkiyədə meydana gəlmiş bir hərəkatdır. Şübhəsiz ki, biz demokratik prinsiplərə riayət edərək heç bir ictimai-siyasi hərəkatın meydana gəlməsinə etiraz etməmişik və etiraz etmirik. Ancaq «Boz qurd»un məkanı, vətəni olan Türkiyədə heç vaxt polis «Boz qurd»a qoşulmayıbdır. Polis orqanlarında «Boz qurd» heç bir fəaliyyət göstərməyibdir. İndi görün nə qədər iyrənc, dəhşətli və gülməli haldır ki, burada daxili işlər naziri özbaşına belə bir fəxri ad müəyyənləşdirib. Yaxşı polis işçisinin ən yüksək fəxri adı «Boz qurd» adı idi. Bu, nə qədər əcaibdir!

Yaxud Azərbaycanda ən yüksək poliqrafik səviyyədə cürbəcür qəzetlər çıxırdı. Ancaq mənaca, məzmunca yox, şəkillərinə görə, poliqrafiya icrasına görə yüksək səviyyədə. Bu da, şübhəsiz, xüsusi məsrəf, yəni xüsusi vəsait tələb edir. Belə bir qəzet, «Boz qurd» qəzeti bu binada çıxırdı. Əgər polisin işinə, Daxili İşlər Nazirliyinin fəaliyyətinə aid problemləri işıqlandırmaq lazım idisə, nazirlik daxili qəzet də çıxara

bilər. Vaxtı ilə Daxili İşlər Nazirliyində belə qəzet çıxırdı, indi, şübhəsiz ki, ondan da yüksək səviyyədə qəzet buraxmaq olar. Amma «Boz qurd» qəzeti çıxarıblar, bir nömrədə beş yerdə daxili işlər nazirinin şəklini verib, yaxud da cürbəcür belə iyrənc işlərlə məşğul olublar. Peşəkar polis işçilərini dağıdıb, polisdən heç bir məlumatı olmayan cürbəcür adamları buraya toplayıb insanlara əziyyət vermək, adamları incitmək, vətəndaşları, cəmiyyəti belə ağır vəziyyətə salmaq nəyə yarayar! Ola bilərmi ki, daxili işlər naziri həm nazir vəzifəsini yerinə yetirsin, həm də gedib mitinqlərdə çıxış etsin? Bu, hansı demokratiya qanunlarına uyğundur, hansı dövlət qanunlarına uyğundur? Bunların hamısı yaramaz hallardır.

Mən bu məsələlərin üzərində çox dayanmaq istəmirəm. Çünki bunlar nə qədər böyük zərbə, öz mahiyyətinə görə nə qədər çirkin olsa da, polis orqanlarına, daxili işlər orqanlarına nə qədər ləkə vurmuş olsa da, indi bu barədə çox danışmağa layiq məsələlər deyildir. Mən bunları deməklə münasibətimizi bildirmək və qeyd etmək istəyirəm ki, Azərbaycanın müstəqilliyi və Azərbaycan dövlətinin özü güclü Daxili İşlər Nazirliyi, güclü polis orqanları ilə təmin olunmalıdır. Azərbaycanın dövlət rəhbərliyi belə bir orqanın yaranması və inkişaf etməsi üçün səy göstərəcəkdir. Bu sizdən də çox asılı olacaqdır. Şübhəsiz ki, biz Daxili İşlər Nazirliyinin, polis orqanlarının qanun çərçivəsində tam fəaliyyət göstərməsi üçün şərait və imkanlar yaradacağıq. Ancaq Daxili İşlər Nazirliyi orqanları, onun qoşun hissələri, polis orqanları bu imkanlardan qanun çərçivəsində, dövlət mənafeyinə, Azərbaycanın milli mənafeyinə, Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması mənafeyinə uyğun surətdə səmərəli istifadə etməlidir.

Ona görə də siz özünüz son illərdə sizin orqanlarda gedən prosesləri obyektiv, doğru-düzgün təhlil etməlisiniz, sizi ləkələyən, işinizə maneçilik törədən, peşə sahənizə zərər vuran

bütün hallardan xilas olmalısınız, onları kənarlaşdırmalısınız. Daxili İşlər Nazirliyinin tərkibində, onun şəxsi heyətinin tərkibində, birinci növbədə rəhbər işçilərin fəaliyyətində mənəvi dəyərləri möhkəmləndirməlisiniz, inkişaf etdirməlisiniz və beləliklə də, Daxili İşlər Nazirliyinin bütün sistemlərində, yuxarıdan aşağıya qədər – nazirliyin rəhbərliyindən polis nəfərinə qədər sağlam əhval-ruhiyyə, sağlam mənəviyyat yaratmalısınız.

Polis orqanlarının fəaliyyəti bir tərəfdən polis işçilərinin, Daxili İşlər Nazirliyi işçilərinin biliyindən, bacarığından, peşə səviyyəsindən asılıdırsa, digər tərəfdən bu orqanlarda möhkəm, dəmir nizam-intizamdan asılıdır. Bu nizam-intizam nə qədər möhkəm olsa, nə qədər sağlam olsa, nə qədər qanunlara istinad etsə, eyni zamanda nə qədər ədalətli olsa, sizin işiniz də bir o qədər səmərəli olacaqdır. Bunlarla yanaşı polis orqanları işçilərinin hər biri yüksək mənəviyyat nümunəsi olmalıdır. Siz bilməlisiniz ki, polis orqanlarına, Daxili İşlər Nazirliyinin işçilərinə xüsusi səlahiyyətlər verilir. Qanun onlara öz fəaliyyətini həyata keçirmək üçün xüsusi səlahiyyətlər verir.

Ancaq bu səlahiyyətlərdən ədalətlə, qanun çərçivəsində, cəmiyyətin, dövlətin, vətəndaşların mənafeyini qorumaq naminə istifadə etmək lazımdır. Təəssüf ki, indi mövcud olan hal on il, iyirmi il bundan qabaq da olub, amma son dövrlərdə bu, çox ifrat səviyyəyə gəlib çatıb: polis orqanları işçilərinin öz vəzifələrindən şəxsi məqsədlər üçün, şəxsi mənafelər üçün istifadə etməsi halları geniş yayılıbdır. Polis orqanı gərək xalq tərəfindən hörmət edilən bir orqan olsun, polis işçisi gərək xalq tərəfindən, kütlə tərəfindən, ictimaiyyət tərəfindən sevilsin, ona hörmət edilsin. Bu da o halda ola bilər ki, polis işçisi Daxili İşlər Nazirliyinin hər bir nümayəndəsi, nazirliyi təmsil edən şəxs əvvəldən qanuna riayət etsin; ikincisi, qanunçuluğun nümunəsi olsun; üçüncüsü, yüksək mənəviyyat

nümunəsi olsun; dördüncüsü, hər bir vətəndaş hiss etsin ki, polis işçisinin simasında onun şəxsiyyətində dövlətin qanunçuluğunu, dövlətin yüksəkliyini görür. Çünki polis işçisi, Daxili İşlər Nazirliyinin işçisi dövləti təmsil edən bir şəxsdir.

Ona görə də siz bu mənfi halları, ümumiyyətlə, bizim cəmiyyəti, o cümlədən polis orqanlarını hörmətdən salan, xalq arasında tamamilə əsaslı olaraq polis orqanları barəsində mənfi fikir yaradan halları içərinizdən çıxarıb atmalısınız. Rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, insanlara qanunsuz təzyiq göstərmək, zor işlətmək və yaxud başqa hallar polis orqanlarının iş praktikasından, yəni əməli fəaliyyətindən tamamilə kənar olunmalıdır. Siz bu hallarla mübarizə aparmalısınız. Bir daha qeyd edirəm, sizin fəaliyyətinizin səmərəli olması üçün, böyük bir dövlət orqanı kimi yüksək hörmətə layiq olmağınız üçün və dövlətə sədaqətlə xidmət etmək üçün bunlar əsas amillərdir. Siz gərək bunları biləsiniz və düşünəsiniz. Əlbəttə, bu mənfi halların mövcud olması, sirayət etməsi və necə deyərlər, bir xəstəlik kimi yayılmasının obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər şübhəsiz ki, son dövrlərdə Azərbaycanda gedən ictimai-siyasi proseslər iqtisadiyyatın dağılması, qanunçuluğun pozulması və yüksək dövlət orqanlarının özünün qanuna zidd hərəkətləri, vəzifədən sui-istifadə etmək hallarıdır. Bu da polis orqanlarında belə hallar yaranmasına səbəb olmuşdur. Subyektiv səbəblər isə ayrı-ayrı polis orqanları, daxili işlər orqanları işçilərinin xalqa, öz dövlətinə, vətəninə, torpağına xidmət etmək üçün yox, ancaq şəxsi məqsədlərini, şəxsi mənafeyini təmin etmək üçün bu peşəyə, bu vəzifələrə gəlməsindən ibarətdir. Mən rica edirəm ki, bu məsələlər üzərində düşünəsiniz, başa düşəsiniz ki, polis orqanlarının, daxili işlər orqanlarının işçiləri üçün dövlət tərəfindən bütün maddi və mənəvi şərait yaradılıb və bundan sonra da yaradılacaqdır. Ancaq hər bir insan üçün yüksək mənəviyyat ən ali amil olmalıdır. O cümlədən

və xüsusən dövlət işçiləri üçün, polis orqanlarının işçiləri üçün.

Biz sizin işinizi, bu ağır vəziyyətdə fəaliyyətinizi görürük, izləyirik və qiymətləndiririk. Son müddətdə biz, yəni dövlət rəhbərləri Daxili İşlər Nazirliyi ilə, xüsusən onun rəhbərliyi ilə sıx əlaqədəyik, sizin işinizi yüksək səviyyəyə qaldırmağa çalışırıq və bundan sonra da bu istiqamətdə hərəkət edəcəyik. Biz yaxşı bilirik ki, beş ildən artıq davam edən müharibədə Daxili İşlər Nazirliyinin yüzlərlə əməkdaşı – zabitlər, polis nəfərləri torpağımızı qoruyarkən şəhid olmuşlar, qəhrəmanlıq göstərmişlər, Azərbaycan Respublikasının tarixinə milli qəhrəman kimi daxil olmuşlar. Bunların hamısı yüksək qiymətləndirilir. İndi də torpaqlarımızı qorumaqda, Ermənistanın təcavüzünün qarşısını almaqda Daxili İşlər Nazirliyi əməkdaşlarının, zabitlərinin fəaliyyəti gözümüzün qabağındadır. Biz həm qoşun hissələrinin, həm də sahələrdə işləyən əməkdaşlarımızın fəaliyyətini yüksək qiymətləndiririk. Əmin ola bilərsiniz ki, əhali də, vətəndaşlar da, bütün Azərbaycan ictimaiyyəti də bunu indən belə daha yüksək qiymətləndirəcəkdir.

Biz Daxili İşlər Nazirliyinin rəhbərliyinə, nazir Vaqif Novruzova, onun müavinlərinə, kollegiyaya tam etimadla yanaşırıq, güvənirik, sizin hamınıza etimad göstəririk, güvənirik və güman edirik ki, hamınız birlikdə bu etimadı doğrultmağa çalışacaqsınız. Bunun üçün sizə əlavə kömək göstərəcək, əlavə imkanlar da yaradacağıq.

Ancaq biz sizdən daha fəal iş gözləyirik, daha səmərəli iş, cinayətkarlığa qarşı daha kəskin mübarizə gözləyirik və hesab edirik ki, Daxili İşlər Nazirliyinin imkanlarından, potensialından hələ lazımi səviyyədə istifadə olunmayıb. İndi Azərbaycanda ayrı-ayrı gizli silahlı dəstələr mövcuddursa və bizim böyük potensiala malik olan Daxili İşlər Nazirliyinin orqanları bu dəstələri meydana çıxarıb tərksilah edə bilmirlərsə,

qanunu pozan, gizli silah saxlayan adamları məsuliyyətə cəlb edə bilmirlərsə, şübhəsiz ki, bu, fəaliyyətsizliyi göstərir, yaxud da ki, bəzi orqanların, bəzi şəxslərin bu məsələlərə həmrəy olduğunu göstərir. Mən bunu başqa cür qiymətləndirə bilmərəm.

Ayrı-ayrı bandalar var, biri Azərbaycanın o bölgəsində, biri bu bölgəsində. Onların adları da sizə məlumdur. Nə cür ola bilər ki, böyük bir dövlətə güvənən, arxalanan daxili işlər orqanları, polis orqanları ayrı-ayrı bandalardan gücsüz olsun, yaxud onlara üstün gələ bilməsin? Buna inanmaq olmaz. Demək, burada nə isə var. Ayrı-ayrı cinayətkarlar sizin tərəfinizdən uzun müddət axtarılır, ancaq tapılmır. Mən özüm özümə sual verirəm. Axtarılırmı? Lazımi əməliyyatlar keçirilirmi, yoxsa yox? Suallara yəqin ki, siz cavab verməlisiniz. Daxili İşlər Nazirliyindən, onun rəhbərliyindən, bir nazir kimi Vaqif Novruzovdan bu məsələləri çox ciddi tələb edirik və bir neçə dəfə Milli Məclisdə də, ayrı-ayrı müşavirələrimizdə də nazirin qarşısında çox böyük tələblər qoymuşuq. Ancaq nazir təkbaşına bir şey edə bilməz. Əgər biz nazirliyin rəhbərliyinə, sizə arxalanırıqsa, nazirliyin rəhbərliyi də gərək bütün şəxsi heyətə, zabitlər heyətinə, bütün polis heyətinə arxalansın. Hamınız birlikdə çalışıb bu cinayətkarları meydana çıxarmalısınız.

Vətəndaşlar Azərbaycanda cinayətkarlığın geniş yayıldığından çox narazıdırlar, çox narahatdırlar. Bu da təbii haldır. Biz də narahatıq. Nə üçün biz gərək orada-burada silahlı qoruyucu qüvvələr saxlayaq? İndi biz Azərbaycanda tam əmin-amanlıq yaratmalıyıq ki, insanlar rahat yaşaya bilsinlər, bütün təbii tələblərini həyata keçirməyə imkan tapsınlar. Bunları siz təmin etməlisiniz. Ona görə də sizə belə yüksək etimad göstərilir, ona görə də siz xüsusi statusa malik olan, xüsusi rütbələri və xüsusi geyimi olan, silah gəzdirmək hüququ və başqa səlahiyyətləri olan adamlarsınız. Bunları sizə elə-belə vermirlər

ki, başqa vətəndaşlardan fərqlənəsiniz. Ona görə verirlər ki, siz qalan bütün vətəndaşların hüquqlarını, rahat yaşayışını, əmin-amanlığını qoruyasınız. Bunun üçün də cinayətkarlarla mübarizə aparmaq, istintaq işini, axtarış işlərini, bütün tədbirləri gücləndirmək lazımdır. Bunların hamısı sizdən tələb olunur və bilməlisiniz ki, əgər kimsə bu tələblər səviyyəsində deyilsə, o, şəxsiyyətindən, keçmiş xidmətindən asılı olmayaraq, kənara çəkilməlidir. Yenə də deyirik: biz polis orqanlarında, Daxili İşlər Nazirliyində xüsusi peşə hazırlığı olan, bilikli, təcrübəli, təhsilli, eyni zamanda yüksək mənəvi keyfiyyətlərə malik adamlara güvənirik. Əgər kimsə bu keyfiyyətlər səviyyəsinə qalxa bilmirsə, bu tələblərə cavab verə bilmirsə, şübhəsiz ki, onlar kənara çəkilməlidir və rəhbərlik onları öz sıralarından çıxarmalıdır.

Daxili İşlər Nazirliyi, polis orqanları gərək həm güclü, həm mənəviyyatca sağlam, həm də dəmir nizam-intizamlı bir təşkilat olsun. Belə bir təşkilat Azərbaycan Respublikasının müstəqilliyini, müstəqil dövlət kimi inkişafını təmin etməlidir. Biz dəfələrlə demişik ki, Azərbaycanda demokratik prinsiplər əsasında dövlət qurulur, demokratiyanın inkişafına tam şərait yaradılıb, bundan sonra da yaradılacaq, Azərbaycanda siyasi plüralizm, çoxpartiyalı sistem əsasında demokratik dövlət qurmaq niyyətindəyik. Eyni zamanda, Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı istiqamətində inkişaf etməlidir.

Hazırda iqtisadiyyat dağılıb, bərbad haldadır. Bizim sənaye, kənd təsərrüfatı potensialından demək olar ki, heç 20 faizi səviyyəsində istifadə olunmur. Bunun bir səbəbi də ondan ibarətdir ki, dövlətə, yaxud xalqa, yaxud da ayrı-ayrı şəxslərə mənsub olan əmlakın oğurlanması, dağıdılması halları mövcuddur. Siz bunların qabağını almalısınız. Biz demokratiyanı inkişaf etdirərək, siyasi plüralizmə şərait yaradaraq, demokratik dövlət qurmaq əzmində olaraq, eyni zamanda həm cəmiyyətdə, həm də dövlətdə nizam-intizamı möhkəmlətmə-

liyik. Demokratiya hərc-mərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlət orqanlarına hörməti, dövlətin vətəndaşlara hörməti, sayğısı və qayğısıdır. Bunların əsasında biz Azərbaycanda demokratik dövlət qurmaq yolu ilə gedirik və demokratik cəmiyyət təşkil olunmasını istəyirik.

Bu sahədə Daxili İşlər Nazirliyi orqanlarının, polis orqanlarının çox böyük vəzifələri var, sizin üzərinizə çox böyük məsuliyyət düşür və siz qanun çərçivəsində hərəkət edərək bu prinsiplərin həyata keçirilməsini təmin etməlisiniz. Amma heç kəsin də qanunu pozmasına, özbaşınalıq etməsinə, hərcmərclik yaratmasına, vətəndaşların hüququnu pozmasına yol verməməlisiniz.

Güman edirəm ki, siz və sizinlə birlikdə Azərbaycan Respublikasının bütün polis işçiləri, Daxili İşlər Nazirliyinin əməkdaşları öz məsuliyyətinizi yaxşı dərk edirsiniz. Ümidvar olduğumuzu bildirmək istəyirəm ki, öz vəzifənizi namusla, şərəflə yerinə yetirəcəksiniz. Hamınıza, sizin şəxsinizdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bütün əməkdaşlarına, polis işçilərinə ağır, şərəfli və müstəqil Azərbaycan üçün çox mühüm olan işinizdə uğurlar arzulayıram.

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASINDA RESPUBLİKADA QANUNSUZ HƏBSLƏR OLUB-OLMAMASI HAQQINDA MƏSƏLƏNİN MÜZAKİRƏSİ İLƏ BAĞLI ÇIXIŞ

***29 sentyabr 1993-cü il***

Bu məsələnin Milli Məclisin səviyyəsinə qaldırmaq və daxili işlər nazirinin, milli təhlükəsizlik nazirinin, baş prokurorun birinci müavininin məlumatlarını burada dinləməyin özü demokratiyanın çox güclü təzahürüdür. Təsəvvür edin, başqa bir yerdə deməyə imkanınız olmayan sözləri burada deyirsiniz. Bu imkanı da sizə mən yaradıram. Bunu bütün respublika eşidir. Siz orada mətbuat konfransı keçirmisiniz və öz fikrinizi 30-40 jurnalistə demisiniz, xarici ölkələrə məlumat vermisiniz. İndi isə bunu bütün dünya eşidir, respublika eşidir. Əgər mən başqa fikirdə olsaydım, onda bu məsələni heç müzakirəyə çıxarmazdım. Srağagün biz nazirin məlumatını dinlədik. Sonra mən daxili işlər nazirini də, milli təhlükəsizlik nazirini də, baş prokurorun birinci müavinini də çağırmışdım. Onlar yazılı məlumat verdilər. Həmin məlumatlar buradadır. Bunlarla kifayətlənib, müəyyən göstərişlər vermək olardı. Əgər biz bu məsələni belə geniş miqyasda müzakirəyə çıxarırıqsa və bütün əhaliyə imkan yaradırıqsa ki, bu məsələyə münasibətimizi bilsin, elə bunun özü sözün əsl mənasında ən geniş və əyani demokratiyadır.

Amma bəla burasındadır ki, bizim məclisin üzvü İbrahim bəy kimi adamlar, - bu, Xalq Cəbhəsinin ən böyük bəlasıdır, - belə hesab edirlər ki, onlar Azərbaycanda demokratiyanın Allahıdırlar, dedikləri Quran ayəsidir, yalnız və yalnız onlar demokratik adam ola bilərlər, başqaları əsla ola bilməz və onların gördüyü bütün işlər demokratik işlərdir. Bu, sizin bədbəxt-

liyinizdir, İbrahim bəy. Mən sizə dəfələrlə demişəm, bəzən mənim sizə yazığım gəlir. Ona görə ki, siz özünüz haqqında elə fikirdəsiniz ki, guya siz böyük hünər göstərib, dağı-dağ üstə qoymusunuz. Axı, belə deyil! Yoxsa, yeddi milyon əhalisi olan Azərbaycanda təkcə siz demokratsınız, qalan hamımız antidemokratıq? Qanun tərəfdarları tək bir siz oldunuz, qalanların hamısı konstitusiyanın əleyhinə çıxan adamlardır? Axı belə olmaz! Bu iddialardan əl çəkin.

Mən Ali Sovetin sədri kimi Milli Məclisin iclasını apararkən şərait yaradıram ki, burada hərə öz fikrini desin. Amma bu o demək deyil ki, burada böhtanlar atasınız, başqa adamlar haqqında hökmlər verəsiniz. Daxili işlər naziri çıxış edib öz fikrini deyir ki, Xalq Cəbhəsi bağlanmalıdır. Siz də sübut edin ki, yox, bağlanmamalıdır. Bax budur, fikir müxtəlifliyi. O deyir ki, İbrahim İbrahimov məclis üzvlüyündən çıxarılmalıdır. Bunu deməyə onun haqqı var. Siz isə özünüzü müdafiə edin. Yoxsa durub deyirsiniz ki, heç kəs məni Milli Məclisin üzvlüyündən çıxara bilməz. Bu nə deməkdir, siz nəyə arxayınsınız? Mən başa düşə bilmirəm. Əgər məclisin üzvləri səs versələr, siz çıxacaqsınız. Amma siz deyirsiniz ki, heç kəs məni çıxara bilməz. Mən bunları ona görə deyirəm ki, siz bu ifadələri işlədəndə düşünmürsünüz axı! Odur ki, sizə yazığım gəlir. Düşünsəydiniz, belə sözlər deməzdiniz.

Bax, bunu sizə də, başqalarına da deyirəm. Siz dediniz ki, burada antikonstitusion yol ilə hakimiyyət dəyişildi. Bu böhtançılıqla nə vaxtadək, nə qədər məşğul olacaqsınız? Deyirsiniz ki, gedən proseslərə siyasi qiymət verilməyibdir. Bu böhtançılıqla nə qədər məşğul olacaqsınız? Əl çəkin bunlardan! Mən bu məsələni müzakirəyə çıxartmışam ki, burada həqiqətən, sözün əsl mənasında milli barışıq elan edim. Gördünüz ki, öz səlahiyyətimdən istifadə edib, burada çıxış edən iki adama göstəriş verdim. Amma siz görün nə iddialar irəli sürürsünüz. Nə qədər danışmaq olar?

74 il ərzində buranı dağıdıblar? Yoxsa buranı siz düzəltmisiniz? Yaşadığınız torpaq da, ev-eşik də,oxuduğunuz, işlədiyiniz məktəb də, bu bina da – hamısı 74 il ərzində yaradılıbdır. Bəs siz nə yaratmısınız? Hər şeyə düzgün qiymət vermək lazımdır. 74 il Azərbaycan xalqının tarixidir, bizim tariximizdir. 74 ildə bir neçə nəsil yaşayıb, qurub-yaradıb. İndi sizin nə haqqınız var ki, bu 74 ilin üstündən qara xətt çəkirsiniz? Nə haqqınız var? Hansı xidmətlərinizə görə? Sizin də, sizin başçınız Elçibəyin də, deyin görək, hansı xidmətləri olub? Göstərin görək, hansı ağacı əkmisiniz? Hansı arxa su çəkmisiniz? Hansı evi tikmisiniz, hansı binanı ucaltmısınız? Belə olmaz axı!

Sözünüzü deyin, amma bu iddialardan əl çəkin. Özünüzü elə qələmə verməyin ki, Allah tərəfindən yaradılmış xüsusi bir təbəqəsiniz. Siz də bu xalqın içərisindən çıxmış, bu xalqın arasında yaşamış adamlarsınız. Sizin fikriniz belədir, başqalarının fikri ayrı cürdür. Mən gərək hər dəfə sübut edəm ki, İbrahim İbrahimov demokratik adam deyil, antidemokratik adamdır? Mən demokratiya ilə məşğul olanda sən hələ kənddə, necə deyərlər, ayaqyalın gəzirdin. Mən məhz demokratiya ilə məşğulam. İndi sən gəlib Azərbaycanda demokratiyanın banisi olmusan, demokratiyanın hakimi olmusan? Hələ bir qiymət verirsən ki, kim demokratiyanın tərəfdarıdır, kim əleyhinədir? Belə şeylər yaramaz axı, qardaş! Belə olmaz, milli barışığa bu cür getmək olmaz.

Nə haqla deyirsiniz ki, hakimiyyət antikonstitusion yol ilə dəyişilib? Bu, böhtandır. Mən bunu rədd edirəm. Belə düşünürəm ki, bunu bütün məclis rədd edir. Məsələ xeyli vaxtdır ki, müzakirə edilir. Gəncədə baş vermiş hadisələr burada iyulun 15-16-da müzakirə olunub, ona siyasi qiymət verilib və Milli Məclis qərar qəbul edib. Siz o qərarın əleyhinə səs vermisiniz. Əgər demokratik adamsınızsa, bilməlisiniz ki, siz Milli Məclisin qəbul etdiyi qərara tabesiniz, müxalifətdə ola bilərsiniz, o qərarın əleyhinə səs verə bilərsiniz. Ancaq qərar

Milli Məclisin qərarıdır. Bu Milli Məclisi isə mən yox, siz yaratmısınız, Xalq Cəbhəsi yaradıb. Bu, sizin təşkilatdır. Bax, sizin bu təşkilatınız iyulun 16-da Gəncə hadisələri haqqında qərar qəbul edibdir. Deyirsiniz ki, referendumu boykot edirdiniz, buna görə də mitinq çağırmışdınız. Bu, demokratik hərəkətdir? Nə ixtiyarınız var idi ki, referendumu boykot edəsiniz, bir halda ki, Milli Məclis referendum haqqında qərar çıxarmışdı? Siz referenduma gedib öz səsinizi verə bilərdiniz, təbliğat apara bilərdiniz. Amma boykot etməyə ixtiyarınız yoxdur. Siz özünüz qanunları pozursunuz, insan hüquqlarını pozursunuz, konstitusiyanı pozursunuz – hamısını pozursunuz. Özünüz də deyirsiniz ki, siz demokratiya tərəfdarısınız, bəs vaxt gələcək ki, bunlar hamısı dağılacaq və siz burada demokratiyanı yenidən bərpa edəcəksiniz...

Referendum dünya təcrübəsində müəyyən, mühüm məsələləri dövlət səviyyəsində həll etmək üçün, xalqın rəyini öyrənmək üçün ən demokratik yoldur, ən demokratik tədbirdir. Bundan da demokratik tədbir yoxdur. Bu referenduma da biz birdən-birə getmədik. Azərbaycanın prezidenti Əbülfəz Elçibəy öz iş yerini qoyub qaçdı. Bunları mən dəfələrlə demişəm. Bu sözləri deməkdən yoruldum, amma siz məni təkrar deməyə məcbur edirsiniz. Əgər o çıxıb gedibsə, respublikanı başsız qoyubsa, deməli nə isə etmək, bir iş görmək lazımdır. Yoxsa, Əbülfəz Elçibəy peyğəmbər idi ki, biz onsuz yaşaya bilmirdik? Ya gəlib prezidentliyini etməliydi, ya da ki, xalqı bu vəziyyətdə qoymamalıydı. İyunun 17-də qaçıb getdi, avqustun 29-da isə referendum keçirildi. Bir təsəvvür edin, iki ay yarım xalq bu vəziyyətdə qaldı. İndi də deyirsiniz ki, antikonstitusion yol ilə hakimiyyətə gəliblər. Burada heç kəs konstitusiyaya zidd yolla hakimiyyətə gəlməyib. Əgər məni deyirsinizsə, məni siz özünüz gətirmisiniz.

İndi deyin görüm, məndən nə istəyirsiniz? Bu sözləri nə qədər təkrar etmək olar? Mən var qüvvəmlə çalışdım ki,

Əbülfəz Elçibəy qayıdıb gəlsin. Amma gəlmədi. Biz bütün dünyanın təcrübəsindən istifadə etdik. Hamı dedi ki, referendum olmalıdır. Referendum da keçirdik. Referendumdan sonra prezident seçkiləri təyin etdik. Mən Xalq Cəbhəsinə müraciət etdim. Əbülfəz Elçibəyə televiziya ilə müraciət etdim ki, prezident seçkilərində yenə də iştirak etsin. Siz də, İbrahim bəy iştirak edin. Ədalət Rəhimov da iştirak eləsin, başqaları da. Kimi istəyirsinizsə, iştirak etsinlər. Bəs niyə iştirak etmirsiniz? İndi də başlamısınız ki, bəli, biz prezident seçkilərini pozmaq istəyirik. Ayıb deyilmi sizə?

Buna görə də mən Ali Sovetin sədri kimi, vətəndaş kimi, bir daha qeyd edirəm ki, demokratiyanın bərqərar olması üçün bundan sonra da əlimdən gələni edəcəyəm. Lakin demokratiyanı təhrif etmək, özünü demokratik adam kimi qələmə vermək, qalanlarına pis gözlə baxmaq demokratiya prinsiplərinə ziddir. Qanun pozuntuları da, insan hüquqlarının pozulması da demokratiya prinsiplərinə ziddir. Fövqəladə vəziyyət rejimi tətbiq edildiyi dövrdə mitinq keçirilməməlidir. Amma siz, ailədə ərköyün böyümüş uşaq kimi belə hesab edirsiniz ki, nə istəsəniz edə bilərsiniz. Bax, siz belə bir vəziyyətdəsiniz. Bu vəziyyətdən çıxın. Siz özünüzü ərköyün uşaq kimi aparırsınız, yəni biz nə istəyirik, onu da edirik: «fövqəladə vəziyyət rejimi dövründə mitinq də keçirə bilərik, qanunu da poza bilərik, bir sözlə, hər şey edə bilərik».

Məclisin bəzi üzvləri çıxış edib dedilər ki, Xalq Cəbhəsinin üzvləri bu salonda adamları döyüblər, söyüblər, təhqir də ediblər, qanunsuz olaraq həbsə də alıblar. İndi siz siyahı çıxarıb deyirsiniz ki, min nəfər adam işdən qovulub. Mən bilmirəm, bu, düzdür, ya yox. İnanmıram buna, Xalq Cəbhəsi adamlarının əksəriyyəti iş başındadır. Bəziləri vəzifələrini, özləri demişkən, dondurdular. Bu, onların öz işidir. Elə dondurublar ki, hələ indiyədək bunun içərisindədirlər. Yenə de-

yirəm, bu, onların öz işidir, amma əksəriyyəti iş başındadır, işləyir.

Bəs siz hakimiyyət başına gəldikdə nə işlər gördünüz? Adamların başına nə işlər gətirdiniz, nə oyunlar açdınız? İşdən də çıxartdınız, həbs də elədiniz, döydünüz də, söydünüz də. Mən demirəm ki, indi onları təkrar etmək lazımdır, yaxud da kimsə təkrar edirsə, mən ona bəraət qazandırıram, - xeyr, belə deyildir. Mən ona da nifrət edirəm, indi qanunları pozanlara da. Onun da əleyhinəyəm, bunun da. Amma siz elə bilirsiniz ki, tutduğunuz əməllərin hamısı qanunidir, sizin buna haqqınız vardı. Lakin indi sizin qeyri-qanuni hərəkətlərinizi bir balaca qanun çərçivəsinə qoymaq istədikdə dünyaya car çəkirsiniz ki, burada qanun pozulur, insan hüquqları, demokratiya pozulur.

Siz nə desəniz də, nə etsəniz də, bilin ki, mən qanunun və insan hüquqlarının pozulmasının əleyhinəyəm. Amma siz də bilin ki, qanun nə deməkdir, qanunun hüdudu haradadır, insan hüquqlarının həddi haradadır. Bunları bilin və özünüzü ərköyün uşaq kimi aparmayın, özünüzə istisna səlahiyyət tələb etməyin, bunlar doğru deyildir.

O ki, qaldı Xalq Cəbhəsinin bağlanmasına, İbrahim İbrahimovun Milli Məclis üzvlüyündən çıxarılmasına, Xalq Cəbhəsinin iqamətgahına dair burada irəli sürülən təkliflərə, yenə deyirəm, hər adamın öz təklifini verməyə haqqı var. Məsələn, mən belə təkliflərin müzakirəyə qoyulmasına tərəfdar deyiləm. Ona görə yox ki, İbrahim İbrahimov deyir: «Məni heç kəs məclis üzvlüyündən çıxara bilməz». Hamını çıxara bilərlər. Buradan məni də çıxara bilərlər, sizi də çıxara bilərlər. Məclis istəsə, deməli, çıxarılmalıdır. Bu, məclisin səlahiyyətinə daxildir. Ancaq mən belə hesab edirəm ki, bu məsələləri müzakirəyə qoymağa ehtiyac yoxdur. Çünki bunlar bizim məclisin ab-havasına, ictimai ab-havaya xeyir gətirməz. Biz bir-birimizlə fikir mübadiləsi aparmalıyıq. Əgər istəyirsinizsə,

lap fikir mübarizəsi aparaq. Amma zorla, qol gücünə mübarizə yox. İfadəmə görə üzr istəyirəm, həyasızlıq mübarizəsi yox. Amma təəssüflər olsun ki, qanun pozğunluğu, insanları təhqir etmək, onlara təzyiq göstərmək, hər cür nalayiq sözlər demək Xalq Cəbhəsinin «Cəbbəxanasında», onun adət - ənənələrində möhkəm yer tutub. Mən bunu tam cəsarətlə deyirəm. Bunların hamısını Naxçıvanda görmüşəm. Bəli, hamısını. İbrahim bəy, siz də bilirsiniz ki, bunların hamısını sizinlə birlikdə görmüşük. Mən hələ burada olan şeyləri demirəm – bunları televiziya ilə görmüşəm. Ona görə də belə hesab edirəm ki, bu məsələləri müzakirəyə qoymağa ehtiyac yoxdur.

Lakin burada deyilən bir fikirdə müəyyən qədər məntiq var. O da bundan ibarətdir ki, biz çoxpartiyalılıq tərəfdarıyıq. Partiyalar çoxdur, 40 partiya var. Qoy lap 45 olsun. Əgər Xalq Cəbhəsi, doğrudan da, istəyirsə ki, Azərbaycanın siyasi həyatında yer tutsun, qoy onda partiyaya çevrilsin. Mən bir neçə dəfə demişəm ki, Xalq Cəbhəsi yarandığı dövrdən onun fəaliyyətinə və Azərbaycan Respublikasının tarixində tutduğu yerə, Azərbaycanda azadlıq hərəkatında iştirakına hörmətlə yanaşıram. Əvvəllər dediyim kimi, bu, mənim fikrimdir. O dövrdə Nemət Pənahovun başçılığı ilə Azadlıq meydanında keçirilən izdihamlı mitinqlər xalqın iradəsini ifadə edirdi. Bu, Xalq Cəbhəsi deyildi. Xalq Cəbhəsi ondan sonra yarandı. Bunların hamısı xalqın özündən, onun ürəyindən gələn duyğular idi, fikirlər idi, istəklər idi. Onda xalq oyanırdı, ayağa qalxırdı. Qarabağ hadisəsi ilə əlaqədar olaraq torpaqlarımızın qorunması, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar olaraq baş qaldıran duyğular, niyyətlər idi. Yaxud, 1990-cı ilin yanvar hadisələrini götürək. Xalqın o vaxtkı rejimə nifrəti, etirazı adamları bu meydanlara toplayırdı. Burada Xalq Cəbhəsinin də rolu vardı, onun da xidməti vardı. Bunlar inkarolunmazdır. Amma siz özünüz-özünüzü içinizdən yediniz. Xalqı ayağa qaldıran Nemət Pənahov kimi adamı özünüzə

düşmən etdiniz. Nə var ki, o, sizin bəzi fikirlərinizlə razı deyildi. Bu, demokratiya idi? Axı, demokratiya deyildi.

Mən öz fikrimi deyirəm. Məclis üzvlərinin bəzilərinin başqa fikri ola bilər. Əlbəttə, hərənin öz fikri var. Mən bütün bunları Azərbaycan tarixində böyük hadisələr kimi qiymətləndirirəm. Bir Azərbaycan vətəndaşı kimi, belə hesab edirəm ki, bunlar inkarolunmaz faktlardır. Lakin bunlar nə təkcə Əbülfəz Elçibəyin, nə İbrahim İbrahimovun, nə də başqasının fəaliyyəti deyildir. Bu, xalqın milli-azadlıq hərəkatının təzahürü idi və Azərbaycan xalqının tarixində qalacaqdır. Buna şübhə yoxdur.

Lakin iş burasındadır ki, Xalq Cəbhəsini yaradan adamlar dağılıblar. Bir hissəsi özünə partiya yaradıb. Məsələn, Etibar Məmmədov da Xalq Cəbhəsinin yaradıcılarındandır, bu gün isə Milli İstiqlal Partiyasının başçısıdır. Rəhim Qazıyev də Xalq Cəbhəsini yaradan adamlardandır, indi qaçıb orda-burda gizlənir. Qəhrəman adı alıb, gecə-gündüz şərəfdən, namusdan, qeyrətdən danışır, hamını da qorxudurdu. Əgər günahın yoxdursa, niyə qaçıb gizlənirsən, gəl ədalət mühakiməsi qarşısında cavab ver. Amma qaçıb gizlənir. Bəzi adamlar da ona havadarlıq edib gizlədirlər. Amma bunun sonu yoxdur. O da Xalq Cəbhəsini quran adamlardandır. Nemət Pənahov da, Əbülfəz Elçibəy də Xalq Cəbhəsini yaradan adamlardandır. İbrahim İbrahimov və başqaları sonradan meydana gəldilər. Mən bunun tarixini müəyyən qədər bilirəm. O mitinqlərdə Sabir Rüstəmxanlı da çıxış edirdi, onun da xidmətləri vardı. Nə isə, indi hərə bir partiya yaradır. Elə Sabir Rüstəmxanlının da partiyası var. Sizin də bir partiyanız olsun, heç kəs etiraz etmir. Amma Xalq Cəbhəsi öz tarixi mərhələsini keçib gedibdir. Siz bunu anlamalısınız.

Siz ya bir siyasi partiya formasında olmalısınız, ya da özünüz düşünməlisiniz ki, nə etmək lazımdır. Xalq Cəbhəsi daha əvvəlkitək fəaliyyət göstərə bilmir. Mən Xalq Cəbhəsinin nə

bağlanmasının, nə də ləğv olunmasının tərəfdarıyam. Demokratik bir adam kimi, bütün demokratik təşkilatların fəaliyyət göstərməsinin tərəfdarıyam və buna şərait yaradacağam. Amma Xalq Cəbhəsi düşünməlidir – o, özünü ləkələyib. Ona görə ki, bir ictimai-siyasi təşkilat olduğu halda, özünə böyük silahlı dəstələr düzəldib. Bu isə Xalq Cəbhəsi üçün ən böyük ləkədir. Çünki ictimai-siyasi təşkilatın silahlı dəstəsi ola bilməz. Tarixdə heç bir partiyanın silahlı dəstəsi olmayıb. Yalnız faşist partiyasının silahlı dəstəsi vardı. Əgər siz faşist partiyası olmaq istəyirsinizsə, bu, öz işinizdir. Özünüz bilərsiniz. Amma mən bunu sizə məsləhət bilməzdim. Buna görə də fikirləşin.

Şübhəsiz ki, mən bu təkliflərin heç birinə tərəfdar deyiləm və bunları müzakirəyə qoymaq fikrim də yoxdur. Siz hər halda bir fikirləşin. Lakin bilin ki, qanun hamı üçün qanundur. Xalq Cəbhəsi də, hər bir partiya da, mən də, sən də, bir sözlə, hamı qanuna tabe olmalıdır. Heç kəsə müstəsna şərait yaradılmayacaqdır. Heç kəsə! Heç kəs bundan sonra özünü ailənin ərköyün oğlu bilməyəcəkdir. Heç kəs ailənin şıltaq uşağı iddiasında olmayacaqdır. Hamı bərabər hüquqdadır, - bizim təşkilatlar da, o cümlədən siz də.

Odur ki, siz gəlin bu bərabər hüquqlar şəraitində, konstitusiya çərçivəsində hərəkət edin. Böhtanlar da atmayın. Rəqəmlər gətirib, onları şişirtməkdən, fikir yaratmaqdan heç bir şey çıxmaz. Bununla siz özünüz-özünüzü ləkələyirsiniz.

Burada məlumat verildi. Daxili işlər nazirinin də,prokurorun müavininin də, milli təhlükəsizlik nazirinin də məlumatı dinlənildi. Mən belə fikirdəyəm: fövqəladə vəziyyət rejimi dövründə mitinqlər keçirmək üstündə inzibati qaydada 15-20 gün, bir ay tutulub saxlanılmış şəxslərin hamısı bu gün buraxılsın. Məsələ araşdırılmadan buraxılsınlar. Bir nəfər də qalmasın. Mənim belə bir səlahiyyətim var, ya yox? Əgər varsa, onda deyirəm, qoy hamısı buraxılsın. Heç nəyi araşdırmaq la-

zım deyildir. Lakin bu sözlərim məsuliyyətə cəlb edilən, haqqında istintaq işi aparılan şəxslərə aid deyildir. Qanun-qaydanı pozduqlarına görə, fövqəladə vəziyyət rejimini pozduqlarına görə, qanunsuz mitinqlər keçirdiklərinə görə tutulan Xalisbəyli, Arif Rəhimov və başqaları bu gün buraxılsınlar. Mənim belə bir hüququm, səlahiyyətim varsa, ondan istifadə edib, bu cür qərar çıxarıram və xahiş edirəm, onu elə bu gün həyata keçirəsiniz. İbrahim İbrahimovdan, Xalq Cəbhəsinin digər fəallarından xahiş edirəm ki, bilsinlər: qanuna riayət etmək lazımdır!

İndi, xüsusən prezident seçkiləri ərəfəsində kimsə qanunu pozmuş olsa, şübhəsiz, onun barəsində qanuni tədbirlər görüləcəkdir. Mən sizi xəbərdar edirəm, bilin ki, heç kəs qanunu pozmamalıdır. Təşkilat işidir, təbliğat işidir – görün. Siyasi plüralizm var və olacaqdır. Milli Məclisin üzvlərindən biri çıxış edib, mən burada Ali Sovetin sədri seçilərkən bildirdiyim mövqeyimi xatırlatdı. Bəli, mən həmin mövqeyimin üzərində dayanıram. Prezident seçkiləri ərəfəsində də deyirəm: mövqeyim bundan ibarətdir ki, Azərbaycan Respublikasında demokratik dövlət qurulmalıdır, hüquqi dövlət yaradılmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir və heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi partiyaların fəaliyyət göstərməsinə şərait yaranmalıdır və siyasi plüralizm hökm sürməlidir. Demokratiyaya imkan yaradılmalıdır və insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı – bunların hamısı bərqərar edilməlidir. Hürriyyət insan üçün ən əsas şərtlərdən biridir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz ancaq və ancaq bu yolla getməliyik.

Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Şübhəsiz ki, gələcəkdə müstəqil Azərbay-

can Respublikasının iqtisadiyyatını yalnız bazar iqtisadiyyatı yolu ilə, azad iqtisadiyyat yolu ilə qaldıra bilərik. Lakin indiyədək yol verilmiş pozuntular, dağıntılar, Azərbaycanın iqtisadi potensialının qara günə qoyulması bir ildə olmayıb. Bunlar son dörd-beş ildə olub. Bu möhkəm potensial son dörd-beş ildə dağıdılıb. Mən dünən kondisioner zavoduna getmişdim. Sevindim ki, heç olmasa bu zavod dağıdılmayıb, qalıbdır. Heç bilirsinizmi biz o zavodu nə qədər çətinliklərlə tikmişik. Sizin indi daim söydüyünüz o sovet imperiyasının büdcəsindən yüz milyon dolları ayırtdırıb, dünyanın ən məşhur firmalarından birindən texnologiyalar alıb gətirdik. Azərbaycan üçün belə bir müəssisə yaratdıq. O zamanın yüz milyon dolları isə indikindən bir on dəfə qiymətlidir. O zavod ilk vaxtlar min kondisioner istehsal edirdi. Zavod iki ilin içində tikildi və bir ildə tam istehsal gücünə çatdırıldı. İldə 450 min kondisioner istehsal olunurdu.

Mən sonrakı illərdə Moskvada işlədiyim dövrdə Afrikanın cənubunda məsələn, Mozambikdə, Anqolada, yaxud Cənubi Asiyada – Laosda, Vyetnamda, Şimali Koreyada olarkən orada Bakı kondisionerlərini görəndə ürəyim dağa dönürdü. Sevinirdim ki, nəhayət, Azərbaycan Respublikasının, Azərbaycan xalqının da istehsal etdiyi məhsullar dünya miqyasına çıxıb. Amma indi o zavod öz gücünün heç 50 faizi qədər də işləmir. Yaxşı ki, heç olmasa onu saxlayıblar, dağıtmayıblar. O vaxtlar kondisionerlərin birini 400 manata satırdılar. Onu da hər adam ala bilmirdi. Amma indi soruşuram ki, onun qiyməti neçəyədir deyirlər ki, 180 min rubldur. Budur, son illərin nəticəsi.

Odur ki, biz bazar iqtisadiyyatına keçərkən, şübhəsiz, yaranmış iqtisadi potensialı dağıtmaq, onu oğruların, əliəyri adamların ixtiyarına vermək, xalqın əməyi ilə, əziyyəti ilə, dövlətin pulu ilə yaradılmış nə varsa, hamısını bu oğruların şəxsi malına çevirmək olmaz. Biz bunlara yol verməyəcəyik.

Bu, mümkün olan iş deyildir. Lakin bunların hamısını siz etdiniz, dağıtdınız, bir şey tikib-qurmadınız. Amma İsgəndər Həmidov kimisi nə pulun, nə malın, daha nə bilim nəyin, heç miqyasını, həcmini bilmədi, haradan nə istədisə götürdü. Rəhim Qazıyev kimisi və sizin vəzifələrə qoyduğunuz başqa adamlar o zavodları, fabrikləri, binaları dağıtdılar. Yox, təkcə siz dağıtmadınız, qabaq da dağıdırdılar.

Beləliklə, iqtisadiyyatda yolumuz bazar iqtisadiyyatı yoludur, demokratik islahatlar yoludur. Biz bu yolla getməliyik və gedəcəyik. Bir sözlə, mən, Ali Sovetin sədri kimi, bir Azərbaycan vətəndaşı kimi, müəyyən hüquqlara malik bir şəxs kimi bu yolu seçmişəm və bütün imkanlarımdan istifadə edib bu yolla gedəcəyəm. Kim bu yola maneçilik edəcəksə, şübhəsiz, mən onunla bərabər gedə bilməyəcəyəm.

Lakin, indi bəzilərinin dediyi kimi, əgər kimlərsə iddia etsə ki, bu yolun sahibləri ancaq onlardır, başqa adamlar bu yolla gedə bilməzlər – onlar çox böyük səhv edirlər. Buna görə də xahiş edirəm ki, onlar bu səhv yoldan çəkilsinlər.

Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını bu hürriyyət yolu ilə, azadlıq yolu ilə, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol nə Əbülfəz Elçibəyin, nə İbrahim İbrahimovun, nə Məmmədəmin Rəsulzadənin yoludur. Bu yol dünya demokratiyasının açdığı yoldur. Biz bu yolla gedirik və gedəcəyik də.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ

***10 oktyabr 1993-cü il***
***Bakı, Respublika sarayı***

Əziz həmvətənlər!

Hörmətli xanımlar və cənablar!

Müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməyimi yüksək qiymətləndirirəm və bu münasibətlə Azərbaycan xalqına, Azərbaycan Respublikasının bütün vətəndaşlarına öz hörmət və ehtiramımı, dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm.

Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm.

XX əsrin sonu dünyada köklü dəyişikliklərə səbəb olmuş siyasi proseslərlə əlamətdardır. Azərbaycan xalqı da bu proseslərdən kənarda qalmamış, nəhayət, əsrlərdən bəri bəslədiyi ümidlərinə, arzularına çatmış, öz müstəqilliyinə nail olmuşdur. Azərbaycan Respublikasının dövlət müs-

təqilliyi əldə etməsi dünyada, keçmiş Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir. Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Eyni zamanda Azərbaycanın müstəqilliyi respublika qarşısında, onun vətəndaşları qarşısında çox böyük və mürəkkəb vəzifələr qoyubdur. Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam.

Azərbaycan Respublikası qədim tarixə, zəngin mədəniyyətə, böyük təbii sərvətlərə malikdir. Dövlət müstəqilliyi bunların hamısından Azərbaycan Respublikasının gələcək inkişafı üçün səmərəli istifadə etməyə şərait yaradır. Bunlar bizim əsas vəzifələrimizdir. Azərbaycan Respublikası öz müstəqilliyini ağır və çətin bir şəraitdə əldə etmişdir. Respublika üçün ən ağır məsələ beş ildən artıq müddətdə Azərbaycanın müharibə şəraitində olması, erməni silahlı qüvvələri tərəfindən ərazimizə təcavüz edilməsi və bunun nəticəsində də Azərbaycan xalqının böyük bəlalara düçar olmasıdır. Ona görə də Azərbaycan Respublikasının müharibə şəraitindən çıxması və vətəndaşlar üçün rahat, sakit, əmin-amanlıq şəraiti yaradılması qarşımızda duran əsas vəzifədir. Azərbaycanın ağır müharibə şəraitinə düşməsi, bu problem, yəni Qarabağ problemi başlanan dövrdən respublika rəhbərliyinin, keçmiş Sovet-

lər İttifaqı rəhbərliyinin buraxdığı səhvlərin nəticəsidir. Lakin təəssüf ki, ötən dövrdə respublikanın bu vəziyyətdən çıxması üçün lazımi tədbirlər görülməmişdir. Respublikanın düşdüyü ağır iqtisadi, sosial, siyasi-ictimai və mənəvi böhran axır zamanlar daha da dərinləşmiş və 1993-cü ildə, demək olar son həddə çatmışdır. Bu ilin iyun ayında Azərbaycanda daxili sabitlik tam pozulmuş, respublikada ayrı-ayrı qüvvələrin qarşıdurması, bəzi cinayətkar qrupların, separatçı qüvvələrin respublikanı parçalamaq meyllərini həyata keçirmək istəməsi və başqa səbəblər daxili böhranı daha da dərinləşdirmişdir.

Azərbaycanın dövlət rəhbərliyinin buraxdığı kobud səhvlər nəticəsində iyun ayında respublikamız vətəndaş müharibəsi həddinə gəlib çatmış və onun bəzi bölgələrinin parçalanması real bir hal kimi meydana çıxmışdı. Allaha şükürlər olsun ki, bunların qarşısı alındı, bəzi cinayətkar qruplar aradan götürüldü və respublikanın daxilində ictimai-siyasi sabitliyin təmin edilməsi üçün şərait yaradıldı. Son dörd ay bizim respublika üçün ağır və çətin bir dövr oldu. Bu müddətdə respublikamız, onun vətəndaşları böyük imtahanlardan çıxdılar və bir daha sübut etdilər ki, xalqın müdrikliyi, milli birlik və həmrəylik, vətəndaş birliyi bütün bu çətinliklərin qarşısını ala bilər və respublikanı bu ağır vəziyyətdən çıxarmaq üçün imkan yarada bilər.

Respublikanın daxilində nisbi sakitlik və sabitlik yaransa da biz hələ böyük təhlükə altındayıq. Ermənistan silahlı qüvvələrinin beş ildən bəri davam edən təcavüzü nəticəsində Azərbaycan torpaqlarının bir qismi - təxminən 20 faizi işğalçıların əlinə keçibdir. Keçmiş Dağlıq Qarabağ vilayəti tamamilə işğal olunub, Azərbaycan xalqı üçün əziz və mötəbər olan Şuşa şəhəri artıq il yarımdır ki, əlimizdən gedibdir. Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarımız da erməni silahlı qüvvələri tərəfindən

işğal olunubdur. Bunların nəticəsində yüzlərlə kəndlər, qəsəbələr, yaşayış məntəqələri dağılıb, evlər viran olub. Bu ərazilərdə yaşayan soydaşlarımız - bir milyona qədər vətəndaş doğma yerlərini tərk edib, qaçqın olub, ağır vəziyyətdə yaşayırlar. Bütün bunlar respublikanın ictimai-siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı - bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır.

Əmin ola bilərsiniz ki, bir Prezident kimi, mən bu vəzifəni özümün əsas vəzifəm hesab edirəm və bunu yerinə yetirmək üçün bütün Azərbaycan xalqının qüvvələrini səfərbər edib, bütün imkanlardan istifadə edib, bütün səylərimi sərf edib Azərbaycan xalqının istəyinə nail olacağam.

Beş ildən artıq davam edən müharibədən çıxmaq, işğal olunmuş torpaqları geri qaytarmaq, şübhəsiz, asan məsələ deyildir. Cəmiyyətimizdə cürbəcür fikirlər var: buna hansı yollarla nail olmaq mümkündür? Biz, ümumiyyətlə, sülhsevər mövqe tutaraq, bu vəzifəni birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk. Bu baxımdan müstəqil Azərbaycan Respublikası diplomatik vasitələrdən səmərəli istifadə etməli, sülh danışıqlarını Azərbaycan Respublikasının mənafelərini təmin etmək yolu ilə aparmalı və bu danışıqlar nəticəsində məqsədimizə nail olmalıyıq. Biz Birləşmiş Millətlər Təşkilatının, ATƏM-in, BMT Təhlükəsizlik Şurasının, bu münaqişənin aradan qaldırılmasında iştirak edən böyük dövlətlərin və bütün beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək, Azərbaycanı müharibə şərai-

tindən çıxarmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bundan sonra da səy göstərəcəyik.

Ancaq bununla yanaşı, Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir.

Qeyd etmək lazımdır ki, beş il ərzində gedən müharibə nəticəsində Azərbaycan xalqı böyük sınaqlardan çıxıb, qələbənin də, uğursuzluğun da nəticələrini görübdür. Bu müharibə bizim üçün böyük faciədir. Eyni zamanda, bu müharibədə Azərbaycan xalqının gücü, qüdrəti, qəhrəmanlığı, müdrikliyi bir daha bütün dünyaya nümayiş etdirildi. Bu müharibədə xalqımız böyük qurbanlar vermişdir. İgid oğullarımız torpaqlarımızı müdafiə edərək qəhrəmancasına həlak olmuş, şəhid olmuşlar. Bu gün, bu təntənəli mərasimdə, Azərbaycan torpaqlarını müdafiə edərək, Azərbaycanın suverenliyini qoruyaraq həlak olmuş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun.

Mən bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, gənclərimiz və gələcək nəsillər onların qəhrəmanlıqlarından nümunə götürəcəklər. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaqdır.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu

dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik.

Bu yol ilə getmək həm tarixi keçmişimizə uyğundur, həm də bir müstəqil dövlət kimi dünya sivilizasiyasına daha yaxından qovuşmaq üçün lazımi şərtdir. Bunun üçün Azərbaycanda bütün imkanlar yaranıb və bundan sonra da yaranacaqdır, Azərbaycanda insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı, vicdan azadlığı - bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir. Biz bu şərtlərin bərqərar olmasını təmin edəcəyik. Azərbaycanda çoxpartiyalı cəmiyyət yaranmaqdadır, bir çox partiyalar yaranıb və bundan sonra da yaranacaqdır. Bunların yaranması və inkişaf etməsi üçün Azərbaycan dövləti bütün imkanları təmin edəcəkdir və çoxpartiyalı cəmiyyət, demokratik prinsiplərin bərqərar olduğu cəmiyyət, şübhəsiz, Azərbaycanın müstəqil bir dövlət kimi inkişafına kömək edəcəkdir.

Çoxpartiyalı cəmiyyətdə müxalifətin də böyük rolu var. Biz müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan cəmiyyətində müxalifət mövqeyində olan partiyalar, siyasi qüvvələr konstruktiv əməkdaşlıq mövqeyindən çıxış edəcəklər və bu da Azərbaycanda həqiqi demokratiyanın inkişafı üçün daha geniş imkanlar yaradacaqdır. Bir sözlə, biz Azərbaycanda müxalif qüvvələr olmasını təbii bir hal hesab edirik, eyni zamanda dövlət

müxalif qüvvələrlə konstruktiv əməkdaşlığa həmişə hazır olduğunu bildirir.

Ancaq müxalifətdə olan qruplar, ayrı-ayrı siyasi təşkilatlar son illərdə istifadə etdikləri qeyri-qanuni, əcaib, demokratiyaya zidd üsullardan, metodlardan əl çəkməlidirlər. Siyasi partiyalar, hərəkatlar Azərbaycanda sərbəst fəaliyyət göstərə bilərlər. Lakin heç bir siyasi partiyanın və ya hərəkatın, ictimai-siyasi təşkilatın silahlı dəstələri, silahlı qüvvələri ola bilməz! Bu gün mən bunu bütün Azərbaycan vətəndaşları qarşısında tam qətiyyətlə bəyan edirəm. Vaxtilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında müsbət rol oynamış Xalq Cəbhəsinin bu sahədə çox mənfi təcrübəsi təəssüf ki, Azərbaycanda ayrı-ayrı qeyri-qanuni silahlı dəstələrin yaranmasına və fəaliyyət göstərməsinə səbəb olmuşdur. Güman edirik ki, bütün partiyalar, hərəkatlar, ictimai-siyasi təşkilatlar öz silahlı dəstələrindən imtina edəcəklər. Cəmiyyətimizdə bir silahlı dəstə ola bilər, o da dövlətin silahlı qüvvələridir. Biz hamımız birlikdə qeyri-qanuni silahlı dəstələrin ləğv olunmasına çalışmalıyıq və bu da respublikamızda daxili ictimai-siyasi sabitlik yaranması üçün əsas şərtdir.

Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması dövlətin əsas vəzifələrindən biridir. Əmin ola bilərsiniz ki, bu yüksək vəzifədə mən həmin sahəni daim diqqət mərkəzində saxlayacağam və insan hüquqlarının qorunması üçün bütün təminatları yaradacağam. Bir sözlə, cəmiyyətimizdə insanın tam azad olması üçün şərait yaradılacaqdır. Bu baxımdan həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur. Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına islam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda islam dini

vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda islam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir.

Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır.

Bu gün bizim islam dininin, Qafqaz müsəlmanlarının rəhbəri, xristian dininin, yəhudi dininin nümayəndələri məni bu vəzifəyə gəlmək münasibətilə təbrik etdilər. Mən onlara öz minnətdarlığımı bildirirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır.

Respublikamızın müstəqilliyini möhkəmlətmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır. Müstəqillik əldə edildikdən sonra xarici siyasət sahəsində təəssüf ki, az iş görülmüşdür. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mə-

dəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır.

Mənim Prezident seçilməyimlə əlaqədar olaraq dünyanın bir çox dövlətlərinin başçıları təbrik məktubları göndərmişlər. Bunları, birinci növbədə, Azərbaycan Respublikasının müstəqilliyinə, dünya birliyində tutduğu yerə verilən qiymət kimi qəbul edirəm. Təbrik məktubları göndərmiş dövlət başçılarına, xarici ölkələrin bu salonda olan təmsilçilərinə minnətdarlığımı bildirirəm və onları əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası bir müstəqil dövlət kimi gələcəkdə bütün bu dövlətlərlə və başqa ölkələrlə səmərəli əlaqələr yaratmağa və respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün onların imkanlarından istifadə etməyə çalışacaqdır. Çox sağ olun, təşəkkür edirəm və eyni zamanda dövlətlərinizin başçılarına və xalqlarınıza səadət, xoşbəxtlik və bütün işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

Azərbaycan Respublikasının ağır böhran vəziyyətindən çıxması üçün sosial-iqtisadi sahədə böyük işlər görülməlidir. Təsəvvür edin ki, müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi bir hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olması ağır və çətin bir haldır. Təəssüf ki, son illərdə respublikanın böhran vəziyyətində olması iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərmişdir. İqtisadiyyat, demək olar, tamamilə dağılmış və bu da

respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır. Eyni zamanda qeyd etmək istəyirəm ki, respublikanın böyük iqtisadi-sosial, elmi-texniki potensialı vardır. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Bu baxımdan biz gələcək işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik.

Bu yol çətin, ağır yoldur. On illər boyu yaranmış iqtisadi-sosial sistemdən sərbəst iqtisadiyyat sisteminə keçmək böyük çətinliklərlə bağlıdır. Bu sahədə son illərdə buraxılan səhvlər vəziyyəti daha da gərginləşdirmişdir. Ancaq biz bu yolla getməliyik, başqa yol yoxdur. Bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir. Bu yola keçərkən əlimizdə olan iqtisadi potensialdan səmərəli istifadə etməliyik, onun bundan sonra dağılmasına yol verməməliyik. Çalışmalıyıq ki, bu potensial bütün Azərbaycan xalqının sərvəti kimi bundan sonra da respublikamızın bütün vətəndaşlarının, bütün təbəqələrin həyat tərzinin yaxşılaşması üçün şərait yaratsın.

Bu sahədə demokratik islahatlar keçirmək, ağıllı hərəkət etmək bizim borcumuzdur və əmin ola bilərsiniz ki, biz bu yolla gedəcəyik. Bununla əlaqədar olaraq mən Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasını xüsusi qeyd etmək istəyirəm. Respublikada uzun müddət bu barədə müzakirələr getmiş və nəhayət, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur. Biz əminik ki, Azərbaycanın MDB-yə daxil olması respublikanın iqtisadiyyatının inkişaf etməsi üçün yaxşı şərait

yaradacaq və biz bu imkanlardan səmərəli istifadə etməliyik.

Onu da qeyd etmək istəyirəm ki, bəzi dairələr Azərbaycanın MDB-yə daxil olmasını təhlükəli bir hal kimi qələmə verməyə çalışırlar. Bu, səhv fikirdir. Azərbaycan MDB-də öz müstəqilliyini daim qoruyacaq və MDB-də iştirak etmək Azərbaycanın müstəqilliyinə qətiyyən xələl gətirməyəcəkdir. Azərbaycan müstəqil bir dövlət kimi demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcəkdir, Azərbaycanda kommunist ideologiyası, kommunist rejimi bir daha bərpa olmayacaqdır. Güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də fikri belədir. Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır.

Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir. Biz Azərbaycanın daxilində demokratik prinsipləri bərqərar edərək respublikanın xarici siyasətində Azərbaycanın müstəqilliyini daim qoruyacağıq. Mən bir Prezident kimi xalqın qarşısında öz fikirlərimi açıq bəyan edir və əmin etmək istəyirəm ki, bu fikirlərə, bu prinsiplərə daim sadiq olacağam.

Əziz və hörmətli həmvətənlər!

Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına bir daha dərin minnətdarlığımı, hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm.

Əlimi Azərbaycan Respublikasının Konstitusiyasına basaraq and içirəm ki, biliyimi, təcrübəmi, qüvvəmi Azərbaycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr edəcəyəm.

And içirəm ki, Prezident vəzifəsini ali məqsədlər, amallar naminə yerinə yetirəcək, Azərbaycan Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

And içirəm ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacağam.

And içirəm ki, Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm, müstəqil dövlətimizin sivilizasiyalı dünya dövlətləri arasında, dünya birliyində ləyaqətli yer tutmasına çalışacağam.

Əlimi Qurani-Şərifə basaraq and içirəm ki, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişaf etməsini təmin edəcəyəm.

# PREZİDENT SARAYINDA DAXİLİ İŞLƏR NAZİRLİYİ RƏHBƏR İŞÇİLƏRİNİN GENİŞ MÜŞAVİRƏSİNDƏ GİRİŞ SÖZÜ

***29 aprel 1994-cü il***

Daxili İşlər Nazirliyi dövlət strukturunda çox mühüm yer tutur və onun qarşısında böyük vəzifələr durur. İndi, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini möhkəmləndirdiyi, ölkəmiz müharibə şəraitində olduğu bir dövrdə bu nazirliyin qarşısında duran vəzifələrin nə qədər məsuliyyətli olduğunu sübut etməyə ehtiyac yoxdur.

Daxili İşlər Nazirliyi hərbiləşdirilmiş təşkilatdır, zabitlərdən və başqa rütbəli şəxslərdən ibarətdir. DİN-ə dövlət tərəfindən daim qayğı və diqqət göstərilmişdir və indi də göstərilir. DİN-in əməkdaşları xüsusi təminata və əhalinin başqa təbəqələrinə nisbətən xeyli imtiyazlara malikdirlər. Bununla yanaşı, bütün xalq bilir ki, Daxili İşlər Nazirliyində çalışan hər bir əməkdaşın üzərinə çox böyük və şərəfli vəzifə düşür. Bir daha qeyd edirəm ki, Daxili İşlər Nazirliyi əməkdaşlarının işi ağırdır, çətindir, məsuliyyətlidir və hətta çox vaxt onların həyatının təhlükə qarşısında qalması ilə bağlıdır. DİN-də işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Bütün bunları bilirik, dövlət bunu məhz belə qiymətləndirir və xalqımızın əksəriyyəti də Daxili İşlər Nazirliyinin cəmiyyətimizdə, dövlətimizdə tutduğu görkəmli mövqeni qiymətləndirir, bu orqana və onun əməkdaşlarına hörmət, ehtiram bəsləyir.

Respublikamız altı ildir ki, müharibə şəraitindədir. Xalqımız öz torpaqlarını düşməndən qorumaq üçün vuruşur. Son aylarda ordumuz böyük cəsarətlə döyüşlər apararaq torpaqla-

rımızı müdafiə edir. Ermənistan tərəfindən altı il bundan əvvəl başlanan təcavüz indi də davam edir. Biz müharibə şəraitində yaşayırıq. Ötən dövrdə bu müharibədə, bu döyüşlərdə torpağın müdafiəsində DİN-in əməkdaşları – zabitlər, polis işçiləri də cəsarətlə vuruşmuş, böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Onların bir çoxu şəhid olmuş, həyatını xalqımızın, Vətənimizin səadəti uğrunda qurban vermişdir.

Bunları cəmiyyətimiz, dövlətimiz, bütün xalq bilir və qiymətləndirir. Bu gün mən DİN-in, polis orqanlarının torpaqlarımızın müdafiəsi uğrunda fəaliyyətinə bir daha yüksək qiymət verirəm.

Cəbhələrdə bu gün də qanlı döyüşlər gedir. Əgər son mərhələni götürsək, erməni silahlı dəstələrinin aprelin 10-dan respublikamıza qarşı başladığı hücumlar davam edir. Ancaq silahlı qüvvələrimiz, o cümlədən polis orqanlarının işçiləri, əməkdaşları bu hücumların qarşısını alır və torpaqlarımızı müdafiə edirlər.

Biz bu gün buraya işgüzar söhbət aparmaq üçün toplaşmışıq. Hazırda həyatımızın əsas, xarakterik cəhəti müharibə ilə, cəbhə ilə, döyüşlərlə bağlıdır. Ona görə də mən söhbətimi məhz bu mövzu ilə başladım. Mən Vətən naminə şəhid olanların xatirəsini bir daha yad edirəm. Vətən yolunda canını qurban verənlər arasında olan DİN əməkdaşlarının, polis işçilərinin də qəhrəmanlığını qeyd edirəm və onların xatirəsini yad etmək üçün bir dəqiqə ayağa qalxmağı rica edirəm.

Allah bütün şəhidlərə rəhmət eləsin!

Daxili İşlər Nazirliyinin işində çox böyük problemlər də vardır. DİN və onun orqanları bu problemlərin həll olunması üçün daha böyük fəallıq göstərməli, işlərini düzgün qurmalıdırlar.

Dediyim səbəblərə görə cəmiyyətimizdə gərginlik var. Respublikamız bir tərəfdən müharibə aparır, digər tərəfdən ağır sosial-iqtisadi böhran içərisindədir, respublikamızda bir

milyondan artıq qaçqın var. Belə bir dövrdə dövlət orqanlarının hamısı gərək öz işlərini daha yararlı qursun, günün tələblərinə uyğun aparsın.

Dövlət orqanları içərisində Daxili İşlər Nazirliyi xüsusi yer tutur. DİN cəmiyyətimizin bütün özəkləri və təbəqələri ilə əlaqədardır, bağlıdır. Onun qarşısında duran vəzifələri siz yaxşı bilirsiniz. Ancaq qısaca bunu bir daha yadınıza salmaq istəyirəm ki, respublikamızın hazırkı ağır vəziyyətində qarşımızda duran vəzifələrin yerinə yetirilməsi DİN-in, onun orqanlarının fəaliyyətindən çox asılıdır.

Həm nazirlik, həm də onun orqanları qarşısında duran bu vəzifələr təəssüf ki, günün tələblərinə uyğun səviyyədə yerinə yetirilmir və onlar cəmiyyətdəki mövcud problemlərin həll olunmasında öncül mövqe tuta bilmirlər. Bilirsiniz ki, dövlətin işində dövlət orqanlarının hər birinin öz yeri vardır, ancaq Daxili İşlər Nazirliyinin, polis orqanlarının xüsusi yeri var və onlardan çox şey asılıdır. Mən sözümə başlayanda dedim ki, həm vəzifələr böyükdür, həm də DİN-in əməkdaşları üçün geniş imkanlar, imtiyazlar yaradılmışdır. Ona görə də bizim haqqımız var ki, DİN-in bütün işçilərindən, əməkdaşlarından daha yaxşı işləməyi tələb edək. Onların fəaliyyətinin bugünkü səviyyəsi isə bizi qane etmir. Bu, mənim ümumi fikrimdir, cəmiyyəti də qane etmir.

Cəmiyyətimizdə Daxili İşlər Nazirliyinin, polis orqanlarının işindən çoxlu narazılıq vardır. Bəllidir ki, bu narazılıqlar DİN-in imkanlarından kənar olan məsələlərin həlli ilə əlaqədardır. Ancaq çox vaxt, əksər hallarda narazılıq əsaslıdır. Əgər DİN-də və onun bölmələrində, polis orqanlarında çalışan hər kəs öz sahəsində qarşıya qoyulan vəzifəni layiqincə yerinə yetirə bilsə, bu narazılıq da az olar. Həm də söhbət təkcə narazılıqdan getmir – cəmiyyətimizdə olan bu çətinliklər xeyli azala bilər.

İndi nazirliyin ətrafında cürbəcür, qəribə söhbətlər gedir – nazirliyin rəhbərliyi haqqında, onun rəhbər orqanları başçılarının bir-biri ilə əlaqələri barədə qəzetlər yazırlar, ümumi ictimai rəy daha çox mənfi tərəfə yönəlib. Doğrudur, mən daim ictimai rəylə hesablaşmışam, hesablaşıram. Çünki ictimai rəy ümumən obyektiv xarakter daşıyır. Ancaq məni narahat edən nə bu qəzet yazıları, nə də ictimai rəydir. Məni şəxsən bir prezident kimi narahat edən odur ki, DİN böyük qüvvəyə malik olsa da, qarşısında duran vəzifəni yerinə yetirə bilmir. Cinayətkarlıq həddindən çox artıb. Cinayətkarlıqla mübarizə zəif gedir. İnsanların hüquqları tapdalanır. Bizim polis orqanları insanların hüquqlarının qorunmasına çox vaxt təminat verə bilmirlər. Respublikamızda nizam-intizam aşağı səviyyədədir. Müəssisələrdə, təşkilatlarda, respublikamızın cürbəcür özəklərində cinayətkarlıq, rüşvətxorluq, bir çox mənfi hallar geniş yayılmışdır. Bunların aradan götürülməsi, belə hallara qarşı mübarizə aparılması üçün hüquq-mühafizə orqanları hamısı birlikdə, bərabər, ahəngdar fəaliyyət göstərməlidirlər. Bu orqanlar arasında da DİN-in xüsusi yeri var. Təəssüf ki, mən hüquq-mühafizə orqanlarının nə mütəşəkkil fəaliyyətini (belə bir mütəşəkkillik yoxdur), nə də DİN-in günün tələblərinə uyğun olan fəaliyyətini görə bilmirəm.

Daxili İşlər Nazirliyinin içərisində, yəni kollektivin daxilində, nazirliyin yerli orqanlarının da içərisində qeyri-sağlam mühit yaranmışdır. Nazirliyin, polis orqanlarının ətrafında da qeyri-sağlam mühit vardır. İnsanlar açıqdan-açığa deyirlər ki, DİN-də bəzi ləyaqətsiz adamlar işləyir, bu nazirliyin içərisində rüşvətxorluq geniş yayılmışdır. Mən belə hesab edirəm ki, çox hallarda bütün bunlar əsaslıdır. Ancaq mən belə nəticəyə gəlirəm ki, DİN-də və onun bir çox təbəqələrində bu sözlərə – danışılanlara, tənqidlərə, iradlara qarşı immunitet yaranıb. Bir çoxları belə hesab edirlər ki, siz nə danışırsınızsa danışın,

nə deyirsinizsə deyin, biz indiyədək necə yaşamışıq, necə işləmişiksə, bundan sonra da elə işləyəcəyik.

Şübhəsiz ki, mən bu sözləri Daxili İşlər Nazirliyinin bütün işçilərinə aid etmirəm. Daxili İşlər Nazirliyində ölkəsinə, xalqına vicdanla, namusla xidmət edən adamların sayı çoxdur. Bəlkə də onlar əksəriyyət təşkil edir. Ancaq bununla yanaşı, bu şərəfli orqanın adını ləkələyən, vəzifəsindən sui-istifadə edən və cəmiyyət, dövlət üçün çox mühüm olan bir orqanın hörmətini get-gedə aşağı salan adamların sayı da az deyildir.

Dediyim kimi, Daxili İşlər Nazirliyi böyük qüvvədir. O, dövlətin güvəndiyi, arxalandığı böyük bir təşkilatdır – silahlı, hərbiləşdirilmiş təşkilatdır. Əgər belə bir təşkilatda, nazirlikdə, orqanda qeyri-sağlam əhval-ruhiyyə mövcuddursa, mən bir prezident kimi buna dözə bilmərəm. Ona görə də bu gün sizi, məhz rəhbər işçiləri bura dəvət etmişəm. Başqa hüquq-mühafizə orqanlarından heç kəs dəvət olunmayıb, burada siz və Prezident Aparatının məsul işçiləri iştirak edirlər.

Mən sizdən soruşuram: nə üçün belə vəziyyət yaranmışdır? Daxili İşlər Nazirliyi niyə öz qarşısında duran vəzifələri layiqincə yerinə yetirə bilmir? Bu nazirliyin ətrafında nə üçün belə qeyri-sağlam mühit mövcuddur? Nə üçün siz əl-ələ verib birlikdə işləyə bilmirsiniz? Bu orqanın bəzi idarələri nazirliyin rəhbərliyi tərəfindən nə üçün idarə oluna bilmir? Mən bunları bilmək istəyirəm.

Bu nazirliyin işçilərinin bütün əksəriyyətinin sədaqətli xidmət etdiyini qeyd etdim. DİN-in tərkibində olan daxili qoşunların, əsasən cəbhə bölgəsində olan hissənin xidmətini xüsusi qeyd etmək istəyirəm. Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Daxili qoşunların komandanı general Məmmədovun və onun rəhbərliyi altında cəbhədə vuruşanların xidmətini xüsusi qeyd edirəm. Onlar orada böyük işlər görürlər, Azərbaycanın torpaqlarını qəhrəmancasına müdafiə edirlər. Belə döyüşçülərin, polis işçilərinin – general

Məmmədovun rəhbərlik etdiyi bütün döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur. General Məmmədovdan rica edirəm ki, bu sözlərimin hamısını bütün şəxsi heyətə çatdırsın.

Ancaq eyni zamanda, bu cür mənəviyyatca yüksək amallara xidmət edən vətəndaşlarımızla yanaşı, onlara zidd mövqedə duran adamlar bu orqanın – polis orqanlarının hörmətini aşağı salır, ləkələyir və polis orqanlarında işin lazımi səviyyədə olmasına maneçilik törədirlər. Mən konkret heç nə demirəm. Güman edirəm ki, dediyim bu sözlər sizin üçün müəyyən məna verir. Ona görə də sizdən tələb edirəm ki, bu gün mənə açıq deyəsiniz – nə üçün belə vəziyyət yaranıb? Daxili İşlər Nazirliyinin hörməti niyə aşağı düşüb? Siz öz vəzifələrinizi nə üçün yerinə yetirə bilmirsiniz?

## *YEKUN SÖZÜ*

Bugünkü söhbətin nəticəsi barədə onu deyə bilərəm ki, müşavirəyə gələrkən məndə olan qənaətlər təsdiq edilir. Yəni Daxili İşlər Nazirliyində və onun ətrafında qeyri-sağlam mühit yaranmışdır. Bu səbəbdən də Daxili İşlər Nazirliyi kimi böyük bir orqanın imkanlarından ümumi işimizin naminə istifadə edilə bilmir.

Daxili İşlər Nazirliyinin dövlət strukturundakı yeri və onun üzərinə düşən məsuliyyət, vəzifələr haqqında müşavirənin əvvəlində öz fikrimi dedim. Bir daha qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikasının həyatının indiki dövründə bu nazirlik, onun bütün strukturları çox mühüm əhəmiyyət kəsb edir və respublikanın hazırkı ağır vəziyyətdən çıxması üçün bu orqanın yüksək səviyyədə fəaliyyət göstərməsi vacibdir. Təəssüf ki, bu, əslində belə deyil. Belə hesab edirəm ki, bu da son vaxtların nəticəsi deyildir. Keçmişə nəzər salın. Burada kim isə dedi ki, on iki –on üç nazir dəyiş-

mişdir. Məsələ təkcə nazirlərin dəyişdirilməsində deyil. Söhbət ondan gedir ki, Azərbaycan Respublikasının uzun illər ərzində yaranmış professional milis, indiki adla desək, polis kadrları son illərdə ölkəmizdə gedən cürbəcür dəyişikliklər nəticəsində müəyyən mənada korlanmış, müəyyən mənada dağıdılmış, müəyyən mənada isə mənfi ünsürlərin təsiri altına düşmüşdür.

Əgər son üç-dörd ili götürsək, Daxili İşlər Nazirliyinin başına nələr gəlməmişdir. Xatırınızdadır ki, Azərbaycan SSRİ-nin tərkibində olarkən, respublikanı dağıtmaq üçün bir müddət Daxili İşlər Nazirliyində, Prokurorluqda böyük briqadalar gətirib qoymuşdular. Bununla guya Azərbaycan Respublikasında baş vermiş böyük cinayətləri açmaq istəyirdilər. Ancaq bunların heç bir nəticəsi olmadı, xalqımıza isə nə qədər böyük mənəvi zərbələr dəydi. Sonrakı dövrdə Daxili İşlər Nazirliyinin orqanları təəssüf ki, siyasi proseslərə, siyasi qruplaşmalara qoşuldular. Nəticədə yüksək peşəkarlığa malik təcrübəli kadrlar, bəlkə də özlərinin günahı olmadan, itirildi, yaxud da bəzi adamların iddiaları ilə işdən kənar edildi. Bu isə polis orqanlarına zərbə vurdu.

Son dövrü götürsək, əgər polis orqanlarında «Boz qurd» kimi bir təşkilat yaranmışdısa, yaxud həmin orqanlara polis işini bilməyən, bu işdən tamamilə uzaq olan və aşağı səviyyələrdə işləmiş adamları gətirib yüksək vəzifələrə qoydularsa, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən orqan ayrı-ayrı adamların əlində oyuncağa döndüsə, hərc-mərclik, özbaşınalıq, dərəbəylik geniş yayıldısa, əlbəttə ki, bütün bunlar daxili işlər orqanlarının fəaliyyətinə mənfi təsir göstərməyə bilməzdi.

Məhz bunları nəzərə alaraq biz keçən ilin iyul-avqust aylarında Daxili İşlər Nazirliyinin rəhbərliyini dəyişdik. Vaqif Novruzov nazir təyin olundu. Sonra onun birinci müavini təyin edildi. İki müavin isə əvvəldən də işləyirdilər. Onların borcu idi və şərait yaradıldı ki, böyük imkanlara malik olan

orqanı düşdüyü bəlalardan qurtarsınlar, bu orqanda baş verən çirkin proseslərə son qoysunlar və onu dövlətə xidmət edən həqiqi orqana çevirsinlər.

Daxili İşlər Nazirliyi, polis heç bir siyasətə qarışa bilməz. O, dövlət orqanıdır, dövləti müdafiə etməli, onun göstərişlərini, siyasətini həyata keçirməlidir. Bu, bütün ölkələrdə belə olmuşdur və bizdə də belə olmalıdır. Ancaq yenə də deyirəm, son illər Daxili İşlər Nazirliyi, polis orqanları ayrı-ayrı siyasi qrupların, bəzi hallarda isə mafioz qrupların əllərində oyuncaq olmuşdur və kiminsə hakimiyyətə gəlməsinə, kiminsə hakimiyyətdən getməsinə, kiminsə nəyəsə nail olmasına xidmət etmişdir. Bütün bunlar isə polis orqanlarında vəziyyəti gərginləşdirmişdir. Bir də qeyd edirəm, bunları nəzərə alaraq biz Vaqif Novruzovu nazir təyin etdik.

O zaman prezidentin səlahiyyətini həyata keçirən şəxs kimi, mən Vaqif Novruzovu həmin vəzifəyə təyin edərkən, şübhəsiz ki, bu qərarı tam inamla, etibarla qəbul etmişdim. Çox böyük ümid bəsləyirdim ki, Vaqif Novruzov nazirliyin kollegiyası ilə birlikdə, müavinləri ilə, rəhbər şəxslərlə birlikdə nazirliyin işini sağlamlaşdıracaq, onun fəaliyyətindəki mənfi halları aradan qaldıracaq və Daxili İşlər Nazirliyinin öz vəzifələrini layiqincə yerinə yetirməsi üçün şərait yaradacaqdır.

Şübhəsiz ki, bu müddətdə müəyyən iş görülmüşdür, Vaqif Novruzov da çalışmışdır. Ancaq, təkrar edirəm, məni bu gün sizi buraya dəvət etməyə məcbur edən səbəb ondan ibarətdir ki, görülən işlər, həyata keçirilən tədbirlər istənilən nəticəni verməmişdir. Böyük tərkibi, kadr ehtiyatı olan Daxili İşlər Nazirliyi indi onun qarşısında qoyulmuş vəzifəni həyata keçirə bilmir.

Burada mən rüşvətxorluqla əlaqədar bir neçə sual verdimsə, heç kim güman etməsin ki, Daxili İşlər Nazirliyinin vəzifəsi ancaq rüşvətxorluqla mübarizə aparmaqdan ibarətdir. Xeyr. Daxili İşlər Nazirliyinin fəaliyyət dairəsi çox genişdir,

böyükdür, onun üzərinə düşən vəzifələr müxtəlifdir. Bunların arasında belə bir cinayətlə – rüşvətxorluqla mübarizə aparmaq vəzifəsi də var. Mən bu məsələni ona görə kəskin qoyuram ki, hüquq-mühafizə orqanlarının – Daxili İşlər Nazirliyinin, Prokurorluğun, Məhkəmə orqanlarının başqa vəzifələrlə yanaşı, daha bir əsas vəzifəsi cəmiyyətimiz üçün çox ağır olan cinayətin – rüşvətxorluğun qarşısını almaqdır. Çünki bu, cəmiyyəti çox narahat edən, onda böyük narazılıq doğuran haldır. Bu məsələni qoyaraq və burada çıxış edənlərin hamısını dinləyərək demək istəyirəm ki, Daxili İşlər Nazirliyinin bu sahədəki işi qənaətbəxş sayıla bilməz. Çünki heç biriniz – nə nazir, nə müavinləri, nə də başqaları konkret fakt gətirə bilmədiniz ki, bu sahədə hansı cinayətin üstünü açmısınız, hansı rüşvətxoru tutmusunuz.

Ona görə də mənim tələblərim haqlıdır. Ancaq bu, yeganə tələb deyil. Daxili İşlər Nazirliyinin vəzifələri çox geniş və böyükdür.

Buradakı çıxışlar bir də onu göstərdi ki, sizin kollektivdə qeyri-sağlam mühit dərin kök salmışdır. Əgər belə olmasaydı, siz burada səmimi şəkildə, bir-birinizə hörmətlə vəziyyəti açıq deyərdiniz. Ancaq bu, belə olmadı. Mən burada işgüzar əhval-ruhiyyə görmədim. Şübhəsiz ki, belə şəraitdə nazirlik öz vəzifəsini həyata keçirə bilməz və mən də nazirliyi bu vəziyyətdə qoya bilmərəm.

Başqa məsələlərə də toxunmaq istəyirəm. Məsələn, belə hesab edirəm ki, biz Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar ilk növbədə öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeləri müdafiə olunmalıdır.

Burada dedilər ki, Daxili İşlər Nazirliyi ilə prokurorluq arasında münasibətlər pisdir və bu, işə mane olur. Nə üçün belədir, bu münasibətləri də mənmi qaydaya salmalıyam? Əgər Azərbaycan Respublikasının bu iki ən mühüm orqanı ci-

nayətkarlığa qarşı mübarizəni doğrudan da gücləndirmək istəyirsə, onların rəhbərləri bu münasibətləri nə üçün qaydaya salmırlar? Nə üçün bunu etmirlər? Bəzi rayonlarda polis rəisi ilə prokuror arasında mənfi münasibətlər olmasını çox qeyri-normal hal sayıram. Məsələn, çox böyük narazılıq hissi ilə eşitdim ki, Ağdaş rayonunda prokuror polis rəisini həbs etmişdir. Bu, necə ola bilər? Əgər polis rəisi cinayət etmişdirsə, bu məsələ Daxili İşlər Nazirliyinin rəhbərliyi qarşısında qoyulmalıdır. Polis rəisi adi işçi deyil, böyük səlahiyyəti olan vəzifəli şəxsdir. Bəs nazir nə üçün buna imkan verdi? Nə üçün rayon prokuroru vəzifə həddini aşaraq polis rəisini həbs edir? Masallı rayonunda da belə hal olmuşdur. Nə üçün?

Mən bununla əlaqədar rayon prokurorlarının və ümumiyyətlə, Respublika Prokurorluğunun belə hərəkətini pisləyir və bütün bunları ümumi işimizə zərər gətirən hal kimi qiymətləndirirəm. Nə üçün bu işlərin hamısına mən qarışmalıyam? Məgər respublikanın dərdi azdır?

Əgər Daxili İşlər Nazirliyinin rəhbərliyi öz işçilərinin sosial müdafiəsi ilə məşğul ola bilsəydi, əlbəttə ki, Ağdaş rayonunda prokurorun polis rəisini həbs etməsinə yol verməzdi. Mən işlədiyim bütün dövrlərdə belə bir hadisəyə rast gəlməmişəm.

Bütün bunlar ondan irəli gəlir ki, bir tərəfdən Daxili İşlər Nazirliyinin özündə, onun ətrafında qeyri-sağlam şərait yaranmışdır, ikinci tərəfdən isə, təəssüf ki, Daxili İşlər Nazirliyi ilə başqa hüquq mühafizə orqanları arasında, xüsusən də prokurorluq orqanları arasında lazımi işgüzar münasibətlər yaranmamışdır. Söz yox ki, belə vəziyyətdə cinayətkarlıqla ciddi mübarizə aparmaqdan söhbət gedə bilməz. Bundan ötrü bütün hüquq-mühafizə orqanları bir-biri ilə çəkişməməli, hərə öz üstünlüyünü iddia etməməli, əksinə, işgüzar, sağlam prinsiplər, qanun prinsipləri əsasında əməkdaşlıq etməli, birgə işlə-

məlidirlər. Onların indiki münasibətləri ümumiyyətlə, mədəniyyətdənkənar haldır və cəmiyyətimizə zərər vurur.

Bunların hamısını nəzərinizə çatdırmaqla bir daha demək istəyirəm: Daxili İşlər Nazirliyi respublika üçün, onun dövləti üçün elə mühüm orqandır ki, gərək məhz burada sağlam mühit, sağlam münasibətlər olsun, nazir və onun müavinləri, kollegiya üzvləri, baş idarələrin rəisləri bir-biri ilə gərək sağlam, işgüzar münasibətdə olsunlar, bir-birinə hörmət etsinlər, kömək göstərsinlər. Bir sözlə, gərək əl-ələ verərək ümumi işi irəli aparsınlar. Ancaq belə bir şərait yaranmamışdır. Şübhəsiz ki, bunda hamının günahı var – nazir də, onun müavinləri də, kollegiya üzvləri də və başqa vəzifəli şəxslər də günahkardırlar.

Ona görə də mən vəziyyətin belə davam etməsinə yol verə bilmərəm. Bunu nəzərə alaraq bu andan etibarən Vaqif Novruzovu vəzifəsindən azad edirəm. Daxili işlər naziri vəzifəsinə Ramil Usubovu təyin edirəm. Siz Ramil Usubovu tanıyırsınız və mənə belə gəlir ki, onu xarakterizə etməyə ehtiyac yoxdur. Baş nazirin birinci müavini Fuad Quliyevə, dövlət müşaviri Arif Rəhimzadəyə və ümumi şöbənin müdiri Ramiz Mehdiyevə tapşırıram ki, müşavirə qurtarandan sonra gedib nazirlikdə təhvil-təslim işlərini həll etsinlər və Ramil Usubov nazir kimi fəaliyyətə başlasın.

Eyni zamanda, bir də təkrar edirəm, hamınız günahkarsınız, hamınız cavabdehsiniz və sizi nazirlikdə sağlam əhval-ruhiyyə yaratmağa dəvət edirəm. Hamınızdan tələb edirəm ki, yeni təyin olunmuş nazirə kömək göstərəsiniz.

Vaxtilə Vaqif Novruzovu nazir təyin edərkən ona demişdim ki, sənə etibar edirəm və gərək bunu doğruldasan. Təəssüf ki, belə olmadı və bu gün onu işdən azad etdim. Ramil Usubova tam inanır, prezident kimi ona etimad göstərirəm və bir daha hamınızdan tələb edirəm ki, ona kömək göstərəsiniz.

Daxili İşlər Nazirliyi xüsusi bir orqan, bilavasitə prezidentin tabeliyində olan orqandır. Heç bir kənar vəzifəli şəxslərin

bu nazirliyin işinə qarışmağa ixtiyarı yoxdur. Bu başdan xəbərdarlıq edirəm ki, yeni təyin edilmiş nazirin işinə heç kəs mane olmasın, heç kəs öz şəxsi məqsədlərinə çatmaq üçün orada cürbəcür işlərlə məşğul olmasın və hər kəs yeni nazirə kömək etməyə çalışsın. Mən naziri daim müdafiə edəcək, nazirliyin bütün məsələlərinə baxaraq onları şəxsən özüm həll edəcəyəm. Nazirə səlahiyyət verirəm ki, orada vəziyyəti dəyişdirmək üçün lazımi tədbirlər görsün. Mən də onun təkliflərini müdafiə edəcəyəm. Ancaq xəbərdarlıq edirəm kim buna mane olarsa, bu işləri pozmağa cəhd göstərərsə, onlara qarşı çox ciddi tədbirlər görüləcək və mən heç kəsi bağışlamayacağam.

Güman edirəm ki, yeni nazir prokurorluq orqanları, başqa hüquq-mühafizə orqanları ilə işgüzar əlaqələr yaradacaqdır. Prokurorluq orqanlarına da xəbərdarlıq edirəm ki, özbaşınalığa yol verməsinlər.

Nazir, bütünlükdə nazirliyin rəhbərliyi daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsində möhkəm dayanmalıdır. Onların hüquqlarını tapdalamağa heç kəsə ixtiyar verilmir. Şübhəsiz ki, cinayət etmiş hər bir şəxs məsuliyyət daşımalıdır. Lakin bütün bunlar qanun çərçivəsində olmalıdır. Daxili İşlər Nazirliyi xüsusi, hərbiləşdirilmiş təşkilat olduğuna görə burada qanunların tətbiqi, şübhəsiz ki, nazirliyin rəhbərliyinin razılığı ilə və onunla birlikdə həyata keçirilməlidir. Bunu burada açıq deyirəm ki, hər kəs öz yerini bilsin. Hərə öz yerində oturub öz işini görsə, ümumi işimiz yaxşı gedəcək.

Müşavirəni yekunlaşdıraraq bir daha deyirəm ki, prezident kimi Daxili İşlər Nazirliyinin şəxsi heyətinə tam inanıram. Etibar edirəm, güvənirəm. Hesab edirəm ki, Daxili İşlər Nazirliyində çalışan əməkdaşların tam əksəriyyəti xalqına, torpağına, vətəninə, müstəqil Azərbaycan dövlətinə sadiq adamlar, peşəkar təcrübəli işçilərdir. Onların hamısı nazirliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə çalışmalıdır. Mən Daxili İşlər Nazirliyinin bütün əməkdaşlarına müraciət

edərək onları qrupbazlıqdan, siyasi oyunlardan əl çəkməyə, öz işlərini ancaq və ancaq dövlətin mövqeyinə, onun prinsiplərinə əsasən qurmağa çağırıram, Daxili İşlər Nazirliyi orqanlarında həyata keçirilməsi üçün öz tərəfimdən lazımi tədbirləri görəcəyəm.

Burada irəli sürülən vəzifələrin yerinə yetirilməsində hamınıza uğurlar arzulayıram! Sağ olun!

# CİNAYƏTKARLIĞA QARŞI MÜBARİZƏNİN GÜCLƏNDİRİLMƏSİ, QANUNÇULUĞUN VƏ HÜQUQ QAYDASININ MÖHKƏMLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Son vaxtlar dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi kimi, narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin çoxalması müşahidə olunur. Cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi cinayətlərin geniş yayılması xüsusi narahatlıq doğurur və bir sıra vətəndaşlar, o cümlədən vəzifəli şəxslər bu faktları adi bir hal hesab edirlər.

Bir çox hallarda cinayətlərin üstünün açılması üçün zəruri hərəkətləri hüquq-mühafizə orqanlarının lazımi çevikliklə, qanunla müəyyən edilmiş formada və vaxtında yerinə yetirməməsi, qanunun nəzərdə tutduğu məcburiyyət tədbirlərinin tətbiqində səhvlərə yol verməsi, öz səlahiyyətlərindən təsirli istifadə etməməsi əhalinin haqlı narazılığına və cəmiyyətdə gərginliyin artmasına səbəb olmuşdur.

Respublikada cinayətkarlığa qarşı mübarizəni gücləndirməyin, qanunçuluğu və hüquq qaydasını möhkəmləndirməyin zəruriliyini nəzərə alaraq **qərara alıram:**

**1.** Ədliyyə, Daxili İşlər, Milli Təhlükəsizlik nazirliklərinə, Respublika Prokurorluğuna tapşırılsın və Azərbaycan Respublikasının Ali Məhkəməsinə təklif edilsin ki, bir ay ərzində respublikada cinayətkarlığa qarşı mübarizə üzrə dövlət proqramının layihəsini işləyib hazırlasınlar və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**2.** Hüquq mühafizə orqanlarının rəhbərlərinə tapşırılsın ki, idarə, təşkilat və müəssisələrdə rüşvətxorluq faktlarının aşkar edilməsi, belə hallara yol vermiş vəzifəli şəxslərin qanuna müvafiq surətdə cəzalandırılması, rüşvətxorluq faktlarının qarşısının alınması üçün təsirli tədbirlər görsünlər.

Azərbaycan Respublikasının məhkəmələrinə təklif edilsin ki, rüşvətxorluq faktları ilə bağlı açıq və səyyar məhkəmə prosesləri təşkil etsinlər.

**3.** Prokurorluq, istintaq və təhqiqat orqanlarına tapşırılsın və məhkəmə orqanlarına təklif edilsin ki, cinayət işləri üzrə ağır cinayətlər törədən və mütəşəkkil cinayətkar dəstələrin üzvü olan və ya onların törətdiyi cinayətlərdə fəal iştirak edən müttəhimlər barəsində ən ciddi qəti imkan tədbiri tətbiq etsinlər.

**4**. Prokurorluq, Daxili İşlər, Milli Təhlükəsizlik orqanlarına tapşırılsın və məhkəmə orqanlarına təklif edilsin ki, ağır cinayətlərin törədilməsində, habelə mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilmiş cinayətlərlə əlaqəsi olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyəti, onların banklardakı əmanətləri və hesabları üzrə əməliyyatlar haqqında müvafiq orqanların vəzifəli şəxslərindən zəruri hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq sənədləri və məlumatları tələb edib ümumi qaydada alsınlar;

belə tələblərin yerinə yetirilməsinə mane olan və ya bundan yayınan şəxslər barəsində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görsünlər.

**5.** Azərbaycan Respublikasının Prokurorluğu, Müdafiə, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri silah və hərbi sursat saxlayan bütün təşkilatlarda onların inventarlaşdırılmasını aparsınlar və nəticələrindən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görməklə iki ay müddətində görülmüş iş üzrə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

**6.** Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, ağır cinayətlərin qarşısının alınması və üstünün açılması üçün əməliyyat-axtarış fəaliyyəti üzrə xidmət sahələrinin işini əsaslı şəkildə yaxşılaşdırmaq məqsədi ilə kompleks tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etsinlər və iki ay müddətində görülmüş tədbirlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

**7.** Daxili İşlər Nazirliyinin tərkibində Mütəşəkkil Cinayətkarlığa, Terrorizmə və Banditizmə Qarşı Mübarizə İdarəsi yaradılsın; daxili işlər naziri həmin idarənin təşkili və normal fəaliyyəti üçün zəruri tədbirləri daxili ehtiyatlar hesabına həyata keçirməklə on gün müddətində həmin idarənin fəaliyyətə başlamasını təmin etsin.

**8.** Ədliyyə Nazirliyinə tapşırılsın ki, korrupsiyaya, yalançı sahibkarlığa, qəsdən iflasa, qanunsuz kredit verməyə, kreditlərdən təyinatı üzrə istifadə etməməyə, valyuta vəsaitlərini xaricdən vaxtında və tam gətirməməyə, mühasibat uçotu qaydalarını qəsdən pozmağa, əmlakı zorakılıqla almağa (reketə) və başqa ictimai təhlükəli əməllərə görə cinayət məsuliyyətinin müəyyən olunması; vergi ödənilməsindən boyun qa-

çırmağa və ya yayınmağa, oğurluğa, avtonəqliyyat vasitələrini qaçırmağa, qanunsuz odlu silah saxlamağa, gəzdirməyə və s. görə cinayət məsuliyyətinin gücləndirilməsi, cinayət və cinayət – prosessual qanunvericiliyinin təkmilləşdirilməsi barədə bir ay müddətində qanunvericilik təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**9.** Respublikanın Prokurorluğuna və Daxili İşlər Nazirliyinə tapşırılsın ki, hazırlanan cinayət haqqında ciddi dəlillər olduqda təhqiqat orqanlarının əməkdaşlarına mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq idarə, müəssisə və təşkilatlara məxsus bina və tikintiləri müayinə etmək hüquqları verilməsi üçün qanunvericilik aktlarında zəruri dəyişiklik edilməsi haqqında təklifləri bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**10.** Azərbaycan Respublikasının Prokurorluğuna, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, banditizmin və mütəşəkkil cinayətkarlığın geniş yayıldığı şəhər və rayonların siyahısını müəyyən etsinlər; onların ərazisində fəaliyyət göstərən daxili işlər və milli təhlükəsizlik orqanlarının cinayətkarlığa qarşı mübarizədə xüsusi tədbirlər həyata keçirilməsi ilə bağlı əməliyyat xidməti fəaliyyətinin gücləndirilmiş iş rejiminə keçirilməsini təmin etsinlər.

**11.** Nazirlər Kabinetinə tapşırılsın ki, cinayətkarlığa qarşı mübarizə aparan hüquq mühafizə orqanlarının vacib ehtiyaclarını nəzərə almaqla onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir kriminalistika texnikası vasitələri ilə təchiz edilməsi haqqında təkliflərini bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**12.** Azərbaycan Respublikasının Prokurorluğuna, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, cinayət işlərinin çevik və keyfiyyətli istintaqını təmin etmək məqsədi ilə həmin orqanların işçilərini iş göstəricilərindən asılı olaraq, mənəvi və maddi cəhətdən həvəsləndirmək üçün lazımi tədbirlər görsünlər.

Cinayətkarlığa qarşı mübarizə işində fərqlənən vətəndaşların, Daxili İşlər və Milli Təhlükəsizlik, polis və prokurorluq orqanları əməkdaşlarının həvəsləndirilməsi üçün əlavə vəsaitlər cəmləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin xüsusi fondu yaradılsın.

Ədliyyə, Daxili İşlər, Milli Təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, həmin fondun Əsasnaməsinin layihəsini on gün ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
***Bakı şəhəri 9 avqust 1994-cü il***

# RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ

*3 oktyabr 1994-cü il*

Hörmətli həmvətənlər, bacılar və qardaşlar!

Bildiyiniz kimi, sentyabrın 25-dən 30-dək mən Amerika Birləşmiş Ştatlarında – Nyu-Yorkda işgüzar səfərdə olmuşam. Bu müddətdə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasının işində iştirak etmiş, sessiyada çıxış edərək Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq aləmdə tutduğu mövqe barədə məlumat vermişəm. Onu da deyim ki, bu, üç ildən bəri müstəqil dövlət kimi yaşayan Azərbaycan Respublikasının rəhbərinin BMT Baş Məclisində ilk çıxışı idi. Hesab edirəm ki, həmin çıxış və ümumiyyətlə, BMT Baş Məclisinin sessiyasında iştirak etmək, bu nüfuzlu beynəlxalq təşkilatın baş katibi Butros Qali ilə aparılan söhbətlər Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərini daha da açıqlamışdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, bunun nəticəsində Azərbaycanın düşdüyü vəziyyət, həm də respublikamızın xarici siyasəti ilə bağlı fikirləri BMT Baş Məclisinin sessiyasında çıxış etməklə dünya ictimaiyyətinə, dünya dövlətlərinə çatdırmaq Azərbaycan üçün çox gərəkli bir hadisə idi.

Bununla yanaşı, Nyu-Yorkda olarkən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla görüşərək ətraflı söhbət etmişəm. Bildirmək istəyirəm ki, bu, əvvəlcədən təyin edilmiş görüş idi. Bunu Amerika tərəfi qabaqcadan elan etmişdi və biz də bu barədə məlumat vermişdik. Həm Amerika tərəfi, həm də biz bu görüşü yüksək qiymətləndiririk. Zənnimcə, görüş ümidlərimizi doğrultdu. Bu da müstəqil respublika-

mızın dövlət başçısının Amerika Birləşmiş Ştatlarının prezidenti ilə ilk görüşü idi.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycan ilə ABŞ arasında əlaqələri genişləndirmək, inkişaf etdirmək üçün bir neçə addım atmışıq. Həm Bakıda, həm də başqa ölkələrdə Birləşmiş Ştatların yüksək vəzifəli rəsmi şəxsləri ilə görüşlər olmuşdur. Mən Qahirədə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə, İstanbulda ABŞ-ın dövlət katibi cənab Kristoferlə, Bakıda cənab Klintonun xüsusi nümayəndəsi, onun kabinetinin üzvü xanım Olbraytla, dövlət departamenti rəhbərinin müavini cənab Talbott ilə, həmin departamentin yüksək vəzifəli işçisi cənab Kollinzlə görüşmüşəm. Bütün bunlar iki ölkə arasında əlaqələri inkişaf etdirmək üçün qarşılıqlı surətdə atılan addımlardır.

Lakin Amerika Birləşmiş Ştatlarının prezidenti ilə görüş bu prosesin zirvəsini təşkil edir. Bu mənalı və məzmunlu görüşün bizim üçün əhəmiyyəti odur ki, mən ABŞ prezidentinə Azərbaycanın həm daxili, həm də xarici siyasəti haqqında geniş məlumat verdim, respublikamızın Birləşmiş Ştatlarla münasibətlərinin, xüsusən iqtisadi əlaqələrimizin gələcəkdə daha sürətlə inkişaf etdirilməsi barədə fikirlərimi, mülahizələrimi söylədim. Eyni zamanda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, onun ağır nəticələri və bununla əlaqədar Azərbaycanın düşdüyü çətin vəziyyət haqqında ətraflı məlumat verdim. Bundan əlavə Amerika prezidentinə bildirdim ki, bu çətinliklərə, bizə vurulan ağır zərbələrə baxmayaraq, sülhsevər siyasət yürüdürük, əməli mövqedən çıxış edirik və Ermənistan Respublikasının hərbi təcavüzünə qarşı sülh təklif edir, bu sülhə nail olmağa çalışırıq.

Münaqişə zonasında atəşin dayandırılması və onun dörd aydan artıq davam etməsi haqqında məlumatı cənab Bill Klinton çox razılıqla qarşıladı və yüksək qiymətləndirdi. Mən isə bildirdim ki, biz bu atəşkəsi, sadəcə olaraq, gələcək işlərimiz üçün bir şərait kimi qiymətləndirir və hesab edirik ki, bu im-

kandan istifadə etmək lazımdır. İstəyirik ki, Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli sülh yaransın və bu sülhə Azərbaycan Respublikasının mənafeyinin qorunması şərti ilə nail olunsun. Yəni Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edilsin, işğal olunmuş ərazilərimizdən Ermənistan silahlı qüvvələri çıxarılsın, bir milyondan artıq azərbaycanlı qaçqın öz yurdlarına qaytarılsın, ölkəmizin sərhədlərinin toxunulmazlığı təmin edilsin. Əvvəllər bəyan etdiyimiz kimi, mən Amerika prezidentinə də bildirdim ki, biz bütün bu şərtlər əsasında sülhə nail olmaq istəyirik. Bütün dövlətlərə, o cümlədən dünyada böyük nüfuzu olan Birləşmiş Ştatlara və onun prezidentinə müraciət edirik ki, bizim bu təklifimizin həyata keçirilməsi üçün lazımi təşəbbüslər göstərilsin və tədbirlər görülsün.

ABŞ prezidenti bu məsələlərə çox diqqətlə yanaşdı. Mən başa düşdüm ki, Birləşmiş Ştatların dövlət başçısı bu məsələ ilə artıq ciddi məşğul olur. O bu barədə öz fikirlərini, mülahizələrini bildirdi və qeyd etdi ki, bütün bunlar beynəlxalq təşkilatların vasitəsilə həll edilməlidir.

Mən bildirdim ki, biz də bu fikirdəyik. Azərbaycan bu sahədə Rusiyanın vasitəçiliyini qiymətləndirir. Eyni zamanda istəyirik ki, bu vasitəçilik beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilsin. Biz ATƏM-in Minsk qrupunun rəhbəri Yan Eliassonla dəfələrlə görüşərək öz fikirlərimizi bildirmişik. Mən BMT Baş Məclisinin sessiyasındakı çıxışımda da dedim ki, biz beynəlxalq təşkilatların, xüsusən ATƏM-in Minsk qrupunun Rusiya ilə əməkdaşlıq etməsinə, Rusiyanın bu məsələlərin birlikdə həllinə qoşulmasına tərəfdarıq. Bu fikrimi cənab Bill Klintona da çatdırdım. O da bu fikirdədir və söhbət zamanı bunu qeyd etdi.

Cənab Bill Klintonla danışıqlarımız zamanı aydın oldu ki, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin inkişaf etdirilməsi barədə rəylərimiz üst-üstə düşür. Cənab

Bill Klinton sentyabrın 20-də Bakıda xarici ölkələrin iri neft şirkətləri ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında imzalanmış müqaviləni xüsusilə yüksək qiymətləndirdi. O bildirdi ki, bu, çox böyük tarixi əhəmiyyəti olan müqavilədir. Həmin müqavilədə ABŞ şirkətləri də iştirak edir, ona görə də Amerika dövlətinin buna marağı var. Təsadüfi deyildir ki, Birləşmiş Ştatların dövlət nümayəndəsi müqavilənin imzalanmasında iştirak etmiş və həmin sənədi imzalamışdır. ABŞ prezidenti bu müqavilənin həyata keçirilməsinin zəruri olduğunu bildirdi və onun dövləti tərəfindən bunun himayə ediləcəyini söylədi.

Biz başqa məsələləri, o cümlədən Azərbaycanın blokada vəziyyətində olmasını, ABŞ konqresinin ədalətsiz olaraq 907-ci maddəyə düzəlişi Azərbaycana qarşı tətbiq etməsi məsələsini də müzakirə etdik. Cənab Bill Klinton bildirdi ki, Ermənistan – Azərbaycan münaqişəsinin aradan qaldırılması və regionda sülh yaradılması ilə bağlı onun müəyyən fikirləri var və bu barədə Rusiya prezidenti Boris Yeltsinlə görüşündə də danışacaqdır (səhəri gün o, Vaşinqtonda Rusiya prezidenti ilə görüşməli idi). Cənab Klinton qeyd etdi ki, Amerika Birləşmiş Ştatları bu məsələyə ciddi qoşulmuşdur və beləcə də məşğul olacaqdır.

Biz başqa məsələlər barəsində də danışdıq. Mən bunları ətraflı şərh etməyə ehtiyac duymuram. Söhbətlərimizin əsas məqamlarını xatırlatdım. Bununla demək istəyirəm ki, cənab Bill Klintonla görüşümüz Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsində və Azərbaycanla bağlı məsələlərin həllində, xüsusən respublikamızda sülh yaranmasında beynəlxalq təşkilatların iştirakından ötrü çox əhəmiyyətli və faydalıdır. Güman edirəm ki, biz bu görüşdə yaranmış əhval-ruhiyyəni, əlaqələri davam etdirəcəyik. Bu gün bir daha bildirmək istəyirəm ki, biz bütün dövlət-

lərlə, o cümlədən Amerika Birləşmiş Ştatları ilə ikitərəfli, çoxsahəli əlaqələrin inkişaf etdirilməsinə tərəfdarıq.

Nyu-Yorka səfərim zamanı bir çox başqa görüşlərim də olmuşdur. Orada bir sıra ölkələrin xarici işlər nazirləri ilə görüşmüşəm. Bunları sadalamağa ehtiyac yoxdur, informasiya orqanları bu barədə məlumat verəcəkdir. Ancaq bildirmək istəyirəm ki, Böyük Britaniyanın xarici işlər naziri cənab Duqlas Hörd, Fransanın xarici işlər naziri cənab Alen Jüppe, Almaniyanın xarici siyasət idarəsinin başçısı Klaus Kinkel, Türkiyənin xarici işlər naziri cənab Mümtaz Soysal, İran İslam Respublikasının xarici işlər naziri ağayi Əli Əkbər Vilayəti və bir sıra başqa ölkələrin xarici işlər nazirləri ilə görüşdüm. Bu görüşlərin hamısında Azərbaycanın düşdüyü vəziyyət, xüsusən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bu münaqişənin aradan qaldırılmasında həmin dövlətlərin iştirakı barədə danışıqlar apardım.

Səfər zamanı bir çox beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərim oldu. O cümlədən ATƏM-in Minsk qrupunun başçısı Yan Eliasson ilə görüşüb söhbət etdik. ABŞ-ın dövlət kabinetinin üzvü xanım Olbraytın vasitəçiliyi ilə Nyu-Yorkda Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Görüşdə hər iki tərəfdən nümayəndə heyətləri də iştirak edirdi. Biz fikir mübadiləsi etdik. Bu il sentyabrın 8-9-da Moskvada apardığımız danışıqların davamı kimi mən Azərbaycanın mövqeyini Ermənistan prezidentinə yenə də açıq şəkildə bildirdim. Dedim ki, bu prinsipial mövqe əsasında, o cümlədən Laçın rayonunun, Şuşanın azad edilməsi şərtləri daxilində biz geniş sülh müqaviləsinin hazırlanıb imzalanmasına tərəfdarıq. Bildirdim ki, bundan ötrü biz müvafiq addımlar atırıq. Ermənistan tərəfi də belə addımlar atmalıdır ki, nəhayət, razılığa gələk. Mən bu görüşü də əhəmiyyətli sayıram. Söhbət zamanı hər iki tərəf öz mövqeyini açıqladı. Bu mövqelərin yaxınlaşması üçün müəyyən addımlar atdıq. Belə qərara gəldik

ki, hər iki tərəfin nümayəndələri əldə edilmiş müəyyən razılıqlar əsasında təkliflər hazırlayaraq bizə təqdim edəcəklər.

Mən Amerika Birləşmiş Ştatlarının bir çox təşkilatında, habelə orada yerləşən beynəlxalq təşkilatlarda, məsələn, YUNİSEF təşkilatında oldum, onun sənədini imzaladım. Bu, Azərbaycan üçün çox əhəmiyyətli addım idi. ABŞ-ın Kolumbiya Universiteti nəzdindəki Harriman İnstitutunun kollektivi ilə görüşdüm. Bu institut uzun illər keçmiş Sovet İttifaqını öyrənməklə məşğul olmuşdur. Burada çox yüksək səviyyəli mütəxəssislər, keçmişdə Sovetlər İttifaqında işləmiş səfirlər və diplomatlar fəaliyyət göstərirlər. Onlar məni dəvət etmişdilər. Mən Azərbaycanın mövqeyi, indiki vəziyyəti, xüsusən Ermənistanın hərbi təcavüzü və bunun acı nəticələri barədə məlumat verdim. Eyni zamanda, yaranmış vəziyyətdən çıxmağa dair respublikamızın mövqeyini açıqladım. Hesab edirəm ki, bu görüş də çox səmərəli oldu.

Səfər zamanı bir qrup iş adamı, Dünya Bankının rəhbərləri, Nyu-Yorkdakı Federal Dövlət Ehtiyat Bankının başçıları ilə görüşdüm. Başqa görüşlərim də oldu. Bu görüşlər beynəlxalq maliyyə təşkilatları ilə Azərbaycanın əməkdaşlığına, ABŞ-dakı iş adamları ilə respublikamızın müştərək fəaliyyət göstərməsinə həsr edilmişdir. Zənnimcə, bu görüşlər də faydalı idi.

Daha sonra Amerika neft şirkətinin rəhbərləri ilə görüşdüm. Biz çox faydalı danışıqlar apardıq. Hər iki tərəf bəyan etdi ki, neft müqaviləsi imzalanmışdır və həyata keçirilməlidir. Azərbaycanda bu sənədi parlament təsdiq etməlidir. Mən həmin müqaviləni Milli Məclisə təqdim etmişəm. Parlament müqaviləni təsdiq edən kimi neft şirkətləri işə başlamağa hazırdırlar. Danışıqlar zamanı neft müqaviləsi ilə bağlı konkret işlər barədə söhbət getdi.

Nyu-Yorkda mənim başqa görüşlərim də oldu və bunların hamısı bir məqsəd daşıyır. Demək istəyirəm ki, səfər günləri-

nin proqramı çox gərgin idi və mən dövlət başçısı kimi bunu öz borcum sayıram. Güman edirəm ki, bu borcu imkanım daxilində yerinə yetirməyə çalışmışam.

Bildiyiniz kimi, mən İstanbula qədər bizim xüsusi təyyarə ilə, oradan Amerikaya isə «Türk Hava Yolları» şirkətinin adi sərnişin təyyarəsi ilə getdim. Biz həmin təyyarə ilə də İstanbula qayıtdıq. Qayıdanbaş, əvvəlcədən razılaşdığımız kimi, İstanbulda Türkiyə prezidenti cənab Süleyman Dəmirəl ilə görüşdüm. Ətraflı söhbət zamanı mən Amerika Birləşmiş Ştatlarındakı danışıqlarım barədə ona məlumat verdim. Müəyyən məsələlər barədə fikir mübadiləsi etdik, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərinə toxunduq. Şübhəsiz ki, danışıqlarımızın əsas mövzusu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun qarşısının alınması ilə bağlı idi. Süleyman Dəmirəl bizim sülh təkliflərimizi bəyəndiyini bir daha bildirdi. Sonra biz mətbuat nümayəndələri qarşısında çıxış etdik. Türkiyə prezidenti danışıqlarımız barədə öz fikrini söylədi. Güman edirəm ki, Azərbaycan televiziyası bu çıxışları verəcək, cənab Süleyman Dəmirəlin fikirləri sizə məlum olacaqdır. Ona görə də bu barədə geniş danışmağa lüzum görmürəm.

Beləliklə, hesab edirəm ki, mənim bu səfərim Azərbaycanın xarici siyasətində yeni bir addımdır və zənnimcə, qarşıya qoyduğumuz vəzifələr layiqincə yerinə yetirilmişdir. İndi biz görülmüş bu işlərin Azərbaycanda əməli surətdə həyata keçirilməsi ilə məşğul olmalıyıq. Mən Prezident Aparatına, Nazirlər Kabinetinə, Xarici İşlər Nazirliyinə və başqa nazirliklərə bu barədə lazımi göstərişlər vermişəm.

Ümumiyyətlə, hesab edirəm ki, bu bir il ərzində bizim xarici siyasətimiz çox əhəmiyyətli, uğurlu olmuşdur və onu bu şəkildə davam etdirəcəyik. Dediklərimi yekunlaşdıraraq qeyd etmək istəyirəm ki, məhz bu müddətdə apardığımız ardıcıl və fəal xarici siyasət nəticəsində dünyanın ən böyük

dövlətləri ilə bilavasitə əlaqə yaratmışıq, dövlət başçıları ilə görüşmüşük və beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda, xüsusən bu səfər zamanı Birləşmiş Millətlər Təşkilatında Azərbaycan dövlətinin səsi eşidilmiş, onun mövqeyi bildirilərək dünya ictimaiyyətinə çatdırılmışdır. Bir daha deyirəm ki, bütün bunlar apardığımız işlərin müsbət nəticəsidir. Bu istiqamətdə də işimizi davam etdirəcəyik.

Bildiyimiz kimi, son günlər Azərbaycanın həyatında bəzi narahatedici, hətta faciəli hadisələr baş vermişdir. Azərbaycan dövlətinə qarşı cinayət törətmiş dörd nəfər sentyabrın 22-də respublika Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçırılmışdır və onlar indiyədək tapılmamışdır. Şübhəsiz ki, bu, Azərbaycanda sabitliyi pozmaq, dövlətimizə zərbə vurmaq məqsədi ilə keçirilən əməliyyatdır və mən bunu televiziya ilə ötən çıxışımda demişəm. Bir daha qeyd etmək istəyirəm ki, bu, həm xarici qüvvələrin, həm də daxildə olan, respublikamızın müstəqilliyinə düşmən olan çirkin qüvvələrin birgə fəaliyyətinin nəticəsidir. Bundan məqsəd Azərbaycanda qarışıqlıq yaratmaq, ölkəmizin müstəqilliyinə təcavüz etməkdir. Biz bu hadisəyə öz qiymətimizi verdik və hüquq-mühafizə orqanlarına tapşırdıq ki, lazımi tədbirlər görsünlər.

Mən sentyabrın 29-da Amerika Birləşmiş Ştatlarında olarkən çox ağır xəbər aldım. Həmin gün axşam Azərbaycan Respublikasının iki dövlət xadimi – Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qəddarcasına, vəhşicəsinə qətlə yetirilmişlər. Mən bu xəbəri BMT Baş Məclisinin sessiyasında çıxış etməyə gedərkən eşitdim. Bu acı xəbər məni çox üzdü, sıxdı, eyni zamanda məni səfərbər etdi və bildirdi ki, bəli, respublikamızda sabitliyi pozmaq, Azərbaycan dövlətinə, ölkəmizin müstəqilliyinə təcavüz etmək istəyən qüvvələr var. Onlar həm Azərbaycanın daxilində, həm də onun xaricindədir. Bu hadisə ilə bağlı mən Nyu-Yorkda bəyanat verdim, onun mətni Azərbaycanda mət-

buatda dərc olunmuş, əhaliyə çatdırılmışdır. Ona görə də bir daha təkrar etmək istəmirəm, sadəcə olaraq demək istəyirəm ki, bu, adi bir terror hadisəsi, iki nəfər dövlət xadiminin qətlə yetirilməsi deyil, müstəqil Azərbaycan dövlətinə qarşı yönəldilmiş siyasi terrordur. Şübhəsiz ki, Azərbaycan xalqı buna qarşı öz cavabını, sözünü deməlidir.

Əlbəttə, bu hadisələr bizi üzür, sıxır, kədərləndirir. Ancaq eyni zamanda, mən bunu Nyu-Yorkda və İstanbulda da dedim, bu gün sizə də deyirəm, - bütün bunlar heç vaxt bizim iradəmizi, Azərbaycan xalqının iradəsini, Azərbaycan dövlətinin iradəsini, mətanətini qıra bilməz. Biz bütün bu çətinliklərə sinə gərəcək, onların qarşısını alacaq və bu vəziyyətdən çıxacağıq. Mən bunu sizə bir daha bildirmək istəyirəm.

Ancaq təəssüflər olsun ki, dövlətçiliyimizə qəsd edən qüvvələr yenə də öz əməllərindən əl çəkmirlər. Dünən də belə bir cinayət hadisəsi baş vermişdir. Dünən təxminən axşam saat 8 radələrində Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvü qanunsuz olaraq silahlı halda, qəflətən Azərbaycan Respublikası Prokurorluğunun binasına daxil olmuş, orada atəş açaraq bir çox yerləri dağıtmışdır. Nəhayət, onlar baş prokurorun iş otağına girərək ona ağır fiziki xəsarət yetirmişlər. Silahlı dəstənin bir hissəsi prokurorluğun binasını ələ keçirmiş, bir hissəsi onu bayırdan mühasirə etmiş və hətta binanın damında, həmçinin ətraf binaların damlarında iriçaplı silahlar qoyaraq əməliyyat keçirməyə hazırlaşmışdır.

Onların məqsədinin nədən ibarət olması məlum deyildir. Aldığımız məlumatlardan və həmin dəstəyə başçılıq edən Xətai rayon prokuroru Mahir Cavadovun baş prokurorun birbaşa telefonu ilə mənə verdiyi məlumatdan, daxili işlər nazirinin müavini Rövşən Cavadov oraya gəldikdən sonra onun mənimlə danışığından belə məlum olur ki, guya son vaxtlar inzibati orqanlar, xüsusən prokurorluq Rövşən Cavadovu və Ma-

hir Cavadovu təqib etməyə başlamışdır və ona görə də onlar bu cinayətkar hərəkətə əl atmışlar.

Əslində isə, baş prokurorun verdiyi məlumatdan aydın olur ki, bu iki terror hadisəsi – yəni Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun qətlə yetirilməsi ilə əlaqədar prokurorluq təhqiqat aparır, bir çox şübhəli adamları saxlayır. Xüsusi Təyinatlı Polis Dəstəsindən olan üç nəfər də şübhəli şəxs kimi saxlanmışdır və onların barəsində müəyyən təhqiqat, araşdırma aparılır. Bu, təbii haldır. Əgər kim isə bundan narazıdırsa, bunu ədalətli şəkildə, qanun yolu ilə bildirməlidir. Ancaq bu narazılığı belə cinayət hərəkəti ilə ifadə etmək, şübhəsiz ki, ağlasığan iş deyil. Yəni sadəcə olaraq prokurorluğun həmin tədbirinə cavab deyil, əvvəlcədən hazırlanmış hərəkətdir.

Doğrudur, bu çox ağır cinayətdir, Azərbaycan dövlətçiliyinə qarşı cinayətdir. Çünki Respublika Prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir. Əgər bu orqana və onun başında duran adama qarşı təcavüz edilirsə, deməli, Azərbaycan dövlətinə qarşı təcavüz olunur. Biz bunu belə qiymətləndiririk. Şübhəsiz ki, Azərbaycan dövləti bunun qarşısını almağa qadirdir və lazımi tədbirlər görə bilərdi. Lakin bu dəstə çox güclü silahlandığına görə, qəti tədbirlər görülərsə, qan tökülə biləcəyini nəzərə alaraq biz məsələnin dinc yolla, danışıqlar vasitəsilə həllinə çalışdıq. Axşam saat 8-dən, yəni bu hadisə başlanandan səhər saat 7-dək bütün gecəni müəyyən tədbirlər gördük, danışıqlar apardıq. Rövşən Cavadov bir neçə dəfə telefonla zəng etdi. Mən izah etdim ki, onun bu hərəkəti yaramaz hərəkətdir. O, daxili işlər nazirinin müavinidir və mən Azərbaycanın Prezidenti kimi ona bu işdən əl çəkməyi əmr edirəm. Bildirdim ki, bu hərəkətlərin onlardan ötrü heç vaxt müsbət nəticəsi ola bilməz, onlar ağılsızlıq edirlər, bunu bəlkə də təcrübəsizlikdən, yaxud başqa təsirlər altında edirlər.

Mən çalışdım ki, bunu ona izah edim və o, hərəkətindən əl çəksin. Vasitəçilik etmək üçün onların yanına adamlar göndərdik, danışıqlar apardıq və təklif etdik ki, silahları təhvil versinlər. Bildirdik ki, onların binadan salamat çıxmaları üçün şərait yaradılır. Ancaq onlar cinayət törətmişlər və gələcəkdə bunun üçün cavab verəcəklər. Bu, qanuni yolla olacaqdır. Lakin bu gecə heç bir tədbir görülməməli, heç bir toqquşma olmamalıdır.

Biz bu mövqeni axıradək həyata keçirməyə çalışdıq. Baxmayaraq ki, dövlətçiliyimizə qarşı, Azərbaycan Respublikasının müstəqilliyinə qarşı cinayət törədilmişdir, mən hesab edirəm ki, biz doğru addım atdıq. Çünki Azərbaycanın hər bir vətəndaşı mənim üçün Azərbaycanın Prezidenti üçün əzizdir. Mən hər bir vətəndaşı qorumalıyam. Əgər kim isə cinayət etmişdirsə, onu bu əməldən çəkindirməliyəm və o, belə hərəkəti üçün qanun çərçivəsində cavab verməlidir. Mən hər bir məsələnin dinc yolla, qarşılıqlı anlaşma və danışıqlar vasitəsilə həllinə tərəfdar olduğumu bildirmişəm və indi də bu mövqedən çıxış etdim.

Bütün bunların nəticəsində həmin silahlı qüvvələr, nəhayət, heç bir maneçilik olmadan oradan çıxaraq öz nəqliyyat vasitələri ilə bazalarına getdilər. Danışıqlardan belə başa düşdüm ki, Rövşən Cavadov mənim yanıma gəlmək istəyir. Mənə bir neçə dəfə xəbər göndərdi ki, gəlib izahat vermək istəyir. Mən dedim ki, qanunsuz hərəkət etməyinizə, cinayət törətməyinizə baxmayaraq sizi qəbul etməyə və sizinlə danışmağa məlumatınızı dinləməyə, eyni zamanda bu cinayətkar yoldan çəkinməyin zəruriliyini sizə izah etməyə hazıram. Bunu bir neçə dəfə bildirdim və nəhayət, dedilər ki, səhər silahlı dəstələr oradan çıxanda o, mənim yanıma gələcəkdir. Lakin o gəlib çıxmadı. Bu gün də onun yanıma gəlmək təşəbbüsü barədə mənə xəbər çatmamışdır. Mən bununla ma-

raqlanmışam və belə bir təşəbbüs barədə məlumat verən olmamışdır.

Onlar bu cinayəti etmişlər. Ancaq Azərbaycanın Prezidenti kimi mən hər bir vətəndaşın, o cümlədən həmin Xüsusi təyinatlı Polis Dəstəsindən bu cinayəti edən adamların, onlara başçılıq edən Mahir Cavadovun, Rövşən Cavadovun da qayğısına qalıram. Bu baxımdan mən məsələnin qanun çərçivəsində, Azərbaycan dövlətçiliyinin qorunması şərtləri daxilində ağılla həllinin tərəfdarıyam və bunu istəyirəm. Ona görə də bu təklifləri onlara verdim. Zənnimcə, biz məsələnin bir hissəsini düzgün həll etməyə, yəni onların oradan hadisəsiz, toqquşmasız çıxıb getməsinə, prokurorluğun binasının azad edilməsinə nail olduq.

Ancaq cinayət cinayətliyində qalır. Respublika prokuroru ağır fiziki xəsarət almışdır. O, indi müalicə edilir. Binaya böyük zərər dəymişdir. Respublika Prokurorluğunun rəhbər işçiləri, 30-40 nəfərə qədər adam səhərədək orada həbs vəziyyətində qalmışdır. Şübhəsiz ki, onlar da təhqir olunmuşlar. Bütün bu hərəkətlər cinayətdir. Respublika prokuroru xəstə olduğuna görə onun vəzifəsini icra edən Eldar Həsənov məlumat verdi ki, bu hadisə barədə cinayət işi qaldırılmışdır. İstintaq gedir və qanun çərçivəsində məsələni araşdıracaqdır. Hesab edirəm ki, belə də olmalıdır.

Məsələ bununla qurtarmır. Odur ki, biz şərt qoymuşduq, təklif etmişdik: onlar silahlarını təhvil verməli, təslim olmalıdırlar. Lakin onlar çıxıb getmişlər və bundan sonra qanun qarşısında cavab verməlidirlər. Halbuki silahları təhvil vermək üçün onlara şərait yaradılmışdır. Budur indi onlar 8-ci kilometr qəsəbəsində Xüsusi təyinatlı Polis Dəstəsinin – XTPD-nin bazasında qərar tutmuş, silahları, o cümlədən ağır silahları hazır vəziyyətə gətirmiş və yenə də öz cinayətlərini davam etdirirlər.

İnzibati orqanlarımızın nümayəndələri onlarla əlaqəyə girmiş və danışıqlar aparırlar, izah etmişlər ki, bu hərəkətlərdən əl çəksinlər. Amma onlar öz əməllərindən əl çəkmirlər. Buna görə də bu gün mən səfərimlə bağlı məsələləri, habelə Azərbaycanda baş vermiş terrora dair fikir və mülahizələrimi sizə çatdırmaqla yanaşı, bu məsələ barəsində də geniş məlumat vermək istəyirəm. Eyni zamanda, Azərbaycan Prezidenti kimi, öz mövqeyimi bildirmək istəyirəm.

Onların dünənki hərəkəti, o, hərəkətin bugünkü davamı göstərir ki, burada dövlət çevrilişinə cəhd edilir. Çünki onlar oradan ultimatumlar, o cümlədən də dövlətin rəhbərliyinə qarşı ultimatum verir, dövlət başçılarından bəzilərinin istefasını tələb edirlər. Halbuki, bunun üçün heç bir əsas yoxdur. Əgər bu ultimatumlar yerinə yetirilməsə, onlar yenə də cinayət edəcəklər. Bilirsinizmi, respublikamız belə ağır vəziyyətdə olduğu halda, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edildiyi halda, ölkəmiz ağır böhran keçirdiyi dövrdə, işğal olunmuş torpaqlardan bir milyon nəfərdən artıq qaçqının ağır şəraitdə yaşadığı bir dövrdə, son aylarda beynəlxalq aləmdə Azərbaycan haqqında obyektiv fikir yaratdığımız bir dövrdə, Azərbaycanın düşdüyü vəziyyət böyük dövlətlərdə, onların ictimaiyyətində, beynəlxalq təşkilatlarda daha obyektiv şəkildə dərk edildiyi bir vaxtda, Azərbaycan Respublikasının mövqeləri beynəlxalq meydanda möhkəmləndiyi vaxtda, böyük bir neft müqaviləsi imzalandığı bir dövrdə Azərbaycanda dalbadal bu cür faciəli hadisələrin baş verməsi onu göstərir ki, ölkəmizə təcavüz edən qüvvələr fəaliyyətindən qalmır, istər xaricdə, istərsə də daxildə Azərbaycanı dağıtmağa, parçalamağa, məhv etməyə can atan qüvvələr var. Bunlar öz şəxsi mənafelərinə çatmaq, şəxsi hikkələrini həyata keçirmək üçün, çirkin məqsədlərinə nail olmaq üçün bu yollara gedir, imzalanmış müqavilənin əleyhinə çıxırlar. Ona görə də bu cür əməllərə əl atırlar.

Məhbuslar təcridxanadan qaçırlar, adamlar vəhşicəsinə qətlə yetirilir. Bu qədər vəhşilik azərbaycanlılarda heç vaxt olmayıbdır. Heç bir günahı olmayan, dövlətin idarə edilməsi sahəsində böyük fəaliyyət göstərən adamları qəflətən, vəhşicəsinə öldürmək – inanın ki, bu, bizim xalqımıza yaraşmayan və xas olmayan vəhşilik nümunəsidir, xalqımızın müsbət keyfiyyətlərini, heç bilirsinizmi, nə qədər ləkələyir. Biz çalışırıq ki, xalqımızın bütün gözəl ənənələrini, gözəl keyfiyyətlərini, çox yüksək mədəniyyətə malik olduğunu bütün dünyada təbliğ edək, yayaq, müstəqil Azərbaycanı hər yerdə tanıdaq, Azərbaycan xalqının nail olduğu milli azadlığın qorunmasını təmin edək.

Belə olduğu halda bu hərəkət arxadan endirilmiş zərbədir. Təəssüf ki, içərimizdəki bəzi adamlar xarici qüvvələrin əlində bir alətə çevrilərək, belə əməllər tuturlar. Bunlar həm də hakimiyyət uğrunda mübarizəni dayandırmırlar. Əziz qardaşlar, əziz bacılar, əziz həmvətənlər, bir deyin görək, Azərbaycanda hakimiyyət uğrunda nə qədər mübarizə gedə bilər? Nə qədər, nə vaxtadək? Heç bir il keçməyibdir ki, biz vətəndaş müharibəsinin qarşısını almışıq. Ötən ilin iyununda Gəncədə baş vermiş qardaş qırğınının qarşısını aldıq. Biz Azərbaycanı parçalamaq istəyən qüvvələri təkləyib təcrid etdik. Halbuki Azərbaycan artıq parçalanmışdı – cənubda da, başqa yerlərdə də. Bəzi cinayətkar qüvvələr Azərbaycanın ayrı-ayrı yaşayış məntəqələrini əllərinə keçirmişdilər. Biz bunların qarşısını aldıq, cinayətkarları təcrid etdik, onları qanun qarşısında cavab verməyə gətirdik. Budur, yeni hadisələr baş verir. Azərbaycanı yenə də sarsıtmaq, dağıtmaq, onun müstəqilliyinə qəsd etmək istəyirlər – bütün bunları ayrı cür qiymətləndirmək olmaz.

Ayın 22-də məhbusların qaçırılması, sonra dövlət xadimlərinə qarşı sui-qəsd və nəhayət, dünən axşam saat 8-dən başlanmış və indi davam edən cinayət əməliyyatı bir-biri ilə bağlı

olan, bir-birini tamamlayan hərəkətlərdir – Azərbaycanın müstəqilliyinə qarşı qəsd, təcavüz hərəkətləridir. Odur ki, biz bu hərəkətlərin qarşısını almalıyıq. Bu, bizim borcumuzdur. Biz belə də edirik və edəcəyik.

Zənnimcə, indi Azərbaycan xalqı ayağa qalxmalıdır. Hər bir vətəndaş, vətəninə sadiq olan hər bir qeyrətli, vətənpərvər insan bu məsələləri özü götür-qoy etməli, öz mövqeyini bildirməli, Vətənimizdə, ictimai-siyasi həyatımızda öz yerini tutmalıdır. Biz hamımız əl-ələ verməliyik, bu ağır vəziyyətdən çıxmaq üçün birləşməliyik. Buna görə də mən xalqı milli həmrəyliyə, milli birliyə dəvət edirəm. Xalqı dəvət edirəm ki, bu ağır günlərdə bütün dedi-qodular bir kənara atılsın, bütün umu-küsülərə son qoyulsun, xalq birləşsin. Çünki respublikanın, müstəqil Azərbaycanın dövlətçiliyi təhlükə qarşısındadır. Bəzi qüvvələr hərəsi bir tərəfdən hərəkət edərək Azərbaycanı dağıtmağa can atırlar. Buna görə də kim Azərbaycanı sevirsə, kim onun müstəqilliyini istəyirsə, kim bir Azərbaycan vətəndaşı kimi öz vətənpərvərlik hisslərini və duyğularını bildirmək istəyirsə, hamı ayağa qalxmalı, səsini ucaltmalı, münasibətini göstərməlidir.

Əvvəlki hadisələr kimi, bu son hadisə də Azərbaycanda daxili sabitliyi pozmaq, dövlət çevrilişi etmək cəhdidir. Mən bunu məhz belə qiymətləndirirəm. Bildiyimiz kimi, son aylar ərzində ictimaiyyət arasında da, cəmiyyətdə də çox danışıqlar, söz-söhbətlər gedir, mətbuatda da yazılır, ayrı-ayrı ölkələrin kütləvi informasiya vasitələrində qızışdırıcı məqalələr verilirdi ki, dövlət çevrilişi hazırlanır, dövlət çevrilişi olacaqdır və s. və i.a. Mən bütün bu söz-söhbətləri, məqalələri həmişə çox soyuqqanlılıqla qarşılayırdım. Elə bu gün də sizinlə çox soyuqqanlı, təmkinlə danışıram. Çünki mən Azərbaycan xalqının iradəsinə arxayınam. Çünki mən müstəqil Azərbaycan dövlətinin qüdrətinə arxayınam.

Ona görə də bunların hamısını soyuqqanlılıqla qarşılayır və hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmağa, yaxud yenə də çevriliş etməyə çalışan qüvvələr anlamalıdırlar: Azərbaycan Respublikasının müstəqilliyi, mənafeyi hər şeydən üstün olmalıdır. Azərbaycanın müstəqil dövlət kimi mənafeyi dünyada hər şeydən uca olmalıdır. Mən həmişə belə düşünmüşəm və bu gün də belə düşünürəm. Ona görə də belə hesab edirəm ki, o cinayəti törədənlər tutduqları yoldan, nəhayət qayıtmalıdırlar.

Onlar, bir qrup adam cinayət törədirsə, bu cinayəti Azərbaycan dövləti əleyhinə, milli azadlığımız əleyhinə törədirlər. Beləliklə də bunlar Azərbaycanı dağıtmaq məqsədinə xidmət edirlər. Bunu onlar, o cümlədən dünən bu cinayəti edənlər də, o dəstəyə girən adamlar da bilməlidirlər. Bunu hamı bilməlidir.

XTPD Azərbaycanda neçə illərdir fəaliyyət göstərir. Azərbaycan torpaqlarının qorunmasında onun xidmətləri olmuşdur. Bu dəstənin üzvləri arasında çox namuslu, qeyrətli, cəsarətli Azərbaycan oğulları var. Onlar döyüşüblər, torpaqlarımızın müdafiəsi uğrunda qanlarını axıtmış, bəziləri bu yolda canından keçərək şəhid olmuşlar. Bu vətənpərvər oğullar torpaqlarımızın müdafiəsi naminə hünər göstərmişlər. Bax, buna görə də Xüsusi Təyinatlı Polis Dəstəsinin tarixi, fəaliyyəti, göstərdiyi xidmətlər qiymətləndirilməlidir. Bunları Azərbaycan xalqı, eləcə də Azərbaycan dövləti lazımınca qiymətləndirir və qiymətləndirməlidir. Şəhid olanlara mən həmişə «Allah rəhmət eləsin» demişəm.

Bu yaxınlarda mən XTPD-nin üzvü – torpaq uğrunda, Vətən yolunda vuruşmuş, Tahir Həsənovun xatirə günündə iştirak etdim. Bakıda, şəhərin mərkəzində məktəblərdən birinə onun adı verilmişdir. Həmin məktəbin binası qarşısında onun xatirə lövhəsinin açılış mərasimində çıxış etdim. Mərasimdə həm Tahir Həsənov haqqında, həm də ümumiyyətlə, XTPD-

nin xidmətləri barədə, şəhidlər haqqında öz fikirlərimi söylədim, o şəhidlərin ruhu qarşısında baş əydim. Mən onların ruhu qarşısında bu gün də baş əyirəm. Amma təəssüflər olsun ki, ayrı-ayrı cinayətkar adamlar Xüsusi Təyinatlı Polis Dəstəsinin bəzi üzvlərini ələ keçirmiş, onları yoldan çıxarmış, cinayətə cəlb etmişlər. Çox təəssüflənirəm ki, son vaxtlar onların bir qismi cinayətlər törətdiyinə görə inzibati orqanlar tərəfindən həbs olunmuş, cinayət məsuliyyətinə cəlb edilmiş, cəza almışdır, yaxud da onların barəsində təhqiqat aparılır. Bu, olduqca təəssüflü haldır.

Dünən mən Xüsusi Təyinatlı Polis Dəstəsinin nümayəndələrindən biri ilə danışdım. O, çox yaxşı fikirli adamdır. Mən rəisin birinci müavinini nəzərdə tuturam. Gərək ki, familiyası Cəfərovdur. Yenə deyirəm, o, yaxşı fikirli, sağlam düşüncəli adamdır. Onu Tahir Həsənovun xatirə günündə də görmüşdüm, - mərasimdə çıxış etmişdi. Mən onu da başa salmağa çalışaraq dedim ki, sizin xidmətləriniz böyükdür, biz bunu qiymətləndiririk. Amma bu xidmətləriniz heç vaxt heç kəsə əsas verməz ki, siz gəlib qanunu pozasınız, qanun çərçivəsindən kənara çıxasınız, hətta cinayətə əl atasınız. Əgər kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyi qanun yolu ilə, haqq-ədalətlə aradan qaldırmaq lazımdır. Amma ədalətsizliyə qarşı böyük bir cinayət törətmək ədalətsizlikdən də betərdir, ondan qat-qat artıqdır. Bunun özü də böyük cinayətdir. Dünən mən bunu Rövşən Cavadova da, görüşdüyüm digər adamlara da başa salmağa çalışdım.

Odur ki, bu gün mən çıxış edərkən Xüsusi Təyinatlı Polis Dəstəsinin istər keçmiş, istərsə də indiki üzvlərinə, döyüşçülərinə üz tuturam, bir prezident kimi, Azərbaycanın həyatında zəngin təcrübə toplamış, zəngin həyat təcrübəsi olan bir adam kimi müraciət edir və deyirəm ki, bu cinayəti törədənlər cinayət yolundan çəkilsinlər. Bilsinlər ki, onların xidmətləri yük-

sək qiymətləndirilir və bundan sonra da yüksək qiymətləndiriləcəkdir.

Lakin hər bir xidmət nə qədər yüksək olsa da, heç vaxt heç kəsə bəraət qazandıra bilməz ki, kimsə belə xidməti olduğuna görə gedib qanunsuz əməl tutsun, yaxud cinayət törətsin. Vəzifəsindən, xidmətindən, ad-sanından asılı olmayaraq, heç kəs qanunsuz hərəkət etməməlidir. Hər bir şəxs qanun çərçivəsində yaşamalı, qanun çərçivəsində işləməlidir.

Ona görə də bu gün mən Xüsusi Təyinatlı Polis Dəstəsinə, onun nümayəndələrinə, rəhbərlərinə ürək ağrısı ilə müraciət edirəm: bilin ki, mən sizin hər birinizi Azərbaycan vətəndaşı kimi qiymətləndirirəm, hətta günahı olan adamların da qayğısına qalmağa hazıram. Amma bu cinayət yolundan əl çəkmək lazımdır. Bu yol heç bir nəticə verə bilməz, heç bir! Siz artıq qan tökmüsünüz. Mən bunu hamıya şamil etmirəm, - ayrı-ayrı adamlar qan tökmüşlər. Dünən XTPD-nin bəzi üzvləri prokurorluğun binasını zəbt edərkən çoxlu atəş açmışlar. Lakin mən qoymadım ki, dövlət orqanları, hüquq-mühafizə orqanları tərəfindən lazımi addım atılsın. Amma XTPD üzvləri atəş açdılar, iki polis nəfərini yaraladılar.

Bu gün onlar dediyim həmin bazaya yığışıblar. Bazanın ətrafındakı binaların üstünə silah, hətta ağır silahlar qoyublar, yəni müharibəyə başlayıblar. Hələ bir ultimatum da veriblər. Bu gün baş nazir Surət Hüseynov mənə məlumat verdi ki, Rövşən Cavadov ona zəng vurub, böyük bir ultimatum göndərib ki, Ali Sovetin sədri, daxili işlər naziri, baş prokuror istefaya getməlidirlər. Nə üçün, nə səbəbə görə? Kimin nə sözü varsa, qoy gəlsin, danışaq. Heç belə məsələləri güc ilə, zor ilə həyata keçirmək olar? Özü də kim həyata keçirməyə çalışır? XTPD-nin öz yeri, öz vəzifələri var. Əvvəla, o, siyasətə qarışmamalıdır. O, Daxili İşlər Nazirliyinin bir hissəsidir. Daxili İşlər Nazirliyi də artıq məlumat vermişdir ki, həmin dəstədə olan polislər nazirliyin tabeliyindən çıxmışlar. Deməli, burada

qanun pozulmuşdur. Onlar siyasətə qarışmamalıdırlar. Ancaq dövlət haqqında, dövlət siyasəti haqqında, rəhbər işçiləri haqqında kimin nə sözü var, nə təklifi varsa, gəlib deyə bilər, yaza da bilər. Axı, aşkarlıqdır, söz azadlığıdır. Amma ağır silahdan, özü də dövlətdən götürülən silahdan, dövlətin bu dəstəyə verdiyi silahdan istifadə edib zor işlətmək, öz iddialarını yeritmək, həyata keçirməyə çalışmaq böyük bir cinayətdir. Şübhəsiz ki, buna yol vermək olmaz.

Hüquq-mühafizə orqanlarımızın nümayəndələri mənə məlumat verdilər ki, həmin yaşayış məntəqəsində asayişi qorumaq və bu dəstənin yenidən cinayət törətməsinin qarşısını almaq üçün oraya müəyyən qüvvələr gətirilmişdir. Bu da təbiidir. Bəs necə ola bilər ki, dövlətin Xüsusi Təyinatlı Polis Dəstəsi onun tabeliyindən çıxsın, dövlət orqanlarına qarşı cinayət törətsin və dövlət orqanları da durub buna tamaşa etsinlər? Bu, əsla ola bilməz və mümkün deyildir. Onda dövlət daha dövlət olmaz. Buna görə də şübhə yoxdur ki, hüquq-mühafizə orqanlarının müəyyən qüvvələri oraya toplaşmışdır. Ancaq sadəcə olaraq müşahidə etmək üçün toplaşmışlar, başqa bir məqsəd üçün yox.

Lakin bir neçə saat bundan qabaq mənə məlumat verdilər ki, XTPD-nin üzvləri atəş açmışlar. Ordunun dörd nəfər gənc üzvü yaralanıb. Onlar 18-19 yaşlı cavanlardır. Bu döyüşçülərdən biri – Bayramov ağır yaralıdır. İki saat bundan öncə mənə xəbər verdilər ki, indi cərrahlar onun həyatı uğrunda mübarizə aparır, xilas etməyə çalışırlar. Qan tökülüb. Nəyə görə, nəyin naminə? Bu adamlar – cinayətə cəlb edilənlər qardaş qanını nə səbəbə görə tökürlər? Mahir Cavadov, Rövşən Cavadov nə üçün bu qanı tökürlər? Öz iddialarını yerinə yetirmək üçün? Əgər onların bir iddiası varsa, məgər bunu qanuni yolla həyata keçirmək olmazmı? Axı, respublikamızda demokratik, hüquqi dövlət qurulur. Demokratiya hamıya şərait yaradıb ki, sözünü desin, qəzetdə çıxış etsin, öz təkliflərini

versin. Amma Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsi, yenə deyirəm, siyasətə qarışa bilməz. Rayon prokuroru siyasətə qarışa bilməz. Daxili işlər nazirinin müavini siyasətə qarışa bilməz. Bütün bunlar qanun-qaydadan, ümumi təcrübədən kənar hallardır. Onlar anlamalı, dərk etməlidirlər ki, çox səhv yola düşmüşlər, kiminsə əlində alətə çevrilmişlər. Onların hansı qüvvələrin əlində alətə çevrildiyi aydındır. Buna görə də mən belə hesab edirəm ki, dünəndən bəri aparılan müşahidələr də onu göstərir ki, hansı qüvvələrsə onları bu əmələ vadar edib və söz veriblər ki, onları müdafiə edəcəklər. Bununla da dövlət çevrilişi ediləcəkdir. Lakin onlar buna nail ola bilmədilər. Bu gün də nail ola bilməyəcəklər, sabah da.

Mən yenə də istəmirəm ki, Azərbaycanda qan tökülsün. İnanın, mən bunu istəmirəm. XTPD-nin ayrı-ayrı üzvləri tərəfindən artıq altı adam yaralanmışdır, bir nəfər ölümcül vəziyyətdədir. Onlar qan tökmüşlər, törətdikləri cinayətin üstünə daha bir cinayət də gəlmişdir. Bütün bu cinayətləri törətmələrinə baxmayaraq, mən onları yenə də haqqa, ədalətə dəvət edirəm. Mən bir dövlət başçısı kimi onların hamısına müraciət edirəm: ayılın, bir fikirləşin, düşünüb-daşının, bilin ki, həyat bununla bitmir. Əgər siz doğrudan da, torpaqlarımızın müdafiəsi üçün döyüşmüşsünüzsə, qanınız tökülübsə və xalq bunu qiymətləndirirsə, elə isə nə üçün bu gün, hələ möhkəmlənməmiş olan müstəqil Azərbaycan dövlətinin dağılmasına cəhd göstərilsin? Nə üçün? Sizə nə lazımdır?

Mən müraciət edirəm Rövşən Cavadova – baxmayaraq ki, o, böyük cinayət törətmişdir, - onun rəhbərliyi altında olan polislərin hər birinə müraciət edirəm: düz yola gəlin, ayılın, hələ gec deyildir. Siz özünüzü də, bu xalqı da uçuruma aparırsınız. Bunu bilməlisiniz. Mən sizə bəyan edirəm ki, tutduğunuz bu yoldan dönüb çəkilmək hələ gec deyildir. Əgər indi bu yoldan çəkilsəniz, bu, lazımınca qiymətləndiriləcək və sizə müəyyən güzəştlər edilə bilər. Amma bu yoldan çəkilməsə-

niz, onda bilin ki, siz Azərbaycanı dağıtmaq istəyirsinizsə, buna nail ola bilməyəcəksiniz. Əvvəla, buna Azərbaycan xalqı heç vaxt yol verməz – mən hesab edirəm ki, bu gün Azərbaycan xalqı bir nəfər tək ayağa qalxmalıdır. İkincisi, əgər sizin kimi cinayətkar adamlar Azərbaycanı doğrudan da dağıda bilərlərsə, onda bu, tarixi bir cinayət olacaqdır.

Mən Xüsusi Təyinatlı Polis Dəstəsinin ayrı-ayrı üzvlərinə müraciət edirəm, cavan olduqlarına görə onların ailələrinə, atalarına, analarına müraciət edirəm: əziz bacılar və qardaşlar, bilin və agah olun ki, sizin övladlarınız göstərdikləri böyük xidmətləri indi necə də ləkələyirlər.

Mən atalara, analara, o polislərin həyat yoldaşlarına müraciət edirəm: siz öz oğullarınızı, qohum-əqrəbanızı, ərlərinizi başa salın ki, bu cinayətdən çəkinmək lazımdır.

Bu gün mən Azərbaycanda böyük hörmət sahibi olan Bəxtiyar kişiyə – Bəxtiyar Cavadova müraciət edirəm. Mən onu tanıyıram. Azərbaycanın hörmətli adamlarındandır, uzun müddət hüquq-mühafizə orqanlarında işləyib, özü də çox sədaqətlə işləyib, hörmət qazanıbdır. Xatirimdədir, təxminən iki ay bundan öncə televiziya ilə çıxış edirdi. Onun çıxışını mən də gördüm. Azərbaycan haqqında, ölkəmizin müstəqilliyinin qorunması haqqında çox ürək ağrısı ilə danışırdı. Bu hörmətli Bəxtiyar kişi Rövşən və Mahir Cavadovların atasıdır. Bəxtiyar kişi, mənim səsimi eşidirsiniz, mən sizə müraciət edirəm. Siz dünyagörmüş adamsınız. Amma biganə qala bilməzsiniz ki, övladlarınız, iki oğlunuz bu gün çox qanunsuz bir yola düşmüşdür. Yox, siz buna biganə qala bilməzsiniz. Əvvəla, onlar sizin övladlarınızdır, onların həyatları sizin üçün əzizdir. İkincisi isə siz Azərbaycanın müstəqilliyi yolunda xidmətləri olan adamsınız, ağsaqqal, hörmətli adamsınız. Bilin ki, bu hərəkətlər sizi və bütün nəslinizi ləkələyir. Düşünürəm ki, siz bunu dərk edirsiniz. Sizin kimi mən də təcrübəli adamam, sizin təki təcrübəli adam, həyat görmüş adam kimi

sizə müraciət edirəm: bunun qarşısını alın, oğullarınızı bu yoldan çəkindirin. Belə əməllərin axırı yoxdur, qətiyyən yoxdur. Mən sizə müraciət və sizi əmin edirəm ki, bu sahədə xidmətlərinizi Azərbaycan xalqı heç vaxt unutmayacaq və lazımınca qiymətləndirəcəkdir. Sizin xidmət göstərməyə, öz sözünüzü deməyə imkanınız var. Mən sizi buna dəvət edirəm.

Mən bütün Azərbaycan xalqına müraciət edirəm, Azərbaycanın hörmətli şəxslərinə – ziyalılara, alimlərə, mədəniyyət xadimlərinə, yazıçılara, xalqımızın və cəmiyyətimizin önündə gedənlərə müraciət edirəm: indi Azərbaycanın bu vəziyyətinə biganə qalmaq olmaz. Təəssüflər olsun ki, son illər bu biganəlik bir çox adamlara sirayət etmişdir. Ola bilsin ki, bunun obyektiv səbəbləri var. Çünki Azərbaycanda həyat o qədər qarışıq, o qədər çətindir ki, bax, bu cür cinayət halları adamları elə qorxudub, elə həyəcanlandırıb ki, bəziləri bir kənara çəkilir, bəziləri də hər şeyə biganə qalırlar.

Əziz bacılar və qardaşlar, belə olmaz, əsla olmaz. Xalqın taleyinə, müqqəddaratına biganə qalmaq olmaz. Xüsusən də xalq içərisində tanınmış adamlar, xalq arasında barmaqla göstərilən, həmişə xalqın hörmətini görmüş, həmişə dövlətin qayğısı ilə yaşamış adamların biganə qalmağa mənəvi haqqı yoxdur. Bir daha deyirəm, yoxdur! Ona görə də mən sizə müraciət edirəm. Axı sizin çoxunuz dünyagörmüş adamlardır. Siz – ziyalılarımız, hörmətli adamlarımız, ictimai-siyasi xadimlərimiz Azərbaycanın keçmişini də görmüsünüz, bu gününü də görürsünüz, gələcəyini də düşünürsünüz. Ona görə də səsinizi qaldırın, ayağa qalxın. Mən sizə deyirəm: bu gün Azərbaycanın dövlətçiliyi təhlükə qarşısındadır. Çünki cürbəcür düşmən qüvvələri birləşirlər.

Bizim bir hədəfimiz, bir məqsədimiz var – Azərbaycanı erməni təcavüzündən qurtarmaq. Mən bunu hamıya müraciətlə deyirəm. Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, bir milyon nəfərdən çox qaçqını öz yurd-yuvasına,

doğma yerlərinə qaytarmaq, dağılmış evləri, binaları, yaşayış məntəqələrini bərpa etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək – bax, budur bizim məqsədimiz, Azərbaycan Respublikasını, müstəqilliyimizi qorumaq – bax, budur bizim məqsədimiz. Hamımız bu hədəfi vurmalı, bu məqsəd uğrunda çalışmalıyıq. Bu, hamı üçün hər şeydən üstün olmalıdır. Bu amal naminə başqa şeyləri bir kənara atmaq lazımdır. Kimin kimdən xoşu gəlir, kimin kimdən xoşu gəlmir, kimsə hakimiyyətə gəlmək istəyir, - qoy oturub fikirləşsin, görsün ki, o, hakimiyyəti idarə etmək iqtidarındadırmı, bunun üçün imkanı, bacarığı, təcrübəsi var, ya yox? Əgər varsa, onda qoy hakimiyyətə qanuni yolla gəlsin. Heç bir cəmiyyətdə zorla iqtidara gəlmək mümkün deyildir. İqtidara zorla gələn iqtidarı saxlaya bilməz. Bunu tarix göstəribdir. Bunu bütün ölkələrin təcrübəsi, o cümlədən bizim müstəqil Azərbaycanın son illərdəki təcrübəsi də göstərib.

Odur ki, ümumi məqsədlərimiz uğrunda mübarizə aparmaq lazımdır. Bunun üçün hamı ayağa qalxmalıdır. Mən yenə də ziyalılarımıza, hörmətli adamlarımıza, ictimai-siyasi xadimlərimizə müraciət edirəm ki, bu gün ayağa qalxsınlar, bu cinayətin qarşısını alsınlar. Mən bu cinayətin qarşısını silah gücünə almaq istəmirəm, bunu istəmirəm. Mən istəmirəm ki, qan tökülsün. Lakin qoy hörmətli adamlar ayağa qalxsınlar, gedib onlarla danışsınlar, o gəncləri başa salsınlar, düz yola çağırsınlar. Biz bu cinayətin qarşısını ancaq belə yolla ala bilərik. Mən bu yolu təklif edirəm.

Məlumdur ki, dövlətin gücü var, ordusu var, hüquq-mühafizə orqanları var. Dövlət özünü müdafiə etməyə qadirdir. Dediyim kimi, o cinayətkar ünsürlər artıq qan töküblər, bunu dayandırmaq lazımdır. Qoymaq olmaz ki, qan tökülməsi davam etdirilsin. Qan onsuz da tökülür, torpaqlarımız qana batıbdır. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdə tor-

paqlarımız qana bulaşıbdır. Məgər o qanlar bəs deyilmi? İndi niyə biz burada, öz aramızda qan tökməliyik?

Buna görə də ziyalılarımıza, hörmətli adamlarımıza, ictimai-siyasi xadimlərimizə, ağsaqqallarımıza üz tutub deyirəm ki, onlar ayağa qalxsınlar, bir kənara çəkilib durmasınlar, gedib evlərində oturmasınlar, gəlib meydana çıxsınlar və bu cinayətin qarşısını almaq üçün xalqı birləşdirsinlər. Mən xalqı birləşdirmək istəyirəm. Ancaq onu da istəyirəm ki, xalqın önündə gedən adamlar bu işdə iştirak etsinlər.

Mən bütün hakimiyyət orqanlarına, hüquq-mühafizə orqanlarına, yerli hakimiyyət orqanlarının rəhbərlərinə, rayon və şəhərlərin, Bakının və digər yaşayış məntəqələrinin bütün hakimiyyət orqanlarının rəhbərlərinə, nazirlərə, dövlət işçilərinə, idarə və müəssisə rəhbərlərinə, zavod və fabrik direktorlarına müraciət edirəm: gücünüzü toplayın. Bu gün Azərbaycan dövlətçiliyini qorumaq üçün gərək hərə öz köməyini və xidmətini göstərsin. Hərəniz bir vəzifə tutursunuz, hər birinizə etimad göstərilib. Siz, bu vəzifələrə dövlətin siyasətini, tədbirlərini həyata keçirmək üçün təyin edilmisiniz. Buna görə də fəaliyyət göstərməlisiniz.

Mən siyasi partiyalarımıza müraciət edirəm. Onların arasında hakimiyyətə qarşı müxalifətdə duran qüvvələr var. Bu, təbiidir. Demokratik cəmiyyətdə müxalifət olmalıdır. Müxalifətin olması da məhz demokratiya deməkdir. Söz azadlığı, siyasi plüralizm, insan hüquqlarının qorunması – bunların hamısı respublikamızda bərqərar edilmişdir. Bizdə siyasi partiyalar da, ictimai təşkilatlar da, o cümlədən Xalq Cəbhəsi də fəaliyyət göstərir. Lakin mən hesab edirəm ki, bu gün, Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı indiki təhlükədən xilas etmək zərurəti meydana çıxdığı bir vaxtda müxalifət prinsipləri ikinci sıraya keçməlidir. Bu gün biz hamımız birləşib Azərbaycanın müstəqilliyini qoruyub saxlamalıyıq və qoymamalıyıq ki, bəzi qüvvələr Azərbaycan Respublikasını dağıt-

sınlar. Ona görə də mən bütün ictimai-siyasi xadimlərə, siyasi partiyalara, ictimai təşkilatlara, Xalq Cəbhəsinə və onların rəhbərlərinə müraciət edirəm: hər bir təşkilat, hər bir partiya öz vətənpərvərlik, vətəndaşlıq borcunu yerinə yetirməlidir, respublikanın bu ağır günündə öz sözünü deməli, öz xidmətini göstərməlidir, xalqı birləşdirmək üçün fəaliyyətdə olmalıdır.

Şübhəsiz ki, cəmiyyətimizdə bu cinayəti törədən qüvvələr var. Ancaq onlar azlıq təşkil edirlər. Cəmiyyətimizin böyük əksəriyyəti sağlam qüvvələrdən ibarətdir. Müxalifətdə olan partiyaların əksəriyyəti sağlam fikirlərlə, amallarla yaşayan partiyalardır. Əlbəttə, bəzi prinsiplərdə fikir ayrılığı var. Bu, tamamilə təbii haldır. Lakin Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı daha ağır vəziyyətə salmamaq üçün indi hamı birləşməlidir. Təsəvvür edin ki, dünən bu hadisə baş verən kimi Goranboy tərəfdə ermənilərin iri silahlı dəstələri hücuma keçmişlər. Düzdür, hücumun qarşısı alındı, danışıqlar aparıldı, atəş dayandırıldı. Amma təsəvvür edin ki, daxilimizdə bütün qayda-qanunları pozurlarsa, deməli, bu, xarici düşmənlərimizə, torpaqlarımızı zəbt edənlərə daha əlverişli şərait yaradır. Biz bunu ötən illərdə də görmüşük. Həmin illərdə bunların hamısı olmuşdur. İndi kimsə bunları bir daha təkrar etmək istəyir. Belə şeylərə yol vermək olmaz.

Güman edirəm ki, siyasi partiyaların, ictimai-siyasi təşkilatların hər biri öz mövqelərini müəyyənləşdirəcək, Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorumaq üçün xalqın ümumi işinə qoşulacaq və bu cinayətkar ünsürlərin qarşısını almaq üçün lazımi tədbirlər görəcəkdir. Mən buna ümid bəsləyirəm və arzu edərdim ki, bu ümidlər doğrulsun.

Mən ordumuza müraciət edirəm. Azərbaycanın milli Ordusu artıq formalaşmışdır. O, son döyüşlərdə – bu ilin əvvəlindən indiyədək gedən döyüşlərdə özünü cəsarətli bir ordu kimi göstərmişdir. Məhz Milli Ordumuzun qətiyyətli müqaviməti nəticəsində erməni silahlı qüvvələrinin hücumları da-

yandırıldı və mayın 12-də atəşkəs haqqında saziş əldə olundu. Beş aya yaxındır ki, atəşkəs davam edir. Biz bildirmişik, mən Amerika Birləşmiş Ştatlarında olarkən cənab Bill Klintonla görüşümdə də demişəm, Ermənistan prezidenti Ter-Petrosyanla görüşümüzdə də hər ikimiz bəyan etdik ki, biz bu atəşkəsin pozulmamasını təmin edəcəyik. Mən Minsk qrupunun başçısı cənab Yan Eliassonla görüşümdə də dedim, Nyu-Yorkda Rusiya prezidenti cənab Boris Yeltsin ilə qısa görüşüm zamanı ona da bildirdim ki, biz atəşkəsin saxlanmasını təmin edəcəyik. Bunu o da çox böyük məmnuniyyətlə təqdir etdi.

Bir daha deyirəm ki, ordumuzun cəsarəti nəticəsində təcavüzkarın hücumlarının qarşısı alındı, ordumuzun göstərdiyi müqavimət atəşkəs üçün şərait yaratdı. Mən, bütün əsgər və zabitlərimizə müraciət edir və bildirmək istəyirəm ki, bu gün onlar Azərbaycan torpaqlarının müdafiəsində ayıq-sayıq durmalıdırlar. Öz xidməti vəzifələrini daha cəsarətlə və daha böyük ağıl-kamalla həyata keçirməlidirlər. Bilməlidirlər ki, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü onların hərbi xidmətindən çox asılıdır. Əminəm ki, Azərbaycan Ordusunun əsgərləri, zabitləri mənim bu çağırışıma cavab olaraq öz hərbi hazırlıq səviyyələrini daha yüksəyə qaldıracaq, hərbi peşəyə daha dərindən yiyələnəcək, Azərbaycan torpaqlarının keşiyində daha qətiyyətlə və cəsarətlə duracaqlar.

Yenə deyirəm: biz müharibə etmək istəmirik. Mən bunu Amerika Birləşmiş Ştatlarında da bəyan etmişəm. Biz öz tərəfimizdən heç bir hücuma yol verməyəcəyik. Lakin eyni zamanda mövqelərimizi, torpaqlarımızın etibarlı müdafiəsini təmin etməliyik. Ona görə də bu gün mən ordumuzun döyüşçülərinə müraciət edirəm ki, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün, bu cinayətkar ünsürlərin zərərsizləşdirilməsi üçün, Azərbaycanın müstəqilliyini qorumaq üçün onlar öz

üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər.Mən onlara ümid bəsləyir və güvənirəm.

Əminəm ki, zabit və əsgərlərimiz bu çox məsuliyyətli məqamda Azərbaycanın müstəqilliyi keşiyində möhkəm duracaqlar.

Mən hüquq-mühafizə orqanlarının işçilərinə müraciət edirəm. Onlar çətin peşə sahibidirlər, çox əziyyətli bir sahədə çalışırlar, Azərbaycanın daxilində sabitliyi saxlamaq, cinayətkarlığa qarşı mübarizə aparmaq, ictimai asayişi qorumaq üçün, qanunçuluğun tətbiqini təmin etmək, konstitusiyanı qorumaq üçün çox işlər görürlər. İnanıram ki, bu ağır günlərdə, belə bir mütəşəkkil cinayətin baş verdiyi vaxtda hüquq-mühafizə orqanlarımız, xüsusən Azərbaycan polisi öz qüdrətini, cəsarətini, xalqa, millətə, Azərbaycan dövlətinə sədaqətini nümayiş etdirəcəkdir.

Mən heç kəsi toqquşmaya dəvət etmək istəmirəm. Fikirlərimi çatdırdım və müraciətlərim də açıq-aydındır. Hesab edirəm ki, bu cinayətin də qarşısı danışıqlar yolu ilə, sülh yolu ilə alınacaqdır.

Xüsusi Təyinatlı Polis Dəstəsinə, bu dəstənin 8-ci kilometr qəsəbəsində toplaşmış üzvlərinə bir daha müraciət edərək deyirəm ki, silahı yerə qoysunlar, təslim olsunlar, vuruşmaqdan imtina etsinlər, qan tökməsinlər, cinayət törətməsinlər və bizə də ultimatum verməsinlər. Heç bir ultimatum qəbul olunmayacaqdır. Azərbaycanın dövləti var, qanunları var. Hər bir kəs – mən də, hər bir vətəndaş da, o cümlədən polis işçisi də Azərbaycanın qanunlarına tabe olmalıdır. Mən Azərbaycanın Konstitusiyasına, qanunlarına uyğun olaraq onlardan tələb edirəm: bu cinayətkar əməllərdən əl çəksinlər, silahları yerə qoysunlar, təslim olsunlar. Onlara zəmanət verirəm ki, bu işə hər bir cəhətdən ədalətlə baxılmasına təminat yaradacaq və nəzarət edəcəyəm. Mən Azərbaycan dövlətçiliyinin təminatçısıyam.

Bu gün oktyabrın 3-dür. Sizə xatırladıram, bəlkə də yaddan çıxıb, elə mənim özümün də yadımdan çıxıb. Keçən il məhz bu gün, yəni oktyabrın 3-də mən xalq tərəfindən Azərbaycanın dövlət başçısı, Prezidenti seçilmişəm. Bu hadisələr olmasaydı, bu gün mən başqa əhval-ruhiyyə ilə, xoş arzularla sizə müraciət etmək fikrindəydim. Ancaq son on gün ərzində gedən proseslərin yekunu olaraq bu gün sizin qarşınızda çıxış edir, sizə müraciət edirəm, yaranmış vəziyyətdən çıxış yollarını sizinlə birlikdə arayıb axtarıram.

Lakin bu o demək deyil ki, bu hadisə, yaxud da bundan əvvəl baş vermiş hadisələr iradəmizi qırır, bizi sarsıdır, təhlükə qarşısında qoyur. Yox, belə deyildir. Mən keçən il oktyabrın 3-də Azərbaycan Prezidenti seçiləndə də, oktyabrın 10-da Qurana və Azərbaycanın Konstitusiyasına əl basaraq xalqımıza and içəndə də demişəm ki, mənim indi bir vəzifəm var: xalqa xidmət etmək, ömrümün bundan sonrakı hissəsini ancaq və ancaq xalqın bu vəziyyətdən çıxmasına həsr etmək. Özüm üçün bundan şərəfli bir vəzifə bilmirəm. Mən verdiyim bu sözə də sadiqəm və bunu axıradək həyata keçirəcəyəm. Odur ki, heç kəs bu andımı həyata keçirməyə mane ola bilməyəcəkdir.

Ancaq mən insanları yenə də qarşıdurmaya yox, milli həmrəyliyə, vətəndaş həmrəyliyinə çağırıram, insanları toqquşmaya yox, bir-birinə silah qaldırmağa, güllə atmağa yox, bir-birinə əl verməyə, bir-birinə yaxınlaşmağa dəvət edirəm, qan tökülməsinə yox, meydana çıxan problemlərin danışıqlar vasitəsilə, sülh yolu ilə həll olunmasına dəvət edirəm.

Kiməsə ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Azərbaycan Prezidenti kimi bunu da təmin etməyə hazıram və təmin edə bilərəm. Lakin mən bu cür cinayətkar hərəkətlərə dözməyəcəyəm. Ona görə də mən hamıya xəbərdarlıq edirəm. Bu cinayətkarlıqdan çəkinmək, silahları təhvil vermək lazımdır. Mən Xüsusi Təyinatlı Polis

Dəstəsi ilə görüşüb, danışıq aparmağa hazıram. Amma güclə, zor ilə yox. Heç kəs Azərbaycan dövlətinə qarşı zor işlədə bilməz. Azərbaycan dövlətinin zora zorla cavab verməyə gücü var. Bu məsələləri zorla yox, yalnız qarşılıqlı anlaşma vasitəsilə həll etmək lazımdır.

Mən hesab edirəm ki, bu sözlərimi indi hamı eşidir, bu gün eşitməsə, sabah, axşam eşidəcəkdir.

Mən gözləyirəm ki, müraciətimə hamı səs verməlidir, hamı! Mən bunu gözləyirəm. Əziz qardaşlar və bacılar, əziz həmvətənlər, əziz dostlar, mən sizdən bunu gözləyirəm.

Mən yaranmış vəziyyətdə Bakıda qanunu tətbiq etmək üçün fərman imzalamışam. Bu gündən Bakıda fövqəladə vəziyyət elan edilir. Həmin fərman bu gün televiziya vasitəsilə sizə çatdırılacaqdır. Bu fərmanı imzalamağıma səbəb sentyabrın 22-dən indiyədək – oktyabrın 3-dək baş vermiş faciəli hadisələr, bunların ağır nəticələri, cəmiyyətdə yaranmış gərginlik, o cümlədən dünən törədilmiş mütəşəkkil cinayətdir. Ona görə də mən Bakıda fövqəladə vəziyyət elan etməyi qərara almışam. Bakı əhalisindən və paytaxta gələn bütün vətəndaşlardan rica edirəm ki, fövqəladə vəziyyət rejiminə hörmət etsinlər. Bu, ancaq və ancaq bütün Azərbaycan vətəndaşlarının hüquqlarını, ictimai asayişi qorumaq, cinayətkar ünsürlərin qarşısını almaq üçün həyata keçirilən tədbirdir. Mən bunu tətbiq etməyə məcburam, bunun zəruriliyi gəlib çatmışdır.

Mən öz fikirlərimi, sözlərimi sizə çatdırdım. Bir daha bütün Azərbaycan xalqına müraciət edirəm. Bu günlər hər kəs öz mövqeyini bildirməlidir. Hesab edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti dövlətçiliyimizi, Azərbaycanın müstəqilliyini müdafiə edəcək və ölkəmizin müstəqilliyinə təcavüz edənlərin qarşısını alacaqdır.

Bu vəziyyətlə əlaqədar bəziləri ayrı-ayrı rayonlarda aranı qarışdırmaq istəyirlər. Bəzi qrupları qaldıraraq bu cinayətkar dəstələrlə birləşdirməyə cəhd göstərirlər. Şəhərlərdə, rayon-

larda yaşayan bütün əhalidən, vətəndaşlardan, həmin yerlərin rəhbərlərindən tələb edirəm ki, bunların hamısının qarşısı alınmalıdır və biz Azərbaycanın müstəqilliyini qorumalıyıq.

Əminəm ki, mənim səsimə səs veriləcək, bu günlər xalqımız sıx birləşəcək, onun tam əksəriyyəti Azərbaycanın müstəqilliyinin, dövlətçiliyimizin qorunmasının keşiyində dayanacaqdır. Əminəm ki, hamımız əl-ələ verərək bu ağır vəziyyətdən çıxacağıq. Diqqətinizə görə təşəkkür edir və bir daha sizi milli həmrəyliyə, vətəndaş həmrəyliyinə dəvət edirəm. Sağ olun.

# DÜNYANIN BÜTÜN DÖVLƏTLƏRİNƏ, HÖKUMƏTLƏRİNƏ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARINA MÜRACİƏT

Hörmətli cənablar!

Demokratik, hüquqi dövlət quran, bütün dünya ilə açıq siyasət yeridən Azərbaycan Respublikası təhlükədədir!

Birbaşa xaricdən yönəldilən qüvvələr zor işlədərək silahlı qiyam yolu ilə dövlət çevrilişi etməyə cəhd göstərirlər.

Mən Azərbaycan Respublikasının prezidenti kimi xalqıma, onun öz dövlətçiliyini, müstəqillik və azadlığını müdafiə etməyə yönəlmiş möhkəm qətiyyətinə arxalanaraq onun iradəsini yerinə yetirmək üçün bütün zəruri tədbirləri həyata keçirirəm.

Bu çətin dəqiqələrdə mən sizə müraciət edərək hamınızı Azərbaycanın qanuni rəhbərliyini, onun xalqının müstəqillik və suverenliyini qorumaq, zorakılıq və irticanın təntənəsinə yol verməmək naminə bütün imkanlarınızdan istifadə etməyə çağırıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
***4 oktyabr 1994-cü il***

# RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT

***4 oktyabr 1994-cü il***

Hörmətli həmvətənlər, əziz bacılar, qardaşlar!

Azərbaycan vətəndaşları!

Bu axşam vaxtı mən yaranmış vəziyyətlə əlaqədar olaraq, televiziya vasitəsilə sizə birbaşa müraciət etmək məcburiyyətindəyəm. Dünən televiziya ilə xalqa müraciət edərək son günlər Azərbaycanda yaranmış gərgin vəziyyət haqqında məlumat verdim, öz mülahizələrimi bildirdim və Azərbaycan xalqını bu vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərməyə dəvət etdim.

Televiziya ilə dünənki çıxışımda mən yaranmış vəziyyət, Azərbaycanda gərginlik törədən son hadisə haqqında, Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrupunun Rövşən və Mahir Cavadovların rəhbərliyi altında Prokurorluğun binasında törətdiyi cinayətlər haqqında danışdım. Bundan sonra həmin məsələnin sülh yolu ilə həll olunması üçün görülən tədbirlər barədə sizə məlumat verdim. Bildirdim ki, törədilən hərəkətlər qanuna nə qədər zidd olsa da, biz yaranmış vəziyyəti sülh yolu ilə, danışıqlar yolu ilə aradan qaldırmaq istəyirik. Buna görə də mən Xüsusi Təyinatlı Polis Dəstəsindən olan vətəndaşlarımıza, Rövşən Cavadova müraciət etdim və bildirdim ki, bu yoldan çəkinmək lazımdır. Danışdığımız kimi, silahları təhvil verib kənara çəkilmək lazımdır və Azərbaycanda vəziyyəti gərginləşdirmək lazım deyil. Mən Rövşən Cavadovun atasına – Bəxtiyar kişiyə müraciət etdim və ondan xahiş etdim ki, bu məsələnin həll olunmasında öz xidmətini göstərsin.

Mən Azərbaycanın hörmətli adamlarına, partiyalara, ictimai təşkilatlara, bütün Azərbaycan xalqına müraciət etdim. Mənim dünənki müraciətimdən sonra minlərlə teleqram gəlib, telefon zəngləri olub. Mənim müraciətim əhali tərəfindən hörmət və ehtiramla qəbul olunub. Teleqramlarda, telefon zənglərində bildirilir ki, vətəndaşlar Azərbaycanın bu vəziyyətdən çıxması üçün öz xidmətlərini göstərməyə hazırdırlar.

Dünən Rövşən Cavadovun atası Bəxtiyar kişi gedib oğlanları ilə görüşmüş, sonra mənim yanıma gəlmişdi. O, xalq şairi Bəxtiyar Vahabzadə ilə bərabər apardığı danışıqlar haqqında mənə məlumat verdi. Mənə dedilər, Rövşən Cavadovun xahişi bundan ibarətdir ki, onların 8-ci Kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasından sərbəst getmələrinə şərait yaradılsın, həmin dəstənin üzvləri oradan çıxıb getsinlər, silahları təhvil versinlər.

Mən bu təklifləri qəbul etdim, bu işləri təmin etmək üçün müdafiə nazirinin birinci müavini general Nəcməddin Sadıqovu onlara qoşdum və həmin bazaya göndərdim. Bildirdim ki, orada onların təhlükəsizliyi təmin ediləcək, xüsusi təyinatlı polisin üzvlərinin hamısı sərbəst surətdə öz evlərinə gedə bilərlər. Bu məsələlər sonra araşdırılacaqdır. Yaranmış ağır vəziyyəti bununla da tamamilə həll etməyə nail olmağa çalışdım.

Güman etdim ki, ağsaqqal, hörmətli bir adam olan Bəxtiyar Cavadovun bu təşəbbüsü öz nəticəsini verəcəkdir. Təəssüflər olsun ki, gecədən xeyli keçmiş mənə məlumat gəldi ki, bu danışıqlar bir nəticə verməmişdir, onlar atalarının təklifinə də, xalq şairi Bəxtiyar Vahabzadənin təklifinə də qulaq asmamışlar, demişlər ki, sabah, yəni bu gün Rövşən Cavadov mənimlə – Azərbaycan Prezidenti ilə görüşmək istəyir. Görüşüb danışdıqdan sonra bu məsələləri həll edəcəklər.

Mən dünən axşam Bəxtiyar Cavadova da bildirdim ki, televiziya ilə elan etmişəm, Rövşən Cavadovu qəbul etməyə,

danışıqlar aparmağa hazıram. Bu gün onunla görüş təyin etdim. Mən onunla telefon əlaqəsinə girdim. Rövşən Cavadova bildirdim ki, bu məsələləri həll etmək üçün o, görüş istəyirsə, mən də görüşməyə hazıram. Gəlsin, görüşək, danışaq, məsələlər həll olunsun və gərginlik aradan götürülsün.

Mənə bildirdi ki, ola bilər ki, gəlməsi onun üçün müəyyən qədər təhlükəli olsun, yoldaşları təhlükəsizlik baxımından onun gəlməsini məsləhət görmürlər. Özü xahiş etdi ki, Prezident aparatının İşlər İdarəsinin müdiri Akif Muradverdiyev onun yanına göndərilsin və onu müşayiət etsin. Mən Akif Muradverdiyevi oraya göndərdim və tapşırıq verdim ki, onun buraya gəlməsi üçün bütün şərait yaradılsın.

Bir müddətdən sonra Akif Muradverdiyev mənə telefonla zəng edərək bildirdi ki, guya bazanın ətrafında bəzi hərbi qüvvələr olduğuna görə Rövşən Cavadov narahatdır. Mən yenə də dedim ki, onun sərbəst, təhlükəsiz gəlməsi təmin olunur, əgər bir narahatçılıq varsa, mən müdafiə nazirinin birinci müavini general Sadıqovu əlavə ora göndərirəm.

General Sadıqov mənim əmrimlə ora getdi. Danışıqlar aparıldı. Təəssüflər olsun ki, axşam saat 7-dək mən gözlədim. Saat 7-də general Nəcməddin Sadıqov və Akif Muradverdiyev mənim yanıma gələrək bildirdilər ki, Rövşən Cavadov yenə də görüşmək istədiyini bildirir. Ancaq deyir ki, o, bu gün artıq yorulub, Prezidentlə görüşmək üçün çətinlik çəkir. Ona görə də sabah saat 12-də görüşə gələcəkdir. Mən də buna inandım və dedim ki, ola bilər, sabah görüşək. Çünki mən təmkinlilik göstərirəm, bu işə səbirlə yanaşıram və çalışıram ki, bu iş barışıq yolu ilə, danışıqlar yolu ilə həll olunsun və heç bir xəta çıxmasın.

Sonrakı saatlarda gələn məlumatlar onu göstərdi ki, bu, belə deyil. Çünki iki gün bundan qabaq baş vermiş hadisə ilə əlaqədar Bakı şəhərində və Azərbaycanın bir neçə məntəqə-

sində ayrı-ayrı qüvvələr baş qaldıraraq sabitliyi pozmağa çalışırlar. Mən Rövşən Cavadovun atası ilə danışanda da dedim ki, bu vəziyyətdən ayrı-ayrı qüvvələr istifadə edə bilərlər, ona görə də bu məsələni tez qurtarmaq lazımdır.

Bu gün bizə məlumatlar gəlir ki, 8-ci Kilometrdəki həmin bazaya – Xüsusi Təyinatlı Polis Dəstəsinin yerləşdiyi bazaya çoxlu kənar adamlar gəlirlər, orada qızışdırıcı danışıqlar aparırlar. Ayrı-ayrı adamlar bundan sui-istifadə etməyə, onları qızışdırıb pis yollara salmağa çalışırlar. Ona görə də bunların hamısını müşahidə edərək mən tez danışıqlar aparıb, bu məsələnin qurtarmasına çalışıram.

Ancaq yenə də deyirəm, son saatlarda alınan məlumatlar onu göstərir ki, həm o bazada olan bəzi qüvvələr sabitliyi pozmağa çalışır, həm də bu şəraitdən istifadə edib bəzi məntəqələrdə bizim daxili ictimai siyasətimizi pozmağa cəhd göstərən ayrı-ayrı qüvvələr fəaliyyətə başlayıblar.

İki saat bundan öncə xəbər gəldi ki, Gəncədə hərbi geyimli bir dəstə adam şəhər icra hakimiyyətini, oradakı bəzi dövlət orqanlarını, hava limanını zəbt ediblər və öz hakimiyyətlərini qurmağa çalışırlar. Bu dəstələrin kimə mənsub olduğu hələ məlum deyil. Mən Baş nazir Surət Hüseynovla əlaqə saxladım, dedim ki, Gəncə şəhərində şəxsən ona mənsub olan bəzi hərbi qüvvələr var. Bu nə məsələdir? Çünki oradan gələn məlumatlarda bildirilir ki, bu işləri törədənlərin içərisində Surət Hüseynova mənsub olan qüvvələrdən də var. Ona görə də mən ondan xahiş etdim ki, məsələni araşdırsın və lazımi tədbir görsün. Bir azdan sonra o, mənə telefonla zəng etdi və bildirdi ki, guya orada doğrudan da bəzi qüvvələr var, onlar Xüsusi Təyinatlı Polis Dəstəsinə mənsub olan adamlardır. Onlar orada doğrudan da qanunsuz hərəkətlər ediblər. O mənə bildirdi ki, öz adamlarına göstəriş verib, onlarla əlaqəyə girib ki, bu məsələni həll etsinlər və bu vəziy-

yəti aradan qaldırsınlar. Ancaq Gəncə ilə əlaqəyə girəndən sonra məlum oldu ki, o qüvvələrin hamısı birləşib. Gəncə polisinin də, hərbi polisin də bir hissəsi o qüvvələrə birləşib. Onlar orada qeyri-qanuni hərəkətlər edirlər, dövlət orqanlarını zəbt etməyə başlayıblar. Beləliklə də, Bakıda yaranmış dövlət çevrilişi cəhdi artıq Gəncədə özünü büruzə verir.

Mən yenə də Surət Hüseynovu axtardım. Ancaq bundan sonra onu tapa bilmədim. İndi onun yeri də mənə məlum deyil. Burada Bakıda bizə daxil olan bir neçə siqnallar onu göstərir ki, ayrı-ayrı təxribatçı qüvvələr Bakıda və Azərbaycanın bəzi şəhərlərində, rayonlarında sabitliyi pozmaq istəyirlər. Deməк, əvvəlcədən hazırlanmış, qurulmuş, dövlət çevrilişinə yönəldilmiş hərəkətlər artıq sürətlə həyata keçirilir.

Ona görə də mən bu gün, bu dəqiqə, gecənin bu vaxtında birinci növbədə Rövşən Cavadova və onun ətrafında olan xüsusi təyinatlı polislərə bir daha müraciət edirəm. Müraciət edirəm ki, onlar ağıllarını başlarına yığsınlar, hərəkətlərindən əl çəksinlər. Bilsinlər ki, Azərbaycan xalqı qarşısında nə qədər tarixi məsuliyyət daşıyırlar. Onların bu hərəkətləri birbaşa Azərbaycan dövlətçiliyinin əleyhinədir. Eyni zamanda bu hərəkətlər Azərbaycanın ayrı-ayrı məntəqələrində, o cümlədən Bakı şəhərində sabitliyi pozmağa çalışan təxribatçı qüvvələrin fəallaşmasına kömək edir və beləliklə, onlar özləri istəsə də istəməsə də, bu hərəkətlərin baş verməsində günahkar olacaqlar.

Ona görə də onlara təklif edirəm ki, bu hərəkətlərindən əl çəksinlər, qısa müddətdə silahlarını təhvil verib yerləşdikləri bazadan çıxsınlar. Onların oradan sərbəst, təhlükəsiz çıxması üçün bütün şərait var. Onsuz da, bu gün şəhərə çıxmış, sərbəst gedib-gəlmişlər. Onlara heç kim mane olmamışdır. Ancaq əgər oradan çıxıb getmələri üçün xüsusi şərait lazımdırsa, o da yaradılmışdır və bu şəraitdən istifadə edərək öz əməllərindən əl çəkməlidirlər. Əgər əməllərindən əl çəkmə-

sələr, bundan sonra Bakıda, bütün Azərbaycanda yarana biləcək cinayət hərəkətlərini, təxribatları, dövlət çevrilişinə yönəldilmiş hərəkətləri istiqamətləndirmələri kimi qiymətləndiriləcək və onlar bunun üçün günahkar olacaqlar.

Ona görə də, onlara bir daha sülh yolu, doğru yol göstərirəm, məsləhət verir və tələb edirəm ki, yaranmış bu ağır vəziyyətdə özlərinin vətənpərvərliyini, vətəndaşlığını başa düşsünlər. Əgər onlar, doğrudan da, müstəqil Azərbaycanın dövlətçiliyinə sadiqdirlərsə, müstəqil Azərbaycan uğrunda çalışmaq istəyirlərsə, düz yola gəlsinlər. Mən bunu təklif edirəm və onlardan bunu tələb edirəm. Çünki indi yaranmış vəziyyət məni, Azərbaycan dövlətinin başçısını buna vadar edir.

Mən eyni zamanda Bakının sakinlərinə müraciət edirəm. İndi bizə gəlib çatan siqnallar göstərir ki, Bakı şəhərində Azərbaycanın dövlətçiliyi artıq təhlükə altındadır. Ayrı-ayrı düşmən qüvvələr, silahlı qüvvələr dövlət çevrilişinə başlamışlar. Ona görə də, nə qədər gec olsa da, nə qədər çətin olsa da mən sizi ayağa qalxmağa dəvət edirəm. Əziz bakılılar, əziz Bakı sakinləri! Sizin hamınızı bizim bu gərəkli işimizə qoşulmağa çağırıram. Xahiş edirəm, zəhmət çəkəsiniz, nə qədər çətin olsa da Prezident Aparatının qarşısına toplaşasınız. Bu gün kim Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qorumaq istəyirsə, mən onu Azərbaycan Respublikası Prezident Aparatının önünə dəvət edirəm.

İndi bizim üçün çox həlledici məqamdır, həlledici dəqiqələrdir. Kim Azərbaycana doğrudan da ürək yandırırsa, bu həlledici dəqiqələrdə bizimlə olmalıdır, Azərbaycanın müstəqil dövləti ilə birlikdə olmalıdır. Bunun üçün Azərbaycan Prezidentinin ətrafında toplaşmalıdır. Mən sizi buraya, Prezident Aparatının qarşısına dəvət edirəm. Sizinlə görüşmək istəyirəm, sizdən kömək gözləyirəm. Sizdən xahiş edirəm ki,

Azərbaycan dövlətçiliyinin başı üstünü almış qara buludları dağıtmaq üçün birləşəsiniz, əlbir olasınız, buraya gələsiniz.

Mən bütün Azərbaycan xalqına müraciət edirəm. İndi bu dəqiqələrdə sizi buraya gəlməyə dəvət edirəm, sizi gözləyirəm. Azərbaycanın müstəqilliyini qorumaq üçün hərə öz evində-eşiyində, öz şəhərində, qəsəbəsində, kəndində ayağa qalxsın, fəaliyyət göstərsin. Yaşadığınız yerlərdə Azərbaycanın dövlət orqanlarını qoruyun, onları saxlayın, təxribatçı qüvvələrin qarşısını alın. Eyni zamanda Azərbaycanın şəhərlərindən, rayonlarından Bakıya gəlib bizimlə birlikdə olmaq istəyən vətənpərvər adamların buraya gəlməsini razılıqla qarşılayardım. Kimin buna imkanı varsa, gəlin, sizi Bakıya dəvət edirəm.

Gəncə şəhərinin sakinlərinə müraciət edirəm. Keçən ilin iyununda Gəncə şəhəri bir dəfə ağır vəziyyətə düşdü. Orada qan töküldü, çox dəhşətli hadisələr baş verdi. Gəncə şəhərinin sakinləri həmin günləri görmüşlər və bilirlər ki, bu hadisələr təkcə gəncəlilər üçün yox, bütün Azərbaycan üçün necə baha başa gəldi. İndi təxribatçı qüvvələr yenə də Gəncədə aranı qarışdırmışlar, dövlət orqanlarının binalarını zəbt etmişlər. Ona görə də gəncəlilərin hamısını ayağa qalxmağa, küçəyə çıxmağa, təxribatçı qrupları dəf etməyə, onların qarşısını almağa, Azərbaycanın ikinci böyük şəhəri, tarixi şəhəri olan Gəncədə Azərbaycanın dövlətçiliyini qorumağa çağırıram. Mən gəncəlilərə ümid bəsləyirəm, onlara inanıram və güman edirəm ki, gəncəlilər özlərinin namusunu, qeyrətini göstərəcəklər, mənliklərini qoruyacaqlar və baş vermiş bu hadisənin öhdəsindən gələcəklər.

Əziz həmvətənlər, Azərbaycanın vətəndaşları! Bu ağır dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlik-

dəyəm. Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda, əziz həmvətənlər, mən sizə güvənirəm, sizə arxalanıram. İstəmirəm ki, indi bu günlər qan tökülsün. Mən bunu istəmirəm. Ona görə də sizi sülh məramı ilə küçələrə çıxmağa, mənim ətrafımda toplaşmağa dəvət edirəm.

Bakının 8-ci Kilometr qəsəbəsində çoxlu adam yaşayır. Əziz həmvətənlərimiz, sizdən rica edirəm, evlərinizdən çıxın, Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasının ətrafında toplaşın, onları başa salın, onlara təsir edin. Onlara anladın ki, ata-analarına, bacı-qardaşlarına atəş açmamalıdırlar, güllə atmamalıdırlar, cinayət etməməlidirlər. Mən hesab edirəm ki, 8-ci Kilometr qəsəbəsinin əhalisi, sakinləri özlərini müdafiə etməyə qadirdirlər və onlar həmrəy olub Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasının ətrafına toplaşaraq oradakı polisləri başa sala biləcəklər.

Mən üzümü Azərbaycanın ağsaqqallarına tuturam. Bu gün hörmətli adamların, ağsaqqalların sözünə böyük ehtiyac var. Mən sizə müraciət edirəm, öz müdrikliyinizi, cəsarətinizi, vətənpərvərliyinizi göstərin.

Mən Azərbaycanın qadınlarına müraciət edirəm. Analar, bacılar cəmiyyətdə sülh yaranması üçün həmişə böyük vasitəçi olmuşlar. Ağbirçək analar həmişə öz övladlarına öyüd-nəsihət verməklə onları düz yola dəvət etmiş, bu yolla getmələrinə çalışmışlar. Hörmətli analar, bacılar, hörmətli gəlinlər, qızlar! Mən sizə müraciət edirəm. Bu ağır dəqiqələrdə ayağa qalxın, fəaliyyət göstərin, küçələrə çıxın, Prezident Aparatının qarşısına gəlin. Öz cəsarətinizlə, qadınlıq qeyrətinizlə bu vəziyyətdən çıxmağa kömək edin.

Mən Azərbaycanın gənclərinə müraciət edirəm. Azərbaycanın ağır anlarında gənclər həmişə özlərinin qəhrəmanlığını, cəsarətini göstərmişlər, bu gün də göstərməlidirlər. Əziz öv-

ladlarımız, sizə müraciət edirəm, güman edirəm ki, mənim səsimə səs verərək ayağa qalxacaqsınız, Azərbaycanın dövlətçiliyini, müstəqilliyini qorumaq üçün fəaliyyət göstərəcəksiniz. Əminəm ki, bu yolla gedəcək, düzgün mövqe tutacaqsınız.

Mən bu müraciəti edərək, eyni zamanda Azərbaycan dövlətinin qüdrətli olduğunu bildirmək istəyirəm. Mən Azərbaycan dövlətinin qüdrətinə güvənirəm və bu vəziyyətdən çıxmaq üçün onun bütün imkanlarından istifadə etməyə çalışacağam. Ancaq yenə də deyirəm: mənim yolum sülh yoludur, əmin-amanlıq yoludur. Bunun naminə sizə müraciət edərək ayağa qalxmağa dəvət edirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan Respublikasının müstəqilliyini qorumaq üçün özümdə həmişə qüdrət hiss etmişəm və bu gün də hiss edirəm. Bilin ki, indi Azərbaycanın sərhədlərində bizim qəhrəman ordumuz, cəsur oğlanlarımız, övladlarımız torpaqlarımızın keşiyində durduğu bir vaxtda, Azərbaycan torpaqlarını təcavüzdən qoruduğu bir vaxtda ölkəmizin daxilində belə bir vəziyyətin yaranması Azərbaycanın torpaqlarına olan təcavüzə köməkdir, respublikamızın ərazi bütövlüyünə, müstəqilliyinə xəyanətdir. Ona görə də ordumuza müraciət edərək bir daha bildirirəm ki, əsgər və zabitlərimiz öz səngərlərində, öz postlarında cəsarətlə dayanmalı, torpaqlarımızı müdafiə etməlidirlər, bu ağır dəqiqələrdə, ağır saatlarda Azərbaycanın torpaqlarına qarşı təcavüz olunmasına yol verməməlidirlər. Eyni zamanda onlar da öz qeyrətləri, namusları, cəsarətləri ilə bu ağır dəqiqələrdə həmrəyliklərini bildirməlidirlər.

Mən Azərbaycanın bütün siyasi partiyalarına müraciət edirəm. Dünən onların bir qrupunun nümayəndələri ilə görüşdüm, danışdım. Onlar dövlətimizlə, dövlətçiliyimizlə həmrəy olduqlarını bildirdilər. Onlar bu gün ayağa qalxaraq küçəyə çıxmalıdırlar. Mən onları Prezident Aparatının qarşısına dəvət edirəm. Bütün ictimai-siyasi təşkilatlara, cəmiyyətlərə müraciət edirəm, onların üzvlərini buraya dəvət edirəm.

Bir sözlə, hamıya müraciət edirəm və bu ağır gündə hamıdan mətanət, dəyanət, cəsarət, qəhrəmanlıq, namus, qeyrət gözləyirəm. Azərbaycan xalqı qeyrətli xalqdır, mətin xalqdır. Əminəm ki, bu ağır sınaqlardan çıxacağıq. Mən sizə inanıram və siz də əmin ola bilərsiniz ki, Azərbaycanın dövlətçiliyinin keşiyində daim dayanmışam və dayanacağam. Sağ olun.

# ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİNİN TOPLANTISINDA GİRİŞ SÖZÜ

***28 noyabr 1994-cü il***
***Respublika sarayı***

Hörmətli xalq nümayəndələri!
Əziz həmvətənlər!
Bacılar və qardaşlar!

Azərbaycan xalqı öz tarixinin ən ağır, ən çətin, keşməkeşli və eyni zamanda şərəfli mərhələsini yaşayır. 1988-ci ildən Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmaq üçün, onun ərazisinin bir hissəsini ələ keçirmək üçün Ermənistan tərəfindən, erməni millətçiləri və Dağlıq Qarabağda olan separatçı qüvvələr tərəfindən Azərbaycana qarşı təxribat, təcavüz hərəkətləri başlayıbdır və bu, Azərbaycanın həyatında böyük dəyişikliklər əmələ gətiribdir. O vaxtdan Azərbaycan xalqı bu dəhşətli hadisəyə görə daim narahatlıq hissi keçirir və ərazisini, torpaqlarını qorumaq, öz mənliyini, şərəfini qorumaq əzmində olubdur.

Həmin dövrün tarixi xalqımıza və bu salona toplaşanlara məlumdur, onu indi təhlil etməyə ehtiyac yoxdur. Ancaq qısaca bunu demək olar ki, müəyyən obyektiv səbəblərə görə, o vaxt Sovetlər İttifaqının hakim dairələrində olan bəzi qüvvələrin Azərbaycan xalqına qarşı, Azərbaycan Respublikasına qarşı ədalətsiz mövqeyinə görə, eyni zamanda Azərbaycanın hakim qüvvələrinin, hakim strukturlarının, hakim orqanlarının xalqın mənafeyini, millətin, dövlətin, torpağın mənafeyini qorumaq əzmində olmadıqlarına görə, yaxud qorumaq istəmədiklərinə görə, bəziləri də xəyanətkar, satqın olduqlarına görə bu məsələ ilə əlaqədar Azərbaycanın mövqeləri aybaay, ilbəil

zəifləmişdir. Nəticədə, Azərbaycan indiki vəziyyətə gəlib çıxmışdır.

Eyni zamanda xalq daim öz torpaqlarını, ərazisini, sərhədlərini, milli mənliyini və şərəfini, milli tarixini, ənənələrini qorumaq əzmində olubdur. Məhz bunlara görə də xalq «Dağlıq Qarabağ problemi» deyilən problemin ortaya atılması münasibəti ilə və Azərbaycan ərazisinin bir qisminin Ermənistan tərəfindən ələ keçirilməsi ilə əlaqədar gedən proseslərə öz münasibətini, etirazını bildirib, meydanlara çıxıb mitinqlər edibdir, o vaxtkı Sovetlər İttifaqının rəhbərliyi tərəfindən Azərbaycana qarşı olan ədalətsizliyə, haqsızlığa öz münasibətini bildirib və mübarizə aparıb, həm də Azərbaycanın hakim dairələrinə, dövlət başçılarına, o vaxtkı partiya başçılarına öz etirazlarını bildirib, fəal mübarizə aparıbdır.

Bunlar hamısı bizim tariximizdir, tariximizin səhifələridir. Biz bunları həmişə yadımızda saxlamalıyıq. Bugünkü məsələləri həll etmək üçün də bunu bilmək lazımdır.

Bu dövrdə Azərbaycan xalqının sağlam qüvvələri, milli azadlıq uğrunda mübarizə aparan vətənpərvər qüvvələri ilə yanaşı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, canından keçərək, şəhid olaraq torpaqlarını qorumaq əzmində olan insanlarla yanaşı, bu hadisələrdən öz şəxsi məqsədləri, şəxsi mənafeləri naminə istifadə etmək üçün meydana çıxmış insanlar, qruplar da var, mövcud olubdur. Bunlar da keçmiş dövrün xarakterik cəhətləridir və xalqımıza, ictimaiyyətimizə məlumdur. Məhz belə cinayətkar qüvvələrin meydana çıxması, ayrı-ayrı qüvvələrin, o cümlədən dövlət başında olan qrupların belə cinayətkar qüvvələrdən öz hakimiyyətini saxlamaq üçün istifadə etməsi Azərbaycanın daxili həyatında mürəkkəb, qarışıq bir vəziyyətlə bağlıdır. Azərbaycanda həqiqi vətənpərvərlik hissi ilə yaşayan, torpaqlarımızı qorumaq əzmində olan insanların milli azadlıq uğrunda, Azərbaycanı qoruyub saxlamaq uğrunda mübarizəsi ilə yanaşı olaraq, ayrı-

ayrı cinayətkar qüvvələrin bu hadisələrdən istifadə etməsi və o dövrlərdə olan hakim dairələrin, dövlət başçılarının bu cinayətkar qrupları əllərinə keçirib nəyin bahasına olursa-olsun öz mövqelərini, öz hakimiyyətlərini saxlaması prosesləri mövcud olubdur.

Bunların hamısı məlumdur. Güman edirəm ki, tədqiqatçılarımız, tarixçilərimiz, siyasətçilərimiz bütün bunlara doğru-düzgün, obyektiv, dəqiq təhlil və qiymət verəcəklər. Məhz bunların nəticəsində ola bilər ki, Azərbaycan xalqı - öz tarixində milli qəhrəmanlıq nümunələri göstərmiş və bu gün də qəhrəmanlıq əhval-ruhiyyəsi ilə yaşayan Azərbaycan xalqı erməni qəsbkarlarının, erməni işğalçılarının təcavüzkar hərəkətlərinə lazımi cavab verə bilməyib və torpaqlarımızın bir qismi işğal olunub, insanlarımızın bir qismi həlak olubdur, öz yerlərindən, obalarından, yurdlarından didərgin düşübdür. Ərazimizin 20 faizi erməni silahlı qüvvələrinin işğalı altındadır, bir milyondan artıq soydaşımız, Azərbaycan vətəndaşı öz ölkəsində qaçqın vəziyyətində yaşayır.

Belə bir zamanda, belə günlərdə cinayətkar dəstələrin, cinayətkar qrupların - bu fürsətlərdən öz şəxsi mənafeləri üçün istifadə etmək istəyənlərin fəaliyyəti Azərbaycana çox zərbələr vurubdur. Bu, bəlkə də erməni işğalçılarının vurduğu zərbələr kimi zərbələrdir. Güman edirəm, əgər bu təxribatçı qrupların, Azərbaycanın daxilindəki bu təxribatçı dəstələrin, ayrı-ayrı təşkilatların Azərbaycan xalqının milli mənafeyinə zidd cinayətkar hərəkətləri olmasaydı, xalqımız bəlkə də bu vəziyyətə düşməzdi, Azərbaycan Respublikası torpaqlarının bir hissəsini itirməzdi və qaçqınlarımız, şəhidlərimiz də bu qədər olmazdı.

Bu proseslər davam edir və təəssüf ki, belə şəraitdə Azərbaycanın mötəbər, ağıllı, tanınmış, ağsaqqal adamları bəzən kənarda qalıblar. Bəzən özləri özlərini kənara çəkiblər. Bəzi məcburiyyət nəticəsində biganəlik mövqeyi tutublar. Ancaq

bəzi yaramaz qüvvələr, Azərbaycan xalqını ləkələyən qüvvələr meydana çıxıb, hətta özlərini xalq qəhrəmanı, milli qəhrəman, azadlıq uğrunda mübarizənin aparıcı qüvvələri kimi qələmə veriblər. Bunlar hamısı Azərbaycanın ümumi mənafeyinə – həm onun ərazisinin qorunmasına, həm də daxili ictimai-siyasi və iqtisadi vəziyyətinə öz təsirini göstərmişdir.

Belə hadisələr keçmişdə olub. Mən vaxtınızı alıb bu barədə çox danışmaq istəmirəm. Ancaq xatırlatmaq istəyirəm ki, 1993-cü ilin əvvəlindən Azərbaycanda vəziyyət gərginləşmişdir. Bunun səbəblərini də mən indi təhlil etmək fikrində deyiləm, sadəcə, bir neçə məqamı yadınıza salmaq istəyirəm. Buna görə də bu gün ümumxalq nümayəndələri toplantısının keçirilməsini lazım bilmişik.

Həmin vaxt respublikada vəziyyət kəskinləşmişdi. Erməni silahlı qüvvələrinin hücumlarına qarşı mütəşəkkil qüvvə yox idi. Ordu yaranmamışdı. Ayrı-ayrı dəstələr, ayrı-ayrı qüvvələr guya Azərbaycan torpaqlarını qoruyaraq, əslində cürbəcür işlərlə, bəzən də qarətlə, təxribatlarla məşğul idi.

Ancaq hakimiyyətdə olan şəxslər, dövlət strukturları bunların qarşısını almağa qadir olmadılar. Beləliklə də Rəhim Qazıyev, Surət Hüseynov kimi adamlar və onların yanında olan digər şəxslər baş qaldırdılar. 1993-cü ilin fevral ayında Azərbaycanda böhran vəziyyəti – dərin ictimai-siyasi böhran, dövlət böhranı yarandı. Bu böhranın qarşısını almaq üçün dövlətdə və dövlət başçılarında qüdrət, cəsarət, səriştə çatmadı. Bunları siz bilirsiniz. Azərbaycan 1993-cü ilin əvvəlindən artıq parçalanırdı, parçalanmışdı da. Əgər 1993-cü ilin əvvəlində – fevral ayında Gəncə şəhərindəki və onun ətrafındakı ayrı-ayrı silahlı qüvvələr faktik olaraq oranı ələ keçirmişdilərsə və Azərbaycanın dövlət başçıları bu vəziyyətin öhdəsindən gələ bilmirdilərsə, deməli, gözlərinin qabağında Azərbaycanın parçalanmasını görürdülər.

Azərbaycanın cənub hissəsi parçalanırdı. Lənkəran – Astara zonası, təxminən 7 rayon artıq parçalanmışdı. Oranı bir neçə quldur ələ keçirmişdi. O cümlədən keçmişdə Xalq Cəbhəsi Məclisinin, sonra guya Sosial – Demokrat Partiyasının üzvü olan bir quldurun – heç bir siyasi hörməti olmayan Əlikram Hümbətov kimi bir adamın əlində Azərbaycanın bir hissəsi yesir olmuşdu. Ona görə bu sözü işlətməyə mənim haqqım var. Bunların hamısı Azərbaycanın dövlət başçılarının, dövlət adamlarının gözü qabağında idi.

Nəhayət, iyunda Gəncə hadisəsi və onun nəticələri – bunlar da məlumdur. Ona görə mən bu məsələyə də toxunmuram. Bir sözlə, bir tərəfdən Ermənistan və Ermənistanla bağlı olan qüvvələr Azərbaycanı parçalamaq və onun bir hissəsini ələ keçirmək istəyirdilər. Digər tərəfdən isə Azərbaycanın daxilində olan qüvvələr ancaq və ancaq öz şəxsi məqsədlərinə nail olmaq istəyirdilər, hakimiyyət uğrunda mübarizə aparırdılar, vəzifə davası aparırdılar. Bu, ancaq şəxsi mənafe, yəni qanunsuz olaraq sərvətlənmək, zənginləşmək, qanunsuz pul, imkan ələ keçirmək məqsədi daşıyırdı. Onlar hamısı bu kimi çirkin əməllər yolu ilə Azərbaycanı parçalamaq istəyirdilər. Belə bir vəziyyət 1993-cü ildə yaranmışdı.

Biz bunların hamısının öhdəsindən gələ bildik. Ancaq bu qüvvələr yenə də sakit dayanıb qalmadılar. Onlar yenə də öz çirkin əməllərinə nail olmağa çalışdılar. Biz bunları hansı yolla, necə dəf etmişik,- mən indi bunu demək fikrində deyiləm. Bunlar hamısı mənə məlumdur və güman edirəm ki, Azərbaycana ürəyi yanan və Azərbaycanda gedən proseslərə diqqət edən insanlara da, xüsusən, bu salonda onların əksəriyyətinə də məlumdur.

Belə bir vəziyyətdə 1994-cü ilin əvvəlindən başlayaraq aprel və may aylarında bu qüvvələrdə yenidən hakimiyyəti ələ keçirmək, öz mövqelərini möhkəmlətmək, şəxsi mənafeləri üçün Azərbaycanın bütün varını-yoxunu istifadə etmək

meylləri baş qaldırmışdı. Şübhəsiz ki, bunlar bir tərəfdən belə insanların çirkin niyyətlərinin, əməllərinin bəhrəsi idi. İkinci tərəfdən isə Azərbaycanı xaricdən parçalamaq, zəiflətmək və beləliklə də təslim etmək, ölkəmizin bir hissəsini tamamilə əlimizdən almaq istəyən xarici qüvvələrin təxribatçı fəaliyyəti ilə əlaqədar idi. Çox təəssüflər olsun ki, bizim daxilimizdə olan, çirkin əməllərlə yaşayan, çirkin məqsədlərə nail olmaq istəyən adamlar xalqımıza, ölkəmizə, millətimizə düşmən olan xarici qüvvələrlə bu sahədə birləşib hərə öz məqsədini daşıyırdı. Əgər xaricdə olan qüvvələr Azərbaycana qarşı böyük təxribat məqsədi, qlobal məqsədlər daşıyırdılarsa, daxildə olanlar isə bunlardan istifadə edib çalışırdılar ki, Azərbaycan da dağılsa, millət də parçalansa-təki bunlar vəzifə əldə etsinlər, hakimiyyət əldə etsinlər, öz çirkin əməllərini yerinə yetirsinlər, onsuz da ağır vəziyyətə düşmüş Azərbaycan iqtisadiyyatını daha da dağıtsınlar, xalqı soysunlar-özlərinə var-dövlət yığmaq üçün və qanunsuz zənginləşmək üçün.

Bu siqnallar, bu məlumatlar bizə gəlirdi, çatırdı. Bunlar cürbəcür istiqamətdə gedirdi. Son aylarda Moskva mətbuatında, başqa xarici ölkələrin – Türkiyənin, Qərb ölkələrinin mətbuatında, hətta Azərbaycanda dövlət çevrilişinin hazıranması, ayrı-ayrı qüvvələrin birləşməsi haqqında məlumatlar verilirdi. Əgər bir tərəfdən bunu keçmş baş nazir Surət Hüseynov xəlvətcə hazırlayırdısa, ikinci tərəfdən də ona ruh verən, bu işi qızışdıran, ona həmrəylik göstərən qüvvələr, adamlar var idi.

Belə məlumatlar bizə gəlirdi, çatırdı. Mən şəxsən bir Prezident kimi Azərbaycanda həm daxili ictimai-siyasi sabitliyin olması, həm də ölkəmizin ərazi bütövlüyünün qorunması vəzifəsini üzərimə götürmüşəm. Ona görə də bu məlumatlar məni narahat etməyə bilməzdi. Eyni zamanda mən ölçüb-biçib nəticəyə gəlirdim ki, bu qüvvələr nə qədər çalışsalar da, Azərbaycanda artıq formalaşmış ümumi həmrəylik əzmini,

xalqın ümumi fikrini korlaya bilməzlər. Odur ki, bəzi adamlar hətta gəlib çox qorxu ilə, təhlükə ilə mənə deyəndə ki, dövlət çevrilişi hazırlanır, filankəslər hazırlayır, şübhəsiz ki, mən bunları nəzərə alırdım, bu barədə müəyyən yoxlamalar aparırdım. Ancaq, eyni zamanda, heç vaxt ehtiyat etmirdim. Keçmiş baş nazir Surət Hüseynov bəlkə də onun haqqında bu qədər danışılmağa layiq olan adam deyil. Mən dedim ki, son illərdə gedən proseslərdə belə adamlar meydana çıxdı–Surət Hüseynov kimi, Rəhim Qazıyev kimi, Əlikram Hümbətov kimi adamlar. Başqaları da var. Onların adlarını çəkmək istəmirəm, - hamısı bir-bir üzə çıxacaqdır, onlara əl altından kömək etmək istəyən adamlar da. Surət Hüseynovu kim idi meydana çıxaran, kim idi ona Milli Qəhrəman adı verən, kim idi onun - bu cinayətkar adamın ətrafında belə əhval-ruhiyyə yaradanlar? Onların özləri də bu cinayətkarın qurbanı oldular.

Ancaq mən son vaxtların hadisələri haqqında danışmaq istəyirəm. Bu Surət Hüseynov kimi adam baş nazir vəzifəsi ilə məşğul olmaq əvəzinə – baxmayaraq ki, onun bu vəzifə ilə məşğul olmağa o qədər də potensialı, imkanı yox idi, amma əgər istəsəydi, bir şey öyrənə bilərdi, - ancaq altdan-altdan çirkin işlərlə məşğul olurdu, başqa işlərlə məşğul olmağa vaxtı yox idi.

Təəssüf ki, bizim bəzi vəzifəli rəhbər işçilər, bəzi qruplar da yenə keçmişləri yada salaraq, yəni kimsə hansı zorakılıq əməli ilə nə isə edə bilərsə, ona yıxılmaq, ona yaxınlaşmaq, - onunla əlbir olmağa, birləşməyə çalışdılar. Beləliklə də, cürbəcür qüvvələrin dövlət çevrilişi hazırlaması prosesi gücləndi. Xatirinizdədir, qəzetlərdə yazırdılar, hətta mən sentyabrın 24-də Amerikaya səfər edərkən İstanbulda təyyarə meydanında mənə bir neçə qəzet göstərdilər. Bildirdilər ki, çevriliş hazırlanır. Surət Hüseynov çevriliş hazırlayır, – bunu qəzetlərdə yazmışdılar. Bunları mən özümdən demirəm, – çevrilişi Əbülfəz Elçibəy hazırlayır, Rövşən Cavadov hazırlayır, çevrilişi

Ayaz Mütəllibov hazırlayır, filankəs hazırlayır. Müxbirlər bunu çox təlaşla, narahatlıqla mənə dedilər. Mən bildirdim ki, narahat olmayın. Azərbaycan xalqı artıq belə şeylərə yol verməz, imkan verməz.

Ancaq eyni zamanda bu adamlar, görünür ki, xalqın indi nə qədər yetkin olduğunu dərk etməmişlər. Onlar köhnə əhval-ruhiyyə ilə, köhnə fikirlərlə yaşayırlar.

Bir neçə təxribat hadisəsi həyata keçirildi. Bunlar sentyabrın 21-dən başlayaraq oktyabrın 4-nə qədər oldu. Nəhayət, oktyabrın 3-4-də dövlət çevrilişi prosesi son həddə çatdı. Gəncədə, bir neçə rayonda dövlət hakimiyyət orqanları artıq ələ keçirilmişdi və Bakıda da dövlət çevrilişi aparmaq üçün lazımi tədbirlər görülmüşdü.

Biz bu dövlət çevrilişi cəhdinin qarşısını aldıq. Bunun qarşısını silah gücünə yox, qan tökülməsi ilə yox, dava ilə yox, ancaq və ancaq xalqımızın, Azərbaycan vətəndaşlarının milli həmrəyliyi ilə, xalqın artıq belə cinayətkar ünsürləri tanıyaraq, onlara bundan sonra imkan verməmək əzmi ilə aldıq.

Oktyabrın 4-dən 5-nə keçən gecə vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq mən xalqa müraciət etdim. Əmin idim ki, xalq mənim səsimə səs verəcəkdir. Çünki xalqın əksəriyyəti ədalət istəyir, rahatlıq istəyir. Xalqın əksəriyyəti artıq bu çəkişmələrdən, bu cinayətkar ünsürlərin cürbəcür fırıldaqlarından doyubdur. Əmin idim ki, əgər xalq 1993-cü ilin oktyabr ayında ümumxalq səsverməsində mənə etibar göstəribsə, məni prezident seçibsə, demək, belə bir böhranlı vəziyyətdə də xalq öz dövlətçiliyini qoruyacaqdır, xalq bunu edərkən dövlətçiliyinin başında duran Azərbaycan prezidentini qoruyacaqdır.

Buna görə də mən tam cəsarətlə xalqa müraciət etdim. Xalq bu müraciətə səs verdi. O gecə vaxtı Bakıda prezident sarayının qarşısında yüz minlərlə adam toplaşdı. Azərbaycanın demək olar ki, bütün rayonlarında, bütün şəhərlərində insanlar o gecə ayağa qalxdılar, həmin o qiyamçılara, o cinayət-

karlara və Azərbaycan dövlətini devirməyə çalışanlara lazımi cavab verdilər. Sabahısı gün – oktyabrın 5-də Azadlıq meydanında keçirilən mitinqə toplaşmış bir milyondan artıq Azərbaycan vətəndaşı – həm Bakıdan, həm də başqa şəhərlərdən, rayonlardan gəlmiş adamlar Azərbaycan xalqının, millətinin, vətəndaşlarının milli həmrəyliyini bir daha nümayiş etdirdilər. Həm o cinayətkarlara, həm də bütün dünyaya bildirdilər ki, artıq Azərbaycan xalqı öz müstəqilliyini qorumağa qadirdir və bundan sonra da qoruyacaqdır!

Mən bu gün bir daha o anları, o dəqiqələri, o saatları, o gərgin gecəni və oktyabrın o işıqlı günəş şüaları ilə işıqlanmış Bakını yadıma salıram. Bir daha həm sizin qarşınızda, həm də respublikamızın bütün vətəndaşları qarşısında Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına vətənpərvərliklərinə görə, cəsurluqlarına, qəhrəmanlıqlarına görə, Azərbaycanın dövlətçiliyini qorumaq əzmində olduqlarına görə və cinayətkarlara layiqli zərbələr vurduqlarına görə, Azərbaycan dövlətçiliyini, Azərbaycanın prezidentini qoruduqlarına görə öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

O gün, yəni oktyabrın 4-dən 5-nə keçən gecə, oktyabrın 5-də mən öz çıxışlarımda hadisələrə məhz o günə bəlli olan məlumatlar əsasında qiymət verdim, fikirlərimi bildirdim. Ancaq indi artıq iki aya yaxın vaxt keçibdir. Bu müddətdə xalqımız bu məsələləri daha ətraflı təhlil etməyə imkan tapıbdır. Hər bir insan o günləri də və ondan sonra keçən günləri də təhlil etməyə imkan tapıbdır. Bununla yanaşı, bizim istintaq orqanları, hüquq - mühafizə orqanları o cinayətkarların bəd əməllərini meydana çıxarmaq üçün lazımi işlər, lazımi tədbirlər görüblər və bunları nəzərə alaraq, həmin o günlərdən keçən dövrdə aparılmış işləri müəyyən qədər təhlil etmək, eyni zamanda sizə və respublikanın ictimaiyyətinə daha geniş məlumat vermək məqsədi ilə bu gün ümumxalq nümayəndələrinin toplantısını keçirməyi lazım bilmişəm.

Bu gün bu salonda xalqın nümayəndələri toplaşıb. Xalqın bütün təbəqələrinin nümayəndələri buraya dəvət olunubdur. Bu, dövlət müşavirəsi deyil, ötən dövrlərdə keçirilən fəallar yığıncağı deyil. Bu, oktyabrın 4-dən 5-nə keçən gecə prezident sarayının qarşısına toplaşmış adamların mitinqinin bir hissəsidir. Oktyabrın 5-də Azadlıq meydanına toplaşmış vətəndaşlarımızın keçirdikləri mitinqin bir hissəsidir. Şübhəsiz ki, bu salona indi oradakı qədər adam toplaşa bilməz. Ancaq istəsəydik, bundan da çox adam bizim möhtəşəm Azadlıq meydanına toplaşardı. Buna indi ehtiyac yoxdur. Biz sadəcə olaraq bu məsələləri, yenə də deyirəm, təhlil etmək üçün, çevriliş cəhdi ilə əlaqədar məsələlərdən irəli gələn vəzifələri aydınlaşdırmaq üçün ümumxalq nümayəndələrinin indiki toplantısını keçirməyi lazım bilmişik və bu toplantıya yığışmışıq.

Bu gün burada sərbəst, səmimi və demokratik əsaslarla söhbət gedəcəkdir. Ancaq məsələləri açmaq üçün, müzakirə etmək üçün, həmin məsələlərin Azərbaycan üçün nə qədər təhlükəli olduğunu bir daha dərk etmək üçün və eyni zamanda, xüsusən, bundan sonra belə cinayətkar qrupların, adamların, təşkilatların cinayətkar hərəkətlərinin qarşısını almaq üçün burada müəyyən söhbət, danışıqlar, müzakirə aparmalıyıq. Bu müzakirələrin istənilən səviyyədə keçməsi üçün və ümumi söhbət şəklində deyil, konkret faktlar əsasında keçməsi üçün yəqin ki, bizim hüquq-mühafizə orqanları rəhbərlərinin məlumatını dinləmək lazım olardı. Onlar bizi məlumatlandırarlar. Sonra isə kim çıxış etmək istəyirsə, buna imkan vardır.

Toplantı bu gün bütün gün ərzində keçiriləcəkdir. Yəni, respublikanın bu ağır vəziyyətdən çıxması üçün, həm iqtisadi, həm sosial vəziyyəti, həm də daxili ictimai-siyasi vəziyyəti daha dərindən dərk etmək üçün burada sərbəst söz deməyə hər kəsin imkanı vardır.

Beləliklə, mən ümumxalq nümayəndələri toplantısını açıq elan edirəm.

## *YEKUN SÖZÜ*

Hörmətli xalq nümayəndələri!

Hörmətli xanımlar, cənablar, hörmətli qonaqlar!

Bu gün bu salonda Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının bütün təbəqələrinin nümayəndələrinin toplanması və Azərbaycan Respublikasının dövlətçiliyi ilə, müstəqilliyi ilə əlaqədar olan mühüm məsələnin müzakirə edilməsi respublikamızın həyatında əlamətdar bir haldır. Azərbaycanda dövlət çevrilişi etmək cəhdindən iki ay keçir. Bu müddətdə xalqımızın, millətimizin, respublikamızın vətəndaşlarının həm sentyabrın sonu – oktyabrın əvvəllərində baş vermiş hadisələri daha dərindən təhlil etməyə, həm də onları qiymətləndirməyə imkanları var idi. Bugünkü toplantıdan, eləcə də əhalidən, ayrı-ayrı vətəndaşlardan, kollektivlərdən, təşkilatlardan Azərbaycan Prezidentinin ünvanına, başqa dövlət orqanlarına, mətbuat, informasiya orqanlarına gələn məktublardan belə bir nəticə çıxır ki, xalqımız, Azərbaycan vətəndaşları o hadisələri, doğrudan da, dövlət çevrilişinə cəhd kimi qiymətləndirir, o hadisələri izləyir və Azərbaycan dövlətçiliyini qorumaq əzmində olduqlarını bir daha bəyan edirlər.

Bu gün burada hüquq-mühafizə orqanlarının, inzibati orqanların rəhbərləri məlumat verdilər. Bunlar və nümayəndələrin çıxışlarındakı məlumatlar hamısı birlikdə bir daha sübut edir ki, Azərbaycanın müstəqilliyinə qarşı, dövlətçiliyinə qarşı uzun müddət hazırlanmış çevriliş planı var imiş və həmin planı həyata keçirmək cəhdi olmuşdur, bu cəhdin qarşısı alınmışdır. Cinayətkarların bir qismi yaxalanıb, digərləri isə qaçıblar, respublikanı tərk ediblər, başqa ölkələrdə gizləniblər. Ancaq yenə də sakit durmurlar, yenə də öz bəd əməllərini həyata keçirmək istəyirlər, cinayətkar fəaliyyətlərini davam etdirirlər.

Ona görə də bu gün belə bir toplantının keçirilməsinin zəruriliyini bu tədbir artıq sona çatarkən mən daha çox hiss edirəm. Hiss edirəm ki, əgər oktyabrın əvvəlində – 4-də, 5-də o mitinqlərdə, ondan sonra şəhərlərdə, rayonlarda, qəsəbələrdə, təşkilatlarda, müəssisələrdə olmuş yığıncaqlarda, mitinqlərdə bu məsələlər haqqında çox sözlər deyilmişdisə, indi, o hadisələrdən təxminən iki ay keçəndən sonra bu məsələlər haqqında daha ciddiyyətlə danışmaq olar, bu məsələlərin, bu hadisələrin Azərbaycan üçün nə qədər böyük təhlükə olduğunu demək olar və vətəndaşlarımızı, xalqımızı bir daha sayıqlığa dəvət etmək olar.

Azərbaycan müstəqilliyini əldə edən gündən indiyə qədər, təəssüf ki, çox ağır bir şəraitdə yaşamışdır. Mən bu gün toplantını açarkən qeyd etdim ki, 1988-ci ildən indiyə qədər Azərbaycanın həyatında bir çox mərhələlər, bir çox dəyişikliklər olmuş və bunlar hamısı da aybaay, günbəgün, ilbəil xalqımızın, vətəndaşların, respublikanın vəziyyətini ağırlaşdırmış, çətinləşdirmişdir. Bu gün biz bir daha qeyd etməliyik ki, Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün ən ağır bəla ölkəmizin hərbi təcavüzə məruz qalmasıdır, müharibə şəraitində olmasıdır, altı ildən artıq gedən müharibədə Azərbaycanın böyük itkiləri, torpaqlarının işğal olunmasıdır, bir milyondan çox əhalisinin qaçqın vəziyyətinə düşməsidir. Bu, bizim ümumi problemimizdir. Azərbaycan xalqının, Azərbaycan Respublikasının və Vətəni, torpağı haqqında düşünən hər bir azərbaycanlının başına gələn bəladır. Bu, bizim dərdimizdir, faciəmizdir.

Bu illər ərzində Azərbaycan faciəli günlər, faciəli illər yaşayıb. Bu gün də biz faciəli günlər yaşayırıq. Ona görə də düşmənin Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızın bir qismini ələ keçirmək planlarının qarşısını almaq üçün, buna sinə gərmək üçün, bu planları pozmaq, Azərbaycanı qorumaq üçün hamının bir məqsədi olmalı idi: o vaxt da, 1988-ci

ildə də, ondan sonrakı illərdə də birləşib xalqımızı bu vəziyyətdən çıxarmaq, ümumi düşmənin, təcavüzkarın, Azərbaycanı parçalamaq istəyən düşmənlərin qarşısına çıxmaq, onların qarşısını almaq. Xalqın əksəriyyəti, - bu gün mən bunu ürəyimdə olan sözlər kimi demək istəyirəm, çünki həmin bu illərin bir hissəsini öz doğma torpağımda olmasam da, bu dərdlərlə yaşamışam. Digər hissəsini isə xalqımla bir yerdəyəm, - xalqın tam əksəriyyəti həmişə bu hisslərlə, bu duyğularla yaşamışdır, yəni başqa bir məqsədi, fikri olmamışdır. Ancaq təəssüflər olsun ki, 1988-ci ildə başlanmış proseslərdə – xalqın əksər hissəsinin sağlam əhvali-ruhiyyədə, Vətənini, torpağını qorumaq əzmində olduğu bir vaxtda xalqın içərisində bu dövrün, şəraitin, proseslərin imkanlarından istifadə edərək öz şəxsi məqsədlərinə nail olmaq istəyənlər vardır. Onlar o vaxt da olmuşlar, təəssüf ki, indi də var. Məhz onlara görə Azərbaycan məğlubiyyətlərə uğramışdır, məhz onlara görə Azərbaycanın başına belə bəlalar gəlmişdir.

Bu gün toplantının başlanğıcında dediyim sözləri bir daha təkrar etmək istəyirəm. 1988-ci ildən Azərbaycanda hakimiyyətin ədalətsizliyinə görə, tərkibində olduğumuz Sovetlər İttifaqının rəhbərləri Azərbaycan Respublikasına, Azərbaycan xalqına ədalətli münasibət göstərmədiyinə görə və Azərbaycanda hakim olan şəxslər, orqanlar Azərbaycan xalqının, millətinin qayğısına lazımi qədər qalmadığına görə, hələ 1988-ci ildə bu günləri görən adamlar Azərbaycanın müdafiəsinə qalxmış, onun torpaqlarını müdafiə etmək üçün fəaliyyət göstərməyə çalışmışlar. Bunlar hamısı Azərbaycanda milli ruhun, vətənpərvərlik ruhunun oyanmasına, yüksəlməsinə, formalaşmasına kömək etmiş, milli azadlıq hərəkatı meydana çıxmış və bu proseslər nəhayət, Azərbaycanda başqa proseslərlə yanaşı, müstəqilliyin əldə olunmasına gətirib çıxarmışdır.

Biz bu il noyabrın 17-də Azərbaycanın Milli Dirçəliş gününü qeyd etdik. Bəli, bu, doğrudan da tarixə düşmüş bir gün-

dür. O vaxt Azərbaycanın gəncləri, milli şüurla, vətənpərvərlik şüuru ilə yaşayan insanları Azərbaycana qarşı ədalətsizliyə etiraz əlaməti olaraq meydanlara çıxdılar, böyük mitinqlər keçirildi. Azərbaycanda milli azadlıq hərəkatı formalaşdı. O vaxtlar bu mitinqlərə ayrı-ayrı adamlar yox, Azərbaycanın yüz minlərlə vətəndaşı toplaşırdı. Noyabrın 17-də Azadlıq meydanında xüsusən Nemət Pənahovun rəhbərliyi altında başlanan mitinqlər – bunlar hamısı Azərbaycanın ağır vəziyyətdə olması ilə əlaqədar meydana gələn müsbət hadisələr idi. Bu hadisələr sonra inkişaf etdi və şübhəsiz ki, Azərbaycanda milli ruhun artmasına kömək etdi, öz müsbət nəticələrini göstərdi. Bunları biz qiymətləndirməliyik, unutmamalıyıq. Ondan sonra gedən müsbət prosesləri də həmişə qiymətləndirməliyik. Bunları da unutmamalıyıq.

Ancaq eyni zamanda, bu proseslər Azərbaycanın belə ağır vəziyyətindən öz şəxsi məqsədləri üçün istifadə etmək yoluna düşmüş ayrı-ayrı insanları da üzə çıxartdı. O vaxt Azərbaycanın hakim dairələri xalqa pis münasibət bəsləyirdilər. Vətəni, torpağı qoruya bilmədilər. Qarabağ məsələsi başlayarkən onun qarşısını ala bilmədilər. Məhz ona görə də xalq Azərbaycanın kommunist rəhbərliyinin əleyhinə qalxdı və 1990 - cı il 20 Yanvar hadisələri baş verdi.

20 Yanvar hadisələri Azərbaycan xalqının milli şüurunun daha da yüksəldiyini göstərdi. Eyni zamanda bu hadisələr milli hərəkatın, milli şüurun imperiya qüvvələri tərəfindən boğulduğunu göstərdi. Azərbaycan xalqı şəhidlər verdi. Onların xatirəsi bizim üçün daim əziz olacaqdır. Ancaq eyni zamanda Azərbaycan xalqı sübut etdi ki, onun mənliyi var, milli qüruru var. O, şəhidlər vermiş olsa da, artıq bu ədalətsizliyə dözmür.

Hakimiyyət dəyişildi. Ancaq yeni hakimiyyət özü üçün nəticə çıxarmadı. Ayrı-ayrı qüvvələr bütün bu proseslərdən Vətəni, torpağı, milləti qorumaq üçün yox, - bir tərəfdən, ha-

kimiyyətdə olan adamlar özlərini qorumaq üçün, digər tərəfdən isə ayrı-ayrı adamlar, qruplar, təşkilatlar şəxsi məqsədlərinə nail olmaq üçün istifadə edirdilər.

Beləliklə, Ermənistanda ordu, silahlı qüvvələr yarandı, Qarabağı ardıcıl olaraq öz əllərinə keçirməyə başladılar. Azərbaycanda isə ordu yaratmaqla məşğul olmadılar. Ayrı-ayrı silahlı dəstələr bu fürsətdən istifadə edib öz şəxsi məqsədlərinə nail olmağa çalışdı. Belə olan halda, o vaxt Azərbaycanın rəhbəri Mütəllibov özü üçün də «Qardaşlıq» adlı silahlı dəstə yaratdı. Bu, xatirinizdədir. Müxalifətdə olan adamlar cəbhədə döyüşmək əvəzinə, torpağımızı qorumaq əvəzinə öz müxalifət fikirlərini həyata keçirmək üçün silahlı dəstələr yaratdılar. Belə silahlı dəstələrin yaranması, şübhəsiz ki, qanuna sığmayan şeydir. Ölkədə dövlət strukturu var, ordu, hüquq-mühafizə orqanları var. Lakin hakimiyyətdə olan adamların bunlara inanmayaraq özlərinə silahlı qüvvə yaratması ayrı-ayrı nalayiq şəxslərin meydana çıxıb Azərbaycanın hörmətli, nüfuzlu adamlarının, necə deyək, kənara çəkilməsinə şərait yaratdı. Mən bunu geniş təhlil etmək istəyirəm. Bax, bu proseslər nəticəsində Rəhim Qazıyev kimi, Surət Hüseynov, Əlikram Hümbətov kimi və onlara bənzər adamlar meydana çıxdı. Vəzirov xalqına xəyanət etdi, qaçdı. Mutəllibov xalqına xəyanət etdi, qaçdı.

Nəhayət, dörd ildən sonra, bu ilin əvvəlində Milli Məclis yanvar hadisələrinə qiymət verdi. O vaxt Azərbaycan xalqına xəyanət edən adamların adları Milli Məclisin qərarında öz əksini tapdı. O adamlar qaçıb gizləndilər. Amma Azərbaycanda yaranmış bu silahlı dəstələr yenə də hakimiyyət əldə etmək, vəzifə ələ keçirmək əhval-ruhiyyəsindən çəkinməmişlər. Onlar bunu davam etdirdilər və 1993-cü ilin iyun hadisələri baş verdi.

1993-cü ilin iyununda Azərbaycan artıq parçalanmışdı. Mən toplantının əvvəlində dedim, bir də təkrar etmək istəyi-

rəm, – 1993-cü ilin əvvəlindən Azərbaycanda artıq parçalanma prosesi gedirdi. Azərbaycanın bəzi bölgələrində etnik qrupları qızışdırmaq, bir-birinə qarşı qoymaq istəyirdilər. Milli məsələdə buraxılan bəzi səhvlər Azərbaycanın bölgələrində etnik qruplar arasında cürbəcür proseslər yaratdı. Rəhim Qazıyev, Əlikram Hümbətov və Surət Hüseynov kimi adamlar da bu proseslərdən öz siyasi məqsədləri üçün istifadə etməkdən ötrü müəyyən fəaliyyətə başladılar.

Bunların qarşısı alına bilərdi. Necə ki, mən bu gün də hesab edirəm ki, əgər 1987-ci ilin axırında, 1988-ci ilin əvvəlində o vaxtkı Sovetlər İttifaqı Qarabağ probleminin yaranmasını istəməsəydi, onun qarşısını alardı. Nə Ermənistanla Azərbaycan arasında müharibə başlanardı, nə də Qarabağ problemi bu səviyyəyə çatardı. Ancaq onlar bunu istəmədilər, bu problemi süni surətdə özləri yaratdılar. Eyni şəkildə, əgər kiçik miqyasda götürsək, Azərbaycan Respublikasında 1993-cü ilin əvvəlində bu proseslərin qarşısı alına bilərdi. Ancaq hakimiyyətdə olan şəxslər, təşkilatlar, xüsusən o vaxt hakimiyyətdə olan Xalq Cəbhəsi bunun qarşısını ala bilmədilər və ala da bilməzdilər. Çünki artıq onlar xalq qarşısında hörmətdən düşmüşdülər. Əgər hörmətdən düşməsəydilər, Surət Hüseynov kimi adam başına bir elə dəstə yığıb ordunun bir hissəsini öz əlinə keçirə bilməzdi. Əgər dövlət, onun başında duran adamlar hörmətdən düşməsəydilər, xalqın onlara inamı itməsəydi, Əlikram Hümbətov kimi adam, - burada çıxış edən müəllim onun haqqında karikatura şəklində bir söz dedi, həqiqətən belə idi, - Azərbaycanın cənubunda yeddi rayonu əlinə keçirməzdi. Axı, Əlikram Hümbətov təkcə iyun ayında deyil, ondan əvvəl də bunu etmişdi.

Artıq fevral ayından başlayaraq həmin rayonlar onun əlində idi. Ordunun bir hissəsini də, tankları, topları da – hamısını ələ keçirmişdi.

Azərbaycanın o vaxtkı rəhbərliyi aciz qaldı. Nə üçün? Çünki dövlətçiliyi qurmaq əvəzinə, dövlətin strukturlarına istinad etmək əvəzinə, o vaxt Xalq Cəbhəsi də özünə silahlı qüvvə saxlayırdı. Mən o zaman təəccüb edirdim ki, necə ola bilər, sən dövlətin başında olasan, dövlətə rəhbərlik edəsən, dövlət strukturlarından savayı, onlarla yanaşı Xalq Cəbhəsinin silahlı dəstələri də olsun? Mən bunu Naxçıvanda gördüm. Amma bu, təkcə orada deyildi. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi var idi. O vaxtlar biz Rusiyaya mənsub olan diviziyanı çıxartdıq, orada bir hərbi briqada yarandı. Amma eyni zamanda Xalq Cəbhəsinin böyük silahlı dəstələri vardı. Onların bir qismi indiyədək qalır. Üç gün bundan əvvəl oradan nə qədər silah tapıldı. Bu gün milli təhlükəsizlik naziri vəzifəsini icra edən Namiq Abbasov həmin silahlar barədə danışdı. Amma son aylarda orada ayrı-ayrı yerlərdə gizlədilmiş nə qədər silah tapıldı. Bunlar nəyə lazımdır? Əgər dövlətə lazımdırsa, dövlətin əlində olmalıdır. Amma dövlətin başında dura-dura eyni zamanda gizli silahlı dəstə saxlayırsansa, demək, ya sən dövlətə başçılıq etməyə yaramırsan, yaxud da qəsdən bunu edirsən ki, aranı qızışdırasan.

Bax, bunların nəticəsində 1993-cü ilin əvvəlində bu hadisələr baş verdi, Surət Hüseynov kimi adamı meydana çıxaranlar Azərbaycan xalqı qarşısında cavabdehdirlər. Çünki Surət Hüseynov artıq böyük vəzifələr sahibi idi. Prezidentin Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi, baş nazirin birinci müavini, korpus komandiri idi və Milli Qəhrəman adı almışdı. Bunların hamısını ona Azərbaycanın dövlət başçıları vermişdi. Rəhim Qazıyev kimi adamın – mən bunu dəfələrlə demişəm, Azərbaycan xalqına onun vurduğu zərbəni, ola bilər heç kəs vurmamışdır - bir tərəfdən guya Xalq Cəbhəsinin rəhbərlərindən, liderlərindən idi, Xalq Cəbhəsinin liderlərindən biri kimi müdafiə naziri idi, guya ki, Azərbaycanın torpaqlarını müdafiə edirdi, eyni zamanda Azərbaycanı içəridən dağıdırdı. Nə

üçün? Aşkar oldu, 1993-cü ilin iyun – iyul aylarında Milli Məclisdə gedən müzakirələr onun iç üzünü tamamilə açdı. Halbuki bunu etmək o qədər də çətin bir şey deyildi. Onun iç üzünü 1991-ci ildə də, 1992-ci ildə də və 1993-cü ilin əvvəllərində də açmaq olardı, ifşa etmək olardı ki, Azərbaycanı gətirib bu vəziyyətə salmasın. Bunların hamısının nəticəsində belə layiqsiz adamlar üzə çıxdılar, özlərinə yeni silahlı dəstələr düzəltdilər və 1993-cü ilin iyununda Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdılar.

Vətəndaş müharibəsi başladı. Gəncədə qan töküldü. Fərqi yoxdur, kim kimə atəş açdı, nə təhər oldu, - həlak olan, ölən azərbaycanlılar oldu. Azərbaycanlı azərbaycanlı ilə vuruşdu. Bakının yaxınlığında qan töküldü. Bunun qarşısını almaq, Azərbaycanı belə vəziyyətdən çıxarmaq lazım idi. Ona görə də Surət Hüseynov meydana çıxdı. Əlbəttə, indi şübhə etmək olar ki, Surət Hüseynov kimi adam nə cür gəlib Baş nazir oldu. Çünki onu Baş nazir vəzifəsinə gətirən adamlar əvvəldən onu bu səviyyəyə çatdıranlar idi. Ona görə də belə oldu.

Əlikram Hümbətovun qurduğu işlər sentyabr ayına qədər hələ davam edirdi. Biz orada da istəmirdik ki, qan tökülsün. Ancaq yeddi rayon onun əlində idi. Nəhayət, xalq ayağa qalxdı. Əlikram Hümbətovun quldur dəstəsi adamlara atəş açdı, orada da dörd nəfər həlak oldu. Əlikram Hümbətova havadarlıq edən adamlar onu qaçırdılar. Sonra biz nə qədər əzab-əziyyətlə onu tapıb həbs etdik. Rəhim Qazıyev də həbs olundu. Məhkəmə başlandı. Görəndə ki, hər şey açılacaq, bəli, yenidən dövlət çevrilişinə başladılar. Mən bu gün dedim, o vaxtdan yayılan şayiələr, bizə gələn məlumatlar, istintaqda əldə edilən sübutlar, xarici mətbuatın və Azərbaycandakı qeyri-formal, müxalifət qəzetlərinin yazıları – hamısı onu göstərirdi ki, doğrudan da Azərbaycanda ayrı-ayrı qüvvələr dövlət çevrilişi hazırlayırlar. İş burasındadır ki, - mən bu gün bunu deməli-

yəm – Surət Hüseynov özü də bir neçə dəfə gəlib mənə deyirdi ki, onlar bizi devirmək, yıxmaq istəyirlər, bizim əleyhimizə çıxmaq istəyirlər. Mən bununla demək istəmirəm ki, onun sözlərinin hamısı doğrudur. Ancaq o, dəfələrlə mənə demişdi ki, onun yanına Xalq Cəbhəsinin də, Müsavat Partiyasının da nümayəndələri gəlir, nə bilim, Rövşən Cavadov da gəlir, o birisi, bu birisi də gəlir, hamısı deyir ki, gəlin birləşək, Heydər Əliyevi yıxaq, amma mən deyirəm ki, yox, Heydər Əliyev bizə çox lazımdır, ağsaqqaldır, belə şey olmaz.

Mən onu dinləyirdim və deyirdim ki, axı nə təhər olur, bunlar hamısı sənin yanına gəlir? Niyə belə olur. Nədən ötrü sənin yanına gəlirlər? Əgər sən hesab edirsənsə ki, bunlar dövlət çevrilişi etmək istəyirlər deməli, onda sənin kimi adamı özlərinə müttəfiq etmək istəyirlər.

Yaxud da sən yalan deyirsənsə, bunları özünə müttəfiq etmək istəyirsən. Mən bu sözləri ona dəfələrlə demişəm. Son zamanlar, hadisələr qızışan vaxtda da deyirdi ki, mənim yanıma hamısı gəlir və bildirirlər ki, bizimlə işin olmasın, bizim də səninlə işimiz yoxdur. Biz ancaq Heydər Əliyevi yıxacağıq, sonra sizinlə birlikdə olacağıq. Dedim ki, yaxşı, get onlarla birləş, əgər yıxa bilirsənsə, yıx.

Demək istəyirəm ki, bu qaynaşma respublikamızda may ayından da əvvəl başlamışdı və təəssüf ki, - mən indi konkret heç bir şey demək istəmirəm, - vəzifə hərisi olan ayrı-ayrı adamlar, bu fürsətdən bəhrələnərək özlərinə məqam seçmək istəyən adamlar bunların hamısından istifadə edirdilər. Surət Hüseynovun mənə dediyi sözlərdə də müəyyən həqiqət var idi. Çünki yoxlamalar göstərirdi ki, həmin qəbildən olan ayrı-ayrı qüvvələr Surət Hüseynovla görüşür, danışır, əlaqə saxlayırlar.

Ancaq, bu, təkcə onların işi deyildi. Şübhəsiz ki, xaricdən idarə olunan Mütəllibov, onun havadarları, başqaları – bunlar hamısı birləşmişdi. Bu proseslər nə üçün sentyabrda başlandı?

Çünki biz neft müqaviləsini imzaladıqdan sonra bu qüvvələr fikirləşdi ki, indi bundan sonra çevriliş etmək lazımdır. Rusiyanın bir diplomatı mənə deyir ki, Surət Hüseynov onunla görüşərkən bildirib ki, o, neft müqaviləsinin əleyhinədir, buna yol verməyəcək, Rusiyaya tərəfdardır və s. Belə sözlərlə guya onlardan kömək almaq istəyirdi. Şübhəsiz ki, mən bunu dövlətə şamil etmirəm, xahiş edirəm düzgün başa düşəsiniz. Həmin diplomat da bunu mənə Surət Hüseynovun çirkin əməllərini açmaq mənasında dedi. Görürsünüz, nə qədər çirkin yollara əl atırlar!

Ona görə də bu hadisələr başlandı. Tarixdə hələ görünməyib ki, Milli Təhlükəsizlik Nazirliyindən – keçmiş NKVD desək, onun ənənələri hələ orada yaşayır – oradan insanlar qaça bilsin. İndi mən qəti söz demirəm, bunların hamısına istintaq cavab verəcəkdir. Ancaq heç şübhə etmirəm ki, onların oradan qaçırılması çevrilişin başlanğıcı idi. Onları qaçıran və çevrilişi edən qüvvələr eyni idi. Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun terrorçuluq vasitəsilə öldürülməsi ikinci həlqədir. Üçüncü həlqə Xüsusi Təyinatlı Polis Dəstələrinin yolunu azmış bəzi qüvvələrinin başqa istiqamətə yönəldilməsi idi: prokurorluqla münaqişə və s. Nəhayət, Gəncədəki hadisə. Bunların hamısı planlaşdırılmış proseslər idi. Onlar Azərbaycanda dövləti devirmək istəyirdilər. Burada deyilən məlumatlar da bunu göstərdi, sübut etdi.

May ayında da, iyun ayında da, ondan əvvəl də adamlar narahatlıqla mənim yanıma gəlirdilər ki, belə danışıqlar gedir, şayiələr yayılır, ola bilər, dövlət çevrilişi olsun. Mən bu adamlara, - şübhəsiz, ürəyi yanan adamlara, çünki görürdüm onlar, doğrudan da, millətin, xalqın dərdinə yanan adamlardır, dəfələrlə demişdim və indi də deyirəm: əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də,

bir prezident kimi də durmuşam, duracağam və bu yolla hər dəqiqə, hər gün şəhid olmağa hazıram. Ona görə bu söz-söhbət, bu danışıqlar məni nə o vaxt qorxudurdu, nə də bu gün qorxudur.

Mən sizə bir dəfə demişəm, təkrar da edə bilərəm ki, mən Amerikaya yola düşərkən Azərbaycanda vəziyyət gərgin idi. Ancaq oraya getmək, Birləşmiş Millətlər Təşkilatında Azərbaycanın sözünü demək lazım idi. Onu da bilirsiniz ki, Azərbaycan müstəqillik qazanandan bəri onun dövlət başçısı BMT-də olmamışdır. Müstəqillik əldə etdikdən sonra keçən üç il ərzində ilk dəfə idi ki, Azərbaycanın dövlət başçısı Birləşmiş Millətlər Təşkilatında olmalı idi. Bu, əvvəllər də ola bilərdi, amma olmamışdı. Ona görə mən bunu etməli idim. Mən oraya gedərkən İstanbulun hava limanında müxbirlər məni əhatə etdilər, qəzetləri göstərdilər. Qəzetlərdə iri hərflərlə yazılmışdı ki, Azərbaycana zərbə vurmaq, çevriliş etmək istəyirlər. Mən hamısına dedim ki, narahat olmayın. Birincisi, zərbə olmayacaq, ikincisi, əgər olarsa, mən Azərbaycanda olsam da, olmasam da xalq bunun qarşısını alacaqdır.

Ancaq cinayətkarlar çirkin planlarını yerinə yetirdilər. Demək istəyirəm ki, bu, heç vaxt məni qorxutmamışdır və bu gün də qorxutmur, sabah da qorxutmur, heç vaxt da qorxutmayacaq. Ona görə ki, mən öz saf vicdanıma inanıram. Mən buraya vəzifə üçün gəlməmişəm, mənsəb üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim. Mənim başqa fikrim, başqa məqsədim yoxdur. İkincisi də, əgər belə cinayətkar qüvvələr, doğrudan da, Azərbaycan xalqına güc gələrsə, onda elə mən də həlak olaram, başqaları da həlak olar. Lakin əminəm ki, bu cinayətkar qüvvələr heç vaxt Azərbaycan xalqına, onun iradəsinə güc gələ bilməz. Əgər keçmişdə bəzi hadisələrdə onlar istədiklərinə nail ola bilmişdilərsə, bundan sonra artıq nail ola bilməzlər. Belə olmasaydı, Surət

Hüseynov və onun əlaltıları qoyub qaçmazdılar, burada qalardılar. Əgər mübarizə aparacaqdılarsa, aparaydılar, qaçmayaydılar. Hamısı qaçdı. Tutulan tutuldu, qaçanlar qaçdı. Əvvəlkilər də qaçdılar, Moskvada yerləşdilər, o birilər də qaçdılar. İndi bir qismi Moskvadadır, biri Kələkidədir, biri nə bilim, haradadır.

Ancaq mən bir müddət Azərbaycandan kənarda olmuşam. İndi Azərbaycana ömürlük gəlmişəm, bura mənim doğma Vətənimdir, doğma torpağımdır. Məni buradan heç bir qüvvə tərpədə bilməz. Mən bu işi ya başa çatdırmalıyam, ya da, əgər bunu edə bilməsəm, Azərbaycanın dövlətçiliyi, müstəqilliyi, ərazi bütövlüyü yolunda həlak olacağam.

Ancaq siz də bilin, xalq da bilsin, bütün Azərbaycan vətəndaşları da bilsin: mən nikbinəm, hesab edirəm ki, xalq, millət, Azərbaycanın vətəndaşları – biz hamımız birlikdə bu çətinliklərin öhdəsindən gələcəyik. Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz. Buna arxayın ola bilərsiniz!

Şübhəsiz ki, bu hadisələrdən nəticə çıxarmaq lazımdır. Birinci nəticə ondan ibarət olmalıdır ki, cinayətkarların hamısı cəzalanmalıdır. Bu gün burada çox ədalətli sözlər deyildi ki, cəzasızlıq çox vaxt belə hallara gətirib çıxarır. Biz artıq bunu tam dərk etməliyik. Bütün təbəqələrdə hər bir Azərbaycan vətəndaşı, hər bir vəzifəli şəxs gərək bilsin ki, Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün qayda-qanun möhkəmləndirilməlidir, qanun tətbiq olunmalı, hər bir cinayətkar cəzasını almalıdır. Cəzasız heç bir şey qalmamalıdır.

Biz humanistik, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalı-

dır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik. Bu müddətdə keçdiyimiz dövrdə, təəssüf ki, belə hallara yol verilmişdir. Oktyabr hadisələri göstərdi ki, bunlara yol vermək mümkün deyildir. Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından – sanından asılı olmayaraq hər kəs qanuna tabe  olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır – adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, prezident üçün də. Mən də qanunun aliliyinin keşiyində duracağam. Bu hadisələrdən çıxaracağımız birinci nəticə və qanunun keşiyində duran bütün adamlardan mənim tələbim ondan ibarətdir ki, qanunu qorumaq, onu tətbiq etmək, cinayət törətmiş adamların hamısını məsuliyyətə cəlb etmək, cəzalandırmaq lazımdır.

Çevriliş cəhdi ilə əlaqədar bir qisim adam həbs olunmuşdur. İstintaq orqanları qısa müddətdə öz işini görməlidir. Hörmətli şairimiz Qabil burada doğru dedi, bunu uzatmaq olmaz, istintaq gedir, uzanır, məsələni öldürürlər. İndi məhkəmə orqanlarında o qədər natəmiz adamlar peyda olublar ki, onlar məhkəmədə bu işləri tamamilə öldürürlər və beləliklə, cinayətkar cəzasız qalır. Ona görə birinci nəticə və istintaq orqanlarından, hüquq – mühafizə orqanlarından bizim birinci tələbimiz ondan ibarətdir ki, bütün istintaq qısa müddətdə getməlidir, keyfiyyətli getməlidir, cinayətkarlar aşkara çıxarılmalı və tezliklə məhkəmə qarşısında dayanmalıdırlar. Məhkəmə öz sözünü deməlidir. Qaçmış və ya Azərbaycan ərazisində gizlənən, yaxud da Azərbaycandan kənarda olan adamları axtarıb tapmaq lazımdır. Bu, bizim hüquq – mühafizə orqanlarının, xüsusən Daxili İşlər Nazirliyinin borcudur və bu vəzifə yerinə yetirilməlidir.

Eyni zamanda, həm o cinayət fikirli adamlar, həm də bütün başqaları bilməlidirlər ki, bundan sonra belə hadisələrə yol verilməyəcək. Hamı bilməlidir ki, bu hadisələr Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. Bundan hərə özü üçün nəticə çıxarsın. İndi orada-burada danışıq, söz-söhbət

gedir ki, yenə haradasa qruplaşıblar, yenə kimsə aranı qarışdırmaq istəyir, Moskvada guya onlar yığışır, görüşürlər, planlar qururlar, haradasa hansı qüvvələrini isə işə salmaq istəyirlər və s. Bilirsiniz, bu məlumatların müəyyən əsası da var, müəyyən mənada bunları bəlkə şişirdirlər də, ancaq həqiqət bundan ibarətdir ki, respublikamızda ayrı-ayrı pullu, vəsait ələ keçirmiş adamlar həmin o cinayətkarlarla əlaqədədirlər, onları maliyyələşdirirlər, maddi yardım göstərirlər. Burada çıxış edənlərdən biri dedi, onlar yenə də fikirləşirlər ki, bəlkə də yenə ara qarışdı, bir şey oldu və onlar yenə də bir mövqe tuta bilərlər.

Ona görə də hüquq – mühafizə orqanlarının və bütün ictimaiyyətin ikinci vəzifəsi budur ki, belə adamlar aşkara çıxarılmalıdır. Burada çox danışıqlar oldu ki, elə adamlar var, iki stulda oturmuşlar – o tərəfə də baxırlar, bu tərəfə də. İndi hər şey aydın oldu, gəlin o adamları aşkara çıxaraq. Əgər gözləyirsinizsə ki, o adamların hamısını mən tapmalıyam, onda sizin mənə yazığınız gəlmir. Bunu sizə açıq deyirəm. O adamlar bizim aramızdadır. Onlar aşkar olunmalı, kənarlaşdırılmalıdırlar. Ancaq eyni zamanda, mən dəfələrlə demişəm, heç kəsə damğa vurmaq olmaz. Əgər bir adam dünən səhv etmişdisə, başa düşməmişdisə, yolunu azmışdısa və bu gün düz yolla gedirsə, xalqla birlikdədirsə, qanuna riayət edirsə, - buna söz yoxdur. Lakin adamlar var ki, üzdə bu deyilən sözlərə riayət edirlər, arxada isə çirkin işlər görürlər, xalqına xəyanət edirlər, yenə də aranı qarışdırmaq istəyirlər.

Ona görə belə adamlar aşkara çıxarılmalıdır. Ayrı-ayrı mafioz qüvvələr, hansılar ki, respublikadan kənarda və ya daxildə aranı qarışdırmaq istəyən, yenə də dövlətçiliyimizə, müstəqilliyimizə qəsd etmək istəyən adamlara kömək edirlər, onları maliyyələşdirirlər, silahlandırırlar – belələri aşkara çıxarılmalıdır. Bu, bizim hüquq – mühafizə orqanlarının vəzifəsidir, eyni zamanda ictimaiyyətin vəzifəsidir, hər bir vətənda-

şın vəzifəsidir. Düzdür, son illər belə cinayətkarlar insanları o qədər qorxudublar ki, bəziləri öz canlarından, ailələrindən, uşaqlarından qorxurlar. Ona görə də cinayəti görəndə göz yumurlar, yaxud üzlərini yana çevirirlər. Belə hallar var, belə hallar çoxdur.

Elə götürün Gəncə şəhərinin özünü, böyük abidələr, tarixi ənənələr şəhəri, böyük Nizami Gəncəvi şəhəri, görkəmli şəxsiyyətlər yetişdirmiş şəhər Surət Hüseynovun, indi burada adını çəkdilər- Kəramət Kərimovun və bu cür quldurların əlində yesir qalmışdı. Gəncədə adamlar küçəyə çıxa bilmirdilər. İndi bəs nə oldu-quldurlar qaçandan sonra Gəncədə hamı rahat nəfəs alır. Gəncəlilər artıq rahatlaşıblar. Əgər təkcə Surət Hüseynovun evinin bir divarından 30 avtomat, pulemyot, qumbaraatan, qumbara çıxıbsa buna nə ad vermək olar? Həm də o, tək deyildir, başqaları da var. Əlbəttə, onlar bu silahlarla, sursatlarla adamları həm qorxudurdular, həm də incidirdilər.

Üçtəpə haqqında söz gedir. Bu Üçtəpə nədir? Vaxtilə orada olan diviziyanın komandirinin iqamətgahı idi, yəni bağ evi idi. Bundan sonra həmin bağ evini Surət Hüseynov əlinə keçirdi. Mənim bundan xəbərim yox idi. Mən biləndə müdafiə nazirinə göstəriş verdim ki, bu, hərbi hissənin əməkdaşıdır və onu gedin alın. Surət Hüseynov buna müqavimət göstərmişdi. Müdafiə naziri də bir şey edə bilməmişdi. Surət Hüseynov orada cürbəcür çirkin işlər görürdü. Respublika daxili işlər naziri bir dəfə Gəncədə idi. Mənə dedilər ki, orada hadisələr var. Mən ona dedim ki, gedin baxın, görün orada nə olub? Getdi, orada onu təhqir etdilər, ona qarşı çox hörmətsizlik göstərdilər.

Kəramət deyilən bu adam kimdir? Heç adını da çəkməli adam deyil. Gəncə kimi ziyalılar şəhərini, böyük şəxsiyyətlər şəhərini bu cür quldurlar əlinə keçirib insanlara nə qədər əziyyət, mənəvi əzab veriblər. Ona görə də mən

belə hesab edirəm ki, bəzi adamlar qorxurlar, çəkinirlər. Ancaq gəlin, vətəndaşlıq hissini, bizim ümummilli hissimizi hər şeydən üstün tutaq. Əgər Surət Hüseynovun, onun Gəncədəki dəstəsinin qarşısından biz də başqaları kimi ora-bura qaçsaydıq, onlar yenə də hakim olacaqdılar. Amma qaçmadıq.

Burada sizin qarşınızda şahidlər çıxış etdilər. Mən bu zabitə həmin gecədəki hadisələrdə igidlik göstərdiyinə görə Milli Qəhrəman adı verdim. O, gənc Azərbaycan övladıdır, döyüşlərdə cəsarətlə iştirak edib. Haralarda döyüşdüyü barədə özü burada söhbət açdı. Mən Füzuli rayonunun ərazisində, döyüş yerində onu görmüşdüm. Xatirimdədir, vaxtilə Naxçıvana da gəlmişdi. Sədərəkdə də olmuşdu. Bu da xatirimdədir ki, Naxçıvanski adına məktəbi oxuyub qurtaranlardan biridir. Yəni, mənim qəlbimdə o vaxtilə hazırladığım gənclərdən biridir. Gənc, Vətəninə sadiq, təmiz, saf insandır. Həm döyüşür, həm də gözəl qəhrəmanlığı ilə cinayətkarların qarşısını aldı. Onunla bərabər briqada komandiri Cəbrayılov da cinayətkarların qarşısını aldı.

Amma Gəncənin icra hakimiyyəti başçısı Elsevər İbrahimovu üç dəfə tutub aparmış, onların o şəxsi həbsxanasında saatlarla saxlamışdılar. İndi buna baxın,-bu gənc, cavan oğlana. Elsevəri görürsünüzmü? Bu da onun kişiliyi. Ona o boyda vəzifə verilmişdi. Oktyabrın 2-də onu tutub aparmışdılar, orada saxlamışdılar. Sabahısı günü, ayın 3-də elan edib ki, heç bir şey olmayıb. Məlumat verib ki, orada heç bir şey yoxdur. Məgər sən görmürdün ki, orada dövlət çevrilişi hazırlanır? Demək, canından qorxurdun? Əgər o da, canından qorxsa, cinayətkarlar gəlib bütün millətimizi dağıdar axı! Buna imkan vermək olarmı? Məgər Rövşən Əkbərovun canı can deyilmi? Cəbrayılovun canı can deyilmi?

Gəncə hadisələrində bizim üç əsgərimiz həlak oldu. Bəli, cinayətkarların qəddarlığının həddi-hüdudu yoxdur-orada üç nəfər əsgəri öldürdülər. Onlar həlak oldular, amma bəzi şəxslər qaçıb evdə gizlənirlər. Əsgərlər xalqın yolunda, Azərbaycanın müstəqilliyi yolunda, Azərbaycanın dövlətçiliyini qoruyaraq həlak oldular. Lakin onlar dünyalarını dəyişdilərsə də Milli Qəhrəman kimi Azərbaycan xalqının qəlbində daim yaşayacaqlar. Ona görə də Gərək bizim hamımızda cəsarət olsun. Cinayətkarları üzə çıxaraq və indən sonra bunlara yol verilməsin.

Bu hadisələrdən təxminən iki ay müddətində əhalidə olan silahların bir qismi yığılıb. Silahların bir qismini əhali gətirib könüllü təhvil verir, bir hissəsini hüquq-mühafizə orqanları alırlar. Bilirsiniz bu müddətdə yığılan silahların sayına baxanda görürsən ki, əhalidə nə qədər silah var. Bizə, ordumuza silah lazımdır. Bizə silah lazımdır-erməni işğalçılarının qarşısını almaq üçün. Bizə silah lazımdır-Vətənimizi, torpaqlarımızı qorumaq üçün. Amma hər evdə silah saxlayıb, bir-birinə atəş açıb, bir-birini öldürüb, bir-biri ilə ədavət kəsmək, necə deyərlər, bizi içərimizdən dağıtmaqdır. Buna yol vermək olmaz.

Ona görə də bir daha deyirəm, bütün cinayətkarların aşkar olunması, meydana çıxarılması həm hüquq-mühafizə orqanlarının, həm ictimaiyyətin işidir, həm də hər bir vətənpərvər insanın işidir. Mən hamınıza müraciət edirəm. Bütün Azərbaycan xalqına, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, gəlin hamımız birlikdə bu vəzifənin yerinə yetirilməsinə çalışaq, qarşıda qoyulan məqsədə nail olaq, respublikamızda əmin-amanlıq yaranması, cinayətkarlığın qarşısının alınması üçün lazımi işlər görək.

Ancaq bunu bir də qeyd etmək lazımdır: baxmayaraq ki, dövlət çevrilişinin qarşısı alındı, ayrı-ayrı cinayətkar adamlar öz fikirlərindən əl çəkmirlər. Yenə də deyirəm,

Moskvada, başqa yerlərdə toplaşıblar, cürbəcür işlər görürlər. Ona görə də hüquq-mühafizə orqanları çox ciddi işlər görməli, bütün bu kanallar aşkara çıxarılmalıdır.

Burada tələblər oldu. Hüquq-mühafizə orqanlarının rəhbərləri də bu məsələləri qaldırdılar. Mən hesab edirəm ki, bizim Baş Prokurorluq da Daxili İşlər Nazirliyi də, Milli Təhlükəsizlik Nazirliyi də öz səviyyələrində bu məsələləri başqa ölkələrin lazımi orqanları qarşısında qoya bilərlər, qoymalıdırlar və buna nail olmalıdırlar. Cinayət etmiş bütün şəxslər-başqa ölkələrdə yaşayan bu adamların hamısı Azərbaycana qaytarılmalı, burada məhkəmə, ədalət, xalq qarşısında cavab verməli və cəzalarını almalıdırlar. Öz tərəfimizdən biz lazımi tədbirlər görəcəyik, ancaq hüquq-mühafizə orqanları rəhbərlərinin bu məsələdə həm imkanları, həm də səlahiyyətləri vardır. Bu gün burada səslənən təkliflərin hamısını nəzərə alaraq onlar bu işi də görməlidirlər.

Bu gün bu toplantının keçirilməsinin məqsədi keçmiş dövrə müəyyən qədər yekun vurmaq, o hadisələrə qiymət vermək, eyni zamanda xalqı bir daha birliyə, həmrəyliyə dəvət etmək, xalqı birləşdirməkdir.

Azərbaycanda demokratik prinsiplər bundan sonra da bərqərar olacaqdır. Respublikamızda fikir, söz, insan azadlığı var və bunların hamısı bundan sonra da qorunub saxlanacaqdır. Respublikamızda çoxpartiyalı sistem var və bundan sonra da onun davam etməsinə şərait yaradacağıq. Ancaq bunların hamısı sağlam məfkurə əsasında, sağlam prinsiplər əsasında, Azərbaycanın dövlətçiliyinin, qanunlarının qorunması prinsipləri əsasında olmalıdır. Təəssüf ki, müxalifətdə olan bəzi qüvvələr, adlarını partiya və ya təşkilat qoyurlar – öz işləridir, belə fürsətlərdən istifadə edib istədiklərinə nail olmağa çalışırlar.

Birincisi, mən onları bir daha xəbərdar etmək istəyirəm ki, belə hərəkətlərdən əl çəksinlər. İkincisi, də bilsinlər ki, həmin oktyabr hadisələrinə elə oktyabrın 4-dən 5-nə keçən gecə cavab verən xalq Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, qanunlarına qarşı hər bir belə cinayətə cavab verməyə qadirdir. Ona görə də hərə özüyçün nəticə çıxarsın. Şübhəsiz ki, hər bir partiya, hər bir ictimai-siyasi təşkilat fəaliyyət göstərə bilər,-əgər o qanunidirsə. Ancaq bu "Nicat" təşkilatı kimisi yox. Şübhəsiz ki, gərək ədliyyə naziri cavab versin, necə ola bilir ki, bu cür quldurlar, cinayətkarlar dəstəsini dörd gün içərisində heç bir əsas olmadan qeydiyyata alıb onlara bir ad verir? Nə cür olur ki, bu quldur dəstəsinə özlərini eyni zamanda demokrat adlandıran Sosial-Demokrat Partiyasının üzvləri daxil olurlar. Bu nə cür olur? Bunlar anlaşılmazdır. Şübhəsiz ki, Ədliyyə Nazirliyi cavab verəcək. Ancaq o birisilər də özləri üçün nəticə çıxarmalıdırlar.

Yenə də deyirəm, hər bir partiya, hər bir təşkilat fəaliyyət göstərir və fəaliyyət göstərə bilər. Ancaq gəlin açıq danışaq. Bu partiyaların-filanların məqsədi nədir? Azərbaycanın müstəqil dövlət olması? Azərbaycan müstəqil dövlətdir. Dəfələrlə demişəm. Azərbaycanın müstəqilliyini qorumaq Prezident kimi mənim və mənim rəhbərliyim altında olan strukturların hamısının birinci vəzifəmizdır və onu qoruyuruq, qoruyacağıq. Müharibənin qurtarması məsələsi?

Bu barədə nə işlər görüldüyünü bilirsiniz. Ərazimizin bütövlüyünün təmin olunması, işğal olunmuş torpaqlarımızın azad olunması, qaçqınların öz yerlərinə qayıtması? Bu məsələlərlə də məşğul oluruq. Yəni, dövlətin gördüyü prinsipial xətlə bu partiyaların, təşkilatların prinsipial xətləri arasında fərq nədən ibarətdir?

Azərbaycan müstəqil dövlətdır, müstəqil dövlət kimi yaşayacaqdır. Azərbaycanda demokratik prinsiplər var,-yaşayacaqdır. İnsan, söz azadlığı var və yaşayacaqdır. Azərbaycan iqtisadiyyatı bazar yolu ilə gedir,-gedəcəkdir. Özəlləşmə prinsipləri tətbiq olunur,-olunacaqdır. Bu barədə yaxınlarda qanunlar qəbul ediləcəkdir.1995-ci ildə Azərbaycanda demokratik əsasda parlament seçkiləri keçiriləcəkdir. Bunlar hamısı olacaqdır. Əgər bunlar dövlətin siyasətinin və əməli fəaliyyətinin də əsas prinsipləridirsə, partiya və təşkilatların da prinsipləri bundan ibarətdirsə, onda fərq nədədir? Bu vuruşma,söyüşmə, nədən ötrüdür? Əgər bu prinsiplər bizim hamımız üçün eynidirsə, hamı bu prinsiplər ətrafında birləşsin. Mən demirəm hamı bu partiyada olsun, yox. Ayrı-ayrı partiyalar da olsun. Lakin bu partiyalar bu təşkilatlar ancaq həmin prinsiplərin həyata keçirilməsi ilə məşğul olsunlar, nəyin bahasına olursa-olsun vəzifə tutmaqla, hakimiyyətə gəlməklə yox. İndi hakimiyyətə gəlmək mümkün deyil.

Burada dedilər ki, mən Surət Hüseynovu bir il üç aymən saymamışam nə qədərdir, əgər deyirlərsə, deməli bu qədərdir, - tərbiyə etmək istədim, amma tərbiyə edə bilmədim. Sizə açıq deyirəm, - mən dəfələrlə, saatlarla onunla söhbətlər aparmışam. Mən istəyirəm ki, hər bir insanı azdığı yoldan çəkindirəm. Ona dəfələrlə demişəm ki, sən cavan adamsan, bu vəzifəni tutmağa sənin nə savadın, nə təcrübən, nə də biliyin çatır-bunlar səndə yoxdur. Ancaq şərait elə gətirib ki, sən bu vəzifəyə gəlib çıxmısan. Səbəbləri də məlumdur,bunu açmağa ehtiyac yoxdur. Bir halda ki, gəlib düşmüsən, bir şey öyrən. Əgər doğrudan da, düz yolla getmək istəyirsənsə, gəl bir təcrübə topla. Gəl, bu dövlətçilik prinsiplərini öyrən, iqtisadiyyatı öyrən, digər şeyləri öyrən, başqa işlərlə məşğul olma. Mən bunun üçün çox səylər etdim, ancaq nail ola bilmə-

dim.Çünki, o mənə hər dəfə “baş üstə, baş üstə” dedi, ancaq sonradan quldur dəstəsini başına yığıb öz işləri ilə məşğul oldu.

O, bu vəzifəni tutaraq bir çox adamları əlinə keçirmişdi. Məsələn, milli təhlükəsizlik naziri, kənd təsərrüfatı naziri onun əlində idi, bir çox başqa adamlar ona yaltaqlıq edirdilər, ikiüzlülük edirdilər. Bəzilərini mən nə üçün işdən çıxardım? Məsələn, Əsgər Məmmədovu, Əli Təhməzovu dərhal işdən götürdüm. Çünki ona yaltaqlıq edirdilər, ikiüzlülük edirdilər. Əlbəttə ki, Baş nazirin tapşırığını yerinə yetirmək lazım idi. Ancaq əgər görürsənsə ki, bu Baş nazir qeyri-qanuni iş görür, sən onu başa sal ki, bunu etmək olmaz. Amma Əli Təhməzov bir yerdə gedirdi və deyirdi-hörmətli Prezidentimiz, hörmətli Ali Sovetin sədri, hörmətli Baş nazir belə dedi, elə dedi. Bu cür işləmək olmaz. Ancaq belələri var idi. Beləlləri olan halda, əgər bu Surət Hüseynov dövlət çevrilişi edə bilmədisə, başqaları necə çevriliş edib hakimiyyətə gələ bilərlər? Mən başa düşə bilmirəm, bunu nə cür etmək istəyirlər?

Hakimiyyətə gəlməyin qanuni yolu var. Birincisi, parlament seçkilərində qalib gəlib parlamentdə yer tutmaq olar. Ancaq bu, hakimiyyətə gəlmək demək deyil. Hakimiyyət Prezidentdədir. Prezidenti xalq seçibdir. Prezidentin hələ dörd il vaxtı var. Mən bir ildən çox çalışdım ki, Surəti öyrədim, öyrədə bilmədim. Ona görə də mən o adamların hamısına məsləhət görərdim ki, onlar heç olmasa, özləri öz üzərlərində işləsinlər, gələcəkdə-dörd il sonra prezident seçkilərində özlərini bir yoxlasınlar ki, ola bilər, bəlkə onlardan bir şey çıxar. Mən bunu məsləhət bilirəm. Amma ara qarışdırmaq, cürbəcür işlər görmək lazım deyil. Respublikamız ağır vəziyyətdədir. Onu bu ağır vəziyyətdən çıxarmaq lazımdır.

Altı aydan çoxdur, bir neçə gündən sonra yeddi ay olacaq ki, cəbhədə atəş kəsilib. Siz təsəvvür edin, bunu indi açıq demək istəmirəm, bu yeddi ay müddətində o gün olmayıb ki, biz bu məsələlərdən, müharibədən çıxış yolu axtarmayaq. Biz müharibənin yenidən başlanmasını istəmirik. Elə dövlət, elə beynəlxalq təşkilatlar yoxdur ki, bu məsələlərdən çıxış yolunu onlarla müzakirə etməyək. Bütün imkanlardan istifadə etməyə çalışırıq.

Müharibəni qurtarmaq, camaatı yerinə-yurduna qaytarmaq, işğal olunmuş torpaqlarımızı azad etmək lazımdır. Bunlar bizim əsas vəzifəmizdir. Kim bu vəzifəyə qulluq etmək istəyirsə, gəlsin bərabər edək. Bu barədə kim ağıllı məsləhət verə bilərsə, gəlsin. Amma təxribatla məşğul olmaq lazım deyil.

İqtisadiyyatda çətinliklər var. Bu, son illərin proseslərinin nəticəsidir. Vəziyyət ağırdır. Müəssisələrin bir çoxu ya işləmir, yaxud da ki, istehsal gücünün 20-30-35-40 faizi səviyyəsində işləyir. Camaatın çoxu işsizdir, məvacibləri azdır, çatmır. Bunlar məlumdur. Mən sizə, bütün xalqa deyirəm ki, bizim insanların maddi vəziyyətinin aşağı olmasına görə qəlbim hər gün ağrıyır.

Bir qisim şəxslər bu şəraitdən istifadə edib çox gözəl yaşayırlar. Ancaq əksəriyyət ağır maddi vəziyyətdədir, çətinlik çəkir. Çadırlar altında yaşayan adamlar, qaçqın vəziyyətində olan adamlar ən çətin vəziyyətdədirlər. Mən şəxsən bunların hamısını görürəm, bilirəm. Respublikanı bu vəziyyətdən çıxarmaq üçün lazımi tədbirlər görürəm və bir Prezident kimi bundan sonra da görəcəyəm. Biz bu məsələlərlə məşğul oluruq, olacağıq. Ancaq respublikanın vəziyyətindən istifadə edib yenə ara qarışdırmaq lazım deyil.

Televizora baxırsınız, - dünən də, srağagün də Gürcüstanda, Ermənistanda olan vəziyyəti Moskva televiziyası ilə verirdilər. Vəziyyəti görürsünüz – cəmisi bir saat işıq verirlər.

Qaz yoxdur. Onlar o qədər də qaz almırlar – Türkmənistandan bir az alırlar, onu da kəsiblər. Çörək, başqa şeylər yoxdur. Gürcüstanda da, Ermənistanda da maddi vəziyyət həddən artıq ağırdır. Şübhəsiz ki, bu, bizə təskinlik verə bilməz. Hər xalqın öz işi var. Deyə bilmərik ki, orada vəziyyət pisdir, bizdə də pis olsun. Ancaq bizdə elektrik də, qaz da var. Aparılan işlərin nəticəsində Amerikanın «Penazoyl» şirkəti bizim böyük bir qaz mənbəyindən qazın Bakıya gətirilməsinə kömək etdi. Bunun hesabına bizim qaz təminatımız artıb. Elektrik enerjisi də var.

İndi təsəvvür edin, məsələn, Azərbaycanın elektrik enerjisi özünü bütünlüklə təmin edir, hətta Gürcüstan bizdən enerji istəyir. Bəzən onlara da enerji veririk. Ancaq nə Ermənistan, nə də Gürcüstan özünü öz enerjisi ilə təmin edə bilmir. Mən bunu sizə deməklə özümə şöhrət qazandırmaq istəmirəm. O qaragüruhçu adamlara isə heç cavab vermək istəmirəm. Ümumiyyətlə, demək istəyirəm ki, əgər biz 70-80-ci illərdə Mingəçevirdə o elektrik stansiyalarını tikməsəydik – orada 8 blok tikilib, - indi Azərbaycan Gürcüstandan da, Ermənistandan da pis vəziyyətdə idi. O vaxtlar bu bloklar tikildi. Hər blok bir zavoddur – onları almaq da çətin idi, çünki Leninqradda hazırlayırdılar və o vaxtlar Sovetlər İttifaqının hər yerinə lazım idi. Biz onları nə çətinliklərlə alırdıq, gətirirdik, tikirdik, yaradırdıq. Düzdür, indi onların da çoxu köhnəlib. Əgər təmir olunmasa, bəziləri bərpa edilməsə, ola bilər, bir-iki ildən sonra elektrik enerjisi ilə təminatımız pis olsun. Ancaq vaxtı ilə biz onları yaratmışıq. Onları bu hayküyçülər yox, cinayətkarlar yox, orda-burda qışqıranlar yox, Azərbaycan xalqı, Azərbaycanın zəhmət adamları yaradır və mənim də orada xüsusi xidmətlərim olub.

Ancaq bunlar o demək deyil ki, yenə də deyirəm, bizdə elektrik enerjisi, qaz və başqa şeylər var və onlarda yoxdursa, özümüzə təskinlik verməliyik. Yox. Biz narahatıq, çox nara-

hatıq. Məsələn, məni ən çox narahat edən çörək məsələsidir. Siz təsəvvür edin. 2-3 ay bundan qabaq alınan buğdanın qiyməti ilə indi alınan buğdanın qiyməti arasında həddindən artıq böyük fərq vardır. Bu buğdanı biz xaricdən dollara alırıq. Alıb gətirmək də çətindir. Şimali Qafqazdan yol bağlanıbdır. Biz buğdanı Volqoqraddan, Həştərxandan gəmilərlə gətirmək üçün nə qədər çətinliklə yollar açdıq. Mən Aşqabadda olanda İranın Prezidenti Rəfsəncanidən xahiş etdim, oradan da çətinliklə taxıl gətiririk. Mən sizə deyim ki, bu, baha qiymətə gəlir. Biz Qazaxıstandan da çətin yolla buğda gətiririk. İndi Avropa İqtisadi Şurasının bizə köməyi gəlməlidir. Biz gecə-gündüz bu işlərlə məşğuluq.

Mən başa düşürəm ki, çörəyin qiymətinin qalxması gərginlik yaradır. Mən bunu bilirəm, Ancaq baxın görün, başqa yerlərdə çörəyin qiyməti neçəyədir. Baxın görün ki, çörəyin hər kiloqramının maya dəyəri nə qədərdir, satış qiyməti nə qədərdir.

Bizdə başqa etnik qruplar da var. Bəziləri bu etnik qrupları bir-birinə qarşı qoymaq istəyirlər. Ola bilər ki, keçmiş illərdə buraxılan səhvlər də buna müəyyən qədər şərait yaradır. Ancaq mən dəfələrlə demişəm, bu gün bir daha deyirəm: milli mənsubiyyətindən, milli köklərindən asılı olmayaraq Azərbaycan vətəndaşlarının hamısı eynihüquqludur. Heç kəs çalışmasın ki, ayrı-ayrı bölgələrdə olan, ayrı-ayrı köklərə mənsub olan Azərbaycan vətəndaşlarını bir-birinə qarşı qoysunlar, bir-biri ilə vuruşdurmağa çalışsınlar. Birincisi, mən tam əminəm ki, bizim ayrı-ayrı bölgələrdə belə fikirlərlə yaşayan adamlar azdır. Ola bilər ki, olanlar da Əlikram Hümbətov kimiləri və başqalarıdır. İkincisi də, illər, əsrlər boyu bizim bir yerdə yaşayıb bir yerdə olmağımız və bütün bu millətlərin hamısının bir dinə – İslam dininə mənsub olması hamımızın birliyini təşkil edir. Eyni zamanda, Azərbaycan dili bizi bir-birimizə birləşdirib. Burada bizim bir çox etnik köklü mil-

lətlərə mənsub olan adamların hamısı Azərbaycan dilini öz ana dili kimi qəbul edib. Azərbaycan dili bizi keçmişdə də, gələcəkdə də birləşdirəcəkdir.

Bu amillərdən, bu məqamlardan istifadə etmək istəyən qruplara xəbərdarlıq edirəm ki, bunu etməsinlər. Onlar buna nail ola bilməyəcəklər. Birincisi, bu imkanı xalqlar özü onlara verməyəcək, ikincisi də biz verməyəcəyik. Azərbaycan vahid respublikadır. Azərbaycan Respublikasında yaşayan vətəndaşların hamısı dilindən, dinindən, yaxud milli köklərindən asılı olmayaraq, eyni hüquqlara malikdirlər, onların hər biri eyni səviyyədə təmsil olunur və təmsil olunacaqdır. Bu birliyi biz bundan sonra da qorumalıyıq, saxlamalıyıq.

Yəni, demək istəyirəm ki, erməni işğalçılarının bizə qarşı təcavüzündən başqa, respublikamızda milli münasibətlər problemi olmamalıdır. Əgər haradasa hansı bir hadisə baş verirsə, biz ağılla, kamalla onun qarşısını almalı, ona cavab verməli, onu həll etməliyik və belə kiçik məsələlərin şişib böyük bir hadisəyə çevrilməsinə imkan verməməliyik.

Mən bir daha qeyd etmək istəyirəm ki, bugünkü görüşümüz çox əhəmiyyətli toplantıdır. Mən bu gün sizin qarşınızda, Azərbaycan Respublikasının bütün vətəndaşlarının qarşısında çıxış edərkən oktyabrın 3-də, 4-də, 5-də baş verən hadisələri bir daha xatırlayaraq, yenə də demək istəyirəm ki, xalqımızın həmrəyliyi, birliyi hər şeyi: Azərbaycan Respublikasının müharibədən çıxmasını da, Azərbaycanın ərazi bütövlüyünü də, müstəqil respublikamızın gələcəkdə firavan həyat sürməsini də həll edəcəkdir.

Oktyabrın 4-də, 5-də Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının öz milli həmrəyliyini, vətəndaş həmrəyliyini nümayiş etdirməsini, cinayətkar qüvvələrə qarşı çıxmasını yüksək bir nailiyyət kimi qeyd edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, əldə olunan bu nailiyyət bundan sonra da

yaşayacaq, inkişaf edəcək, biz hamımız bu birliyi göz bəbəyimiz kimi qoruyub saxlayacağıq.

Oktyabrın 4-dən 5-nə keçən gecə mənim müraciətimə səs verən Azərbaycan vətəndaşlarına və o cümlədən Azərbaycanın dövlətçiliyini qorumaq üçün ayağa qalxan xalqımıza, vətəndaşlara və cinayətkar qüvvələrin layiqli cavabını verən, onlara zərbə vuran Azərbaycanın qəhrəman, cəsur oğullarına öz hörmət və ehtiramımı bildirirəm. Keçirdiyimiz o günlərdə Azərbaycanın dövlətçiliyini qoruduğunuza görə, Azərbaycanın Prezidentinə dayaq olduğunuza görə, Azərbaycanın Prezidentini müdafiə etdiyinizə görə hamınıza, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına bir daha öz hörmətimi, ehtiramımı, minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, mən daim bu etibara, bu etimada layiq olacağam.

Burada çıxış edənlər mənim ünvanıma xoş sözlər dedilər. Təşəkkür edirəm. Burada deyildi ki, 17 mindən artıq məktub, teleqram gəlib. Bunların hamısında da Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin qorunmasından bəhs edilir. Azərbaycan Prezidentinə bir daha etimad göstərilir. Buna görə də məktub yazanların, teleqram göndərənlərin, müraciət edənlərin hamısına təşəkkürümü bildirirəm. Əlinə qələm alıb məktub yazmaq, teleqram vurmaq, əziyyət çəkmək – bunun özü də bir vətənpərvərlikdir, bunun özü də bir şücaətdir. Ona görə də bu vətəndaşların hamısına öz xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Bu məktubların bir çoxunda belə təkliflər var – həmin təkliflər bu gün burada da səsləndi ki, Heydər Əliyevə Milli Qəhrəman adı verilsin. Heydər Əliyevə filan fəxri ad verilsin. Məsələn, bu yaxınlarda mənə xəbər verdilər ki, BDU-da mənə universitetin fəxri doktoru adı verilməsi barədə qərar qəbul olunub. Mən sizə səmimi demək istəyirəm, bütün bu xoş arzulara, xoş niyyətlərə görə hamıya minnətdaram, ha-

mıya təşəkkür edirəm. Ancaq hamı da bilsin, mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə mən özüm üçün başqa bir mükafat görmürəm. Ona görə də xahiş edirəm məni düzgün başa düşəsiniz, mən bu dövlətin başçısı kimi ən yüksək mükafat almışam. Bu, xalqın mənə verdiyi yüksək mükafatdır. Qalan mükafatları prezident verir. Prezident özü-özünə mükafat verməz. Ona görə də bu arzulara, bu sözlərə görə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, bu vəzifəni həyata keçirdiyim müddətdə axıradək mənim belə şeyə ehtiyacım olmayacaq və bundan sonra heç kəs bu barədə özünü narahat etməsin.

Sizin hamınıza bir daha öz hörmət və məhəbbətimi, sevgimi bildirirəm, bütün Azərbaycan xalqını mənə göstərilən etimada görə qucaqlayıram, bağrıma basıram və əmin olduğumu bildirmək istəyirəm ki, biz bundan sonra cəsarətli addımlarla irəliyə gedəcəyik. Sağ olun.

# MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT

*15 mart 1995-ci il*

Hörmətli həmvətənlər, bacılar və qardaşlar! Axşamınız xeyir olsun. Bu axşam respublikamızın həyatına aid bəzi mülahizələrimi, fikirlərimi sizinlə bölüşmək üçün bilavasitə televiziya və radio ilə sizə müraciət edirəm.

Xalqımız, respublikamız dövlət müstəqilliyinin dördüncü ilini yaşayır. Bahar gəlir, biz böyük bayram, milli bayramımız olan Novruz ərəfəsindəyik. Şübhəsiz ki, hər bir bayram, şadlıq, sevinc gətirir və güman edirəm, bu Novruz bayramı da xalqımıza, millətimizə sevinc, şadlıq gətirəcəkdir. Ancaq dərdimiz də çoxdur, kədərimiz də böyükdür. Respublikamız altı ildən artıqdır ki, müharibə şəraitində yaşayır. Bu müddətdə itkilərimiz olub, şəhidlər vermişik. Dünən axırıncı çərşənbə axşamı idi, buna xalqımız arasında ilaxırı deyirlər. Bu günlər şəhidlərimizi xatırlayırıq, onların ruhuna dualar oxunur. Sizinlə görüşümün əvvəlində Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda şəhid olanların hamısının xatirəsini yad edirəm və Tanrıdan onlara rəhmət diləyirəm.

Altı ildən artıq gedən müharibədə xalqımız böyük sınaqlardan çıxmış, ağır mərhələlərdən keçmişdir. İndi də böyük bir sınaq içərisindəyik, böyük bir tarixi mərhələni yaşayırıq. Son vaxtlar, respublikamızın həyatında şübhəsiz ki, müəyyən müsbət dəyişikliklər var, bəlkə də bəzi nailiyyətlər var. Ancaq bunlar azdır. Ümumiyyətlə, respublikamız, onun iqtisadiyyatı ağır sosial böhran içərisindədir. Bir milyondan artıq qaçqın, müharibədə əlil olmuş adamlar, iqtisadi-sosial böhran nəticəsində ağır iqtisadi vəziyyətdə yaşayanlar - bunlar hamısı bizi, şəxsən bir Prezident kimi məni narahat edir, ağrıdır, eyni

zamanda bütün bu problemlərin həll olunması üçün daha da ciddi fəaliyyət göstərməyə dəvət edir.

Bütün bu həyatımızın içərisində mühüm hadisələrdən biri ondan ibarətdir ki, on aydan artıqdır atəşin kəsilməsinə və onun pozulmamasına nail olmuşuq. On aydan artıqdır ki, cəbhədə atəş yoxdur, qan tökülmür, şəhidlər verilmir, matəmlərin arası kəsilmişdir. Güman edirəm ki, 1988-ci ildən başlayan və indiyə qədər davam edən müharibədə ilk dəfə belə bir uzunmüddətli sülh xalqımız üçün böyük qənimətdir. Biz bu fürsətdən, müddətdən səmərəli istifadə etməyə çalışırıq. Məqsədimiz də ondan ibarətdir ki, müharibəyə danışıqlar yolu ilə son qoyaq, işğal olunmuş torpaqlarımızı sülh yolu ilə azad edək, respublikamızın ərazi bütövlüyünü təmin edək. Bunları indi bir daha, təkrarən, geniş surətdə sizə çatdırmağa ehtiyac yoxdur. Məhz apardığımız məqsədyönlü, ciddi, prinsipial siyasət nəticəsində, xüsusən xarici siyasət sayəsində, Ermənistanla münasibətlərimiz barəsində apardığımız konstruktiv, eyni zamanda prinsipial siyasət nəticəsində atəşkəsə nail olmuşuq və məsələnin sülh yolu ilə həlli üçün bir çox yeni nailiyyətlər əldə etmişik.

Xatirinizdədir, keçən ilin dekabrında Budapeşt Zirvə görüşündə Azərbaycanın həyatı üçün çox böyük tarixi əhəmiyyəti olan bir qətnamə qəbul olundu. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin dayandırılması üçün ATƏT-in çoxmilli beynəlxalq sülhü mühafizə qüvvələrinin yaranması, Minsk qrupunun fəaliyyətinin daha da artırılması, Minsk qrupunun iki sədrinin seçilməsi və bunların vasitəsilə də Böyük Sülh Müqaviləsinin hazırlanıb həyata keçirilməsi barədədir. Keçən ilin dekabrından indiyə qədər bu sahədə çox iş görülmüşdür. Görüşlər, danışıqlar, müzakirələr olmuşdur. Bu günlərdə Stokholmda, Vyanada Minsk qrupunun görüşləri olacaqdır. Bizim nümayəndələr orada iştirak edir, iş görürlər. Böyük dövlətlərin başçıları, onların nümayəndələri ilə, diplomatik

missiyaların rəhbərləri ilə mütəmadi olaraq danışıqlar aparırıq. Bunlar hamısı sizə məlumdur, bu barədə vaxtaşırı məlumat alırsınız.

Bildiyiniz kimi son günlərdə mən Danimarkanın Kopenhagen şəhərində oldum. Orada bu gün üçün və dünyanın, bəşəriyyətin gələcəyi üçün əhəmiyyətli bir toplantı keçirildi. Dünyanın sosial problemlərinin həlli ilə bağlı Birləşmiş Millətlər Təşkilatının keçirdiyi bu Zirvə görüşündə bütün ölkələrin dövlət və hökumət başçıları iştirak edirdi. Birləşmiş Millətlər Təşkilatının əlli illik tarixində bu səviyyədə və bütün dünya üçün hər bir vətəndaş, xalq üçün mühüm olan belə bir tədbir keçirilməmişdi. Bu tədbirdə mən də iştirak etdim, Azərbaycan xalqının sözlərini o böyük məclisin tribunasından dünyaya bildirdim, Azərbaycanın bugünkü vəziyyətini, bizim tələblərimizi, xahişlərimizi bəyan etdim. Orada dövlət rəhbərləri, hökumət başçıları ilə bir çox görüşlər oldu. Bunlar mətbuatdan sizə məlumdur. Bu görüşlərin məqsədi birinci növbədə Azərbaycanın beynəlxalq aləmdə mövqelərini möhkəmləndirmək, Azərbaycan həqiqətini dünya ölkələrinin rəhbərlərinə bilavasitə çatdırmaq, ölkəmizi tanıtmaq, onun bugünkü imkanlarını bir daha bildirmək və bunların əsasında Azərbaycanla dünya ölkələri arasında əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək, Azərbaycanı dünyaya daha da geniş açmaqdan ibarət idi. Güman edirəm ki, mənim orada olan görüşlərim, danışıqlarım, söhbətlərim bu istiqamətdə apardığımız siyasətdə yeni bir addımdır və bunun da müsbət nəticələri mütləq olacaqdır. Mən buna ümidvaram.

Şübhəsiz ki, bu görüşlərdə, danışıqlarda yenə də əsas mövzu Azərbaycanın müharibə vəziyyətindən çıxarılması, Ermənistanla Azərbaycan arasında olan münaqişəyə son qoyulması, Ermənistanın Azərbaycana qarşı təcavüzünə bizim etirazımız idi. Dünyaya bir daha bildirdik ki, Ermənistan Azərbaycana təcavüz edib, torpaqlarımızın bir qismini işğal edib,

Azərbaycanın bir milyondan artıq vətəndaşını qaçqın, didərgin vəziyyətinə salmışdır. Hesab edirəm ki, həmin görüşlərdə bütün imkanlardan istifadə edərək bunları dünya ictimaiyyətinə çatdıra bildim.

Martın 12-dən 13-nə keçən gecə mən oradan qayıtdım və 13-də Pakistana yola düşməli idim. Bu günlərdə İslamabadda da bizim üçün çox əhəmiyyətli olan bir toplantı - on müsəlman ölkəsi başçılarının görüşü keçirilir. Bu, iqtisadiyyatla əlaqədar ənənəvi bir görüşdür. Mən həmin görüşə getməli idim, orada deyiləsi sözlərimiz, müzakirə olunacaq məsələlər var idi. Təəssüf ki, respublikamızda yaranmış vəziyyət - bir qədər sonra bu barədə öz fikirlərimi deyəcəyəm - məni bu səfərdən məhrum etdi. Çox təəssüf. Çünki İslamabad toplantısı respublikamız üçün çox əhəmiyyətli bir Zirvə görüşüdür. Lakin nümayəndə heyətimiz orada iştirak edir.

1995-ci ilin birinci rübü başa çatır. Bu müddətdə gördüyümüz işlər təkcə Dağlıq Qarabağ ilə, yaxud Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə, Azərbaycanın müharibə şəraitindən çıxarılması ilə əlaqədar deyildir. Hesab edirəm ki, başqa sahələrdə də bizim fəaliyyətimiz çox ciddi, çox sürətlə gedir. Mən bu ilin əvvəlində demişəm ki, 1995-ci il Azərbaycan üçün çox böyük dəyişikliklər ili olmalıdır. Biz bu il iqtisadiyyatda, dövlət quruculuğunda, cəmiyyətdə demokratik prinsiplərin hamısının tam qətiyyətlə həyata keçirilməsinə nail olmalıyıq. Dövlət quruculuğunun bütün sahələrində islahatlar keçirməli, respublikamızı demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə daha sürətlə irəli aparmalıyıq.

Bu sahədə bəzi işlər görülmüşdür və onlar göz qabağındadır. Bildiyiniz kimi, bizim məqsədimiz iqtisadiyyatı bazar münasibətləri yolu ilə aparmaqdır. Şübhəsiz ki, bu, asan məsələ deyil. Yetmiş ildən artıq müddətdə sosialist sistemi əsasında qurulmuş iqtisadiyyatı dəyişdirmək, bazar iqtisadiyyatı yolu ilə aparmaq çətin bir məsələdir. Bu, bir günün, bir ayın

işi deyildir. Artıq bir neçə ildir ki, bu proses davam edir, ancaq hələ bir nailiyyət yoxdur. Lakin mənə belə gəlir ki, nailiyyətlər uzaqda deyil, biz bunlara çatacağıq. Ona görə də biz iqtisadi islahatlar aparmalıyıq.

Bu baxımdan bir çox işlər görülmüşdür. Bilirsiniz ki, bir neçə ay müddətində respublikanın aqrar bölməsində - kənd təsərrüfatında islahatlar aparılması məsələsini müzakirə etdik. Komissiyalar yarandı, yerlərdə müzakirələr oldu, ümumrespublika müşavirəsi keçirildi. Qanun layihələri hazırlandı, mən onlara dəfələrlə baxdım, komissiyalarla məsləhətləşmələr aparıldı. Nəhayət, mən iki böyük qanun layihəsini Milli Məclisə təqdim etdim, onlar qəbul olundu. Mən həmin qanunları təsdiq etmişəm və onlar işləməyə başlamışdır. Aqrar islahatın əsasları, kolxoz və sovxozların islahatı haqqında bu qanunların həyata keçirilməsi üçün dövlət komissiyası yaradılmışdır və artıq fəaliyyət göstərir. Kənd təsərrüfatı rayonlarında rayon komissiyaları, kəndlərdə kənd komissiyaları yaradılır. Aqrar islahat artıq praktiki şəkildə həyata keçirilir və güman edirəm ki, bu bizə böyük nailiyyətlər gətirəcəkdir.

Bazar iqtisadiyyatına keçmək üçün maliyyə məsələlərinin də tənzimlənməsi lazımdır. Bilirsiniz ki, qiymətlərin sərbəstləşdirilməsi, valyuta tənzimlənməsi, maliyyə işlərinin dünya standartlarına, bazar iqtisadiyyatına uyğun olaraq qurulması sahəsində bir sıra fərmanlar vermişəm. Burada bizim çox çətinliklərimiz olmuşdur. Məlumdur ki, 1994-cü ilin son aylarında böyük inflyasiyaya uğradıq. Bu da təsadüfi deyildi. Görülən tədbirlər təbii olaraq belə vəziyyət yaratmalı idi. İkinci tərəfdən isə buna təxribat səbəb oldu. Ölkəmiz təkcə Ermənistanın hərbi təcavüzü ilə qarşılaşmamışdı. Bizə qarşı hər tərəfdən təxribat edən qüvvələr var: daxildə də, xaricdə də; iqtisadiyyatda da, ictimai-siyasi həyatımızda da. Bunların hamısını gördük, qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirdik. Bu gün məmnuniyyət hissi ilə qeyd edə bilərəm ki, artıq ma-

liyyə sistemində müəyyən sabitlik yaranır. Üç aydan artıqdır ki, manatın dollara, yəni dönərli valyutaya nisbətən məzənnəsi sabitdir. Bu gün maliyyə naziri mənə məlumat verdi ki, son bir həftədə manatın məzənnəsi dollara nisbətən hətta 80 manat artmışdır, yəni manat möhkəmlənir. Bunlar iqtisadiyyatımızda baş verən çox mühüm və hesab edirəm ki, müsbət hadisələrdir.

Ancaq bu, işimizin başlanğıcıdır. Biz bu yolla getməliyik. Bundan ötrü isə bütün sahələrdə islahatlar aparılmalıdır. İslahatlar da özəlləşdirmə yolu ilə aparılmalıdır. Bilirsiniz ki, biz bu barədə komissiya yaratmışıq. Mən Əmlak Komitəsinin rəhbərliyini dəyişdirmişəm, oranı möhkəmləndirmişəm. Əmlak Komitəsinin sədri eyni zamanda baş nazirin müavini təyin olunmuşdur ki, bu sahə daha da güclənsin. İş gedir, onlar müəyyən layihələr təqdim ediblər. Martın 7-də geniş müşavirə keçirdik və demək olar ki, səkkiz saat ərzində bu məsələni müzakirə etdik. Xahiş etdim ki, televiziya, mətbuat vasitəsilə bu müşavirə, müzakirə bütün ictimaiyyətə çatdırılsın, hamı bilsin. Çünki dövlət mülkiyyətinin xüsusi mülkiyyətə çevrilməsindən, mülkiyyət formasının dəyişdirilməsindən söhbət gedir. İndi dövlətin əlində olan mülkiyyət, bu iqtisadi potensial xalqın zəhməti, vəsaiti ilə yaranmışdır, xalqa məxsusdur. Ona görə də özəlləşdirmə elə getməlidir ki, xalq bundan bəhrələnsin, hər bir vətəndaş öz payını götürə bilsin və bu iqtisadiyyatımızda böyük inkişafın əsasını qoysun, onu dünya iqtisadiyyatına bağlaya bilsin, biz dünya iqtisadiyyatında layiqli yerimizi tuta bilək.

Mən hesab edirəm ki, martın 7-də keçirilən müşavirə bu sahədə çox önəmli bir yer tutur. Mən yaranmış komissiyaya bir ay möhlət verdim və o, bu müddət ərzində özəlləşdirmə proqramını hazırlayıb təqdim etməlidir. Həmin proqram təqdim olunan kimi baxılıb Milli Məclisin müzakirəsinə veriləcək, sonra isə mənim tərəfimdən təsdiq ediləcək və həyata

keçiriləcəkdir. Güman edirəm ki, biz bu yolla cürətlə, cəsarətlə və tam inamla gedirik və gedəcəyik. Ancaq mənim mövqeyim ondan ibarətdir ki, bu özəlləşdirmə, bu islahatlar elə getsin ki, hər bir vətəndaş bundan mənfəət götürsün, ümumi mülkiyyətdən öz xüsusi mülkiyyəti üçün payını ala bilsin. Əmin ola bilərsiniz ki, bir prezident kimi mən bunu təmin edəcəyəm və hər bir vətəndaşın hüquqlarının qorunması keşiyində indiyə qədər dayandığım kimi bundan sonra da dayanacağam.

Ancaq bizim həyatımızda ciddi dəyişikliklər yaratmaq, demokratiyanı daha sürətlə inkişaf etdirmək üçün ictimai-siyasi tədbirlər də görülməlidir. Mən qeyd etdim, dövlət quruculuğu sahəsində biz bir çox işlər görürük və görməliyik. Bunlardan ən başlıcası demokratik əsasda yeni parlament seçkilərinin keçirilməsidir. Mən hesab edirəm ki, bu il sentyabr, yaxud oktyabr ayında Azərbaycan Respublikasının yeni parlamentinə seçkilər keçirilməlidir. Seçkilərin tam demokratik şəraitdə keçirilməsi üçün əsas şərait yaradılmalıdır. Bunu isə şübhəsiz ki, seçkilər haqqında qanun yarada biləcəkdir. Hesab edirəm ki, əlimizdə olan layihə daha da təkmilləşdirilməlidir. Biz gərək ümumxalq müzakirəsinə elə bir layihə təqdim edək ki, o respublikamızda həqiqi demokratiyanın bərqərar olması üçün yaxşı zəmin, yaxşı əsas yaratsın. Mənim mövqeyim bundan ibarətdir və onu həyata keçirmək üçün bütün imkanlardan istifadə edəcəyəm.

Bir sözlə, bu yaxınlarda seçki qanunu müzakirəyə veriləcək, seçkilərə hazırlıq gedəcək və payızda Azərbaycan Respublikasının parlamentinə yeni, demokratik seçkilər keçiriləcəkdir. Şübhəsiz ki, seçkilərdə bütün partiyaların, hər bir vətəndaşın sərbəst iştirak etməsinə şərait yaradılacaqdır. Mən öz tərəfimdən bu gün bunu bəyan edirəm və bütün imkanlarımdan istifadə edəcəyəm ki, hər bir vətəndaş seçmək və seçilmək hüququndan sərbəst istifadə edə bilsin. Şübhəsiz ki, biz

seçkiləri bütün dünya ictimaiyyəti qarşısında açıq-aşkar keçirəcəyik. Beynəlxalq təşkilatlardan bizə müraciətlər olmuşdur və biz də onlara müraciət etmişik. Onlar, habelə demokratiya sahəsində böyük nailiyyətləri olan ayrı-ayrı dövlətlər bizə kömək edəcəklər. Biz bu köməkdən istifadə edərək müşahidəçilər dəvət edib seçkiləri keçirəcəyik.

Respublikamızın demokratiya yolu ilə getməsi üçün ölkəmizə yeni, demokratik konstitusiya lazımdır.

Bildiyiniz kimi, konstitusiya komissiyası yaradılmışdır və mən onun sədriyəm. Konstitusiyanın layihələri hazırlanır və artıq bəzi layihələr var. Güman edirəm ki, yaxın vaxtlarda konstitusiya komissiyası bu layihələrə baxacaq, respublikamızın həm milli ənənələrinə, həm tarixi ənənələrinə, həm bugünkü vəziyyətinə, həm də yaxın gələcəyinə, uzaq gələcəyinə uyğun olan layihə ümumxalq müzakirəsinə veriləcəkdir. Əminəm ki, xalqımız müdriklik göstərəcək, hərə öz səyini əsirgəməyəcəkdir və biz tariximizdə ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının demokratik konstitusiyasını qəbul edəcəyik. Bu da bu il görəcəyimiz böyük işlərdən biridir.

Başqa işlər də var. Şübhəsiz ki, digər sahələrdə də islahatlar aparılmalı- məhkəmə islahatı keçirilməli, təhsil qanunu qəbul edilmişdir, bu sahədə bəzi islahatlar keçirilməlidir və s. Biz bunların hamısının üzərində işləyirik və bundan sonra da işləyəcəyik.

Bunlarla yanaşı biz 1994-cü ildə və bu ilin ötən aylarında çox fəal xarici siyasət aparmışıq. Dünyanın ən böyük dövlətləri ilə sıx əlaqələr yaratmışıq, müqavilələr, ayrı-ayrı sazişlər imzalamışıq. Böyük dövlətlərin, demək olar, hamısının başçıları ilə mənim şəxsi görüşlərim, rəsmi səfərlərim, beynəlxalq təşkilatlarda görüşlərim olmuşdur. Bunlar hamısı respublikanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmişdir. Kopenhagendə olan son görüşlərim haqqında da sizə məlumat verdim. Bu işlər gələcəkdə də davam edəcəkdir. Mən bir çox

ölkələrdən dəvətlər almışam, bir çox dövlətlərin başçılarını Azərbaycana dəvət etmişəm. Biz bu sahədə də böyük işlər görəcəyik və mənə belə gəlir ki, bunlar beynəlxalq aləmdə Azərbaycanın mövqelərini möhkəmləndirəcəkdir.

İqtisadiyyatda daxili imkanlardan istifadə etmək, istehsalı qaldırmaq, iqtisadi potensialı hərəkətə gətirmək tədbirləri, şübhəsiz, zəruridir və biz bu sahədə işləyirik. Ancaq çətinliklərimizin üzərinə çətinlik gəlir. Müharibə bizə bir çətinlik yaratmışdır, bir milyondan artıq qaçqın Azərbaycana digər çətinlik yaratmışdır. Bu tərəfdən də altı-yeddi aydır ki, Rusiya ilə dəmir yolu, avtomobil yolu bağlanmışdır. Hava yolu, dəniz yolu da bağlanmışdır. Rusiya ilə sərhədimiz də bağlanmışdır. Mən məlumat vermişdim ki, Rusiya ilə sərhədimizin bağlanması bizə çox böyük iqtisadi zərər vurur. Çünki bizim iqtisadiyyatımız Rusiya ilə Rusiya ərazisi ilə, MDB-nin başqa ölkələri ilə, Avropa ölkələri ilə bağlıdır. İqtisadiyyatımız həmin ölkələrin sənayesi, ümumən iqtisadiyyatı ilə çox inteqrasiyadadır. İndi bu əlaqələr qırılmışdır. Bunları hərəkətə gətirmək üçün bizə yol, kommunikasiya lazımdır.

Əvvəllər dediyim kimi, Alma-ata görüşü zamanı mən bu barədə Rusiyanın prezidenti cənab Boris Yeltsinə müraciət etmişdim. Kopenhagendə olarkən Rusiyanın baş naziri cənab Viktor Çernomırdinlə görüşdüm. Onunla ümumən, o cümlədən sərhədin tezliklə açılması haqqında ətraflı söhbət etdim. Bu gün mənə məlumat verdilər ki, oradan qayıtdıqdan sonra cənab Çernomırdin öz müavinlərinə müvafiq göstərişlər vermişdir. Biz əlaqəyə girmişik və bu məsələlərin həlli üçün lazımi tədbirlər görürük. Amma eyni zamanda daxili imkanlarımızdan istifadə edərək, şübhəsiz ki, beynəlxalq təşkilatların imkanlarından da istifadə etməyə çalışırıq.

Bu baxımdan Avropa Şurasının Azərbaycana indiyə qədər etdiyi və bundan sonra edəcəyi kömək çox əhəmiyyətlidir. Bu da ondan ibarətdir ki, biz Avropa Şurasından 300 min

ton taxıl, un göndərilməsi haqqında qərar almışıq. Bunun bir qismi göndərilmişdir. Mən sizə açıq deyə bilərəm ki, indi respublikamızın çörək təminatı əsasən Avropa Şurasından alınan buğdanın, unun hesabınadır. Həmin taxılın, unun qalan hissəsi də göndəriləcəkdir. Bundan əlavə, Avropa Şurasından iki min tonadək yağ, 2500 tona qədər ət gəlmişdir. Bunlar hamısı respublikanın təchizatına yönəldilmişdir. Bütün bunlar Avropa Şurasının respublikaya maddi yardımıdır, əvəzsiz yardımıdır. Eyni zamanda Avropa Şurası respublikamıza təxminən 80 milyon dollar kredit ayırmışdır. Həmin kredit hesabına təxminən 25 milyon dollar dəyərində dava-dərman almışıq və bunlar respublikamıza gəlir. Kreditin bir hissəsini taxıl və başqa ərzaq məhsulları alınmasına yönəltmişik. Bunlar da Azərbaycana gətirilir. Bütün bunlar respublikanın iqtisadiyyatına köməkdir. Şübhəsiz ki, dünyanın humanitar təşkilatları mütəmadi olaraq bizim qaçqınlara kömək edirlər. Bu işlə məşğul olmaq üçün xüsusi olaraq baş nazirin bir müavinini təyin etmişəm. İzzət Rüstəmov bu məsələlərlə ciddi məşğul olur. Beynəlxalq təşkilatlardan bundan sonra da kömək gələcəkdir.

Biz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə geniş əməkdaşlıq edirik. Bazar iqtisadiyyatına keçməyimizə, islahatlar aparmağımıza kömək göstərəcəkləri barədə onların bəyanatları var. Onlar müəyyən şərtlər də irəli sürmüşlər və biz bunları həyata keçirmişik. Mən özüm həm Davosda olarkən, həm də keçən il İngiltərəyə səfərim zamanı, Nyu-Yorkda olarkən həm Avropa Yenidənqurma və İnkişaf Bankının, həm də Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun rəhbərləri ilə danışıqlar aparmışam. Onların nümayəndələri Azərbaycana gəlmiş və biz görüşmüşük. Bunların nəticəsində Beynəlxalq Valyuta Fondu Azərbaycana kredit verməyi qərara almışdır. Güman edirəm ki, artıq aprel ayında Azərbaycana 70 milyon dollardan çox kredit veriləcəkdir. Bununla yanaşı, Avropa Yenidənqurma və İnkişaf Bankı Yenikənd su elektrik stansi-

yasının tikintisi üçün 60 milyon dollardan artıq, Bakının su təchizatından ötrü 40 milyon dollardan çox kredit ayrılması haqqında qərar qəbul etmişdir. Şübhəsiz ki, bunların hamısı Azərbaycanın iqtisadi-sosial problemlərinin həlli üçün atılan addımlar, gördüyümüz işlərin nəticəsidir və gələcək üçün də böyük bir zəmin, əsas yaradır. Biz bu istiqamətdə hərəkət edirik və edəcəyik.

Ötən il sentyabrın 20-də imzalanmış neft müqaviləsi fəaliyyətdədir. Neft şirkətləri konsorsiumu bu il üçün yüz milyon dollardan artıq vəsait ayırmışdır və onlar artıq işə başlayırlar. Mən Kopenhagenə getməkdən öncə konsorsiumun rəhbəri cənab Terri Adamsla görüşdüm. O mənə dedi ki, biz gözlədiyimizdən də çox nailiyyətlər əldə edirik. Məsələn "Çıraq" yatağında bizim bir platformamız var, onun istifadə olunması konsorsiumla imzalanmış müqaviləyə daxil edilmişdir. 18 ay müddətində ondan istifadə edilərək oradan ilk neftin çıxarılması nəzərdə tutulmuşdur. Lakin görülən işlər göstərir ki, biz orada bundan xeyli əvvəl neft çıxaracağıq. Yəni müqavilə artıq fəaliyyətdədir, konsorsiumun iştirakçıları bu işə həvəslə girişmişlər. Düzdür, bu müqavilə bizə çox baha oturdu: itkilər də verdik, bizə çox təzyiqlər də oldu. Təzyiqlərə davam gətirdik, indi də davam gətiririk. Təzyiqlər bu gün də var, ancaq neft müqaviləsi işləyir və işləyəcək, Azərbaycanın həm yaxın, həm də uzaq gələcəyi üçün çox böyük mənfəət verəcəkdir.

Ancaq Xəzər dənizinin Azərbaycana aid hissəsində daha bir neçə zəngin yatağımız var: "Şahdəniz", "Qarabağ", "Naxçıvan" yataqları və sairə. Artıq dünyanın ən böyük neft şirkətləri Azərbaycana üz tutur, onların prezidentləri dalbadal ölkəmizə gəlirlər. Mənimlə görüşürlər, görüşmək istəyirlər. Davosda, Budapeştdə, Kopenhagendə olanda da mənimlə görüşmək istədilər. Onlar bizimlə əməkdaşlığa can atırlar. Yəni dünyanın böyük şirkətlərinin Azərbaycana etibarı, inamı art-

mışdır. Onlar bizimlə əməkdaşlıq etmək istəyirlər və biz də bu əməkdaşlığı edirik. Dediyim həmin neft yataqlarından birgə istifadə olunması üçün danışıqlar gedir. Güman edirəm ki, yeni müqavilələr bağlanacaq və bunlar hamısı Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük imkanlar yaradacaqdır.

İndi neft müqaviləsindən alınan ilkin bonusdan valyutanın tənzimlənməsi üçün istifadə olunması iqtisadiyyatımız üçün böyük bir dayaqdır. Yəni həyatımızın çətinlikləri ilə yanaşı, bu günümüz, gələcəyimiz üçün, necə deyərlər, müsbət işlərimiz də göz qabağındadır. Bu işlər bu gün də, sabah da həyata keçiriləcəkdir. Tam əminəm ki, biz bu ağır vəziyyətdən çıxacaq, Böyük Sülh Müqaviləsinə nail olacağıq. Tam əminəm ki, torpaqlarımızın hamısını geriyə qaytaracağıq, qaçqınlarımız öz yerlərinə qayıdacaqlar.

Ancaq təəssüflər olsun ki, biz bütün bu çətinliklər içərisində yaşayaraq ağır problemləri həll edərkən həm xaricdən, həm də daxildən təxribatlarla rastlaşırıq. Xaricdən bizə qarşı cürbəcür təzyiqlər var. Ən böyük təzyiq ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyini laxlatmaq, onu necə deyərlər, müəyyən qədər azaltmaq istəyirlər. Mən dəfələrlə demişəm və bu gün vətəndaşlarımın, xalqımın qarşısında bir daha deyirəm ki, prezident kimi Azərbaycanın müstəqilliyinin qorunmasını bu günə qədər təmin etdiyim kimi bundan sonra da təmin edəcəyəm. Böyük-kiçikliyindən asılı olmayaraq heç bir dövlət Azərbaycanın müstəqilliyini dayandırmaq üçün göstərdiyi təzyiqdən heç bir nəticə əldə etməyəcəkdir. Çünki mən Azərbaycan xalqının iradəsinə arxayınam və özümün də iradəmə əsaslanıram. Özümün də iradəm budur ki, Azərbaycan xalqı daim müstəqil dövlət çərçivəsində yaşamalıdır, öz taleyinin sahibi olmalıdır və taleyini özü həll etməlidir. Azərbaycanın təbii sərvətləri, təbiəti, Azərbaycan xalqının intellektual imkanları, respublikamızın iqtisadi potensialı ölkəmizin müs-

təqil yaşamağına imkan verir. Ona görə də biz bu müstəqilliyi qoruyub saxlayacağıq.

Müstəqilliyimizə qarşı olan təzyiqlər təkcə ayrı-ayrı dairələrin təzyiqi deyil. Təəssüf ki, Azərbaycanın öz içərisindən çıxan adamların, vəzifə hərislərinin də müstəqilliyimizə zərbə vurmaq cəhdlərinin şahidisiniz. Keçən il oktyabrın 4-də dövlət çevrilişi etmək istəyən adamlar, həbsxanadan qaçanlar Moskvada toplaşmışlar. Əvvəl qaçanlar da oradadırlar. Mən Moskvanı günahlandırmıram. Bu işdə Rusiyanı da günahlandırmıram. Sadəcə olaraq onların toplaşdıqları yeri deyirəm. Onlar Azərbaycan haqqında düşünmürlər, şəxsi məqsədlərinə nail olmaq üçün Azərbaycanı qurban verməyə hazır olduqlarını bildirirlər. Bu, mətbuatdan məlumdur. Son günlər Mütəllibovla Surət Hüseynov "Arqumentı i faktı" qəzetində əl-ələ verərək bəyanat verirlər ki, guya onlar vətəndaş ittifaqı yaratmışlar. Bu bir daha göstərir ki, Azərbaycanın müstəqilliyi onlar üçün heç bir şeydir, şəxsi məqsədlərinə nail olmaq üçün hansı dövlətə, hökumətə, hansı dairəyə istəsən söz verirlər. Belə qüvvələr var, onlar Azərbaycanda sabitliyi pozmaq istəyirlər.

Bəli, ayrı-ayrı ölkələrdə bizə düşmən olan dairələr Ermənistanın bizə qarşı təcavüzünü daha da gücləndirmək üçün, Azərbaycanı parçalamaq, dağıtmaq üçün cəhdlər göstərirlər. Dövlət dairələrində, ayrı-ayrı ictimai dairələrdə, siyasi dairələrdə belə cəhdlər göstərirlər. Təəssüf ki, Azərbaycandan olan, onun hüdudlarından kənarda yaşayanlar da, daxildə yaşayanlar da onlara rəvac, dəstək verirlər. Bütün bu mühafizəkar qüvvələr, Azərbaycanın müstəqilliyinə təcavüz etmək əzmində olan bütün bu qüvvələr birləşirlər. Çünki görürlər ki, Azərbaycan artıq dördüncü ildir müstəqil dövlət kimi yaşayır, bütün bu təzyiqlərə sinə gərir və möhkəm dayanmışdır. Onlar Azərbaycan xalqının iradəsini görürlər. Ona görə də içəridən dağıtmaq istəyirlər, cürbəcür qüvvələri hərəkətə gətirirlər.

Görürlər ki, əgər tutduğumuz proqram bu il həyata keçirilərsə, iqtisadiyyatda böyük dəyişikliklər əmələ gələcək, xalqın rifahı yaxşılaşacaq, demokratiya yolu ilə daha da irəliyə gedəcəyik, iqtisadi islahatlar, seçkilər keçiriləcəkdir, yeni, əminəm ki, demokratik parlament yaranacaqdır. Azərbaycanın xoşbəxt gələcəyi üçün böyük bir sənəd olan yeni konstitusiya qəbul olunacaqdır.

Bunlara mane olmaq istəyən qüvvələr var. Həm xaricdəki, həm də daxildəki qüvvələr bundan ötrü cürbəcür çirkin yollara əl atırlar. Oktyabrın əvvəlində çevriliş etmək istədilər, baş tutmadı. Ondan sonra yenə də niyyətlərindən əl çəkmədilər. Qəzetlərdə yazırlar ki, nə bilim, on gündən sonra orada çevriliş olacaq, on beş gündən sonra burada çevriliş olacaq, Novruz bayramında, ondan əvvəl, ondan sonra çevriliş olacaq və sairə. Təəssüf ki, daxildəki ayrı-ayrı müxalifət qüvvələri də bunlardan istifadə edirlər. Anlamırlar ki, əgər Azərbaycanın müstəqilliyi əldən getsə, respublika dağılsa onlar özləri bundan da pis vəziyyətə düşəcəklər. Təəssüf ki, bunu anlamırlar. Ona görə də daxildə ictimai-siyasi sabitliyi pozmaq istəyirlər.

Bəli, dünyanın iqtisadi mərkəzləri, maliyyə mərkəzləri, böyük ölkələri, böyük şirkətləri Azərbaycana üz tutmuşlar. Azərbaycana investisiya gəlir, Azərbaycan yüksələ, inkişaf edə bilər. Bunun qarşısını almaq, bunu pozmaq istəyirlər. Bundan ötrü də daxili sabitliyi pozmağa çalışırlar. Bəli, əgər ictimai-siyasi sabitlik pozularsa, həmin şirkətlər buraya investisiya qoymayacaq, gəlib bizimlə əməkdaşlıq etməyəcəklər. Çünki gərək onların ümidi, inamı olsun ki, bir il, beş il, on il yox, iyirmi, otuz, əlli il burada fəaliyyət göstərəcək və bizimlə müştərək işləyərək mənfəət götürəcəklər. Bu, təbiidir, dünya iqtisadiyyatının qanunudur.

Ona görə də bizə düşmən olan qüvvələr artıq 1995-ci ildə üfüqdə sezilən dəyişiklikləri görüb vahiməyə düşmüşlər və

həmin dəyişiklikləri pozmaq üçün cürbəcür çirkin yollara əl atır, ictimai-siyasi sabitliyi pozmaq istəyirlər. Ancaq mən əminəm, inanıram ki, xalqımız buna yol verməyəcəkdir. Dözümlü xalqımız - bu isə onun ən yüksək mənəvi keyfiyyətlərindən biridir - nə qədər ağır vəziyyətdə yaşasa da buna yol verməyəcəkdir. Mən buna əminəm, inanıram ki, bizim sağlam qüvvələrimiz buna yol verməyəcək, biz tutduğumuz yolla gedəcək və bu məqsədlərə nail olacağıq.

Amma eyni zamanda bilmək lazımdır və mən bu gün açıq demək istəyirəm ki, bəzi qüvvələr həddindən artıq cızığından çıxmışlar, həddən artıq cinayət edir və daxildə ictimai-siyasi vəziyyəti pozmaq istəyirlər. Mən bir-iki saat əvvəl Amerika Birləşmiş Ştatlarının səfirini onun xahişi ilə qəbul etdim. O da narahatdır. Deyir ki, bəli, siz böyük çətinliklə Ermənistanla sülh yaratmaq istəyirsiniz, biz də bunu istəyirik, sizə kömək edirik. İstəyirik ki, burada sülh, əmin-amanlıq olsun. Ancaq sabitlik pozulsa, şübhəsiz ki, bütün bunlar baş tutmayacaqdır. Aydındır, mən də belə fikirdəyəm, Amerika Birləşmiş Ştatları da bu fikirdədir, onun nümayəndəsi də bunu mənə deyir.

Təəssüf ki, bəzi qüvvələr bunların heç birisini nəzərə almırlar. Ancaq öz məqsədləri, qazancları, çirkin niyyətləri, nəyin bahasına olursa-olsun vəzifə tutmaq barədə düşünürlər. Onlar dağıtmağa, parçalamağa doğru aparırlar, başqa mənəviyyatla yaşayırlar, xalqın mənəviyyatı ilə yaşamırlar. Ona görə də mən bu gün hər şeyi açıq-aydın demək istəyirəm.

Bəzi qüvvələr baş qaldırır və son günlər respublikada sabitliyi pozmağa çalışırlar. Qabaqda gedən guya Rövşən və Mahir Cavadov qardaşlarıdır. Onlar Xüsusi Təyinatlı Polis Dəstəsindən istifadə edirlər. Bir dəfə bundan istifadə etməyə çalışdılar. Bəzi qüvvələrin əlində alət oldular. Bir az başa düşdülər, bir az da biz onları bağışladıq. Ancaq indi yenə baş qaldırmışlar. Nə üçün, nə istəyirlər? Açıq demək istəyirəm ki, 1994-cü il oktyabrın əvvəlində dövlət çevrilişinə cəhd göstə-

rən qüvvələrin biri də Rövşən Cavadov olmuşdur. O, Xüsusi Təyinatlı Polis Dəstəsinin bəzi adamlarını ələ keçirərək Surət Hüseynovla birlikdə hərəkət etmişlər. Dövlət çevrilişi də məhz oradan başlandı. Gəlib prokurorluğu tutdular, qanunsuz hərəkətlər etdilər. Respublika prokurorunu döydülər, prokurorluğun binasını dağıtdılar, cinayət etdilər.

Ondan sonra çevrilişin ikinci mərhələsi başlandı. Lakin mən xalqa müraciət etdim. Xalq Prezident Aparatının qarşısına toplaşdı. Rövşən Cavadov başa düşdü ki, o uduzmuşdur, bir şeyə nail ola bilməyəcək. İki gün idi ki, onunla danışıq aparılırdı. Mən onunla hər şeyi danışdım. Mən bu məsələni sülh yolu ilə həll etmək istəyirdim. O, danışıq aparmaq üçün hər gün söz verirdi, lakin gəlmirdi. Ancaq xalq bura toplaşanda o, özü çıxıb buraya gəldi və bəyan etdi ki, o da Azərbaycanın dövlətçiliyinin tərəfdarıdır, respublikanın prezidentini müdafiə edir. Mitinqdə çıxış etdi və bəyanatlar verdi. Çox yaxşı. Ancaq mənə də, hamıya da məlumdur ki, həmin hadisələrin başında o dururdu və Surətin Gəncədə apardığı fəaliyyətlə onların hərəkətləri bir-birinə bağlı idi. Şahidlər var ki, o buraya gələndən sonra, bu binadan Gəncəyə zəng edib, orada çevrilişə rəhbərlik edən Səfixanova bildirib ki, biz artıq öz tədbirlərimizi dayandırmışıq, siz də dayandırın. Biz Prezidentin tərəfindəyik. Yəni bütün bunlar hamısı əlaqəli işdir. O, mənim yanıma gəldi, danışdıq. Hesab etdim ki, gəncdir, başa düşdü. Yolunu azıb, düzəlib. Bəlkə qanunu müəyyən qədər pozub, - çünki prokurorluq binasının dağıdılması haqqında qaldırılmış cinayət işi indiyə qədər davam edir, - dedim ki, gəlin bu məsələnin üzərindən keçək. Bir halda ki, səhv etmiş adam öz səhvini başa düşüb, anlayıbsa, onu bağışlamaq lazımdır. Mən də bağışladım, xalq da bağışladı. Xalq bunu çox yaxşı qəbul etdi. Mən də hesab etdim ki, məsələlər həll olundu.

Sonra mən onu da, Usubovu da dəvət etdim, ikisi də bir yerdə gəlmişdi. Dedim ki, gedin əl-ələ verib işləyin. Nə olub-

sa, o keçmişdə qalsın. Bizim nə qədər dərdimiz var, ən əsası isə Ermənistanın təcavüzüdür.

Azərbaycanı parçalamaq istəyən qüvvələr çoxdur: biri içərimizdədir, o birisi başqa yerdədir. Bəzi şeylərdə güzəştə getməliyik, bəzi şeyləri bağışlamalıyıq. Bu gün sizə bir daha deyirəm ki, mən çox şeyləri bağışlamışam. Hətta bəziləri təəccüblənirlər ki, biz Heydər Əliyevi tanıyırıq, 70-ci illərdəki Heydər Əliyevlə indiki arasında fərq var. Fərq ondan ibarətdir ki, o vaxt o, daha qətiyyətli, daha ciddi, daha kəskin idi. Amma indi həm yumşaqdır, həm də bəzi şeyləri bağışlayır.

Bunların bir sıra səbəbləri var. Bu səbəb də ondan ibarətdir ki, biz demokratiya şəraitində yaşayırıq. O vaxtkı dövlət quruluşu ilə indiki dövlət quruluşu arasında fərq var. Mən demokratiya yolu ilə gedirəm, Azərbaycanda demokratiya prinsiplərini bərqərar edən bir adam kimi çox şeyləri güzəştə gedirəm. Demokratiya yolu ilə getmək, insanlar arasında sülh, əmin-amanlıq, vətəndaş həmrəyliyi, birliyi yaratmaq lazımdır.

Mən hesab edirəm ki, oktyabr hadisələrində əsas cinayətkarlar Surət Hüseynov və onun ətrafında olan adamlardır. Onlar cinayət məsuliyyətinə cəlb olunacaqlarını bildilər, qaçdılar. Bir hissəsi tutuldu, 170-ə qədər adam həbs olundu. Nəyə lazım idi ki, dövlət çevrilişi üçün 170 adam həbsxanada yatsın? Bir qismi qaçıb gizlənib. O cümlədən dövlət çevrilişi edən, Surət Hüseynovun ətrafında olan adamlardan bəziləri orda-burda gizləniblər. Bu, nəyə lazımdır? Nəyə lazımdır ki, onlar gedib mühacirətdə yaşasınlar? Oturub işləmək, əl-ələ vermək, xalqın dərdlərini həll etmək lazımdır. Ancaq bu insanlar həmin yolla gedə bilmədilər. Onlar iqtisadiyyatı dağıtmaq, şəxsi məqsədlərini təmin etmək, çirkin işlər görməklə məşğul idilər. Mən onların bəzilərini, mənim fəaliyyət dairəmə yaxın olanları tərbiyə etməyə çalışdım, ancaq tərbiyə edə bilmədim. Çox təəssüf. Onlar indi öz cəzalarını alacaqlar. Qaçıb Moskvada oturanlar heç bir şey edə bilməyəcəklər, on-

lar da cəzalarına çatacaqlar. Haqq-ədalət hamısının cəzasını verəcəkdir, mən buna əminəm.

İndi Rövşən Cavadov yenidən ayağa qalxıb. Son vaxtlar orada bir bəyanat verir, burada bir bəyanat verir, özünü həddindən artıq yaramaz aparır. Birincisi Rövşən Cavadov kimdir - daxili işlər nazirinin müavini. Hərə öz vəzifəsi çərçivəsində fəaliyyət göstərməlidir. Azərbaycanda heç kəsə ərköyünlük etməyə imkan verilə bilməz, heç kəs özünü ərköyün uşaq kimi hiss etməməlidir. Yenə də deyirəm, hərə öz vəzifəsi çərçivəsində işləməlidir. Rövşən Cavadov isə daxili işlər nazirinin müavini kimi işləməyib, cürbəcür işlərlə məşğul olub.

Həmin bu Xüsusi Təyinatlı Polis dəstəsi 90-cı ildə, hələ Sovet hakimiyyəti dövründə yaranıb. Ancaq bunun fərqi yoxdur: o, Azərbaycanın erməni təcavüzündən qorunması üçün yaradılıb. Bəli, çox sağlam əsasda yaranıb. Ancaq onu yaradanlar Rövşən Cavadov deyil, başqaları olub. O dəstələr vuruşublar, döyüşüblər, fəaliyyət göstəriblər, şəhid veriblər. Bunlar hamısı xalqın tarixində əks olunub. Mən o şəhidlərin ruhu qarşısında bu gün də baş əyirəm.

Orada bu gün də çox sağlam fikirli, xalqına, millətinə, dövlətçiliyimizə sədaqətli adamlar, gənclər var. Onlar qiymətləndirilir və qiymətləndiriləcəklər. Ancaq Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov bu dəstəyə heç bir münasibəti olmayan adamlardır. Yəni dövlət, vəzifə nöqteyi-nəzərindən heç bir əlaqəsi olmayan bir adam bu dəstəyə rəhbərlik edir. Amma nə cür rəhbərlik edir? Onlar öz şəxsi məqsədləri, qazancları üçün bundan istifadə edirlər, bu dəstənin içərisində olan bəzi adamları pozurlar. Bəziləri özləri pozulublar. Bəzilərini bunlar pozublar. Bu barədə Rövşən Cavadova dəfələrlə deyilib. Həmin oktyabr hadisələrindən sonra deyilib ki, sən özün düz yolda deyilsən. XTPD-də əyri yolla gedən adamları da düz yola gətirmək lazımdır. Biz heç kəsi itirmək istəmirik.

Biz indi o qədər də zəngin deyilik ki, hər addımda bir adam itirək.

Bunlar hamısı ona deyilib. Ancaq o öz işi ilə məşğul olmaq əvəzinə siyasətlə məşğul olmağa başlayıb, cürbəcür bəyanatlar verib. Bizim qanunumuz var: dövlət orqanında, hüquq-mühafizə orqanlarında, Daxili İşlər Nazirliyində işləyən adam heç bir siyasi partiyaya mənsub ola bilməz, siyasətlə məşğul ola bilməz. Amma Rövşən Cavadov məşğul olur. Orada onu hədələyir, burada başqasını hədələyir: "Bunu edəcəyik, onu edəcəyik". Beləliklə də respublikada çaşqınlıq yaranır.

Necə olur ki, daxili işlər nazirinin müavini nazirə, daxili nizam-intizama tabe olmur? Özünü həddindən çox sərbəst, yaramaz aparır. Heç bir qanuna tabe deyil. Nəyə görə? Nə haqqı var, bu haqqı ona kim verib? Əgər güzəşt varsa, güzəştdən nəticə çıxarmaq lazımdır. Əgər güzəşt olunandan sonra daha pis yola gedəcəksənsə, onda bu güzəşt olmayacaq. O, son vaxtlar bu sahədə fəaliyyətini, öz cinayət hərəkətlərini artırıb. Məhz bunun nəticəsidir ki, XTPD-nin bəzi üzvləri son aylar qatı cinayətkarlıq edirlər. Onların bir çoxu son dörd-beş ay içərisində həbs edilib, indi istintaq altındadırlar. Onların bəziləri, o cümlədən XTPD-nin Qazax bölgəsində olan dəstəsinin üzvləri daim cinayətlə məşğuldurlar.

Burada "Cənub" mehmanxanası var, onlar bu mehmanxananın bir hissəsini zəbt ediblər. Məlumat veriblər ki, 60 nəfərdirlər və Qazax rayonundan gəliblər. Onlar orada nə edirlər? Axı bu XTPD nə ilə məşğuldur? İndi cəbhədə bunların mövqeyi yoxdur. Cəbhədə ordu var, daxili qoşunlar var. Onlar cəbhəni gözləyirlər və müharibə aparırlar. Əgər XTPD daxili asayişi qorumaq üçün lazımdırsa, daxili işlər nazirinin əmrini, göstərişlərini yerinə yetirməlidir. Lakin onlar nazirin göstərişlərinə əməl etmirlər. Özləri nə istəyirlər, onu da edirlər,

mafioz qruplara xidmət edirlər, oradan öz mənfəətlərini götürürlər və cürbəcür cinayətlər törədirlər.

Həmin dəstənin Qazaxda yerləşən üzvləri və o bölmənin başçısı Elçin adlı bir adam qatı cinayətkardırlar. Mən bunu sizə deməliyəm, etiraf etməliyəm ki, qarşısı alınmadığına görə, biz onlara çox güzəşt etdiyimizə görə, bəzi hallarda vəziyyəti gərginləşdirməmək üçün, cinayətlərinə qanun nöqteyi-nəzərindən bəzən ciddi xarakter vermədiyimizə görə onlar qudurublar. Belə hesab edirlər ki, hər şey, hətta dövlət çevrilişi də edə bilərlər.

Martın 12-dən 13-nə keçən gecə mən Bakıya saat 1-də gəldim. Gecə saat 4-də heç yatmamışdım, gələndən sonra bir neçə işlə məşğul idim. Pakistana getməyə hazırlaşırdım. Saat 4-də mənə telefonla zəng etdilər ki, Xüsusi Təyinatlı Polis Dəstəsi Qazaxda və Ağstafada icra hakimiyyəti orqanlarını zəbt edib, Ağstafada döyüş gedib, qan tökülüb. Bu işlə məşğul olmağa başladım. Aydınlaşdırdıq ki, bəli, onlar Qazax rayon polis idarəsini tamamilə zəbt ediblər. Orada olan bütün silahları ələ keçiriblər. Rayon icra hakimiyyətini zəbt ediblər, icra hakimiyyəti başçısını qovublar, gətirib oraya öz dəstələrini qoyublar və heç kimi buraxmırlar. Rabitəni ələ keçiriblər, rabitə yoxdur. Ağstafa rayonunda da vəziyyət belə idi.

Düzdür, Qazaxda polis müqavimət göstərməyib, Ağstafada polis müqavimət göstərib, nəticədə qan tökülüb. Onlar qan töküblər. Polis əməkdaşı həlak olub. Onlar tərəfdən də həlak olan var. Sonra onlar hərəkətlərini gücləndirməyə başlayıblar ki, Tovuzu da, Gəncəni də zəbt etsinlər.

Mən bu işlə səhərə qədər məşğul oldum, məsələni sülh yolu ilə həll etmək istədim. Daxili işlər nazirinin birinci müavini Zahid Dünyamalıyevi, Müdafiə Nazirliyinin rəhbər vəzifəli işçisi İsa Sadıqovu oraya göndərdik. Rövşən Cavadovun özünə də təklif edildi ki, oraya getsin - çünki bu adamların hamısı onunla bağlıdır - danışıqlar aparsın. Ancaq danışıqlar o

yana qalsın, məlumat verdilər ki, gəlib Ağstafa ilə Tovuz arasındakı "Cavanşir" restoranı deyilən yeri zəbt ediblər, oranı tamamilə ələ keçiriblər, postlar qoyublar, heç kəsi buraxmırlar, hakimiyyəti devirirlər.

Rövşən Cavadov orada nə iş görüb-görməyib, - bilmirəm. Özbaşına çıxıb gəlib. Gələndən sonra da gedib buradakı XTPD-nin içərisində oturub.

Bizim nümayəndələr orada üç dəfə danışıqlar aparıblar. Bu danışıqlar nədən ibarət olmuşdur? Yaxşı, cinayət eləmisiniz, bunu sonra aydın edərik. Silahları qaytarın. Yerinizə qayıdın. Sizin bazanız Qazaxdadır. Ancaq nə yerlərinə qayıdırlar, nə də silahları qaytarırlar. Nəhayət, dünən axşam söz veriblər ki, səhər saat 9-da bütün silahları qaytaracağıq. Bizimkilər də deyiblər ki, səhər saat 9-a qədər dözürük. Amma gecə yarısı onlar Tovuzdakı hərbi hissəyə hücum ediblər. Şübhəsiz ki, hərbi hissə də cavab verib, döyüş başlanıb.

Onlar böyük xülya ilə yaşayırdılar ki, dövlət çevrilişi ediblər və hətta guya 1993-cü ilin iyun ayında Gəncədən buraya hücum olunduğu kimi, onlar da oradan hücum edəcəklər. Saat 2-dək davam edən döyüşdə onlar darmadağın olunublar. Bizim oradakı qəhrəman, cəsarətli döyüşçülərimiz onlara cavab veriblər, beş zirehli texnikanı geri alıblar. XTPD bölməsi 50-60 adamdan ibarət imiş. Onlardan 49 nəfərdən artıq adam həbs olunub, ancaq onlar zəbt etdikləri silahları oradakı ayrı-ayrı adamlara paylayıblar, indi bu silahlar kimin əlindədir - məlum deyil.

Bu döyüşlərdə yenə qan tökülüb. Bu qanı onlar töküb. Bizim dörd nəfər gənc döyüşçü əsgərimiz Azərbaycanın dövlətçiliyini, müstəqilliyini, konstitusiyasını qoruyaraq qəhrəmancasına həlak olub. Allah onlara rəhmət eləsin. Onların şücaəti unudulmayacaqdır. Dövlət onların, bu keçən gecə həmin quldur dəstəsini dağıdanların xidmətini yüksək qiymətləndirəcəkdir. Mən bu gün bunu bəyan edirəm.

O quldur dəstəsinin qalan üzvləri qaçıb ora-bura dağılıblar. Mənə dedilər ki, onlar Gürcüstana keçmək istəyirlər. Bu döyüşlər Ermənistanla bizim sərhədimizin beş-altı kilometrliyində olan yerlərdə gedib. Quldurlar sərhəd kəndlərinə gediblər ki, orada gizlənsinlər. Mən bu gün Gürcüstan dövlətinin rəhbəri cənab Eduard Şevardnadzeyə zəng vurdum, ondan xahiş etdim. O dərhal göstəriş verdi. Axşam mənə xəbər verdilər ki, qaçıb Gürcüstana keçən iki nəfər həbs olunub və buraya göndərilir.

Sonra mən hiss etdim ki, bunlar, ola bilər, cəbhədə atəşkəsi pozsunlar, çünki belə adamlar üçün müqəddəs bir şey yoxdur. Onlar canidirlər, cinayətkardırlar. Mən bu gün Ermənistan prezidenti cənab Levon Ter-Petrosyana telefon etdim, onunla danışdım. O məni əmin etdi ki, hər şeyi başa düşürəm və biz eşidirik, hiss edirik, orada - Qazaxda, Tovuzda olan hadisələri izləyirik, əmin ola bilərsiniz ki, biz atəşkəs rejiminə sadiq olacağıq və heç bir təxribata yol verməyəcəyik.

Görürsünüz, nələr baş verir. O dəstənin üzvləri Tovuzu, Gəncəni almaq və buraya gəlmək istəyirlər. Burada da Rövşən Cavadov qayıdıb, gedib XTPD-yə, dünəndən orada oturub, dəstə yığır, dövlət çevrilişi edəcəyini bəyan edir, prezidentin, Ali Sovetin sədrinin istefasını tələb edir və hədələyir ki, əgər istefa olmasa buna zorla nail olacaqlar, prezidenti də öldürəcəklər, vətəndaş müharibəsi olacaq...

Onlar bu vətəndaş müharibəsinə başlayıblar. Rövşən Cavadov və onun dəstəsi tökülən qanların günahkarıdırlar. Bilirsiniz, XTPD-nin yerləşdiyi 8-ci Kilometrdəki bazaya cinayətkarları toplayırlar. Bu ağır vəziyyətimizdə gəncləri tərbiyə etmək əvəzinə cinayətə sövq edirlər, onlara silah paylayırlar, dövlət əleyhinə çıxmaq istəyirlər. Onlar Nizami Rayon Polis İdarəsinə hücum ediblər. Polis əməkdaşları o hücumun qarşısını alıblar, qəhrəmanlıq göstəriblər. İki nəfər polis əməkdaşı yaralanıb. Beləliklə, Ağstafada, Qazaxda da, gəlib Bakıda da

qan töküblər. Düzdür, XTPD-dən də biri həlak olub və bəlkə də o, günahsız bir zavallıdır. Allah ona rəhmət eləsin. O da vətəndaşımızdır, o da Azərbaycan Prezidenti kimi mənim vətəndaşımdır. Onun cinayət yoluna düşməsi özünün günahı deyil, Cavadovların günahıdır. Bütün o tökülən qanlarda günahkar onlardır.

İndi dəstə yığırlar, bəyanatlar verirlər. Bəli, müxalifətdə olan cürbəcür adamlar özlərini oraya soxurlar, oraya müxbirlər də gedirlər. Dünyaya bəyanat verirlər ki, Azərbaycanda sabitlik pozulub, Azərbaycanla əlaqələri kəsmək lazımdır. Belə danışıqlar gedir. Görün nə zərbələr vururlar. Nədən ötrü, nə üçün? Rövşən Cavadov nə iddia ilə yaşayır, o kimdir? Dövlət başçısı olmaq istəyir. Hətta bu gün onun bütün dünyaya yayılmış bəyanatını gətirib mənə oxudular: o, hakimiyyətə gələndən sonra hansı partiyaların onunla bir yerdə respublikanı idarə edəcəklərini deyəcəkdir.

Bilirsiniz, vay Azərbaycan xalqının gününə ki, bu bədbəxt, zavallı insanları, xalqın malını oğurlayaraq, qanını soraraq qudurmuş, zənginləşmiş, harınlaşmış adamlar gəlib bu xalqa rəhbərlik etmək istəyirlər. Bu xalq nə qədər bədbəxt ola bilərmiş. Əslində belə deyil, onlar belə düşünürlər. Tarix boyu xalqımızın dahi rəhbərləri, siyasi xadimləri, sərkərdələri olub - xalqın içərisindən çıxıb Azərbaycanın tarixinə düşmüş adamlar. İndi görün vəziyyət nə yerə gəlib ki, Rövşən Cavadov və onun kimi heç bir şeyə qadir olmayan adamlar belə iddialarla yaşayırlar. Məgər onlar başa düşmürlər ki, indiyədək Azərbaycanı, bu xalqı soyduqları bəs deyil? İndi gəlib dağıtmaq istəyirlər.

Təəssüf ki, bəzi adamlar hərəsi öz mövqeyini təmin etmək üçün istəyirlər ki, yenə də onlara havadarlıq etsinlər. Bəli, xəlvətdə onlara silah aparanlar da var, biz bunu müşahidə edirik. Başqa şeylər etmək istəyənlər də var. Ancaq bunlar əbəsdir, bunların heç biri nəticə verməyəcəkdir.

Ona görə də mən bu gün sizə həqiqəti çatdırıram. Azərbaycanda Cavadov qardaşlarının cinayəti nəticəsində, onların himayəsindəki, XTPD-dən olan cinayətkar adamların cinayəti nəticəsində qan tökülübdür. Qazax, Ağstafa rayonlarında hakimiyyət orqanlarına təcavüz olunubdur. Bu gün də Azərbaycan dövlətçiliyinə təcavüz etmək haqqında, vətəndaş müharibəsi başlanması haqqında bəyanatlar verilir.

Mən əminəm ki, Azərbaycan dövləti, onun dövlət orqanları bu təcavüzlərin hamısına cavab verməyə hazırdır. Əminəm ki, xalqımız, vətəndaşlarımız dərk edirlər ki, Azərbaycanın başına gətirilən bu bəlalar bəsdir. 20 yanvarda, ondan sonrakı vaxtlarda, nəhayət, keçən ilin oktyabr ayında nə bəlalar gətirdilər, bəsdir. Oktyabr hadisələrindən sonra Azərbaycan Respublikasının bütün təbəqələrindən, regionlarından mənə Azərbaycan Prezidentini müdafiə edən, dəstəkləyən on minlərlə məktub, teleqram gəlib və bu gün də gəlir.

Azərbaycanda etnik ziddiyyətlər yaratmağa çalışırdılar. Rəhim Qazıyev, Surət Hüseynov, Mütəllibov kimi və burada oturan Rövşən Cavadov kimi adamlar etnik qrupları bir-birinə vurmağa çalışırlar. Ancaq bu, olmayacaq. Xatirinizdədir ki, mən ləzgi xalqının nümayəndələri ilə burada görüş keçirmişəm. Onlardan indiyədək mənə minnətdarlıq məktubları gəlir. O birilərindən də, hamısından məktublar gəlir. Mən demişəm və bu gün bir daha deyirəm: Azərbaycan çoxmillətli demokratik bir dövlətdir. Hər bir insan, hər bir Azərbaycan vətəndaşı bərabər hüquqa malikdir. Milliyyətindən asılı olmayaraq hər bir vətəndaşımız üçün Azərbaycan ana vətəndir. Mən bir Prezident kimi bax, bu prinsiplərin keşiyində durmuşam və duracağam. Heç kəs ümid etməsin ki, kimisə kimləsə toqquşduracaqdır. Heç kəs heç kəslə toqquşmayacaq. Çünki bu xalq bir-biri ilə birləşmiş bir xalqdır. Hamısı azərbaycanlıdır, Azərbaycan vətəndaşıdır.

Güman edirəm ki, xalqın milli birliyi, həmrəyliyi, vətəndaş birliyi bu çətinliklərin aradan götürülməsinə şərait yaradır və bizim üçün kömək olacaqdır.

İndi belə bir şərait yaranıb ki, Rövşən Cavadov 8-ci Kilometr qəsəbəsində oturub, cinayətkar adamları başına yığıb. Düzdür, orada - həmin o bazada da, yəni XTPD-də xidmət edənlərin içərisində sədaqətli, namuslu Azərbaycan oğulları var. Mən onlara hörmət və ehtiramımı bildirirəm. Bizə məlumdur ki, onlar Rövşən Cavadovun bu cür çirkin hərəkətlərini bəyənmirlər, qəbul etmirlər. Ancaq onlar orada qorxu altındadırlar, onları hədələyirlər, deyirlər ki, kim bizdən deyilsə, onu öldürəcəyik. Bax orada bu cür atmosfer yaranıb. Bunlar hamısı bizə məlumdur. Güman edirəm ki, heç kəs, namuslu, qeyrətli azərbaycanlı canından qorxmamalıdır. Vətən, dövlət yolunda hər kəs öz xidmətini göstərməlidir.

Şübhəsiz ki, nə qədər qan tökülübsə, nə qədər cinayət ediblərsə də mən bu gərginliyin davam etməsinin tərəfdarı deyiləm. Əksinə, mən tələb edirəm ki, onlar bu cinayət əməllərindən əl çəksinlər.

Son vaxtlar Rövşən Cavadov orada-burada bildirmişdir ki, guya mənimlə görüşmək istəyir. Bilirsiniz ki, mənim iş rejimim çox gərgindir. İctimaiyyət bilir ki, mənim həyatım işlə bağlıdır. Güman edirəm ki, bunu sübut etməyə ehtiyac yoxdur. Həyatımı sərf etmişəm, son nəfəsimə qədər də xalqımın bu vəziyyətindən çıxmasına sərf edəcəyəm. Vaxtım azdır, məhduddur. Mənimlə görüşmək istəyən adamlar - xaricdən gələnlər, daxildə olan adamlar, mənim özümün görüşmək istədiyim adamlar çoxdur. Buna baxmayaraq, mən dedim ki, yaxşı, əgər doğrudan da Rövşən Cavadovu nəsə narahat edirsə, mən qəbul edib onunla görüşərəm.

Türkiyənin burada olan səfiri hörmətli Altan Karamanoğlu - o da bu işdən çox narahatdır - mənim yanıma gəldi ki, siz Rövşən Cavadovla danışın, söhbət edin, o nədənsə narazıdır.

Mən dedim ki, biz axı ona hörmət etmişik, ona bu qədər güzəştə getmişik. Nədən narazıdır - mənim yanıma gəlsin. Dedi yaxşı qəbul edin. Dedim qəbul edərəm. Bir dəfə vaxt təyin etdim - olmadı. Hörmətli Altan Karamanoğlu sonra bir dəfə də telefon etdi. Mən dəqiq vaxt təyin etdim: mart ayının 9-da saat 4-də - baxmayaraq ki, martın 10-da Kopenhagenə uçmalı idim, işlərim də çox idi. Gündüz saat 4-də Rövşən Cavadov gəlmədi. Bu qədər hörmətsizlik olar? Sən kimsən? Daxili işlər nazirinin müavini. Mənim hər bir göstərişim sənin üçün qanundur. Türkiyənin səfiri məndən xahiş edib, mən də qəbul etmişəm. Vaxt təyin etmişəm, amma Rövşən Cavadov gəlməkdən imtina edir, iddialarla yaşayır. Yəni demək istəyirəm ki, onun günahlarına baxmayaraq, - onun qanunsuz hərəkətləri mənə məlum idi, ancaq mən yaşca ondan çox böyük bir adam kimi başqa şeyləri kənara qoyuram - dedim ki, yaxşı, söhbət edək, danışaq. Nə aydın deyilsə, mən onun üçün aydınlaşdırım, nə dərdi varsa, mənə desin. İmtina etdi. Çünki böyük iddialarla yaşayır.

Ancaq onu bu günə salan bəzi adamlardır. Onun qoltuğuna verirlər, qızışdırırlar. Gedib onun üçün müsabiqə, nə bilim nə keçirirlər. Burada camaat acından ölür, insanlar yaşaya bilmir. Rövşən Cavadovun şərəfinə turnir keçirirlər. Bunu təşkil edənlər də onun özünə düşmən olan adamlardır ki, onu bu günə salırlar. Bunların hamısını bağışlayıram, üstündən keçirəm. Yaxşı, gəl, nə dərdin var danışaq.

İndi son bəyanatlarında daha böyük iddialar edir. Bunların hamısına baxmayaraq, mən hər bir vətəndaşın hüququnun keşiyindəyəm və hər bir vətəndaşa qayğı göstərməliyəm. Xalq mənə etimad göstərdiyinə görə mən bu vəzifəni öhdəmə götürmüşəm. Bu mənim borcumdur və bu borcu yerinə yetirmək üçün mən hər şeyə gedirəm. Ona görə də əgər bu gün də onlar çirkin əməllərindən əl çəksələr, silahları yerə qoysalar, şübhəsiz ki, cinayətkarların bir qismini bağışlayacağam. Bun-

ları da bağışlayacağam. Yəni mən, baxmayaraq ki, çox kəskin vəziyyət yaranıb, ictimaiyyət Rövşən Cavadova və onun ətrafında olan o quldurlara çox nifrət edir - yenə də bu addımı atıram.

8-ci Kilometr böyük bir qəsəbədir. Orada yüz minlərlə adam yaşayır. Mənə məlumdur ki, o ətrafda yaşayan adamlar XTPD-də olan o cinayətkarların əlindən boğaza yığılıblar, onlara nifrət edirlər, qorxu altında yaşayırlar. Bu gün mənə deyirlər ki, quldurlar oradan çıxıblar, polis idarəsinə basqın ediblər. Bir mağazadan zorla şey götürürlər, gəlib bir adamın əlindən zorla şey alırlar. Buna kim dözər? Əhmədli qəsəbəsində də yüz minlərlə adam yaşayır, onlar da bu cinayətkarların əlindən boğaza yığılıblar.

İndi nə edək? Demək, bir dəstədən ötrü yüz minlərlə adamın hüquqlarını tapdalayaq? Buna hansı qanun yol verir? Allah da, qanun da, vicdan da buna yol verməz.

Mahir Cavadov oktyabrın əvvəlində cinayət edib, prokuror kimi işdən çıxarılıb, gecə-gündüz eyş-işrət içindədir. Mənə deyirlər ki, onun evinin qarşısında XTPD-nin 25-30 nəfər silahlı adamı durur. Nə üçün? Hara gedirsə 25-30 nəfər onu müşayiət edir, nədən ötrü? XTPD dövlət orqanında olan bir dəstədir. Nə üçün o, Mahir Cavadova xidmət etməli, onu qorumalıdır? Nə üçün Mahir Cavadovun arxasınca bu qədər adam gəzməlidir? Rövşən Cavadovun arxasınca 15 nəfər qoruqçu gəzir. Nazirin cəmi iki mühafizəçisi var. Burada, Bakıda 2 milyondan artıq adam yaşayır. Məgər onlar insan deyilmi? Onları ana doğmayıbmı? Onlar Azərbaycan vətəndaşı deyilmi? Onları kim mühafizə edir? Hansı əsasa, nə əsasa, nə hüquqa görə Mahir Cavadov cəmiyyətdə belə bir yer tutsun, istədiyini etsin? Nə üçün bu XTPD dəstəsi iki qardaşın əlində olsun, nə üçün onlara xidmət etsin?

Ona görə də mən hesab edirəm ki, daxili işlər naziri general Usubov dünən tamamilə düzgün əmr verib. Birincisi ona

görə ki, bu dəstənin indi ümumiyyətlə fəaliyyət göstərmək zərurəti artıq itib, yoxdur. İkincisi ona görə ki, bu dəstənin içərisində çoxlu cinayətkar adamlar yığışıblar. Üçüncüsü ona görə ki, bu cinayətkar adamlardan öz cinayətkar məqsədləri üçün istifadə edirlər. Şübhəsiz ki, bu, əmrdə yazılıb. Mən də onu dəstəkləyirəm, tərəfdarıyam. Bu dəstənin içərisində olan sağlam adamlar, dövlətə xidmət etmək istəyən adamlar Daxili İşlər Nazirliyinin ayrı-ayrı bölmələrində, strukturlarında ondan yaxşı vəzifələr alacaqlar, xidmət edəcəklər və onların hüquqları qorunacaqdır. Cinayət etmiş adamlar əgər cinayətlərini boyunlarına alsalar, onlar da bağışlana bilərlər, ancaq bu vəziyyətdə XTPD-ni artıq saxlamaq olmaz. Mən belə hesab edirəm ki, bu əmr tamamilə düzgündür.

Bunların hamısını nəzərə alaraq mən Rövşən Cavadovun qeyri-qanuni hərəkətlərinə ümumi işimizin xatirinə, milli həmrəylik xatirinə uzun müddət dözmüşəm. Artıq bu gün dözə bilmədim. Mən bu gün Rövşən Cavadovun vəzifəsindən azad edilməsi haqqında sərəncam verdim. Artıq Rövşən Cavadov daxili işlər nazirinin müavini deyil. XTPD də yoxdur, ancaq o dəstədə olan adamlar Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır. Həmin nazirlik də üç gün müddətində onların yerini müəyyən edəcəkdir. Bunun üçün isə onlar gərək daxili işlər nazirinə tabe olsunlar. Halbuki əmr dünəndən verilib, onlar isə tabe olmurlar, əksinə, guya XTPD-nin şöhrətini qorumaq üçün dəstə yığıb mübarizə aparmaq istəyirlər.

Bilirsiniz, Azərbaycanın tarixində cürbəcür qurumlar, dəstələr, müxtəlif ordular olub. Hərəsinin öz vaxtı, tarixdə hərəsinin öz yeri var. XTPD-nin də Azərbaycan tarixində öz yeri var. O öz missiyasını vaxtilə şərəflə yerinə yetirib və o yeri, tarixi nailiyyəti, xidməti heç kəs unutmayıb və unutmayacaqdır. Ancaq bu gün bu vəziyyətə dözmək mümkün deyil. Rövşən Cavadov da bunu anlamalıdır və XTPD-də olan şəxsi heyətin hamısı anlamalıdır.

8-ci Kilometr qəsəbəsində yerləşən Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvlərinə - Daxili İşlər Nazirliyinin əməkdaşlarına, Azərbaycanın vətəndaşlarına müraciət edirəm: bu əməlinizdən, cinayətkar niyyətlərinizdən əl çəkin, bu yoldan çəkinin, düz yolda deyilsiniz. Tökdüyünüz qanlar, etdiyiniz cinayətlər bəsdir! Təklif edirəm, kim mənim bu çağırışıma səs verirsə, oradan çıxsın və o, cəmiyyətdə də, Daxili İşlər Nazirliyində də öz yerini alacaqdır. Ümumiyyətlə, dəstəyə və Rövşən Cavadova deyirəm: bu cinayətkar əməllərinizdən əl çəkin, təslim olun! Silahlar bu gün təhvil verilməli, oradan çıxıb hərə öz yerinə getməli, təslim olmalıdır. Dövlətlə dövlətlik etmək olmaz. Azərbaycanın dövləti var, xalq tərəfindən seçilmiş Prezidenti var.

Mən dəfələrlə demişəm, bu gün, gərginlik yaranan vaxtda bir daha deyirəm: Azərbaycanın dövlətçiliyini son damla qanımadək qoruyacağam və Azərbaycanın dövlətçiliyinə təcavüz edən adamların cəzasını da qanun çərçivəsində verəcəyəm. Bunu bilmək lazımdır. Ancaq mən heç kimi cəzalandırmaq istəmirəm. İstəyirəm ki, heç kim cinayət törətməsin, heç kim dövlətçiliyə xəyanət etməsin. Bunu istəyirəm, müraciət edirəm, yol göstərirəm. Yol da dediyim yoldur, başqa yol yoxdur. Güman edirəm ki, mənim bu müraciətimi Azərbaycan ictimaiyyəti qəbul edəcək, Azərbaycanın hörmətli adamları, ağsaqqalları, ağıllı adamları bugünkü müraciətimi dərk edəcək, qəbul edəcək və qiymətləndirəcəklər. Güman edirəm ki, Azərbaycan xalqı mənim səsimə səs verəcəkdir.

Bu gün biz yenə də vətəndaş müharibəsinin astanasındayıq. Bu vətəndaş müharibəsini Rövşən Cavadov bizə açıq-aydın elan etmişdir. Qan tökmüşdür və yerli müxbirlərə, xarici müxbirlərə verdiyi bəyanatlarda elan etmişdir ki, onlar vətəndaş müharibəsi törətməyə hazırdırlar. Mən isə hesab edirəm ki, bu Azərbaycan xalqı üçün yeni bir faciədir. Son illərdə Azərbaycan xalqının çəkdiyi faciələr bəsdir. Ona yeni faciələr

yaratmaq lazım deyildir. Belə adamlar şəxsi hikkələrindən əl çəksinlər və hamı birləşərək Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmağa çalışsın. Mən hamını buna dəvət edirəm. İnanıram ki, xalqın müdrikliyi, inamı, müstəqilliyə bağlılığı bu gün də bizi bu vəziyyətdən çıxaracaqdır.

Ona görə də mən 8-ci Kilometr qəsəbəsində yerləşən Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvlərinə bir daha müraciət edirəm. Onlara təklif edirəm: bütün bu niyyətlərdən əl çəkin, silahı yerə qoyun, ev-eşiyinizə gedin, sizin bütün təhlükəsizliyiniz təmin olunacaqdır. Əks təqdirdə dövlətin qanunları tətbiq ediləcəkdir. Əgər ötən gecə həmin polis dəstəsinin üzvləri bizim danışıqlara qulaq assaydılar, öz yerlərinə getsəydilər, onlar bağışlanacaqdılar və biz də bu vəziyyətdən çıxacaqdıq. Ancaq onlar azğınlaşdılar, qudurdular və hesab etdilər ki, gəlib Bakını tutacaqlar. Lakin heç bir şey edə bilmədilər və bu gecə dağıldılar. İndi Rövşən Cavadov da, ətrafındakı adamlar da fikir formalaşdırır ki, Elçin, Qazaxdakı Xüsusi Təyinatlı Polis Dəstəsi oraları tutub gəlir. Yalandır! Mən sizə dedim, 50 nəfər adam, o cümlədən ikisi Gürcüstanda həbs edilmişdir. Qalanları da axtarılır və bu gecə səhərədək hamısı həbs olunacaqdır. Orada Xüsusi Təyinatlı Polis Dəstəsi yoxdur. Rayonlar normal vəziyyətdə işləyir. Qazaxda, Ağstafada, Tovuzda tam sabitlik təmin edilmişdir. Bütün şəhər və rayonlarda tam sabitlikdir.

Rövşən Cavadov orada deyir ki, Lənkəran qalxır. Heç kəs qalxmır. Lənkəran Azərbaycan Prezidentini müdafiə edir. Bu gün bütün bölgələrdən mənə telefon zəngləri olur və deyirlər ki, biz Azərbaycan dövlətçiliyini müdafiə edirik, Azərbaycan Prezidentinin arxasındayıq. Deyirlər ki, Naxçıvan qalxır. Naxçıvan Azərbaycan dövlətçiliyinin, Azərbaycan Prezidentinin arxasında möhkəm dayanmışdır, əmin olsunlar. Rövşən Cavadov şayiə yayır ki, guya Sumqayıtda onu müdafiə edirlər. Heç kəs onu müdafiə etmir.

Mənə məlumdur ki, onun elçiləri bu gün Kəlbəcərdən, Laçından, Qubadlıdan, başqa yerlərdən olan qaçqınların yanına getmişlər. Lakin qaçqınlar onları qovmuşlar. Əminəm ki, qaçqınlar mənim səsimi eşidirlər, bilirlər ki, mənim gecəm-gündüzüm onları bu vəziyyətdən çıxarmağa həsr olunmuşdur və bundan sonra da həsr ediləcəkdir. Mən özümü daim o çadırlarda görürəm. Gecə yatanda da hesab edirəm ki, o, çadırda qaçqın uşaqla qucaqlaşıb yatıram. Amma bunlar xalqı soyub, qudurub və harınlayaraq indi gedib qaçqınlara müraciət edirlər. Nə üzünüz var qaçqınlara müraciət edəsiniz? O dövləti, varı, silahları xalqın qanını soraraq yığmısınız. İndi bundan xalqa qarşı istifadə etmək istəyirsiniz. 8-ci Kilometr qəsəbəsindəki Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvlərinə aydın olmalıdır ki, onların dedikləri şayiədir, yalandır. Azərbaycanın bütün bölgələrində, bütün şəhərlərində, rayonlarında tam sakitlikdir. Adamlar hər yerdə Azərbaycanın dövlətçiliyini müdafiə etməyə hazırdırlar. Bakıda da, hər yerdə də buna hazırdırlar. Ona görə də dəstənin üzvlərinə deyirəm: reallığı nəzərə alın, bilin ki, sizi aldatmışlar, yoldan çıxarmışlar. Aldandığınıza, yoldan çıxdığınıza görə sizi əfv edirəm, bağışlayıram. Ancaq silahlarınızı qoyub oradan çıxın, əks təqdirdə qanun tətbiq olunacaqdır.

Mən hesab edirəm ki, bu gün verdiyim məlumat, mənim mülahizələrim Azərbaycan Respublikasının ictimaiyyətinə və bütün dairələrə müəyyən aydınlıq gətirir. Eyni zamanda ümidvar olduğumu bildirmək istəyirəm ki, torpağını, Vətənini sevən hər bir insan, vətəndaş bu gün gərək düşünsün. Vətən nə vəziyyətdədir və bu vəziyyətdə onun rolu nədən ibarətdir. Ona görə də kim müxalifətdədir, hansı siyasi platformadadır - bunun əhəmiyyəti yoxdur. Azərbaycanda siyasi plüralizmdir, qəzetlər istədiyini yazır, partiyalar fəaliyyət göstərir və tam zəmanət verirəm ki, bu partiyalar parlament seçkilərində iştirak edəcəklər. Hər halda mən bu zəmanəti bir Prezident kimi

öz tərəfimdən verirəm. Güman edirəm ki, bu, az zəmanət deyildir. Ona görə də bu qarışıqlıqdan heç kəs öz məqsədləri üçün istifadə etməsin, - heç bir şey çıxmayacaqdır. 4 oktyabrda bəziləri çalışdılar, lakin bir şey çıxmadı.

Gəlin hər şeyi bir kənara qoyaq, dövlətçiliyimizi, müstəqilliyimizi müdafiə etmək yolunda əl-ələ verərək irəliyə gedək. Mən bütün Azərbaycan xalqını milli birliyə, milli həmrəyliyə dəvət edirəm. Əminəm ki, mənim səsimə milyonlarla adam səs verəcəkdir. Mən əminəm ki, xalq Azərbaycan dövlətçiliyini, Azərbaycan Prezidentini müdafiə edəcəkdir. Mən əminəm ki, xalq, bütün vətəndaşlar bu cinayətkarlara öz nifrətini bildirəcəkdir.

Son olaraq bir də deyirəm: 8-ci Kilometrdə silahlar tezliklə yerə qoyulmalı, hamı öz yerinə getməlidir.

Novruz bayramı ərəfəsində Azərbaycan vətəndaşlarına bir daha sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayır, hər bir vətəndaşa hörmət və ehtiramımı bildirirəm. Bu günlərdə həlak olmuş Azərbaycan vətəndaşlarının ruhunu yad edirəm, onlara Allahdan rəhmət diləyirəm.

Gecəniz xeyrə qalsın. Xoşbəxt günlər naminə! Sağ olun.

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN QORUNUB SAXLANMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident sarayı*
*17 mart 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının dövlətçiliyinin qorunub saxlanması ilə bağlı, eyni zamanda faciəli hadisələrlə əlaqədar mən sizi müşavirəyə dəvət etmişəm. Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda olan mənfi qüvvələr həm respublikadakı havadarlarının təsiri altında, həm də xaricdə olan ayrı-ayrı dairələrin, qüvvələrin - ölkəmizə qarşı təxribatçılıq hərəkətləri aparmaq istəyən şəxslərin göstərişi, məlumatları əsasında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa çalışıblar.

Sizə məlumdur ki, son vaxtlar, son aylar respublikamızda və hətta ölkəmizdən kənarda Azərbaycanda dövlət çevrilişinin gözlənilməsi haqqında şayiələr, söhbətlər, danışıqlar geniş yayılmışdır. Bunlar hamısı Azərbaycanın və xarici ölkələrin mətbuatında, digər informasiya orqanlarında da əksini tapmışdır. Şübhəsiz ki, bu da respublikamızda, insanlarda narahatçılıq törədir, vahimə hissi yaradır, ölkəmizdə mənəvi-psixoloji mühitə mənfi təsir göstərir.

Bunlar hamısı olmuş həqiqətlərdir, sizə məlum olan faktlardır. Axır zamanlar belə söhbətlər gedir, bizə məlumatlar gəlirdi, şayiələr də yayılırdı: deyirdilər fevral ayında, fevral ayı keçəndən sonra mart ayında, ən nəhayət, Novruz bayramı ərəfəsində Azərbaycanda dövlət çevrilişi olacaq. Ölkəmizin qanuni dövləti devriləcək və burada yenidən vətəndaş müharibəsi baş verəcəkdir. Hətta bəzi ölkələrin səfirləri son vaxtlar

mənimlə görüşləri zamanı çox narahatçılıq hissi ilə bu məlumatların yayılması haqqında bildiklərini mənə çatdırır və müəyyən qədər xəbərdarlıq edirdilər.

Bu məlumatlar, xəbərdarlıqlar hamısı prezident kimi mənim tərəfimdən təhlil olunurdu. Şübhəsiz ki, mən bunlara laqeyd baxa bilməzdim. Bunların hamısını nəzərə alırdım. Amma eyni zamanda həmişə, keçmişdə olduğu kimi, xalqın rəyini, əhval-ruhiyyəsini hiss edərək, xalqın dövlətçiliyimizi qorumaq əzmini, Azərbaycan Prezidentini daim müdafiə etdiyini bilərək hesab edirdim ki, bunların heç birisi ya baş verə bilməz, yaxud da baş versə, heç bir nəticə əldə olunmaz.

Çevrilişin gözlənildiyi barədə son vaxtlar Moskva mətbuatında məlumatlar gedirdi, Mütəllibovun, Surət Hüseynovun müsahibələri, ayrı-ayrı müxbirlərin yazıları, qəzetlərdə, başqa informasiya orqanlarında verilən xəbərlər, şübhəsiz ki, respublikamızda aranı qızışdırırdı. Amma təkcə Moskva deyil, başqa ölkələrdə də belə yazılar gedirdi. Nəhayət, son vaxtlar bu hadisələrin, yəni çevriliş əməliyyatının Rövşən Cavadov və onun ətrafında olan Xüsusi Təyinatlı Polis Dəstəsinin gücü ilə aparılacağı bildirilirdi. Təəssüflər olsun ki, Rövşən Cavadov da bir-iki ay bundan əvvəl orada-burada, qəzetlərdə öz müsahibələrində, çıxışlarında bu fikirləri birbaşa, yaxud dolayısı ilə ifadə edirdi. Bizə gələn məlumatlardan görünürdü ki, Rövşən Cavadov öz dairəsində olan adamlarla daha açıq danışıqlar aparır, Azərbaycanda hakimiyyət dəyişikliyi etmək haqqında fikirlərini gizlətmirdi və bunu da bildirirdi. Bu məlumatlar da bizə gəlib çatırdı və biz onları əldə edəndən sonra müəyyən təhlillər aparıb lazımi tədbirlər görməyə çalışırdıq ki, bu hadisələrə yol verilməsin.

Rövşən Cavadov son vaxtlar ayrı-ayrı siyasi qüvvələrin, qrupların əlində, demək olar ki, bir alətə çevrilmişdi. O, guya böyük bir hərbi gücə malik olduğuna görə ayrı-ayrı qüvvələr bundan istifadə etməyə çalışmış, onu qızışdırmış, bəzi siyasi

oyunlara sövq etmişdilər. O, gah gənclər təşkilatı yaradıb, gah bir xeyriyyə cəmiyyətinə rəhbərlik edib, gah başqa işlərlə məşğul olub - hər halda öz işi ilə məşğul olmayıbdır. Ona rəvac verənlər, qızışdıranlar, havadarlıq edənlər, onu maliyyələşdirənlər - bunlar hamısı göz qabağında idi. Təəssüflər olsun ki, həmin mafioz qruplardan savayı, bu işlərə ayrı-ayrı siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri də qoşulmuşdu. Dediyim kimi, respublikamıza qarşı düşmənçilik mövqeyi tutan Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev və başqaları da bundan müxtəlif yollarla istifadə etməyə çalışmışlar.

Bunları nəzərə alaraq, - keçən dəfə televiziya ilə müraciətimdə də dedim, - Türkiyənin Azərbaycandakı səfiri hörmətli Altan Karamanoğlunun verdiyi məlumatlardan sonra, onun təklifi ilə və Rövşən Cavadovun, doğrudan da, nəsə edə biləcəyini hiss edərək mən onu yanıma dəvət etdim. Hesab etdim ki, əgər o, əyri yoldadırsa ona müəyyən məsələləri başa salmaq lazımdır. Ancaq o, birinci dəfə də, ikinci dəfə də təyin olunan vaxtda gəlmədi. Sonra o öz ətrafında bu dəvətlər haqqında cürbəcür mənfi söhbətlər aparmışdır. Bunlar hamısı məlumdur. Nəhayət, martın 12-dən 13-nə keçən gecə Qazax və Ağstafa rayonlarında həmin bu XTPD, Rövşən Cavadov və onun ətrafında olan banda tərəfindən dövlət çevrilişinə cəhd göstərilmişdir. İndi kim bunu necə ifadə edir, ona necə qiymət verir - bu onun öz işidir, ancaq dövlət çevrilişinin buynuzu olmur ki! Əgər silahlı qüvvələr tərəfindən rayonda dövlət hakimiyyət orqanları zəbt edilibsə, onların fəaliyyəti dayandırılıbsa, polis orqanı zəbt olunubsa, bütün polis işçiləri tərksilah ediliblərsə, dövlətin silahları ayrı-ayrı adamların əlinə keçibsə, rabitə ələ keçirilibsə, - demək, bu rayonda dövlət hakimiyyəti devrilib: Qazaxda da, Ağstafada da belə olmuşdur. Biz bu məsələyə də yenə soyuqqanlılıqla, təmkinlə yanaşdıq, məsələni araşdırıb lazımi tədbirlər görməyə çalışdıq. Bunu mən

martın 15-dəki müraciətimdə demişəm, indi təkrar etməyə ehtiyac yoxdur. Ancaq bir həqiqət aydındır ki, Qazax, Ağstafa rayonlarında dövlət çevrilişinə cəhd başlanmış və həyata keçirilmişdi. İndi artıq məlum olan planlara görə o, davam edib digər rayonları da əhatə etməli və Bakıya gəlməli idi, yaxud Bakıda da bu çevriliş başlanmalı idi. Biz bunu hiss etdik və gördük.

Bizim iki gün ərzində məsələni sülh yolu ilə yatırtmaq və onun qarşısını almaq üçün gördüyümüz tədbirlər nəticə vermədi. Martın 13-dən 14-nə keçən gecə həmin silahlı dəstə öz niyyətini yerinə yetirmək üçün - yəni Tovuz, Gəncə bölgələrini zəbt etmək üçün Tovuzda olan hərbi hissəyə hücum etdi, döyüş başlandı və bu döyüş nəticəsində o banda darmadağın oldu. Orada olan itkilər və bizim çətinliklərimiz sizə məlumdur. Bu gün artıq sizə deyə bilərəm ki, həmin bu bandanın üzvləri - orada deyirdilər ki, XTPD-nin cəmi 60 nəfər üzvü var, lakin onlar kənardan da adamlar cəlb edib silahlandırmışdılar - 160 nəfər həbs olunmuşdur.

Görürsünüz, bir qrup, bir neçə adam - ola bilər 10-15, 20-25 adam cinayət edərək nə qədər adamı dartıb bu cinayətə gətirib çıxarmışdır. Qeyd etdiyim kimi, biz bunun qarşısını aldıq. Ancaq bütün bu işlərə rəhbərlik edən Rövşən Cavadov öz niyyətlərindən əl çəkmədi. O, Qazaxa getmişdi ki, guya bu işlərin həll olunmasına kömək etsin. Kömək etmədi. Əksinə, orada aranı daha da qızışdırdı. Ondan sonra gəlib burada, 8-ci Kilometr qəsəbəsində XTPD-nin bazasında bu dəstəni qızışdırıb, silahlandırıb dövlət çevrilişi etməyə hazırladı. Bunların hamısını görərək və qarşıdakı təhlükəni, respublikamızda yenə də dövlət çevrilişi cəhdi baş verə biləcəyini hiss edərək mən martın 15-də televiziya ilə xalqa müraciət etdim. Müraciət məlumdur. Mən orada bütün prosesləri təhlil etdim. Müraciətimin əsas məqsədi ondan ibarət idi ki, Rövşən Cavadova, onun dəstəsinə və respublikamızın içindən, xaricindən

ona havadarlıq edən, onu istiqamətləndirən, ona güc verən, bu işlərə sövq etdirən qüvvələrə başa salım ki, Azərbaycanı dağıtmaq, qan tökmək daha bəsdir. Bunlardan əl çəkmək, Azərbaycanın dövlətçiliyini qorumaq lazımdır. Azərbaycan xalqı artıq öz dövlətçiliyini qiymətləndirməlidir, bunu anlamalıdır və bunun nə qədər böyük sərvət olduğunu bilməlidir və hər bir vətəndaş bu sərvətin qorunmasına öz payını verməli, öz xidmətini göstərməlidir.

Deyə bilərəm ki, bizə, mənə gələn teleqramlardan, məktublardan, telefon zənglərindən və bu iki günün içərisində ictimaiyyətimizdə gedən proseslərdən məlum olur ki, mənim bu müraciətim xalq tərəfindən böyük rəğbətlə və hörmətlə qarşılanıbdır. Azərbaycan Prezidentinin xarici və daxili siyasəti, onun fəaliyyəti və irəli sürdüyü vəzifələrin hamısı xalqın əksəriyyəti tərəfindən bəyənilibdir. Bu günlər respublikanın şəhərlərində, rayonlarında, əmək kollektivlərində keçirilən yığıncaqlar, mitinqlər, gedən danışıqlar, müsahibələr, yazılar - hamısı onu göstərir ki, xalq həmrəydir, dövlətçiliyi qorumaq əzmindədir və Prezidenti müdafiə edir.

Mən güman edirdim, şübhəsiz, buna ümid bəsləyirdim ki, bütün bunlar azğınlaşmış, mənəviyyatını itirmiş insanları müəyyən qədər oyada bilər, onlara təsir edə bilər, onlar bunu anlaya bilərlər. Bir halda ki, insanlar, hörmətli adamlar, əmək kollektivləri, ağsaqqallar mitinqlər keçirir, çıxışlar edirlər, teleqramlar verirlər, televiziya və radio ilə öz fikirlərini deyirlər - onlar buna biganə qalmamalıdırlar. Mən bütün bunlardan həmin azğınlaşmış adamlara ictimaiyyətin təsiri kimi istifadə etməyə çalışdım. Ümidvar idim ki, bu öz nəticəsini verəcəkdir.

Ancaq təəssüflər olsun ki, bu, istənilən nəticəni vermədi. Müraciətimlə yanaşı, mən bəzi başqa tədbirlər də gördüm, bəzi vasitələrlə XTPD-nin adamlarına çatdırdım ki, əgər onlar bu əməllərindən əl çəksələr - bunu öz müraciətimdə də dedim, - onlar əfv olunacaqlar, mən hətta onlara bundan da ar-

tıq bəzi vədlər verdim ki, işlə təmin olunacaqlar, onlara qayğı göstəriləcək. Lakin bütün bunları anlamadılar, başa düşmədilər.

Bilirsiniz ki, mən dünən bir fərman verdim. Bu fərmanın məqsədi ondan ibarətdir ki, XTPD-də olan adamları bir də başa sala bilim ki, onlar cinayətlərindən əl çəksələr sakit yaşayacaqlar və hətta cinayət etdiklərinə görə məsuliyyətə alınmayacaqlar. Mənim bu fərmanım dünən axşam televiziya ilə oxundu. Həmin XTPD-nin içərisində sağlam ruhlu adamlar çoxdur. Oradan mənə belə təkliflər, xahişlər gəlmişdir ki, "bizim əksəriyyətimiz buradan çıxmaq istəyirik. Sizin çağırışınızı qəbul edirik, müraciətinizə səs veririk. Ancaq burada yaranmış mənəvi-psixoloji mühit - bir tərəfdən bizə olan təzyiq, zorakılıq, ikinci tərəfdən özümüzdə olan qorxu bizə imkan vermir. Ona görə də sizin bu müraciətinizi və əfv haqqında bəyanatınızı bir hüquqi sənədlə də ifadə etsəniz, biz bu addımları ata bilərik". Bu müraciətləri nəzərə alaraq mən dünən belə bir fərman verdim.

Həmin bu XTPD-nin komandiri Nizami Şahmuradov və onun müavini Cəfərov dünən xahiş etdilər ki, onları qəbul edim. Baxmayaraq ki, günahkardırlar, onlar özləri çox cinayətlər ediblər - mən onları qəbul etdim. Uzun-uzadı söhbətlər apardım. Xeyli vaxt sərf edərək onları başa salmağa çalışdım ki, siz çox pis yola düşmüsünüz, cinayət etmisiniz. Bu yoldan çəkinin. Siz komandirsiniz, gedin onları başa salın, anladın. Doğrudur, onlar bu danışıqlarda "Biz Prezidenti dəstəkləyirik, Prezidentin tərəfdarıyıq, biz siyasətə qarışmırıq, siyasət adamı deyilik" və sair sözlər söylədilər. Ancaq bir həqiqət şəxsən mənə əvvəl də məlum idi və bu günlər daha da dəqiq məlum oldu ki, Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov mafioz hərəkətləri ilə və eyni zamanda mafioz qruplarla olan əlaqələri ilə həddindən artıq vəsait əldə edib, bu insanların bəzilərinə xeyli pul və başqa vəsaitlər verməklə, ikinci tərəf-

dən isə hədələyib qorxutmaqla bunları öz təsiri, tabeliyi altında saxlamış, demək olar ki, qul, özlərinin əlində alət etmişlər.

Mən dünən Nizami Şahmuradov və Cəfərovla danışığımda bunu bir daha hiss etdim. Mən onlara anlatdım ki, siz gəncsiniz, ayılın, başa düşün ki, bir, iki, üç adamın zoru altında, yaxud onun sizə verdiyi qeyri-qanuni maddi imtiyazlar, başqa şeylərlə əlaqədar bu cinayət yolu ilə gedirsiniz, bunun axırı yoxdur. Mən bunu da etdim.

Dünən axşam bizim hörmətli xalq şairimiz Bəxtiyar Vahabzadə mənə telefon etdi, narahatlığını bildirdi və dedi ki, mən nə edə bilərəm? Mən ona dedim ki, siz hər şeyi görürsünüz. Əgər Azərbaycan xalqı bu gün cinayətkar adamların əlinə düşüb, onların iradəsi altında yaşayacaqsa, mən hesab edirəm ki, bu xalqın artıq axırı gəlib çatıb. Siz bunları, bu prosesləri görürsünüz və mənim müraciətimi eşitmisiniz. Hərə öz sahəsində öz işini görsün. O da ürək ağrısı ilə dedi ki, bəli, bunlar hamısı məni incidir, ürəyimi ağrıdır və çox narahat edir. O dedi ki, mən öz tərəfimdən lazımi tədbirlər görərəm.

Yəni, martın 15-dəki müraciətimdən sonra apardığımız işləri də sizə deyirəm və bu işlər də məhz onunla əlaqədardır ki, məsələləri sülh yolu ilə yatırdaq, cinayətkarları bu cinayət yolundan çəkindirək, respublikamızın dövlətçiliyini qoruyaq, ictimai-siyasi sabitliyi təmin edək və onun pozulmasına yol verməyək.

Ancaq bunlar nəticə vermədi. Bu günlər bizə ciddi məlumatlar gəlirdi ki, Rövşən Cavadov artıq dövlət çevrilişi etməyə hazırlaşıb və bunu həyata keçirəcəkdir. Rövşən Cavadov da bunu gizlətmirdi. Keçən il oktyabrın əvvəlində olduğu kimi, son günlər bu XTPD haqqında məlumat yayılandan sonra ayrı-ayrı mafioz adamlar, cürbəcür siyasətbazlar, guya siyasətlə məşğul olan adamlar başladılar ora axışmağa, onunla danışıqlar aparmağa. Bundan bəlkə hərə öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Şübhəsiz, xarici ölkələrin, respublika-

mızın müxbirləri də ora getdilər, onun fikirlərini bilmək istədilər. O, açıq-aydın müsahibələr verirdi. Siz bunları artıq bilirsiniz, bunlar mətbuatda da dərc olunub. Moskva televiziyası bunu həddindən artıq şişirdilmiş şəkildə veribdir. Rövşən Cavadov başqa ölkələrin televiziya və mətbuat orqanlarında da öz niyyətlərini açıqca deyirdi və yenə də bildirirəm ki, bu, nəinki mətubatda dərc olunub, hətta onun verdiyi müsahibələr barədə yazılar bizə də gəlibdir.

Bəli, o deyirdi ki, Azərbaycan Respublikasının rəhbərliyini zorakılıqla dəyişdirmək istəyir, vətəndaş müharibəsindən də çəkinməyəcək, vətəndaş müharibəsi olacaq. Hakimiyyəti ələ keçirmək, siyasi şura yaratmaq, bu şuraya rəhbərlik etmək istəyir və ayrı-ayrı partiyaların nümayəndələrini həmin siyasi şuraya dəvət edəcəkdir. Cürbəcür belə sözlər, çağırışlar, açıq bəyanatlar verirdi. Yəni bu, gizli məlumatlar deyildi. O öz fikirlərini açıq-aydın bildirirdi.

Yəqin ki, bu elə onun öz şəxsiyyətinə xas olan bir şeydir və ona görə də təəssüf etməyə də ehtiyac yoxdur. Çünki görünür, o bu cür tərbiyə almış və bu tərbiyənin sahibidir. Dövlətçilik haqqında, Azərbaycanın prezidenti haqqında, başqa vəzifəli şəxslər haqqında çox çirkin, təhqiramiz sözlər deməkdən də çəkinməmişdir. Hətta dünən və ya srağagün axşam Moskvanın hansı proqramındasa verirdilər, - o deyirdi ki, "Azərbaycanda real qüvvə məndə - Rövşən Cavadovdadır. Yəni, dövlət hakimiyyətində, Azərbaycan Prezidentində deyil, bu qüvvəyə mən malikəm. Ona görə də bu qüvvə ilə mən Azərbaycanda dövləti dəyişdirəcəyəm".

Bu bəyanatların nə qədər təhlükəli, ağrıdıcı olmasına baxmayaraq, şəxsən mən onlara çox soyuqqanlılıqla, çox səbrlə yanaşırdım və hesab edirdim ki, onlar heç bir nəticə verməyəcəkdir. Dünən bizə məlumatlar gəldi ki, orada dövlət çevrilişinin planı, dörd əməliyyat qrupu hazırlanıb, onların qarşısına vəzifə qoyulubdur: biri Prezident Sarayını zəbt

etmək, Azərbaycan Prezidentini ya öldürmək, ya həbs etmək, ikincisi Ali Soveti zəbt etmək, üçüncüsü Azərbaycan milli televiziyasını zəbt etmək, dördüncü qrup respublika Daxili İşlər Nazirliyini zəbt etmək üçün ayrılmışdı.

Bunların icraçıları da artıq məlum idi. Bu tədbirin necə həyata keçirilməsi də aydın idi. Şübhəsiz ki, biz bunlara biganə qala bilməzdik, öz tədbirlərimizi görürdük. Bildiyiniz kimi, XTPD-nin bazasında onlar o silahları yerləşdirmişdilər və orada çox narahat hərəkətlər edirdilər. Bundan əlavə, onun ətrafında olan hər bir binanın damında iriçaplı və başqa növ silahlarla silahlanmış 15-20 nəfər adam da qoymuşdular. Bütün o meydan, məhəllə silah altında yaşayırdı. Bu, 5-6 evin üstündə idi. Gedənlər görmüşdülər.

Bütün bunlar onu göstərdi ki, bəli, onlar həqiqətən bu işə hazırlaşırlar. Bunları nəzərə alaraq biz o məhəlləni hərbi hissənin gücü ilə müəyyən qədər mühasirəyə almağa çalışdıq ki, oraya giriş-çıxışa nəzarət olunsun, əgər onlar bir hərəkət edərlərsə, biz onun qarşısını ala bilək. Bizim o hərbi qüvvəmiz o qədər də böyük deyildi, sadəcə olaraq, orada vəziyyətə nəzarət etmək məqsədilə qoyulmuşdu.

Bu gecə təxminən saat 2 radələrində XTPD üzvləri artıq hücuma başladılar, atəş açdılar, birinci atəşlə bizim dörd əsgərimizi öldürdülər. Ondan sonra həmin planlarını həyata keçirməyə başladılar. Şübhəsiz ki, onlar bunun üçün orada olan hərbi qüvvələri ləğv etməli, məhv etməli idilər.

Əsgərlərimiz, Silahlı qüvvələrimizdə xidmət edən zabitlərimiz, ordu dəstələri şücaət, mərdlik, müqavimət göstərdilər və böyük döyüş başlandı. Bu döyüş təxminən gecə saat 4-də çox şiddətləndi və saat 11:30-a, yaxud 11:40-a qədər davam etdi. Döyüş çox kəskin oldu. Onlar azğıncasına, vəhşicəsinə hərəkət etdilər. Əllərində olan böyük silahlardan atəş açdılar. Şübhəsiz ki, Azərbaycanın dövlətçiliyini qoruyan hərbi hissə də onlara qarşı atəş açdı.

İtkilər var, yaralananlar var. Böyük qan tökülüb. Bu bizim üçün faciədir. Həmin bu əməliyyatlara başçılıq edən Rövşən Cavadov səhərə yaxın yaralanıb, sonra Daxili İşlər Nazirliyinin qospitalına gətirilib, orada ölüb. Onun qardaşı Mahir Cavadov öz evində iki gün böyük bir quldur dəstəsi ilə mühafizə olunaraq - Daxili İşlər Nazirliyinin əməkdaşları onu cinayətlərinə görə həbs etmək istəmişlər, orada müqavimət göstərmişdir. 5-6 polis nəfərini yaralamışdır, - oradan qaçıb bazaya girmişdi. Onun indi harada olduğu məlum deyil. O biriləri haqqında da mənim məlumatım yoxdur və bugünkü danışıq üçün bu əsaslı deyil.

Hər halda, nəhayət, Rövşən Cavadov və onun himayəsində olan dəstələr uzun müddət ayrı-ayrı qüvvələrin təsiri altında, bu qüvvələr tərəfindən istiqamətləndirilərək Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, dövlətçiliyimizə qəsd etmək niyyətlərini son dərəcədə həyata keçirməyə çalışdılar, ancaq buna nail ola bilmədilər. Azərbaycanın mərd, cəsur əsgərləri respublikamızın müstəqilliyinin, dövlətçiliyinin keşiyində duran Azərbaycan övladları onların cavabını verdilər, respublikamızın dövlətçiliyini, müstəqilliyini qorudular. Ancaq təəssüf ki, böyük itkilər oldu və böyük qan töküldü.

Mən bunu, qan töküləcəyini görürdüm. Ona görə əvvəllər də və xüsusən, martın 15-də xalqa müraciət edəndə də dəfələrlə dedim ki, artıq bəsdir, qan tökmək lazım deyil. Ancaq bu insanlara nə qardaş qanı, nə millət qanı, nə xalq qanı əzizdir. Öz çirkin niyyətləri, əməlləri onlar üçün hər şeydən üstündür, özləri də bu çirkin əməllərinin qurbanı oldular.

Azərbaycanın dövlətçiliyini, müstəqilliyini, suverenliyini, xalqın həyatını qoruyaraq həlak olmuş döyüşçülərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş edirəm.

Allah onlara rəhmət eləsin!

Mən çıxışımın əvvəlində dedim, bu gecəki hadisə bir tərəfdən Azərbaycan dövlətinin qüdrətini, onun iradəsini bü-

tün düşmən qüvvələrə - Azərbaycanın içində də, xaricində də olan qüvvələrə nümayiş etdirdi. Bu, Azərbaycan xalqının, müstəqil respublikamızın tarixində əlamətdar bir hadisədir, haldır və mən bunu yüksək qiymətləndirirəm.

Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin qorunması uğrunda xidmət göstərmiş döyüşçülərimizin hamısına, vətəndaşlarımıza öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Bütün bu işlərdə Müdafiə Nazirliyinin zabitləri, əsgərləri, Daxili İşlər Nazirliyinin, xüsusi idarənin, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları iştirak etmişlər. Ancaq bu qiyamın, dövlət çevrilişinin qarşısının alınmasında Müdafiə Nazirliyi zabitlərinin, generallarının, əsgərlərinin və müdafiə naziri Səfər Əbiyevin, baş qərargahın rəisi Nəcməddin Sadıqovun xidmətlərini xüsusi qeyd edirəm və onlara təşəkkür edirəm.

Bizim orada döyüşən qəhrəman zabitlərimiz çoxdur. Həlak olanlar da və axıra qədər döyüşüb dövlətçiliyimizi qoruyanlar da var. Bunların hamısı qeyd olunacaqdır. Onların hamısı Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə mükafatlandırılacaqdır. Ancaq orada bilavasitə döyüş aparanlardan alay komandiri Rövşən Əkbərovun, batalyon komandiri Ağayevin xidmətlərini xüsusi qeyd edirəm. Güman edirəm ki, burada ayrı-ayrı familiyaları çəkməyə daha ehtiyac yoxdur. Bizim bu müşavirəmiz ümumi siyasi xarakter daşıyır. Mən bəyan edirəm ki, heç kəs unudulmayacaq, hər kəsin xidməti qeyd olunacaqdır.

Görürsünüz, həyatınızın ziddiyyətləri necədir. Bir tərəfdə Azərbaycana, onun dövlətinə, müstəqilliyinə sədaqətlə xidmət edən gənc, qəhrəman övladlarımız, əsgərlərimiz, zabitlərimiz, ordumuz; ikinci tərəfdə isə Azərbaycan xalqına xəyanət edən, müstəqilliyimizi pozmaq, respublikamızı yenidən vətəndaş müharibəsinə sürükləmək, Azərbaycanı parçalamaq istəyən düşmən qüvvələr. Onlar bizim içimizdə və xaricdədir.

Görünür ki, bu da həyatımızın gerçəkliyidir. Biz bunu bilməliyik və bunları bilərək öz işimizi qurmalıyıq.

Bir sözlə, bu gecə, yəni martın 16-dan 17-nə keçən gecə Azərbaycanda güclü dövlət çevrilişi cəhdi meydana çıxdı və onun qarşısı məharətlə, cəsarətlə, dövlətin qüdrəti ilə alındı. Dövlət çevrilişinə bu cəhd keçmişdə olan cəhdlərin davamıdır.

Bu, bilavasitə 1994-cü il oktyabrın əvvəlindən başlanmış dövlət çevrilişi cəhdidir. Mən martın 15-də xalqa müraciətimdə bunu qeyd etdim. O vaxt da dövlət çevrilişini Surət Hüseynovla bərabər, əl-ələ Rövşən Cavadov hazırlayırdı, onun ətrafında olan quldur dəstələri hazırlayırdı və o vaxt da, o ərəfədə - sentyabr ayında, hətta avqust ayında Azərbaycan mətbuatında da, xarici mətbuatda da çevrilişin hazırlanması, gözlənilməsi barədə yazılar verilirdi. Surət Hüseynovun, Rövşən Cavadovun adları həmin yazılarda var idi.

Xatirinizdədir, mən Amerika Birləşmiş Ştatlarına, BMT Baş Məclisinin sessiyasına yola düşərkən İstanbulda dayandım. Orada mətbuat nümayəndələri böyük bir həyəcan hissi ilə mənə sual verdilər və qəzetlərdə də böyük şriftlərlə yazılmış məqalələr göstərirdilər ki, Azərbaycanda çevriliş gözlənilir, bu çevrilişi Rövşən Cavadov, Surət Hüseynov edəcəklər. Orada bir neçə başqa familiya da yazılmışdı.

O vaxt bunlar hamısı bir yerdə idi. Həmin o dövlət çevrilişi cəhdi oktyabrın 4-də özünü büruzə verdi. O, oktyabrın əvvəlində başlanmışdı, Rövşən Cavadovun, onun qardaşı Mahir Cavadovun Azərbaycan Respublikası Prokurorluğunu zəbt edib orada qeyri-qanuni, cinayətkar hərəkətlər etməsindən başlanmışdır. O günlər xatirimizdədir. Biz o günləri necə əzab-əziyyətlə keçdik və bizə nə qədər müdriklik, səbrlilik lazım idi ki, bu məsələlərin inkişaf etməsinə yol verməyək.

Ancaq bu hadisələr inkişaf etdi, oktyabrın 4-də çevriliş Gəncədən başlandı. Mənim xalqa müraciətim Rövşən Cava-

dovu məcbur etdi ki, geriyə çəkilsin. Amma onlar bir idilər, bizə məlumdur. Artıq mən bunu deyə bilərəm, o vaxt isə demək istəmirdim. Mən o vaxt istədim ki, Rövşən Cavadovu və onun yanında olanları gənc adamlar kimi, bu məsələləri bəlkə başa düşmədiklərinə, anlamadıqlarına görə bunlardan ayıram, onlara güzəşt etdim, onları bağışladım. Onunla söhbətlər apardım, başa saldım ki, bu yoldan çəkil. Ona görə də mən o vaxt bir neçə faktı demədim. Ancaq bu fakt məlum idi ki, respublika prokurorluğu zəbt olunanda Rövşən Cavadov Surət Hüseynova telefon etdi və bildirdi ki, "mən prokurorluğu götürdüm, siz də gedin Ali Soveti və Prezident Aparatını götürün". Ondan sonra bir daha prokurorluqdan, baş prokurorun kabinetindən telefon edib Surət Hüseynova demişdi ki, "biz hərəkət etmişik, siz niyə gecikirsiniz?"

Başqa sübutlar və dəlillər də var. Bunların hamısını istintaq açacaqdır. Ən nəhayət, oktyabrın 4-də mən televiziya ilə xalqa birbaşa müraciət edəndən sonra yüz minlərlə adam Prezident Aparatının qarşısına toplaşan zaman Rövşən Cavadov buraya gəldi, prezidentin yanında olduğunu göstərməyə çalışdı. Ancaq məlumdur ki, həmin bu binadan o, telefonla Gəncə ilə danışdı, orada olan Səfixanova və başqalarına bildirdi ki, "biz fəaliyyətimizi dayandırdıq, siz də dayandırın, artıq geriyə çəkilirik". Bunların hamısı bu məqsədləri onların bir yerdə hazırladıqlarının sübutudur. İstintaqda başqa sübutlar da var.

Mən bunları, sadəcə olaraq, açmaq istəmirdim. Çünki mən istəyirdim ki, Rövşən Cavadovu və onun yanında olan adamları tərbiyə edim, onları bu cinayət əməllərindən uzaqlaşdırım. Ancaq mümkün olmadı. Ona görə ki, görünür, bu insanın, gənc adamın təbiəti belə imiş. Ona görə ki, bu adam və onun qardaşı uzun illər Azərbaycanda azğınlıq ediblər, çox cinayət işləri görüblər və onların qarşısı alınmayıb. Ayrı-ayrı dairələr, ayrı-ayrı vəzifəli adamlar onlara havadarlıq ediblər, onları maliyyələşdiriblər, cinayətlərinin üstünü örtüblər. Bəzi-

ləri qorxub, bəziləri onlardan istifadə edib. Beləliklə onlar qudurublar.

Xatirimdədir, 1993-cü ilin iyun ayında Əbülfəz Elçibəy məni Bakıya dəvət edəndə mən onunla söhbət etdim. Gərək ki, bu söhbətdə Rəsul Quliyev də iştirak edirdi. Bəzi adamlardan söhbət düşdü. Gördüm ki, Əbülfəz Elçibəy çox böyük əzab-əziyyətlə deyir ki, bu Cavadov qardaşları nə qədər böyük cinayətlər edirlər. Eyni zamanda mən hiss etdim ki, bu adam nə qədər acizdir. Cinayətləri görür, ürək ağrısı ilə deyir, ancaq qarşısını ala bilmir. Niyə? Çünki onlar artıq çərçivədən çıxmışdılar və başqa-başqa dairələrdən o qədər idarə olunurdular ki, görünür, Əbülfəz Elçibəy də burada heç bir iş görə bilməmişdi.

Bir sözlə, yenə də deyirəm, görünür, pozulmuş mənəviyyatları onları belə bir axıra gətirib çıxartdı. Bu da tamamilə qanunauyğundur. Təbiidir. Belə də olmalı idi. Ancaq millətimizə, cəmiyyətimizə, dövlətimizə onlar nə qədər zərbələr vurur, işimizi ləngidir, pozur - bunlar hamısı göz qabağındadır. Bir sözlə, bu çevriliş cəhdi oktyabrdakı dövlət çevrilişi cəhdinin təbii davamıdır və hamısı bir kompleksdir.

Artıq məlumdur ki, bunlar Moskvada yerləşmiş Mütəllibov, Surət Hüseynov, gah Moskvada, gah da deyirlər Azərbaycanda olan Rəhim Qazıyev və onlar kimi adamlar tərəfindən, habelə xarici ölkələrdəki ayrı-ayrı dairələr, Azərbaycandakı ayrı-ayrı mafioz qruplar tərəfindən idarə olunurlar. Təəssüf ki, Azərbaycanda da bəzi siyasi partiyalar, ictimai-siyasi təşkilatlar bu cür adamlardan, quldur dəstələrindən istifadə edir, öz hakimiyyət iddialarını yerinə yetirməyə çalışırlar. Təsadüfi deyil ki, bu son günlərdə Rövşən Cavadovun hərəkətlərinə o partiya ordan, bu partiya burdan müraciət verdi, bəzi partiyalar guya bizimlə onların arasında vasitəçilik etmək istədilər. Hətta bəzi təşkilatlar, partiyalar (ola bilər məndən sonra çıxış edənlər bunları desinlər) ümid bəslədilər ki, bəli, bu gün

bizim haqqımızda bəyanat verəcək, biz bundan istifadə edəcəyik, sabah o birisinin haqqında bəyanat verəcək, - istifadə edəcəyik. Bunlar hamısı onu göstərir ki, guya müxalifətdə duran həmin bu bəzi partiyalar üçün də dövlət, xalq, millət qiymətli deyil. Ancaq öz şəxsi hikkələri, niyyətləri, çirkin hərəkətləri qiymətlidir.

Demək, bu mənfi qüvvələrin hamısının birləşməsi gətirib Rövşən Cavadov kimi bir amilin meydana çıxmasına səbəb oldu. Hesab edirəm ki, bu, nəinki bugünkü Azərbaycan üçün böyük bir təhlükə idi, həm də respublikamızın sabahı, gələcəyi üçün təhlükə idi. Çünki bu dəstə, bu qrup, böyük silahlara malik olan, çox böyük cinayətlər etmiş və çox böyük cinayətlər etməyə hazır olan adamlar, şübhəsiz, Azərbaycanı dağıtmağa qadir idilər. Onlar başqa vaxt da dağıda bilərdilər. Necə ki, 1993-cü ilin iyun ayında o birisi qrup dağıtdı, onlardan da çox dağıda bilərdilər. Ancaq mən yenə də məmnuniyyət hissi ilə deyirəm ki, Azərbaycan dövləti artıq özünü qorumağa qadirdir, gücü də, iradəsi də və bütün imkanları da var. Azərbaycan öz dövlətçiliyini, müstəqilliyini bundan sonra da qoruyub saxlayacaqdır.

Şübhəsiz ki, bütün bunlardan nəticə çıxarmaq lazımdır. Bu gecə bizim həyatımızda böyük faciə baş verib, insanlar tələf olub, qan tökülüb. Binalar dağılıbdır. Bu məhəllədə böyük atəşlər açılıbdır. Bir neçə gün bundan qabaq bu hadisələr Tovuzda, Qazaxda baş veribdir. Ancaq güman edirəm ki, biz artıq bunlara son qoyuruq. Bu itkilərimiz, çətinliklərimiz, bizə vurulan maddi və mənəvi zərbələr nə qədər ağır olsa da, eyni zamanda onu göstərir ki, Azərbaycanda sabitlik saxlanılır, qorunur və bunu pozmaq heç də mümkün deyil.

Mən sizə deyim ki, bu son günlərdə respublikamızda yaranmış vəziyyət Azərbaycanın beynəlxalq aləmdə imicinə, nüfuzuna çox mənfi təsir göstərməyə başladı. Ayrı-ayrı ölkələrdə öz diplomatik missiyalarına göstəriş verdilər ki, onların

əməkdaşları buradan çıxıb getsinlər. Bəzi ölkələrdən buraya gəlməyə hazırlaşan adamlar öz səfərlərini dayandırdılar. İş adamları fikirləşməyə başladılar ki, burada iş aparmaq, investisiya qoymaq bəlkə də bundan sonra təhlükəlidir. Bizdə sabitliyin pozulması Azərbaycanın ətrafında olan ölkələri də narahat edirdi.

Türkiyənin hörmətli prezidenti Süleyman Dəmirəl bu müddətdə Pakistandan mənimlə üç dəfə telefon əlaqəsi saxlayıb. Axırıncı dəfə dünən də zəng etdi. Hər dəfə də narahatçılığını bildirirdi. Azərbaycanda sabitliyin saxlanması, dövlətçiliyin qorunması haqqında rəsmi bəyanat verib. Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillər də bu barədə bəyanat verib. ABŞ Dövlət Departamenti bəyanat verib. Başqa ölkələrdən də bəyanatlar gəlir. Burada olan səfirliklərdən narahatçılıq hissi, eyni zamanda bəyanatlar gəlir.

Bunlar hamısı onu göstərir ki, Azərbaycanın beynəlxalq aləmdə tutduğu mövqeyə, onun haqqında yaranmış fikrə addım-addım, qram-qram yığılan imicimizə bu cinayətkarlar bir-iki günün içində nə qədər böyük zərbələr vurublar.

Güman edirəm ki, məsələ artıq hamıya, bütün dünyaya, ölkəyə məlum oldu. Çünki bəzi dairələrdə, təəssüf ki, Moskva televiziyasında bu hadisələrin şərhi şişirdilmiş və qızışdırıcı xarakter daşıyırdı. Bu hadisələrdən qabaq Moskva mətbuatında Mütəllibovun "Azərbaycan böyük dəyişikliklər qarşısındadır, qan töküləcək". Surət Hüseynovun "Azərbaycanda dövlət çevrilişi olacaq, qan töküləcək" məzmunlu müsahibələri verilmişdi. Hətta bir neçə gün bundan qabaq onlar orada bəyanat veriblər - düzdür, mətbuatda bu yoxdur - guya Mütəllibovla Surət Hüseynov hazırlaşırlar ki, bu hadisələr genişlənən kimi gəlsinlər burada hakimiyyətdə iştirak etsinlər. Yaxud, hakimiyyəti ələ alsınlar. Bunlar hamısı puça çıxdı və puça da çıxacaq idi. Mən bunları bilirdim, əmin idim. Ona

görə ki, yenə də deyirəm, mən xalqımıza güvənərək buna əmin idim, öz iradəmə güvənərək buna əmin idim.

Ancaq bütün bunlardan nəticə çıxarılmalıdır. O mənada nəticələr çıxarılmalıdır ki, dövlətimizi qoruyan orqanlar gərək öz işlərini daha yaxşı qursunlar, möhkəmləndirsinlər. Çünki bu günlər əldə olunmuş nailiyyətlərlə yanaşı, bu orqanların işində böyük səhvlər, nöqsanlar da aşkar oldu, meydana çıxdı.

Ümumiyyətlə, hər bir insan, vətəndaş və xüsusən vəzifəli şəxs öz mövqeyini artıq müəyyən etməlidir. Son günlər mənə ordan-burdan xəbərlər gəlirdi: bəzi adamlar oturub fikirləşirlər, külək hansı tərəfə əsir - o tərəfə, bu tərəfə əsir? Mən hansı tərəfdə duracağam, nə təhər eləyəcəyəm? Bəzi adamlar öz qınına çəkilib gözləyirdi ki, nə təhər olacaq, kiminlə birləşəcəyəm, kim gələcək, kim gedəcək? Mən fikirləşirdim: yazıq bu adamlar! Bunlar nə qədər zavallı, nə qədər mənəviyyatsızdırlar ki, indi - Azərbaycan ayağa qalxdığı bir vaxtda da belə fikirlərlə yaşayırlar. Bəziləri bunu istəyirlər, ona görə belə yaşayırlar. Bəziləri yalnız və yalnız özlərini saxlayıb, qoruyub, nəyin bahasına olursa-olsun, kimin hakimiyyətində - hətta Rövşən Cavadov kimi yaramaz bir adamın hakimiyyəti altında olsun, yaşamaq, öz vəzifəsində qalmaq barədə fikirləşiblər. Bunlar hamısı mənəviyyatsızlıq nümunələridir. Buna görə də hər kəs, hər bir vətəndaş bu işlərdən, proseslərdən nəticə çıxarmalıdır, cəmiyyətimizdə öz mövqeyini bildirməlidir, axıradək bir mövqedə durmalıdır.

Siz mənim mövqeyimi bilirsiniz: Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, xalqımızın rifah halı - budur mənim mövqeyim. Azərbaycanın bu bəla vəziyyətindən çıxarılması, respublikamızın demokratiya yolu ilə getməsi, demokratik islahatların aparılması, demokratik seçkilərin keçirilməsi, demokratik konstitusiyanın qəbul olunması - budur mənim mövqeyim. Mən bu mövqeyimlə yaşayıram, bundan sonra da bu mövqe ilə fəaliyyət gös-

tərəcəyəm. Bütün dünyaya bəyan edirəm ki, heç bir qüvvə məni xalq tərəfindən seçilmiş qanuni Azərbaycan prezidenti kimi öz mövqeyimdən çəkindirə bilməz. Bu günlərdə gedən proseslər bunu bir daha sübut etdi.

Bax, bu hadisələr haqqında qısa məlumat və bəzi fikirlər bundan ibarətdir. Hesab edirəm ki, bizim güc nazirliklərinin başçıları bu hadisələr haqqında təfsilatlı məlumatlar versinlər ki, hər şey aşkar olsun. Mən buraya gələn gündən, yəni Azərbaycanda işə başladığım gündən aşkarlıq ruhunda fəaliyyət göstərirəm. Ona görə də buradakı çıxışlar canlı yayımla bütün Azərbaycana göstərilir. Mən xahiş etdim ki, buraya müxbirlər dəvət olunsun, onlar deyəsən burada iştirak edirlər. Xalqdan gizli heç bir şeyimiz yoxdur. Bir prezident kimi mənim xalqdan gizli heç nəyim yoxdur. Hər şeyi açıq deyirəm, sabah da, gələcəkdə də açıq deyəcəyəm. Ona görə də xalqın, əhalinin daha geniş məlumat alması üçün istəyirəm ki, güc nazirlikləri, nazirlər mənim bu çıxışıma əlavə olaraq və yaxud hadisələrin təfsilatını çatdırmaq üçün öz sözlərini desinlər.

## *YEKUN SÖZÜ*

Görürəm ki, çıxış etmək istəyənlər çoxdur. Ancaq bildirmək istəyirəm ki, mənim təxirəsalınmaz çoxlu başqa işim də var. Hesab edirəm ki, artıq baş vermiş olan hadisə, onun səbəbləri və gedən proseslər burada açıq-aşkar bildirildi. Odur ki, mən bir neçə kəlmə ilə bu müşavirəni yekunlaşdırmaq istəyirəm.

Qeyd etmək istəyirəm ki, biz hamımız baş vermiş hadisələrdən nəticə çıxarmalıyıq. Bu hadisələr Azərbaycana müəyyən zərbələr vursa da, bizim üçün yeni dərd, kədər gətirsə də, eyni zamanda, dövlətçiliyimizin möhkəm, qüdrətli olduğunu nümayiş etdirdi və bir daha göstərdi ki, ölkəmizdə, respubli-

kamızda hər bir vətəndaş qanun-qaydaya, konstitusiyaya, insan hüquqlarının qorunmasına riayət etməlidir. Bir daha hamı bilməlidir ki, zor işlətməklə respublikamızda nəyəsə nail olmaq mümkün deyildir. Biz demokratiya yolu ilə gedirik, gedəcəyik, demokratik proseslərin inkişafı üçün hər cür şərait yaradılacaqdır. Lakin zorakılığa, güc işlədilməsinə yol verilməyəcəkdir. Bu, bizim qanunlarımıza, beynəlxalq hüquq normalarına ziddir və biz bunlara yol verməyəcəyik.

Şübhəsiz, heç kəs istəməzdi, mən də istəməzdim ki, öz şəxsi hikkələrini, şəxsi niyyətlərini zor gücünə həyata keçirməyə çalışan adamlar gəlib respublikamızı belə faciəli vəziyyətə salsın və özləri də həm fiziki, həm də mənəvi cəhətdən məhv olsunlar. Amma bu onların öz günahıdır və onlara havadarlıq edənlərin, onları qızışdıranların, onlardan alət kimi istifadə edənlərin günahıdır. Bunları deməklə mən bütün siyasi qüvvələrə, qruplara, partiyalara, təşkilatlara, ayrı-ayrı şəxslərə müraciət və xəbərdarlıq edirəm ki, bu yollardan əl çəksinlər.

Respublikamız ağır keçid dövrünü yaşayır. Dərin iqtisadi-sosial böhran içindəyik. Xalqımızın böyük bir qismi maddi-iqtisadi cəhətdən əzab-əziyyət çəkir. Respublikamızdakı bir milyondan artıq qaçqın bizim üçün böyük bir problemdir. Onların həyat tərzi, yaşayışı bizim üçün böyük bir problemdir. Onların həyat tərzi, yaşayışı bizim diqqət mərkəzimizdədir. Ancaq eyni zamanda onlara lazımi qayğı göstərmək üçün bizə işləməyə imkan vermək gərəkdir. Qeyri-qanuni yollarla zənginləşmiş, qanunu pozan, mənəviyyatımıza zidd həyat tərzi keçirən ayrı-ayrı adamlar düşünməlidirlər ki, xalqın əksəriyyəti ağır vəziyyətdə yaşayır. Ağır vəziyyətdə yaşayanlar o kəslərdir ki, biz müharibə şəraitinə düşdüyümüz vaxtdan indiyədək respublikanın ağırlıqlarını öz üzərlərində aparırlar. Ona görə də bu hadisələr, bu faciə hər bir kəsə, hər bir siyasi qu-

ruma, hər bir ictimai təşkilata, hər bir siyasi partiyaya xəbərdarlıq kimi qəbul olunmalıdır.

Mən bir daha böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xalqımız yenə ağır bir sınaqdan çıxdı. Həm də bu sınaqdan çıxmağa xalqımızın müdrikliyi, milli həmrəyliyi, inamı, dövlətçiliyə hörmət və ehtiramı kömək etdi. Mən Azərbaycanın bütün vətəndaşlarını bir daha həmrəyliyə dəvət edirəm. Azərbaycanın bütün siyasi qurumlarını, təşkilatlarını, partiyalarını bir daha həmrəyliyə dəvət edirəm. Azərbaycanın bu günü və gələcəyi naminə. Əminəm ki, biz bu böyük sınaqdan çıxaraq, respublikada vəziyyəti daha da sabitləşdirməyə və qarşımızda duran vəzifələri həyata keçirməyə nail olacağıq. Mən buna əminəm. Dövlətçiliyə, Azərbaycanın konstitusiyasına, Azərbaycanın hüquqi dövlət qurumuna xalq tərəfindən göstərilən bu dəstək, hörmət və ehtirama görə bütün Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu ağır sınaq dövründə mərdlik və cəsarət göstərənlərə, xalqımızı bu böyük bəladan xilas edənlərə qəlbimdəki ən gözəl hissləri çatdırıb təşəkkürümü, minnətdarlığımı bildirirəm. Milli ordumuza, onun əsgərlərinə, zabitlərinə, hüquq-mühafizə orqanlarında fəaliyyət göstərən sədaqətli əməkdaşlara və bu ağır günlərdə çox zəhmət, əziyyət çəkmiş dövlət orqanlarına, vətəndaşlarımıza təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu günlərdə respublikamıza böyük maraq göstərmiş, dövlətçiliyimizin qorunması sarıdan narahat olmuş və bizi dəstəkləmiş xarici ölkələrin rəhbərlərinə, onların diplomatik nümayəndəliklərinə, səfirliklərinə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu faciəli gündə Azərbaycanın dövlətçiliyini qoruyaraq, cəsurluq göstərib şəhid olanların xatirəsini yad edirəm, onlara allahdan rəhmət diləyirəm, ailələrinə başsağlığı verirəm, on-

lara tanrıdan səbr diləyirəm. Onlar əmin ola bilərlər ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini heç vaxt unutmayacaqlar. Şəhidlərin xatirəsi əbədiləşdiriləcək və ailələri daim dövlətin qayğısı ilə əhatə olunacaqlar.

Mən hesab edirəm ki, bu gün biz irəliyə daha inamla, nikbinliklə baxa bilərik. Qarşımızdakı planların həyata keçirilməsi üçün daha sərbəst fəaliyyət göstərə bilərik və əminəm ki, bizim gələcəyə doğru yolumuz uğurlu olacaqdır.

Hamınıza təşəkkür edirəm və bununla da bugünkü görüşü sona çatdırıram. Sağ olun.

## *MÜŞAVİRƏDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB*

**Sual: Gələcəkdə bu cür dövlət çevrilişi cəhdlərinin təkrar olunmaması üçün siz Azərbaycan dövlətçiliyini, dövlətin təhlükəsizliyini möhkəmləndirmək üçün nə etmək fikrindəsiniz?**

**Cavab:** Bilirsiniz, çox tədbirlər görmək lazımdır, özü də bunlar birdəfəlik tədbirlər olmamalıdır. Dövlət orqanlarımızı, dövlətçiliyimizi möhkəmləndirmək üçün daim işləmək lazımdır. Baş verən hadisə bizdən ötrü fəlakət, faciə olsa da, zənnimcə, o, eyni zamanda sübut edir ki, biz dövlətçiliyimizi möhkəmləndirməyə qadirik.

**Sual: İkincisi, deyirlər ki, bu günlər siz aparıcı xarici dövlətlərin rəhbərləri ilə dövlətlərarası səviyyədə gərgin danışıqlar aparmısınız. Bu barədə bir qədər danışın. Sizi necə dəstəkləmişlər?**

**Cavab:** Kiminlə görüşmüşəmsə, kiminlə danışmışamsa hamı bizi dəstəkləmişdir. Hamı narahat olduğunu bildirmişdir. Hamı bir şey istəyirdi: respublika bu çətin günləri, bu çə-

tin dövrü aradan qaldırsın. Allaha şükür ki, biz bunları aradan qaldırdıq, baxmayaraq ki, zərər böyükdür, qurbanlar var. Nə edəsən? Özlərini bu vəziyyətə gətirib çıxaran adamlar özləri də zərər çəkdilər, respublikamıza da çox böyük zərər vurdular.

**Sual: Heydər Əliyeviç, bu hadisələrə Rusiya Federasiyası rəhbərliyinin münasibəti necə idi, sizin onlarla əlaqəniz olmuşdurmu?**

**Cavab:** Bilirsiniz, konkret əlaqəm olmamışdır. Lakin bilirəm ki, onlar burada, Azərbaycanda gedən prosesləri çox diqqətlə izləyirdilər. Əminəm ki, onlar Azərbaycanda vəziyyəti sabit görmək istəyirlər, sabitliyin pozulmasını istəmirlər.

**Sual: Müşavirədəki çıxışlarda belə bir fikir səsləndi ki, "İzvestiya" qəzeti sizin əleyhinizə nə isə yazmışdır.**

**Cavab:** Bilmirəm. Əgər kimsə nə isə demişdirsə, mən buna cavabdeh deyiləm. Əgər hətta "İzvestiya" da mənim əleyhimə nə isə yazmışdırsa, əsla incimirəm: qəzet azaddır, mətbuat azaddır. Kim istəyir, qoy yazsın. Əlbəttə yaxşı olar ki, obyektiv, ədalətli yazsınlar. Lakin həyatımın elə mərhələləri olmuşdur ki, mənim barəmdə qeyri-obyektiv çox şey yazmışlar. Mən buna adət etmişəm və fikir vermirəm.

**Sual: Sağ olun, Heydər Əliyeviç. Əgər bu adamın cinayətkar qruplaşmalarla, mafioz dairələrlə əlaqələri məlum idisə, nə üçün son anadək öz vəzifəsində qalmışdı?**

**Cavab:** Bilirsiniz, müşavirənin əvvəlində çıxışımda mən bu suala müəyyən dərəcədə cavab vermişəm. Ola bilsin, fikrimi tuta bilməmisiniz, yaxud sizə tərcümə etməmişlər. İş burasındadır ki, bu adamlar neçə müddətdir hansısa xüsusi vəziyyətdə idilər. Başa düşürsünüzmü, bəziləri onlara himayədarlıq göstərir, digərləri onlardan istifadə edir, bir başqaları özlərinin mafioz işlərini onlarla birlikdə görürdülər. Onlar özləri də, necə deyərlər, belə hesab edirdilər ki, hansısa xüsusi statusları var, hətta cinayət törədəndə də toxunulmazdırlar.

Fikir verin, dünən daxili işlər naziri mənə dedi ki, onlar həmin Mahir Cavadovu həbs etmək üçün onun mənzilinə getmişdilər. Sən demə, bir binada onun bir neçə mənzili var, bütöv bir mərtəbəni tutmuşdur. Halbuki bu adam yalnız rayon prokuroru idi. Şəxsi mühafizə və ya nə isə buna bənzər iş üçün çoxlu adam saxlayır. Bu qədər vəsait haradandır? Deməli, əyri yolla əldə edilmişdir.

Təəssüf ki, bizim ölkəmizin və keçmişdə Sovet İttifaqına daxil olan digər ölkələrin həyatının son dövrü üçün belə hallar xarakterikdir. Bu, yeganə hadisə deyildir. Lakin onlar, mən Rövşən Cavadovu nəzərdə tuturam, o birisinin üzünü də görməmişəm, sizə deyim ki, tamamilə həyasızlaşmış adamlardır. Mən onların cinayətkar əməllərindən xəbərdar idim. Lakin respublikadakı daxili vəziyyəti nəzərə alaraq, sabitliyi qorumağa çalışıb ümummilli mənafelər naminə ona çox güzəştlər etdim. Lakin, görünür, belələri bunu başa düşmürlər.

**Sual: Bu o deməkdirmi ki, respublikada onların təsiri var idi?**

**Cavab:** Yox, təsiri yox idi. Mən bu günlərdə XTPD-nin üzvləri ilə bir neçə dəfə görüşmüşəm. Onlar mənə açıq dedilər ki, orada hər şey iki prinsipə – pula və qorxuya əsaslanırdı. O, XTPD-nin üzvlərindən ibarət saxladığı qrupdakıların hər birinə çox böyük məbləğdə pul verirdi. Şübhəsiz ki, bu pul cinayət yolu ilə əldə edilmişdir. İkincisi, orada elə bir vəziyyət yaradılmışdı ki, onun dediklərini yerinə yetirməyəni ya öldürür, ya da olmazın işgəncə verirdilər. Bax bu günlərdə biz onları qanunlara, hakimiyyət orqanlarının tələblərinə tabe etməyə çalışdıqda, mənim müraciətimdən sonra bəziləri XTPD-dən gedirdilər. Lakin o, Rövşən Cavadov onların ardınca evlərinə adam göndərib geri qaytarırdı. Onları döyürdülər. Bəzilərini hətta yaralamışlar. Bilirsiniz, nə isə çox iyrənc bir vəziyyət yaranmışdı.

**Sual: Heydər Əliyeviç, burada güc nazirliklərinin rəhbərləri öz çıxışlarında bildirdilər ki, Rövşən Cavadov başqalarının əlində yalnız oyuncaq idi və onun fəaliyyəti xaricdən istiqamətləndirilirdi. Bununla bağlı onun keçmiş prezident Mütəllibovla və Surət Hüseynovla əlaqədə olduğu qeyd edildi.**

**Cavab:** Bilirsiniz, onu adicə oyuncaq adlandırmaq olmaz. Mən keçən dəfə, ayın 15-dəki çıxışımda da, bu gün də dedim ki, o müxtəlif qütblərdə olan cürbəcür adamların əlində əlverişli alətə çevrilmişdi. Deyək ki, Moskvada məskən salanlar – Mütəllibov, Surət Hüseynov, Qazıyev – bunlar bir qrupdur. Deyək ki, o, Xalq Cəbhəsinə lazım idi, eyni zamanda, bəzi başqa partiyalara da lazım idi. Hərəyə özlərinin mənafeyi baxımından lazım idi. Hələ tam yetkinləşməmiş və zənnimcə, özünün əqli və bütün başqa qabiliyyətlərini həddindən artıq qiymətləndirən bu adam sadəcə olaraq pozulmuşdu, onu qudurtmuşdular, həddən artıq qudurtmuşdular. Bir sözlə, o belə hesab edirdi ki, guya hamının ona ehtiyacı var və onlardan dəstək almaq üçün istifadə edirdi. Beləliklə, öz məqsədinə nail olmağa çalışırdı. Onlar isə Rövşən Cavadovdan sabitliyi pozmaq və öz məqsədlərinə yetmək üçün istifadə edirdilər. Bir sözlə, burada hər şey qarşılıqlı əlaqədə idi.

**Sual: Sizcə o, nəyə ümid bəsləyirdi? Axı, zənnimcə, vəziyyət tamamilə qeyri-real idi.**

**Cavab:** Bilirsiniz, o, nəyə isə ümid bəsləyirdi. Səhv etmirəmsə, iki gün əvvəl “Vesti” proqramı onun bəyanatını vermişdi. Özü də onu həddən artıq təmtəraqla təqdim etmişdi. Mən özüm bu verilişə baxmışam. O deyirdi ki, məqsədinə çatmışdır və indi qanuni hakimiyyəti süpürüb atacaq, burada öz hakimiyyətini quracaqdır. O deyəndə ki, “Əliyev elə bilir real qüvvə onun əlindədir, əslində isə real hərbi qüvvə mənim əlimdədir”, o, həqiqətən böyük silahlı quldur dəstəsi olan XTPD-ni nəzərdə tuturdu. İndi həmin dəstə Azərbaycan da-

xili işlər nazirinin əmri ilə ləğv edilmişdir. Bu adamlar cəbhədə vuruşsalar da onlardan bir çoxu müxtəlif cinayətlər törətmişdir. Mənə danışmışlar ki, o, deyək ki, kiminsə cinayətindən xəbərdar idi. Lakin bunu ört-basdır edirdi və həmin adam buna görə ona minnətdar olurdu. Hərə bir şeyə görə ona borclu idi. Təxminən 400-500 nəfərlik, özü də döyüşkən, açığını deyim ki, yaxşı silahlanmış və üstəlik oktyabrın 2-də prokurorluğun binasını tutanda cəzalandırılmadıqlarını hiss edən adamlardan ibarət belə bir qüvvəyə malik olan Rövşən Cavadova elə gəlirdi ki, onun qarşısına heç kim çıxa bilməz. Ona görə də, belə bəyanatlar verir, buna ümid bəsləyirdi. Gecə hakimiyyəti devirmək üçün son cəhdə əl atanda o belə hesab edirdi ki, buna nail olacaqdır. Lakin gördüyünüz kimi, yanılmışdı.

**Sual: Heydər Əliyeviç, axı buna nail olmaq üçün təkcə silahlı qüvvə azdır, sosial dayaq da olmalıdır.**

**Cavab:** Bilirsiniz, bunlar pozulmuş adamlardır, onlardan ötrü sosial dayaq məfhumu yoxdur. Axı onlar ümumxalq hiddətinin, özlərinə qarşı nifrətin təzahürünü televiziya vasitəsilə görürdülər. Bununla belə, o güman edirdi ki, silah gücünə hakimiyyəti ələ alacaq və ölkəni idarə edəcək.

**Sual: Heydər Əliyeviç, bəs vətəndaş birliyi deyilən bədnam qurumun Moskvadakı liderləri necə? Onların Azərbaycana qaytarılması üçün, başqa dövlətdə yaşayaraq Azərbaycan əleyhinə antidövlət fəaliyyəti göstərmələrinə son qoymaq üçün hansısa tədbirlər görmək niyyətindəsinizmi?**

**Cavab:** Azərbaycan prokuroru Rusiya Federasiyasının prokurorluğuna rəsmi qaydada müraciət etmişdir. Lakin belə bir bürokratik cavab almışdır ki, onların harada yaşadıqlarını müəyyənləşdirirlər. Halbuki yerləri məlumdur (jurnalistlər onların yanına gedirlər, onlar müsahibə verirlər). Mən bu məsələ barədə prezident Boris Yeltsinə müraciət etdim. Mənə

dedi ki, o da göstəriş verəcəkdir. Lakin hələlik heç nə etməmişdir. Bəlkə də, onların orada qalması kiməsə sərfəlidir.

**Sual: Heydər Əliyeviç: zəhmət olmasa deyin, necə bilirsiniz, əllərdə hələ silah çoxdurmu və daha hansı profilaktik iş görmək lazımdır?**

**Cavab:** Təəssüf ki, əllərdə silah çoxdur. Bu, təkcə XTPD-yə məxsus silah deyil, başqa silahlar da var. Məsələn, Qazaxda XTPD-çilər polis şöbəsindən birdəfəyə 267 avtomat götürərək müxalifət adamlara, lap cavan uşaqlara paylamışlar. Bu gün dedilər ki, 160 və ya 170 nəfəri həbs olunmuşdur. Lakin orada həmin polis dəstəsindən olanları cəmi 60 nəfər idi, qalanları isə bu işə cəlb olunmuş adamlardır. Amma hamısı həbs edilməmişdir. Deməli, əllərdə silah var. Cürbəcür yollarla əldə edilmiş başqa silahlar da var. Lakin biz bunların hamısını yığmaq üçün tədbirlər görürük və görəcəyik.

Sağ olun.

# RESPUBLİKA HÜQUQ-MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

***Prezident sarayı***
***4 avqust 1995-ci il***

İyulun 30-da Bakının Sabunçu rayonundakı körpünün altında tapılmış partlayıcı maddələr və bununla əlaqədar aparılan əməliyyat-istintaq işləri respublikada çox böyük əks-səda veribdir. Qeyd edə bilərəm ki, hüquq-mühafizə orqanlarımız – Daxili İşlər Nazirliyi, Respublika Prokurorluğu, başqa orqanlar bu qısa vaxtda gərgin iş aparıblar və törədilmiş cinayət demək olar ki, açılmaqdadır. Cinayətkarların bir qrupu artıq həbs olunubdur.

Bu hadisə barədə məlumat təkcə Azərbaycanda yox, respublikadan, ölkəmizdən kənarda da yayılıb və buna çox böyük maraq var. Başqa ölkələrdəki, respublikamızdakı bu cür cinayətkar, terrorçu dəstələr öz işlərini yenə də davam etdirirlər. Məmnuniyyətlə qeyd edək ki, bu cür hadisələrin qarşısı alınır və bunun üçün lazımi tədbirlər görülür.

Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl, Türkiyənin baş naziri xanım Tansu Çillər dünən mənə zəng etmişdilər. Onlar hadisəni biliblər, narahat olublar, vəziyyətlə maraqlanırlar. Bu hadisəyə başqa ölkələrdən də maraq göstərənlər var.

Mən bu iki gündə gələn məlumatlardan görürəm və televiziyanın dünənki verilişində ayrı-ayrı insanların bu işə münasibətindən hiss olunur ki, əhali belə hadisələrə öz münasibətini çox nifrətlə bildirir və bu cinayətkarların tezliklə aşkar olunması, ifşa edilməsi zərurəti haqqında öz fikirlərini deyir.

Ümidvaram ki, biz bunların hamısını aşkar edəcəyik, ifşa edəcəyik.

Daxili İşlər Nazirliyi son vaxtlar işlərini gücləndirib, dünən axşam Lənkəran bölgəsində də böyük əməliyyat aparıblar. Çox qatı cinayətkarlardan bir neçəsi orada yaxalanıb, həbs olunub. Mən həm müəyyən informasiya verilməsi, eyni zamanda iyulun 30-da baş vermiş hadisə, yəni terror əməlinin qarşısının alınması ilə əlaqədar gedən istintaqın nəticələri barədə müəyyən məlumatlar almaq üçün sizi buraya dəvət etmişəm. Əvvəlcə daxili işlər naziri Ramil Usubova söz verirəm. O, Lənkəran bölgəsində aparılan əməliyyat işləri haqqında məlumat versin, sonra respublika prokuroru Eldar Həsənov istintaqın gedişi haqqında məlumat versin.

* * *

Daxili İşlər Nazirliyi Lənkəran rayon şöbəsinin dünən axşam gördüyü tədbirlər sayəsində əldə olunan nəticə, hesab edirəm ki, çox böyük əhəmiyyətə malikdir. Respublikaya məlumdur ki, Azərbaycanın dövlətçiliyinə böyük xəyanət məhz 1994-cü il sentyabrın 21-də başlanıbdır. Sentyabrın 20-də böyük neft müqaviləsi imzalanandan sonra Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından dövləti cinayət etmiş dörd nəfər məhbus – Rəhim Qazıyev, Əlikram Hümbətov, Baba Nəzərli və Arif Paşayev çıxarılmışdı və onlar həmin vaxtdan axtarışda idilər. Bir müddətdən sonra Arif Paşayev gəlib bəyanat verdi ki, o, üzə çıxmaq istəyir. O, üzə çıxdı, onun haqqında müəyyən istintaq gedib, məhkəmə olub, amma hələ bir nəticə verməyib. Güman edirəm ki, bunlar da öz nəticəsini verməlidir. Ancaq Rəhim Qazıyev və Əlikram Hümbətov bəyanatlar verirdilər, Azərbaycanın dövlətçiliyini, respublikanı hədələyirdilər, cürbəcür vərəqələr yayırdılar. Rəhim Qazıyev əhali ara-

sında cürbəcür kassetlər yayır, camaatda müəyyən bir çaşqınlıq yaratmağa, yaxud da ki, sabitliyi pozmağa cəhd edirdi.

Təəssüf ki, hüquq-mühafizə orqanlarının – Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, başqa orqanların apardıqları tədbirlərdən bir nəticə əldə edilmirdi. Çoxlu məlumatlar daxil olurdu ki, məsələn, Əlikram Hümbətov Azərbaycandadır, Lənkəran bölgəsindədir. Ancaq bir nəticə əldə edilə bilmirdi. Dünən nəticə əldə olunub. Əlikram Hümbətov yaxalanıb, tutulubdur.

Demək lazımdır ki, o, gizli vəziyyətdə olduğu zaman da Rəhim Qazıyev ilə birlikdə, onlar isə Moskvada olan cinayətkarlarla – Ayaz Mütəllibovla, Surət Hüseynovla, başqaları ilə birlikdə Azərbaycanda yenə də dövlət çevrilişi etmək, ictimai-siyasi sabitliyi pozmaq üçün cəhdlər göstərirdilər, bəzi bəyanatlar verirdilər. Əlikram Hümbətovun çirkin əməlləri son zamanlar yenə də üzə çıxmağa başladı. Onlar dövlətçiliyimizin əleyhinə Lənkəranda bəzi vərəqələr yaymışdılar, rayon polis şöbəsi bunları tapmışdı. Bundan sonra biz hüquq-mühafizə orqanlarına bir daha ciddi göstərişlər verdik ki, axtarışlarla ciddi məşğul olsunlar və nəhayət, cinayətkarlar tapılıbdır. Çox əhəmiyyətlidir ki, Əlikram Hümbətovla birlikdə, onların qaçmasında iştirak edən, Milli Təhlükəsizlik Nazirliyi təcridxanasının rəisi Faiq Mirzəyev də tapılıb. O da onlarla birlikdə qaçmışdı. Yayılan vərəqələrdə onun bəyanatı da dərc olunmuşdu. Mən milli təhlükəsizlik nazirinə demişdim, siz o vərəqəni tapdınızmı?

**Milli təhlükəsizlik naziri Namiq Abbasov:**

- Bəli, bizdədir.

**Azərbaycan Prezidenti Heydər Əliyev:**

- Həmin vərəqədə onun imzası ilə dövlətçiliyimizin əleyhinə bəyanat dərc olunmuşdur.

Mən Respublika Daxili İşlər Nazirliyinin fəaliyyətini bəyənirəm: nəinki bunları yaxalayıblar, artıq Bakıya gətiriblər.

Eyni zamanda onlara orada havadarlıq edənlər, gizlədənlər həbs olunublar (daxili işlər naziri burada onların adlarını dedi). Şübhəsiz ki, onlar qanun qarşısında cavab verməlidirlər. Onların həbs olunması da tamamilə əsaslıdır.

Bu, böyük hadisədir. O mənada ki, bu hadisə dövlətçiliyimizin nə qədər möhkəm olduğunu bir daha sübut edir. İkinci tərəfdən, bu onu sübut edir ki, heç bir cinayətkar cəzasız qalmayacaq, qaçıb canını qurtara bilməyəcəkdir. Belə cinayətkarlar gec-tez yaxalanacaq və haqq-ədalət məhkəməsi qarşısında duracaqlar. Bu mənada mən bu vəziyyəti – cinayətkarların hüquq-mühafizə orqanları tərəfindən tapılmasını ictimai-siyasi həyatımızda böyük nailiyyət, hadisə kimi qiymətləndirirəm. Buna görə də mən birinci növbədə Lənkəran Rayon Polis Şöbəsinə, onun rəisinə və bu əməliyyatda iştirak edən işçilərə təşəkkürümü bildirirəm.

Milli təhlükəsizlik naziri Namiq Abbasov dedi ki, bu məlumatın alınmasında və əməliyyatın aparılmasında Milli Təhlükəsizlik Nazirliyinin işçiləri də iştirak ediblər. Əgər belə olubsa, onlara da təşəkkürümü bildirirəm.

Daxili İşlər Nazirliyinə, nazirliyin rəhbərliyinə təşəkkürümü bildirirəm.

Görürsünüz ki, pis işləyəndə, yaxud da işləyə bilməyəndə, vəzifə borcunu yerinə yetirməyəndə biz tənqid də edirik, danlayırıq da, cəzalandırırıq da və lazım olanda işdən də azad edirik. Ancaq müvəffəqiyyət, nailiyyət əldə olunanda dərhal qiymətləndiririk. Bütün bu əməliyyatı aparıb, bu cinayətkarları yaxalayıb dövlətimizin sərəncamına vermiş adamların hamısına mən bir prezident kimi təşəkkür edirəm. Güman edirəm ki, bu barədə sonra konkret sərəncamlar olacaqdır. Təşəkkür edirəm.

Bir də deyirəm, hesab edirəm ki, Əlikram Hümbətovun yaxalanması və onların qaçırılmasında iştirak edən Faiq Mirzəyevin yaxalanması həmin o cinayətin açılmasına çox kömək

edəcəkdir. Çünki respublikamızda təəssüf ki, çox cinayətlər baş verib. Ancaq 1994-cü ilin sentyabrın 21-dən başlayan cinayətlər – o vaxt həmin bu cinayətkarların qaçması, sentyabrın sonunda terrorçular tərəfindən Azərbaycanın iki dövlət xadiminin qətlə yetirilməsi və bundan sonra dövlət çevrilişinə cəhd edilməsi ən ağır cinayətlərdir.

Ramil Usubov istintaq sirlərini hələ vermək istəmir və belə də lazımdır. Ancaq artıq ilkin məlumatlar da göstərir, bəli, belə də düşünürdük – bizim mülahizələrimiz, tədqiqatlarımız, təhqiqat nəticəsində əldə etdiyimiz nəticələr təsdiq olunur. Təsdiq olunur ki, keçən il oktyabrın əvvəlində başlanan dövlət çevrilişi cəhdinin əsası sentyabrın 21-də həmin o əməliyyatla qoyulmuşdu. Bu, verilən ilkin ifadələrdən də təsdiq olunur. Ona görə də bu, çox mühüm bir haldır. İctimaiyyətimiz də bunu bilməlidir. Bir daha deyirəm və cinayətkarlar bir daha bilməlidirlər ki, cinayət əməllərindən əl çəkmək lazımdır.

Azərbaycanın dövlətçiliyi günü-gündən möhkəmlənir, güclənir. Ona görə də heç bir cinayətkar burada öz istədiyinə nail ola bilməyəcəkdir. Düz yola gəlmək, cinayətlərdən geri çəkilmək, qanun-qaydalara riayət etmək hər bir vətəndaşın rahat yaşaması üçün şərtdir və bu şərtdən istifadə etmək lazımdır.

İndi respublikanın baş prokuroru Eldar Həsənov bu barədə də istintaqla da əlaqədar, o cümlədən iyulun 30-da körpünün partladılması cəhdi ilə əlaqədar qaldırılmış işin istintaqı haqqında bu auditoriyada deyilə biləcək qədər məlumat versin.

## *YEKUN SÖZÜ*

Mən görüşümüzün əvvəlində dedim, indi də deyirəm: iyulun 30-da Sabunçu rayonunun ərazisində körpünü partlatmaq, terror əməliyyatı, terror aktı həyata keçirmək məqsədi ilə orada gizlədilmiş partlayıcı maddələrin tapılması, bundan sonra və ondan öncə aparılan əməliyyat-istintaq tədbirləri respublikada ağır cinayətin qarşısını ala bilmişdir. Bu, böyük əhəmiyyətli işdir. Respublika ictimaiyyəti körpünün altında gizlədilmiş dəmir qutularda olan partlayıcı maddələri televiziya vasitəsilə görmüşdür. Biz hamımız da görmüşük və təsəvvür edə bilirik ki, əgər bu cinayətin qarşısı alınmasaydı və belə bir terror aktı həyata keçirilsəydi, Azərbaycan böyük faciə ilə üzləşə bilərdi.

Mən nəzarət edirəm, bu günlərdə əməliyyat-istintaq işləri çox sürətlə, deyə bilərəm ki, səmərəli gedir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, belə sürət, səmərəlilik, keyfiyyət bundan sonra da davam edəcəkdir ki, cinayətin üstü tamamilə açılsın və cinayətkarların hamısı qanun qarşısında cavab versin.

Bu fakt bir daha onu göstərir ki, respublikaya xəyanət edən qüvvələr Azərbaycana nə qədər böyük zərbə vurmaq istəyirlər. Dövlət çevrilişi cəhdləri, ayrı-ayrı adamlara qarşı terror niyyətləri baş tutmadı, indi əgər nail olsaydılar, böyük miqyaslı terror aktı həyata keçirməklə Azərbaycanı çox faciəli vəziyyətə sala bilərdilər. Onların hamısı, həmin bu cinayətkarlar, o cümlədən, Mahir Cavadov, Elçin Əmiraslanov, onlarla əlbir olub Moskvada oturan adamlar, Azərbaycandan qaçmış o cinayətkarlar və Azərbaycanın daxilində onlara havadarlıq edənlər ölkəni dağıtmaq məqsədi güdürlər. Başqa heç bir şey ola bilməz. Çünki bu, ayrı-ayrı adamlara qarşı olan cinayət deyil, bütün Azərbaycan dövlətçiliyinə, onun müstəqilliyinə qarşı cinayətdir.

Mən çox məmnunam ki, əməliyyat işçilərimiz bunun qarşısını ala bildilər. Ona görə də bu işlə əlaqədar bu gün bir daha Respublika Prokurorluğuna, Daxili İşlər Nazirliyinə, Milli Təhlükəsizlik Nazirliyinə, Xüsusi İdarəyə bilavasitə və ya dolayısı ilə aidiyyatı olan başqa orqanlara tapşırıram ki, əməliyyat-istintaq işlərinin aparılması üçün lazımi şərait yaradılsın və tezliklə cinayət açılsın, bütün cinayətkarlar tapılıb aşkara çıxarılaraq ifşa olunsunlar və məhkəmə qarşısında dayansınlar.

Dünən əməliyyat işçilərinin Lənkəranda gördükləri işi mən artıq qiymətləndirdim və təşəkkürümü də bildirdim. Bir daha qeyd etmək istəyirəm ki, bunun çox böyük əhəmiyyəti var. Güman edirəm ki, bu böyük cinayətlərin üstünü açacaqdır. Yaxalanmış həmin adamlarla aparılan istintaq işi keçən ilin nəinki sentyabr ayından, həm də 1994-cü ilin əvvəlindən, təxminən may ayından Azərbaycanda dövlət çevrilişi hazırlamağa cəhd göstərən qüvvələrin – həm daxildəki, həm də xaricdəki qüvvələrin cinayətlərinin bir qismini açacaqdır. Biz bir daha bunun şahidi olacağıq ki, bəzi insanlar öz çirkin əməllərini həyata keçirmək üçün nəinki xalqın, dövlətin, millətin mənafeyini tapdalayırlar, eyni zamanda ölkəni dağıtmağa hazırdırlar, təki öz şəxsi məqsədlərinə nail olsunlar.

Təəssüf ki, son illər Azərbaycanda belə insanlar peyda olublar. Təəssüf ki, onların bəziləri yüksək vəzifələr tuta biliblər. Təəssüf ki, onların bu çirkin əməlləri nəticəsində xalqımız çox böyük əzab-əziyyət çəkmişdir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, son dövrdə biz belə adamlardan təmizlənirik, respublikamızın ictimaiyyətini, respublikamızı belə adamlardan xilas edirik və güman edirəm ki, bundan sonra da xilas edəcəyik.

Mən əminəm ki, respublikamızın əhalisi, Azərbaycanın bütün vətəndaşları əmin-amanlıq, sabitlik istəyir, rahat yaşamaq və belə cinayətkarlardan yaxalarını qurtarmaq istəyirlər.

Təsəvvür edin, əgər o cinayətkarlar bir belə zərbə aldıqdan, dağıdıldıqdan sonra qaçıb respublikanın hüdudlarından kənarda olduqları bir zamanda da Bakının ən böyük körpüsünü – Bakıda demək olar ondan böyük körpü yoxdur – partladıb Azərbaycana belə bir zərbə vurmaq istəyirlərsə, görün son illər burada yaşadıqları, fəaliyyət göstərdikləri zaman öz cinayət əməlləri ilə Azərbaycanın ictimaiyyətinə, cəmiyyətinə, ayrı-ayrı insanlara nə qədər əzab-əziyyət, işgəncə veriblər, məhrumiyyətlərə məruz qoyublar, zərbə vurublar! Onların insanları soyması, reketlə, quldurluqla məşğul olması, qeyri-qanuni hərəkətlərlə dövlət əmlakını, xalqın əmlakını mənimsəməsi yaxın keçmişin həyatını xarakterizə edən hallardır, bunlar hamımızın xatirindədir, çoxlarımızın gözü qarşısında olubdur. Biz indi Azərbaycan xalqını bax belə cinayətkarlardan xilas edərkən nəinki xalqımızı, müstəqil dövlətimizi bu cinayətkarlardan təmizləyirik, həm də hər bir vətəndaşımızın rahat yaşaması üçün şərait yaradırıq.

Mən dəfələrlə demişəm, bu gün bir daha deyirəm: həmin o Xüsusi Təyinatlı Polis Dəstəsinin əlində nə qədər silah, sursat vardı, onun üzvləri azğınlıq edirdilər, qanunlara nəinki tabe olmur, əksinə, onların hamısını pozurdular, istədiklərini edirdilər, hansı mehmanxanada, hansı rayonda nə istəyirdilərsə onu edirdilər. İnsanlar onların qorxusundan nə qədər alçalırdılar, mənəviyyatları nə qədər tapdalanırdı. Bunlar hamısı yaxın keçmişdə olan vəziyyətdir. Biz xalqımızı bunlardan xilas etmişik və xilas edirik. Doğrudur, indi bunlar bütün güclərini qoyublar ki, Azərbaycan prezidentini, Heydər Əliyevi məhv etsinlər ki, bəlkə ondan sonra yenə də öz keçmiş işlərinə qayıda bilələr. Ancaq xalq da, ədalət də, görünür ki, Allah da haqqın, ədalətin tərəfindədir. Ona görə bunların bütün bu çirkin əməlləri aşkar olunur və ifşa edilir. Güman edirəm ki, onlar ifşa olunacaqlar.

Ona görə də hüquq-mühafizə orqanlarından bir daha tələb edirəm ki, işlərini, bütün əməliyyatlarını daha da gücləndirsinlər. Son dövrdə əldə etdikləri müsbət nəticələr göstərir ki, onlar həm yaxşı əməliyyat işi, həm yaxşı istintaq işi apara bilərlər, həm də hüquq-mühafizə orqanları kimi daxili ictimai-siyasi asayişin qorunması, qanunlara riayət olunması işinin öhdəsindən gələ bilərlər. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar əldə etdikləri nailiyyətlərdən, bunlara verilən yüksək qiymətdən ruhlanaraq bundan sonra daha yaxşı işləyəcəklər. Əminəm ki, bütün cinayətkarlar aşkar olunacaq, heç bir cinayətkar öz istədiyinə nail ola bilməyəcəkdir. Onların hər biri qanun qarşısında cavab verəcəkdir.

Ona görə bu gün cinayətkarlara da, onların qohum-əqrəbalarına da müraciət edirəm ki, artıq bəsdir, bu cinayət əməllərindən əl çəkib dövlətin qanununa, qaydasına riayət edərək yaşamaq, işləmək lazımdır. Dövlətə sədaqətlə xidmət etmək lazımdır.

Sağ olun.

# RESPUBLİKA HÜQUQİ İSLAHAT KOMİSSİYASININ İLK İCLASINDA GİRİŞ SÖZÜ

*Prezident sarayı*
*4 mart 1996-cı il*

Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, – bir il, iki il, – hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun. Dörd ildir ki, Azərbaycan müstəqil dövlətdir. Ancaq qanunların əksəriyyəti keçmiş Sovetlər İttifaqından qalmış qanunlardır. Onlara müəyyən dəyişikliklər, əlavələr olunubdur, ancaq hazırkı qanunların əsası, kökü Sovetlər İttifaqı vaxtında qəbul edilmiş qanunlardır.

Aydındır ki, bu, asan məsələ deyil və qısa bir zamanda bunu etmək mümkün deyil. Ancaq eyni zamanda bu sahədə planlı iş getməlidir. Şübhəsiz ki, bu işi də parlament aparır və aparmalıdır. Bu sahələrə rəhbərlik edən nazirliklər, orqanlar bu işlərlə məşğul olmalıdır və qanun layihələrini hazırlayıb parlamentə təqdim etməlidirlər.

Məhkəmə, hüquq orqanlarının islahatı çox mühüm əhəmiyyətli olduğuna görə sizə məlumdur ki, həmin islahatların keçirilməsi üçün müəyyən bir komissiyanın yaradılması zərurəti meydana çıxmışdır və mən belə bir komissiyanın yaradılması barədə sərəncam vermişəm. Siz – buraya dəvət olunan-

lar həmin komissiyanın üzvlərisiniz. Komissiyanın sədri prezidentdir, müavini Milli Məclisin sədridir və siz də komissiyanın üzvlərisiniz. Mən hesab edirəm ki, belə bir komissiyanın fəaliyyət göstərməsinə ehtiyac var. Çünki bu komissiya bizim üçün əsas, zəruri olan qanunların hazırlanması ilə kollektiv şəkildə məşğul ola bilər və qanunların layihələrinin hazırlanıb komissiyada baxılandan sonra parlamentə göndərilməsi onların orada müzakirə edilib qəbul olunmasına çox yaxşı şərait yaradar. Ona görə də bir daha qeyd edirəm ki, belə bir komissiyanın yaranmasını lüzumlu hesab etmişəm və bu gün bu komissiyanın birinci iclasını çağırmışam.

Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Mən sadəcə, istəyirəm birlikdə müəyyən edək ki, hansı qanunların layihələrini biz birinci növbədə hazırlayıb təqdim edə bilərik. Müəyyən hazırlıq işləri görülübdür. Yəni Milli Məclisdə, nazirliklərdə, Prezident Aparatında hazırlıq işləri görülüb, müəyyən qanunların layihələrinin hazırlığı var. Mən istəyirəm indi müəyyən edək ki, hansı layihələrin hazırlığı hansı səviyyədədir və biz onları necə hazırlayıb komissiyadan keçirə bilərik.

* * *

... Beləliklə, adları çəkilən qanun layihələri üzərində ilkin hazırlıq işləri görülüb. Şahin Əliyevin və Fuad Ələsgərovun verdiyi məlumatlara əsasən deyirəm ki, bu layihələr sənəd kimi var. Lakin bunları layihə şəklinə gətirib parlamentə təqdim etmək üçün hesab edirəm ki, onlarla tanış olmaq, üzərində işləmək və bundan sonra komissiyanın müzakirəsinə vermək lazımdır. Şahin Əliyev və Fuad Ələsgərov mənə məruzə ediblər ki, onların fikrincə, bu layihələr hazır vəziyyətdədir. Ancaq mən hesab edirəm ki, bu layihələrə baxılmalıdır, onlar yenidən işlənməlidir və sonra komissiyaya təqdim olunmalıdır.

Ona görə də biz bu komissiyanın işçi qrupunu yarada bilərik. İşçi qrupu hazırlanmış layihələrə müəyyən müddətə baxar, komissiyaya təqdim edər, komissiya üzvləri həmin layihələrlə tanış olar və bundan sonra biz bu layihələrin hansının birinci, hansının ikinci növbədə baxılıb parlamentə təqdim edilməsini müəyyənləşdirərik.

Mən belə bir iş prinsipi təklif edirəm. Əgər bununla razılaşmaq olarsa, gəlin razılaşaq. Əgər başqa fikir varsa və yaxud burada deyilənlərdən əlavə müvafiq orqanlarda hansı layihələr varsa, onların da komissiyaya təqdim edilməsi lazımdırsa, gəlin bunları da müzakirə edək.

* * *

... Mən görüşümüzün əvvəlində də dedim, konstitusiya əsasında onlarla, yüzlərlə qanun olacaqdır. Şübhəsiz ki, bunlarla parlamentin komissiyaları məşğul olmalıdır. Ancaq məhkəmə, hüquq orqanlarının islahatı ilə əlaqədar qanunların zəruriliyini və onların ümumiliyini nəzərə alaraq mən hesab etdim ki, bu layihələri belə bir komissiyada müzakirə edib parlamentə təqdim edək. Bütün qanun layihələrini bu komissiyada müzakirə etmək olmaz. Məsələn, iqtisadi məsələlərlə əlaqədar nə qədər böyük qanunlar var. Onları buraya daxil etmək olmaz. Eyni zamanda bu fikir doğrudur ki, bu qanunlar bir-biri ilə bağlanmalıdır. Məhz komissiya çərçivəsində bu qanunların paralel hazırlanması və bir-biri ilə uyğunlaşdırılması həmin qanunların bağlılığını təmin edə bilər. Çox qanunlar qəbul olunmalıdır. Ancaq bu sahəyə aid olan qanunlar bunlardır. Burada Səfa Mirzəyev doğru dedi ki, Konstitusiya Məhkəməsi barədə qanun da lazımdır. Çünki biz gərək Konstitusiya Məhkəməsini təşkil edək və bu bizim üçün çox lazımdır. Ancaq qalan qanunları da bunlarla uyğunlaşdırmaq lazımdır.

* * *

... Gəlin, işçi qrupu müəyyən edək. Dediyim kimi işçi qrupu hazır olan bu layihələri götürüb baxsın və işçi qrupunda müzakirə olunandan sonra, bütün əlavələr, dəyişikliklər edildikdən sonra 3-4 qanun hazır olan kimi məlumat versinlər, biz bunları komissiya üzvlərinə paylayaq, onlar bu layihələrə baxsınlar, yığışaq müzakirə edək və parlamentin müzakirəsinə verək...

... Gəlin, işçi qrupunu bu tərkibdə qəbul edək. Amma mən səlahiyyət verirəm ki, işçi qrupu istənilən mütəxəssisləri, alimləri və yaxud əməli işdə işləyən adamları bu layihələr üzərində işə cəlb etsin.

20 gün ərzində birinci dəst qanun layihələri komissiyaya təqdim olunmalıdır. Bu dəst qanunlar təqdim olunan kimi mən onların bütün komissiya üzvlərinə paylanması haqqında sərəncam verəcəyəm. Vaxt verəcəyəm ki, komissiya üzvləri müəyyən müddətdə həmin layihələri oxuyub hazırlaşsınlar və bundan sonra biz müzakirəyə yığışacağıq.

# AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK KOMİTƏSİNİN YARADILMASININ 5-ci İLDÖNÜMÜNƏ VƏ GÖMRÜK ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Şəhriyar adına Mədəniyyət Mərkəzi*
*30 yanvar 1997-ci il*

Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar!

Gömrük xidmətinin işçiləri!

Müstəqil Azərbaycan Respublikasının gömrük xidmətinin, gömrük təşkilatının yaranmasının beşinci ildönümü münasibətilə sizi ürəkdən təbrik edirəm, ölkəmiz üçün əhəmiyyətli, çox vacib olan işinizdə sizə uğurlar arzulayıram.

Gömrük xidməti ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycanda yaranmış yeni dövlət strukturlarından biridir. Doğrudur, Azərbaycanın gömrük işi sahəsində müəyyən tarixi var, o barədə burada deyildi. Ancaq Azərbaycan müstəqil dövlət olmadığı dövrdə - XIX əsrdə də, XX əsrdə də bir sərhəd məntəqəsi kimi müəyyən gömrük idarələri bu ərazidə yerləşibsə də, Azərbaycanın özünün gömrük xidməti olmayıbdır. Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibində olduğu zaman buradakı sərhəd məntəqələrində Sovetlər İttifaqına mənsub olan gömrük xidməti orqanları var idi. Çünki idxal-ixrac bizim bu məntəqədə çox az miqdarda olurdu və bunlar hamısı da Azərbaycan Respublikasının bilavasitə fəaliyyəti ilə bağlı deyildi. Ona görə də Azərbaycanda həqiqi gömrük xidmətinin, gömrük işinin, gömrük təşkilatının yaranması Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsi ilə əlaqədardır. Bu da təbiidir, çünki hər bir müstəqil dövlətin özünəməxsus, onun müstəqilliyini təmin edən və təş-

kil edən orqanları, strukturları olub, onlardan biri də gömrük xidmətidir. Buna görə də gömrük xidmətinin Azərbaycanda bizim başqa sahələrə nisbətən yaşı həqiqətən beş ildir. Çox gənc bir təşkilatdır, xidmət orqanıdır. Ancaq eyni zamanda Azərbaycanın həm iqtisadi, həm siyasi cəhətdən dövlət müstəqilliyini təmin etmək, qorumaq, inkişaf etdirmək üçün gömrük xidməti çox əhəmiyyətli, çox lazımlı təşkilatdır.

Gömrük xidmətinin üzərinə düşən vəzifələr haqqında burada danışıldı. Mən məmnunam ki, gömrük təşkilatının nümayəndələri - Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov və digər şəxslər burada çıxış edərkən gömrük xidmətinin əhəmiyyəti və vəzifələri haqqında doğru-düzgün anlayışları olduğunu nümayiş etdirdilər. Bu, onu göstərir ki, siz, Gömrük Komitəsində çalışan Azərbaycan vətəndaşları öz vəzifələrinizin nə qədər əhəmiyyətli, nə qədər məsuliyyətli olduğunu dərk edirsiniz. Bu, eyni zamanda əsas verir ki, siz bu vəzifələri layiqincə yerinə yetirə bilərsiniz.

Həqiqətən, gömrük xidməti Azərbaycanın iqtisadi müstəqilliyinin qorunub saxlanılması üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan sərbəst iqtisadiyyat yolu ilə gedir, Azərbaycan dünya iqtisadiyyatı ilə gündən-günə sıx inteqrasiya olmağa cəhdlər göstərir və bu sahədə artıq bizim nailiyyətlərimiz var. Azərbaycanda qəbul olunmuş qanunlar, fərmanlar və sərəncamlar əsasında, onların nəticəsində idxal-ixrac, xarici ticarət sərbəstləşdirilibdir. Azərbaycanda xarici investisiyaların artmasını biz bütün vasitələrlə həvəsləndiririk və bunun üçün geniş şərait yaradırıq. Azərbaycan iqtisadiyyatının xarici ticarət vasitəsilə dünya iqtisadiyyatı ilə daha da sıx bağlanması üçün lazımi tədbirlər həyata keçiririk. Bu tədbirlərin həyata keçirilməsində gömrük xidmətinin xüsusi rolu var. Gömrük xidməti xüsusi yer tutur. Azərbaycanda sərbəst iqtisadiyyatın inkişaf etməsi üçün son illər görülən tədbirlər artıq öz nəticəsini verir. Sahibkarlıq, təşəbbüskarlıq və hər bir

sahibkarın iqtisadi fəaliyyət göstərməsi üçün bütün ölkələrlə əlaqə saxlamasına şərait yaratmaq - bunlar hamısı Azərbaycanın bugünkü iqtisadi həyatının mənzərəsidir. Bu iqtisadi mənzərənin yaranması və gündən-günə inkişaf etməsi üçün, şübhəsiz ki, bizim başqa dövlət orqanları ilə yanaşı, onlarla birlikdə gömrük xidməti də çox iş görür və çox iş görməlidir. Bir də deyirəm, onun üzərinə çox böyük, mühüm vəzifələr düşür.

Bu beş il müddətində Azərbaycanda gömrük xidməti təşkil edilibdir. Ancaq bu beş illik yol da həmişə uğurlu olmayıbdır. Mən bu gün artıq əldə olunan iqtisadi göstəricilər əsasında deyə bilərəm ki, həm Azərbaycanın dövlət mənafelərini qorumaq üçün, daxili bazarı qorumaq üçün, həm də Azərbaycanın iqtisadiyyatına gömrük xidmətinin verdiyi fayda üçün gömrük xidmətinin fəaliyyəti, demək olar ki, son iki ildə qənaətbəxş hesab edilə bilər. Gömrük xidmətinin beş yaşı olmasına baxmayaraq, bu beş il müddətində keçilən yol çox mürəkkəb və çətin olubdur. Bu, şübhəsiz ki, Azərbaycan Respublikasında, onun həyatında cürbəcür dəyişikliklərlə, gedən proseslərlə əlaqədar olubdur. Amma eyni zamanda gömrük təşkilatının özü təşkil olunduğu gündən işinin yaxşı qurulmaması səbəbindən ilk illərdə gömrük xidmətinin Azərbaycana həm iqtisadi, həm dövlətçilik nöqteyi-nəzərindən faydası çox az olubdur. 1995-ci ilin yanvar ayında gömrük xidmətində ciddi nöqsanlar mövcud olduğuna görə və onlar dözülməz olduğuna görə mən gömrük xidmətinin işini ciddi müzakirə etdim, çox qəti qərarlar çıxartdım. Gömrük Komitəsinin rəhbərliyi dəyişdirildi və bu ciddi tədbirlərin və tələblərin nəticəsində 1995-ci ildə, 1996-cı ildə Gömrük Komitəsi tərəfindən görülən işlər artıq gömrük təşkilatının Azərbaycanda özünəməxsus yer tutmasını nümayiş etdirir.

Burada rəqəmlər gətirildi. Həqiqətən, bu rəqəmlər çox maraqlıdır. Çünki əgər 1994-cü ildə Azərbaycanda idxal-ixrac 1 milyard 140 milyon Amerika dolları həcmində olubsa və

gömrük xidmətindən gələn rüsum cəmisi 16, ya 17 milyard manat olubsa, 1995-ci ildə idxal-ixrac təxminən o qədər, bəlkə bir az da ondan az olub, ancaq gömrük xidmətindən dövlət büdcəsinə gələn vergi 65 milyard manat olubsa, 1996-cı ildə idxal-ixrac artıb, - bunun özü də müsbət göstəricidir, - 1 milyard 600 milyon, yaxud 1 milyard 700 milyon dollar səviyyəsinə gəlib çatıbdır. Ancaq bu idxal-ixrac əməliyyatlarından gömrük rüsumu, gömrük vergisi 272, yaxud 273 milyard manata gəlib çatıbdır, 1995-ci ilə nisbətən 4 dəfə artıbdır. Əgər 1995-ci ilə nisbətən 1996-cı ildə idxal-ixrac bir dəfə yarım artıbsa, gömrük xidmətindən büdcəyə gələn gəlir 4 dəfə artıbdır. Şübhəsiz ki, bu, təqdirəlayiq haldır. Bu, bir tərəfdən respublikamızın gömrük xidmətinin nə qədər böyük imkanlara malik olduğunu göstərir, ikinci tərəfdən də bu imkanlardan səmərəli istifadə olunmasını göstərir. Ancaq bunlar da hələ son hədd deyil.

Mən 1995-ci və 1996-cı illərdə əldə olunan nailiyyətlərə müsbət qiymət verərək, eyni zamanda bildirmək istəyirəm ki, bu heç də hələ Azərbaycan Respublikasının iqtisadi potensialının, idxal-ixrac əməliyyatlarının və bütün bunların hamısından gömrük xidmətinin səmərəli istifadə etməsinin son həddi deyil. Hesab edirəm ki, bu göstəricilər sizi, respublikamızın gömrük təşkilatını, gömrük işçilərini 1997-ci ildə daha da yaxşı işləməyə sövq etməlidir. Qarşınızda duran vəzifələri artıqlaması ilə yerinə yetirməlisiniz. Dövlət büdcəsində 1997-ci ildə gömrük vergisindən büdcəyə gələn gəlir 403 milyard manat həcmində nəzərdə tutulubdur. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, 1995-1996-cı illərdə, xüsusən 1996-cı ildə olduğu kimi bu rəqəm də artıqlaması ilə yerinə yetiriləcəkdir.

Bunun üçün Azərbaycanın gömrük təşkilatının imkanları var. Bu imkanlar da şübhəsiz ki, bizim iqtisadi siyasətdə apardığımız işlərlə bağlıdır. Yəni gömrük rüsumu, gömrük vergisi

göydən düşmür. Gömrük birbaşa Azərbaycan Respublikasının xarici ticarəti ilə, idxal-ixrac əməliyyatları ilə sıx bağlıdır. Bizim planlarımız, nəzərdə tutduğumuz işlər onu göstərir ki, 1997-ci ildə Azərbaycan Respublikasının iqtisadiyyatı sürətlə inkişaf edəcəkdir. Azərbaycan Respublikasının bütün ölkələrlə ticarət əlaqələri genişlənəcəkdir, idxal-ixrac əməliyyatları artacaqdır. Buna görə də gömrük xidmətinin fəaliyyətindən gələn gəlirlər də planda nəzərdə tutulmuş rəqəmlərdən artıq olmalıdır.

Beləliklə, beş il müddətində sizin keçdiyiniz yol bir tərəfdən ilk illərdə çox qüsurlu olubdur, ancaq son iki ildə müsbət nəticələr veribdir. Ümumən götürsək, bu müsbət nəticələri mən gömrük xidmətinin fəaliyyətində yalnız və yalnız ilk addımlar hesab edirəm. Hesab edirəm ki, sizin qarşınızda, Azərbaycan gömrük təşkilatının, Gömrük Komitəsinin qarşısında duran vəzifələr çox böyükdür və siz bu vəzifələri yerinə yetirməyə özünüzü səfərbər etməlisiniz. Gömrük xidmətinin vəzifəsi təkcə iqtisadi xarakter daşımır, yəni gömrük xidməti Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün lazım olan bir təşkilat kimi eyni zamanda başqa funksiyalar da daşıyır. Bu funksiyaların hamısını siz layiqincə yerinə yetirməlisiniz. Respublikamızın daxili bazarını qorumaq üçün – bu isə birbaşa idxal-ixrac əməliyyatları ilə bağlıdır, – və respublikamızdan çıxan malların Azərbaycan iqtisadiyyatına zərər vurmaması üçün gömrük xidməti öz nəzarətini daha da gücləndirməlidir, öz fəaliyyətini artırmalıdır.

Bu sahədə sizin çox böyük imkanlarınız var və bu baxımdan, mən bir də qeyd edirəm, sizin əldə etdiyiniz nailiyyətləri qiymətləndirərək hesab edirəm ki, işinizdə çox qüsurlar da var. Qüsurlar da ondan ibarətdir ki, gömrük rüsumundan yayınma halları az deyil. Siz burada valyutanın qeyri-qanuni keçirilməsinin tutulması, yaxud narkotik maddələrin və ya başqa malların tutulması haqqında bir neçə rəqəm gətirdiniz. Mən

hesab edirəm ki, respublikamızın sərhədlərindən xaricə və xaricdən Azərbaycana qeyri-qanuni keçirilən əməliyyatlar sizin bu rəqəmlərinizdən xeyli çoxdur.

Bizə bu barədə çox siqnallar gəlir, ictimaiyyət arasında bu barədə çox danışıqlar gedir və onlar da əsassız deyil. Ona görə də gömrük işçilərinin qanun-qaydaya riayət etməsi, Azərbaycanın qanunlarının sözsüz həyata keçirilməsini təmin etməsi, öz peşəsinə, öz dövlətinə sadiq olması sizin işinizin əsas şərtləridir. Təəssüflər olsun ki, sizin gömrük işçilərinin öz vəzifələrindən sui-istifadə etməsi halları, dövlət mənafeyini qorumayaraq öz mənafeyinə, şübhəsiz ki, qeyri-qanuni yolla sərvət əldə etməyə çalışması halları da var və bunlar sizə məlumdur. Bunlarla kəskin mübarizə aparmaq lazımdır. Mən hesab edirəm ki, əgər bütün gömrük məntəqələrində, gömrük orqanlarında işlərin hamısı qanunun yüksək tələblərinə uyğun olsaydı, birinci növbədə gömrük xidmətindən gələn gəlir 1996-cı ildə əldə etdiyiniz yüksək göstəricilərdən də xeyli artıq olardı, eyni zamanda respublikamızın iqtisadiyyatına zərər vuran hallar olmazdı, yaxud da az olardı. İndi, bu bayram günü konkret faktlar gətirib sizin əhval-ruhiyyənizi pozmaq istəmirəm. Ancaq güman edirəm ki, mənim ümumi şəkildə dediyim fikirlərdən siz özünüz üçün nəticə çıxaracaqsınız.

Biz Gömrük Komitəsinin, gömrük xidmətinin, gömrük təşkilatlarının son iki ildə gördüyü işlərə müsbət qiymət veririk. Amma eyni zamanda sizin işinizdə ciddi nöqsanların, qüsurların olmasını da qeyd edirik və mən sizdən tələb edirəm ki, bu nöqsanları, qüsurları aradan qaldırmaq üçün 1997-ci ildə səmərəli tədbirlər həyata keçirəsiniz, lazımi nəticələr əldə edəsiniz. Bir daha qeyd edirəm, nöqsanlarınız da var, qüsurlarınız da var və gömrük xidmətini daha da yüksək göstəricilər səviyyəsinə qaldırmaq üçün böyük imkanlarınız da var. Bunları siz bilirsiniz. Amma siz indi bilməlisiniz ki, biz də bi-

lirik, şəxsən mən də bilirəm. Ona görə də mən bu tələbləri sizin qarşınızda qoyuram.

Respublikamıza xarici ölkələrdən gizli yolla, yəni sərhədlərdən, gömrük məntəqələrindən keçən qaçaqmalçılıqla, ümumiyyətlə, qaçaqmalçılıqla mübarizə aparmaq lazımdır. Qaçaqmalçılıqla mübarizə gömrük təşkilatının əsas vəzifəsidir. Sizin gətirdiyiniz o rəqəmlər onu göstərmir ki, Azərbaycanın sərhədlərində qaçaqmalçılıq ancaq o dərəcədədir. Xeyr, ondan çox-çox yüksək dərəcədədir. Siz onların az bir hissəsinin qarşısını ala bilmisiniz, çox hissəsinin qarşısını ala bilməmisiniz. Buna görə də qaçaqmalçılıqla mübarizə sizin qarşınızda duran əsas vəzifələrdən biridir. Qaçaqmalçılıq adi bir cinayət deyil. O, Azərbaycanın müstəqilliyinə iqtisadi cəhətdən zərbə vuran hallardan biridir. Ancaq qaçaqmalçılığın da bir neçə növü var. Bir var ki, qaçaqmalçılıq yolu ilə gömrük rüsumundan gizlətmək üçün mal keçirir, yaxud valyuta keçirirlər, amma bir də var ki, qaçaqmalçılıq yolu ilə narkotik maddələr keçirir, silahlar keçirir və cinayət məqsədi ilə istifadə olunması üçün başqa ləvazimatlar keçirirlər. Siz bu sahədə çox cavabdehsiniz.

Şübhəsiz ki, bizim Sərhəd Qoşunları ilə birlikdə, başqa hüquq-mühafizə orqanları ilə birlikdə. Ancaq bütün malların keçirilməsinə birbaşa nəzarət edən orqan, bütün başqa orqanlardan fərqli olaraq, gömrük orqanlarıdır, gömrük xidmətidir. Ona görə bunu birinci növbədə biz sizdən tələb edirik.

Qeyri-qanuni, yəni qaçaqmalçılıq yolu ilə baş vermiş hər bir hadisə birinci növbədə Azərbaycanın iqtisadiyyatına zərbə vurur. Qaçaqmalçılıq yolu ilə o dediyim cinayət üçün istifadə olunan silahlar, narkotiklər və başqa ləvazimatlar isə təkcə iqtisadi zərbə deyil, Azərbaycanın daxilində cinayətkarlığı artırmaq, narkomaniya xəstəliyini artırmaq, narkotik maddələrin gizli surətdə, cinayətkarcasına satılmasına şərait yaratmaqdır. Bir də ki, bizim ölkəmiz Cənubla Şimal, Şərqlə Qərb arasında olan bir ölkədir. Ona görə də bizim sərhədlərimizdən, ölkə-

mizin ərazisindən gedən yollar təkcə Azərbaycanın idxal-ixracı deyil. Ölkəmizin ərazisindən Şərqdən Qərbə, Cənubdan Şimala və əks istiqamətdə də mallar keçirilir. Biz burada da qaçaqmalçılığın bütün növlərinin qarşısını almalıyıq. Xüsusən, narkotik maddələrin, silah-sursatın və cinayət törətmək üçün istifadə olunan başqa malların, ləvazimatların tranzit vasitəsilə Azərbaycandan keçirilməsinin qarşısını almalıyıq. Bu da gömrük təşkilatının qarşısında duran vəzifədir, onun üzərinə düşən məsuliyyətdir.

Bunların hamısını həyata keçirmək üçün siz öz peşənizi daha yaxşı mənimsəməlisiniz. Beş il müddətində sizin əldə etdiyiniz nailiyyətlər şübhəsizdir, təqdirəlayiqdir. Ancaq gömrük xidmətinin inkişaf etmiş dünya dövlətlərinin gömrük xidməti səviyyəsinə çatması üçün çox iş görmək lazımdır. Sadəcə beş ildə buna nail olmaq mümkün deyil. Çünki müddət azdır, vaxt azdır. Amma eyni zamanda bu beş il müddətində də bizim daxilimizdə o qədər qarmaqarışıqlıq olubdur, o qədər cürbəcür cinayətkar hərəkətlər olubdur ki, bunlar imkan verməyibdir. Ona görə də dünya təcrübəsini mənimsəmək, inkişaf etmiş ölkələrin gömrük xidmətləri ilə sıx əlaqə qurmaq, onların təcrübəsindən istifadə etmək və gömrük peşəsindən istifadə etmək və gömrük peşəsini Azərbaycanda köklü surətdə yaratmaq və inkişaf etdirmək – bu sizin qarşınızda duran ən böyük vəzifələrdən biridir.

Azərbaycan müstəqil bir dövlət kimi daim yaşayacaq. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək bütün istiqamətlərdə aparılan tədbirlər nəticəsində ola bilər. Bu istiqamətlərdən biri də yüksək səviyyəli gömrük xidmətinin yaranmasıdır. Onun üçün, bir daha qeyd edirəm, siz dünya təcrübəsindən istifadə etməlisiniz. Yəni elə hesab etməyin ki, siz artıq hər şeyə nail olmusunuz. Bizim Azərbaycanda nə gömrük məktəbi olubdur, nə gömrük universiteti olubdur, nə də gömrük akademiyası olubdur.

Gömrük işçilərinin əksəriyyəti, şübhəsiz cürbəcür ixtisaslar alıbdır. Amma sırf gömrük ixtisası üzrə təhsil alan adamlar, ola bilər ki, çox azdır. Ona görə də siz bu təhsili də işləyə-işləyə almalısınız. Yəni işləyə-işləyə gərək gömrük elminin və gömrük biliklərinin mənimsənilməsi sahəsində özünüzü təhsilləndirəsiniz, təkmilləşdirəsiniz. Şübhəsiz ki, Gömrük Komitəsinin öz işçilərini təkmilləşdirmək, onlara xüsusi gömrük təhsili vermək, onların təcrübəsini artırmaq üçün gərək bir illik, iki illik, üç illik planı olsun və onun əsasında siz təhsil işi aparmalısınız. Bu, sizin sahəyə başqa sahələrə nisbətən ən çox lazımdır. Çünki keçmişdə, Sovetlər İttifaqı dövründə bizim bütün sahələrdə xüsusi təhsil məktəblərimiz olubdur. Amma gömrük sahəsində xüsusi təhsil məktəblərimiz olmayıbdır. Ona görə də siz bunu etməlisiniz.

Siz dünyanın gömrük təşkilatına daxil olmusunuz. Bu, çox yaxşıdır. Bundan səmərəli istifadə etmək lazımdır. Ancaq orada üzvlüklə, yaxud da ki, onların ayrı-ayrı toplantılarında iştirak etməklə kifayətlənmək olmaz. Siz gərək çalışasınız ki, dünya gömrük təşkilatının bütün imkanlarından istifadə edib Azərbaycan gömrük işçilərinin bilik səviyyəsini artırasınız.

Şübhəsiz ki, gömrük xidmətinin maddi-texniki bazası da inkişaf etməlidir. Son illərdə biz bu sahədə sizə müəyyən imkanlar yaratmışıq. Bilirsiniz ki, müəyyən sərəncamla gömrük xidmətindən alınan vəsaitin 60 faizini biz sizin özünüzdə istifadə edib gömrük işinin maddi-texniki bazasını inkişaf etdirməyə yönəltmək üçün sizə imkanlar vermişik. Bundan səmərəli istifadə etmək lazımdır. Həqiqi, gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, Vətəninə, ölkəsinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texni-

kası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da sizin vəzifənizdir. Hesab edirəm ki, 1997-ci ildə gömrük məntəqələrinin, bütün gömrük xidmətlərinin, gömrük təşkilatlarının maddi-texniki bazasının yaranması, bütün gömrük məntəqələrinin dünya standartlarına uyğun texnika ilə, ləvazimatla, cihazlarla təchiz olunması işini siz ya başa çatdırmalısınız, yaxud da bu sahədə yüksək bir səviyyəyə çatmalısınız.

Ancaq bunların hamısı ilə birlikdə gömrük işçiləri bilməlidirlər ki, onlar müstəqil Azərbaycan dövlətinin çox mühüm, vacib bir sahəsində işləyirlər. Özünü bu peşəyə həsr edən insanlar maddi maraq, yaxud da ki, qeyri-qanuni yolla gəlir əldə etmək məqsədi daşımamalıdır. Təəssüf ki, Azərbaycanda gömrük təşkilatı yaranan kimi belə qeyri-sağlam meyllər çox meydana çıxdı. Mənim xatirimdədir, 1992-ci ildə gömrük təşkilatı yaranan kimi insanların, gənclərin və başqalarının çoxu bu təşkilatda işləməyə çalışırdı. Mənim xatirimə gəlir, 70-ci illərdə gənclərin çoxu çalışırdı ki, hüquq-mühafizə orqanlarına getsinlər. Ona görə yox ki, bəziləri onu çox sevirdilər. Hesab edirdilər ki, orada daha çox gəlir əldə edə bilərlər. Şübhəsiz ki, qeyri-qanuni yolla. Belə bir meyl, belə hərəkətlər, əhval-ruhiyyə bu gömrük təşkilatı yaranan kimi də meydana çıxdı. Bunların hamısı ilə mübarizə aparmaq lazımdır.

Hər peşəyə gələn insan gərək birinci, peşəni sevsin, özünü peşəyə həsr etsin və o peşənin öz daxili mənəviyyatına uyğun olduğunu dərk edərək işləsin. Hər peşəyə, o cümlədən gömrük xidməti peşəsinə başqa məqsədlərlə gələn adamlar bu orqanın daimi işçisi ola bilməzlər və onlar, şübhəsiz ki, bu orqana və dövlətə mənfəət gətirə bilməzlər. Ona görə bütün dövlət orqanlarından tələb olunan prinsiplər - mənəvi təmizlik, mənəvi saflıq, dövlətin qanunlarına riayət etmək, öz işinə sədaqət - bunlar hamısı gömrük xidmətində çalışan işçilər üçün də olan tələblərdir, onların müvəffəqiyyətlə işləməsi üçün əsas prinsiplərdir və siz bu prinsiplərin gömrük təşkilatı-

nın, Gömrük Komitəsinin hər bir özəyində bərqərar olunmasını təmin etməlisiniz.

Bizim arzumuz, istəyimiz odur ki, müstəqil Azərbaycan Respublikasının bütün dövlət orqanları Azərbaycanın dövlətçiliyini möhkəmləndirmək üçün öz vəzifələrini layiqincə yerinə yetirsinlər və Azərbaycan demokratik, hüquqi bir dövlət kimi, mənəvi dəyərlərə sadiq olan bir ölkə kimi Dünya Birliyində öz layiqli yerini tutsun. Hamı bu iş üçün çalışmalıdır. Amma gömrük xidmətində olan adamlar ön cərgədədir, ön sıradadır. Çünki bizim ölkəmizə daxil olan hər bir şəxs, hansı məqsədlə gəlirsə-gəlsin, ilk növbədə gömrüklə rastlaşır. Gömrük işçiləri qanun-qayda ilə hərəkət edərlərsə, onlar ölkəmizə gələn xarici vətəndaşlarda ilk müsbət təəssürat yaradarlar, əksinə olduğu halda isə, şübhəsiz ki, mənfi təəssürat yaranır. Bunların hamısını siz öz işinizdə nəzərə almalısınız.

Mən bir daha qeyd edirəm ki, 1995-96-cı illərdə əldə etdiyiniz nailiyyətlər 1997-ci ildə və gələcək illərdə sizin daha da yaxşı işləməyiniz üçün əsas yaradıbdır. Bundan səmərəli istifadə etmək lazımdır. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın gömrük işçiləri, Dövlət Gömrük Komitəsi Azərbaycan dövlətçiliyinin müstəqil Azərbaycan dövlətinin inkişaf etməsinə öz xidmətlərini bundan sonra da göstərəcəkdir. Bu şərəfli vəzifələrin yerinə yetirilməsində sizə uğurlar arzulayıram. Sağ olun!

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ MOSKVA DÖVLƏT HÜQUQ AKADEMİYASININ FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

***29 mart 1997-ci il***

Hörmətli nazir, hörmətli rektor, hörmətli xanımlar və cənablar!

Sizi səmimi salamlayır və gözəl görüş münasibətilə ürəkdən sevindiyimi bildirirəm. Mənə Moskva Dövlət Hüquq Akademiyasının fəxri doktoru adı verərək mənə göstərdiyiniz böyük şərəfə görə Moskva Dövlət Hüquq Akademiyasının rektoru hörmətli akademik Oleq Yemelyanoviç Kutafinə, akademiyanın Elmi Şurasına, sizin hamınıza təşəkkür edirəm. Sözün düzü, bu qərardan xəbər tutduqda təəccübləndim və həyəcanlandım ki, axı bu nə üçün, nə ilə əlaqədar baş verdi. Sonra belə qənaətə gəldim ki, bu akademiya çox nüfuzlu akademiyadır, burada görkəmli hüquqşünaslar, alimlər, professorlar işləyirlər, onlar isə çətin ki, səhv etsinlər. Bir də ki, bizdə həmişə belə olurdu, - mən bunu öz iş təcrübəmə əsasən deyə bilərəm ki, hər hansı bir sənəd və ya məsələ müəyyən şübhə doğurduqda, mütləq hüquqşünasların rəyini soruşurdular. İndi imzalamalı olduğum hər hansı sənədə hüquqşünas imza qoymasa, o mənə çatdırılmır. Axı söhbət qanundan gedir. Əgər belə alimlər, hüquqşünaslar belə qərar qəbul etmişlərsə, deməli, bu, qanunidir. Ona görə də mən bu qərarla razılaşdım; sözün düzü, indi də çox böyük həyəcan və sevinc hissi keçirirəm. Çox sağ olun.

Hesab edirəm ki, bu fakt Azərbaycanın və Rusiyanın təhsil müəssisələri arasında, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin bundan sonra

da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə yönəldilmişdir. Əmin ola bilərsiniz ki, bu yüksək adı almağımla əlaqədar mən öz vəzifəmi, öz məsuliyyətimi başa düşürəm və Rusiya ilə Azərbaycan arasında mehriban münasibətlərin, dostluq münasibətlərinin gündən-günə inkişaf etməsi və möhkəmlənməsi üçün, Rusiyanın və Azərbaycanın ali təhsil müəssisələri arasında, təhsil orqanları arasında əlaqələrin uğurlu və səmərəli olması üçün səylərimi əsirgəməyəcəyəm.

Burada çıxış edənləri dinləyərkən xatırladım ki, keçmişdə öz işimdə həqiqətən qanunla, qanunvericiliklə, hüquqşünaslıqla, hüquq elmi ilə sıx bağlı olmuşam. Sizin vaxtınızı almaq və bütün bunlar haqqında danışmaq istəmirəm, çünki buna çox vaxt gedərdi. Ancaq bəzi epizodlar haqqında danışmaq istəyirəm.

Hər şeydən öncə Moskva Dövlət Hüquq Akademiyasının rolu və əhəmiyyəti barədə demək istəyirəm. Müasir mərhələdə bu təhsil müəssisəsinin çox böyük əhəmiyyəti var. Şübhəsiz ki, hüquq təmayüllü, yaxud hüquqşünaslar hazırlayan hər hansı ali məktəbin keçmiş dövrlərdə də əhəmiyyəti var idi. Ona görə də 1931-ci ildə yaradılmış, böyük tarixi yol keçmiş və o vaxtkı Sovetlər İttifaqı üçün, onun müttəfiq respublikaları üçün hüquqşünaslar, alimlər, əməli işçilər hazırlanması işinə çox böyük töhfə vermiş Ümumittifaq Qiyabi Hüquq İnstitutu bu gün də çox mühüm rol oynayır. 80-ci illərin ortalarında Qiyabi Hüquq İnstitutunun zəruri olub-olmaması haqqında məsələnin meydana çıxmasını xatırladan Oleq Yemelyanoviç haqlı idi, mən həqiqətən bu məsələyə dair qərar qəbul etməli olmuşam. Özü də ona görə yox ki, mən bu kollektiv üçün nə isə yaxşı bir iş görmək istəyirdim, ona görə ki, bu ali məktəbin gələcəkdə də mövcud olmasının zəruriliyinə şübhə edənlər səhv edə bilərdilər, mən isə elə etdim ki, bu səhvə yol verilməsin.

Siz bilirsiniz ki, keçmişdə mən bir çox illər dövlət təhlükəsizliyi orqanlarında işləmişəm. Şübhəsiz ki, bu orqanlar digər hüquq-mühafizə orqanları, hüquq xidmətləri ilə çox sıx bağlı idi. Xatirimdədir, o illərdə, 50-ci, 60-cı illərdə Azərbaycandan çoxları Ümumittifaq Qiyabi Hüquq İnstitutuna daxil olmaq üçün Moskvaya gəlirdi və onlar burada oxuduqlarına görə fəxr edirdilər. Onlar bu gün də bu institutun diplomu ilə yaşayır, işləyirlər, bəziləri yüksək vəzifələr tuturlar. Bu institut o vaxtlar Sovetlər İttifaqında, o cümlədən də Azərbaycanda böyük şöhrət və nüfuz qazanmışdı.

Bu institut nə üçün lazım idi? Açığını deyək, keçmişdə bizim Sovetlər İttifaqında hüquq təhsilinə kifayət qədər diqqət yetirilmirdi. Lakin bu, onda, ola bilsin o qədər də başa düşülmürdü. İndi isə, böyük dəyişikliklər baş verdiyi, ictimai dövlət sisteminin dəyişdiyi bir vaxtda hər şey aydın oldu. Sovet sosialist idarəetmə sisteminin hüquqşünaslara bir o qədər də ehtiyacı yox idi, çünki ümumiyyətlə, ölkə bir qanunla yaşayırdı. Buna görə də hüquq sahəsində kadrlara, əsl hüquqşünaslara çox da böyük tələbat yox idi, onların nüfuzu da yüksək deyildi, yalnız prokurorluqda, məhkəmədə, daxili işlər orqanlarında və sairədə işləmək üçün hazırlanırdı. O illərdə, - mən 40-cı, 50-ci illəri deyirəm, - bu orqanlarda işləmək də çox da şərəfli olmadığına görə, hüquq fakültəsinə daxil olmaq istəyən adamlar da az idi. Şəxsi həyatımdan xatirimdədir, mən 1939-cu ildə Bakı Universitetinin memarlıq fakültəsinə daxil olanda hüquq fakültəsində yerlər dolmamışdı. İnsanlar o fakültəyə getmirdilər. Bu, onların günahı deyildi, cəmiyyətin günahı idi, çünki hüquq təhsili olan bu qədər saylı adamlara ehtiyac yox idi. Ancaq Sovetlər İttifaqında qanuna hörmətin artması prosesi getdikcə, hüquq təhsilinin nüfuzu da yüksəlirdi. Lakin mənfi proses də gedirdi, hər halda Azərbaycanda belə idi, hüquq fakültəsinə daxil olmaq üçün gözlənilmədən ajiotaj yarandı. Bizim universitetdə hüquq fakültəsinə hər il

50 nəfər - rus və Azərbaycan bölmələrinin hər birinə 25 nəfər qəbul edirdilər. Müsabiqə çox yüksək idi. Mən maraqlandım ki, bu, nə məsələdir və aydın etdik ki, bu hüquqşünas işinə olan maraqla deyil, sadəcə olaraq milisdə, prokurorluqda, məhkəmələrdə işləmək arzusu ilə izah edilir.

Sonralar mən gördüm ki, müsabiqə böyük olduğuna görə oraya ən çox hüquq-mühafizə orqanları işçilərinin və rəhbər vəzifəli işçilərin uşaqları daxil olurlar. Bir il ərzindəki qəbulu təhlil edib aydınlaşdırdım ki, oraya bir nəfər də olsun sıravi adam girməyib, yalnız prokurorların, milis rəislərinin, raykom katiblərinin uşaqlarıdır. Mən onda düşünməyə başladım ki, belə halda bizdə deformasiya baş verə bilər, bəs həqiqətən yaxşı hüquqşünas ola biləcək istedadlı, qabiliyyətli insanlar nə etsinlər ki, onların valideynləri raykom katibləri, prokuror, milis rəisləri deyil? Bax, onda mən ixtiyarı öz əlimə alıb yüksək vəzifəli adamların uşaqlarının Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul edilməsinə qadağan qoydum. Bu, mənfi münasibət doğurdu. Burada, Moskvada bəzi hüquqşünaslar etiraz etməyə başladılar. Mərhum Yuri Vladimiroviç Andropov bir dəfə mənə zəng etdi. Həmin o dövrdə o, Dövlət Təhlükəsizlik Komitəsinin sədri idi və bizim aramızda çox yaxşı dostluq münasibətləri vardı. O, mənim qərarımın narazılıq doğurduğunu bildirdi. Mən "Literaturnaya qazeta"da dərc olunmuş müsahibəm haqqında onun rəyini soruşdum, dedi: "Əladır". Mən soruşdum: bəs onda nə məsələdir? Cavabında mənə dedi ki, bəzi hüquqşünaslar Əliyevin qərarından şikayət etmək niyyətindədirlər, çünki o, insan hüquqlarını tapdalayır. Mən bu barədə onun fikrini xəbər aldım. Andropov dedi ki, mən düzgün hərəkət etmişəm və mənim əleyhimə çox da çıxmasınlar deyə, bu məsələni burada yoluna qoymağa söz verdi. Ancaq deməliyəm ki, sonra, 1987-ci ilin axırında mən istefaya çıxanda - sizin xatirinizdədir, 1988,

1989, 1990-cı illərdə burada, Moskvada mənim əleyhimə böyük təqib başlamışdı, müxtəlif qəzetlərdə məni gözdən salan, başdan-başa iftiralarla dolu yazılar dərc edilirdi, məni özbaşınalıqda və sairədə günahlandırmaq üçün bu faktdan da istifadə edildi. Ancaq hesab edirəm ki, mən o zaman düzgün hərəkət etmişdim və keçmişdə qəbul etdiyim heç bir qərardan imtina etmirəm.

Mən bu barədə məhz ona görə danışıram ki, hüquqşünas peşəsinə marağın birdən-birə artmasını, hüquq təhsilinə birdən-birə yaranmış böyük marağı nəzərə çarpdırım. Ancaq bu, qeyri-sağlam maraq idi.

Bu mərhələlər arxada qalmışdır. İndi Rusiya da, Azərbaycan da, keçmiş Sovetlər İttifaqının digər ölkələri də özlərində demokratik, hüquqi dövlət qurduqları zaman bu peşə, bu ixtisas birinci dərəcəli əhəmiyyət kəsb edir. Bir vaxtlar Sovetlər İttifaqında biz təəccüblənirdik ki, nə üçün Amerika Birləşmiş Ştatlarında hüquq kontorundan olan hansısa bir vəkilin böyük nüfuzu var, üstəlik də o, varlı adamdır. Fikirləşirdik ki, ilahi, bizdə hüquqşünas, hansısa bir notarius, hansısa icraçı ən kasıb adamdır, heç nəyi yoxdur. Düzdür milis rəisinə əlavə nə isə gəlir. Biz təəccüblənirdik, çünki həqiqətən qanunlarla yaşayan ölkələrdən büsbütün fərqlənən bir ölkədə yaşayırdıq. İndi Rusiyada da, Azərbaycanda da qanun hər şeydən yüksəkdir. Qanun isə səriştəli hüquqşünaslar tərəfindən yaradılır və hüquqşünas bütün sahələrdə lazımdır. Hesab edirəm ki, bu ixtisas, bu peşə indi xüsusi nüfuz qazanır. Ona görə də həmin Ümumittifaq qiyabi institutundan böyük yol keçərək yaranmış bu akademiya, Rusiya Hüquq Akademiyası Rusiyanın təhsil sistemində belə layiqli yer tutur. Çünki, əvvələn, böyük tədris və elmi potensialı var, ikincisi isə, hüquqi Rusiya dövlətində bu akademiya hüquqşünas kadrlar, bir çox məsələlərin həlli üçün mütəxəssislər hazırlanmasında hələ çox, uzun illər fayda

gətirəcəkdir. Ona görə də burada belə ad almağımdan, sizinlə bir yerdə olmağımdan və bəzi fikirlərimi söyləmək imkanına malik olmağımdan son dərəcə məmnunam.

Bununla yanaşı, keçmiş Sovetlər İttifaqında hətta həmin sistemdə, - indi mən burada Sov. İKP MK Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini işlədiyim dövrləri xatırlayıram, - biz dövləti, cəmiyyəti və başqa sahələri demokratikləşdirmək üçün az iş görməmişdik. Bu xətt Andropov ölkənin rəhbərliyinə gəldikdən sonra götürülmüşdü. Həmin dövrdə mən görkəmli hüquqşünaslarla hüquq institutları ilə çox fəal əməkdaşlıq edirdim və xatırlamağa şadam ki, o illərdə mən dərin hüquqi mənaya malik olan çox mühüm sənədlərin hazırlanmasında yaxından iştirak edirdim.

Məsələn, 1983-cü ilin əvvəllərində əmək kollektivləri haqqında qanun hazırlamaq qərara alınmışdı. Buna görə MK Siyasi Bürosunun qərarı ilə mən bu qanunun layihəsini hazırlayan komissiyanın sədri təyin olunmuşdum. Mənim komissiyamda hüquqşünaslar, professorlar, akademiklər, o cümlədən Kudryavtsev və başqaları var idi. Biz bu qanunu bir neçə aya hazırladıq. Elə olurdu ki, mən günlərlə şəhər ətrafında komissiyanın üzvləri ilə otururdum və biz müzakirə edirdik. 1983-cü ilin iyununda Ali Sovetin sessiyasında mən layihə haqqında məruzə etdim və biz əmək kollektivləri haqqında ilk qanun qəbul etdik. Bu, onu göstərirdi ki, biz dövlətimizdə qanunçuluğu möhkəmləndirmək yolu ilə gedirik. Sonralar, 1985-ci, 1986-cı illərdə isə biz dövlət müəssisəsi haqqında qanun üzərində işlədik. Bu, yəqin ki, yadınızdadır. O vaxtlar bu komissiyaya Nazirlər Sovetinin sədri Rıjkovun özü başçılıq edirdi, mən bu komissiya sədrinin müavini idim və işçi qrupuna başçılıq edirdim. Biz bu qanunu da hazırlayıb qəbul etdik. Doğrudur, bunların hamısı indi tarixə çevrilmişdir, çünki həmin sistem, həmin dövlət daha yoxdur. Lakin bunlar dövlət idarəçiliyində qanunçuluq prinsiplərinin bərqərar edilməsinə doğru,

dövlətdə və cəmiyyətdə qanunun nüfuzunun yüksəldilməsinə doğru ilk addımlar idi.

Yeri gəlmişkən, mən öz aktuallığını bu gün də itirməmiş olan belə bir mühüm faktı da xatırlayıram. Mən Dövlət Arbitrajının islahatı üzrə komissiyanın sədri idim. Siz yuristlər yaxşı bilirsiniz ki, Dövlət Arbitrajı dövlətə bir əlavə idi, müstəqil statusa malik deyildi, Nazirlər Sovetinə tabe idi. Bu məsələni bir çox hüquqşünaslar qaldıraraq dedilər, bir halda ki, biz demokratikləşdirməyə doğru gedirik, onda Dövlət Arbitrajında islahatlar aparmaq lazımdır. Mən Nazirlər Sovetinin rəhbərlərindən biri idim, burada hamı Dövlət Arbitrajını Nazirlər Sovetinin tərkibindən çıxarmağın və ona müstəqil status verməyin əleyhinə idi. Yadınızdadırsa, Dövlət Arbitrajının sədri Anisimov idi. O da Dövlət Arbitrajının statusunun vacibliyindən danışırdı. O vaxtlar biz Siyasi Büroda Dövlət Arbitrajında islahatın zəruriliyi məsələsinin həll edilməsinə müvəffəq olduq. Mən sənədin üzərində işləmişdim və şadam ki, hazırlayıb müzakirəyə çıxara bilmişdim. Beləliklə, Dövlət Arbitrajının statusu haqqında qərar qəbul edildi. Dövlət Arbitrajına böyük müstəqillik verdilər, onu Nazirlər Sovetinin tərkibindən çıxartdılar. Mən bu epizodları sizin peşənizlə bağlı olduğunu təsdiqləmək üçün xatırlayıram.

Hazırda Rusiyada da, Azərbaycanda da bütün sahələrdə islahatlar aparılır. Bu islahatların qanunvericilik bazasına böyük ehtiyac var. Bizdə də, Rusiyada da qanunlar qəbul edilir. Lakin nə qədər qanun qəbul etsək də, məsələn, respublikamızda biz islahatları aparmaqdan ötrü qanunlara, qanunvericilik bazasına, bazar iqtisadiyyatı, demokratiya, qanunvericilik yolu ilə tam irəliləmək üçün, şəxsiyyətin hüquqlarına əməl etmək və s. üçün lazım olan dəyişikliklərin həyata keçirilməsindən ötrü qanunlara hələ çox böyük ehtiyac duyuruq.

Lakin demək istəyirəm ki, Azərbaycan müstəqil dövlət yolunda qətiyyətlə durmuşdur. Azərbaycanın dövlət müstəqil-

liyi tarixi nailiyyətdir, biz onu möhkəmləndirəcək və inkişaf etdirəcəyik. Azərbaycan demokratiya, tərəqqi yolu ilə gedir və hüquqi dövlət qurur. Bu, quruca söz deyil, gerçəklikdir. Bununla bərabər, dövlət bir kəlmə ilə, bir ifadə ilə hüquqi dövlət olmur. Dövləti hüquqi, əsl demokratik dövlət etmək üçün qanunlar, digər tədbirlər gərəkdir. Odur ki, biz bu yolla gedirik. Biz iqtisadiyyatı yenidən qururuq, özəlləşdirmə haqqında qanun qəbul etmişik və onu həyata keçiririk. Amma ağıl-kamalla, iqtisadiyyatımızın sosial yönümünü nəzərə alaraq. Zənnimcə demək olmaz ki, səhv buraxmayacağıq, səhvlərdən heç kəs sığorta olunmayıb. Lakin biz bu yolu daha az nöqsanlarla keçəcəyik. Torpaq islahatı haqqında çox sanballı bir qanun qəbul etmişik. Bu qanunda torpağı alıb-satmaq, vermək hüququ ilə onun şəxsi mülkiyyətə verilməsi nəzərdə tutulur və biz bu qanunu 2-3 il ərzində real surətdə həyata keçirəcəyik, torpaq sahibkarların, adamların, vətəndaşların tam ixtiyarında olacaqdır. Biz artıq onun əməli səmərəsini görürük.

Bütün bunlarla yanaşı, biz öz fəaliyyətimizdə bunu əsas tuturuq ki, Rusiya ilə, digər MDB ölkələri ilə inteqrasiya əlaqələri son dərəcə böyük əhəmiyyətə malikdir. Odur ki, bu məsələyə xüsusi diqqət yetiririk. Dünən dövlət başçılarının iclasında, xüsusən qapalı iclasda biz bu məsələləri müzakirə etdik. Deməliyəm ki, müzakirə çox yaxşı oldu. Rusiya prezidenti, MDB-nin Dövlət Başçıları Şurasının sədri Boris Nikolayeviç Yeltsinin olduqca məzmunlu, ağıllı, yaxşı çıxışını qeyd etmək istəyirəm. Bu gün mən onunla görüşdüm və biz ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdik. Mən bu görüşdən, söhbətdən çox məmnun qaldım. Bütün bunlar Rusiya ilə dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmlətmək niyyətlərimizə uyğundur. Bizi Rusiya ilə bir il deyil, on il deyil, yüz illərdən bəri çox şey bağlayır. Bu əlaqələri qırmaq olmaz. Bu əlaqələrin qırılması tarix qarşısında da, bu

illər, bu onilliklər ərzində bir-biri ilə son dərəcə bağlı olmuş bir çox insanlar qarşısında da cinayət olardı.

Aprelin 1-də bizdə Rusiya mədəniyyəti günləri başlayır. Mənə elə gəlir ki, bu da böyük hadisə olacaq və Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə xidmət edəcəkdir. Əlbəttə ki, elm və təhsil, ali təhsil sahəsində əməkdaşlıq üçün böyük imkanlar var. Siz əmin ola bilərsiniz ki, Azərbaycanda biz bundan sonra da təhsil sahəsində əməkdaşlığımızı daha da genişləndirmək xətti tutacağıq. Yenə də təhsildən danışarkən mən o illəri, Nazirlər Soveti sədrinin birinci müavini kimi təhsil, ali təhsil, maarif, texniki peşə təhsili sahələrini idarə etdiyim illəri xatırlayıram. O illərdə də işləmiş, indi də işləyən bir çox adamlarla - universitetlərin, təhsil orqanlarının rəhbərləri ilə yaxşı tanışam. Ali təhsil, maarif nazirliklərinin, texniki peşə komitəsinin kollegiyalarında öz görüşlərimi çox səmimiyyətlə xatırlayıram. Bunların hamısı mənim üçün çox əzizdir. Keçmiş həyatımın parlaq səhifələridir. Mən burada öz həyat fəaliyyətimin həmin dövrünə minnətdaram, çünki bu da elə bir təməl olmuşdur ki, indi belə bir çətin dövrdə prezident kimi Azərbaycan Respublikasına rəhbərlik etmək üçün mənə imkan verir.

Burada Azərbaycanda görülmüş tədbirlərdən danışıldı. Vaxtınızı almaq istəmirəm. Həqiqətən, Azərbaycan dövlət müstəqilliyinə nail olduğu vaxtdan bəri respublikada vəziyyət çox mürəkkəb idi. Əvvəla, bu, onda da, indi də bununla bağlı idi ki, 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmışdır. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər, ölkəmizin bir milyondan çox sakini bu işğal olunmuş torpaqlardan didərgin salınmışdır, indi onlar ağır şəraitdə, çadırlarda yaşayırlar. Digər tərəfdən, daxili siyasi vəziyyət çox mürəkkəb idi, müxtə-

lif qruplar, silahlı dəstələr hakimiyyət uğrunda mübarizə aparırdılar.

Bu beş il ərzində hakimiyyət 1992-ci ildə, sonra 1993-cü ildə, Azərbaycanda vətəndaş müharibəsi başlayanda dəyişdi. O zaman məni Bakıya dəvət etdilər, mən bu dəvəti qəbul etdim və tezliklə dörd il olacaqdır ki, mən Azərbaycanın rəhbəriyəm. Əlbəttə, çətin idi. İndi də çətindir. Ancaq mühüm cəhət odur ki, biz vəziyyəti sabitləşdirə, bütün daxili ziddiyyətləri və çətinlikləri aradan qaldıra, bir çox silahlı, qanunsuz quldur dəstələrini təcrid edə və zərərsizləşdirə, ölkədə ictimai-siyasi sabitlik yarada bildik.

Digər böyük nailiyyət də odur ki, artıq üç ildir hərbi əməliyyat yoxdur, qan tökülmür. Mən dünən Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Bu gün Boris Nikolayeviç Yeltsin ilə görüş zamanı da biz bu məsələni müzakirə etdik. Biz məsələnin sülh yolu ilə həll olunması üçün addımlar atırıq. Respublikamızdakı vəziyyəti dərindən bildiyinə görə, - bunu onun çıxışından hiss etdim, - Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasının prinsipləri haqqında ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş sənədə verdiyi, - həm də təkcə o yox, - əhəmiyyətə görə mən professor Bekeşevə çox minnətdaram. Biz bu gün də, dünən də dedik ki, Ermənistan istisna olmaqla, həmin prinsiplər ilk dəfədir ATƏT-in bütün üzvləri tərəfindən təsdiq edilmişdir. Bu prinsiplər münaqişənin sülh yolu ilə aradan qaldırılmasının əsasını təşkil edir. Əmin ola bilərsiniz ki, biz öz tərəfimizdən hərbi əməliyyatların yenidən başlanmasına heç vaxt yol verməyəcəyik. Biz Zaqafqaziyada da, bütün Qafqazda da keçmiş Sovetlər İttifaqının bütün ərazisində, bütün dünyada sülh olmasını istəyirik. Biz sülh uğrunda mübarizə aparırıq, bütün qonşularımızla sülh şəraitində yaşamaq istəyirik, istəyirik ki, hər yerdə, xüsusən Qafqazda əmin-amanlıq olsun. Qafqaz xüsusi regiondur, onun öz xüsusiyyəti var. Ancaq eyni zamanda

indi onu bir çox münaqişələr - Ermənistan-Azərbaycan, abxaz-gürcü münaqişələri, Çeçenistandakı münaqişə bürümüşdür. Bir baxın, kiçik ərazidə nə qədər münaqişə var və bunlar MDB məkanının bütün mühitinə mənfi təsir göstərir. Ona görə də biz məsələnin dinc yolla həllinə, sülhün bərqərar edilməsinə nail olmaq üçün tədbirlər görəcəyik. Əminəm ki, biz Ermənistanla sülhü bərpa edəndə, - şübhəsiz ki, Azərbaycan ərazisindən erməni silahlı birləşmələrinin tamamilə çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, onun suverenliyinə və sərhədlərinin toxunulmazlığına əməl olunması şərtilə - onunla da mehriban münasibətləri çox uğurla inkişaf etdirə bilərik. Mən buna inanıram.

Çıxışımın sonunda bugünkü səmimi görüş üçün, mənə verdiyiniz fəxri ad üçün sizə bir daha təşəkkür etmək istəyirəm.

Sizə, Moskva Dövlət Hüquq Akademiyasının bütün kollektivinə hüquq kadrları hazırlanması işində bundan sonra da uğurlar diləmək istəyirəm.

Hesab edirəm ki, Azərbaycan ilə Moskva Dövlət Hüquq Akademiyası arasında əməkdaşlıq uğurlu ola bilər. Biz Azərbaycanda yüksək ixtisaslı kadrlar hazırlamaq üçün gələcəkdə də sizin akademiyanın imkanlarından və şübhəsiz ki, böyük təcrübənizi, elmi potensialınızı nəzərə alaraq köməyinizdən istifadə edəcəyik. Sizə təşəkkür edir, cansağlığı, xoş həyat, uğurlar arzulayıram.

# RESPUBLİKANIN MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNÜN TƏSİS EDİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

***5 iyul 1997-ci il***

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən sizi bayram münasibətilə, milli təhlükəsizlik orqanı işçilərinin peşə bayramı münasibətilə təbrik edirəm, sizə cansağlığı, səadət və bu şərəfli işinizdə uğurlar arzulayıram.

Uzun fasilədən sonra, mənim üçün gənclik illərindən başlayaraq çox əziz və maraqlı bir peşə - dövlət təhlükəsizliyi ilə məşğul olan orqanın işçiləri ilə bir daha görüşməyimdən çox məmnunam. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi təhlükəsizlik sahəsində çalışan orqanların, işçilərin peşə bayramı gününü və tarixini düzgün müəyyən edibdir. Bu xidmət hər bir dövlətə məxsus olan bir xidmətdir. Ən qədim dövrlərdən müasir dövrümüzə qədər hər bir dövlətin xüsusi xidmət orqanları - onun təhlükəsizliyini, milli təhlükəsizliyini qoruyan, təmin edən orqanları olubdur və bu gün də bütün dünyada elə bir dövlət tapmaq olmaz ki, onun dövlət atributları içərisində belə bir orqan olmasın.

Müstəqil Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaranıbdır. Ancaq bu, boş yerdə yaranmayıbdır, bunun tarixi kökləri var və tarixi köklərini də düzgün müəyyən etmək lazımdır.

Azərbaycan xalqının orta əsrlərdə dövlətləri olmuşdur. Sonra xalqımız dövlətçiliyini itirmiş və əsrin əvvəlində – 1918-ci il mayın 28-də Azərbaycanda yenidən milli dövlət qurulmuş, ilk Azərbaycan Demokratik Respublikası elan olun-

muş və yaranmışdır. Ona görə də bugünkü müstəqil Azərbaycan Respublikasının təhlükəsizlik orqanının başlanğıc tarixini 1918-20-ci illərdə yaşamış ilk Azərbaycan Demokratik Respublikasının bu məqsəd üçün yaratdığı orqandan götürmək doğru, düzgün və çox məqsədəuyğun qərardır. Bu təklifi mənə təqdim edən kimi, bunu məmnuniyyətlə qəbul etdim və 28 mart gününü Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan etdim. 1919-cu il mart ayının 28-də ilk dəfə müstəqil Azərbaycan Demokratik Respublikasının təhlükəsizlik orqanı yaradılıbdır. O, demokratik respublika kimi az yaşayıbdır, ancaq tarixi hadisədir.

Ondan sonrakı dövrdə Azərbaycan xalqının yaşadığı dövlətdə, respublikada belə bir orqan mövcud olmuş, belə bir orqanda bir neçə nəsil insanlar xidmət göstərmişlər. Onların bir qismi xalqına, millətinə, torpağına sadiq olaraq xidmət göstərmiş, bir qismi isə xalqına xəyanət etmiş, yaxud da xalqının etimadını qiymətləndirə bilməmiş və özlərini mənfi cəhətdən göstərmişlər. Bunlar tarixin səhifələridir, heç kəs tarixin səhifələrini dəyişdirə bilməz. Mən çox məmnunam ki, Azərbaycan milli təhlükəsizlik orqanının yeni yaradılmış, bu gün tanış olduğumuz muzeyinin eksponatları da məhz bütün bu tarixi mərhələləri əks etdirir. Mən bu muzeyin yaranmasını da müsbət, təqdirəlayiq hadisə kimi qiymətləndirirəm və hesab edirəm ki, muzey gündən-günə zənginləşəcək, ekspozisiyası genişlənəcəkdir və Azərbaycan xalqının XX əsrdə və xüsusən 1918-1919-cu illərdən indiyə qədər keçdiyi yolun tarixinin bütün mərhələlərini əks etdirəcəkdir.

Bizim başqa dövlət strukturları da öz günlərini, məsələn, Daxili İşlər Nazirliyi polis gününü qeyd edir. Hesab edirəm ki, onlar da öz tarixlərini məhz 1918-1919-cu illərdən götürməlidir. Çünki belə olmayan surətdə elə çıxır ki, Azərbaycanda 1991-ci və ya 1992-ci ilə qədər heç bir şey olmayıbdır, polis

yenidən yaranıbdır. Bu, düz deyil, bunun adı dəyişib və Azərbaycanın müstəqilliyinə görə funksiyaları da müəyyən qədər dəyişilibdir. Yaxud bizim ordunun yaranması. İlk Azərbaycan Demokratik Respublikası özünün ordusunu yaratmışdı. Səməd bəy Mehmandarov Müdafiə naziri olmuşdu. Ordu da ilk Azərbaycan Demokratik Respublikasının yaşaması üçün öz xidmətlərini göstərmişdir. Ona görə bizim ordu da boş yerdə yaranmayıbdır.

Doğrudur, sonra həm milli təhlükəsizlik orqanlarında, həm Daxili İşlər Nazirliyi və polis orqanlarında, həm də orduda dəyişikliklər əmələ gəlibdir. Bunlar xalqımızın sonra yeni bir hakimiyyət altında yaşaması və Sovetlər İttifaqı kimi bir dövlətin tərkibində olması ilə əlaqədar olubdur. Ancaq bizim insanların nə günahı var? Neçə-neçə nəsillər, Azərbaycan övladları orduda xidmət ediblər, zabitlik xidməti ediblər, o illərdə, yəni 1920-ci ildən sonra, indi, Azərbaycan müstəqil dövlət olana qədər bizim generallarımız olubdur. Daxili işlər orqanlarında, milis orqanlarında neçə-neçə nəsillər işləyiblər. Onlar Azərbaycan xalqına xidmət ediblər. Qeyd etdim, bəziləri, bir çoxu sədaqətlə xidmət edibdir, amma xalqına xəyanət edənlər, yaxud xalqının mənafeyinə zərər gətirənlər də olubdur. Bu, tarixin həqiqətləridir. Ancaq tarixin neçə on illər keçdiyi yolu heç vaxt unutmaq olmaz. Bu baxımdan mən bir daha təhlükəsizlik orqanlarının peşə bayramının əvvəlini, yaranması gününü məhz 1919-cu ildən götürməsini düzgün hesab edirəm. Ona görə də bu dəvəti qəbul edib bu gün bu bayramı ilk dəfə qeyd etməyə gəlmişəm.

Azərbaycanda təhlükəsizlik orqanları ağır, çətin, əzab-əziyyətli, eyni zamanda cəsarətlə deyə bilərəm ki, şərəfli yol keçibdir. Əgər 1920-ci ildən ta son illərə qədər bu orqanlar - vaxtilə ÇEKA, QPU idi, sonra NKVD idi, sonra NKQB, NKVD oldu, mən bunların adlarını rusca deyirəm, azərbaycanca tərcümə etmək olar, amma bunlar bizim beynimizə elə

bu cür giriblər, sonra oldu MVD, MQB, sonra oldu MVD, KQB - görürsünüz, adları nə qədər dəyişilibdir. Bu orqanlar və onlarda işləmiş insanlar, yenə deyirəm, çox mürəkkəb yol keçiblər. 20-30-cu, 40-cı illərdə bu orqanlar Azərbaycan xalqına, onun mənəviyyatına, bütün həyatına çox böyük zərər gətirmişdir, zərbələr, yaralar vurmuşdur. Amma xalqımız buna dözmüşdür.

1920-21-ci illərdən başlayaraq siyasi repressiyalar, heç bir əsas olmadan ailəliklə, minlərlə, on minlərlə insanların yerindən-yurdundan Orta Asiyaya, Qazaxıstana, Sibirə sürgün edilməsi xalqımıza dəhşətlər gətirmişdir. 30-cu illərin siyasi repressiyaları nə qədər insanların, nə qədər ailələrin həyatını pozmuşdur. Nə qədər günahsız insanları həyatdan, azadlıqdan məhrum etmişlər. Xüsusən 37-38-ci illərin repressiyaları Azərbaycan xalqına, onun ziyalılarına, zəkalı adamlarına, onun intellektual potensialına çox böyük zərbələr vurmuşdur.

Ancaq bu orqanlarda bu siyasət, bu istiqamət 40-cı illərdə və hətta 50-ci illərin əvvəlində də davam etmişdir. Bunlar tarixdən hamıya məlumdur, ancaq mən gənc yaşlarımdan bu orqanlarda işlədiyimə, fəaliyyət göstərdiyimə görə bunların çoxunu öz gözümlə görmüşəm, şahidi olmuşam. Bilirsiniz ki, 1941-ci ildə mən o vaxtkı Xalq Daxili İşlər Komissarlığı orqanında işləməyə başlamışam. Sonra qısa bir müddət Xalq Komissarları Sovetində, yəni Nazirlər Sovetində çalışmışam. 1944-cü ildən isə bilavasitə təhlükəsizlik orqanlarında işləmişəm. O vaxta, 1943-cü ilə qədər, - bunu tarixdən bilməlisiniz, - ümumiyyətlə bunlar hamısı bir yerdə idi, NKVD-nin tərkibində həm təhlükəsizlik, həm milis orqanları, həm də o sistemə daxil olan bütün başqa orqanlar var idi. 1943-cü ildə bunlar ayrıldılar, biri oldu NKQB, biri isə NKVD. Mən bunların hamısını görmüşəm.

O vaxtlar gənc bir işçi kimi arxiv materialları ilə, xüsusən 37-38-ci illərin, ondan sonrakı dövrün materialları ilə tanış

olarkən, daim özüm-özümə sual vermişəm: bu antisovet qruplar, millətçi qruplar, sovet hakimiyyətini devirmək istəyən qruplar, filanlar kimlərdir, hansılardır? Onların bir qismi həbs edilib ya öldürülmüş, ya da uzaq Sibirdə həlak olmuşdu. Amma bir qismi də həbs olunmamışdı, qalmışdı. Arxiv materiallarında isə onların adları siyahılarda idi ki, bunlar antisovet, millətçi qrupların, dəstələrin, təşkilatların üzvləri olmuşdur. Mən gənc idim, fikirləşirdim, - əgər bunlar millətçi, yaxud antisovet, əksinqilabçı təşkilatların üzvləri olublarsa, bəs niyə gəzirlər? Yaxud da ki, üzvü deyildilərsə, adları niyə buraya düşübdür? O qədər belə quraşdırma, ədalətsiz işlər görülmüş, o qədər saxtakarlıq, əsası olmayan materiallar yaradılmışdı ki, bunlardan baş açmaq çətin idi.

Təəssüflər olsun ki, bu istiqamət, siyasət davam edirdi və əgər insanlar siyasi cəhətdən öz fikrini bildirmək, demək istəyirdisə, yaxud başqa fikir söyləmək istəyirdisə, dərhal nəzarət altına alınır, haqqında ölçülər götürülür və bəzilərini də cəzalandırmağa çalışırdılar. Mən bunları görmüşəm. 40-cı illərin sonunda, 50-ci illərin əvvəllərində şahidi olmuşam. O vaxtlar 37-38-ci illərin materialları ilə də tanış olmaq imkanına malik olduğuma görə onlarla da tanış olmuşam, görmüşəm. Ona görə də mən bilirəm ki, bizim xalqımızın başına nə bəlalar gətirilib, xalqımıza nə kimi zərbələr vurulub, nə qədər əziyyətlər verilibdir.

O vaxtlar Azərbaycan Respublikası müttəfiq respublika kimi Sovetlər İttifaqının tərkibində olduğu halda, təəssüflər olsun ki, bu orqanlarda, xüsusən təhlükəsizlik orqanlarında işləyən adamların tam əksəriyyəti azərbaycanlı deyildi. Azərbaycanlılara qarşı repressiyalar edildiyinə görə azərbaycanlıların az bir miqdarı belə işlərə buraxılmışdı. Mən 37-38-ci illərin materiallarına baxanda, - bu, mətbuatdan da məlumdur, siz də bilirsiniz, - görürdüm: kim idi o vaxt NKVD-nin başında duran adamlar? Qriqoryan, Markaryan, bu gün orada birinin

adını oxudum - Topuridze, yarı erməni, yarı gürcü idi, nə millətdir, bilmirəm, Borşşov, sonra uzun illər - 1939-cu ildən 1953-cü ilə qədər Yemelyanov nazir idi. Xatirimdədir hamısı. O illərdə Azərbaycanın başında duran adamlar öz xalqına xəyanət edirdilər, azərbaycanlılara düşmən olan, ancaq bu orqanlarda yüksək vəzifə tutan adamların əli ilə Azərbaycanın dəyərli insanlarını əzirdilər, cəza verir, azadlıqdan məhrum edir, repressiya altına alırdılar.

Stalin öləndən sonra, 1953-cü ildə Azərbaycanda hakimiyyət dəyişiləndən sonra, yəni Azərbaycanın başçısı dəyişiləndən sonra, - Mircəfər Bağırov vəzifədən azad edildi, sonra həbs olundu, - bu orqanlarda müəyyən dəyişiklik başladı. Ancaq bunu aparmaq da asan deyildi, çox çətin idi.

Azərbaycanda 37-38-ci illərdə və sonrakı illərdə repressiyalar etmiş adamlar 1956-cı ildə açıq məhkəmə ilə məhkum olundular. Mən o məhkəmənin iclaslarında olmuşam, o iclaslar bu gün də xatirimdədir. Müttəhim kürsüsündə oturanlar kim idi? Mircəfər Bağırov, Xoren Qriqoryan, Markaryan, Borşşov, Topuridze, Ağasəlim Atakişiyev - altı nəfər. Şübhəsiz ki, günahkarlar təkcə bunlar deyildi. Amma ən yüksək səviyyəli, vəzifəli günahkarlar bunlar idi. Bir neçə ay məhkəmə prosesi getdi və onlar cəzalandırıldılar. O vaxtlar mən məhkəmə prosesində olarkən, - məhkəmə prosesi açıq idi. Şübhəsiz ki, müəyyən buraxılış vərəqələri ilə buraxırdılar, mən isə təhlükəsizlik orqanında işlədiyimə görə daim oraya gedib müşahidə etmək imkanım var idi, - 37-38-ci illərin, sonrakı illərin dəhşətləri açıq göstərilirdi.

Ancaq ondan sonra da bu orqanlarda böyük təmizləmə işi görmək lazım idi, çünki bunlar bir ilin, iki ilin işi deyildi. Bu gün muzeydə də o məlumatları verdilər, Namiq Abbasov da öz məruzəsində dedi ki, milli təhlükəsizlik orqanlarında, xüsusən rəhbər heyətdə, zabit heyətində, komandir heyətində

azərbaycanlıların sayı nə vaxtdan artmağa başladı. Rəhbər vəzifələrdə azərbaycanlıların sayı, demək olar ki, tək-tük idi.

Mən 1950-ci ildə Leninqradda bu orqanın ali məktəbini bitirəndən sonra Bakıda işləməyə başladım. O vaxt Dövlət Təhlükəsizliyi Nazirliyi adlanırdı. Təhlükəsizlik nazirliyinin əks-kəşfiyyat şöbəsi çox böyük şöbə idi. İlk dəfə məni o şöbədə bölmə rəisi təyin etdilər. Bu şöbənin altı bölməsi var idi, bircə şöbənin rəisi azərbaycanlı idi, üç müavini azərbaycanlı deyildi, ikisi erməni, biri başqa millətdən idi, ilk dəfə mən 1950-ci ildə azərbaycanlı kimi altı bölmədən birinə rəis təyin olunmuşdum. Qalanların hamısı azərbaycanlı deyildi, - mən bölmə rəislərini deyirəm. Hər bölmədə on-on beş zabit vardı. İndi hesablayın, zabitlərin içərisində nə qədər azərbaycanlı var idi. Burada Kamal Əliyev də çıxış etdi. Sən neçənci ildən işləyirsən? 1944-cü ildən? Hə, sən bunları görmüsən. O vaxt, 1950-ci ildə mən ikinci şöbəyə gələndə sən ordaydın?

**Kamal Əliyev**: O vaxtkı Stalin rayonunda işləyirdim.

**Heydər Əliyev**: Stalin rayonunda. İkinci şöbəyə nə vaxt gəldin?

**Kamal Əliyev**: 1958-ci ildə.

**Heydər Əliyev**: 1958-ci ildə. Bəs sən niyə gec gəldin? Mənə elə gəlir ki, mən orada işləyəndən sən yanımda idin. Sən bunların hamısını bilirsən.

İşləmək də çox çətin idi. Mənim xatirimdədir, - gənc zabit, buraya yeni gəlmiş bir adam idim. Çox çətin idi. 1953-cü ildə, Stalin öləndən sonra ciddi dəyişikliklər əmələ gəldi, bunu haqqına demək lazımdır. 1953-cü ilin sonunda mən birdən-birə həmin şöbəyə rəis təyin olundum. Bu, nadir hadisə idi. Nə qədər çətinliklər çəkdim ki, 37-38-ci illərdən, 30-cu illərdən qalmış və Azərbaycana xəyanət etmiş insanlardan, - onların da əksəriyyəti azərbaycanlı deyildi, amma içərilərində belə yaramaz azərbaycanlılar da vardı, - bu orqanları xilas edək və yeni, gənc adamlar cəlb edək, orqanlarda sağlamlaş-

ma işi aparaq. Bu, çox çətin oldu. O qədər çətin oldu ki, mənə qarşı fitnələr də etdilər. Bir müddət o vəzifədən getməli oldum, yəni vəzifədən çıxartdılar. Bir-iki ildən sonra məni yenə o vəzifəyə təyin etdilər, məcbur oldular ki, təyin etsinlər. Necə ki, 1993-cü ildə məni buraya dəvət etməyə məcbur oldular, o vaxt da məni yenə həmin vəzifəyə qoymağa məcbur oldular.

Mən bu gün açıq danışıram. Nə üçün? Çünki mən o zaman cəsarətli addımlar atmağa, təmizləmə işləri görməyə başladım, həmin şöbədə işləyən bir neçə zabitin cinayətkar olduqlarına görə həbs edilməsinə, cəzalandırılmasına, işdən çıxarılmasına nail oldum. Xatirimdədir, 1954-cü ilin əvvəli idi. Mən başladım təmizləmə işləri aparmağa. Ağasəlim Atakişiyev o vaxt hələ müavin idi. Gəldim onun yanına, dedim ki, iki-üç nəfər adamı - adlarını demək istəmirəm, onların hamısı gedibdir - həbs etmək lazımdır. O kişi qorxusundan ağır vəziyyətə düşdü, (sonra, 1956-cı ildə onun özünü də həbs elədilər) dedi ki, sən nə danışırsan, cavan oğlansan, gəlmisən, belə şeylər edirsən, belə şeylər etmək olmaz. Dedim ki, necə etmək olmaz, - bax, bu bunun cinayəti, gördüyü işlər, bu sübut, bu filan. Siz sadəcə buna icazə verməlisiniz, qurtardı getdi. Bir dəfə, iki dəfə, üç dəfə bu addımları atdım və sonra, 1955-ci ildə də bunların, həmin o cəsarətli addımlarımın qurbanı oldum. Amma öz iradımdan dönmədim, həmin o təmizləmə işlərinə başladım.

1960-cı ildə, haqqına demək lazımdır, Xruşşov dövründə bütün Sovetlər İttifaqında təhlükəsizlik orqanlarında çox ciddi dəyişikliklər prosesi gedirdi. 1937-38-ci illərlə Stalinlə əlaqədar Stalini günahlandıran materiallar çıxarıldı, bir neçə proses getdi, o cümlədən Beriyanın tutulması, burada, - Azərbaycanda və başqa yerlərdə gedən proseslər - Xruşşov dövründə bunların hamısı, 1937-38-ci illərdən qalmış kadrların təmizlənməsi prosesi gedirdi. Amma bunu kim necə bacarırdısa, o

cür aparırdı. Azərbaycanda isə vəziyyət mürəkkəb idi, ona görə ki, rəhbər orqanların, zabit kadrların tərkibinin əksəriyyəti azərbaycanlı deyildi. Olan azərbaycanlıların bəzilərinin də 1937-38-ci illərdə günahları vardı, ona görə onları da azad etmək lazım gəldi. Bəli, o illərdə onların da günahları vardı.

1960-cı ildə bu orqanlarda geniş ixtisar aparıldı. Ola bilər xatirinizdədir, Sovetlər İttifaqının ordusunda təxminən 1 milyon 200 min adam ixtisar edildi, o cümlədən təhlükəsizlik orqanlarında da ixtisar aparıldı. O vaxt beş şöbəni birləşdirdilər. Mən onlardan birinin rəisi idim. Belə oldu ki, beş şöbəni birləşdirərkən birləşmiş şöbəyə rəis məni təyin etdilər. Bu fürsətdən istifadə etdim, o biri şöbələrin rəisi, ya müavini olanların əksəriyyətini təmizlədim, onlar orqandan xaric oldular. Yeni bir dövr başlandı.

Namiq Abbasov öz məruzəsində qeyd etdi ki, guya bu orqanın milliləşməsi prosesi 60-cı illərdə başlayıb. Yox, 1953-54-cü illərdə başlandı. Şübhəsiz ki, yenə deyirəm, çox çətinliklə, ağırlıqla. Ancaq 1960-cı ildən ki, ixtisar zamanı o şöbələri birləşdirməyə başladılar, biz çox iş görə bildik. Çox adamlardan, necə deyərlər, canımızı qurtardıq, çox adamlar xaric olundu və bu zaman gənc kadrlar irəliyə çəkildi, azərbaycanlılar rəhbər vəzifələrdə əksəriyyəti təşkil etməyə başladılar.

Ona görə də Azərbaycanın milli təhlükəsizlik orqanının tarixinə müəyyən qədər nəzər salsaq, bax, belədir: 20-30-cu illərdə, 40-cı illərdə bu orqanlarda çox cinayətlər olubdur. Deyə bilərəm ki, təxminən 1953-cü ildən saflaşma, sağlamlaşma prosesi gedibdir və mən də bu prosesin bilavasitə iştirakçısı, son illərdə də təşkilatçısı olmuşam və xoşbəxtəm ki, o vaxtlar bu işləri görə bilmişəm və təxminən 1988-ci ilə qədər Azərbaycanda bu orqanlar, hesab edirəm ki, düzgün mövqedə olublar. Şübhəsiz ki, bu Sovetlər İttifaqı dövlət təhlükəsizliyi

sisteminin bir hissəsi olub, bütün göstərişlər, direktivlər hamısı Moskvadan gəlibdir. Bunlar təbiidir.

Ancaq, eyni zamanda, həqiqət naminə demək lazımdır ki, bu dövrdə, yenə də qeyd edirəm, 1953-cü ildən sonra bu orqanlarda həm kəşfiyyat, həm əks-kəşfiyyat sahəsində, bütün başqa sahələrdə çox gözəl azərbaycanlı kadrlar yetişmişdi, inkişaf etmişdi. Bu orqanlar azərbaycanlılaşmışdı.

Doğrudur, buna baxmayaraq, bizə, azərbaycanlılara etibar etmirdilər. Təsəvvür edin, 1920-ci ildən sonra bir dəfə Mircəfər Bağırov bu orqanın başında olub, - onun da tərcümeyi-halı və Azərbaycan xalqı qarşısında etdiyi cinayətlər sizə məlumdur. Qısa müddət - 1926, 1927, 1928-ci illərdə Novruz Rizayev bu orqana rəhbərlik edibdir. Amma onun başına da sonra çox böyük bəlalar gətiriblər. 1938-ci ildə onu həbs edib öldürüblər. Tarixdən məlumdur - burada oturanların əksəriyyəti gəncdir, bilmirlər - amma mənim xatirimdədir - 1956-cı ildə Mircəfər Bağırov qrupunun məhkəməsi zamanı Novruz Rizayevin istintaq işinin içindən onun Stalinə göndərdiyi bir məktubu çıxmışdı. Bu, çox məşhur məktubdur - o, çox cəsarətli, çox əqidəli bir insan kimi o məktubda 1937-38-ci illərdəki kütləvi repressiyalara qarşı etirazını, hiddətini açıq-aydın bildiribdir. Çox məşhur məktub idi, o vaxtlar bizim mətbuatda da ondan istifadə etdilər. Ona görə də xatirimdədir, mən Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən biz Novruz Rizayevin adını əbədiləşdirdik. Mən onun fəaliyyəti, tərcümeyi-halı ilə tanış oldum. Çox dəyərli bir insan olmuşdur və xalqına çox sədaqətlə xidmət etmişdir.

Ondan sonra bir nəfər də azərbaycanlıya bu orqana rəhbərlik etmək etibar edilməmişdi. Hər millətdən - erməni də, rus da, yəhudi də, gürcü də olmuşdu, amma azərbaycanlı olmamışdı. Mənim işlədiyim dövrü götürürəm. Yemelyanov nazir idi, onu 1953-cü ildə Mircəfər Bağırovla birlikdə çıxartdılar, göndərdilər Quskovu. Quskov dörd il işlədi, Kopılov

gəldi. Kopılov işlədi, ondan sonra Kardaşov gəldi. Kardaşovdan sonra Sviqun gəldi. Bilirsiniz, bizə etibar etmirdilər.

Sviqun buradan gedərkən mərkəzdə də anlamışdılar, başa düşmüşdülər ki, artıq bu cür siyasət aparmaq olmaz. Xüsusən, - bunu mən qeyd etmək istəyirəm, - Andropov o vaxt Dövlət Təhlükəsizliyi Komitəsinin sədri təyin olunmuşdu və milli siyasət məsələlərini çox yaxşı bilirdi, ona görə də məsələ qoydu ki, artıq Azərbaycanda yerli adam olmalıdır. Yerli adamın olması da, - o vaxt mən burada birinci müavin idim, - problemə döndü. Bizim Azərbaycandan, mənim yanımda işləyən adamlardan bəziləri öz şəxsi məqsədlərinə, şəxsi mənafelərinə görə həmin o Sviqunla birləşib yenə də buraya azərbaycanlı olmayan adamı - Moskvadan, yaxud burada olan bir rusu təyin etməyə cəhd göstərirdilər. Tarixi həqiqət naminə demək lazımdır ki, - mən bunu özümə görə demirəm, ancaq xalqın tarixi naminə deyirəm, - o vaxt, 1967-ci ildə məhz Andropovun bu işə şəxsi münasibəti və həqiqət naminə demək lazımdır ki, o vaxt Azərbaycanda Mərkəzi Komitənin birinci katibi olan Vəli Axundovun bu barədə düzgün mövqeyi nəticəsində - amma başqaları düzgün mövqedə deyildilər, ilk dəfə azərbaycanlı bu orqanın rəhbərliyinə təyin olundu.

Yəni görürsünüz, bu orqanın tarixi nə qədər ağır, mürəkkəb, nə qədər çətindir. Amma, eyni zamanda, yenə də deyirəm, xüsusən 1953-54-cü illərdən sonra Azərbaycanda dövlət təhlükəsizliyi sistemində çox dəyərli işlər görülmüş, dəyərli kadrlar yetişmiş və bir çox insanların yetişməsi və formalaşmasında bu orqanın çox xidmətləri olmuşdur. Həqiqət naminə demək lazımdır ki, o vaxt milli təhlükəsizlik, yaxud dövlət təhlükəsizliyi orqanı bütün başqa orqanlardan fərqli olaraq, əksərən saf, təmiz, mənəviyyatca yüksək adamlardan ibarət idi.

Yəni, 1953-54-cü illərdən sonrakı təmizləmə prosesi zamanı yeni gəlmiş kadrlar, nəsil əksərən bunlardan ibarət idi. Bunu həqiqət naminə demək lazımdır.

Ancaq təəssüflər olsun, 1988-ci ildə Azərbaycanın başına bu böyük bəla ki gəldi, - Dağlıq Qarabağ problemi qalxdı və Azərbaycan o vaxtdan yaralandı, o vaxtdan da Azərbaycanın dövlət təhlükəsizliyi, milli təhlükəsizlik orqanlarında yeni bir faciəli dövr başlandı. Mən çox təəssüf edirəm ki, on illər boyu əziyyətlə yaranmış kadr korpusu, o cümlədən şəxsən mənim əziyyətimlə, zəhmətimlə yaranmış kadr korpusu 1988-ci ildə dağıdılmağa başladı, hərc-mərclik dövrü başladı. Siz təsəvvür edin, mən 25 ildən artıq rəhbər vəzifələrdə, Dövlət Təhlükəsizliyi Nazirliyində işləmişəm. 14 il Azərbaycana rəhbərlik edərək həmişə bu orqanlara himayədarlıq etmişəm, Moskvada 5 ildən artıq işləyərkən yenə də ümumiyyətlə, Azərbaycana, o cümlədən onun bu sahəsinə də himayədarlıq etmişəm.

Ona görə də bu orqanın işində, burada kadrların təlim-tərbiyə, təhsil almasında, böyüməsində, inkişaf etməsində böyük zəhmətlərim olmuşdur. Bu zəhmətlərimə görə mənim üçün çox acı idi, ağır, dəhşətli idi ki, 1988-ci ildən başladılar bu orqanı dağıtmağa. Burada hər şeyi dağıtmağa başladılar. Bu orqan xalqımıza, millətimizə xəyanət etməyə başladı. Bəli, yenidən Moskvanın nümayəndəsini, - Namiq Abbasov dedi, - Qorelovskini buraya gətirdilər. Nə çətinliklə mən özümdən sonra ənənə yaratdım ki, burada azərbaycanlı olsun. Nə çətinliklə! Bu da asanlıqla olmadı. Mən bu vəzifədən respublikanın rəhbəri seçilən zaman, - bu, tarixdir, bu gün bunu da hamı bilməlidir, - baş katib Brejnev mənə dedi ki, bilirsən nə var, sən bu orqanda bilavasitə işlədiyinə görə yaxşı olmaz ki, sənin yerinə yerli adamlardan qoyulsun, lazımdır ki, gərək Moskvadan ora gəlsin, bu, sənin üçün yaxşı olar. O vaxt burada müavin azərbaycanlı qoyulduğuna görə, dərhal birinci müavini Moskvadan təklif etdilər. Mən də Krasilnikovu qəbul etdim, təyin etdim. Ancaq baxmayaraq ki, Krasilnikov da Moskvadan gəlmişdi, məni məcbur edirdilər ki, o, Azərbaycanda yaşayan rusdur, gərək buradan, Moskvadan göndərək. Mən bunun qar-

şısını aldım. Bir neçə dəfə bu barədə Brejnev, Andropov ilə danışmaq məcburiyyətində oldum ki, bunun qarşısını alım. Dedim, əgər azərbaycanlını qəbul etmirsinizsə, onda gəlin, burada mənim müavinim işləyən rus var, onu qoyaq. Onu da qoyduq, işlədi. Amma ondan sonra mən nail oldum ki, azərbaycanlı təyin edilsin və Yusifzadəni buraya təyin etdim. Amma sonra bunu pozdular, Qorelovskini gətirdilər.

İş bircə bunda deyil. Burada xalqa, millətə qarşı cinayətlər başladı. Qorelovski və ona yaltaqlıq edən, onun ətrafında toplaşan adamlar, onunla birlikdə Azərbaycan xalqına Qarabağ məsələsində məğlubiyyət gətirən adamlar yaranmış bu orqanı dağıtmağa başladılar.

Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmişdir. Biz heç bir dissident həbs etməmişdik, heç bir zaman heç bir adamı antisovet təbliğat, yaxud millətçi təbliğat üstündə həbs etməmişdik. Amma nə qədər belə təkliflər, belə təzyiqlər var idi. Burada bizim hörmətli şairimiz xatırlatdı, həqiqətdir, - mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirindədir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayəti yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şerlər yazırdı, "Gülüstan" poeması yazmışdı. Ondan ötrü o adamı həbs etmək məsələsini qoymuşdular.

Xəlil Rzanı da həbs etmək məsələsini qoymuşdular. Onu da mən qoymadım, xilas etdim. Neçə-neçə belələrini xilas

etdim. Əkrəm Əylisli var, çox qeyri-sabit adamdır - bir gün belə danışır, bir gün elə danışır. Ona çox köməklər etmişəm. Həqiqətən çox istedadlı yazıçıdır, ancaq yəqin ki, bu adamın nəyisə çatmır. Bəli, onun həbs olunması haqqında neçə dəfə mənim qarşımda təklif vermişdilər, - mən qoymamışam. Belələrini mən çox deyə bilərəm. Məsələn, mərhum Ziya Bünyadov, bizim böyük alimimiz, akademikimiz. Onlar yığışıb müşavirə keçirmişdilər ki, 150 il bundan qabaq Azərbaycan Rusiyanın tərkibinə könüllü girməyib, Azərbaycanı zəbt ediblər. Bu, həqiqətdir. Amma təəssüf ki, o vaxt, 1964-cü ildə qərar çıxmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü daxil olmuşdu və ona görə də Azərbaycan Respublikası Lenin ordeni ilə təltif edilmişdi. Amma bu alimlər tarixi araşdırma, yəni elmi bir iş aparırdılar. Buna görə onların, xüsusən Ziya Bünyadovun başına nə işlər gətirmək istəyirdilər. Mən bunların hamısının qarşısını almışdım.

Belə faktları çox gətirə bilərəm. Faktlar da gətirə bilərəm ki, Azərbaycanda dissidentlər də olmayıbdır. Bir halda ki, mən konkret söhbət aparıram, Əbülfəz Elçibəy də 1975-ci ildə, 1976-cı ildə həbs olunmuşdu. Mən bilən kimi ki, Əbülfəz Elçibəy həbs edilib, məhkum olunubdur, göstəriş verdim və azad etdirdim. Onu mən azad etdirmişəm, mənim göstərişimlə azad olunubdur. Əbülfəz Elçibəyə bu gün kim necə münasibət göstərirsə, bu, əhəmiyyətli deyil, o vaxt onun həbs olunması üçün heç bir əsas yox idi. Sadəcə, onun bəzi məsuliyyətsiz danışıqları olmuşdu. İndi də elə bəzən çox məsuliyyətsiz danışır. Bir neçə dəfə belə məsuliyyətsiz danışıqları olmuşdu, universitetdən, ya akademiyadan öz dostları KQB-yə danos vermişdilər, yazmışdılar ki, o, belə təbliğat aparır, filan edir. Buna görə də onu həbs etmişdilər. Mən bunu bilən kimi sərəncam verdim. Şübhəsiz, həbsdən azad olunmağına sərəncam vermirdim, - bunu düzgün başa düşün, - ancaq mən respublikanın başçısı idim, belə bir qərarın qəbul olunmasını tə-

min edə bildim, onun həbsdən azad olunması barədə qərar verilməsini təmin etdim.

70-ci illərdə başqa yerlərdə çox dəbdə idi, qiymətləndirilirdi ki, KQB bir dissident tapıbdır. Amma biz qoymadıq ki, burada bir dissident olsun. Bizdə də həvəskarlar, bunu etmək istəyənlər var idi. Yəqin ki, çoxlarının xatirindədir, mən Təhlükəsizlik Komitəsinin sədri olarkən bizim gənc kinematoqrafçılarımız Rüstəm İbrahimbəyov və Eldar Quliyev “Bir cənub şəhərində” filmi yaratmışdılar. Bu filmi qadağan eləmişdilər - o vaxtkı Mərkəzi Komitə də, başqa orqanlar da, Moskva da qadağan eləmişdi. Onların xatirindədir, mən Təhlükəsizlik Komitəsinin sədri kimi vəzifəni öz üzərimə götürdüm, getdim kinostudiyaya, filmə baxdım, gördüm ki, çox yaxşı bir filmdir, o vaxtkı nöqsanlarımızı çox açıq-aydın göstərən filmdir, bizim cəmiyyətdə olan qüsurları göstərən filmdir. Mərkəzi Komitəyə də, Moskvaya da nəinki xəbər verdim, təklif verdim, hətta tələb etdim ki, bu filmin nümayiş etdirilməsinə icazə verilsin. Bu film o vaxtdan həyat vəsiqəsi aldı və çox böyük də hörmət qazandı.

Yəni KQB-də işləyərək günahsız insanları da cəzalandırmaq olardı, ancaq bu cür işlər görüb xalqı, milli mənafeni qorumaq da olardı. Mən isə orada işlədiyim bütün dövrdə bu milli mənafeni qoruyub saxlamışam və çoxları da belə olublar. Təəssüflər olsun ki, 1988-ci ildə bax, həmin bu binada çox yaramaz adamlar da, xəyanətkarlar, satqınlar da meydana çıxdılar. Bəli, Qarabağ hadisələrinin baş verməsində Azərbaycanın o vaxtkı dövlət təhlükəsizliyi orqanlarının günahı var. Namiq Abbasov burada dedi ki, o vaxt getdi Kamran Bağırova məlumat verdi, ancaq məlumata fikir vermədilər. Amma iş təkcə bununla qurtarmırdı. Dağlıq Qarabağ problemi çətin problem idi. Mən burada işlədiyim dövrdə - Dövlət Təhlükəsizliyi Komitəsində də, respublikanın başçısı olanda da bu problemi daim diqqət mərkəzində saxlayırdım. Biz orada ge-

dən proseslərə nəzarət edirdik və imkan vermirdik ki, ayrı-ayrı separatçı qüvvələr baş qaldırsın, yaxud bir iş görsün. Dağlıq Qarabağda da çox sağlam əhval-ruhiyyə vardı. Nəinki mən, bizim nə qədər yazıçılar, şairlər, alimlər dəfələrlə Dağlıq Qarabağa getmişdik. Xankəndində də, Şuşada da, başqa rayonlarda da, kolxozlarda, sovxozlarda da nə qədər olmuşuq, nə qədər işlər görmüşük. Dağlıq Qarabağın inkişafı üçün nə qədər zəhmət çəkmişik, nə qədər səylər qoymuşuq. Bunu orada yaşayan ermənilər də yaxşı bilirdilər.

Ancaq təəssüflər olsun ki, həmin o millətçi, separatçı qüvvələr baş qaldıran kimi, Moskvadan havadarları onlara kömək edən kimi, buradan, bizim içərimizdən də adamlar tapıldı ki, o cümlədən həmin o yaramaz Vəzirov və onun ətrafında olan adamlar, təəssüf ki, bəzən bizim ziyalılar, jurnalistlər də, - guya Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zaman Dağlıq Qarabağa lazımi diqqət göstərilmədiyinə görə oranın sosial inkişafı, iqtisadi vəziyyəti ağır olub və Dağlıq Qarabağ Azərbaycanın başqa məntəqələrindən geri qalıb, - deyirdilər. Ona görə də bir qrup erməni Dağlıq Qarabağın ayrılıb Ermənistana verilməsini tələb edirdi. Bu, ermənilərin, Moskvanın nəzəriyyəsi idi. Amma təəssüflər olsun ki, bu nəzəriyyəni burada həyata keçirənlər də var idi - Vəzirov və bu binada oturan, vaxtilə mənim himayəm, rəhbərliyim altında çox vəzifələr almış, çox işlər görmüş satqın adamlar. Bu da tarixi həqiqətdir.

Ona görə də 1988-ci ildən Azərbaycanın milli təhlükəsizlik orqanında çox acınacaqlı, çox dəhşətli proseslər getdi. Burada yaranmış bütün potensial, mənəviyyat, yaranmış milli ruh dağıdılmağa başladı. Xatirinizdə deyilmi, 1988-ci ildə Moskvadan buraya kadrlar gətirirdilər. Bunu elə Yusifzadənin vaxtında da gətirirdilər. Artıq 1985-ci ildən başlayaraq, buraya Rusiyanın müxtəlif yerlərindən kadrlar gətirirdilər ki, rus kadrları azalıbdır. Yusifzadənin xatirindədir, elədirmi?

**Ziya Yusifzadə** (yerdən): Kadr mübadiləsi adı ilə gətirirdilər.

**Heydər Əliyev**: Bəli-bəli, gətirirdilər. Biz təmizlədik, azərbaycanlılaşdırdıq, milliləşdirdik, mən buradan gedəndən sonra fürsətdən istifadə edib başqa yerlərdən adamlar gətirməyə başladılar. Burada kadrların tərkibinin ən güclü şəkildə dəyişdirilməsinə 1988-ci ildən başladılar. Həmin o Qorelevski Vəzirovla və onları əhatə edən yaramaz insanlarla birlikdə burada yaranmış böyük potensialı dağıtmağa başladılar.

Bilirsiniz, hər bir insan, kadr yetişdirmək böyük vaxt, böyük zəhmət tələb edir. Mən burada, Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyim zaman da, - bu dövrün hamısını, demək olar, rəhbər işlərdə çalışmışam, həyatım belə olub ki, ən gənc vaxtlarımdan rəhbər vəzifələrdə işləmişəm, Dövlət Komitəsinin sədrinə qədər aşağı vəzifələrdə də, Azərbaycanın rəhbəri olduğum zaman da çalışmışam ki, milli kadrlar yetişdirək. Bir tək burada deyil, mən bunu hər yerdə edirdim. Amma burada xüsusilə. Məsələn, Kənd Təsərrüfatı Nazirliyində bunu etməyə o qədər də ehtiyac yox idi, çünki orada əksəriyyət bizim milli kadrlar idi. Yaxud Ticarət Nazirliyində buna böyük ehtiyac yox idi. Amma bura on illərlə, 1920-ci ildən Moskvanın əli altında olduğuna və azərbaycanlılara etimad göstərilmədiyinə görə, - mən bunu, bu tarixi bilirdim, bunlar hamısı gözümüzün qabağında olan şeylərdir - milli kadrların yetişməsinə çalışırdım. Ancaq 1985-ci ildən sonra buraya kadr göndərməyə başladılar. Yusifzadə deyir ki, kadr mübadiləsi adı altında göndərirdilər. 1988-ci ildən sonra isə bura tamam zibillənməyə başladı.

Mən hesab edirəm ki, Azərbaycanın təhlükəsizlik orqanı sistemində olan bu dövr 37-38-ci illərə bərabər bir dövrdür. Çünki bu dövrdə bizim xalqımıza qarşı repressiyalar başladı. Nəyə görə bu insanları repressiya etmək lazım idi? Axı onlar Qarabağdakı ədalətsizliyə qarşı çıxış edirdilər. Niyə onları

həbs etmək lazım idi? Niyə onların dalınca işlər görmək lazım idi? Onlar Moskvanın ədalətsizliyinə qarşı etiraz edirdilər, çıxışlar, mitinqlər edirdilər. Nə üçün onların əleyhinə iş görmək lazım idi? O vaxtkı Təhlükəsizlik Komitəsinin bütün işləri bu məsələyə səfərbər olundu. Deyə bilərəm ki, 1988-ci ildən ta 1993-cü ilə qədər, 1993-94-cü illər də çox böhranlı illər olub.

Çox təəssüflər olsun, mən çox böyük təəssüf hissi keçirirəm. Çünki yenə də deyirəm, burada mənim xüsusi zəhmətim olmuşdu. Bu binanın tikilməsi haqqında Abbasov dedi. Bəli, bu, böyük bir memarlıq abidəsidir, Bakı şəhərini gözəlləşdirən binadır və Azərbaycan xalqına bundan sonra əsrlər boyu xidmət edəcəkdir. Bəli, mən bu binanın tikilməsinin təşəbbüskarıyam və buna bilavasitə rəhbərlik etmişəm. Hələ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olarkən belə bir binanın tikilməsi təklifini irəli sürmüşdüm. Çünki dəniz kənarında yerləşən bina köhnə bir bina idi. Yeni bir binanın tikilməsi təklifini irəli sürmüşdüm, amma o vaxt bunu edə bilmirdim, çünki vəsait, başqa şeylər lazım idi. Respublikaya rəhbər keçəndən sonra bu binanın tikilməsi, eyni zamanda indi Prezident sarayı adlanan binanın tikilməsi məsələsini ortaya atdım.

Ancaq mən o vaxt çalışırdım ki, əvvəl iqtisadi məsələlərə xidmət edən binalar, yəni zavodlar, fabriklər, elektrik stansiyaları, metro stansiyaları, yaxud da ki, yaşayış binaları tikilsin ki, insanlar yaşasınlar. Böyük-böyük mikrorayonlar, qəsəbələr salındı. Ancaq bununla yanaşı, bu iki binanın da tikilməsi mənim qarşımda duran məqsəd idi. Məqsədimə də nail oldum. İndi gəlmişəm, girmişəm bu binaya - yer mərmər, divarlar mərmər, bina belə gözəldir, böyük, monumental bir binadır, memarlıq abidəsidir, əsrlər boyu yaşayacaqdır. Bu, mənim xidmətimdir, mən bununla fəxr edirəm.

Amma, eyni zamanda ürəyim ağrıyır. Ona görə ki, bu binanın özünü də bərbad vəziyyətə salmışdılar, burada yetişdirdiyimiz kadrları da dağıtdılar, kadrların mənəviyyatını da poz-

dular və bu binanın içində Azərbaycanın milli mənafeyinə zidd olan tədbirlər də həyata keçirildi. Dəhşətlisi budur ki, o cümlədən, şəxsən mənim əleyhimə tədbirlər də bu binadan keçirildi. Bunu yaradan, quran, bu orqanı ayaqüstə qoyan, milliləşdirən, bu günə gətirən adamın əleyhinə buradan tədbirlər keçirilməyə başlandı. Mən Moskvada yaşayarkən də buradan mənim əleyhimə tədbirlər keçirilirdi. 1990-cı ildə, yanvar hadisələrindən sonra mən gəldim, burada qısa müddət yaşadım, onda da burada mənim əleyhimə tədbirlər keçirilirdi. Getdim Naxçıvanda yaşadım, orada da mənim əleyhimə tədbirlər keçirilirdi. Naxçıvandan deputat seçildim, 1991-ci ilin fevralında gəldim buraya. Buradakı qüvvələr dəhşətə düşmüşdü. Buradakı qüvvələr azmış kimi, Moskvadan da on beş nəfər cürbəcür peşə sahibi - KQB işçiləri gətirmişdilər ki, mənim ətrafımda müşahidə aparsınlar, məni izləsinlər, danışdıqlarımı uzaq məsafədən yazsınlar. Mənim əleyhimə bu işlər gedirdi, bəli, gedirdi.

Mən indi hamını bağışlamışam, o cümlədən o adamları da bağışlamışam. O adi, sıravi işçilərin günahı yoxdur, günah onlarda deyil. Çünki onlar icraçıdırlar, nizam-intizama tabedirlər, verilən göstərişləri icra etməlidirlər. Əgər Heydər Əliyevin telefonuna qulaq asmaq lazımdırsa, onlar qulaq asmalı idilər. Yaxud Heydər Əliyevin dalınca gedib izləmək lazım idisə ki, Heydər Əliyev küçədə kiminlə görüşdü, onu etməli idilər, Heydər Əliyevin evində danışıqlarına qulaq asmaq lazımdırsa, onu etməli idilər. Bunların heç birisinə qarşı iddiam yoxdur, onlarda heç bir günah görmürəm. Bunu təşkil edənlər, göstəriş verənlər günahkardırlar, onlar cəzalandırılmalıdırlar.

Yenə də deyirəm, mən hamını bağışlamışam. Günahkarları da, günahkar olmayanları da bağışlamışam. Mənə sədaqətsiz, vəfasız çıxanları da, o cümlədən bu orqanda böyütdüyüm, yetişdirdiyim, böyük-böyük vəzifələrə gətirdiyim adam-

lardan vəfasız adamlar da çıxdı, - onları da bağışlamışam. Hamısını bağışlamışam. Ancaq bu da tarixi həqiqətdir.

Şübhəsiz ki, bu illərdə, yenə də deyirəm, bu orqanın işlərinə zərbələr vuruldu, o dağıdıldı. Təsadüfi deyil ki, - təsəvvür edin, bunu da yəqin bilirsiniz, - 1991-ci ilin axırında mən Naxçıvanda parlamentin, Ali Məclisin sədri olarkən Naxçıvan Dövlət Təhlükəsizliyi Komitəsinin işinin dayandırılması və o komitənin bağlanması haqqında qərar qəbul etdim. Bunu da mən etmişəm, mən qərar qəbul etdim. Nə üçün qərar qəbul etdim? Baxmayaraq ki, bu, vaxtilə mənim üçün doğma bir orqan olubdur və bu orqanda işlədiyim dövrdə çox böyük təcrübə yolu keçmişəm, böyük təhsil almışam. Mən o illərə və bu orqanda işlədiyim dövrə daim minnətdaram. Hər şeyi olduğu kimi deyirəm. Ancaq bu orqan ki, burada da, Naxçıvanda da bizim millətimizin əleyhinə işləməyə başlamışdı, ona görə də mən qərar qəbul etdim, onu bağladıq. O vaxt Mütəllibov burada hakimiyyətdə idi, - çox hay-küy saldılar, amma heç bir şey edə bilmədilər. Nə edə biləcəkdilər? Naxçıvan Muxtar Respublika idi, mən də qərar qəbul etdim, bağladım.

Mütəllibov hakimiyyətdən gedəndən, Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra biz qərar qəbul etdik, bu orqanı açdıq. Amma təəssüflər olsun ki, onlar da o birilərdən betər oldular. Namiq Abbasov xüsusən son illərdə bu orqanın işinə vurulan zərbələr haqqında çox danışdı. Tamamilə düzdür. 1991, 1992, 1993-cü illərdə də çox böyük zərbələr vuruldu. 1994-cü ildə dövlət çevrilişi cəhdi ərəfəsində burada təcridxanadan məhbusların qaçırılması dövründə də böyük zərbələr vuruldu. Bunun bir hissəsi Mütəllibovun və onun hakimiyyəti vaxtı işləyən adamların günahıdır, bir hissəsi Xalq Cəbhəsinin hakimiyyəti vaxtı olan adamların günahıdır, o biri hissəsi isə bizim dövrümüzdə - 1993-1994-cü illərdə buraya təyin etdiyimiz Nəriman İmranovun və onu idarə edən Surət Hüsey-

novun günahıdır. Bunlar da bizim tariximizin həqiqətləridir, bunları da inkar etməməliyik, açıq-aydın deməliyik.

Burada Sülhəddin Əkbərov haqqında danışdılar. Xatirimdədir, 1991-ci il sentyabrın əvvəli idi. Naxçıvanda xalq ayağa qalxıb Kommunist Partiyasını ləğv edəndən sonra bir neçə gün mitinqlər getdi və tələb etdilər ki, mən Naxçıvanda Ali Məclisin sədri vəzifəsini qəbul edim. Vəziyyəti və xalqın tələbini nəzərə alaraq, mən bu vəzifəni öz üzərimə götürdüm. Amma ondan bir neçə gün sonra həmin o Sülhəddin Əkbərov mənim yanıma gəldi ki, siz məni Naxçıvanda Dövlət Təhlükəsizliyi Komitəsinə təyin edin, burada sizə yaxşı xidmət edəcəyəm. Dedim ki, bilirsən, burada hələ başım qarışıqdır, o qədər iş var ki, onunla məşğul olmağa vaxtım yoxdur. Bir də ki, bilirsiniz, Mütəllibovun prezident seçilməsini Naxçıvan Muxtar Respublikasında qadağan etmişdik. Naxçıvana qarşı böyük bir desant göndərilmişdi. KQB orada bizim əleyhimizə işləyirdi. Ona görə mən orada yeni bir KQB sədri qoymaq imkanında deyildim. Hələ ki, vəziyyəti müəyyən qədər araşdırmalı idim. Ancaq o, bir neçə dəfə belə təkliflə mənim yanıma gəldi. Sonra isə Xalq Cəbhəsi hakimiyyətə gələn kimi burada birinci müavin vəzifəsində oturdu və Namiq Abbasovun dediyi kimi, bütün hakimiyyəti əlinə aldı.

Bunlar hamısı tarixin səhvləridir. Nə etməli, bizim başımıza belə bəlalar gəlibdir. Ancaq şükürlər olsun ki, bunlar hamısı geridə qalıbdır və indi biz yeni bir mərhələ, yeni dövr yaşayırıq.

Bəli, 1993-cü il iyunun 9-da mən Bakıya gələndə Azərbaycanın ölüm-dirim məsələsi həll olunurdu. Mən buraya dəvət edilərkən, Naxçıvandan gəlmək istəmirdim - bu, məlumdur. Dörd gün - iyunun 5-dən 9-na qədər mənimlə danışıqlar getdi ki, buraya gəlim. Mən gəlmək istəmirdim. İyunun 9-da mən buraya vəzifə almaq üçün gəlmədim, gəldim ki, görüm

vəziyyət necədir, nə edə bilərəm ki, burada vəziyyəti yüngülləşdirim.

Ondan sonrakı hadisələr sizə məlumdur, bir daha xatırlatmağa ehtiyac yoxdur. Ancaq Azərbaycanda həddindən artıq böhranlı vəziyyət idi. Biz belə bir böhranlı vəziyyətdən çıxdıq. Belə vəziyyətdən çıxarkən, şübhəsiz ki, Nəriman İmranov kimi adamı da buraya təyin etmək məcburiyyətində olduq. Təyin etdik. Amma mən heç də düşünmürdüm ki, o, bu qədər xəyanət edə bilər. Çünki o, keçmişdə də burada işləmişdi, bu orqanın kadrı idi, burada müəyyən hazırlıq keçmişdi. Ancaq xəyanət etdi, cəzasını aldı. Bilirsiniz, bizim bu orqanın tarixində görünməmiş hadisə idi ki, dövləti cinayət etmiş adamlar KQB-nin daxili təcridxanasından gizli çıxarılsın və heç kəsin də xəbəri olmasın. Bundan artıq xəyanət ola bilməzdi. Bu xəyanət edildi, xalqa qarşı xəyanət edildi və bu, biz ilk neft müqaviləsini imzalayanın sabahısı gün edildi - məhz Azərbaycanı yaralamaq, pozmaq üçün. Onun dalınca Şəmsi Rəhimovun və Afiyəddin Cəlilovun qətlə yetirilməsi, onun dalınca oktyabrın 2-də prokurorluğun XTPD tərəfindən zəbt olunması, oktyabrın 4-də dövlət çevrilişi cəhdinin başlanması. Görün Azərbaycanın başına nə bəlalar gəldi!

Əgər o vaxtlar burada bizim sağlam kollektivimiz, işçilərimiz olsaydı, şübhəsiz ki, bu hadisələrin çoxunu əvvəldən görüb qarşısını ala bilərdik. Ancaq ona baxmayaraq, xalqın dayağı, köməyi ilə biz bunların hamısının öhdəsindən gəldik. Sonra görülən işlər nəticəsində, - mən bunu qiymətləndirmişəm, günahları da deyirəm, nailiyyətləri də, - Daxili İşlər Nazirliyinin apardığı işlər nəticəsində, Milli Təhlükəsizlik Nazirliyinin, prokurorluğun apardıqları işlər nəticəsində cinayətkarların əksəriyyətini, uzaq yerlərdən tutub gətirmişik. Buradan qaçmış Rəhim Qazıyev də tutuldu, gətirildi. Bunların qaçırılmasını təşkil edən Surət Hüseynov da tutuldu, gətirildi. Əlikram Hümbətov da tutuldu, gətirildi. Hamısı tutuldu, gəti-

rildi. Bir neçəsi tutulmayıb, onlar da öz cəzalarını alacaqlar. Xəyanət edən adam mütləq cəzasını alacaq, almalıdır.

Deyə bilərəm ki, 1994-cü ildən sonra Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin həyatının yeni mərhələsi başlayıbdır. Bu mərhələ də o qədər rəvan getmir, o qədər hamar deyil - çətinliklər çoxdur. Amma şəxsən məni qane və məmnun edən odur ki, burada, Azərbaycan Milli Təhlükəsizlik Nazirliyində ardıcıl olaraq nizam-intizam yaranır, işçilər öz məsuliyyətlərini başa düşür, rəhbərlik öz məsuliyyətini dərk edir, sağlam əhval-ruhiyyə, sağlam mühit yaranır. Bu, çox təqdirəlayiq haldır. Çünki bu qədər çətinliklərdən keçib gələn Milli Təhlükəsizlik Nazirliyi indi yenidən dirçəlir. Bir də deyirəm, 1985-ci ildən nazirliyin başına bu bəlaları gətirməyə başladılar, 1988-ci ildən burada böhran başlayıb ta 1994-cü ilin qışına qədər davam edib. 1995, 1996 və 1997-ci illərdə burada sağlamlaşma prosesi gedir və gedəcəkdir. Mən buna əminəm. Çünki niyə? Nə üçün, məsələn, 1985-ci ildə bu orqanda laxlama başladı, 1988-ci ildə bu dəhşətlər başladı? Bu, şübhəsiz ki, burada işləyən adamların da günahıdır, onların rəhbərlərinin də günahıdır. Ancaq respublikanın başında olanların günahı bundan çoxdur. Respublikanın başında duranlar nə cür istiqamət verirsə, nə cür rəhbərlik edirsə, işlər də o cür gedir. Məsələn, siz dəhşətlənirsiniz ki, 1991, 1992, 1993-cü illərdə burada dəhşətli vəziyyət vardı. Mən də dəhşətlənirəm. Amma dəhşətlənmək lazım deyil, respublikanın özündə vəziyyət necə idi? Respublikada hərc-mərclik, özbaşınalıq, dağıdıcı proseslər yuxarıdan aşağıya gedirdi.

Mən hesab edirəm, bu, müqəddəs binadır. Biz işlədiyimiz vaxt bu binaya - Təhlükəsizlik Komitəsinin binasına kənar adam daxil ola bilməzdi. Lazım olsa, ən mötəbər adamlar xüsusi buraxılış vərəqəsi ilə gələ bilərdilər. Ancaq bu binanı bazara döndərdilər. Əgər bazarkomlar, mafiozlar, cinayətkarlar, “Qardaşlıq” cəmiyyətinin başçısından başlamış, nə bilim ba-

zarkoma qədər, mafioz, cinayətkar qrupların başçılarına qədər bu binaya gəlib kabinetlərdə, o cümlədən nazirin kabinetində hökm edirdilərsə, bu orqanda işləyən adamlardan nə gözləmək olardı? Adi, sıravi işçilərdən nə gözləmək, nə tələb etmək olardı?

Dəhşətlisi budur. Dəhşətlisi odur ki, Əjdər Xanbabayevin qətlə yetirilməsi, terror planı məhz burada qurulmuşdu. Bəli, siz, köhnə işçilərdən olanlar da bilirsiniz. Əjdər Xanbabayev buradan mənimlə Moskvada əlaqə saxladığına görə onun telefonları nəzarətdə idi. Danışıqlarının hamısı yazılır və buranın rəhbərliyinə, respublikanın rəhbərliyinə təqdim olunurdu. Onun mənimlə danışıqlarının hamısı yazılırdı. Moskvada da mənim danışıqlarım yazılırdı, amma burada da yazılırdı.

Allaha şükür olsun ki, bizim orqanlar - prokurorluq, Daxili İşlər Nazirliyi, - hamısı yığışıb bu cinayəti açdılar. Cinayətkarlar, onu bilavasitə öldürən adamlar həbs olundular, cəzalandılar. Amma siz bunu təşkil edən adamları aşkara çıxarmadınız. Bunu təşkil edənlər KQB-də rəhbər vəzifədə işləyən adamlar idi, respublikanın başında duran adamlar idi. Seyfəl Babayevin nə işi vardı ki, gedib Əjdər Xanbabayevi öldürsün? Yaxud da adları yadımdan çıxıb, - Tarix, bir də Tofiqdir, nədir, - onların nə dərdi vardı ki, gedib Əjdər Xanbabayevi öldürsünlər? Onların nə işlərinə qalmışdı, nə dərdinə qalmışdı ki, belə cinayət etsinlər?

Onu niyə öldürdülər? Bu, məlumdur, mən bunu dəfələrlə demişəm. Mən Moskvadan buraya gəlmək istəyirdim, qarşımı alırdılar - bir dəfə, iki dəfə, üç dəfə... Bir çox dəfələrdən sonra axırda birtəhər təyyarə bileti aldım. Mən xəlvəti xəbər verdim ki, filan vaxt, filan reyslə gəlirəm, heç olmasa, gəlsinlər, aeroportdan şəhərə gəlməyə bir maşın olsun. Bunu mənim qardaşım ona demişdi. O da sadəlövhlüyündən, ürəyiaçıqlığından gedib bir çox şairlərə, yazıçılara, başqalarına, - hamısına demişdi ki, Heydər Əliyev gəlir, onu qarşılamaq lazımdır.

Səhv etmişdi, burada da adamlar başlamışdılar ki, gedək, Heydər Əliyevi qarşılayaq.

İkinci tərəfdən də o, üç-dörd dəfə mənimlə telefon əlaqəsi saxladı. Mənə də müraciət etdi ki, biz gələcəyik, qarşılayacağıq. Mən xahiş etdim, dedim, səndən rica edirəm, etmə bunu, nə sənə, nə mənə lazım deyil. Mənə sadəcə bir avtomaşın lazımdır ki, aeroportdan şəhərə gələ biləm, başqa şey lazım deyil. Mən hazırlaşmışdım ki, iki gündən sonra gəlim. Vurulan axşamın sabahısı günü mənim oğlum buraya gəlməli idi. Axşam zəng elədim xəbər verim ki, oğlum buraya gəlir, onu qarşılasınlar. Gecə saat on iki, ya bir idi, mənə dedilər ki, axşam Xanbabayevi öldürdülər. Nə üçün öldürdülər, -bunların hamısı, hər şey istintaqsız, yoxlamasız məlumdur. Bunu burada təşkil etdilər. Çünki telefonlara qulaq asanlar da, Əjdər Xanbabayevi izləyənlər də, onu izləyib Poluxin küçəsində öldürülməsini təşkil edənlər də buradan idilər.

İndi görün, nə qədər dəhşətli hadisələr baş verirdi. Gəncliyimi həsr etdiyim, nə qədər kadrlar yetişdirdiyim bir yerdən, ocaqdan, binadan mənə qarşı və respublikanın yararlı, dəyərli insanlarına qarşı bu cür terror aktları hazırlayırdılar. Mənim özümə qarşı da terror aktı hazırlanırdı. Bu da buradan hazırlanırdı, mən bilirdim.

Ancaq yenə də deyirəm, sevindirici hal odur ki, bunlar geridə qalıb, biz bunları ötüb keçmişik. Bütün o cinayətkarlar ya öz cəzalarını alıblar, ya da alacaqlar. Həyat sübut etdi ki, onlar xalqa xəyanət edirlər. Tarix bunu sübut etdi, xalq öz sözünü dedi və müstəqil Azərbaycan Respublikası özünün yeni dövrünü yaşayır.

Sizin təşkilatınız da öz yeni dövrünü, demək olar ki, 1995-ci ilin əvvəlində yaşamağa başlayıbdır. Mən bir də qeyd edirəm ki, 1995, 1996 və 1997-ci illərdə sizin orqanın potensialı, işiniz artıq görünür. Gördüyünüz bir çox işlər yüksək qiymət alıb və mən bu gün bunu bir daha qeyd edirəm. Xüsu-

sən metro partlayışlarının açılması. Doğrudur, sizin borcunuz o idi ki, bu partlayışlara yol verməyəydiniz. Amma mən bilirəm ki, partlayışlar olan vaxt bu təşkilat, sizin nazirlik nə vəziyyətdə idi. Amma yol veriləndən sonra onların açılması da böyük nailiyyətdir. Mən hesab edirəm, sizin gördüyünüz çox ağır, zəhmətli işin nəticəsidir ki, bunlar açıldı, cinayətkarlar tapıldı, məlum oldu.

Yaxud, başqa separatçı qüvvələrin açılması, tapılması. Yaxud, Azərbaycanın siyasətinə zidd olan insanların ifşa edilməsi, məhkum olunması. Xüsusən Azərbaycanda dövlət çevrilişinə cəhd göstərmək istəyən ayrı-ayrı şəxslərin, Moskvada oturub burada, bu işləri istiqamətləndirən adamların tapılması, həbs edilməsi. Böyük bir qrup həbs olunub, istintaq gedir. Məndə olan məlumatlara görə istintaq da normal gedir və öz nəticəsini verəcəkdir. Bunlar hamısı onu göstərir ki, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi artıq dirçəlib, formalaşıb, öz gücünü toplayıb və həqiqətən müstəqil Azərbaycan Respublikasının dövlət təhlükəsizliyini təmin etməyə, qorumağa qadirdir.

Ancaq eyni zamanda sizin qarşınızda hələ çox böyük vəzifələr var. Birinci vəzifə ondan ibarətdir ki, sovet dövründə də, müstəqillik dövründə də bu orqanda buraxılmış səhvlər bundan sonra bir daha buraxılmasın. Sizin ən əsas məqsədiniz ondan ibarətdir ki, heç bir vətəndaşa qarşı ədalətsiz hərəkət edilməsin. Hər bir vətəndaşın hüquqlarının qorunması bizim dövlətimizin və prezident kimi mənim əsas vəzifəmdir. Bu vəzifənin də böyük bir hissəsini siz həyata keçirməlisiniz. İnsanların hüquqlarının qorunması, təhlükəsizliyinin təmin olunması, təkcə dövlətin yox, cəmiyyətin, xalqımızın da təhlükəsizliyinin təmin edilməsi sizin vəzifənizdir.

Ona görə də bir tərəfdən siz çox ciddi, cəsarətli tədbirlər görməlisiniz, ikinci tərəfdən, keçmişdə buraxılan səhvlərin heç birisini buraxmamalısınız. Yenə də deyirəm, gərək heç

kəs ədalətsiz olaraq heç bir məhrumiyyətə məruz qalmasın, heç kəsin hüququ tapdalanmasın, heç kəsin mənliyinə toxunulmasın, hər kəsin vətəndaş ləyaqəti qorunub saxlanılsın. Bu, bizim cəmiyyətimizin, dövlətimizin vəzifəsidir. Bunun da icraçılarından biri, ən böyüyü sizsiniz, siz bunu həyata keçirməlisiniz.

Bizdə fikir azadlığı var, - kim nə istəyir danışır, - söz azadlığı var. Ona görə keçmişdə olduğu kimi, nə bilim, “antisovet təbliğat”, filan-beşməkan, yaxud indi deyək ki, antidövlət təbliğatı - bunların heç biri cinayət deyildir və heç biri cinayət kimi qiymətləndirilməməlidir, siz belə işlərlə məşğul olmamalısınız. Siz həqiqətən dövləti sarsıtmaq, dövlətin qanunlarını pozmaq işinə mane olmaq istəyən, yaxud cəhd göstərən qüvvələrin işi ilə məşğul olmalı, onların fəaliyyətini öyrənməli və bu barədə məlumatlar verməlisiniz. Terrorçuları meydana çıxarmalısınız. Terrorizm dünyada hər yerdə pislənən bir haldır. Azərbaycanda tarixdə terrorizm olmamışdır. 37-38-ci illərdə Azərbaycanda dövlət terrorizmi olmuşdu, amma Azərbaycanda sovet hakimiyyəti vaxtında ayrı-ayrı şəxslər tərəfindən bir dəfə də terrorizm olmamışdı. Terrorizm, bax, bu son illərdə - 90-cı ildə və sonrakı illərdə baş verdi. Bunlar aradan götürülməlidir. İnsanların həyatına sui-qəsd edən qruplar, dəstələr, nə bilim, reketlər, silahlı dəstələr - bunların qarşısı alınmalıdır. Çünki bunlar həm cəmiyyətə qarşı, həm dövlətə, həm də xalqa qarşı cinayət edirlər. Bunların qarşısı alınmalıdır.

Siyasi partiyalar sərbəstdir, hərə öz fəaliyyətini açıq-aydın aparır və milli təhlükəsizlik orqanları bunların fəaliyyətinə toxunmamalıdır. Ancaq kimsə silah işlətməyə çalışırsa, terror etmək istəyirsə, kimsə silahlı dəstə yaratmaq, silah yolu ilə yenə hakimiyyətə gəlmək istəyirsə, hansı partiyaya mənsubluğundan, kimliyindən asılı olmayaraq o adamlar aşkara çı-

xarılmalı, onların haqqında qanun çərçivəsində ölçü götürülməlidir.

Ona görə də mən bu gün bu fürsətdən istifadə edərək 1988-ci ildən etibarən silah gücü ilə terrorizm yolu ilə hakimiyyət əldə etmək cəhdləri etmiş adamlara bir daha xəbərdarlıq edirəm: Onların heç birisinə heç bir şey bağışlanmayacaqdır. Siyasi fəaliyyət heç vaxt silahla, güc ilə, zorakılıqla bir araya gələ bilməz. Siyasi fəaliyyət beynəlxalq hüquq normaları, konstitusiyamız çərçivəsində, Azərbaycanın hüquq normaları çərçivəsində aparılmalıdır. Kimsə bu çərçivədən çıxarsa, qoy özündən incisin, onlar bağışlanmayacaqlar. Ona görə də mən sizi də xəbərdar edirəm ki, öz həddinizi aşmayasınız və heç kəsin haqqında qanunsuz heç bir tədbir görməyəsiniz.

Köhnə əhval-ruhiyyə ilə yaşayan adamları da xəbərdar edirəm, onlar da bilsinlər ki, o dövrlər keçdi. Biz o dövrlərin bərpa olunmasına heç vaxt yol verə bilmərik. Bu, xalqımızın bədbəxtliyi, bəlası idi. 1993-cü ildə hakimiyyətin başına gəlmiş bəla özünün günahından gəlmişdi. Çünki hakimiyyətdə olan adamlar özləri silahlı dəstələr yaratmışdılar, özləri silah işlədərək hakimiyyətə gəlmişdilər, silah gücü ilə cürbəcür işlər görmüşdülər. Ona görə də o silah onların əleyhinə çevrildi. Onlar özləri özlərini günahlandırmalıdırlar. Mən silah işlədən adamlara heç vaxt bəraət qazandırmıram. Ancaq kimin günahı haradadır, sadəcə olaraq onu demək istəyirəm.

Ona görə hamı bilməlidir: biz cəmiyyətimizdə bu sabit şəraitdə, sərbəst, azad şəraitdə, rahat yaşayan insanları bundan sonra bir daha ayrı-ayrı cinayətkarların pəncəsi altına verə bilmərik. Yaranmış ictimai-siyasi sabitliyi və əmin-amanlığı qorumalı, saxlamalı və möhkəmləndirməliyik. Həm Milli Təhlükəsizlik Nazirliyi, həm Daxili İşlər Nazirliyi, bütün hüquq-mühafizə orqanları cinayətkarlıqla mübarizəni gücləndirməlidirlər. Azərbaycanda cinayətkarlığı tamamilə yox et-

mək lazımdır. Azərbaycan bir sivil, demokratik, hüquqi dövlət kimi cinayətkarlıqdan tamamilə xilas olmalıdır.

Sizin əsas vəzifələrinizdən biri qaçaqmalçılığın qarşısını almaqdır. Milli Təhlükəsizlik Nazirliyinin böyük bir hissəsi bizim sərhəd qoşunlarıdır. Sərhəd qoşunları Azərbaycan Silahlı Qüvvələrinin böyük bir hissəsidir və sərhədçilər öz vəzifələrini bilməlidirlər. Təəssüflər olsun ki, sərhəd qoşunları rəhbərliyinin işində də, ayrı-ayrı sərhəd dəstələrinin işində də çox kobud səhvlərə yol verilir. Bəzən ayrı-ayrı vəzifəli şəxslər vəzifəsindən sui-istifadə edirlər. Bəzən dövlət əmlakını dağıtmaq, öz şəxsi mənafelərini həyata keçirmək üçün cürbəcür qeyri-qanuni yollara gedirlər. Mənə belə siqnallar bizim ordudan da, o cümlədən sərhəd qoşunları dəstələrindən də gəlir. Ona görə mən bir də xəbərdarlıq edirəm: biz buna yol verməyəcəyik və bunun qarşısını almaq üçün Milli Təhlükəsizlik Nazirliyinin sərhəd qoşunları, onun rəhbərləri bir daha öz məsuliyyətini dərk etməlidir. Hər bir sərhəd dəstəsinin komandiri bilməlidir ki, o, böyük məsuliyyət daşıyır, müstəqil Azərbaycanın sərhədlərini qoruyur.

Amma bu sərhədləri etibarlı qorumaq lazımdır. Sərhədlərdən təxribatçıların, terrorçuların keçməsinə, eyni zamanda narkobiznesin həyata keçirilməsinə, cürbəcür cinayətkar adamların keçməsinə, qaçaqmalçılıq əməliyyatlarının həyata keçirilməsinə yol vermək olmaz. Azərbaycana giriş-çıxış yerləri çox etibarlı qorunmalıdır. Sərhəd dəstələri bizim gömrük təşkilatı ilə, polislə sıx əməkdaşlıq etməli və hamısı birlikdə müstəqil dövlətin sərhədlərini layiqli qorumalıdırlar. Bu da Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifələrindən biridir.

Sizin qarşınızda duran əsas vəzifələrdən biri əks-kəşfiyyat işini gücləndirməkdir. Çünki artıq ayrı-ayrı ölkələrin kəşfiyyat orqanlarının Azərbaycana qarşı pozucu, təxribatçı, casusluq hərəkətləri və tədbirləri meydana çıxıbdır. Bunun qarşısı alınmalıdır. Ona görə də əks-kəşfiyyat işi güclənməlidir.

Biz heç bir ölkənin əleyhinə iş aparmırıq, amma bizim ölkəmizin də əleyhinə heç kəs iş aparmamalıdır. Bizimlə qonşu olan dövlətlər Rusiyadır, Gürcüstandır, Türkiyədir, İrandır. Bu ölkələrlə bizim qonşuluq, dostluq əlaqələrimiz var və əməkdaşlıq etmək lazımdır. Hesab etmirəm ki, bu ölkələrdən Azərbaycana qarşı casusluq, təxribatçılıq, yaxud başqa hərəkətlər baş verməlidir. Təəssüf ki, bəzilərindən artıq belə hərəkətlər baş veribdir. Ona görə də əks-kəşfiyyat işi gücləndirilməlidir.

O ki, qaldı Ermənistanın Azərbaycanda təxribatçılıq fəaliyyətinə, bu haqda çox geniş məlumatlar, çox geniş faktlar var. Sizin vəzifəniz Ermənistan kəşfiyyat orqanlarının, təxribatçı orqanlarının Azərbaycanda apardıqları işin qarşısını almaqdan ibarətdir. Bu barədə Milli Təhlükəsizlik Nazirliyi çox geniş, planlı, ardıcıl tədbirlər görməlidir. Bu, sizin ən əsas vəzifənizdir. Biz atəşi dayandırmışıq, danışıqlar aparırıq. Biz müharibə aparmaq istəmirik və əminəm ki, bu məsələnin sülh yolu ilə həllinə nail olacağıq. Ancaq sülh yaratmaq istədiyimiz zaman, Ermənistandan bizə qarşı təxribatçılıq, casusluq hərəkətlərinin, yaxud başqa hərəkətlərin edilməsi yolverilməzdir. Amma bunu edirlər. Demək, qarşısı alınmalıdır. Bunun qarşısını almalısınız. Bu, sizin əsas vəzifələrinizdən biridir.

Müstəqil Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi Azərbaycan dövlətində öz şərəfli yerini tutmalıdır. Azərbaycanın müstəqilliyini qoruyan dövlət atributlarından hər biri bizim üçün əhəmiyyətlidir, hər birinin böyük məsuliyyəti var. Biz Azərbaycanın dövlət atributlarının, dövlət strukturlarının gündən-günə güclənməsini, təkmilləşməsini təşkil etməyə çalışacağıq. Bunların içərisində Milli Təhlükəsizlik Nazirliyi xüsusi yer tutur. Mən çox arzu edərdim ki, keçmişin ən yaxşı ənənələrindən istifadə olunsun. Keçmişin günahları, səhvləri, keçmişdə bu orqanlarda edilmiş cinayətlər tamamilə kənarlaşdı-

rılsın və onların yenidən baş verməsinə heç bir imkan yaradılmasın. Amma yaxşı ənənələr keçmişdə çox olubdur, o ənənələrdən istifadə etmək lazımdır.

Nizam-intizam Milli Təhlükəsizlik Nazirliyinin işinin əsasını təşkil edən amillərdən biridir. Siz hərbi qulluqdasınız. Hərbi qulluq birinci növbədə nizam-intizam üzərində qurulur. Nizam-intizam gündən-günə möhkəmlənməlidir. Milli Təhlükəsizlik Nazirliyində işləyən sıravi adam da, zabit də, rəhbər işçi də bilməlidir ki, nizamnamə, konstitusiya, Milli Təhlükəsizlik Nazirliyinin əsasnaməsi sizin üçün rəhbər və istiqamətverici sənədlərdir. Öz peşəkarlıq səviyyənizi yüksəltmək üçün bunlar həmişə sizin vəzifəniz olmalıdır. Bu, hər bir ölkənin təhlükəsizlik orqanı üçün vacib olan amildir.

Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar əhval-ruhiyyə olsun, peşəkar kadrlar və iş üslubu olsun. Peşəkarlıq səviyyəsinin artırılmasının da sərhədi, hüdudu yoxdur. Ona görə də siz daim öz peşəkarlığınızın təkmilləşdirilməsi üzərində işləməlisiniz, oxumalı, öyrənməlisiniz, çox savadlı, bilikli insanlar olmalısınız.

Keçmişdə sovet NKVD-sinin ən böyük günahlarından biri o idi ki, orada işləyən adamların əksəriyyəti çox dar çərçivədə düşünən adamlar idi. Onlar nizamnamədən, nizam-intizamdan savayı başqa bir şey bilmirdilər. Əksəriyyəti mədəniyyətdən kənar adam idi, ədəbiyyat, mədəniyyət nə olduğunu bilmirdi. Ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti, musiqini, tarixi yaxşı bilməyən adam peşəkar təhlükəsizlik işçisi ola bilməz. Bilirsiniz, təhlükəsizlik işçisi adi sısk işçisi deyil, - “sısk” rus sözüdür, mən bunu işlədirəm, - bu işçi yüksək mədəniyyətli, keyfiyyətli işçi olmalıdır. Elə bir işçi ki, gərək şairlə də, bəstəkarla da, yazıçı ilə də, alimlə də, adi vətəndaşla da danışa bilsin. Yəni belə səviyyədə olmalıdır. Əgər belə

olmasa, o ağı-qaradan, pisi yaxşıdan, cinayəti səhvdən, səhvi cinayətdən ayıra bilməz.

Keçmiş NKVD-nin ən böyük bəlalarından biri də o idi ki, vaxtilə Hüseyn Cavidi, Mikayıl Müşfiqi, Əhməd Cavadı, Yusif Vəzir Çəmənzəminlini, Seyid Hüseyni, Salman Mümtazı danışdıran, istintaq edən adamlar onların kim olduğunu anlamırdılar. Xatirimdədir, mən 1950-ci ildə gəlib Bakıda Təhlükəsizlik Nazirliyində işə başlayanda, - o vaxtlar Salman Mümtazın bir neçə materiallarını axtarırdım. 38-ci ildə işləyən adamlardan biri gördü ki, mən bu işlərə maraq göstərirəm, - dedi ki, bilirsiniz, bu həyətdə binanın daxili həyəti var, həbsxana da orada yerləşirdi, Hüseyn Cavidin, Salman Mümtazın kitabxanasındakı qiymətli-qiymətli kitabları ermənilərin və başqa millətə mənsub olan adamların, çox savadsız adamların gətirib burada vəhşicəsinə yandırdıqlarını gördüm. Mane olmaq istədim, ancaq bacarmadım.

Əlbəttə, o insanlar nə bilirdilər ki, Salman Mümtazda olan nadir kitablar nədir. Əgər bilsəydilər ki, o kitablar Azərbaycan üçün dəyərlidir, onsuz da yandıracaqdılar, çünki onlar Azərbaycanı dağıtmaq istəyirdilər. Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin istintaqını aparanlar onların səviyyəsinə çata bilərdilərmi? Yox! Çünki onların əksəriyyəti savadsız adam idi. O vaxtlar, 37-38-ci illərdə NKVD-də, yəni Daxili İşlər Komissarlığında ali savadlı bir-iki adam tapa bilərdin, bəlkə də yox idi. Çoxunun heç orta savadı da yox idi. Savadsızlığı ləğvetmə kurslarından gəlmiş adamlar, bolşeviklər idilər.

Bilirsiniz, mən bunları bir də ona görə yada salıram ki, bəzən, - Dövlət Təhlükəsizliyi Komitəsində işləyəndə bunu görmüşəm, -bizim müasir adamlarımız da çox dar düşüncəli, səthi, çox kobud, mədəniyyətdən kənar olurlar. Hesab edirlər ki, yüksək vəzifə tuturlar və bu, onlara hər şey veribdir. Amma vəzifə insana heç bir şey vermir, sadəcə olaraq səla-

hiyyət verir. Qalan hər bir şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır. Əgər bunlar varsa, vəzifə səlahiyyətindən dövlətin mənafeyinə, özünün xeyrinə istifadə edə bilər. Yoxdursa, edə bilməyəcəkdir, insanları çolaq, şikəst edəcəkdir. Belə-belə yaramaz işçilərin baisliyindən o vaxtlar nə qədər insanlar şikəst olublar. Ona görə də indi bizim müasir müstəqil Azərbaycan dövlətinin, demokratik Azərbaycanın, hüquqi dövlətin Milli Təhlükəsizlik Nazirliyinin işçiləri gərək yüksək səviyyəli olsunlar. Bu, sizin əsas vəzifənizdir. Sizin məktəbiniz var, bu məktəbin işinə fikir verməlisiniz. Çox ciddi məsələdir. Mən deyə bilərəm ki, keçmiş SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin çox yüksək səviyyəli ali məktəbləri vardı, çox yüksək səviyyəli biliklər verirdilər. Mən özüm biliklərin əksəriyyətini o ali məktəblərdə almışam. Mən Leninqradda oxuyarkən təkcə o ali məktəbin müəllimləri deyil, Leninqrad Universiteti professorlarının əksəriyyəti bizim ali məktəbdə mühazirələr oxuyurdu - həm tarixdən, həm fəlsəfədən, həm ədəbiyyatdan, həm mədəniyyətdən, həm dildən, həm coğrafiyadan, bütün başqa fənlərdən, xüsusən humanitar fənlərdən. Yəni demək istəyirəm, nazirliyin belə yüksək səviyyəli məktəbləri var idi. Hamısı 1953-1954-cü illərdən sonra yaranmış məktəblər idi. Sizin belə məktəbiniz olmalıdır, kadrlar hazırlamalı, işləyən kadrları təkmilləşdirməlisiniz. Amma o məktəbdə dərs verənlər də çox səviyyəli adam olmalıdır. Keçmişdə bəzən belə də olurdu: yaxşı işləməyən işçilərdən can qurtarmaq üçün məktəbə müəllim göndərirdilər. Belə hallar da olmuşdur.

Ən əsas amillərdən biri də xalqa, millətə, müstəqil Azərbaycan dövlətinə sədaqətdir. Milli Təhlükəsizlik Nazirliyinin hər bir işçisi sədaqət andı içməlidir. Bu gün burada çıxış edən gənc işçi and içdi, mən bu andı qəbul etdim. Ancaq mən istəyirəm ki, bu and təkcə sözdə olmasın, qəlbdə olsun. Milli təh-

lükəsizlik orqanının hər bir işçisi hər dəqiqə, hər saniyə bilsin ki, andı qarşısında məsuliyyət daşıyır. O, anasına, doğma torpağına, Azərbaycan xalqına, millətinə, Azərbaycan Konstitusiyasına and içməlidir.

Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç bir yana əyə bilməsin, heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır. Bu sizin üçün, Milli Təhlükəsizlik Nazirliyinin işçiləri üçün xüsusilə lazımdır və Ali Baş komandan kimi, Prezident kimi sizdən bunu tələb edirəm. Nazirdən tələb edirəm ki, mənim bu tələbim nazirliyin bütün strukturlarında həyata keçirilməsini təmin etsin.

Bu nazirlikdə işləyən insanlar təvazökar olmalıdırlar. Təvazökarlıq çox gözəl keyfiyyətdir. Bu nazirliyin böyük səlahiyyətləri var, onun əlində böyük imkanlar var. Bundan sui-istifadə etmək olmaz və eyni zamanda təvazökarlıq etmək lazımdır. Hər bir şəxs təvazökar olmalıdır. Heç kəs öyünməməlidir ki, o, böyük rütbə daşıyır, böyük poqonu, böyük səlahiyyəti var. Əksinə, nə qədər təvazökar olsanız, işinizi o qədər yaxşı apara bilərsiniz. Mən öz həyatımda bunun hamısını görmüşəm.

Əziz dostlar, mənim sizə dediyim sözlər nəzəriyyə deyil, həyatımın çoxillik dövründən keçib gəldiyim təcrübələr nəticəsində əldə etdiyim sözlərdir. Ona görə mən bu sözləri deyirəm. Mən bunu ona görə deyirəm ki, bax, məhz bu keyfiyyətləri rəhbər tutaraq həyatımda çətin yollardan keçdim. 1987-ci ildə Moskvada işdən kənar ediləndən sonra mənim başıma nə qədər bəlalar, nə işlər gətirmək istədilər. Burada xalq məni qəlbində saxladığı zaman, təəssüflər olsun ki, yaxın silahdaş-

larım, o cümlədən bu binada da olan yaxın silahdaşlarım vəfasız çıxdılar. Mən təkbaşına bu çətinliklərin öhdəsindən gəldim. 1990-cı ildə yanvar hadisələri zamanı Moskvada çıxış edib Sovet İttifaqının rəhbərliyini ittiham edəndə burada mənim əleyhimə arxivləri axtarmağa başladılar ki, görək Heydər Əliyev burada işləyəndə, ya da respublikanın başçısı olanda nə günah edib, tapaq. 1986-87-ci illərdə Moskvadan ayrı-ayrı adamlar gəlib buradakı adamların - həm Mərkəzi Komitədən, həm də bu orqandan olan adamların iştirakı ilə məni yoxlayırdılar. Mənim babamı yoxlayırdılar, atamı yoxlayırdılar, tərcümeyi-halımı yoxlayırdılar - harada işləmişəm, nə cür işləmişəm. Yoxladılar, mənim əleyhimə heç bir şey tapıb çıxara bilmədilər!

Bunlar olmuş şeylərdir. Burada olan keçmiş işçilərin bəziləri bunu bilirlər. Bəlkə mənə demirlər, çünki fikirləşirlər ki, desələr, Heydər Əliyev soruşacaq ki, niyə indiyə qədər deməmisiniz? Lazım deyil, qoy sizdə qalsın, amma bilirsiniz. Mən Kommunist Partiyasından çıxdım. Burada bir komissiya yaratdılar ki, Heydər Əliyevin bütün fəaliyyətini yoxlamaq lazımdır. Moskvada xarici müxbirlər mənə telefon edirlər ki, eşitmisinizmi, belə komissiya yaradılıb? Dedim, mətbuatdan öyrəndim. Soruşurlar ki, siz buna necə baxırsınız? Dedim, ağılsız adamlardır. Deyirlər, nə üçün? Dedim ki, çünki Kommunist Partiyasının ən böyük cəzası partiyadan çıxarmaqdır, mən özüm partiyadan çıxmışam, bundan artıq nə cəza verəcəklər?!

Ola bilər çalışırdılar məni həbs etsinlər, amma partiyadan çıxmaq üstündə həbs etmək olmaz. Başqa bir cinayət də mənim haqqımda tapa bilmirdilər, - çox axtardılar, tapa bilmirdilər ki, məni həbs etsinlər. Amma həbs etmək istəyirdilər. Mən ona görə buraya gəldim.

Yaxud, Naxçıvandan buraya gəldim, sessiyada çıxış etdim. Mənim o çıxışlarım sizə məlumdur, təkrar etmək istəmirəm. Dedim ki, referenduma getmək lazım deyil, Azərbay-

can müstəqil olmalıdır, Kommunist Partiyası hakimiyyətdən getməlidir, Bakıda fövqəladə vəziyyət götürülməlidir, yanvar hadisələrinin günahkarları cəzalandırılmalıdır. Mənim dediyim sözlər bunlar idi, başqa bir şey demirdim.

Ən əsas sözüm də o idi ki, qurtardı, - Sovet İttifaqı dağılır, gəlin müstəqilliyimizi əldə edək və Kommunist Partiyasından xilas olaq. Bir tərəfdən sessiyada mənim əleyhimə kampaniya başladı, bir tərəfdən komissiya yaratdılar, - onu da bilirsiniz. Telman Orucovdu, nə idi, onlar başçılıq elədilər, - komissiya yaratdılar, məni yoxladılar. Naxçıvanda məni Ali Məclisə sədr seçdilər. Sentyabrda Mütəllibovun prezident seçkiləri idi, bu seçkiləri qadağan etdik. Bir də gördüm 60 nəfər zabit, 11 deputat gəlibdir ki, bizə təzyiq etsinlər. Daxili işlər naziri var idi – Kərimov, zabitlərə o başçılıq edirdi. Deputatların içərisində bizim Mustafa Cəfəroviç də var idi - buradadırmı? Otur. Bu da deputatların içərisində idi. General İsrafilov var, o da gəlmişdi. Prokurorluqda general rütbəsi olan bir müavin var idi, vaxtilə mən MK-da işləyəndə bizdə təlimatçı işləyirdi - Cəfərquliyev, o da general poqonu ilə gəlmişdi. Gəlmişdilər ki, orada bizi cəzalandırsınlar. Mən də televiziya ilə ultimatum verdim ki, 24 saata çıxmasanız, xalq sizi burada...

Ondan sonra Mütəllibov burada iclas keçirdi, böyük bir protokol yazdı. Protokolda bir çox maddələr yazdı - "Naxçıvan dağıldı, əldən gedir". İki maddə də yazdı ki, anadan olandan indiyə qədər Heydər Əliyevin fəaliyyəti bütün arxivlərdə yoxlanılsın. Bu protokol da üç-dörd gündən sonra mənim əlimə keçdi. Doğrudur, sizin heç biriniz mənə bu barədə kömək etmədiniz, amma Prezident Aparatında məni istəyən adamlar var idi, protokolu mənə göndərdilər. Mən də protokolu verdim mətbuata. Naxçıvanda bizim parlamentdə müzakirə etdik, qərar çıxartdıq, protokolun da əleyhinə bir etiraz bəyanatı verdik.

Yəni demək istəyirəm ki, mənim yetişdirdiyim, ərsəyə gətirdiyim, vəzifələrə qaldırdığım və imtiyazlar verdiyim adamlar məni təqsirləndirmək üçün neçə dəfə məni yoxlayıblar. Neçə dəfə mənim ətrafımda cürbəcür əməliyyat tədbirləri keçiriblər. Heç birisi də nəticə verməyibdir.

Bunu sizə ona görə bir də deyirəm ki, mən bu yolları keçib gəlmiş adamam. Ona görə də həyatımda gördüyüm müsbət təcrübəni sizə tövsiyə edirəm ki, bunlardan istifadə edəsiniz. Bir də deyirəm, mənim dediyim sözlər nəzəriyyə deyildir.

Vətənə, millətə, dövlətə sədaqət sizin işinizin əsas devizidir. Arzu edərdim ki, müstəqil Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin müasir nəsli və gələcək nəsli Azərbaycanın müstəqilliyini qoruyub yaşatmaq, Azərbaycanı bu ağır, böhranlı vəziyyətdən - erməni təcavüzündən çıxarmaq və bütün çətin proseslərdən çıxarmaq üçün vətənə, millətə, xalqa sədaqət hissləri ilə yaşasın.

Milli Təhlükəsizlik Nazirliyinin son vaxtlar əldə etdiyi nailiyyətlərdən razı olduğumu bildirirəm. Əldə etdiyiniz bu nailiyyətlərdə fərqlənmiş işçilərinizi yaxın zamanlarda təltif edəcəyəm. Namiq Abbasova göstəriş verirəm ki, təqdimat hazırlayıb mənə versin. Gələcəkdə də yaxşı işlərinizi, nailiyyətlərinizi həmişə qiymətləndirəcəyik. Amma günahlarınızı, səhvlərinizi də bağışlamayacağıq. Bizim münasibətimiz prinsipial xarakter daşıyır. Bu münasibətləri heç kəs başqa məcraya keçirə bilməz və keçirməməlidir. Bir Prezident, Ali Baş komandan kimi mən özümə etdiyim tələbləri mənə tabe olanlardan da tələb edirəm. Heç kəsin qarşısında bundan artıq heç bir başqa tələb qoymuram. Mən özümə tələbkaram və mənə tabe olan orqanlara, şəxslərə də özümə tələbkar olduğum kimi tələbkaram.

Güman edirəm ki, artıq sizin kollektivdə yaranmış sağlam əhval-ruhiyyə, yaxşı meyllər gələcək nailiyyətləriniz üçün

gözəl zəmindir. Arzu edərdim ki, siz öz fəaliyyətinizi bundan sonra daha da gücləndirəsiniz və Azərbaycan xalqının, dövlətinin qarşısında duran böyük, taleyüklü vəzifələrin həyata keçirilməsinin fəal iştirakçısı olasınız.

Sizi bir daha təbrik edir, cansağlığı, şərəfli, çox əhəmiyyətli işinizdə uğurlar arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

*22 yanvar 1998-ci il*

Hörmətli jurnalistlər, mətbuat, informasiya orqanlarının nümayəndələri!

Mən bir mühüm məsələ ilə əlaqədar mülahizələrimi, fikirlərimi və təkliflərimi bəyan etmək üçün sizinlə görüşə gəlmişəm.

Məlumdur ki, Azərbaycanda son illər cinayətkarlığa qarşı mübarizə güclənibdir. Hakimiyyət, hüquq-mühafizə orqanları dövlətin siyasətini həyata keçirərək ardıcıl tədbirlər keçiriblər və bunlar da öz müsbət nəticələrini veribdir.

1993-cü ildə baş vermiş vətəndaş müharibəsinin qarşısı alındı. Ondan sonrakı dövrdə – 1993-1994-cü illərdə və 1995-ci ilin birinci yarısında respublikamızda demək olar ki, o dövrə, zamana qədər yaranmış kriminogen vəziyyətin aradan götürülməsi üçün ardıcıl işlər görüldü. İndi o illəri xatırlamaq çətin deyildir. Azərbaycanda çoxsaylı cinayətkarlar öz əməllərini cəzasız həyata keçirirdilər. Çoxsaylı cinayətkar qruplar, dəstələr, qeyri-qanuni silahlı dəstələr mövcud idi. Onların bir çoxu ayrı-ayrı qruplara, insanlara, ayrı-ayrı siyasi təşkilatlara məxsus idi. Bunlar da hamısı Azərbaycanda gizli, qanunsuz, çoxsaylı odlu silahların saxlanmasına, işlənməsinə, istifadə edilməsinə gətirib çıxarmışdı.

Məhz buna görə də Azərbaycanda hərc-mərclik, özbaşınalıq var idi. O dövrlərdə insanlar öz həyatlarını qorumaq üçün çox əziyyətlər çəkirdilər. Reket qrupları insanları soyurdu. İnsan oğurlamaq, öldürmək adi bir hala çevrilmişdi. Bunlar bir ilin işi deyildi. Hesab edirəm ki, 1993-cü ilə qədər, on-

dan əvvəlki illərdə cəzasızlıq, hakimiyyətsizlik, özbaşınalıq nəticəsində Azərbaycanda belə bir vəziyyət yaranmışdı.

Biz vəziyyəti normallaşdırmaq üçün çox işlər görməli olduq, çox çətinliklərlə rastlaşdıq. Ancaq məmnuniyyətlə qeyd edə bilərəm ki, biz bu vəzifələrin öhdəsindən gələ bildik. Ayrı-ayrı cinayətkar qrupları zərərsizləşdirərək, biz eyni zamanda, dövlətə qarşı böyük cinayət edən mütəşəkkil bir qurumla rastlaşdıq. 1994-cü ilin oktyabr ayında respublikamızda hakimiyyətdə olan çox yüksək vəzifəli insanlar tərəfindən Azərbaycanda dövlət çevrilişinə cəhd oldu. Biz bunun qarşısını aldıq. Ancaq indi o hadisədən 3 il keçib. O cinayəti edən adamların bəziləri bu 3 il ərzində hələ də axtarılır, tapılır. Ayrı-ayrı ölkələrdə yaxalanır. Hətta o vaxt o cinayətin fəal təşkilatçılarından biri bir ay bundan öncə Rusiyanın hansısa bir şəhərində yaxalanıb gətirilmişdir.

Ancaq sevindirici haldır ki, onlar orada-burada nə qədər gizlənsələr də, indi bizim dövlətimiz elə imkanlara malikdir, hüquq-mühafizə orqanlarımız işlərini yaxşılaşdırıblar, ona görə də belə adamlar başqa ölkələrdə də yaxalanıblar.

Amma xatirinizdədir, ondan sonra biz yeni bir böyük silahlı dəstə ilə rastlaşdıq. İndi müxalifətdə olan ayrı-ayrı qruplar belə cinayətkarları bəzən müdafiə etməyə, yaxud da ki, onların hüquqlarının müdafiəsi üçün çalışırlar. Əlbəttə, hər bir insanın hüququ müdafiə olunmalıdır. İnsan yaşayırsa, onun hüquqları müdafiə olunmalıdır. Bizim buna heç vaxt etirazımız yoxdur. Ancaq eyni zamanda, onu düşünmək lazımdır ki, bu insanlar Azərbaycan xalqına nə qədər zərər vurmuşlar. Bir insan öz cinayətkarlığı ilə yüzlərlə insanın hüquqlarını tapdalamışdır.

Azərbaycanda belə bir böyük mütəşəkkil qrup respublika Daxili İşlər Nazirliyinin tərkibində OMON dəstəsi içərisində yaranmışdı. OMON bir gündə, bir ayda, bir ildə belə vəziyyətə düşməmişdi. Şübhəsiz ki, OMON vaxtilə vətənimizə lazım olan məqsədlər üçün yaranmışdı. Ancaq sonra bu qrup

özbaşına buraxıldığına, ona rəhbərlik edilmədiyinə görə, yaxud rəhbərlik edən adamların özləri də cinayətkar olduqlarına görə həmin bu dəstə tədricən böyük bir cinayətkar dəstəyə çevrildi. Dövlətin mənafeyini, insanların hüquqlarını müdafiə etmək, mütəşəkkil cinayətkarlıqla mübarizə aparmaq əvəzinə insanlara qarşı təcavüz, cinayətlər etdilər. Onlar insanları soyurdular, insanlara işgəncə verirdilər, insanları öldürürdülər. İndi istintaq aydın edib ki, onların cinayəti təkcə 1995-ci ilin mart ayında etdikləri cinayət deyildi. Bəzilərinin üzərində 5,6,7 ölüm cəzası var, daha doğrusu, cəzanı hələ indi alıblar, ölüm hərəkəti var, insanları öldürüblər.

Bəli, məhz buna görə də OMON tədricən cinayətkar bir dəstəyə çevrildi. Cinayətkarlıqdan o qədər həm vəsait topladı, həm də silahlandı ki, sonra hakimiyyət iddiasına düşdü və dövləti devirməyə çalışdı. Onun da qarşısı alındı. Həmin o dəstənin də tör-töküntüləri hələ indiyə qədər axtarılır, tapılır. Bəziləri yaxalanıb, bəziləri isə hələ ki, ayrı-ayrı ölkələrdə gizlənib və Azərbaycana qarşı təxribat dəstələri hazırlamağa çalışırlar. Bunlardan son terrorçu, təxribatçı qrupu – Elçin Əmiraslanovun böyük bir dəstəsi 1996-cı ilin dekabr ayında Azərbaycanda yaxalandı. Onlar artıq mühakimə də olunublar, məhkəmə onların cəzasını veribdir.

Bu cinayətkarların böyük qruplarının ondan sonrakı dövrdə də aşkar olunması, zərərsizləşdirilməsi, aradan qaldırılması və cəmiyyətimizin, ölkəmizin bu cinayətkar qruplardan təmizlənməsi işi ardıcıl surətdə gedib, gedir və bu gün də davam etməkdədir. Bunların da ən əsas nəticəsi ondan ibarətdir ki, nəhayət, Azərbaycanda daxili ictimai-siyasi sabitlik, əmin-amanlıq yaranıbdır.

Hesab edirəm ki, Azərbaycanda cinayətkarlıqla mübarizə uğurludur. Cinayət hallarının sayı xeyli azalıbdır. Ən önəmlisi odur ki, o qatı, mütəşəkkil cinayətkarlığın, çox kütləvi cinayətkarlığın qarşısı tamamilə alınıbdır.

Daxili İşlər Naziri Ramil Usubov ilin yekunları ilə əlaqədar sabah mətbuat konfransı keçirəcəkdir. O, orada konkret rəqəmlər, faktlar gətirəcəkdir. Maraqlananlar ondan məlumatlar ala bilərlər. Ancaq ümumən desək, respublikamızda əmin-amanlıq yaranıbdır. İnsanlar rahat yaşaya, istirahət edə bilirlər, işləyə, gəzə bilirlər. Yəqin bunları – 1993,1994,1995-ci illərdə olmuş vəziyyətlə indiki vəziyyəti siz özünüz də görürsünüz.

Hesab edirəm ki, bu nailiyyətlərin əsasında respublikada cinayətkarlıqla mübarizə davam etdirilməlidir. Hələ bir çox cinayətlər mövcuddur, onların qarşısı alınmalıdır. Düşünək ki, ümumiyyətlə, cəmiyyətdə cinayət ola bilməz, - bu, mümkün deyil. Ancaq bu, tamamilə elə bir vəziyyətə gətirməlidir ki, cinayət olan kimi onun qarşısı alınsın.

Bu sahədə gördüyümüz işlərlə yanaşı, hesab edirəm ki, biz cəzanın humanistləşdirilməsi sahəsində də bir çox dəyərli addımlar atmışıq və yaxşı nəticələr əldə etmişik. Bu da ondan ibarətdir ki, biz cəza çəkən insanlar haqqında da düşünürük və düşünmüşük. Cəza çəkənlərin bir qisminin əfv olunması, onlara amnistiya verilməsi, onların bağışlanması haqqında lazımi qərarlar qəbul etmişik. Bunların nəticəsində insanların bir çoxu cəzadan, cəza çəkməkdən azad olunub, yaxud da ki, cəzaları yüngülləşibdir.

Yəni biz bir tərəfdən cinayətkarlıqla mübarizəni gücləndirmişik, digər tərəfdən də cəza siyasətinin humanistləşdirilməsi sahəsində çox ciddi, dəyərli addımlar atmışıq, tədbirlər həyata keçirmişik.

Bunlar sizə məlumdur. Ancaq yığcam olaraq xatırlatmaq istəyirəm. Həbsdə olan, cəza çəkən 1705 insan bu son illərdə mənim verdiyim fərmanlar əsasında cəzadan azad olunub, əfv edilibdir. 1996-cı ilin mayında və 1997-ci ilin oktyabrında mənim təşəbbüsümlə Milli Məclis amnistiya haqqında qərar qəbul edibdir. Bu amnistiyanın tətbiq olunması nəticəsində in-

diyə qədər 17 min vətəndaş cəzadan azad edilibdir. 1997-ci ilin oktyabrında qəbul edilmiş amnistiya hələ ki, tətbiq olunur. O, tətbiq edilib qurtarana qədər cəmi 30 min Azərbaycan vətəndaşı cəzadan azad olunacaqdır. Biz bu sahədə öz işlərimizi davam etdirməyə çalışacağıq.

Hesab edirəm ki, cinayətkarlıqla mübarizənin gücləndirilməsi cinayət hadisələrini öz-özlüyündə azaldacaqdır. Eyni zamanda, bizim cəza siyasətimizin humanistləşdirilməsi də insanlarda cinayətə, cinayətkarlığa qarşı sağlam münasibət yaradacaqdır. Bizim cəza siyasətimizin humanistləşdirilməsi sahəsində bir məsələ də çox mühüm yer tutur. Bu da Azərbaycanda ölüm hökmü və ölüm hökmünün icrası məsələsidir.

Bildiyiniz kimi, ölkəmizdə Azərbaycan Respublikası yaranandan indiyə qədər həm keçmiş Sovetlər İttifaqı zamanı, həm də biz müstəqilliyimizi əldə edəndən sonra ölüm cəzası Azərbaycanın cinayət məcəlləsində olubdur və bu gün də var. Ancaq biz ölüm cəzasının da bu son illərdə azaldılması və onun tamamilə ləğv olunması üçün çox işlər görmüşük. Bu, ondan ibarətdir ki, Azərbaycanın cinayət məcəlləsində ölüm cəzası ilə əlaqədar olan bir çox maddələrə 1996-cı ildə baxılıb, mənim təklifimlə Milli Məclisdə qərarlar qəbul olunmuşdur. Bu qərarlara görə Azərbaycanın cinayət məcəlləsində 21 maddədən ölüm cəzası götürülmüşdür. Ondan sonra indiyə qədər cinayət məcəlləsində ən ağır cinayətlər üzrə 11 maddədə ölüm cəzası saxlanılıbdır. Bununla bərabər, 1996-cı ildə qadınlara və 65 yaşına çatmış kişilərə ölüm cəzası hökmü çıxarılması qadağan edilibdir. İndi isə mən növbəti addım atmaq fikrindəyəm. Ancaq bu münasibətlə keçmiş illərin statistikasını da xatırlamaq pis olmazdı.

Mən qeyd etdim ki, ölüm cəzası Azərbaycanın cinayət məcəlləsində həmişə olubdur, məhkəmələr də ölüm cəzası haqqında hökmlər çıxarıblar. Ancaq ölüm cəzası haqqında

hökm çıxarmaq və onu icra etmək məsələləri də, şübhəsiz, bir-birindən ayrı şeylərdir.

Keçmiş illərin statistikasına nəzər salsaq, əgər 1988-ci ildən götürsək, Azərbaycanda 1988-ci ildə 5 nəfər ölüm cəzasına məhkum olunmuş, 5 nəfər haqqında ölüm hökmü icra edilmişdir, yəni onlar güllələnmişlər. 1989-cu ildə 6 nəfər, 1990-cı ildə 3 nəfər haqqında ölüm hökmü icra olunmuşdur.

1990-cı ildən 1993-cü ilə qədər Azərbaycanda ölüm hökmü icra edilməmişdir. 1993-cü ildə 9 nəfər barədə ölüm hökmünün icra olunması haqqında fərman verilmişdir, 8 nəfər haqqında ölüm hökmü icra olunmuşdur. Bir nəfər ölüm hökmü icra edilənə qədər özü həbsxanada ölmüşdür.

1988-1989-cu illər haqqındakı rəqəmləri mən təhlil etmək istəmirəm. Dedim ki, onlar az olubdur. 1988, 1989, 1990-cı illərdə 14 nəfər haqqında ölüm hökmü icra edilmişdir. Amma 1993-cü ildə 9 nəfər haqqında ölüm hökmünün icra olunması haqqında fərman verilmiş, 8 nəfər haqqında icra edilmişdir.

1993-cü ilin iyun ayından Azərbaycanda ölüm hökmü icra olunmur. Faktiki olaraq bu cəzanın, hökmün icra edilməsinə biz moratorium qoymuşuq.

Ancaq 1993-cü ildə bu 9 nəfərin haqqında ölüm hökmünün qəbul olunması çox qəribə bir haldır. 1992-ci il iyun ayının 16-da Azərbaycanda prezident səlahiyyətlərini həyata keçirən İsa Qəmbərov məhkəmə tərəfindən ölüm hökmünə məhkum olunmuş 9 nəfərin bağışlanması haqqında vəsatəti rədd edib və bu barədə fərman verib, - demək, ölüm hökmünün icra olunması haqqında fərman veribdir. 1993-cü ilin yanvar ayında prezident Əbülfəz Elçibəy 2 nəfər haqqında ölüm hökmünün icra olunması barədə fərman veribdir.

Çox qəribə bir haldır. Xalq Cəbhəsi və Müsavat hakimiyyəti cəmisi bir il davam edibdir. Ancaq onlar öz fəaliyyətlərinə başlayarkən ölüm haqqında hökmləri icra etməyə can

atıblar. Öldürülən, yəni güllələnən bu adamlar Bayıl həbsxanasında güllələniblər. Şübhəsiz ki, məhkəmənin qərarlarına mənim heç bir etirazım ola bilməz, - məhkəmə qərar çıxarıbsa, bu, məhkəmənin işidir. O işin məzmunundan görünür ki, güllələnən bu adamlar cinayət ediblər. Bəlkə də onları ölüm hökmünə düzgün məhkum ediblər, amma onlar başqalarına nisbətən o qədər də təhlükəli adam olmayıblar. Qəribə də burasındadır ki, İsa Qəmbərov 7 nəfərin ölüm hökmünün icrası haqqında fərmanı 1992-ci ilin iyun ayının 16-da imzalayıbdır.

Məlumdur ki, 1992-ci il iyun ayının 7-də prezident seçkiləri keçirilibdir. Əbülfəz Elçibəy prezident seçilibdir. Mərkəzi seçki komissiyası iyunun 13-də Əbülfəz Elçibəyin prezident seçilməsi haqqında məlumat dərc edibdir. O vaxt mövcud olan prezident seçkiləri haqqında qanuna görə prezident seçilən gündən öz prezidentlik vəzifəsinə başlamış hesab olunur. Deməк, iyunun 7-də Əbülfəz Elçibəy prezident seçilmiş, iyunun 13-də mərkəzi seçki komissiyası bu barədə məlumat vermişdir. Xatirimdədir ki, iyunun 17-də Əbülfəz Elçibəyin prezident kimi inaqurasiyası keçirilmişdir. İyunun 16-da, bir gün ondan öncə, Əbülfəz Elçibəy prezident olduğu halda – demək, bu zaman artıq İsa Qəmbərov prezident səlahiyyətini həyata keçirə bilməzdi – görünür, ən vacib məsələlərdən biri ondan ibarət imiş ki, ölümə məhkum olunmuş 7 nəfər haqqında o hökmün icra edilməsi barədə fərman imzalansın. Bunun arxasında nə var, mən deyə bilmərəm. Amma bu fakt özü-özlüyündə çox böyük təəccüb və narahatçılıq doğuran bir haldır.

Dediyim kimi, sonra isə Əbülfəz Elçibəy artıq prezident olaraq 1993-cü ilin yanvar ayında 2 ölüm hökmünün icra edilməsi haqqında da fərman imzalayıbdır. Bunların hamısı, bu fərmanlar 1993-cü ilin fevral ayında həyata keçirilibdir, yəni bu adamlar güllələniblər. Bir illik hakimiyyət zamanı güllələməklə məşğul olmaq nə humanistlikdən xəbər verir, nə humanistliyə, nə də demokratiyaya uyğundur. Ancaq bu gün humanistlikdən, insan

hüquqlarından, demokratiyadan dəm vuranlar hakimiyyət əldə etdikləri zaman bu işlərlə məşğul olublar.

Bildirdiyim kimi, 1993-cü ilin iyun ayından biz Azərbaycanda ölüm hökmlərinin icrasını dayandırmışıq. Bu da heç təsadüfi deyildir. Baxmayaraq ki, o illər bizim üçün çox mürəkkəb, ağır, çətin illər olubdur, - Azərbaycanın dövlətini, müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanda bu dövlətçiliyə olan qəsdlərin qarşısını almaq lazım idi. Şübhəsiz ki, bunlar çox qəti addımlar atmaq, tədbirlər görmək, həyata keçirmək tələb edirdi. Biz bunları etmişdik. Ancaq biz humanistliyimizi də itirməmişdik. Məhz ona görə də biz ölüm hökmünün icrasını dayandırmışdıq.

Ancaq eyni zamanda deyə bilərəm ki, bu ötən dövrdə ölüm hökmünə məhkum olunmuş adamlardan 12 nəfəri mənim fərmanımla bağışlanıbdır. Yəni onların barəsində ölüm hökmü cəza yerlərində uzunmüddətli cəza çəkməklə əvəz olunubdur.

Keçmiş illərdən indiyə qədər məhkəmələr tərəfindən çıxarılmış hökmlərlə, onların əsasında Azərbaycanın həbsxanasında ölüm hökmünə məhkum olunmuş 128 nəfər vətəndaş vardır. Bunların içərisində çox qatı cinayət etmiş adamlar da var. Şübhəsiz ki, ölüm hökmünə məhkum olunanlar ən qatı cinayət etmiş adamlardır, amma onların da dərəcəsi vardır. Onların arasında bir neçə insanı öldürmüş, həddindən artıq cinayətkarlıq etmiş, bizim dövlətçiliyimizə, müstəqilliyimizə qarşı, respublikamızın dağılması, parçalanması ilə əlaqədar cinayətlər etmiş adamlar vardır.

Bütün bunlara baxmayaraq, mən bu məsələləri ətraflı təhlil edəndən sonra belə qərara gəlmişəm ki, Azərbaycanın cinayət məcəlləsində ölüm hökmü ilə əlaqədar olan bütün maddələr dəyişilməlidir və Azərbaycanda ölüm hökmü bir cəza kimi ləğv olunmalıdır. Ölüm hökmünə məhkum olunmuş insanların cəzası müvafiq qaydada, uzunmüddətli cəzalarla əvəz edilə bilər.

Beləliklə, 1993-cü ilin iyun ayından ölüm hökmünün icrasına qoyulmuş faktiki moratorium indi isə real olaraq Azərbaycanda ölüm hökmünün ləğv edilməsinə gətirib çıxardı.

Mən bununla əlaqədar Azərbaycanın Milli Məclisinə qanunvericilik təşəbbüsü ilə təqdimat göndərirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın parlamenti, Milli Məclisi bizim bu humanist addımımızı dəyərləndirəcək və mənim təklifimi qəbul edəcəkdir. Beləliklə, Azərbaycanda ölüm hökmü tamamilə ləğv olunacaqdır.

Əmin ola bilərsiniz ki, biz Azərbaycanda cinayətkarlıqla mübarizəni bundan sonra da davam etdirəcəyik və bunun üçün bütün imkanlardan istifadə olunacaqdır. Azərbaycanda bütün vətəndaşların hüquqlarının qorunması, Azərbaycan vətəndaşlarının sərbəst yaşaması üçün əmin-amanlığın təmin edilməsi bizim vəzifəmizdir. Biz bu vəzifəni həyata keçirəcəyik, humanistlik siyasətimizi bundan sonra da davam etdirəcəyik və Azərbaycanda ictimai-siyasi sabitlik gündən-günə möhkəmlənəcəkdir.

Təəssüf ki, bəzi qüvvələr, hətta özlərini siyasi qüvvə hesab edən adamlar yenidən köhnə əhval-ruhiyyə ilə yaşayırlar və silahla, güclə nəyəsə nail olmaq istəyirlər, belə cəhdlər göstərirlər. Bu, bizə məlumdur. Ancaq onlar da, Azərbaycanın bütün vətəndaşları da bilməlidirlər: Azərbaycan dövləti son illərdə öz qüdrətini həm ölkədə, həm də dünyada nümayiş etdiribdir. Biz Azərbaycanda ictimai-siyasi sabitliyi qoruyub saxlamağa qadirik və heç kəsə Azərbaycanın qanunlarını, konstitusiyasını pozmağa yol verməyəcəyik. Azərbaycanın bütün vətəndaşları arxayın ola bilərlər ki, Azərbaycanın dövləti, onun prezidenti verdiyi sözlərə, andına sadiqdir. Azərbaycan vətəndaşlarının hüquqları və onların əmin-amanlığı daim qorunacaqdır.

Sağ olun. Təşəkkür edirəm.

# AZƏRBAYCAN RESPUBLİKASINDA ÖLÜM HÖKMÜNÜN LƏĞV EDİLMƏSİ HAQQINDA MİLLİ MƏCLİSƏ MÜRACİƏT

Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətimizin ali məqsədi kimi bəyan etmişdir. Bu məqsədə nail olmaq üçün dövlətimizdə ümumbəşəri dəyərlərə və inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan qanunvericilik bazası yaradılır. Hazırda bu siyasətin ardıcıl və məqsədyönlü davam etdirilməsi üçün zəruri tədbirlər həyata keçirilir.

Məramı dünyəvi, hüquqi dövlət qurmaq olan Azərbaycan Respublikasında hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilmiş, insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdur.

Konstitusiyada ölüm cəzası tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərilmiş və daimi cəza növü kimi nəzərdə tutulmamışdır. İnsan ləyaqətinə, bütövlükdə insan hüquqları ideyasına zidd olan bu cəzanın tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir.

Azərbaycanda ölüm cəzası uzun müddət tətbiq olunmuşdur. Son dövrün təhlili göstərir ki, 1988-ci ildə ölüm cəzasına məhkum olunmuş 5, 1989-cu ildə 6, 1990-cı ildə 3 şəxs barəsində ölüm hökmləri icra edilmişdir. Bundan sonra üç il ərzində ölüm hökmləri icra olunmadığı halda 1993-cü ilin fevral ayında 8 nəfər barəsində ölüm hökmləri tələsik icra edilmişdir.

1992-ci ildə müstəqillik və demokratiya şüarları ilə hakimiyyətə gələn AXC–Müsavat liderləri totalitar rejimlərə xas olan antihumanist, qeyri-insani qanunların icrasını davam etdi-

rirdilər. Bununla da onlar əhalidə qorxu, vahimə hissi, müstəqil dövlətin gələcəyinə inamsızlıq əhval-ruhiyyəsi yaratmağa can atırdılar. Müstəqilliyin qorunması, ərazi bütövlüyünün bərpası, dövlət təhlükəsizliyinin təmin edilməsi və ordu quruculuğu üçün təxirəsalınmaz tədbirlərin görülməsi zəruri olduğu halda ölüm hökmlərinin icrası vacib ümumdövlət tədbiri kimi ortaya atılmışdı.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini cəmi bir aya yaxın müddətdə həyata keçirmiş Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərov 1992-ci il iyunun 16-da 7 nəfərin bağışlanma haqqında vəsatətlərini, əslində buna səlahiyyəti olmadığı halda, rədd etmiş və bu barədə müvafiq fərmanlar imzalamışdır. Belə ki, 1992-ci il iyunun 7-də keçirilmiş Azərbaycan Respublikası prezidenti seçkiləri nəticəsində Əbülfəz Əliyevin Azərbaycan Respublikasının prezidenti seçilməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarı 1992-ci il iyunun 13-də qəbul edilmiş və seçkilərin nəticələri rəsmən elan olunmuşdu. O zaman qüvvədə olmuş "Azərbaycan Respublikası prezidenti seçkiləri haqqında" 1991-ci il 26 iyun tarixli Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə əsasən seçkilərin nəticələrinin rəsmən elan olunduğu gündən Əbülfəz Əliyev Azərbaycan Respublikasının prezidenti vəzifəsinə başlamış hesab edilirdi.

Beləliklə, Əbülfəz Əliyev Azərbaycan Respublikasının prezidenti vəzifəsinin icrasına başlamış olduğu halda onun əfvetmə səlahiyyətlərini qanunsuz olaraq İsa Qəmbərov həyata keçirmişdir.

Bundan əlavə, İsa Qəmbərov həmin fərmanları imzalayarkən əfv məsələlərinə baxılması qaydaları pozulmuş, o dövrdə Azərbaycan Respublikasının prezidenti yanında bağışlama məsələləri komissiyası fəaliyyət göstərməmişdir. Bu komissiya yalnız 1992-ci il iyulun 12-də yenidən təşkil edilmişdir.

Azərbaycan Respublikasının sabiq prezidenti Əbülfəz Əliyev isə 1993-cü il yanvarın 5-də ölüm cəzasına məhkum olunmuş 2 şəxsin vəsatətlərinin rədd edilməsinə dair fərman imzalamışdır. Bundan sonra Əbülfəz Əliyev həmin şəxslərdən birinin barəsində hökmün qanuniliyinin yoxlanılmasını Azərbaycan Respublikasının prokurorluğuna tapşırmış, lakin yoxlama başa çatdırılmadan ölüm hökmü icra edilmişdir.

İnsan həyatına belə laqeyd münasibət vaxtilə cəmiyyətimizdə hökm sürən hərc-mərcliyin və özbaşınalığın nəticəsidir. Bu isə öz növbəsində insan hüquqlarının və azadlıqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmışdır.

Son illər ölkəmizdə əmin-amanlıq, ictimai-siyasi sabitlik yaradılmış, vətəndaş cəmiyyəti bərqərar edilmiş, insanların həyatına təhlükə yaradan silahlı dəstələr və terrorçu qruplar zərərsizləşdirilmiş, dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alınmış, cinayətkarlar məsuliyyətə cəlb edilərək layiqli cəzalarına çatmışlar. Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi ölkəmizdə insanların dinc, təhlükəsiz yaşamasına, qanunun aliliyinin bərqərar edilməsinə zəmin yaratmışdır. Digər tərəfdən, hüquq islahatlarının aparılması, cinayət qanunvericiliyinin humanistləşdirilməsi, insan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ölüm cəzasının icrasına 1993-cü ilin iyun ayından faktiki moratorium qoyulmuşdur.

Hətta vətən və xalq qarşısında ən ağır cinayətlər törədən, o zamankı hakimiyyətsizlikdən istifadə edib torpaqlarımızı düşmənə təslim etdirən Rəhim Qazıyev, ölkəmizi parçalamaq niyyətində olan separatçı Əlikram Hümbətov, təxribat və terror aktları törədən Elçin Əmiraslanov, dövlət çevrilişi cəhdlərinin təşkilatçıları Surət Hüseynovun və Cavadov qardaşlarının əlaltıları və qanunsuz silahlı dəstələrin azğınlaşmış üzv-

ləri, Tarix Quliyev və bu kimi qatillər, təhlükəli canilər barəsində ölüm hökmləri icra olunmamışdır.

Cinayət-hüquq siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən işlər, o cümlədən cinayət məcəlləsinin ölüm cəzasını nəzərdə tutan iyirmi bir maddəsinin sanksiyalarından bu cəzanın çıxarılması, qadınlara, 65 yaşına çatmış kişilərə ölüm cəzasının tətbiqinin qadağan edilməsi, 1705 məhbusun əfv edilməsi, o cümlədən ölüm cəzasına məhkum edilmiş 12 şəxsin əfv olunaraq cəzalarını azadlıqdan məhrumetmə ilə əvəz edilməsi və amnistiya qaydasında 17 mindən artıq şəxsin müxtəlif cəzalardan azad edilməsi və onların yenidən cəmiyyətə qayıtması üçün şərait yaradılması ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğunun təzahürüdür.

Bütün bunlar Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gəlir, ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verir, cəmiyyətimizi insaniləşdirir, insan ləyaqətinə hörmət və ehtiramı, bütünlükdə ölkəmizdə demokratiyanın inkişafını nümayiş etdirir, xalqımızda nikbin gələcəyə inam yaradır.

Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm.

Ölüm cəzasının ləğvini məhz bu siyasətin məntiqi nəticəsi kimi qiymətləndirirəm.

Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir.

Son günlər mənə ünvanlanmış minlərlə müraciət göstərir ki, xalqımız bu təşəbbüsü yekdilliklə dəstəkləyir.

Şübhə etmirəm ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatları da indiki və gələcək nəsillər qarşısında öz

məsuliyyətlərini dərk edərək bəyanata tərəfdar çıxacaq və bu amansız cəzanın ləğv edilməsinə səs verəcəklər.

Əminəm ki, ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addımdır və bütünlükdə hüquq sistemində həyata keçirilən islahatların mühüm mərhələsidir.

Eyni zamanda, ölüm cəzasının ləğvi məsələsi müzakirə edilərkən Azərbaycanın mövcud reallıqları və ilk növbədə Ermənistan tərəfindən torpaqlarımızın işğal edilməsi nəzərə alınmalıdır. Şübhəsiz ki, müharibə zamanı hər bir dövlətin bu cəza növünü tətbiq etmək hüququ saxlanıla bilər. Bu müddəa həmçinin beynəlxalq hüquq normalarının tələblərinə uyğundur.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının cinayət, cinayət-prosessual və islah-əmək məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında qanun layihəsini Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə müvafiq olaraq müzakirənizə təqdim edirəm.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
***Bakı şəhəri, 3 fevral 1998-ci il***

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ TƏDBİRLƏR HAQQINDA FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir.İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insaniləşdirən ən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.

Məlumdur ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Ermənistanın Azərbaycana qarşı artıq on il davam edən silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız adi insan hüquqlarından məhrum edilmişdir. Vaxtilə ölkəmizdə insanların həyatını təhlükəyə məruz qoyan hərc-mərclik, qanunsuz silahlı birləşmələrin mövcudluğu, əhalidə qanunsuz silahların cəmləşməsi, terrorçuluq və mütəşəkkil cinayətkarlığın tüğyan etməsi insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmışdı. Bu vəziyyət Azərbaycan xalqını vətəndaş müharibəsi həddinə çatdırmış, milli dövlətçiliyinin itirilməsi təhlükəsi qarşısında

qoymuşdu. Bu ağır sınaqlardan çıxmış Azərbaycan xalqı mətin iradə, həmrəylik və əzmkarlıq nümayiş etdirərək, bəşər sivilizasiyasının idealları olan azadlığı, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir.

Son illər ölkəmizdə insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilmişdir.

Azərbaycan dövləti ərazi bütövlüyünün, qaçqınların və məcburi köçkünlərin pozulmuş hüquqlarının tam bərpası üçün sülhsevər siyasət apararaq atəşkəsə nail olmuş, ATƏT-in Minsk qrupu çərçivəsində və digər beynəlxalq təşkilatlar xətti ilə ardıcıl və məqsədyönlü iş görür.

Artıq göstərilən ictimai-siyasi proseslərin ağır nəticələri, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırılmış, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında baş vermiş dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alınmış, qanunsuz silahlı dəstələr, terrorçu, təxribatçı qruplar zərərsizləşdirilmiş,hərc-mərcliyə son qoyulmuş, geniş ordu quruculuğu işləri aparılaraq vətənimizi təcavüzdən qorumağa qadir nizami ordu yaradılmışdır.

Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Azərbaycan dövləti siyasi-hüquqi potensialından tam istifadə etməklə bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdiril-

məsi davam etdirilir. Ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır.

Həyata keçirilmiş islahatlar nəticəsində iqtisadi tənəzzül və inflyasiyanın qarşısı alınmış, iqtisadi inkişafda yeni mərhələnin möhkəm təməli qoyulmuşdur. Özəlləşdirmə proqramı, aqrar islahatları və torpaqların xüsusi mülkiyyətə verilməsi prosesi ardıcıl surətdə davam etdirilir. Azərbaycanda «Açıq qapı» siyasətinin həyata keçirilməsi iqtisadiyyatımıza xarici investisiyaların həcminin artmasını və ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirməklə bərabər, xalqın maddi rifahının yaxşılaşdırılmasına, vətəndaşların iqtisadi və sosial hüquqlarının müdafiəsinə zəmin yaradır.

Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 20-dək beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Bu gün məqsəd ondan ibarətdir ki, hər bir şəxs insan hüquqlarının həyata keçirilməsində və qorunmasında öz məsuliyyətini dərk etsin.

Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin insan hüquqlarına dair 1948-ci il 10 dekabr tarixli ümumi bəyannaməsinin qəbul edilməsinin 50 illiyi astanasında ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi və insan hüquqlarını qorumaq sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin:

– Qanun layihələrinin hazırlanması və qanunların qəbul edilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilmiş insan hüquq və azadlıqları əsas meyar kimi rəhbər tutulsun;

– Milli Məclisin nümayəndələri ATƏT-in və Avropa Şurasının Parlament Assambleyalarının, Avropa parlamentinin, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının, Qara Dəniz İqtisadi Birliyi Parlament Assambleyasının, Parlamentlərarası İttifaqın sessiyalarında, həmin təşkilatların müvafiq komitələrinin işində və tədbirlərində fəal iştirak etsinlər, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının dövlət siyasətini təbliğ etsinlər, Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının bərpası üçün aparılan işi gücləndirsinlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, əlaqədar dövlət orqanları ilə birlikdə:

– İnsan hüquqlarının müdafiəsinə dair dövlət proqramının layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər;

– İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının, habelə insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən digər qurumların yaradılmasına dair məsələni müzakirə edib bir ay müddətində Azərbaycan Respublikasının prezidentinə müvafiq təkliflər təqdim etsinlər;

– Qaçqınların və məcburi köçkünlərin, əlillərin, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hüquqlarının daha səmərəli təmin edilməsi ilə əlaqədar təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər;

– İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun yaradılmasına dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər;

– Hüquqi islahatların həyata keçirilməsi ilə əlaqədar normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi üçün tədbirlər görsünlər;

– İnsan hüquqlarının qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər;

– İnsan hüquqları sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərin tam və səmərəli həyata keçirilməsi üçün müvafiq təşkilati və digər tədbirlərin görülməsini təmin etsinlər;

– Avropa Komissiyası, Avropa Şurası, ATƏT-in İnsan hüquqlarına dair Demokratik Təsisatlar Bürosu, Beynəlxalq Amnistiya, İnsan Hüquqlarını Müşahidə edən Helsinki Təşkilatı, habelə insan hüquqları sahəsində fəaliyyət göstərən müvafiq qurumlar və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi sahəsində tədbirlər həyata keçirsinlər;

– Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-dövlət hüquqi müdafiə təşkilatları ilə qarşılıqlı əlaqələrin yaradılmasını və inkişaf etdirilməsini təmin etsinlər;

– BMT-nin insan hüquqlarına dair ümumi bəyannaməsinin 50 illiyi münasibətilə yubiley tədbirlərinin keçirilməsi üzrə komissiyanın yaradılmasına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər;

– BMT-nin Azərbaycandakı nümayəndəliyi ilə razılaşdırmaqla qadınların, uşaqların, milli azlıqların hüquqlarının müdafiəsinə və digər zəruri tədbirlərin həyata keçirilməsinə dair proqram layihəsini bir ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər;

– İnsan hüquqları üzrə fəaliyyət göstərən beynəlxalq institutu və mərkəzlərdə müvafiq tədqiqat və təhsil proqramlarının öyrənilməsi üçün mütəxəssislərin iştirakını təmin etsinlər.

**3.** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, əlaqədar dövlət orqanları ilə birlikdə:

– Azərbaycan Respublikasının BMT-nin 1990-cı il 18 dekabr tarixli «Bütün fəhlə miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında» beynəlxalq konvensiyasına, BMT-nin 1976-cı il 23 mart tarixli «Mülki və siyasi hüquqlar üzrə beynəlxalq paktı»nın birinci fakültativ protokoluna, BMT-nin 1989-cu il 15 dekabr tarixli «Mülki və siyasi hüquqlar üzrə beynəlxalq paktı»nın ikinci fakültativ protokoluna və insan hüquqları sahəsində mövcud olan digər beynəlxalq sazişlərə qoşulmasının mümkünlüyü məsələsini öyrənsin və iki ay müddətində Azərbaycan Respublikasının prezidentinə müvafiq təkliflər versin;

– Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası və onlara dəymiş zərərin ödənilməsi məqsədi ilə müvafiq beynəlxalq qurum və təşkilatlara müraciətlərin qəbul olunmasını təmin etsin;

– Respublikanın mərkəzi kitabxanalarını insan hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərlə və bu sahədə olan nəşrlərlə təmin etsin.

**4.** Azərbaycan Respublikasının Prokurorluğuna, daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın və Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, təhqiqat, istintaq və məhkəmə orqanları tərəfindən insan hüquqları sahəsində qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsini, insan hüquq və azadlıqlarının pozulması hallarının aradan qaldırılmasını təmin etsinlər.

**5.** Azərbaycan Respublikasının ədliyyə, daxili işlər, milli təhlükəsizlik nazirliklərinə və Azərbaycan Respublikasının Pro-

kurorluğuna tapşırılsın ki, azadlıqdan məhrum edilmiş və ibtidai istintaq zamanı həbsə alınmış şəxslərin saxlanılması şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirsinlər.

**6.** Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, insan hüquqlarına dair beynəlxalq aktların öyrənilməsi məqsədilə respublikanın ali, orta ixtisas və orta məktəbləri üçün insan hüquq və azadlıqlarına dair dərsliklərin hazırlanmasını, olimpiadaların, müsabiqələrin keçirilməsini, insan hüquqlarının təbliğinə dair bədii sərgilərin, festivalların və digər tədbirlərin keçirilməsini təmin etsin.

**7.** Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyinə tapşırılsın:

– İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində ölkəmizdə həyata keçirilən tədbirlərin informasiya şəbəkələri və agentliklər vasitəsilə təbliğini və yayılmasını təmin etsin;

– İnsan hüquqlarının müdafiəsinə dair ixtisaslaşmış qəzet, jurnal, kitabça və plakatların nəşrini, onların yayılmasını təmin etsin.

**8.** Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə tapşırılsın ki, insan hüquq və azadlıqlarına həsr olunmuş verilişlərin hazırlanmasını təmin etsin.

**9.** Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
***Bakı şəhəri, 22 fevral 1998-ci il***

# AZƏRBAYCAN MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ƏMƏKDAŞLARININ BİR QRUPU İLƏ GÖRÜŞDƏ NİTQ

*Respublika sarayı*
*28 mart 1998-ci il*

Bu gün Azərbaycan milli təhlükəsizlik orqanları işçilərinin peşə bayramıdır. Bu gün keçən il mart ayının 23-də mənim fərmanımla təsis edilmişdir və bu da 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin – ilk demokratik respublikanın yaratdığı ilk kəşfiyyat və əkskəşfiyyat idarəsinin fəaliyyətə başlaması tarixi ilə bağlıdır. Biz bu il Azərbaycan Demokratik Respublikasının – Xalq Cümhuriyyətinin 80 illik yubileyini qeyd edirik və bununla əlaqədar respublikamızda yubiley tədbirləri həyata keçirilir.

1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldə edərkən bu müstəqilliyi 1918-ci il mayın 28-də yaranmış Xalq Cümhuriyyətinin – Azərbaycan Demokratik Respublikasının yaratdığı dövlətin davamı kimi, yəni müstəqilliyimizin bərpası kimi elan etmişdir. Ona görə də bizim başqa dövlət orqanlarının da yaranma tarixini məhz 1918-19-cu illərdə yaranmış təşkilatların tarixinin əsasında götürmək lazımdır. Bu, tarixi həqiqətə uyğundur. Çünki 1918-ci ildən 1920-ci ilə qədər Azərbaycan Xalq Cümhuriyyəti – ilk Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərmişdir və Xalq Cümhuriyyəti süquta yetəndən sonra Azərbaycanda Sovet Sosialist Respublikası elan olunmuşdur, yəni ikinci dəfə respublika yaranmışdır və bu da 70 il Azərbaycanda həyat sürmüşdür, fəaliyyət göstərmişdir. Bunların hamısı bizim tariximizin mərhələləridir və bu da bir-biri ilə sıx bağlı olan mərhələlərdir. Ona görə də biz müstəqilliyimizi 1918-ci ildən hesablayaraq, bütün dövlət or-

qanlarının da yaranması tarixini o dövrdən hesablayırıq və hesablamalıyıq. Bu baxımdan Milli Təhlükəsizlik Nazirliyinin peşə bayramı gününün məhz 28 mart günü təyin olunması tamamilə ədalətlidir, qanunauyğundur.

Mən sizi, xüsusən Milli Təhlükəsizlik Nazirliyində çalışan şəxsləri bu bayram münasibətilə təbrik edirəm, Azərbaycanın təhlükəsizliyini təmin edən hər bir azərbaycanlıya, hər bir əməkdaşa və bütün bu sahədə işləyənlərə yeni uğurlar arzulayıram.

Bu fürsətdən istifadə edərək, milli təhlükəsizlik naziri Namiq Abbasov məndən xahiş etmişdi ki, nazirliyin bir qrup işçisini qəbul edim. Mən bu təklifi qəbul etmişəm və sizinlə görüşə gəlmişəm. Eyni zamanda burada Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının üzvləri və respublikanın silahlı qüvvələrinin, hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edirlər.

## *YEKUN NİTQİ*

Hörmətli dostlar!

Mən sizi – Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarını müstəqil Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə bir daha təbrik edirəm. Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi sahəsində çalışan bütün vətəndaşlarımıza işlərində uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikası dövlət quruculuğu prosesində özünün dövlət orqanlarını, hökumət orqanlarını qurub yaradır və bu proses bu gün artıq, demək olar ki, müvəffəqiyyətlə həyata keçir. Bu gün, bu bayram günündə eyni zamanda qeyd etməliyik ki, biz çox çətinlikləri, problemləri aradan qaldıraraq bu müvəffəqiyyətli irəliləyişə nail ola bilmişik.

Öz dövlətçilik tariximizi 1918-19-cu illərdən hesablayaraq, ötən dövrdə Azərbaycanın həyatının bütün sahələrində, o cümlədən təhlükəsizlik orqanlarının həyatında da nə qədər çətin və mürəkkəb proseslər olduğunu biz yaxşı görürük. Ancaq bu gün iftixar hissi ilə demək olar ki, Azərbaycan xalqı uzun illər böyük, ağır yol keçərək öz milli azadlığını, dövlət müstəqilliyini əldə etdiyi kimi, Azərbaycanın təhlükəsizlik orqanları da artıq geniş bir yola çıxmışlar.

Keçmiş dövrlərdə Azərbaycanın həyatındakı proseslər məlumdur, onlar çox ibrətamizdir, biz o dövrləri heç vaxt unutmamalıyıq. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini elan edəndən sonra daha da çox çətinliklərlə, problemlərlə, maneələrlə rastlaşmışdır. Ona görə də bu qısa bir tarixi zamanda – 1991-ci ildən indiyə qədər Azərbaycanın həyatında faciəli hadisələr baş vermiş, Azərbaycan dəfələrlə böyük təhlükələrlə üzləşmişdir. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, biz bu faciələri yaşayaraq, çətinliklərin öhdəsindən gələrək, problemləri həll edərək indi artıq geniş yola çıxmışıq.

Azərbaycanın həyatında bu dövrdə baş vermiş hadisələr dövlət orqanlarımızın hamısına təsir etmiş, yaxud hamısının həyatında öz əksini tapmışdır. Bu mənada, xüsusən milli təhlükəsizlik orqanlarının həyatı çox mürəkkəb olmuşdur. Hesab edirəm ki, bizim Milli Təhlükəsizlik Nazirliyi gərək o illəri çox ətraflı təhlil etsin, o illərin xronikasını təşkil etsin, tərtib etsin. Bəlkə də hər günün tarixini yazmaq lazımdır. Çünki hər gün, hər həftə, hər ay çox ağır və çətin hadisələr olmuşdur. Onlar bizim xalqımıza, Vətənimizə, dövlətimizə zərbələr vurmuş, zərər gətirmiş, cəmiyyətimizdə pozğunluqlar yaratmış, insanların mənəviyyatına mənfi təsir etmiş, bəzi insanları yolundan çıxarmış, azdırmış, bəlkə də onları istəmədikləri cinayətə cəlb etmişdir. Ona görə də bu dövrü dərin təhlil etmək lazımdır.

Ancaq sevindirici hal odur ki, Azərbaycanın təhlükəsizlik orqanlarının işində hətta cürbəcür qüvvələr, bir-birinə zidd

olan qüvvələr və Azərbaycanın milli mənafelərinə zidd olan qüvvələr olduğu bir halda respublikamızın milli təhlükəsizlik orqanı yaşamışdır və bu çətinliklərdən çıxmışdır.

Əgər 1990-cı ilin yanvar hadisələrini götürsək, bu, Azərbaycanın tarixində ən dəhşətli səhifədir. Yanvar hadisələrinin törədilməsində Azərbaycana təcavüz etmiş o vaxtkı SSRİ rəhbərliyi ilə bərabər, Azərbaycanın onlara xidmət edən Milli Təhlükəsizlik Nazirliyi də – o vaxt Dövlət Təhlükəsizliyi Nazirliyi deyilirdi – günahkar olmuşdur. Bu həqiqətdir. Bu həqiqət açılıb, amma tamam açılmalıdır. Çünki 20 Yanvar əməliyyatını hazırlayanlar Azərbaycanda öz dayaqlarına istinad etmişlər. 20 Yanvar aksiyası Moskva tərəfindən hazırlandığı zaman onların Azərbaycandakı dayaqları kim idi? Azərbaycanda yerləşmiş sovet ordusunun hərbi hissələri, Azərbaycan Respublikasının o zamankı siyasi rəhbərliyi və bununla yanaşı, Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyi. Çünki bu nazirlik bilavasitə Moskvaya bağlı bir nazirlik idi. Bu nazirlik həmişə olubdur, bu da təbiidir. O, gizli əməliyyatlar aparan bir təşkilat olubdur. Ona görə də təkcə Azərbaycan televiziyasının partladılması faktı yox, ümumiyyətlə, bu əməliyyatın hazırlanması və həyata keçirilməsi o vaxt Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyinin bilavasitə iştirakı ilə olmuşdur.

Təəssüflər olsun ki, o vaxt Azərbaycan xalqına satqınlıq edən azərbaycanlılar az olmamışdır. Mən təəssüf edirəm ki, onların bir çoxu indiyə qədər cəzalanmayıblar. Bəziləri Azərbaycanı tərk edib, bəziləri isə burada olsalar da gizləniblər. Zaman keçdikcə onların bu satqınlığı, xəyanəti unudulur.

Mən bu gün, bu bayram günü deməyi özümə borc bilirəm ki, biz bunu unutmamalıyıq. Milli Təhlükəsizlik Nazirliyi xüsusi tədbirlər görməlidir. 1994-cü ilin sentyabrında tarixdə görünməmiş bir hadisə baş vermişdir: Azərbaycan xalqına xəyanət etmiş cinayətkar Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından oğurlanmış, çıxarılmış, sonra isə gizli olaraq Moskvaya və başqa yerlərə göndərilmişdir. İndi məlumdur ki, o

vaxtkı milli təhlükəsizlik nazirinin və onunla bağlı olan başqa şəxslərin xəyanəti nəticəsində və Azərbaycanda dövlət çevrilişini həyata keçirmək məqsədi ilə belə bir dəhşətli hadisə baş vermişdir.

Ancaq bunlara baxmayaraq, Azərbaycan dövlətçiliyi, dövləti, iqtidar sarsılmamışdır. Biz bütün bu təxribatların, cinayətlərin qarşısını aldıq. Təsəvvür edin, bir dövlətdə ki, milli təhlükəsizlik naziri onun əlinin altında olan, böyük gizli əməliyyatlar aparan aparatla dövlətə, Azərbaycanın prezidentinə xəyanət edirsə, vəziyyət nə qədər gərgin olur. Güman edirəm, o günlər sizin hamınızın xatirindədir. Yenə də deyirəm, bir dövlət başçısı kimi bu, məni sarsıda bilmədi. Biz belə bir ağır vəziyyətdən çox böyük məharətlə, müvəffəqiyyətlə çıxdıq. Həmin günlər – oktyabr ayının 4-də hazırlanan və həyata keçirilən dövlət çevrilişinin qarşısını biz xalqın birliyi, iradəsi, xalqın dövləti müdafiə etməsi ilə aldıq.

Milli təhlükəsizlik orqanı hər bir dövlətin çox əhəmiyyətli, güclü və çox vacib təşkilatıdır. Dünyanın hər bir dövlətində belə bir təşkilat mövcuddur. Ancaq dövlət möhkəm olanda və xalqla dövlət bir olanda hətta bu təşkilatda baş vermiş böyük satqınlıq, xəyanət də dövləti yerindən edə bilməz.

O illərdən sonra Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyində çoxlu təmizləmə işləri gedibdir. Milli Təhlükəsizlik Nazirliyi o böhran vəziyyətindən tədricən, ardıcıl surətdə çıxa bilibdir. Mən məhz buna görə də keçən il iyun ayında Milli Təhlükəsizlik Nazirliyinin bütün əməkdaşları ilə görüşüb onlara öz məsləhətlərimi, tövsiyələrimi verdim və onlara öz inamımı, etibarımı bildirdim. Bu gün mən Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinə etibarımı bir daha bəyan edirəm. Əmin olduğumu bildirimək istəyirəm ki, keçən illərin bütün hadisələrindən lazımi nəticə çıxarılacaqdır. Buraxılan səhvlər, cinayətlər, xəyanətlər artıq bu gün sabitləşmiş Azərbaycan dövlətinin milli təhlükəsizlik təşkilatında bir də baş ver-

məyəcəkdir. Mən buna inanıram və bu gün bu inamla da sizi qəbul edirəm.

Azərbaycanın dövlətçiliyi son illərdə inkişaf edib, möhkəmlənib və bizim xalqımız da bunun nəticəsində rahatlıq əldə edibdir. Azərbaycanda ictimai-siyasi sabitlik təmin, bərqərar olunubdur. Azərbaycan keçmiş illərin daxili vəziyyətdəki bəlalarından xilas olubdur. Bu, bizim üçün böyük nailiyyətdir və deyə bilərəm ki, ən böyük nailiyyətdir. Çünki 1988-ci ildən, Dağlıq Qarabağ problemi, Ermənistanın Azərbaycana torpaq iddiası meydana çıxandan, sonra isə Ermənistanın Azərbaycana hərbi təcavüzü baş verəndən son illərə qədər Azərbaycanın bütün başqa çətinlikləri, problemləri ilə yanaşı, ən böyük çətinliyi onun daxilində gedən mənfi proseslər, Azərbaycanın daxili vəziyyətinin pozulması olmuşdur. Qanun-qayda pozulmuşdu, insanların hüquqları tapdalanmışdı, qanunsuz silahlı dəstələr, qruplar Azərbaycanın sərvətlərini dağıtmış, xalqımızın mənəviyyatına zərbələr vurmuş, insanları qorxu altına almış, Azərbaycan cəmiyyətinin həyatının normal ahəngini pozmuşdu. Buna görə də son illər, xüsusən də 1995-ci ildən sonra Azərbaycanda daxili vəziyyətin, ictimai-siyasi vəziyyətin sabitləşməsi bütün baxımlardan, bütün nöqteyi-nəzərlərdən bizim ən böyük nailiyyətimizdir.

Xalq rahat yaşayır, ölkəmizin sabitliyi Azərbaycanın iqtisadi əlaqələrinin inkişaf etməsinə zəmin yaradıbdır. Artıq böyük işlər görülübdür. Qanunlar həyata keçirilir və insanların qanun çərçivəsində yaşaması üçün işlər görülür. Bunlar bizim apardığımız siyasətin, Azərbaycan iqtidarının xalq ilə birliyinin, həmrəyliyinin, xalqın iqtidara göstərdiyi etimadın, inamın nəticəsidir, iqtidarın xalqın, ölkənin problemləri ilə ardıcıl, çox ciddi məşğul olmasının nəticəsidir. Eyni zamanda, bu nailiyyətlərin əldə olunmasında Azərbaycanın hüquq-mühafizə orqanlarının, ordusunun, silahlı qüvvələrinin də xidməti böyükdür.

Mən Azərbaycanın hüquq-mühafizə orqanlarının, silahlı qüvvələrinin fəaliyyətini müsbət qiymətləndirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, hər bir sahədə işlər günügündən təkmilləşəcəkdir və mövcud olan nöqsanlar aradan qaldırılacaqdır.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsinin baş verməsi, sonra 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd, 1995-ci ilin mart ayında dövlət çevrilişinə cəhd ilə əlaqədar, 1996-cı ilin dekabr ayında böyük bir cinayətkar dəstənin yenə də xaricdən respublikamıza daxil olması, yəni ölkəmizdən qaçmış azərbaycanlıların – cinayətkar dəstənin Azərbaycanda dövlət çevrilişinə cəhd etməsi və bütün başqa belə hadisələr nəticəsində təəssüflər olsun ki, cinayət işinə çox adamlar cəlb olunmuşdur. Şübhəsiz ki, cinayət edən şəxs Azərbaycanın mövcud qanunları əsasında məsuliyyətə cəlb olunmalıdır və məhkəmənin hökmü ilə cəzalandırılmalıdır. Ancaq o hadisələrdən sonra bu cinayətkarların bir qismi Azərbaycanı tərk edib qaça bilmiş, ayrı-ayrı ölkələrdə, xüsusən də çoxları Rusiyanın ərazisində uzun müddət gizlənmişlər.

Bu gün məmnuniyyətlə qeyd etmək olar ki, qaçıb gizlənən o cinayətkarların tam əksəriyyəti bizim hüquq-mühafizə orqanlarının, xüsusən, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin apardığı axtarış əməliyyatları nəticəsində yaxalanıb Azərbaycana gətirilib və onların əksəriyyətinin törətdiyi çinayətlər istintaq edilibdir. Hüquq-mühafizə orqanları – Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Prokurorluq ədalətli istintaq nəticəsində onların məhkəməyə verilməsini təmin ediblər və ədalət məhkəməsi də onların hər biri haqqında öz hökmlərini çıxarıbdır.

Bunlar, bu hadisələr və törədilmiş cinayətlər bir çox cinayətkarları meydana çıxarmışdır. Şübhəsiz ki, bu cinayətkarlar da məsuliyyətə cəlb olunmalı idi. Hesab edirəm, bizim ümumi işimizin uğurlu cəhəti ondan ibarətdir ki, cinayət etmiş o adamlar 2-3 il gizlənəndən sonra uzaq yerlərdə yaxalanıb

Azərbaycana gətirilib və məsuliyyətə cəlb olunublar. Bunlar hamısı ictimaiyyətə məlumdur. Ancaq mən bunları bir daha ona görə xatırlayıram ki,  hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, cinayətkar heç vaxt məsuliyyətdən qaça bilməyəcəkdir. Azərbaycan dövləti, Azərbaycan Respublikasının dövlət orqanları, o cümlədən, hüquq-mühafizə orqanları indi o qədər imkanlara malikdir və o qədər peşəkarlıqla işləyə bilirlər ki, heç bir cinayətkar məsuliyyətdən qaça bilməz. Əgər ən böyük cinayətkarlar, bəzi ölkələrin xüsusi xidmət orqanlarının himayəsi altında olan cinayətkarlar, o cümlədən, Rəhim Qazıyev, Surət Hüseynov və onlarla əlbir olan adamlar, yaxud Şahin Musayev və başqaları ayrı-ayrı regionlarda, başqa ölkələrdə yaxalanıb Azərbaycana gətirilib, məhkəməyə verilibsə, məsuliyyətə cəlb olunubsa, demək, hər bir kəs bundan özü üçün nəticə çıxarmalıdır.

Mən bu gün məmnuniyyətlə qeyd edirəm və bizim hüquq-mühafizə orqanlarının, xüsusən, Daxili İşlər Nazirliyinin işçilərinin işlərini o mənada xüsusi qeyd edirəm ki, Rusiyanın ucsuz-bucaqsız vilayətlərində, ən uzaq yerlərində o cinayətkarların tapılması və Azərbaycana gətirilməsi təmin olunubdur.

Doğrudur, bəziləri hələ indiyədək gizlənirlər. Ancaq mən əminəm ki, onlar da yaxalanacaqlar, tapılacaqlar, onlar da gəlib Azərbaycanda ədalət məhkəməsi qarşısında duracaqlar. Bu gün bildirmək istəyirəm ki, özləri nə qədər tez dərk etsələr ki, onların tutduğu yol uğursuzdur, məsuliyyətdən qaça bilməyəcəklər və dərk etsələr ki, vaxtında gəlib təslim olsalar, onların məsuliyyəti yüngülləşə bilər, gəlməlidirlər. Onlar vətənlərinə gəlməlidirlər.

Ümumiyyətlə, vətənpərvər, mərd insan əgər şüurlu ya şüursuz hansısa bir cinayəti edibsə, o, vətənindən qaçmamalıdır. Cinayət edib vətənindən qaçan adam xalq, millət, cəmiyyət üçün ən yaramaz və ən nüfuzsuz bir adamdır. Əgər sən şüurlu surətdə cinayət edirsənsə, bil ki, bu cinayətə görə mə-

suliyyət daşımalısan. Demək, sən bu cinayəti edəndə məsuliyyəti də gözünün önünə almalısan. Məsuliyyəti öz ölkəndə, doğma torpağında, xalqının içində daşımalısan. Gedib hansısa bir ölkədə gizlənməklə canını qurtara bilməyəcəksən. Əgər kimsə səni yolundan çıxarıbsa, azdırıbsa, qanmamısansa, başa düşməmisənsə, bu, daha da çox tələb edir ki, sən ağlını başına yığasan. Vətəninə, ölkənə gələsən, gəlib təslim olasan. Əgər cəza almalısansa, cəza çəkəsən, amma öz xalqının içində. Torpağında yaşayasan. Cinayət edib ölkəsini tərk etmək böyük qəhrəmanlıq deyildir.

Mən əminəm ki, bu gizlənənlərin hamısı tapılacaqdır. Çünki son ilin təcrübəsi və artıq əldə olunan peşəkarlıq təcrübəsi belə bir fikir söyləməyə əsas verir. Ancaq təəssüflər olsun ki, bu cür qatı cinayət edən adamların hesabına Azərbaycanda həbs olunan və məhkəmə vasitəsilə cəza alan adamların sayı artıbdır. Amma onlar cinayətkardırlar. Əgər cinayətkar cəzalanmasa, biz cəmiyyəti ondan nə cür qoruyacağıq? İnsanlar, cəmiyyət, xalq cinayətkarlardan qorunmalıdır. İndi bəziləri orda-burda təbliğat aparırlar ki, Azərbaycanda məhbuslar çoxdur, siyasi məhbuslar var. Birincisi, mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycanda bir nəfər də siyasi məhbus yoxdur. Siyasi məhbus anlayışını bilən adam belə söz deməz. Kim siyasi məhbus ola bilər? O adam ki, onun ideyası Azərbaycan dövlətinin ideyasına zidd olsun. Azərbaycanda belə bir məhbus yoxdur. Azərbaycanda olan məhbuslar qanunsuz cinayətkar silahlı dəstələr yaratdıqlarına görə cəzalanıblar və məhbusdurlar. Azərbaycanda olan məhbuslar hakimiyyəti silah yolu ilə devirmək üçün cəhdlər göstəriblər, cəzalanıblar. Azərbaycanda olan məhbuslar adam öldürüblər, qan töküblər, gizli şəkildə çoxsaylı silahlar alıb-satıblar, yaxud da ki, silah yığıb başqa cinayət törətmək məqsədi üçün istifadə ediblər. Məhbuslar bunlardır. Azərbaycanda siyasi məhbus yoxdur.

İndi ayrı-ayrı adamlar öz şəxsi mənafelərini güdərək, cəmiyyətdə özlərinə şəxsi-siyasi ad qazanmaq üçün bütün dünyaya car çəkirlər ki, Azərbaycanda siyasi məhbus vardır. Azərbaycanda siyasi məhbus yoxdur.

İkincisi, bəli, Azərbaycanda məhbuslar var. Əgər 1993-cü ildə vətəndaş müharibəsini törədənlər onu yaratmasaydılar Azərbaycanda bu məhbuslar olmazdı. Əgər 1994-cü ilin oktyabr dövlət çevrilişinə cəhd olmasaydı, yaxud 1994-cü ilin sentyabrında Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından o cinayətkarları çıxarıb başqa ölkəyə aparmasaydılar, indi bu məhbuslar olmazdı.

OMON dəstəsi indi siyasətlə məşğul olan ayrı-ayrı adamların havadarlığı, dəstəyi, köməyi, pozucu fəaliyyəti nəticəsində yolundan çıxmasaydı, yolunu azmasaydı, bir çox adi cinayətlər edəndən sonra dövləti devirmək cəhdini etməsəydi, hazırda bu məhbuslar olmazdılar. İndi bəziləri OMON-çuların hüquqlarını müdafiə edirlər. Siz nəyi müdafiə edirsiniz? Cəza almış və həbsxanada olan hər bir OMON-çu cinayət edibdir, ona görə də cəzasını çəkməlidir.

Azərbaycanın hüquq-mühafizə orqanları, ədalət məhkəməsi onları cəzalandıraraq, onları cəmiyyətdən təcrid edərək bütün cəmiyyətin rahatlığına nail olublar, bütün cəmiyyətin hüquqlarını təmin ediblər. Bir qrup cinayətkar hələ dövlət çevrilişinə cəhd göstərməmişdən əvvəl neçə-neçə insanın hüquqlarını pozurdular, onları soyurdular, onlara təcavüz edirdilər, onların namusuna sataşırdılar, ayrı-ayrı insanların malını, dövlətini əlindən almaqdan başqa, gedib onların arvadlarını, qızlarını alıb zorlayırdılar. Bəs indi onların hüquqlarını qorumaq istəyən adamlar o vaxt biri-birilərinin hüquqlarını niyə qorumurdular?

Bunlara görə Azərbaycanda məhbuslar vardır. Hamı da bilməlidir ki, biz Azərbaycanın dövlətçiliyini, xalqımızı, cəmiyyəti qoruyaraq, cinayət edən hər bir şəxsə ədalət məhkə-

məsi ilə qanunun tətbiq olunmasını təmin etməliyik. Bu, bizim vəzifəmizdir, borcumuzdur.

Mən hüquq-mühafizə orqanlarının bu sahədə gördüyü işi qiymətləndirirəm. Ancaq eyni zamanda, hüquq-mühafizə orqanları əldə etdikləri nailiyyətlərlə bərabər, gərək işlərində olan nöqsanları da aradan qaldırsınlar. Təəssüflər olsun ki, nöqsanlar da az deyildir. Şəxsən məni ən çox narahat edən hüquq-mühafizə orqanlarının bəzi əməkdaşlarının öz vəzifələrindən sui-istifadə etməsidir. Hüquq-mühafizə orqanının hər bir əməkdaşı bilməlidir ki, o, bu təşkilatda işləyərək xüsusi səlahiyyət alıb, xüsusi etimada layiq olub və bu etimadı da doğrultmalıdır. Yüksək vəzifəsindən istifadə edərək qanunu pozmaq, öz şəxsi mənafeyi üçün ayrı-ayrı yollara getmək hüquq-mühafizə orqanlarını ləkələyir və bu, orqanlara hörmət gətirmir. Belə faktlar var və vətəndaşlar tərəfindən belə şikayətlər də var. Bunu hüquq-mühafizə orqanlarının rəhbərləri yaxşı bilməlidirlər və bu nöqsanların aradan qaldırılması üçün daha da çox tədbirlər görməlidirlər, ciddi işlər aparmalıdırlar.

Hüquq-mühafizə orqanları əməkdaşlarının içərisində vəzifəsindən sui-istifadə etmək halları cürbəcür formalarda özünü büruzə verir. Onlardan biri də rüşvətxorluqdur. Rüşvətxorluq cəmiyyətdə olan xəstəlikdir və hüquq-mühafizə orqanlarında bu xəstəlik mövcuddur. Bu, hüquq-mühafizə orqanlarında yeni bir hadisə deyildir. Hüquq-mühafizə orqanlarının tarixini götürsəniz, lap 50-60 il, 10-15 il bundan əvvəl də bu təşkilatlarda, onların əməkdaşlarının içində rüşvətxorluq edən insanlar olubdur, təəssüflər olsun ki, bu gün də vardır.

Mən keçmiş illərdə də, yəqin 1970-1980-ci illərdə də Azərbaycanda işləyərkən hüquq-mühafizə orqanlarında rüşvətxorluq, vəzifəsindən sui-istifadə etmək halları ilə kəskin mübarizə aparmışam. Tarixi vərəqləsəniz, o dövrlərdə mənim apardığım mübarizə və həyata keçirdiyim tədbirlərin hamısı görünəcəkdir.

Bu gün müstəqil dövlət olduğumuz üçün bu işlər daha da xüsusi əhəmiyyət kəsb edir. Yəni hüquq-mühafizə orqanlarında rüşvətxorluq ilə və cürbəcür mənəviyyatsız hallarla mübarizə xüsusi əhəmiyyət daşıyır. Çünki biz müstəqil dövlətimizi qurub-yaradırıq. Bizim müstəqil dövlətimiz ümumiyyətlə, sağlam olmalıdır və onun hər bir təşkilatı, hər bir orqanı sağlam olmalıdır.

Hüquq-mühafizə orqanları müstəqil Azərbaycan dövlətinin əsas sütunlarındandır. Əgər bütün sütunlar sağlam olmasa, bu sütunların içərisində qanunu pozan, vəzifəsindən sui-istifadə edən, rüşvətxorluq edən, insanların hüquqlarını pozanlar olduğu halda, ümumiyyətlə, bu sütunlar sağlam olmaz. Ona görə də bu məsələ ilə çox ciddi məşğul olmaq lazımdır.

Bu həqiqətdir. Mən bunun həqiqət olduğunu dəfələrlə demişəm və bu gün də deyirəm. Heç kəs kənardan gəlib bizə burada yeni bir ixtira açmasın. Guya ki, bunlar məlum deyil, yaxud biz bunları bilmirik. Bunlar məlumdur, biz bunları bilirik. Şəxsən mən ona görə də bu fikirləri söyləyirəm və tələb edirəm ki, hüquq-mühafizə orqanlarında bütün bu mənfi hallarla mübarizə gücləndirilsin, hüquq-mühafizə orqanlarının tərkibi təmizlənsin və bizim mənəviyyatımıza, əxlaqımıza, məsləkimizə zidd olan belə ünsürlər hüquq-mühafizə orqanlarından kənarlaşdırılsın. Bu, sizin əsas vəzifələrinizdən biridir.

Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulur. Bu proses müvəffəqiyyətlə inkişaf edir. Mən böyük məmnuniyyətlə qeyd edirəm ki, yaşadığımız hər gün, hər ay, hər il bizi bu sahədə irəliyə aparır. Əldə etdiyimiz nailiyyətlər onu göstərir ki, biz Azərbaycanda həqiqətən müstəqil, hüquqi, demokratik, dünyəvi dövləti qurub başa çatdıra biləcəyik. Biz bu yolla gedirik və daim gedəcəyik. Biz iqtisadi, sosial, siyasi islahatlar həyata keçiririk. Bunlar hamısı dövlət quruculuğunu təmin edən amillərdir.

Konstitusiyamızın əsasını təşkil edən prinsiplər Azərbaycanda məhz demokratiyanın inkişafı, hüquqi dövlətin, dün-

yəvi, sivilizasiyalı cəmiyyətin, dövlətin yaranmasıdır. Bizim borcumuz Konstitusiyanın tələblərini ardıcıl surətdə həyata keçirməkdən ibarətdir. Biz bunu etmişik və edirik.

Mən bu gün məmnuniyyətlə deyə bilərəm ki, biz bütün bu sahələrdə böyük nailiyyətlər əldə etmişik. Azərbaycanın siması dəyişibdir. Azərbaycan demokratik bir ölkə, hüquqi dövlət kimi artıq hər yerdə tanınıb və bu da beynəlxalq aləmdə Azərbaycana daha da çox hörmət gətirir, Azərbaycanın nüfuzunu artırır.

Biz bunları həyata keçirdiyimiz və bir çox nailiyyətlər əldə etdiyimiz halda, bəziləri özlərini bu sahədə böyük bir alim, yaxud da ki, dahi bir şəxs kimi qələmə verərək müəyyən tələblər irəli sürürlər. Onlar deyirlər ki, guya Azərbaycanda demokratiya yoxdur, demokratiya azdır, o yoxdur, bu yoxdur.

Mən belə düşünürəm ki, qoy onlar danışsınlar, yazsınlar, desinlər, biz isə öz işimizlə məşğul olaq. Biz öz işimizi görürük və onun bəhrələrini də görürük. Xalq da bizim gördüyümüz işi görür və onun bəhrələrindən də istifadə edir, ondan bəhrələnir.

İndi kənarda durub, özünü müxalifətə çəkib bu sahədə bizə "dərs verənlər", hesab edirəm ki, heç bir mənəvi haqqa malik deyillər. Bu sahədə öyrətmək, dərs vermək, məsləhət vermək üçün gərək mənəvi haqqın olsun. Əcəba, bu demokratiyanı belə də siz hardan bizdən yaxşı bilirsiniz? Nəyə görə? Hansı demokratiya akademiyasını qurtarmısınız? Hansı demokratik dövləti qurmusunuz, gəlib burada da qurmaq istəyirsiniz? Hansı demokratik böyük bir iş görmüsünüz ki, onu burada tətbiq etmək istəyirsiniz? Hansını?

Bilirsiniz, ona görə də bütün bu yazılar, bu danışıqlar və sairə çox gülməlidir. Mənim sadəcə, onlara yazığım gəlir. İndi bu 4-5 ildir bizə demokratiya öyrətmək istəyən adamlar bir il hakimiyyətdə oldular, nə demokratiyanı tətbiq edə bildilər, nə dövlət qura bildilər, nə millətə bir gün ağlaya bildilər və nəhayət, Azərbaycanı vətəndaş müharibəsinə gətirib çı-

xardılar, qaçdılar. İndi qaçandan sonra 4 ildir oturublar kənarda, "demokratiya carçısı" olublar, demokratiyadan dəm vururlar, demokratiya tələb edirlər. Hansı əsasla, nəyə görə, hansı hüquqa görə? Yığışırlar orda-burda, nə bilim, "demokratik seçkilər hərəkatı" qururlar. Bilirsiniz, gərək nə qədər ağılsız olasan ki, belə bir iş görəsən.

Azərbaycanın 1995-ci ildə demokratik prinsiplər əsasında, ümumxalq referendumu ilə demokratik Konstitusiyası qəbul olunubdur. Müstəqil Azərbaycanın demokratik prinsiplər əsasında ilk parlamenti seçilibdir. Çoxsaylı qanunlar qəbul olunubdur və o qanunların əksəriyyəti həyata keçirilibdir. Bəziləri şikayətlənirlər ki, qanunlar icra olunmur, həyata keçirilmir. Belədir, bu da var, bunu da inkar etmək olmaz. Ancaq bu, eyni zamanda təbiidir.

Qanunu yaratmaq çətin bir şey deyildir. Hər bir qanunu yaratmaq üçün təcrübə, bilik əsasında, konstitusiya əsasında bir 2-3 ay vaxt tələb edir ki, onu yazasan, hazırlayasan, müzakirə edəsən, ondan sonra da imzalayasan. Amma onu icra etmək başqa məsələdir. Qanunu yaradanlar bir kiçik dəstə adamlardır: onu yazıb hazırlayanlar, parlamentdə qəbul edənlər və nəhayət, o qanunları imza edən prezident. Amma bunlar hər bir insan tərəfindən icra olunmalıdır. Şübhəsiz ki, icranın təşkili dövlət, icra orqanlarının üzərinə düşür, onlar bunu icra etməlidirlər. Təəssüflər olsun ki, icra orqanlarının işində də çox böyük nöqsanlar var, onların üzərində günahlar çoxdur. Bu da var. Ancaq bununla yanaşı, qəbul edilən hər bir qanun əgər dərhal icra oluna bilsəydi, qəbul edilən hər bir qərar, prezidentin verdiyi hər bir fərman dərhal icra oluna bilsəydi, biz çox xoşbəxt insanlar ola bilərdik, biz qısa bir müddətdə göylərə qalxa bilərdik. Bu reallığı bilmək lazımdır. Reallıq da bundan ibarətdir.

Mən şübhəsiz ki, bütün dövlət, hökumət orqanlarından qanunların ardıcıl surətdə icra olunmasını bu gün də tələb edirəm. Mən bu gün bir daha tələb edirəm ki, icra orqanlarının

işində olan nöqsanlar aradan götürülsün, icra orqanları əməkdaşlarının bəzilərinin vəzifəsindən sui-istifadə etməsi halları aradan götürülsün və icra orqanları qanununun tələblərinə uyğun olaraq daha yaxşı işləsinlər. Ancaq bu gün mən reallıqdan da uzaqlaşa bilmərəm və o kənardan deyilən cürbəcür sözləri də qəbul edə bilmərəm ki, bu icra olunmadı, o icra olunmadı. Bunun üçün vaxt lazımdır.

İqtisadi islahatları həyata keçirən iqtidardır. Özəlləşdirməni həyata keçirən iqtidardır. Torpaq islahatını həyata keçirən iqtidardır. Torpağı şəxsi mülkiyyətə verən və cəsarətli addımlar atan iqtidardır. Siyasi, sosial islahatları həyata keçirən iqtidardır. Azərbaycanda ictimai-siyasi sabitliyi təmin edən iqtidardır. Konstitusiyanın tələblərini həyata keçirən, qəbul olunan qanunları həyata keçirən iqtidardır. Azərbaycanda demokratiyanı inkişaf etdirən iqtidardır. Hüquqi dövlət yaradan və insanların hüquqlarının qorunmasını təmin etməyə çalışan iqtidardır. Budur. Bəs siz kimsiniz? Kənarda durub "demokratiya, demokratiya" qışqıranlar kimlərdir? Siz demokratiya sahəsində nə etmisiniz? Daxili sabitliyi təmin etmək üçün siz nə etmisiniz? Əksinə, çoxları öz pozucu hərəkətləri ilə bu gün də Azərbaycanda qarmaqarışıqlıq yaratmaq istəyirlər, Azərbaycanda bu gün mövcud olan sabitliyi pozmaq istəyirlər, onu dağıtmaq istəyirlər. Amma bilsinlər - bu, mümkün deyildir. Ona görə mümkün deyildir ki, xalq dövlətin apardığı siyasətə artıq inanıb, dövlətə və dövlət başçısına inanıb. İnanır ki, əgər bu gün hansı problem həll olunmayıbsa, o, sabah həll olunacaqdır. Sabah həll oluna bilməsə, ondan sonrakı dövrdə həll ediləcəkdir.

Mən heç vaxt, heç kəsə söz verməmişəm ki, hər məsələni bu gün və ya bu il, gələn il həll edəcəyik. Bu, böyük bir prosesdir. Biz buna nə qədər də səy qoysaq, nə qədər gücümüzü də sərf etsək, bu prosesin həlli zaman tələb edir. Biz zaman çərçivəsində bunların hamısını həyata keçirəcəyik. Xalq bunu bilir, buna inanır. Novruz bayramı günlərində mənim

xalqla, çoxlu kütlə ilə görüşlərim olubdur. Mən küçələrdə, meydanlarda, ayrı-ayrı görüşlərdə xalqın əhval-ruhiyyəsini, xalqın dövlətə münasibətini görürəm. Bizim reallığımız budur.

Güman edirəm ki, biz bu yolla bundan sonra daha da əzmlə gedəcəyik və qarşımızda duran vəzifələrin hamısını yerinə yetirəcəyik. Mən bütün bunları bəyan edərək, eyni zamanda hüquq-mühafizə orqanlarından qanuna daim riayət etməyi tələb edirəm.

Bizim Konstitusiyamız, qanunlarımız hər birimiz üçün müqəddəs olmalıdır. Xüsusən, qanunların həyata keçirilməsi, qanunlara riayət olunması hüquq-mühafizə orqanlarının işinin təkmilləşməsini tələb edir. Qanunun aliliyi hamı üçün – adi vətəndaş üçün də, ən yüksək vəzifəli insan üçün də eyni tələblər qoyur. İnsan dövlətdə, cəmiyyətdə nə qədər yüksək vəzifə, səlahiyyət alırsa, o qədər də çox qanunun tələblərini həyata keçirməlidir, qanuna riayət, hörmət etməlidir, qanunun aliliyini təmin etməlidir. Bu, sizin də, mənim də, hamımızın ən böyük vəzifəmizdir və biz bu vəzifəmizi yerinə yetirməliyik.

Bir də deyirəm, Azərbaycanda demokratiya var və biz demokratiyanı günü-gündən inkişaf etdirəcəyik.

Oktyabr ayında Azərbaycanda prezident seçkiləri nəzərdə tutulubdur. Prezident seçkilərinin keçirilməsi prinsipləri bizim Konstitusiyada öz əksini tapıbdır. Ancaq bunun üçün xüsusi qanun layihəsi hazırlanıbdır və bu yaxın vaxtlarda Milli Məclisdə müzakirə olunacaq, qəbul ediləcəkdir. Ondan sonra hələ oktyabr ayına qədər vaxt var. Prezident seçkilərinin keçirilməsi üçün lazımi tədbirlər dövlət, iqtidar tərəfindən həyata keçiriləcəkdir.

Hamı – bütün siyasi qüvvələr, partiyalar, təşkilatlar, cəmiyyətlər bilməlidir ki, prezident seçkilərinin sərbəst, azad, ədalətli, tam demokratik şəkildə keçirilməsi bugünkü Azərbaycan iqtidarının əsas vəzifəsidir. Mən bəyan edirəm ki, biz

bu vəzifəmizi yüksək səviyyədə həyata keçirəcəyik, heç kəs narahat olmasın.

Azərbaycanda heç bir iş görməmiş, heç bir xidməti, təcrübəsi olmayan, ancaq prezident olmaq istəyən adamlar indi çoxalıbdır. Buna nə ad vermək olar? Hər bir insanın seçmək, seçilmək hüququ var. Əgər Azərbaycanın hansısa bir vətəndaşı hesab edir ki, o, prezident ola bilər və bu vəzifəni apara bilər, özündə bu cürəti tapırsa, qoy irəliyə gəlsin. Konstitusiyanın, prezident seçkiləri haqqında qanunun çərçivəsində qoy gəlsin, seçkidə iştirak etsin. Belə iddiası olan hər bir şəxsə maksimum şərait yaranacaqdır. Heç kəs narahat olmasın və heç kəs də çalışmasın ki, bizə bu barədə hansısa yolla təsir edə bilər. Bizə təsir etmək mümkün deyildir. Çünki biz özümüz bu yoldayıq. Bizə yol göstərmək lazım deyildir. Bir halda ki, biz demokratiya yolu ilə gedirik, hər bir şeyi demokratik prinsiplər əsasında edəcəyik. Buna heç kəsin şübhəsi olmasın. Yenə də deyirəm, iştahası olan, iddiası olan adamlar hazırlaşsınlar. Amma elə hazırlaşsınlar ki, onlar bu seçkiyə qanun çərçivəsində girə bilsinlər. Kimsə qanunu pozacaqsa, şəxsiyyətindən asılı olmayaraq ona yol verilməyəcəkdir. Bizim Konstitusiyamızın və qanunumuzun tələbləri tətbiq olunacaqdır.

Mən bu gün milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı münasibətilə sizinlə görüşümdən çox məmnunam. Mən bilirəm ki, hüquq-mühafizə orqanlarında çalışan əməkdaşlar və onların rəhbərləri artıq hərəsi öz yerini tutubdur, öz vəzifələrini bilirlər və öz məsuliyyətlərini dərk edirlər, peşəkarlıq təcrübəsi toplayıblar. Artıq bu son illər, xüsusən, 1993-1994-cü illərdən sonrakı dövrdə olan proseslər hamıya göstərdi ki, Vətənə, dövlətə, xalqa xəyanət edən adama bizim cəmiyyətimizdə, hüquq-mühafizə orqanlarında da yer olmayacaqdır.

Hüquq-mühafizə orqanlarında işləyən hər bir kəs, yaxud işləmək istəyən hər bir vətəndaş bilməlidir ki, ondan birinci

növbədə müstəqil Azərbaycan dövlətinə sədaqət tələb olunur. Əgər kimdəsə bu çatmırsa, qoy geriyə çəkilsin. Mənəvi saflıq, mənəvi paklıq tələb edilir, yüksək mənəvi keyfiyyətlər tələb olunur. Hüquq-mühafizə orqanlarında işləyən adamlar bilməlidirlər ki, onların üzərinə böyük məsuliyyət düşür. Onlar öz vicdanı, cəmiyyət, dövlət qarşısında məsuliyyət daşıyırlar. Onlar bu məsuliyyəti dərk edərək işləməlidirlər və öz işlərini qurmalıdırlar. Mənəvi saflıq hüquq-mühafizə orqanlarının işçiləri üçün xüsusi əhəmiyyət kəsb edən keyfiyyətdir. Mənəvi saflıq uğrunda mübarizə hüquq-mühafizə orqanları kollektivlərində ən əsas məsələlərdən biri olmalıdır.

Vaxtilə belə bir məşhur kəlam var idi ki, soyuq baş, hərarətli ürək, təmiz əllər olmalıdır. Bu kəlamın müəllifinin kim olub-olmamağından asılı olmayaraq, müdrik sözlərdir. Mən arzu edərdim ki, bizim hüquq-mühafizə orqanlarında işləyən adamların həqiqətən yanan hərarətli ürəyi olsun, düşünən başı olsun və təmiz əlləri olsun. Biz ümumiyyətlə, vətəndaşlarımızı və xüsusən hüquq-mühafizə orqanlarında çalışan əməkdaşları bu tələblər əsasında tərbiyə etməliyik. Bir daha deyirəm, mənəvi saflıq, mənəvi paklıq ən əsas tələblərdən biridir. Vətənə, xalqa sədaqət və mənəvi saflıq, bunlar bizim müvəffəqiyyətimizin əsasıdır. Güman edirəm ki, biz hüquq-mühafizə orqanlarında belə bir mühitin, əhval-ruhiyyənin yaranmasına nail ola biləcəyik.

Mən sizə işlərinizdə uğurlar arzulayıram və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim bugünkü görüşümüzdən, bu danışıqlardan hərə özü üçün lazımi nəticə çıxaracaqdır. Sağ olun. Təşəkkür edirəm.

# AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ HÜQUQ MƏSƏLƏLƏRİ VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN İNSAN HÜQUQLARI ÜZRƏ YARDIMÇI KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*
*1 aprel 1998-ci il*

Avropa Şurasının belə yüksək səviyyədə çoxsaylı nümayəndə heyətinin Azərbaycana gəlməsindən çox məmnun olduğumu bildirmək istəyirəm. Bu, Avropa Şurasının Azərbaycana diqqətinin artmasını göstərir və bu da bizim üçün çox əhəmiyyətlidir. Biz Azərbaycanda Avropa Şurası ilə əməkdaşlığa xüsusi əhəmiyyət veririk. Avropa ölkəsi olaraq və Avropa standartlarına uyğun surətdə öz ölkəmizdə dövlət quruculuğunu apararaq Avropa Şurasının tam hüquqlu üzvü olmaq arzusundayıq.

Biz bilirik ki, Avropa Şurasına daxil olmaq üçün bir neçə mərhələlərdən, imtahanlardan keçmək lazımdır. Bəzən mənə belə gəlir ki, gənc adamın hansısa bir böyük universitetdə imtahan verməsi bizim kimi ölkənin Avropa Şurasına girməsindən asan olur. Ancaq bu çətinliklərə baxmayaraq, biz çalışırıq ki, bütün imtahanları verək. Sizinlə bizim hər birimiz vaxtilə, gənc yaşımızda universitetlərə daxil olarkən imtahan verməyin nə qədər əziyyətli olduğunu hiss etmişik. Siz də indi hiss edirsiniz ki, bu yoxlamalarınız, maneələriniz bizim üçün nə qədər əziyyətlidir. Ancaq biz bunların hamısına razıyıq, çünki həqiqətən istəyirik ki, ölkəmiz Avropa Şurasının tələblərinə uyğun olsun. Gənclər arasında belə bir fikir də var ki, əgər tələbə yaxşı biliyə malikdirsə, o, imtahan qəbul eləyən müəllimin ciddi və qəti olmasından heç vaxt çəkinmir. Çünki biz

cürbəcür müəllimlər görmüşük: bəziləri liberal olur, dərsi o qədər yaxşı bilməsən də qiymət verir, ancaq bəziləri çox tələbkar olurlar. Siz çox tələbkarsınız, biz bunu bilirik. Biz də hesab edirik ki, biliyimiz o qədərdir ki, siz nə qədər tələbkar olsanız da biz imtahanı verəcəyik. Amma nəsə çatışmırsa bunların hamısını qaydaya salmağa da hazırıq. Yəni biz özümüzdən razı deyilik; hesab edirik ki, bu keçid dövründə çox şeyləri hələ istənilən səviyyədə edə bilməmişik. Ancaq əsas bu deyil, əsas odur ki, biz istəyirik bütün məsələlərdə Avropa Şurasının tələblərinə uyğun səviyyəyə çataq. Güman edirəm, biz buna nail olacağıq.

Güman edirəm, siz bu günlərdə bizim ölkəmizlə tanış olub, bugünkü günümüzü görə bilmisiniz. Ölkəmizdə həll olunası çox problem var. Ən çətin, ən ağır problem torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan artıq azərbaycanlının yerindən-yurdundan didərgin düşməsi və köçkün vəziyyətində yaşamasıdır. Onların çoxu çadırlarda yaşayır, siz bunu bilirsiniz.

Bununla əlaqədar, eyni zamanda təkcə bununla deyil, ümumiyyətlə keçid dövrü ilə əlaqədar, şübhəsiz ki, iqtisadi, sosial problemlər də var. Biz bu problemlərin həll olunması ilə də məşğuluq. Şübhəsiz, ictimai-siyasi həyatımızda da həll olunası problemlər var, bunlarla da məşğul oluruq.

Biz istəyirik ki, kənardan baxanlar və Azərbaycana gələnlər ölkəmizin reallığını olduğu kimi bilsinlər - nə artıq, nə əskik, güman edirəm, sizin belə imkanınız olmuşdur.

**Corc Klerfayt** (Belçika parlamentinin deputatı): Mən çox şadam ki, Siz vaxt taparaq Avropa Şurası Parlament Assambleyasının hüquq məsələləri və insan hüquqları komitəsinin nümayəndə heyətini qəbul edirsiniz. Biz əsas etibarilə insan hüquqları problemləri ilə məşğul oluruq və Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv olmaq üçün müraciət etdiyi bir vaxtda buraya gəlmişik.

Azərbaycana gəldiyimiz müddətdə bizim çox intensiv proqramımız var idi. Biz ədliyyə, xarici işlər, daxili işlər nazirləri və digər dövlət adamları ilə, rəsmi şəxslərlə görüşmüşük. Cənab Prezident, biz Sizi heç də imtahana çəkməyə yox, dostunuz kimi sizə yardım etməyə gəlmişik. Ümid edirəm, bir vaxt elə olacaq ki, Azərbaycan da Avropa Şurasının tam hüquqlu üzvü olacaq və onun nümayəndəsi bizim ümumi nümayəndə heyətimizin tərkibində digər ölkəyə gedərək orada insan hüquqları ilə tanış olacaqdır.

**Heydər Əliyev:** Doğru deyirsiniz, elə gün olacaqdır.

**Corc Klerfayt:** Biz böyük şərəf hissi duyuruq ki, imtahana çəkmirik, ümumiyyətlə demokratiya prosesini irəlilətməkdən ötrü millətlərə, xalqlara kömək edirik. Cənab Prezident, icazə versəydiniz, bu imkandan istifadə edərək Sizə bir neçə sual vermək istərdim.

Birinci sualım belə olacaqdır: Qarabağ məsələsinin həlli sahəsində son inkişaflar haqqında nə deyə bilərsiniz? Xüsusilə Ermənistandakı son seçkilərdən sonra Siz məsələni necə görürsünüz? Sizcə, bu seçkilər məsələnin ümumi inkişafına necə təsir edəcəkdir? Mən bilirəm ki, Qarabağ problemi sizin ölkəniz, xalqınız üçün çox vacib problemdir. Biz çadır şəhərciyində qaçqınların vəziyyəti ilə tanış olmuşuq.

İkinci sualım isə insan hüquqları haqqında və ümumiyyətlə hüquqi aktlar barədə olacaqdır. Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, son müddət ərzində Azərbaycanda bu sahədə müəyyən tərəqqi əldə edilmişdir. Bəzi layihələr var, onlar işlənib hazırlanmaqdadır. Bu layihələr hüquq, məhkəmə, ədliyyə sahəsi ilə bağlıdır. İstərdim biləm ki, bu proses nə vaxt tamamlanacaqdır?

Eyni zamanda istərdik ki, Siz cavabınızda bizim rolumuza da yer ayırasınız, Avropa Şurasının sizə nə cür yardım göstərə biləcəyi haqqında məlumat verəsiniz. Bilirik ki, siz həm də MDB-nin üzvüsünüz. İstəyirik bilək, Avropa Şurası ayrılıqda və

ümumiyyətlə MDB çərçivəsində Azərbaycana hansı yardımı edə bilər?

Biz dünən GUAM çərçivəsində əməkdaşlıq məsələsini də müzakirə etmişik. İstərdik bu haqda da bir neçə kəlmə deyəsiniz. Sağ olun, cənab prezident, əvvəlcədən xəbərdarlıq etmək istəyirəm ki, həmkarlarımın başqa sualları da ola bilər. Lakin istərdim əvvəlcə bu suallara cavab verəsiniz.

**Heydər Əliyev:** Birincisi, imtahan barəsində dediyim sözlər zarafat xarakteri daşıyr. Şübhəsiz ki, biz sizin ölkəmizə ziyarətinizi Azərbaycanda dövlət quruculuğu, demokratiyanın inkişafı, insan hüquqlarının qorunması sahəsində Azərbaycana yardım kimi qəbul edirik. Amma eyni zamanda Sizin suallarınız müəyyən qədər mənim bu fikrimə əsas verir ki, sual verib məndən cavab almaq istəyirsiniz. Bu, istər-istəməz imtahana oxşayır.

Mən artıq dedim ki, Dağlıq Qarabağ problemi, Ermənistan-Azərbaycan münaqişəsi bizim həyatımızda ən çətin problemdir. Birinci, bilmək lazımdır ki, bu problemi yaradan Azərbaycan tərəfi deyil, Ermənistan tərəfidir. Azərbaycan Ermənistana təcavüz etməyib, Ermənistanın torpağını ələ keçirməyə cəhd etməyibdir.

Münaqişə Ermənistanın Azərbaycana qarşı on il bundan öncə başlanmış torpaq iddiası ilə, Dağlıq Qarabağ vilayətini Azərbaycanın əlindən alıb Ermənistana bağlamaq niyyəti, cəhdi ilə başlanıbdır. Bunu bilmək lazımdır ki, münaqişənin günahkarı Azərbaycan tərəfi deyildir.

İkincisi, münaqişə nəticəsində Azərbaycan təcavüzə məruz qalıbdır, torpaqları işğal olunubdur. Dediyim kimi, bir milyondan artıq insan öz yerindən-yurdundan didərgin düşübdür. Əgər insan hüquqlarından danışırıqsa, Azərbaycanda, yaxud Ermənistanda, yaxud Gürcüstanda, yaxud da hansısa Avropa ölkəsində hansısa bir insanın hüquqlarının pozulması insan hüquqlarını qoruyan cəmiyyətləri narahat edir. Ancaq yerindən-yurdundan

zorla çıxarılmış, varını-yoxunu itirmiş, çox şeylərindən məhrum olmuş insanların hüquqlarının pozulması, nədənsə, insan hüquqlarının pozulması kimi qiymətləndirilmir.

Bunlara baxmayaraq, bildiyiniz kimi, biz 1994-cü ilin mayında atəşin dayandırılması haqqında saziş əldə etmişik. Təxminən bir aydan sonra dörd il tamam olacaqdır ki, atəş yoxdur, atəşkəs rejimində yaşayırıq. Biz bəyan etmişik və indiyə qədər gördüyümüz işlər də bunu sübut edir ki, bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Bildiyiniz kimi, bu işlə Minsk qrupu və onun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa hökumətləri məşğul olurlar. Mən bu gün də bəyan edirəm ki, biz bundan sonra da məsələnin Minsk qrupu çərçivəsində, həmsədrlərin köməyi ilə sülh vasitəsilə həll olunmasına çalışacağıq. Hesab edirəm ki, Minsk qrupu öz səylərini bundan sonra da davam etdirməlidir.

Ermənistanda rəhbərlik dəyişilibdir, keçmiş prezident fevral ayının əvvəlində istefa verib və nəhayət, prezident seçkiləri qurtarmaqdadır. Bu, Ermənistanın daxili işidir, biz buna qarışmırıq. Ümumiyyətlə hesab edirik ki, heç bir ölkə başqa ölkənin daxili işinə qarışmamalıdır. Bizim isə Ermənistanla əlaqələrimiz çox həssas olduğuna görə Ermənistanın heç bir işinə qarışmaq fikrində deyilik və qarışmırıq. Ermənistan vətəndaşlarının seçdiyi prezidentlə əməkdaşlıq edəcəyik, çünki bunu həm Ermənistanın, həm də Azərbaycanın düşdüyü indiki vəziyyət tələb edir. Hesab edirəm ki, bu gün sülh yolundan başqa bir yol nə Ermənistan üçün, nə də Azərbaycan üçün məqbul ola bilməz. Ümidvaram ki, Avropa Şurası da öz imkanları içərisində sülh prosesinə kömək edəcəkdir.

İkinci sualınız insan hüquqları və qanunların qəbul edilməsi ilə əlaqədardır. Azərbaycanda insan hüquqlarının qorunması və bunu təmin etmək üçün lazımi qanunların, qərarların qəbul olunması sahəsində son vaxtlar, hesab edirəm, çox iş görmüşük. Yəqin siz nəzərə almalısınız ki, Azərbaycan döv-

lət müstəqilliyi əldə edəndən sonra həm Ermənistanla münaqişə ölkəmizin vəziyyətini çox mürəkkəbləşdirib, həm də Azərbaycanın daxilində ictimai-siyasi şəraitin qeyri-sabit olması vəziyyəti mürəkkəbləşdiribdir. Biz yalnız 1995-ci ilin sonunda Azərbaycanda daxili ictimai-siyasi vəziyyətin sabitləşməsinə nail ola bilmişik. Dediyim kimi, 1994-cü ilin mayında atəşi dayandıra bilmişik, 1995-ci ilin sonunda ictimai-siyasi vəziyyəti sabitləşdirə, yəni mövcud olan qanunsuz silahlı dəstələri, ayrı-ayrı cinayətkar qrupları ləğv edə bilmişik. 1995-ci ilin noyabrında ilk Konstitusiyamızı qəbul etmişik və bu gün fəaliyyət göstərən parlamenti seçə bilmişik.

Ona görə də Konstitusiyamız əsasında qanunlar qəbul etmək və həyata keçirmək üçün bizim əlimizdə olan vaxt 1996-1997-ci illər olubdur. Hesab edirəm ki, iki il o qədər də çox bir zaman deyildir. Amma bu iki il müddətində az iş görməmişik. Bir çox qanunlar qəbul olunub həyata keçirilir. O cümlədən insan hüquqlarına aid həm qanunlar, həm də çox ətraflı prezident fərmanları qəbul olunmuşdur və bir neçə çox vacib qanun layihələri də hazırdır. Sizə bildirmək istəyirəm ki, hazır olan layihələr aprel-may aylarında qəbul oluna biləcəkdir. O cümlədən, hesab edirəm ki, aprel ayında Azərbaycanda Konstitusiya məhkəməsi də yaranacaq və bəzi başqa qanunların da icrası sürətləndiriləcəkdir.

Biz MDB-nin üzvüyük və bu təşkilatda əməkdaşlıq etməyi özümüz üçün vacib hesab edirik. Bu təşkilatda əməkdaşlıq etməyimiz, iştirakımız daha çox iqtisadi inteqrasiya məqsədi daşıyır. Müstəqil Dövlətlər Birliyini Avropa Şurası, yaxud Avropa Birliyi ilə müqayisə etmək olmaz. Mən hesab edirəm ki, Müstəqil Dövlətlər Birliyi hələ beynəlxalq təşkilatlar standartına çata bilməyibdir. Bu təşkilatın işində çox nöqsanlar var və bu nöqsanları son görüşümüzdə, yəni oktyabrın 23-də Kişinyovda-Moldovada Müstəqil Dövlətlər Birliyi başçılarının görüşündə bəyan etmişik. Bu görüşdə mən -

Azərbaycan Prezidenti də MDB-nin işində olan çox ciddi nöqsanlar haqqında öz fikrimi bildirmişəm. Mən bu gün də hesab edirəm ki, MDB öz işini ciddi təkmilləşdirməlidir.

Ən əsas məsələ ondan ibarətdir ki, Müstəqil Dövlətlər Birliyində belə bir ənənə var ki, fövqəlmilli strukturlar yaratmağa cəhd göstərilir. Biz bunun əleyhinəyik. MDB-dəki ölkələrin hamısı eyni hüquqda olmalıdır, hansısa bir ölkə öz üstünlüyünü başqa ölkəyə göstərməməlidir. Müstəqil Dövlətlər Birliyinin fəaliyyətində hələ ki bu nöqsanlar var və biz çalışırıq bu nöqsanları aradan götürək. Son görüşümüzdə - keçən ilin oktyabrında, dediyim kimi, bu barədə çox ciddi danışıq aparmışıq. Bizim tənqidimizi Rusiyanın prezidenti ədalətli tənqid kimi qəbul etmişdir. Bununla yanaşı, hesab edirəm ki, MDB-nin işini təkmilləşdirib bu birlikdən daha səmərəli nəticələr əldə etmək mümkündür. Biz bu sahədə öz səylərimizi qoyuruq və qoyacağıq.

GUAM keçən ilin oktyabrında Avropa Şurasında olduğumuz zaman yaranmış bir təşkilatdır. Strasburqda olarkən biz – Ukraynanın, Gürcüstanın, Moldovanın və Azərbaycanın prezidentləri görüşdük və belə qərara gəldik ki, GUAM adında təşkilat yaradaq. Bizim bu təşəbbüsümüzün və yaratdığımız təşkilatın ilkin məqsədi iqtisadi inteqrasiyanı təmin etməkdən ibarətdir. Çünki Azərbaycan, Gürcüstan Qara dəniz vasitəsilə Ukrayna, oradan isə Moldova ilə bir çox səbəblərə görə çox bağlıdır. Şübhəsiz, biz onu da nəzərə alırıq ki, Ukrayna, Moldova Avropa Şurasının üzvləridir, Gürcüstan və Azərbaycan isə Avropa Şurasına üzv olmaq üçün qonaq statusu alıblar. Bizi bu da birləşdirir. Yəni coğrafi yaxınlıq, iqtisadiyyatımızda bir-birinə olan meyllər, nəqliyyat-kommunikasiya problemləri belə bir təşkilatın yaranması zərurətini meydana çıxarmışdır. Hesab edirəm ki, bu təşkilat çərçivəsində fəaliyyətimiz səmərəli olacaqdır. Biz Azərbaycanda bu sahədə çalışırıq və çalışacağıq.

Ümumiyyətlə son vaxtlar Avropa ilə Asiya arasında nəqliyyat magistralının yaranması ideyası Avropa Birliyi tərəfindən də dəstəklənir. Bilirsiniz ki, Avropa Birliyinin TRASEKA proqramı var. Bu proqram eyni zamanda qədim «İpək yolu»nun bərpası ilə əlaqədardır. Biz bu proqramda çox fəal iştirak edirik. Bir ay bundan öncə mən Yaponiyada rəsmi səfərdə idim və Yaponiya hökumətinin, xüsusən Baş nazirinin bu proqrama nə qədər böyük marağı olduğunu hiss etdim. Mən bunu ona görə deyirəm ki, Yaponiya Asiyanın ən kənarında yerləşən bir ölkədir. Asiyanın bu yolla Avropa ilə birləşməsi həm Avropa, həm də Asiya üçün çox əhəmiyyətlidir. GUAM da bunun bir hissəsi kimi bir şeydir.

**Corc Klerfayt:** Cənab Prezident, istərdim xanım Hannike Gelderblumu təqdim edim. O Hollandiyadandır, onun da Sizə sualı var.

**Hannike Gelderblum:** Cənab Prezident, mən yenidən Qarabağ məsələsinə qayıtmaq istəyirəm. Siz doğru dediniz ki, Avropa Şurası insan hüquqları ilə məşğuldur. Bu məsələlər həm də Avropa Şurasını narahat edir, ona görə də biz vətəndaşların insan hüquqlarından çox narahatıq. Sizin ölkədə gördüklərimiz bizi çox narahat edir, çünki insanlar çadırlarda, ulu əcdadları kimi qazmalarda yaşayırlar. Bunu Sizə deməyə ehtiyac yoxdur. Siz özünüz hamısını yaxşı bilirsiniz. Təəssüf ki, çox hallarda insanlar gücsüzdürlər. Mən elə bir ölkədən gəlmişəm ki, orada belə şeylər yoxdur. İnsanlar hamısı sülh istəyir, lakin gözləyirlər ki, kimsə danışıqlara başlasın və tezliklə sülh əldə olunsun.

Siz izah etdiniz ki, Minsk qrupu var, işə çox ciddi yanaşır. Biz bilirik ki, Lissabon bəyanatı var. Lakin elə görünür ki, proses durğunluq vəziyyətindədir. Mənim sualım belə olacaq: ilk təşəbbüsü kim başlayacaq ki, Ermənistanla Azərbaycan danışıqlar masası arxasında əyləşsin? Üç variantdan hansını qəbul edərsiniz – istərsiniz ki, bu məsələ ilə Avropa Şurası

məşğul olsun, yoxsa özünüz təşəbbüs göstərərək Ermənistan prezidentini danışıqlar stolu arxasına dəvət edəsiniz, yoxsa Azərbaycan Prezidenti kimi gözləyəsiniz ki, kimsə üçüncü tərəf məsələyə qarışsın? Minsk qrupuna demək lazımdır ki, gəlin birlikdə bir iş görək?

**Heydər Əliyev:** Bilirsiniz ki, ATƏT-in Minsk qrupu 1992-ci ildə yaranıbdır və 1996-cı ilin dekabrında ATƏT-in zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunubdur.

ATƏT bu münaqişənin sülh yolu ilə həll olunması üçün üç prinsip qəbul etmişdir. Bu prinsiplər - birincisi, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması; ikincisi, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində özünüidarəetmə hüququ verilməsi; üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinin – həm erməni, həm Azərbaycan millətindən olan əhalisinin təhlükəsizliyinin təmin olunmasıdır. Suverenliyimizə müəyyən qədər zərər verməsinə baxmayaraq biz bu prinsipləri qəbul etmişik. Ancaq Ermənistan bu prinsipləri qəbul etmədi. ATƏT-in üzvü olan 54 dövlətdən 53-nün başçıları bu prinsiplərə səs verdi, yalnız Ermənistan ona etiraz etdi. Fürsətdən istifadə edib demək istəyirəm ki, Hollandiyanın Baş naziri də Lissabon zirvə görüşündə bu prinsipləri nəinki qəbul etdi, hətta bu prinsipləri qəbul etmək üçün zirvə görüşünün son iclasında yaxşı bir çıxış etdi. Lissabonda buna görə mən onun əlini sıxdım. Amma buna baxmayaraq mən bir daha təşəkkürümü bildirirəm.

1996-cı ilin dekabrından ötən müddətdə, 1997-ci ildə ATƏT-in Minsk qrupunun həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa bu prinsiplərin həyata keçirilməsinə çalışdılar, nəhayət, sentyabr ayında təkliflər verdilər. Bu təkliflər münaqişənin iki mərhələdə həll olunmasını nəzərdə tutur. Birinci mərhələdə Azərbaycanın Dağlıq Qarabağ ətrafında işğal olunmuş altı inzibati rayonunun işğalçı dəstələrdən azad

olunması, həmin rayonlardan zorla çıxarılmış qaçqınların öz yerlərinə qayıtması, Ermənistan ilə Azərbaycan arasındakı kommunikasiyaların bərpa edilməsi, ikinci mərhələdə isə azərbaycanlılar yaşayan rayonun — Laçın və Şuşa rayonlarının işğalçı dəstələrdən azad olunması və Dağlıq Qarabağın statusunun müəyyən edilməsi nəzərdə tutulur.

Bu təkliflər bizi tam qane etməyən təkliflərdir. Ancaq biz kompromisin olmasını nəzərə alaraq bu təklifləri qəbul etmişik. Ermənistan əvvəlcə bunu qəbul etmədi. Sonra isə Ermənistanın prezidenti bildirdi ki, Ermənistan bu təklifləri qəbul edir. 1997-ci il oktyabrın 10-da Strasburqda olarkən biz – Ermənistan prezidenti Levon Ter-Petrosyan və Azərbaycan Prezidenti Heydər Əliyev – görüşdük, danışıqlar apardıq və birgə bəyanat verdik ki, Minsk qrupunun bu təkliflərini qəbul edirik və onu həyata keçirəcəyik. Mən hesab edirəm ki, Azərbaycan və Ermənistan prezidentlərinin Strasburqdakı bəyanatı çox mühüm bir sənəddir. Ancaq təəssüflər olsun ki, Ermənistanda prezident Ter-Petrosyanın bu mövqeyini bəziləri sonra dəstəkləmədilər. Nəhayət, 1998-ci il fevralın əvvəlində Ter-Petrosyan istefa verdi. Ona görə də ötən bu müddətdə danışıqlar prosesi dayanıbdır. Mən güman edirəm ki, Ermənistanda yeni prezident seçiləndən sonra bu danışıqlar prosesi yenidən başlanacaqdır. Hesab edirəm ki, Minsk qrupu verdiyi təklifini yenə də təsdiq edəcəkdir.

Mən hiss edirəm ki, Minsk qrupunun həmsədrləri, üç böyük ölkə – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa bu münaqişənin sülh yolu ilə həll olunmasına çalışırlar və əminəm ki, onlar bu məsələ ilə bundan sonra da məşğul olacaqlar. Buna görə də indi yeni bir danışıqlar formatı yaratmağa ehtiyac yoxdur. Biz hesab edirik ki, həmsədrlərin və ümumiyyətlə Minsk qrupunun hələ böyük imkanları vardır. Güman edirəm ki, bu proses davam etməlidir. Bu məsələyə əlavə təşkilatların qarışmasına ehtiyac yoxdur.

Sizin sualınıza cavab olaraq demək istəyirəm ki, Ermənistan və Azərbaycan prezidentləri bu prosesdə dəfələrlə görüşüb, üz-üzə əyləşiblər. Bizim son görüşlərimiz 1997-ci il oktyabrın 10-da Strasburqda, oktyabrın 23-də Kişinyovda olubdur. Mən Kişinyovda olarkən Ermənistan prezidenti Ter-Petrosyan ilə yanaşı, o vaxt Baş nazir olan Robert Koçaryanla da görüşmüşəm. Ona görə də bizim görüşlərimiz bundan sonra da davam edəcəkdir.

**Corc Klerfayt:** Cənab Prezident, icazə versəniz, mən həmin sualıma bir beynəlxalq məqamı əlavə edərdim. Siz digər beynəlxalq təşkilatların bu münaqişənin həllində iştirak etməsi imkanlarından danışdınız. Sizcə, bu münaqişənin sülh yolu ilə həllində digər bir ölkə nə dərəcədə rol oynaya bilər? Siz Rusiyanın adını çəkdiniz. Məlumdur ki, Rusiyanın Ermənistanda hərbi bazaları vardır. Bu fakt da məlumdur ki, GUAM təşkilatı heç də hamını razı salmır.

**Heydər Əliyev:** Bəli, Ermənistanın və Gürcüstanın ərazisində Rusiyanın hərbi bazaları vardır. Azərbaycan buna etiraz edir. Biz bu barədə öz fikrimizi dəfələrlə bildirmişik. Azərbaycanın ərazisində Rusiyanın heç bir hərbi bazası yoxdur. Sizə bildirmək istəyirəm ki, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin başçılarının oktyabrın 23-də Kişinyovda keçirilmiş görüşündə mən bu barədə öz fikirlərimi açıq-aydın söyləmişəm. Açıq bildirmişəm ki, Ermənistanda və Gürcüstanda Rusiyanın hərbi bazalarının saxlanılmasına heç bir ehtiyac yoxdur və mən bunun zəruriliyini görmürəm. Mən bu gün də belə hesab edirəm.

Keçən il avqustun 29-da Rusiya ilə Ermənistan arasında hərbi ittifaq haqqında müqavilə imzalanmışdır. Mən bu hərbi ittifaq haqqında müqaviləyə də etirazımı bildirmişəm. Çünki, bilirsiniz, əgər biz Müstəqil Dövlətlər Birliyində bərabər hüquqlu dövlətləriksə, MDB tərkibində olan iki ölkə bir-biri ilə hərbi ittifaq bağlamamalıdır. Amma Rusiya Ermənistan ilə belə bir hər-

bi ittifaq bağlayıbdır. Beləliklə, Müstəqil Dövlətlər Birliyinin tərkibindəki iki ölkə arasında xüsusi bir əlaqə yaranır. Şübhəsiz ki, bu da bizim ümumi işimizə kömək edə bilməz.

Yəqin sizə məlumdur ki, Rusiya son üç ildə Ermənistana gizli,qeyri-qanuni olaraq bir milyard dollar dəyərində silah-sursat da veribdir. Bu faktlar keçən ilin əvvəlində Rusiyanın dövlət orqanları tərəfindən bəyan olunubdur. Biz Rusiyanın rəhbərliyinə müraciət edib, xahiş etmişik ki, Ermənistana gizli, qeyri-qanuni yolla verilmiş silahlar geri qaytarılsın və qeyri-qanuni iş görənlər cəzalandırılsınlar. Ancaq bir nəticə əldə edə bilməmişik. Bu faktlar vardır.

Mən inanıram ki, buna baxmayaraq Rusiya ABŞ və Fransa ilə birlikdə Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün çox iş görə bilər. O cümlədən ona görə ki, Rusiyanın Ermənistana təsiri böyükdür və bu da məsələnin ədalətli həllində Rusiya üçün çox yaxşı imkanlar yaradır. Mən buna ümid edirəm.

**Corc Klerfayt:** Cənab Prezident, icazə versəydiniz, mən daxili məsələ ilə əlaqədar da bir sual verərdim. Məlumdur ki, Siz çox güclü, bacarıqlı bir prezidentsiniz. Bunu bizimlə söhbətdə hamı qeyd edirdi. Biz Azərbaycanda müxalifətin parlamentdə olan üzvləri ilə də söhbət etmişik. Onlar öz narahatlıqlarını bildirirlər ki, respublikada hakimiyyət bölgüsü kifayət qədər deyildir, bütün hakimiyyət prezidentin əlində cəmləşibdir. Siz Azərbaycanda müxalifəti necə qəbul edirsiniz və necə qiymətləndirirsiniz? Ümumiyyətlə, necə fikirləşirsiniz – Azərbaycanın gələcək inkişafında müxalifət hansısa bir rol oynaya bilərmi?

**Heydər Əliyev:** Birincisi, mən onların Sizə dedikləri ilə razı deyiləm. Azərbaycanda hakimiyyət bölgüsü Konstitusiyaya əsasən tamamilə təmin olunubdur. Parlament qanunverici orqandır. Prezident, icra orqanı qanunvericilik orqanının işinə qarışmır. Hakimiyyət bölgüsünün əsasını təşkil edən

budur. Hərə öz işi ilə məşğul olmalıdır. Qanunvericilik orqanı qanunvericiliklə, icra orqanı isə icra ilə məşğul olmalıdır. Biz də bunu təmin edirik. Konstitusiyamızda nə yazılıbsa, hamısı həyata keçirilir. Kimsə Konstitusiyadan kənar nə isə iddia edirsə, onda gərək Konstitusiyanı dəyişdirək. Konstitusiyanı isə biz ümumxalq referendumu ilə qəbul etmişik. Konstitusiyanın qəbul olunmasında o cümlədən müxalifət də iştirak edibdir. Onların parlamentdə və ümumxalq səsverməsində söz deməyə həmişə imkanları olubdur. Əgər prezident öz səlahiyyətlərini tamamilə həyata keçirirsə, bu o demək deyil ki, hər şey prezidentin əlindədir. Əgər müxalifət istəyir ki, respublikada prezident keçmişdə olduğu kimi zəif olsun, güman edirəm ki, bu, ölkə, xalq üçün də lazım deyildir. Mən də özümü zəiflədə bilmərəm, necə varam eləyəm. Mən özümü gücləndirə bilərəm, amma zəiflədə bilmərəm.

**Corc Klerfayt:** Cənab Prezident, mən bilirəm ki, Siz çox güclü bir şəxsiyyətsiniz. Bunu söhbətlərimizdə də hamı bizə demişdir ki, Siz çox güclü, gözəl və cazibədar şəxsiyyətsiniz. Mən Sizə Sabirabaddan bir salamı çatdırmaq istəyirəm. Mən Sabirabad rayonunda 4 yaşında olan bir uşaqla söhbət etdim. Azərbaycanda kimin prezident olduğunu soruşduqda o dedi ki, Prezidentimiz Heydər babadır, hətta Sizin haqqınızda bir mahnı da oxudu, onun salamlarını Sizə çatdırmağı çox xahiş etdi.

**Heydər Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm. Mən o uşağı tanımıram, amma bu, o uşağın qəlbində olan bir hissdir. Əgər mən zəif prezident olsaydım, yəqin ki, uşaq o mahnını oxumazdı.

**Corc Klerfayt:** Cənab Prezident, mən bilirəm ki, bizə həddindən artıq vaxt sərf edirsiniz, lakin bir məsələ haqqında da Sizə sual vermək istəyirəm. Məlumdur ki, ölkədə sabitlik əldə olunubdur. Çoxları bu fikirdədir ki, bu sabitlik məhz Sizin şəxsi hörmətiniz, nüfuzunuzla bağlıdır. Siz necə fikirləşir-

siniz, respublikada Konstitusiya, qanunvericilik kifayət qədər güclüdürmü ki, sabitlik saxlanılsın?

**Heydər Əliyev:** Güclüdür və Azərbaycanda sabitlik saxlanılacaqdır. Buna heç kəsin şübhəsi olmasın.

Siz sual verdiniz ki, mən müxalifəti necə qəbul edirəm. Azərbaycanda müxalifət olmalıdır. Bir halda ki, biz demokratik bir dövlətik və demokratik dövlət qururuq, onun cürbəcür fikirli adamları var. Təbii ki, bu da müxalifətin mövcud olmasını tələb edir. Ancaq müxalifət nə qədər gücə malikdirsə, o qədər də hərəkət etməlidir.

Məsələn, Rusiyada parlamentin əksəriyyəti prezidentə qarşı müxalifətdədir. Bilirsiniz ki, orada Kommunist Partiyasının gücü çox böyükdür, başqa partiyalar var. Ona görə də prezident bəzən Kommunist Partiyasının liderləri ilə görüşür, bu da lazımdır. Çünki onların parlamentdə böyük imkanları var və prezident onlarla müəyyən bir dil tapmalıdır.

Birincisi, Siz bilirsiniz ki, bizim parlamentdə Kommunist Partiyası yoxdur. Ona görə ki, respublikada Kommunist Partiyası hörmət qazanmayıbdır və seçkilər zamanı parlamentdə yer ala bilməyibdir. Parlamentdə başqa müxalifət partiyaları var, ancaq onlar azlıq təşkil edirlər. Onlar cəmiyyətdə də azlıq təşkil edirlər. Güman edirəm ki, oktyabr ayındakı prezident seçkilərində də bu, bir daha görünəcəkdir. Cəmiyyətdə və parlamentdə azlıq təşkil edərək çox böyük iddialar etmək əsassızdır.

Rusiyada prezident hökuməti istefaya göndəribdir, yeni Baş nazir təyin etmək istəyir. Amma parlamentdə, Dumada müxalifət qüvvələr bunun əleyhinə çıxırlar, prezident üçün çətinliklər yaradırlar. Ancaq mən Azərbaycanda Baş naziri təyin edəndə parlamentdə mənim əleyhimə çıxan olmadı. Müxalifətdə olan partiyalar əleyhinə səs verdilər, amma bu, həlledici deyildi. Ona görə də müxalifət hakimiyyətlə, iqtidarla əməkdaşlıq etməlidir. Mən belə əməkdaşlığa hazıram. Ancaq

müxalifət çox az bir təbəqəni təmsil edərək iddia edir ki, gərək biz gedib müxalifətlə əməkdaşlıq edək. Biz bunu qəbul edə bilmərik. Müxalifət hansı bir konstruktiv addım atsa biz bunu qəbul edəcəyik. Ancaq təəssüf ki, belə konstruktiv addımlar görmürəm.

**Corc Klerfayt:** Cənab Prezident, bugünkü görüşə, çox dəyərli şərhlərə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Biz Sizə uğurlar arzulayırıq, Sizə ən xoş arzularımızı yetiririk. Ümid edirik ki, Azərbaycan çox tezliklə Avropa Şurasının güclü üzvlərindən biri olacaqdır.

**Heydər Əliyev:** Çox sağ olun, mən Sizə təşəkkür edirəm. Azərbaycanda söz azadlığının, demokratiyanın olması bu qədər mətbuat nümayəndələrinin burada əyləşməsindən görünür. Mən çox ölkələrə gedirəm, prezidentlərlə, baş nazirlərlə görüşürəm. Orada mətbuat nümayəndələrini belə görüşlərə iki dəqiqəlik buraxırlar ki, gəlib şəkil çəksinlər. Ancaq mətbuat həmişə bizim yanımızdadır və onların arasında müxalifəti təmsil edən jurnalistlər də vardır, burada oturublar, qulaq asırlar. Mənim onlardan heç bir sirrim yoxdur, mən öz fikirlərimi açıq deyirəm. Yaxşı olar ki, onlar hər şeyi mənim dilimdən eşitsinlər, nəinki mətbuat katibim gedib onlara çatdırsın.

**Corc Klerfayt:** Dedi-qodular çox təhlükəli şeydir.

**Heydər Əliyev:** Bəli. Mətbuat çox sağ olsun.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli polis əməkdaşları!

Sizi Azərbaycan polisinin yaradılmasının 80 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

1918-ci il iyul ayının 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə peşəkar milli polis orqanları yaradılmışdır. Bu, Xalq Cümhuriyyətinin həyatında böyük hadisə olmuş və dövlətçiliyimizin möhkəmlənməsində, əhalinin təhlükəsizliyinin qorunmasında mühüm rol oynamışdır.

Ötən 80 ildə Azərbaycan polisi öz peşəkarlıq səviyyəsini getdikcə yüksəldərək çətin və şərəfli yol keçmiş, tarixin sınaqlarından ləyaqətlə çıxaraq mütəşəkkil və mübariz bir quruma çevrilmişdir. İctimai-siyasi quruluşdan və şəraitdən asılı olmayaraq ölkəmizin bütün inkişaf mərhələlərində polis istər daxili cinayətkarlara, istərsə də əhalinin əmin-amanlığı üçün təhlükə törədən digər qüvvələrə qarşı əzmlə mübarizə aparmış, əsl fədakarlıq və peşəkarlıq nümunələri göstərmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra daxili işlər orqanlarının şəxsi heyətinin üzərinə daha böyük məsuliyyət düşmüşdür. Azərbaycan polisi bir tərəfdən milli müdafiə funksiyalarını yerinə yetirərək ərazi bütövlüyümüz uğrunda erməni qəsbkarlarına və separatizmə qarşı ağır döyüşlərdə iştirak etmiş, bu yolda yüzlərlə qurban vermişdir. Digər tərəfdən isə dövlətçiliyimiz əleyhinə yönəldilmiş cinayətkar qəsdlərin və başqa qeyri-konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzahürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında

önəmli xidmətlər göstərmişdir. Əlamətdar haldır ki, daxili işlər orqanlarının şəxsi heyəti bütün bu proseslərdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarını, özlərinin vətəndaşlıq borclarını və xidmətin mənafeyini hər şeydən üstün tutmuşdur.

İndi bizim demokratik idealların bərqərar olduğu və möhkəmləndiyi müstəqil dövlətimiz, bütün xalq tərəfindən qəbul edilmiş Konstitusiyamız, onların keşiyində duran mətinləşmiş strukturlarımız, o cümlədən, dövlətin əsas sütunlarından olan mübariz polisimiz vardır. Respublikada cinayətkarlığın qarşısı alınıb, əmin-amanlıq yaranıb, asayiş bərpa olunub. İnsanlar rahat, sakit və sərbəst yaşayır, dinc şəraitdə işləyir və istirahət edir. Bütün bu işlərdə polisin xidməti və rolu danılmazdır.

Bu gün polis orqanlarının bütün diqqəti və səyləri sosial-iqtisadi və siyasi islahatların rəvan aparılması üçün ölkədə ictimai asayişin və əmin-amanlığın təmin olunmasına, qanunçuluğun möhkəmlənməsinə, cinayətkarlıqla daha qətiyyətli mübarizə aparılmasına, insanların və vətəndaşların azadlıqlarının və hüquqlarının qorunmasına yönəlməlidir.

Polis peşəsi ağır peşədir. O, bir tərəfdən yüksək vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil və təcrübə tələb edir. Bunların hamısı bir yerdə cəmləşməsə, biz layiqli və mütəşəkkil polis yarada bilmərik. Cinayətkarlığın qarşısının alınması, dövlətin yaratdığı bütün imkanlardan respublika vətəndaşlarının bəhrələnməsi üçün dinc şəraitin təmin edilməsi, asayişin və qanunçuluğun möhkəmləndirilməsi naminə polis daim öz peşəkar səviyyəsini yüksəltməli, gündəlik işini müasir tələblərə, beynəlxalq təcrübəyə və normalara uyğun qurmalıdır.

Əmin olduğumu bildirirəm ki, daxili işlər orqanlarının hər bir əməkdaşı bundan sonra da Azərbaycan Respublikası

Konstitusiyasına və qanunlarına dönmədən riayət edərək, ölkədə asayişi və ictimai təhlükəsizliyi təmin edəcək, xidməti andına sadiq qalaraq polis adını şərəflə qoruyacaqdır.

Sizə bu çətin və məsuliyyətli işinizdə uğurlar, hər birinizə səadət və xoşbəxtlik arzulayıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
***Bakı şəhəri, 1 iyul 1998-ci il***

# AZƏRBAYCAN POLİSİNİN 80 İLLİK YUBİLEYİNƏ VƏ POLİS GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

***Azərbaycan Dövlət Opera və Balet Teatrı***
***2 iyul 1998-ci il***

Hörmətli xanımlar və cənablar, dostlar!

Sizi Azərbaycan polisinin 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Sizə - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bütün əməkdaşlarına çox şərəfli işinizdə böyük uğurlar arzulayıram.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə müstəqil bir dövlət kimi ilk addımlarını atarkən müstəqil dövlət üçün çox zəruri, vacib olan polisin yaranmasını qərara almışdır və 1918-ci il iyul ayının 2-də Azərbaycan milli polisi yaranmışdır. Bu, bizim tariximizdə çox əlamətdar bir hadisədir.

Azərbaycan xalqı uzun bir tarixi dövrdə demək olar ki, ilk dəfə özünün doğma, milli, müstəqil polisini yaratmışdır. Məhz Azərbaycan polisinin, milisinin yarandığı gündən indiyə qədər onun xidmətlərini nəzərə alaraq müstəqil respublikamızda 2 iyul günü Azərbaycan Polisi günü adlandırılıbdır və bu barədə lazımi fərman verilibdir. Bugünkü təntənəli yığıncaq, yubiley mərasimi də məhz buna həsr olunubdur.

Xalq Cümhuriyyəti yaranandan indiyə qədər Azərbaycanın 80 illik tarixi bir neçə mərhələdən ibarətdir. Bütün bu mərhələlərdə Azərbaycan polisi, milisi, daxili işlər orqanları daim xalqla olmuş, xalqın ayrılmaz hissəsi olmuş, xalqına, ölkəsinə, dövlətinə sədaqətlə xidmət etmişdir.

Bu tarixi dövrdə Azərbaycan polisinin, milisinin, daxili işlər orqanlarının çox əhəmiyyətli nailiyyətləri də, itkiləri də, uğurları da, səhvləri də olmuşdur. Bu tarixin çox parlaq səhi-

fələri də, ancaq ləkəli, qara səhifələri də vardır. Amma bunlar hamısı bizimdir, Azərbaycanındır, xalqındır. Bu, bizim xalqımızın tarixinin səhifələridir.

Azərbaycanda 80 il ərzində polisin, milisin, daxili işlər orqanlarının əldə etdiyi nailiyyətlər, uğurlar, şübhəsiz ki, xalqımıza, ölkəmizə fayda vermişdir. Amma eyni zamanda, buraxılan səhvlər xalqımıza böyük itkilər gətirmişdir. 1920-1930-cu və xüsusən 1937-1938-ci illərin repressiya dövründə Azərbaycanın Daxili İşlər Nazirliyi və onun tərkibindəki milis də bu repressiyaların iştirakçıları olmuşlar. Ancaq bunlara baxmayaraq, polis, milis, Daxili İşlər Nazirliyi orqanlarında ötən dövrdə - 80 il ərzində işləmiş, çalışmış, əməkdaşlıq etmiş insanların tam əksəriyyəti öz xalqına, doğma torpağına, Azərbaycana sədaqətlə xidmət etmişdir.

Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşları respublikamızın bütün vətəndaşları ilə birlikdə Böyük Vətən müharibəsində də öz xidmətlərini göstərmişlər. Ermənistanın Azərbaycana təcavüzü başlanandan bəri və döyüşlər gedən illərdə Azərbaycan milisi, polisi, Respublika Daxili İşlər Nazirliyinin əməkdaşları torpaqlarımızın qorunmasında şücaətlə vuruşmuşlar, qəhrəmanlıq nümunələri göstərmişlər.

Milis, polis işçiləri, Daxili İşlər Nazirliyinin əməkdaşları öz xidməti vəzifələrini həyata keçirərək, Azərbaycan vətəndaşlarının, dövlətin, xalqın mənafeyini qoruyaraq canlarını qurban vermiş, həlak olmuşlar. Belə qəhrəmanların xatirəsi heç vaxt unudulmayacaqdır. Onların qəhrəmanlıq nümunələri bizim qəlbimizdə daim yaşayacaq və bugünkü, gələcək nəsillər, müstəqil Azərbaycanın polis əməkdaşları üçün həmişə örnək olacaqdır.

Azərbaycanın Daxili İşlər Nazirliyinin, milis, polis orqanlarının tarixində son on il çox mürəkkəb, ziddiyyətli, çətin və ağır dövr olmuşdur. Bu on ildə Azərbaycanın Daxili İşlər Nazirliyində sədaqətlə xidmət edən insanlar öz vətəndaşlıq borcuna sadiq qalmış, öz xidməti vəzifələrini layiqincə yerinə ye-

tirmişlər. Ancaq eyni zamanda, bu müddətdə Azərbaycanda gedən ictimai-siyasi proseslərin ucbatından və ayrı-ayrı vəzifəli şəxslərin etdikləri cinayətin, xalqa xəyanətin nəticəsində Daxili İşlər Nazirliyinin bir çox əməkdaşlarının özləri cinayətkarlara çevrilmişlər, peşələrinə ləkə gətirmişlər və ümumiyyətlə, Daxili İşlər Nazirliyi orqanlarının işinə böyük zərbələr vurmuşlar.

Bütün bunlara baxmayaraq, Azərbaycanın Daxili İşlər Nazirliyi orqanları yaşamış, inkişaf etmişdir və bu gün o, müstəqil Azərbaycan dövlətinin, vətəndaşlarının, xalqımızın, respublika Konstitusiyasının keşiyində duran bir orqandır.

Son on il içərisində Azərbaycanın Daxili İşlər Nazirliyi orqanlarında olan vəziyyət və eyni zamanda görülən işlər haqqında, ümumiyyətlə, 80 illik tarix barədə respublika daxili işlər naziri Ramil Usubov ətraflı məlumat verdi. Mən onu xüsusi qeyd etmək istəyirəm ki, Daxili İşlər Nazirliyi orqanlarında nə qədər mənfi hallar olmuşdursa da, bu orqanlarda çalışan şəxsi heyətin əksəriyyəti öz mənliyini qorumuş, vətənə, xalqa sədaqətini daim saxlamışdır. Məhz bunun nəticəsində bu gün biz Azərbaycan Daxili İşlər Nazirliyində sağlam, mübariz, öz vəzifəsini peşəkarcasına yerinə yetirə bilən böyük bir heyəti görürük.

Son illər ölkəmizdə Azərbaycanın dövlətçiliyinə, Konstitusiyasına, konstitusion quruluşuna, xalqımıza, vətəndaşlara qarşı edilən cinayətlərin qarşısının alınmasında respublika Daxili İşlər Nazirliyi böyük xidmətlər göstərmiş, yaxşı nailiyyətlər əldə etmişdir. 1994-cü ilin oktyabrında Azərbaycanda dövlət çevrilişinə cəhd göstərilən zaman, 1995-ci ildə ölkəmizə düşmən olan müxtəlif qüvvələrin səylərini özündə cəmləyən, Daxili İşlər Nazirliyinin tərkibində olan OMON dəstəsinin böyük cinayət törətdiyi və respublikamızda hakimiyyəti devirməyə cəhd etdiyi vaxt, o illər və ondan sonrakı dövrdə Azərbaycanda ciddi təxribat cəhdlərinin, terror aktlarının qarşısının

alınmasında Daxili İşlər Nazirliyi və onun əməkdaşları böyük xidmətlər göstərmiş, uğurlar əldə etmişlər.

Əziz dostlar, mən sizin bütün bu xidmətlərinizi yüksək qiymətləndirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da öz üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı saf mənəviyyata malik olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir. Polis əməkdaşı vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır.

Azərbaycanın bugünkü polisinin, daxili işlər orqanları əməkdaşlarının əksəriyyəti belə keyfiyyətlərə malikdir. Əgər belə olmasaydı, Daxili İşlər Nazirliyi son illərdə artıq bütün ictimaiyyətimizə məlum olan nailiyyətləri əldə edə bilməzdi.

Bu gün biz böyük məmnuniyyət hissi ilə qeyd edə bilərik ki, 80 illik tarixi ərzində Azərbaycan polisi, daxili işlər orqanları böyük təcrübə toplamış, böyük bilik potensialı əldə etmiş, dünya təcrübəsindən xeyli bəhrələnmiş, mütəşəkkilləşmiş bir təşkilatdır.

Respublikanın polis işçiləri, Daxili İşlər Nazirliyi Azərbaycanın dövlətçiliyini, Konstitusiyasını, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını qorumaq üçün çox mühüm əhəmiyyət kəsb edən bir dövlət orqanıdır. Bütün bunlar sizin, bizim, hamımızın, Azərbaycan xalqının milli sərvətidir. Biz

bundan sonra da Azərbaycan Respublikasının daxili işlər orqanlarının işinin təkmilləşdirilməsinə və orqanlarda qanun-qaydanın, nizam-intizamın möhkəmlənməsinə, peşəkarlıq səviyyəsinin yüksəlməsinə fikir verməliyik, öz səylərimizi göstərməliyik.

Bütün müsbət nəticələrlə yanaşı, bu gün, yubiley günü polisin, Daxili İşlər Nazirliyinin qarşısında duran vəzifələr haqqında da deməyi lazım bilirəm. Vəzifələrimiz məlumdur. Onlar birinci növbədə Azərbaycanın Konstitusiyasında, qanunlarında, prezidentin fərmanlarında əks olunubdur. Siz bu vəzifələrin yerinə yetirilməsi üçün daha da səmərəli işlər görməlisiniz. Bunun üçün böyük imkanlar da vardır. İndi bizim üçün müstəqil dövlətimizin polisini, Daxili İşlər Nazirliyini dünya standartları səviyyəsinə qaldırmaq imkanı vardır. Çünki biz müstəqil dövlətik, müstəqil ölkəyik. Biz öz işimizi özümüz qururuq.

Bu gün Azərbaycan polisinin 80 illiyi haqqında danışarkən, ötən 80 il ərzində polisin keçdiyi yola layiqli qiymət verərkən eyni zamanda qeyd etmək lazımdır ki, biz müstəqil olmadığımız dövr - 70 il içində Azərbaycan Respublikası özünün Daxili İşlər Nazirliyinin işini istədiyi kimi qurmaq imkanına malik olmamışdır. O vaxt Azərbaycan Daxili İşlər Nazirliyində hətta milis kiçik leytenantı rütbəsi vermək üçün gərək Sovetlər İttifaqının Daxili İşlər Nazirliyinin əmri olaydı. Təkcə rütbə vermək məsələsi deyildir. Rəhbər vəzifələrin əksəriyyətinə kadrlar Moskvanın, Sovetlər İttifaqı Daxili İşlər Nazirliyinin əmrləri ilə təyin olunurdu. Bizim xalqımıza, millətimizə xas olmayan bir çox adətlər, ənənələr güclə həyatımızın bir çox sahələrinə, o cümlədən Daxili İşlər Nazirliyinin işinə də tətbiq olunurdu.

Ancaq indi Azərbaycanın Daxili İşlər Nazirliyi müstəqil dövlətin nazirliyidir, Azərbaycan polisi müstəqil Azərbaycanın polisidir və Daxili İşlər Nazirliyinin rəhbərliyinə çox bö-

yük səlahiyyətlər verilibdir. Vəzifə bu səlahiyyətlərdən düzgün, səmərəli, qanunlar əsasında istifadə etməkdən ibarətdir. Ümid edirəm ki, indiyə qədər, xüsusən son üç ildə toplanmış təcrübə əsasında Azərbaycanın Daxili İşlər Nazirliyi öz işini günü-gündən təkmilləşdirəcəkdir, əməkdaşların peşəkarlıq səviyyəsi artacaqdır və Daxili İşlər Nazirliyinin, Azərbaycan polisinin qarşısında duran vəzifələr daha da müvəffəqiyyətlə həyata keçiriləcəkdir. Bir də qeyd etmək istəyirəm ki, vəzifələr haqqında danışanda Daxili İşlər Nazirliyinin əsas vəzifəsi xalqa xidmət etmək, hər bir Azərbaycan vətəndaşına xidmət etmək, Azərbaycan dövlətinə xidmət etməkdən ibarətdir.

Son üç ildə Daxili İşlər Nazirliyinin Azərbaycanın digər hüquq-mühafizə orqanları ilə birlikdə apardığı işlər nəticəsində, həyata keçirdiyi tədbirlər və əməliyyatlar nəticəsində Azərbaycanda cinayətkarlığa qarşı mübarizə güclənibdir, cinayətkarlıq azalıbdır, ictimai asayişin vəziyyəti yaxşılaşıbdır və bunlar hamısı Azərbaycanda mövcud ictimai-siyasi sabitliyin yaranmasına kömək edibdir.

Ötən illəri unutmaq lazım deyildir. Cəmi beş il bundan öncə Azərbaycanda vətəndaş müharibəsi gedirdi, polisin kimə xidmət edib-etmədiyi məlum deyildi, - o, ayrı-ayrı cinayətkar dəstələrə, qüvvələrə xidmət edirdi və vətəndaşların təhlükəsizliyi təmin olunmurdu. O günlər hamımızın xatirindədir. İnsanlar daim təhlükə altında yaşayırdılar. İnsanlar rahat əmək fəaliyyəti göstərə bilmirdilər, rahat istirahət edə bilmirdilər, öz həyatlarını istədikləri kimi qura bilmirdilər və bəziləri də hesab edirdi ki, elə belə də olmalıdır. Çünki belə bir vəziyyəti yaradanlar bu vəziyyətdən öz şəxsi mənafeləri üçün faydalanırdılar və xalqın, vətəndaşların hüquqları, azadlıqları, onların vəziyyəti belələrini qətiyyən maraqlandırmırdı.

1995-ci ildən cəmi üç il keçibdir. Bu üç il müddətində nə qədər müsbət dəyişikliklər vardır! Mən Daxili İşlər Nazirliyinin işində keçmişdə buraxılan səhvlər, qara ləkələr haqqında

deyəndə Daxili İşlər Nazirliyinin içində cinayətkarlar dəstəsinin yaranmasını xüsusi qeyd edirəm. Bilirsiniz, bu, ola bilər ki, son dövrdə başqa ölkələrlə müqayisədə analoqu olmayan bir hadisədir. O vaxt keçmiş Sovetlər İttifaqının respublikalarında Xüsusi Təyinatlı Milis Dəstələri yaradılmışdı. Bu dəstələrin yaradılmasının məqsədi mütəşəkkil cinayətkarlarla mübarizə aparmaqdan və Daxili İşlər Nazirliyinin, milisin çox güclü bir strukturu olmaqdan ibarət idi. Bu, Azərbaycanda da yaranmışdı və yaranan zamandan sonra, xüsusən Ermənistanın təcavüzündən Azərbaycan torpaqlarının qorunmasında Xüsusi Təyinatlı Milis Dəstəsinin – OMON-un xidmətləri olmuşdur. Əgər səhv etmirəmsə, o dəstənin içərisindən 45 nəfər şəhid olmuşdur. Onlar vətən, torpaq yolunda şəhid olmuşlar. Biz onların qəhrəmanlığını heç vaxt unuda bilmərik və onların silahdaşlarının sonra cinayət yoluna düşməsi, cinayətkar dəstəyə çevrilməsi Xüsusi Təyinatlı Milis Dəstəsinə mənsub olmuş, qəhrəmanlıq göstərmiş, şəhid olmuş insanların xidmətlərinə heç vaxt ləkə sala bilməz. Ancaq sual olunur: Bəs nə cür oldu ki, belə bir dəstə, qəhrəmanlıq nümunələri göstərmiş dəstə sonra bir cinayətkar dəstəsinə çevrildi? Bunun kökü o insanların özündə deyildir. Bunun kökü o vaxt Azərbaycanda gedən mürəkkəb və qeyri-normal ictimai-siyasi proseslərlə əlaqədardır. Bunun kökü o vaxt Azərbaycanda hakimiyyət uğrunda silahlı mübarizə aparmaq xəstəliyi ilə əlaqədardır və dövlət strukturları, silahlı strukturlar olduğu halda, Azərbaycanın ayrı-ayrı vəzifəli şəxslərinin, bəzən də heç vəzifəsi olmayan şəxslərin, ancaq böyük vəsait sahiblərinin özləri üçün cinayətkar silahlı dəstələr yaratması ilə bağlıdır. Məhz belə bir vəziyyətdə, ölkənin rəhbərliyində cinayətkarlıq geniş yayıldığı bir zaman, Azərbaycanın daxili işlər naziri Həmidov cinayətkar bir adam olduğu zaman, şübhəsiz ki, çox sağlam niyyətlərlə yaranmış polis dəstəsi sonra cinayətkar dəstəyə çevrildi.

Bizim xalqımız bu ağır, böyük itkilərlə müşayiət olunmuş dövrü yaşamışdır. Məmnunluq doğuran odur ki, biz bütün bunlara son qoya bilmişik və 1995-ci ildən bu yana bu cinayətkarlıqla mübarizə aybaay, ilbəil güclənib, genişlənibdir. Hüquq-mühafizə orqanlarının işi bir-biri ilə sıx əlaqələndirilib və bunların nəticəsində də indi Azərbaycanda insanlar ictimai-siyasi sabitlik, əmin-amanlıq, rahatlıq şəraitində yaşayırlar. Bu, bizim dövlətimizin siyasətinin nəticəsidir və onun ardıcıl surətdə həyata keçirdiyi tədbirlərin nəticəsidir. Bu, bizim qanunların tətbiq olunmasının nəticəsidir. Bu, eyni zamanda hüquq-mühafizə orqanlarının, o cümlədən Daxili İşlər Nazirliyinin gördüyü işlərin, fəaliyyətinin nəticəsidir.

Görülən işlər qiymətləndirilir. Ancaq mən istərdim ki, bu gün, bayram günü, yubiley günü Daxili İşlər Nazirliyinin bütün əməkdaşları, Azərbaycanın bütün hüquq-mühafizə orqanları öz səylərini çatışmazlıqların, nöqsanların aradan qaldırılmasına, işlərin daha da yaxşı təşkil edilməsinə yönəltsinlər, cinayətkarlığın tamamilə aradan qaldırılmasına nail olsunlar. Son illərin təcrübəsi onu göstərir ki, bu mümkündür, biz buna nail ola bilərik. Güman edirəm ki, bu nailiyyətlərdən ruhlanan hüquq-mühafizə orqanlarının əməkdaşları, Azərbaycanın Daxili İşlər Nazirliyinin əməkdaşları bundan sonra bizi daha da müsbət nəticələrlə sevindirəcəklər.

Ramil Usubov burada rəqəmlər gətirdi ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında cinayətkarlıqla mübarizə nədən ibarətdir və Azərbaycan bu göstəricilərə görə müsbət mənada fərqlənir. Bu, çox yaxşı haldır. Bu, bizi sevindirməlidir, ruhlandırmalıdır. Ancaq biz öz işimizi tək bununla ölçməməliyik, öz işimizi mövcud vəziyyətlə ölçməliyik. Əgər bu gündə vətəndaşların həyatına sui-qəsd edilirsə, kimsə kimisə öldürə bilirsə, kimsə kimisə narahat edə bilirsə, kimsə hansısa başqa cinayət edə bilirsə, demək, hələ görüləsi işlər çoxdur, biz hələ istənilən səviyyəyə gəlib çatmamışıq. Ümid

edirəm ki, əgər hüquq-mühafizə orqanları hamısı birlikdə bundan sonra da əldə etdiyi təcrübələrdən istifadə edərək işlərini daha yaxşı qurmuş olsalar, biz qarşıdakı illərdə respublikamızda cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında, dövlətçiliyimizin, vətəndaşların hüquqlarının qorunmasında daha da yüksək səviyyəyə çata bilərik. Hesab edirəm ki, buna imkan vardır.

Hər bir hüquq-mühafizə orqanında çalışan əməkdaş öz işinin dövlət, xalq üçün nə qədər vacib olduğunu dərk etməlidir və işini yalnız və yalnız xalqın, ölkənin mənafeyi üçün aparmalıdır.

Mən bu gün, bayram günü təəssüf hissi ilə demək istəyirəm ki, hüquq-mühafizə orqanlarının işində, o cümlədən Daxili İşlər Nazirliyinin işində nöqsanlar da çoxdur. Bu nöqsanların bir qismi işin təşkili ilə əlaqədardır, bir qismi isə ayrı-ayrı əməkdaşların vəzifələrindən sui-istifadə etməsi və bəzən hətta cinayətkarlıq yoluna düşməsi ilə əlaqədardır. Hüquq-mühafizə orqanlarının işçiləri, Daxili İşlər Nazirliyinin əməkdaşları bilməlidirlər ki, onlar Azərbaycanın başqa vətəndaşlarından fərqli olaraq xüsusi imtiyazlara, statusa malikdirlər və bu imtiyazlardan, qanunla onlara verilən hüquqlardan doğru-düzgün istifadə etməlidirlər. Daxili İşlər Nazirliyinin işçisi hansısa bir vətəndaşı saxlaya, qanun çərçivəsində lazımi əməliyyat apara bilər. Başqa vətəndaşlara belə imkanlar verilmir. Daxili İşlər Nazirliyi əməkdaşlarının xidməti formaları, xidməti rütbələri, cəmiyyətdə öz fəaliyyətlərini həyata keçirmək üçün imkanları onları Azərbaycanın başqa vətəndaşlarından fərqləndirir. Ona görə bütün bu səlahiyyətlərdən, imtiyazlardan, imkanlardan yalnız qanun çərçivəsində, ölkənin, xalqın mənafeyi naminə istifadə etmək lazımdır. Təəssüflər olsun ki, Daxili İşlər Nazirliyinin əməkdaşları içərisində vəzifəsindən sui-istifadə edənlər, bəzən cinayət edənlər də vardır. Onların

bəziləri məsuliyyətə cəlb olunublar. Belə hallar başqa hüquq-mühafizə orqanları əməkdaşlarının içərisində də vardır.

Hüquq-mühafizə orqanları hamısı birlikdə Azərbaycanda cinayətkarlıqla mübarizəni gücləndirməlidirlər. Bir daha qeyd edirəm, ancaq eyni zamanda, onlar qanun çərçivəsində hərəkət etməlidirlər. Onların fəaliyyəti Azərbaycanda demokratik, siyasi, iqtisadi islahatların həyata keçirilməsinə kömək etməlidir, mane olmamalıdır.

Təəssüflər olsun ki, bəzi hallarda hüquq-mühafizə orqanlarının bəzi əməkdaşları guya öz vəzifələrini yerinə yetirərək, Azərbaycanda islahatların keçirilməsinə mane olur, özlərinə aid olmayan işlərə qarışır və beləliklə də dövlətə, xalqa kömək etmək əvəzinə, ümumi işimizə zərər gətirirlər.

Azərbaycanda cinayətkarlıqla mübarizə hər bir cinayətə qarşı olmalıdır. Amma indi biz iqtisadi islahatlar həyata keçirdiyimiz zaman hüquq-mühafizə orqanları bilməlidirlər ki, onlar harada cinayət axtarmalıdırlar, harada isə cinayət axtarmağa ehtiyac yoxdur. Təəssüf olsun ki, bəzən bunu anlamayanlar, yaxud da qəsdən, - o yerdə ki, cinayət yoxdur, ya da o yerdə ki, sadəcə, bizim yeni qanunlar əsasında iqtisadi islahatlar aparılır və bunun nəticəsində müəyyən tədbirlər həyata keçirilir, - oraya müdaxilə olunur və beləliklə də ümumi işimizə zərər vurulur. Bunların qarşısı alınmalıdır.

Cinayətkarlıqla mübarizədə korrupsiya ilə, rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır. Bu, təkcə hüquq-mühafizə orqanlarının işi deyil, bütün dövlət orqanlarının, hökumətin işidir, ümumxalq işidir. Ancaq hüquq-mühafizə orqanlarının bunun üçün xüsusi imkanları var. Ona görə də korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq-mühafizə orqanlarından daha da çox səmərəli iş tələb olunur. Ancaq təəssüflər olsun ki, hüquq-mühafizə orqanlarının əməkdaşları içərisində də korrupsiya ilə, rüşvətxorluqla məşğul olanlar var və bəzən az deyildir.

Mən dedim ki, özünü polis peşəsinə həsr edən adam saf mənəviyyata malik olmalıdır. Bu, təkcə polisə aid deyildir. Hər bir Azərbaycan vətəndaşı mənəviyyatca saf olmalıdır. Ancaq dövlət işində çalışan adamlar, hüquq-mühafizə orqanında işləyənlər, Daxili İşlər Nazirliyinin əməkdaşları bu keyfiyyətə mütləq malik olmalıdırlar. Bu, əsas tələblərdən biridir və mən bu bayram günü bu məsələni qaldıraraq bütün hüquq-mühafizə orqanlarından bir daha tələb edirəm ki, korrupsiya ilə, rüşvətxorluqla mübarizə gücləndirilsin.

Bu mübarizəni gücləndirmək üçün birinci növbədə hüquq-mühafizə orqanlarının içərisində korrupsiya ilə məşğul olan, rüşvətxorluq edən insanlar aşkara çıxarılmalı, ifşa edilməli və məsuliyyətə cəlb olunmalıdır. Əgər bu olmasa, hüquq-mühafizə orqanlarının gördüyü başqa işlər də ictimaiyyət, xalq tərəfindən lazımi dərəcədə qiymətləndirilə bilməz. Bir daha qeyd edirəm, özünü polis peşəsinə həsr edən insan, hüquq-mühafizə orqanlarında işləyən hər bir şəxs birinci növbədə mənəviyyatca saf olmalıdır. Bütün başqa çatışmazlıqları, nöqsanları bağışlamaq olar, onlara dözmək də olar. Amma bu nöqsanı, - əgər buna nöqsan demək olarsa, - bağışlamaq, bu hallara dözmək olmaz.

Bizim hüquq-mühafizə orqanları indi elə bir səviyyədədirlər ki, onlar korrupsiya ilə, rüşvətxorluqla mübarizə aparmağa qadirdirlər, -əgər öz içərilərində olan belə halları birinci növbədə aşkara çıxarıb özlərinin kollektivlərini təmizləsələr!

Daxili İşlər Nazirliyinin əməkdaşları Konstitusiyaya, dövlətçiliyə daim sadiq olmalıdırlar. Bəli, Daxili İşlər Nazirliyinin əməkdaşları, ümumiyyətlə Daxili İşlər Nazirliyi siyasətdən kənar olmalıdır. Xatirinizdədir, 1988-1989-cu illərdə – hələ Sovet İttifaqı yaşadığı zaman, müəyyən islahatlar həyata keçirildiyi bir zaman hüquq-mühafizə orqanlarının siyasətsizləşdirilməsi məsələsi kəskin durmuşdu. Hələ o vaxt.

Ancaq təəssüflər olsun ki, o vaxt hüquq-mühafizə orqanlarının siyasətsizləşdirilməsi haqqında daha çox danışanlar və çıxış edənlər 1992-ci ildə Azərbaycanda hakimiyyətə gələndən sonra hüquq-mühafizə orqanlarını tam siyasiləşdirdilər.

Nə ilə anlamaq olardı ki, Azərbaycanın Daxili İşlər naziri daxili işlər naziri olaraq «Boz qurd» Partiyası yaratmışdı? Daxili İşlər Nazirliyinin işçilərini məcbur edirdi ki, «Boz qurd» Partiyasına daxil olsunlar və «Boz qurd» olsunlar. Daxili İşlər Nazirliyində ən fəxri ad «Boz qurd» adı idi! Nə qədər dəhşətli bir dövr, nə qədər dəhşətli vəziyyət idi. Bu adamlar o vaxt da, indi də çox böyük iddialarla yaşayırlar, demokratiyadan dəm vururlar. Hansı demokratiyadan söhbət gedə bilər ki, daxili işlər naziri siyasətlə məşğul idi, nazirliyin tərkibində «Boz qurd» Partiyası yaratmışdı, müdafiə naziri siyasətlə məşğul idi. Başqa əməkdaşlar da – həm orduda, həm də Daxili İşlər Nazirliyində gecə-gündüz siyasətlə məşğul idilər.

Bunların hamısına son qoyulubdur və bundan sonra bunlara heç vaxt imkan verməyəcəyik. Hüquq-mühafizə orqanları tam siyasətsiz, siyasətdənkənar olmalıdırlar. Hüquq-mühafizə orqanları üçün dövlətin mənafeyinin qorunması ilə hər bir vətəndaşın hüquqlarının qorunması eyni səviyyədə durur. Vətəndaşların hüququnu qoruyaraq, cəmiyyətdən cinayətkarlığı sıxışdırıb çıxararaq dövlətçiliyin qorunması üçün yaxşı zəmin yarana bilər. Güman edirəm ki, son illər Azərbaycanda Daxili İşlər Nazirliyində və digər hüquq-mühafizə orqanlarında yaranmış vəziyyət bu tələblərə cavab verir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu sahədə işlər bundan sonra da davam edəcək və hüquq-mühafizə orqanları, Daxili İşlər Nazirliyi Konstitusiyanın nəzərdə tutduğu səviyyədə duracaqlar və öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.

Bu gün məmnuniyyət hissi ilə qeyd edirəm ki, Azərbaycanın Daxili İşlər Nazirliyi, onun orqanları, Azərbaycan polisi yaxşı səviyyədədir. Gələcəkdə Azərbaycan polisinin, Daxili

İşlər Nazirliyinin işlərini daha da səmərəli etmək üçün yaxşı zəmin yaranıbdır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz, Daxili İşlər Nazirliyinin bütün əməkdaşları qarşınızda duran vəzifələrin hamısını şərəflə, layiqincə yerinə yetirəcəksiniz.

Hörmətli polis əməkdaşları, hörmətli Daxili İşlər Nazirliyi əməkdaşları, mən sizə bütün işlərinizdə uğurlar arzulayıram. Sizin hər birinizə cansağlığı, ailə səadəti, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və əbədi edilməsi yolunda, Azərbaycanın dövlətçiliyinin qorunması yolunda yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

***Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı***
***28 noyabr 1998-ci il***

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizi Azərbaycan Respublikası Prokurorluğunun 80 illik yubiley münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan prokurorluğunun bütün əməkdaşlarına çox əhəmiyyətli və məsuliyyətli vəzifələrinin yerinə yetirilməsində uğurlar arzulayıram.

Respublikamızın milli prokurorluğunun yaranması Azərbaycanda 1918-ci ildə dövlət müstəqilliyinin əldə olunması ilə bağlıdır. O vaxta qədər Azərbaycan milli prokurorluğa malik olmamışdır. Azərbaycan Xalq Cümhuriyyəti respublikamızın dövlət müstəqilliyini möhkəmləndirərək və dövlət orqanlarını yaradaraq bu sahəyə də diqqət yetirmişdir, dövrün çətinliklərinə baxmayaraq, Ədliyyə Nazirliyinin tərkibində prokurorluğun yaranması haqqında da qərar qəbul etmişdir.

Beləliklə, Azərbaycan prokurorluğunun 80 yaşı vardır. Ancaq bu dövr bütün Azərbaycan xalqı, respublikamız üçün mürəkkəb və ziddiyyətli bir dövr olduğu kimi, prokurorluq orqanları üçün də mürəkkəb olmuşdur. Bəlkə də bu dövrdə prokurorluq orqanlarının fəaliyyəti Azərbaycanın başqa dövlət orqanlarının fəaliyyətinə nisbətən daha da mürəkkəb olmuşdur. Çünki onlar müxtəlif vaxtlarda müxtəlif orqanların tərkibində fəaliyyət göstərmiş, yalnız 30-cu illərdə Azərbaycanda stabil prokurorluq orqanı, prokurorluq yaranmışdır.

Azərbaycan xalqının həyatının bütün mərhələlərində əldə etdiyi nailiyyətləri də və itkiləri də bizim tariximiz əks etdirir. Prokurorluq orqanları da Azərbaycanda gedən bu proseslərin iştirakçısı olmuşdur. 1920-1930-cu illərdə Azərbaycanda kütləvi repressiyaların aparılmasında o dövrün hakimiyyətinin siyasətini yerinə yetirən dövlət orqanları ilə bərabər prokurorluq orqanları da bu repressiya tədbirlərinin iştirakçısı olmuşdur. Ancaq bunlarla yanaşı, Azərbaycanda sovet hakimiyyəti illərində xalq yaşamış, inkişaf etmiş, böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanda prokurorluq orqanlarının mütəşəkkilləşməsi, formalaşması və inkişaf etməsi prosesi də bunların içərisində öz əksini tapmışdır.

Düz 7 il bundan öncə, 1991-ci ildə Sovetlər İttifaqının dağılması ilə əlaqədar dövlət müstəqilliyimizi əldə etdik və müstəqil dövlətimizi qurmağa başladıq. Ancaq bu gün böyük məmnuniyyət hissi ilə deməliyik ki, biz dövlət müstəqilliyini elan edərkən Azərbaycanın demək olar ki, bütün sahələrində dövlət orqanlarını müstəqil yaratmaq və onların fəaliyyətini təmin etmək üçün bütün imkanlar yaranmışdı. 1991-ci ildə respublikamızda dövlət müstəqilliyi elan olunan zaman Azərbaycan böyük prokurorluq kadrları korpusuna malik idi.

Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır.

Biz bu gün prokurorluğun 80 illik yubileyini qeyd edirik. Bu yubileyi qeyd edərkən keçmiş illərdə də, o illərdə də Azərbaycanda prokurorluq orqanlarında sədaqətlə işləmiş və

xidmətlərini göstərmiş insanları da unutmuruq. Ancaq Azərbaycanın həyatında prokurorluq orqanlarının son illərdəki fəaliyyəti bu gün xüsusi əhəmiyyət kəsb edir.

Mən hesab edirəm ki, beləliklə, respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiqli xidmət edir. Buna görə də biz 1995-ci ildə qəbul etdiyimiz ilk Konstitusiyada prokurorluğun yerini, səlahiyyətlərini və vəzifəsini müəyyən etmişik.

Prokurorluq orqanlarının dünyanın müxtəlif ölkələrində müxtəlif səlahiyyətləri vardır. Şübhəsiz ki, bu, hər bir ölkənin öz spesifik xüsusiyyəti, onun inkişaf səviyyəsi ilə əlaqədardır. Biz Azərbaycanda dövlət müstəqilliyini inkişaf etdirərək, hüquqi, demokratik, dünyəvi dövlət quraraq respublikamızın dövlət orqanlarını, o cümlədən hüquq-mühafizə orqanlarını Azərbaycanın milli mənafelərinə uyğun olaraq təşkil edir və onların vəzifələrini, səlahiyyətlərini də ölkəmizin milli mənafelərini müdafiə etmək nöqteyi-nəzərindən müəyyənləşdiririk.

Azərbaycan keçid dövrü yaşayan bir ölkədir. Keçmişdə Sovetlər İttifaqına mənsub olmuş ölkələrin hamısı bu dövrü yaşayır. Bu keçid dövrünün özünəməxsus xüsusiyyətləri vardır. Keçid dövrünün əsas məqsədi Azərbaycanda demokratik dövlət quruculuğunu təmin etməkdən, hüquqi vətəndaş cəmiyyəti yaratmaqdan, iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurmaqdan, insan hüquqlarını qorumaq və təmin etməkdən, insanlara bütün azadlıqları, o cümlədən mətbuat, söz, fikir azadlıqlarını verməkdən, siyasi plüralizmi təmin etməkdən ibarətdir.

Belə bir dövrdə Azərbaycan prokurorluğu Konstitusiyada müəyyən olunmuş səlahiyyətlərini həyata keçirmək ölkəmizin dövlətçiliyinin qorunmasına və möhkəmlənməsinə xidmət etməlidir, qanunun aliliyini təmin etməli və qanunun aliliyinə

riayət etməlidir, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının keşiyində durmalıdır. Bütün bunlar hamısı Konstitusiyada öz əksini tapıbdır. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan prokurorluğu son illərdə bu vəzifələri uğurla yerinə yetirir.

Azərbaycanın 80 illik tarixində hər dövrün özünəməxsus xüsusiyyətləri vardır. Son on il Azərbaycanın həyatında ən ağır, ən çətin problemlər dövrü olmuşdur. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə başladığı münaqişə Ermənistanın Azərbaycana qarşı silahlı hərbi təcavüzü ilə həyata keçirilmişdir. Bunların nəticəsində Azərbaycana böyük zərbələr dəymişdir.

Azərbaycan öz torpaqlarını müdafiə edərək itkilər vermişdir. Məlum səbəblərdən bir çox ölkələr tərəfindən Ermənistana verilən köməyin və dəstəyin nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş və işğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız zorla çıxarılmış, onlar bir çox ildir ki, ağır vəziyyətdə, çadırlarda yaşayırlar.

On il davam edən bu vəziyyət Azərbaycanın həyatının xüsusiyyətini təşkil edir. Belə bir dövrdə, zamanda, keçmiş Sovetlər İttifaqı tərkibində olduğu dövrdə Azərbaycana lazımi qayğı, yardım göstərilməyibdir. Əksinə, Azərbaycana torpaq iddiası edildiyi zaman, respublikamızda Ermənistan ilə Azərbaycan arasında müharibə getdiyi bir zaman – 1990-cı ilin yanvar ayında sovet hökumətinin silahlı qüvvələrinin böyük bir hissəsi Bakıya, Azərbaycana yeridilib, dinc insanlar öldürülüb, əzilib, şəhid olublar. Bu da son on ildə Azərbaycanın həyatının xüsusiyyətini təşkil edən bir amildir. Bunlarla yanaşı, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət də pozulubdur.

Məlumdur ki, Azərbaycanın keçmiş hakimiyyəti Ermənistan təcavüzündən qorunmaq, torpaqlarımızı müdafiə etmək

əvəzinə daxildə xalqa qarşı ədalətsiz hərəkətlər etmişdir. Azərbaycanın daxilində hakimiyyət mübarizəsi aparan qüvvələrin bu qanunsuz hərəkətləri son nəticədə çoxsaylı cinayətkar dəstələrin yaradılmasına gətirib çıxarmışdır. Beləliklə, 1990, 1991,1992-ci illərdə və 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, hərc-mərclik, cinayətkarlığın artması respublikamızın həyatının bütün sahələrinə böyük zərbələr vurmuşdur.

Bu illər prokurorluq orqanlarında da qeyri-sağlam vəziyyət olmuşdur. Təbiidir, belə bir dövrdə prokurorluq orqanları öz fəaliyyətini qanun çərçivəsində apara bilməzdi. Bütün bunların nəticəsində Azərbaycanda daxili ictimai-siyasi vəziyyət tamamilə pozulmuşdu. Ən dəhşətlisi odur ki, bir çox gəncləri, vətəndaşları cinayətkarlığa sövq etmişdilər, onlar cinayətkar dəstələrə qoşulmuşdular və cinayətkarlıq artmışdı.

Məhz bunların nəticəsidir ki, 1992-ci ildə Azərbaycanda cinayətkarlığın səviyyəsi demək olar ki, ən yüksək dərəcəyə gəlib çatmışdı. Bir ildə 22 min 440 cinayət baş vermişdi. Bu, müqayisədə əvvəlki bütün illərin hamısından çox olmuşdur.

1993-cü ildən Azərbaycanda aparılan işlər birinci növbədə respublikamızda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirməyə və bunun üçün də cinayətkarlıqla mübarizəni gücləndirməyə yönəldilmişdir. Bütün bu işlərdə hüquq-mühafizə orqanlarının hamısı, o cümlədən Azərbaycan prokurorluğu fəal iştirak etmişdir. Aparılan işlərin nəticəsini rəqəmlər artıq özüözlüyündə göstərir. Keçən il, 1997-ci ildə cinayətkarlıq 1992-ci ilə nisbətən xeyli azalmışdır. 1992-ci ildə 22 min 450, 1997-ci ildə isə 16 min 400 cinayət baş vermişdir. Şübhəsiz ki, bu da çoxdur, biz bununla da razı ola bilmərik. Ancaq biz görülən işlərin nəticəsini də qiymətləndirməliyik.

Bütün bu işlərdə Azərbaycan prokurorluğu fəal iştirak etmişdir, öz xidmətlərini göstərmişdir. Xüsusən, Azərbaycanda cinayətkar dəstələr tərəfindən güclə, silah yolu ilə dövlət çev-

rilişlərinə cəhdlərin qarşısının alınmasında və bunun nəticəsində cinayətkarların yaxalanmasında, edilmiş cinayətlərin açılmasında, cinayətkarların qanun əsasında məsuliyyətə cəlb olunmasında, beləliklə də cinayətkarlığın qarşısının alınmasında prokurorluğun xidmətləri böyükdür.

1994-cü ilin oktyabr hadisələri, 1995-ci ilin mart hadisələri, ondan sonra yenə də böyük cinayətkar dəstələrin Azərbaycanda terror aktları, təxribat aktları həyata keçirmək cəhdləri – bunlar hamısı bizim yaxın tariximizin hadisələridir. Biz bu illəri çox ağır yaşamışıq və hüquq-mühafizə orqanlarının apardığı işlər nəticəsində, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi nəticəsində, Azərbaycan dövlətinin qətiyyətli tədbirləri nəticəsində bu cinayət hadisələrinin, Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş qəsdlərin qarşısı alınmış və cinayətkarlar qanun əsasında cəzalanmışlar.

Prokurorluq orqanı hüquq-mühafizə orqanlarının içərisində xüsusi yer tutur. Prokurorluq istintaqın əsas hissəsini aparır. İstintaq isə cinayəti açmaq üçün və qanun əsasında cinayətkarın cinayətkar olduğunu sübut etmək üçün, yaxud da ki, edilmiş cinayətin məzmununu aşkar etmək üçün əsas vasitədir. Ötən beş il müddətində Azərbaycanda istintaq işlərinin çoxu bu cinayətlərlə əlaqədar aparılıbdır və bu gün məmnuniyyətlə demək olar ki, bunların nəticəsində cinayətlər açılıb, edilən cinayətlərin məzmunu aşkar olunub, ictimaiyyətə göstərilib və aparılan istintaq işləri nəticəsində çıxarılan məhkəmə hökmləri cinayətkarların cinayət etdiklərini sübut edib və beləliklə də cəmiyyətimiz, vətəndaşlarımız belə cinayətkarlardan xilas olublar. Bunlar hamısı çox əhəmiyyətli işlərdir və mən bu işlərdə prokurorluğun xidmətlərini yüksək qiymətləndirirəm.

Prokurorluq hüquq-mühafizə orqanları sistemində demək olar ki, məhkəmə ilə polis orqanları, daxili işlər orqanları, milli təhlükəsizlik orqanları arasında duran bir orqandır. Ona

görə də prokurorluğun işindən çox şey asılıdır. Yəni onun keyfiyyətindən, işin ədalətliliyindən, peşəkarlığından çox şey asılıdır. Ümid edirəm ki, Azərbaycan prokurorları öz üzərinə düşən bu məsuliyyəti dərk edirlər və bundan sonra öz işlərini daha da mütəşəkkil aparacaqlar.

Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda, bu peşə həm də şərəfli peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək – bu, çox şərəfli vəzifədir. Mən bu gün məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycanın hüquq-mühafizə orqanları bu vəzifələrini uğurla yerinə yetirirlər. Son beş ildə Azərbaycanda gedən proseslər, əldə olunmuş ictimai-siyasi sabitlik, cinayətkarlığın qarşısının sürətlə alınması – bunlar hamısı bizim böyük nailiyyətlərimizdir və bu nailiyyətlərin əldə edilməsində də hüquq-mühafizə orqanlarının hamısının, o cümlədən Azərbaycan prokurorluğunun xidmətləri böyükdür.

Prokuror olmaq, şübhəsiz ki, böyük intellekt tələb edir. Hüquq-mühafizə orqanlarının cürbəcür təşkilatları vardır, hər təşkilatın özünəməxsus xüsusiyyəti vardır. Ancaq prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq tələb edən işdir, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir. Biz bəzən özümüz-özümüzə lazımi qədər qiymət verə bilmirik. Ancaq deyə bilərəm ki, qısa bir dövrdə, son 30-40 il ərzində Azərbaycanda yüksək səviyyəli, peşəkar prokuror kadrları yetişibdir. Mən Azərbaycanda prokuror orqanlarını şəxsən 50 ildir ki, tanıyıram və müşahidə edirəm. Bəlkə ondan da bir az çox.

Mən 40-50-ci illəri xatırlayıram. Həqiqət bundan ibarətdir ki, bizim hüquq-mühafizə orqanlarında, o cümlədən pro-

kurorluqda milli Azərbaycan kadrları azlıq təşkil edirdi və olanların də təəssüflər olsun ki, çoxları yüksək hüquq təhsilinə, biliyə malik deyildi. Şübhəsiz, sədaqətli idilər, öz işlərini görürdülər, ancaq onların bilik səviyyəsi o qədər də yüksək deyildi. İndi isə bizim bu prokurorluq orqanlarına baxıram: bizim nə qədər yüksək səviyyəli, bilikli kadrlarımız vardır. Bunlar bir gündə, bir ildə, beş ildə əldə olunmur. Qeyd etdiyim kimi, - mənim müşahidəm əsasında deyirəm, - bu, 60-70-80-ci illərdə görülən işlərin nəticəsidir. İndi Azərbaycan bir müstəqil dövlət olaraq hüquq-mühafizə orqanlarının hər bir sahəsində istənilən qədər səviyyəli kadrlara malikdir.

Mən bu gün prokurorluğun yubiley mərasimində onu da qeyd etmək istəyirəm ki, bu mərasim prokurorluq orqanlarının üzərinə çox böyük vəzifələr qoyur. İndiyə qədər bizim bu 80 illik tariximizdə prokurorluq günü, yaxud prokurorluğunda peşə bayramı heç vaxt olmamışdır.

Məsələn, bizdə milis günü var idi, hər il o milis gününü bayram edirdik. Yaxud, çekist günü vardı. Təhlükəsizlik orqanlarının bayramını qeyd edirdik. Ordu günü var idi, bunu bayram edirdik. Ancaq prokurorluq günü və məhkəmələr günü əvvəllər heç vaxt olmamışdır. Doğrudur, burada, bizim dostumuz cənab Skuratov qeyd etdi ki, Rusiya prokurorluğunun 276 yaşı vardır. Ancaq o vaxt – sovet hakimiyyəti dövründə nə o 276 illik tarixi qəbul edirdilər, nə də sovet prokurorluğunun yaranması gününü qeyd edirdilər. Ona görə də mən hər halda bu prokurorluq bayramını heç vaxt görməmişdim və prokurorluq gününü də görməmişdim. İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər.

Mən tarix haqqında danışarkən nailiyyətlər barəsində dedim. Ancaq eyni zamanda, Azərbaycanda prokurorluğun işin-

də keçmiş onilliklərdə qüsurlar, nöqsanlar da çox olmuşdur. Biz bunları unutmamalıyıq. Ona görə ki, indi, bundan sonra bu nöqsanlara yol verilməsin. Bu nöqsanlar əsasən prokurorluq orqanları işçilərinin öz vəzifəsindən sui-istifadə etməsi ilə əlaqədar olmuşdur.

Mən 70-80-cı illərdə Azərbaycana rəhbərlik etdiyim zaman bu mənfi hallarla çox ciddi mübarizə aparmışam. O illərdə prokurorluq orqanlarında çox sədaqətli, sağlam mənəviyyatlı əməkdaşlarla yanaşı, təəssüflər olsun ki, öz vəzifələrindən sui-istifadə edənlər də var idi.

Bu gün bizim qarşımızda duran vəzifələrdən biri ölkəmizdə korrupsiya ilə, rüşvətxorluqla mübarizəni gücləndirmək və korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılmasına nail olmaqdan ibarətdir. Bu mübarizə yeni bir mübarizə deyildir. Bu, keçmiş dövrlərdə də aparılmışdır. Ancaq bu mübarizədə hüquq-mühafizə orqanları gərək dövlətin əsas aləti olsun. Yəni bu mübarizəni biz dövlətin bütün orqanları vasitəsilə aparmalıyıq. Bununla yanaşı, hüquq-mühafizə orqanlarının bu cinayətin qarşısını almaq üçün daha da böyük imkanları vardır. Ancaq hüquq-mühafizə orqanlarının özlərində belə hadisələr, yəni belə hallar olduğu bir zamanda, şübhəsiz ki, bu mübarizə səmərəli ola bilməz.

Həmin 60-70-ci illərdə də belə hallar Azərbaycanın hüquq-mühafizə orqanlarında, o cümlədən prokurorluq orqanlarında var idi. Yəqin ki, tarixdən məlumdur, - mən o illərdə çox qəti qərarlar qəbul edirdim. Məsələn, Daxili İşlər Nazirliyinin rəhbərliyini çox ciddi qərarlarla vəzifədən azad etmişdim, prokurorluğun rəhbərliyini azad etmişdim və onların işlərində olan ciddi nöqsanlar haqqında qərarlar qəbul edilmişdi. Bunlar hamısı həmin bu hüquq-mühafizə orqanlarında olan qüsurlarla əlaqədar idi.

Mən hesab edirəm ki, indi müstəqil Azərbaycanda hüquq-mühafizə orqanları gərək belə ünsürlərdən təmizlən-

sinlər. Hüquq-mühafizə orqanlarına verilən səlahiyyət heç bir başqa dövlət orqanına verilmir. Hüquq-mühafizə orqanlarının içərisində isə prokurorların ən çox, ən yüksək səlahiyyəti vardır. Təsəvvür edin, prokuror vətəndaşın həbs olunması üçün qərar qəbul edir. Bunu ancaq prokuror edə bilər. Ancaq, birincisi, prokuror həmişə çalışmalıdır ki, bu qərar əsaslı olsun, ədalətli və düzgün olsun. İkincisi, əgər prokuror belə bir yüksək səlahiyyətə malikdirsə, əgər prokurora bu qədər böyük etimad göstərilirsə, prokuror nə qədər məsuliyyətli olmalıdır və mənəviyyatca nə qədər saf olmalıdır.

Mən bu gün, bayram günü bir daha bildirmək istəyirəm ki, hüquq-mühafizə orqanlarında, prokurorluqda mənəvi saflıq uğrunda mübarizə daim aparılmalıdır. Heç kəs hesab etməməlidir ki, əldə olunan nailiyyətlər, görülən işlər kiməsə vəzifəsindən sui-istifadə etməyə hüquq verir, kiməsə qanunu pozmağa hüquq verir, kiməsə rüşvət almağa hüquq verir. Bu məsələlər məni şəxsən çox narahat edir. Güman edirəm ki, hüquq-mühafizə orqanlarının hamısı və o cümlədən Azərbaycan prokurorluğu bu orqanlara dövlət, hökumət tərəfindən göstərilən yüksək qayğıya, diqqətə və ictimaiyyət tərəfindən göstərilən böyük hörmətə cavab olaraq gərək öz sıralarını təmizləsinlər, o orqanları ləkələyən ünsürlərdən azad olsunlar. Siz də çalışmalısınız, hamımız çalışmalıyıq ki, hüquq-mühafizə orqanları dövlət orqanları içərisində həqiqətən, ictimaiyyət tərəfindən dövlətin qanunlarını həyata keçirən mənəviyyatca sağlam orqanlar kimi tanınsın.

Mən bilirəm ki, bu o qədər də asan məsələ deyil. Əgər 60-70-ci illərdə Azərbaycanda vəzifəli şəxslərin vəzifəsindən sui-istifadə etməsi, rüşvətxorluqla məşğul olması halları mövcud idisə və biz onlarla mübarizə aparırdıqsa, bu mübarizədə çox ciddi qərarlar qəbul edirdiksə, bu gün mən hesab edə bilmərəm ki, biz bu mübarizəni qurtarmışıq və indi artıq belə hallar keçmişdə qalıb, sovet hakimiyyəti dövrünə məxsus idi.

Əksinə, mən hesab edirəm ki, bu keçid dövrünün bir çox problemləri ilə əlaqədar qanun pozuntuları təkcə hüquq-mühafizə orqanları tərəfindən deyil, ümumiyyətlə dövlət, hökumət orqanları tərəfindən çoxalıbdır. Vəzifəli şəxslərin vəzifəsindən sui-istifadə etmək halları artıbdır və bunların cəzasızlığını görən kütlə, ictimaiyyət də tək bu orqanlardan yox, eyni zamanda iqtidardan, hakimiyyətdən də narazı olurlar. Mən bunu deyirəm ona görə yox ki, narazılıqlar olmasın. Deyirəm ona görə ki, belə hallar bizim cəmiyyətdə, bizim ölkədə, bizim dövlətdə kökündən çıxarılıb atılmalıdır. Mən ümidvaram ki, bizim hüquq-mühafizə orqanları və xüsusən prokurorluq bu sahədə lazımi tədbirlər görəcək və qoyulan vəzifələrin həyata keçirilməsinə nail olacaqdır.

Şübhəsiz ki, keçmişdə Azərbaycan prokurorluğu sərbəst deyildi. Azərbaycan özü sərbəst olmadığı kimi, prokurorluq da sərbəst deyildi. Ancaq eyni zamanda sovet hakimiyyəti dövründə prokurorluq həddən artıq mərkəzləşmiş bir təşkilat idi. Mərkəzləşdiyinə görə də Azərbaycana qarşı ədalətsizliklər də edilirdi.

Məsələn, mən 1990-cı il 20 Yanvar hadisələrini yada saldım. Azərbaycan xalqı, ictimaiyyəti 1990-cı ilin yanvar ayında xalqımıza qarşı edilmiş bu cinayətin açılmaması və cəzasız qalmasından çox narahatdır. Bu işdə o illərdə Azərbaycan prokurorluğunun da günahı çoxdur.

Şübhəsiz ki, hər bir cinayətə qarşı tədbir görülməlidir. Ancaq hesab edirəm ki, XX əsrin ikinci yarısında Azərbaycan xalqına qarşı edilən ən böyük cinayət bəzi ölkələrin köməyi ilə Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz və bunun nəticəsində insanların həlak olması, Azərbaycan torpaqlarının işğal edilməsi və işğal olunmuş torpaqlarda ölkəmizin varidatının dağıdılması olmuşdur. İkincisi isə 1990-cı ilin yanvar ayında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdür.

Keçmiş haqqında danışarkən onu da qeyd etmək istəyirəm ki, məsələn, 1988-1989-cu illərdə Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz edildiyi bir vaxtda, eyni zamanda Azərbaycanın rəhbərliyi ilə birlikdə mərkəz prokurorluğu da xalqımıza başqa bir təcavüz edirdi. O illərdə burada heç bir cinayəti olmayan, yaxud xırda bir cinayət törətmiş nə qədər insanlar həbs olunmuşdu. Bu gün mən o günləri xatırlayıram. Böyük cinayətlər qalmışdı kənarda – Azərbaycan xalqına təcavüz edilmişdi, bu qaldı kənarda – Azərbaycanın içində Azərbaycan prokurorluğunun özü də və Moskva prokurorluğu da bir cinayəti olan və yaxud cinayəti olmayan insanları həbs edib, onlara əziyyətlər verirdilər. Prokurorluğun tarixində belə qara səhifələr də vardır.

Bütün bunlar hamısı, yəni 1988-ci ildən başlayaraq Azərbaycanda gedən proseslər respublikanın bütün dövlət orqanlarında mənfi hadisələrin baş verməsinə gətirib çıxardığı kimi, prokurorluq orqanlarında da hakimiyyətsizlik, məsuliyyətsizlik, özbaşınalıq halları geniş yayılmışdı.

Bəlkə də bu, başqa yerlərdə çox təəccüb doğura bilər ki, məsələn, bizim hüquq-mühafizə orqanlarının içərisində 1991-ci, 1992-ci, 1993-cü illərdə cinayətkar dəstələr yaranmışdı. Daxili İşlər Nazirliyinin içərisində OMON dəstəsi cinayətkar bir dəstəyə çevrilmiş, reketlə məşğul olmuş, insanlara çox böyük əzab-əziyyətlər vermiş, insanları oğurlamış, öldürmüş və nəhayət, 1995-ci ilin mart ayında dövlət çevrilişinə cəhd göstərmişdi. Ancaq bu məsələ öz başlanğıcını 1994-cü il oktyabr ayının 2-dən götürür. O günü Azərbaycan prokurorluğuna hücum olunmuş və cinayətkar dəstələr tərəfindən işğal edilmiş, Azərbaycan prokuroru həmin cinayətkar dəstələr tərəfindən əsir götürülmüşdü. Bu da tariximizin bir səhifəsidir.

Bu nə cür olmuşdu? Bakı şəhərində Xətai rayonunun prokuroru neçə illərdi ki, cinayətkarlıqla məşğul idi, qanunsuz silahlı dəstələr saxlayırdı, ətrafında daim avtomatla silahlanmış

quldurlar gəzdirirdi. Ancaq dövlət orqanları, o cümlədən prokurorluq buna laqeyd münasibət göstərirdilər, biganə baxırdılar. Onlar da elə bir səviyyəyə gəlib çıxdılar ki, 1994-cü il oktyabr ayının 2-də Azərbaycan prokurorluğunu işğal etdilər və baş prokuroru, prokurorluğun bir neçə işçisini əsir götürdülər. Bu da Azərbaycan tarixinin, o cümlədən prokurorluğun tarixinin qara bir səhifəsidir.

Mən bu bayram günü bunları xatırlayıram ona görə ki, hər kəs bunlardan özü üçün nəticə çıxarsın. Əgər o illərdə belə cinayətkarlara qarşı lazımi tədbirlər görülsəydi, cinayətkarların azğın hərəkətlərinin qarşısı alınsaydı, onlar bu qədər qudurub prokurorluğun binasını zəbt etməzdilər və baş prokuroru əsir götürməzdilər.

Mən bu gün məmnuniyyətlə qeyd edirəm ki, məhz hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluq orqanlarının öz işçilərinin fəaliyyəti nəticəsində bütün bu cinayətlərin qarşısı alındı, cinayətkarlar yaxalandı, - hesab edirəm ki, yaxalanmayan da yaxalanacaqdır, - cinayətlər açıldı və Azərbaycanda cinayətkarlığın qarşısı güclü surətdə alınıbdır.

Burada çıxışlarda deyildi ki, MDB ölkələri içərisində ən az cinayət törədilən ölkələrdən biri Azərbaycandır. Bu, şübhəsiz, bizi arxayınlaşdırmamalıdır. Cinayət elə bir şeydir ki, onun qarşısını daim almaq lazımdır. Əgər bizim hüquq-mühafizə orqanları bir gün, yaxud bir ay zəiflik göstərsələr, yaxud diqqəti azaltsalar, cinayətkarlar yenə də baş qaldıra bilərlər.

İndi Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür. Bu, Azərbaycan dövlətinin, hökumətinin, o cümlədən hüquq-mühafizə orqanlarının əldə etdiyi ən böyük nailiyyətdir. Biz bu ictimai-siyasi sabitliyi qoruyub saxlamalıyıq. İctimai-siyasi sabitlik Azərbaycanda dövlət quruculuğunu uğurla həyata keçirmək üçün vacibdir, Azərbaycanda iqtisadi-sosial islahatları həyata keçirmək üçün lazımdır, Azərbaycanda bazar iqtisadiyyatı yaratmaq üçün lazımdır. Bu baxımdan hüquq-mühafizə

orqanlarının və prokurorluğun qarşısında çox böyük vəzifələr durur.

Prokurorluq peşəsi hörmətli peşədir. Hörmətli, şərəfli peşədir. Müstəqil dövlət kimi Azərbaycan keçmiş tarixindən, ənənələrindən istifadə edərək yeni dövlət quruculuğu prosesini həyata keçirir. O cümlədən, müstəqil Azərbaycanın prokurorluğu yaranır və inkişaf edir. Bu orqanın inkişaf etməsində xidmət göstərən hər bir Azərbaycan vətəndaşı şərəfli iş görür. Mən arzu edirəm ki, hər bir prokurorluq işçisi öz peşəsinin hörmətini yüksək saxlasın, öz peşəsinin adını qorusun. O, öz peşəsinin adını qoruyaraq öz şəxsi adını qoruyacaqdır. Arzu edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və hər bir prokuroru cəmiyyətdə ən hörmətli, ən layiqli adam sayılsın. Bunun üçün böyük imkanlar var. Mən qeyd etdim, artıq Azərbaycanda güclü, yüksək səviyyəli prokuror kadrları korpusu yaranıbdır. Bu kadrlardan səmərəli istifadə etmək lazımdır. Hər bir prokurorluq işçisi də öz peşəsinə sadiq olmalıdır, müstəqil Azərbaycanın dövlətçiliyinə sadiq olmalıdır.

Son illər mən Azərbaycan prezidenti kimi hüquq-mühafizə orqanları, o cümlədən Azərbaycan prokurorluğu əməkdaşlarının ölkəmizin müstəqilliyinə, dövlətçiliyinə sadiqliyini müşahidə edirəm. Bu sədaqətə görə də təşəkkür edirəm.

Bizim qarşımızda çox böyük vəzifələr durur. Müstəqil Azərbaycan ilk addımlarını atır. Ancaq mən inanıram ki, müstəqil Azərbaycanın çox parlaq gələcəyi var. Biz əsas problemi həll etməyə çalışırıq – Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsinə çalışırıq, məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Son illər bütün dünyaya nümayiş etdirmişik ki, Azərbaycan sülhsevər dövlətdir, Azərbaycan xalqı sülhpərvər xalqdır. Biz müharibənin yenidən başlanmasını istəmirik. ATƏT-in Minsk qrupu həmsədrlərinin verdikləri təklifləri son günlər müzakirə edərkən mən bunu bir daha bəyan etdim.

Təəssüflər olsun ki, ATƏT-in Minsk qrupunun noyabr ayının 9-da bizə verdiyi təkliflər məsələnin sülh yolu ilə ədalətli həllini təmin etmir. Ona görə də biz o təklifləri qəbul etmədik. Bu gün bir daha bəyan edirəm ki, biz o təklifləri qəbul edə bilmərik. ATƏT-in həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa məsələnin həll olunması üçün daha ədalətli təkliflər hazırlamalıdırlar.

Bu barədə mən noyabr ayının 25-də Azərbaycanda səfərdə olan ATƏT-in hazırkı sədri, Polşanın xarici işlər naziri cənab Geremek ilə də ətraflı danışdım və öz fikirlərimizi ona bildirdim. Yəni ATƏT-in həmsədrlərinin verdikləri təklifləri qəbul etməməyimizin səbəbini bildirdim. Mən dünən bu barədə Rusiyanın Baş naziri cənab Primakov ilə də telefonla danışdım. Ona da izah etdim ki, biz bu təklifləri qəbul edə bilmərik. Çünki bunlar məsələnin ədalətlə həll olunmasını təmin etmir.

Heç kəs hesab etməsin ki, əgər Ermənistan Azərbaycan torpaqlarının bir qismini işğal edibsə və işğalçı ordular Azərbaycan torpaqlarındadırsa, deməli, biz hər bir təklifi qəbul edə bilərik. Mən bəyan etmişəm və bu gün bir daha bəyan edirəm ki, biz məsələnin ədalətlə həll olunmasının tərəfdarıyıq. Heç vaxt Azərbaycan torpağının hansısa bir hissəsini hansı şəkildə olursa-olsun, Azərbaycanın ərazisindən ayrı təsəvvür edə bilmərik. Ona görə də biz bu təklifləri qəbul etməmişik.

Ancaq eyni zamanda, mən bəyan etmişəm ki, biz Minsk qrupu həmsədrlərinin yeni təkliflərini gözləyirik və bu təkliflərə öz münasibətimizi bildirəcəyik. Beləliklə, biz sülh danışıqları prosesinə, atəşkəs rejiminin saxlanmasına sadiq qalırıq, məsələnin Minsk qrupu çərçivəsində həll olunmasına sadiq qalırıq. Mən Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransaya bir daha müraciət etmişəm ki, yenidən bu təkliflər üzərində işləyib bizə təqdim etsinlər.

Bunları sizə çatdırarkən eyni zamanda bildirmək istəyirəm, mən tam əminəm ki, biz məsələnin sülh yolu ilə həll edilməsinə nail ola biləcəyik. Beləliklə, Azərbaycan özünün ərazi bütövlüyünü bərpa edəcək, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz doğma torpağına qayıdacaqlar, müstəqil dövlət kimi Azərbaycan özünün bütün ərazisinin sahibi olacaq və inkişaf edəcəkdir.

Qarşıda bizim çox böyük vəzifələrimiz var. Bu vəzifələrin həyata keçirilməsində Azərbaycan prokurorluğunun da özünəməxsus yeri var. Bu gün biz 80 illik yubileyi qeyd edərkən ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olacaq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir.

Əziz dostlar, mən sizi bir daha ürəkdən təbrik edirəm. Bir də qeyd edirəm, prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, siz həmişə çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan prezidenti kimi, mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram.

Hər bir Azərbaycan prokuroruna səadət, hamınıza gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK XİDMƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*26 mart 1999-cu il*
*Prezident sarayı*

Hörmətli dostlar, sizi salamlayıram və şadam ki, siz – türkdilli dövlətlərin xüsusi idarələrinin rəhbərləri bir yerə toplaşmısınız və öz başlıca problemlərinizi müzakirə edirsiniz.

Mən bilən, ilk belə görüş İstanbulda olmuşdur, ikinci görüş Bakıda keçir. Bu, yaxşı ənənədir və ümumi səylərimizə uyğundur. Siz bilirsiniz ki, Türkiyə prezidenti, dostumuz Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildən türkdilli ölkələrin dövlət başçılarının görüşləri keçirilir. Bu görüşlər hər il keçirilir və sizə deməliyəm ki, onlar böyük fayda gətirir. Ötən il belə görüş Qazaxıstanda, Astanada oldu, biz məsələlərimizi müzakirə etdik, sonra da Qazaxıstanın yeni paytaxtının təqdimat mərasimində iştirak etdik. Növbəyə uyğun olaraq, bu il iyunda görüş Bakıda keçiriləcəkdir. Beləliklə, türkdilli ölkələrin dövlət başçılarının görüşü dövlətlərarası münasibətlərin və əməkdaşlığın, xüsusən, mədəniyyət, təhsil, elm, iqtisadiyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük fayda gətirən illik görüşlərin sabit sisteminə malikdir. Odur ki, bu baxımdan türkdilli dövlətlərin xüsusi xidmətləri rəhbərlərinin görüşünün artıq təşəkkül tapmış forması bəyənilməli və dəstəklənməlidir.

Belə düşünürəm ki, siz artıq bunun zəruriliyini duyaraq görüşürsünüz, ünsiyyətdə olursunuz, məsələləri müzakirə edirsiniz. Əminəm ki, siz buna getdikcə daha böyük tələbat duyacaqsınız. Təbii ki, bu, dövlətlərimizin maraqlarına tamamilə uyğundur. Xüsusən, indi, dünyanın belə mürəkkəb döv-

ründə, ölkələrimizin dövlət müstəqilliyi yolu ilə getdikləri, öz taleyini keçmişdə, Sovetlər İttifaqının tərkibində olduğumuz dövrdəkinə nisbətən müstəqil həll etdiyi bir vaxtda xüsusi idarələrin fəaliyyəti ilə bağlı məsələlər meydana çıxır. Beynəlxalq terrorizm, ekstremizm, narkotik maddələrin yayılması və artıq transmilli xarakter daşıyan bir çox digər cinayətlər bütün ölkələri, xüsusilə, narahat edir. Buna ölkələrimizin daxilində baş verən və təbii ki, xarici amillərlə sıx bağlı olan müxtəlif proseslər də əlavə edilir. Dövlətlərimiz, onlardan hər biri bəzi başqa ölkələrin bu və ya digər dərəcədə böyük maraq obyektidir. Bu isə ölkələrimizdə təxribat xarakterli tədbirlər həyata keçirilməsini şərtləndirir. Hər halda, biz bunu ölkəmizin timsalında deyə bilərik. Buna görə də xüsusi idarələrin səylərinin əlaqələndirilməsi, qarşılıqlı fəaliyyət, təcrübə mübadiləsi, qarşılıqlı yardım olduqca böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən əvvəl də, sonra da daxili siyasi vəziyyətimizi nəzərə alsaq, görərik ki, bu baxımdan Azərbaycan bəlkə də daha mürəkkəb şəraitli ölkə olmuşdur. Digər tərəfdən, bir də ona görə ki, bildiyiniz kimi, Azərbaycan Ermənistan tərəfindən zorla müharibəyə cəlb olunmuşdur. 10 ildən də əvvəl Ermənistan Azərbaycanın Dağlıq Qarabağ vilayətini özünə birləşdirmək üçün, ərazi, qanunsuz iddialarını həyata keçirməyə çalışaraq müharibəyə başlamış və Azərbaycana hərbi təcavüz etmişdir. Siz bunun tarixini bilirsiniz. Siz bilirsiniz ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişdir və bir milyondan çox azərbaycanlı öz yaşayış yerlərindən didərgin salınmışdır və onlar çox ağır şəraitdə, çadır şəhərciklərində yaşayırlar.

Münaqişə hələ dayandırılmayıbdır, hərçənd ki, 1994-cü ilin mayında biz atəşkəsə nail olmuşuq. Lakin münaqişəni və onun nəticələrini hələ aradan qaldıra bilməmişik. Hazırda biz münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün fəal iş aparırıq,

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, işğal olunmuş Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələrindən azad edilməsinə və vətəndaşlarımızın öz yaşayış yerlərinə qayıtmasına çalışırıq. Bu, mürəkkəb, çətin prosesdir, amma biz məsələnin məhz dincliklə tənzimlənməsi xəttini götürmüşük.

Münaqişə vəziyyəti 80-ci illərin təxminən axırlarından başlayaraq Azərbaycanda daxili siyasi şəraitin mürəkkəbləşməsini şərtləndirdi. Bu, ölkəmizdə hakimiyyətin dəyişməsinə, 1993-cü ildə vətəndaş müharibəsinə gətirib çıxardı. Vətəndaş müharibəsi Azərbaycanın bütövlüyünü əslində təhlükə qarşısında qoydu, Azərbaycan fəlakət, parçalanma həddində idi. Ancaq iş bununla bitmədi, hərçənd biz vətəndaş müharibəsinin qarşısını almağa müvəffəq olduq. 1994-cü ildə Azərbaycanda dövlət çevrilişi cəhdi oldu, 1995-ci ildə silahlı dövlət çevrilişi cəhdi oldu. Bu hadisələr nəinki Azərbaycandakı müxtəlif ekstremist qüvvələrin əməlləri ilə, həm də bəzi xarici dövlətlərin xüsusi idarələrinin hərəkətləri ilə bağlı idi. Bunu əsas tutaraq biz dövlətlərimiz arasında əməkdaşlığı xüsusilə zəruri hesab edirik.

Məsələn, bu yaxınlarda Daşkənddə, Özbəkistanda amansız terror hərəkətləri törədildi. Bizə elə gəlirdi ki, bu Mərkəzi Asiya ölkəsində möhkəm, sarsılmaz daxili siyasi sabitlik mövcuddur. Orada dövlətin idarə edilməsi baxımından sabitlik var. Bununla belə, bir görün terrorçular nə kimi hərəkətlərə əl atırlar?!

Odur ki, xüsusi idarələrin fəaliyyətini əlaqələndirmək zamanın tələbidir. Təkrar edirəm, - yəqin siz bu məsələləri daha ətraflı müzakirə etmisiniz, - mən buna siyasi cəhətdən, dövlət mövqeyi cəhətdən belə yanaşıram ki, dövlətçiliyi, dövlət müstəqilliyini möhkəmlətmək üçün, ölkələrimizdə iqtisadi islahatlar planlarının həyata keçirilməsini və iqtisadi, sosial, siyasi islahatların aparılmasını təmin etmək üçün, ölkələrimizdə

bazar iqtisadiyyatının formalaşdırılması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin təmin olunması nəzərə alınmaqla, daxili siyasi sabitlik tələb olunur. Ölkələrimizi, xalqlarımızı istər ölkələrimizdə pozuculuq fəaliyyəti, istərsə də terrorizm kimi azğın hərəkətlər törədilməsi baxımından kənardan göstərilən hər cür cəhdlərdən qorumaq tələb edilir.

Buna görə də sizin bu növbəti görüşünüzü alqışlayıram, inanıram ki, bu görüşlər ənənəvi xarakter daşıyacaqdır. Əminəm ki, ölkələrimizin xüsusi xidmət orqanları nə qədər çox ünsiyyətdə olsalar, qarşılıqlı fəaliyyət göstərsələr, bir-birinə kömək etsələr, dövlətlərimiz bir o qədər möhkəm olacaq və biz ölkələrimiz qarşısında duran vəzifələri bir o qədər uğurla həyata keçirəcəyik.

Sovetlər İttifaqı dağıldıqdan sonra dövlət müstəqilliyi əldə etmiş ölkəmiz üçün qorxu odur ki, Azərbaycanın dövlət müstəqilliyi təhlükədə olmasa da, elə vəziyyətdədir ki, müstəqilliyimizin daim qorunmasının təmin olunmasına ehtiyac var. Əvvəlki idarəetmə formalarına qayıtmaq üçün dövlət müstəqilliyimizi tapdalamağa cürbəcür cəhdlər göstərilir. Biz bunu Azərbaycana münasibətdə hiss edirik. Hesab edirəm ki, belə vəziyyət digər ölkələrdə də bu və ya başqa dərəcədə mövcuddur.

Odur ki, vəzifə dövlət müstəqilliyini möhkəmlətməkdən ibarətdir. Azərbaycanda biz öz vəzifəmizi dövlət müstəqilliyini sabit, dönməz, əbədi etməkdə görürük. Bundan ötrü isə xalqlarımızı, ölkələrimizi mümkün ola bilən hər cür cinayət və hücumlardan qorumaq lazımdır.

Ölkələrimizdə xüsusi xidmət orqanları böyük tarixə malikdir. Lakin onların fəaliyyətində ən mürəkkəb, ən məsul dövr dövlət müstəqilliyi əldə etdiyimiz vaxtdan sonrakı dövrdür. Bununla belə, bu, ən şərəfli vəzifədir. Biz dövlət müstəqilliyinə malik olmaqla hər halda, tarixi uğurlar qazanmışıq. Bu müstəqilliyi qoruyub saxlamaq, ölkələrimizin həmişəlik

müstəqil olması, bir daha heç vaxt digər ölkələrin əlinə keçməməsini təmin etmək isə bizim şərəf işimizdir. Azərbaycanda biz vəzifəni məhz bu səpkidə qoyuruq.

Mən sizə bunu deyə bilərəm. Yəqin siz də mənə nəsə deyəcəksiniz. Bir sözlə, sizi salamlayıram, uğurlu iş münasibətilə təbrik edirəm.

**Miktat Alpay** *(Türkiyə Cümhuriyyəti Milli Təhlükəsizlik xidməti rəhbərinin birinci müavini):* Sayın cümhur başkanım, bu toplantını Süleyman Dəmirəlin və sizin təşəbbüsünüzlə biz başladıq. Ancaq burada gördük ki, hörmətli nazirlər başda olmaqla, əlbir şəkildə daha irəli getmək mümkündür. Azərbaycanda bu əməkdaşlıq altı dövlətin birliyi anlamına gələcək qədər gözəl oldu. Çox yaxşı anlaşmalar imzalandı və bunu etmək şərəfi bizə nəsib oldu. Zənnimcə, türkdilli dövlətlərin təşəbbüsləri başqalarına da örnək olar. İnanıram ki, bundan sonra Qazaxıstanda keçirəcəyimiz görüş daha səmərəli olacaq, bizi daha irəli aparacaqdır.

**Rüstəm İnoyatov** *(Özbəkistan Milli Təhlükəsizlik xidmətinin sədri):* Heydər Əliyeviç, Özbəkistanın daxili işlər naziri Zakircan Almatovla mən Bakıya gəlməzdən əvvəl prezidentimizin yanında olduq. İslam Əbdüqəniyeviç Sizə çoxlu salam göndərdi, Ən yaxşı arzularını bildirdi. Ən başlıcası isə, səfər ərəfəsində bizə nəinki bugünkü konfransda, eləcə də gələcəkdə Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ilə səmərəli işləməyi tapşırdı. Bu gün biz təkcə Özbəkistanı deyil, Azərbaycanı da narahat edən bir çox istiqamətlərdə uzunmüddətli qarşılıqlı iş haqqında müqavilə imzaladıq. İşimizin bir çox mərhələlərini müəyyənləşdirdik. Bizim işimiz isə gələcəkdə istər Azərbaycanın, istərsə də Özbəkistanın müstəqilliyinin möhkəmlənməsi işinə kömək edəcəkdir.

Siz yaxşı bilirsiniz ki, Özbəkistanın ətrafında çox da sağlam olmayan bir vəziyyət mövcuddur – Əfqanıstanda müharibə davam edir, Tacikistanda vəziyyət gərgindir. Bundan

başqa, bəzi məqamlar da var. Və bunlar Özbəkistanın da həm dünya miqyasında, həm də MDB miqyasında müstəqil siyasət yeritməsi ilə əlaqədar vəziyyətə təsir göstərir. Ona görə də elə dünən biz prezidentin belə bir göstərişini aldıq ki, azərbaycanlı həmkarlarla birlikdə işi daha yüksək səviyyədə, tam etimad şəraitində təşkil etmək lazımdır, Əlbəttə, əgər belə bir arzu olarsa. Qarşılıqlı münasibətlərimiz yeni, daha yüksək səviyyədə qurulacaqdır. Çünki Azərbaycanın da, Özbəkistanın da olduqca çox ümumi maraqları var. Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev:** Təşəkkür edirəm. Bu yaxınlarda biz İslam Əbdüqəniyeviçlə telefonla danışdıq, fikir mübadiləsi etdik. Danışdıq ki, siz buraya gələcəksiniz və biz daha ətraflı fikir mübadiləsi apara biləcəyik. Çox sağ olun.

**Nurtay Abıkayev** *(Qazaxıstan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri):* Hörmətli Heydər Əliyeviç, prezidentimizə, xalqımıza Sizin şəxsi münasibətinizi Qazaxıstanda bilirlər. Burada toplaşmağa imkan verdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Biz çox səmərəli işlədik. Bildirmək istəyirəm ki, dövlət başçılarının növbəti görüşü burada, bizim növbəti görüşümüz isə Astanada olacaqdır. Bizdə vəziyyət normaldır, tam etimad şəraitində işləyəcəyik və dövlət başçıları tərəfindən qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəyik.

**Heydər Əliyev:** Təşəkkür edirəm. Dünən mən Nursultan Abişoviçlə telefonla danışdım, biz də fikir mübadiləsi apardıq.

**Misir Aşirkulov** *(Qırğızıstanın Milli Təhlükəsizlik naziri):* Hörmətli Heydər Əliyeviç, bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu, bizim üçün böyük şərəfdir.

Bayaq qeyd etdiyiniz kimi, bəzi mütəşəkkil cinayətkar ünsürlər transmilli xarakterə malikdir. Buna görə də türkdilli dövlətlər qərara almışlar ki, onların xüsusi idarələri bir-biri ilə sıx əlaqə saxlamalıdır. Qırğızıstan çoxtərəfli sazişdən əlavə, Azərbaycanla da ikitərəfli saziş imzaladı. Biz dövlətlərimizin

təhlükəsizliyini təmin etmək üçün Azərbaycanla sıx əməkdaşlıq edəcəyik.

**Heydər Əliyev:** Təşəkkür edirəm. Mən bu yaxınlarda Əsgər Akayevlə də danışdım. Biz belə bir razılığa gəldik ki, iyunda burada, Bakıda görüşək. Hazırda Parisdə YUNESKO-nun konfransı keçirilir. Konfrans Çingiz Aytmatovun yaradıcılığına həsr olunmuşdur. Mən bizim mədəniyyət naziri Polad Bülbüloğlunu da oraya göndərdim ki, konfransda iştirak və çıxış etsin. Yeri gəlmişkən, Çingiz Aytmatovun yazıçı Şaxanovla birlikdə yazdığı pyesi bizim Azərbaycan teatrı tamaşaya hazırlamışdır. Deyirlər ki, yaxşı tamaşadır, yəqin mayın əvvəllərində göstəriləcəkdir. Ola bilsin ki, biz bu pyesin müəllifi ilə burada görüşəcəyik. Gördüyünüz kimi, mədəniyyət sahəsində əməkdaşlıq çox fəal həyata keçirilir.

**Tırkeş Tırmıyev** *(Türkmənistan Milli Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini):* İlk öncə, Saparmurad Atayeviçin xoş arzularını Sizə yetirmək istəyirəm. Sizin münasibətlərinizi Türkmənistan xalqı çox xeyirxahlıqla, dərin hörmətlə qarşılayır. Və münasibətlərimizdə, xüsusən, iqtisadi sahədə münasibətlərimizdə müsbət irəliləyişlər yaxşı qarşılanır. Ümidvarıq ki, baş verən bütün hadisələr xalqlarımızın xeyrinə olacaqdır. Həmkarlarımın dedikləri kimi, xüsusi idarələr təhlükəsizliyin qorunub saxlanması, ölkələrimiz arasında təhlükəsizliyin təmin olunması üçün hər şeyi edəcəklər.

**Heydər Əliyev:** Təşəkkürümü bildirirəm. Bu yaxınlarda Saparmurad Atayeviçlə telefon söhbətimiz oldu. Biz əməkdaşlığımızın daha da inkişaf etdirilməsindən danışdıq. Yeri gəlmişkən, Türkmənistandan başlayaraq Xəzərdən keçməklə Azərbaycana, Gürcüstana və Türkiyə Transxəzər qaz kəmərinin çəkilişi sahəsində birgə böyük işə başlayırıq. Bu, tarixi əhəmiyyətli layihədir. Biz bu layihənin həyata keçirilməsinə razılıq vermişik. Mən bununla əlaqədar Saparmurad Atayeviçə məktub yazaraq, onu tamamilə dəstəklədiyimizi bildirmi-

şəm. Telefonla söhbət zamanı biz bu işin təşkili sahəsində praktiki addımlar barədə fikir mübadiləsi apardıq. Bir sözlə, ölkələrimiz arasında iqtisadi əlaqələr getdikcə daha çox inkişaf edir, bizi daha da yaxınlaşdırır, digər bütün münasibətlərimizi möhkəmləndirir.

Ötən ilin oktyabrında Ankarada biz Türkiyə Cümhuriyyətinin 75 illiyini qeyd edərkən Bakı–Ceyhan neft kəmərinin inşası haqqında çox mühüm bəyannamə imzaladıq. Bu bəyannaməni Türkiyə, Gürcüstan, Azərbaycan, Özbəkistan və Qazaxıstan prezidentləri imzaladılar. İndi bəyannamə ardıcıl surətdə həyata keçirilir və inanıram ki, Bakı–Ceyhan neft kəməri çəkiləcək, Xəzər nefti bu kəmərlə Türkiyə ərazisi vasitəsilə dünya bazarlarına göndəriləcəkdir.

Eyni zamanda Ankarada Türkiyə ilə Türkmənistan arasında qaz kəməri haqqında bəyannamə imzalandı, indi isə bu Transxəzər qaz kəməri üzrə işə praktiki olaraq başlanmışdır.

Hazırda biz TRASEKA proqramının həyata keçirilməsi – böyük tarixi İpək yolunun bərpa edilməsi üçün böyük iş görürük. Sizin yadınızdadır ki, ötən ilin sentyabrında Bakıda beynəlxalq konfrans keçirildi. Konfransda İpək yolunun üstündə yerləşən 35-dən çox ölkənin nümayəndələri, bir çox dövlətlərin başçıları, o cümlədən, Türkiyə prezidenti Süleyman Dəmirəl, Özbəkistan prezidenti İslam Kərimov, Qırğızıstan prezidenti Əsgər Akayev iştirak edirdilər. Qazaxıstan və Türkmənistandan çox mötəbər nümayəndə heyətləri gəlmişdi.

Bu, çox böyük layihədir və yeri gəlmişkən deyim ki, senator Braunbekin İpək yolu strategiyası barədə təklifi hazırda Amerika Birləşmiş Ştatlarının Senatında müzakirə edilir. Biz ümidvarıq ki, həmin qanun layihəsi qəbul ediləcək və onun çox böyük əhəmiyyəti olacaqdır.

Belə çıxır ki, tarixi İpək yolunun bərpası ilə bağlı iqtisadi prinsiplərimiz də bir çox siyasi məsələlərlə birləşir. Bütün bunlar Mərkəzi Asiyanı, Qafqazı, Türkiyəni və Avropanı, qər-

bi coğrafi, coğrafi-siyasi cəhətdən çox sıx bağlayır. Əlbəttə, bununla əlaqədar ölkələrimizin xüsusi xidmət idarələri qarşısında çox mühüm və böyük vəzifələr durur. Çünki bu layihələrin həyata keçirilməsi ölkələrimiz üçün çox böyük iqtisadi, sosial, siyasi əhəmiyyətə malikdir. Bununla yanaşı, biz bilirik ki, bu layihələrin nə qədər əleyhdarları var, nə qədər adam bu layihələrə maneçilik törədir və ya onların olmasını istəmir. Məsələn, son illər ərzində biz Xəzərin enerji ehtiyatlarının – neftin və qazın dünya iqtisadiyyatının sərvətinə çevrilməsi üçün böyük iş görmüşük. Çox böyük işlərə başlanmışdır. Məsələn, biz dünyanın bir çox ən iri neft şirkətləri ilə bir çox müqavilələr imzalamışıq. Amma bu, heç də hamının xoşuna gəlmir, bəziləri buna mane olmaq istəyir, bəziləri isə indi belə bir təbliğat aparırlar ki, bəs Xəzərdə güman edildiyi qədər neft yoxdur və sair. Bütün bunlar işimizə mane olmağa yönəldilmişdir. Xəzərdə isə neft çoxdur, lap çoxdur, neçə-neçə nəslə çatacaqdır.

Bizim fəal hərəkətlərimiz, ümumi uğurlarımız xalqlarımız üçün, ölkələrimiz üçün, şübhəsiz, gözəl perspektivlər açır, amma bunun olmasını istəməyən ayrı-ayrı qüvvələrdə narazılıq və hətta düşmənçilik hissləri doğurur. Elə bunun özü də bizdən daha sıx birləşməyi, bir-birimizə kömək göstərməyi tələb edir. Bu isə, təkrar edirəm, xüsusi xidmət idarələri qarşısında çox böyük vəzifələr qoyur. Sağ olun.

# AZƏRBAYCAN MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

***Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı 27 mart 1999-cu il***

Hörmətli xanımlar və cənablar, dostlar!

Sizi Azərbaycan təhlükəsizlik orqanlarının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanın təhlükəsizlik orqanları 80 il ərzində mürəkkəb, ziddiyyətli, eyni zamanda uğurlu yol keçmişdir. Azərbaycanın təhlükəsizlik orqanlarında 80 il ərzində bir neçə nəsil azərbaycanlılar, vətənpərvər insanlar xidmət etmişlər və respublikamızın təhlükəsizlik orqanlarının tarixinin yaranmasında iştirak etmişlər.

Təhlükəsizlik orqanlarının tarixi haqqında danışarkən təbiidir ki, bu orqanların Azərbaycana, bizim milli mədəniyyətimizə, tariximizə, elmimizə, milli kadrlarımıza vurduğu zərbəni və zərəri də nəzərə alıb qeyd etməliyik. Eyni zamanda, bu orqanlarda sədaqətlə xidmət etmiş soydaşlarımızı, azərbaycanlıları unutmuruq.

Xalq cümhuriyyəti zamanı Azərbaycanın təhlükəsizlik orqanları gənc müstəqil dövlətimizə xidmət etmişdir. Sonrakı 70 il ərzində Azərbaycanın təhlükəsizlik orqanları sovet hakimiyyətinə, kommunist ideologiyasına xidmət etmiş, Sovet İttifaqının təhlükəsizlik orqanlarının tərkib hissəsi olaraq onların siyasətini və əməli tədbirlərini həyata keçirməklə məşğul olmuşdur. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra respublikamızın dövlət orqanlarının müstəqil fəaliyyət göstər-

məsi prosesində Azərbaycanın təhlükəsizlik orqanları da öz yerini tapmışdır.

Bütün bu mərhələlərdə təhlükəsizlik orqanlarının fəaliyyətində xalqımız üçün zərərli amillər də olmuş, ancaq eyni zamanda, təhlükəsizlik orqanlarının xalqımıza xidmətləri də olmuşdur. Onu qeyd etmək lazımdır ki, sovet hakimiyyəti dövründə və xüsusən 1920-1930-cu illərdə təhlükəsizlik orqanları sovet hakimiyyətinin repressiya siyasətinin həyata keçirilməsində alət olmuş və Azərbaycan xalqına böyük zərbələr vurmuşdur. Azərbaycanın təhlükəsizlik orqanlarında 1953-cü ildən sonra, yəni Stalinin vəfatından sonra Sovetlər İttifaqında mövcud olan prosesdə eyni zamanda müsbət dəyişikliklər başlamışdı. Beləliklə, 1953-cü ildən sonrakı dövrdə Azərbaycanın təhlükəsizlik orqanları Sovet İttifaqının təhlükəsizlik orqanlarının tərkib hissəsi olaraq, eyni zamanda Azərbaycanda təhlükəsizlik orqanlarının respublikamızın milli mənafelərinə xidmət etməsinə müəyyən qədər nail olmuşdur.

Bu gün onu da qeyd etmək lazımdır ki, sovet hakimiyyətinin təhlükəsizlik orqanları müttəfiq respublikalarda və xüsusən müsəlman respublikalarında, türkdilli respublikalarda mərkəzin hakimiyyətini həyata keçirməkdə xüsusi səlahiyyətə malik idi. Azərbaycanda təhlükəsizlik orqanlarında milli kadrlar çox azlıq təşkil edirdi. Azərbaycanda repressiyaların aparılmasında, xalqımıza vurulmuş zərbələrdə məhz mərkəzə tabe olan və onun iradəsini həyata keçirən kadrlar fəallıq göstərirdilər.

Qeyd etdim ki, müsəlman respublikalarına mərkəzdən münasibət başqa respublikalara nisbətən çox fərqli idi. Ona görə də Azərbaycanın təhlükəsizlik orqanlarında milli kadrların yaranmasına imkan verilmirdi. Məhz 1950-ci illərdən, 1950-ci illərin ikinci yarısından başlayaraq bu imkan əldə edildi. Ancaq buna nail olmaq üçün təhlükəsizlik orqanlarında Azərbaycan xalqına zidd siyasətin həyata keçirilməsində fəal-

lıq göstərənləri orqanlardan uzaqlaşdırmaq, kənarlaşdırmaq lazım idi.

Mənim xatirimdədir, 1953-cü ildə Stalin vəfat edəndən sonra təhlükəsizlik orqanlarında müəyyən struktur dəyişiklikləri əmələ gəldi. Mən o vaxt Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyinin, sonra komitəsinin Əks-Kəşfiyyat İdarəsinin rəisi idim. O dövrü bu gün də xatırlayanda dəhşətə gəlirəm ki, biz kimlərlə işləyirdik. Yerli kadrlar çox az idi. Vaxtilə elələrini seçirdilər ki, onlar yüksək savada, biliyə, yaxud keyfiyyətə malik olmasınlar. Əsas rəhbər vəzifələrdə işləyənlər başqa millətlərə mənsub olan kadrlardan ibarət idi. Ancaq 1950-ci illərin ikinci yarısında, 1960-cı illərdə, sonra 1970-ci illərdə Azərbaycanın təhlükəsizlik təşkilatında ciddi dəyişikliklər həyata keçirmək mümkün oldu.

Mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının milliləşdirilməsi prosesi bu təşkilatın Azərbaycana vurduğu zərərə baxmayaraq, bizim əldə etdiyimiz ən böyük nailiyyət idi. Təşkilat milliləşdikcə onun fəaliyyətinin istiqamətini də Azərbaycanın milli mənafelərinə daha çox uyğun aparmaq mümkün olurdu.

Təsəvvür edin, Azərbaycanda o illərdə Təhlükəsizlik Nazirliyinin, təşkilatının başçısını yerli kadrlardan təyin etmək mümkün deyildi. Sadəcə olaraq, açıqca bəyan edirdilər ki, bu, mərkəzdən gəlməlidir, azərbaycanlı olmamalıdır. 1967-ci ildə ilk dəfə Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə azərbaycanlının təyin edilməsi, demək olar ki, bir tarixi hadisə oldu.

O illər biz çox iş gördük, təhlükəsizlik orqanlarında milli kadrların hazırlanmasına və irəli çəkilməsinə nail olduq. Ancaq təəssüflər olsun ki, 1985-ci ildən etibarən, yenə də Azərbaycanın Təhlükəsizlik Komitəsinə kənardan kadrların gətirilməsi prosesi başladı. Nəhayət, burada qeyd edildiyi kimi, 1988-ci ildə, Azərbaycanın ən ağır dövründə yenə də Təhlü-

kəsizlik Nazirliyinin rəhbərliyinə mərkəzdən təyin olunmuş insan, Azərbaycanda heç vaxt işləməmiş, respublikamızın xüsusiyyətini bilməyən adam təyin olundu. Bu, qəsdən edilmişdi. Çünki lazım idi ki, Azərbaycanın təhlükəsizlik orqanlarında milli kadrların iradəsi sındırılsın və onlar yenə də mərkəzin iradəsinə tabe etdirilsin.

Onu da qeyd etmək istəyirəm ki, məsələn, Cənubi Qafqazın digər respublikalarında vəziyyət belə deyildi. Orada təhlükəsizlik orqanlarında həm yerli, milli kadrlar əksəriyyəti təşkil edirdi, həm də onların rəhbərləri, birinci şəxs həmişə öz yerli, milli kadrlarından idi.

Belə bir faktı xatırlayıram. Deyəsən, 1972, 1973, 1974-cü illərdə Ermənistanda Dövlət Təhlükəsizliyi Komitəsinin sədrini dəyişdirib oraya Moskvadan rus göndərdilər. Xatirimdədir, bir dəfə görüşümüzdə Andropov mənə danışırdı ki, belə bir qərar qəbul ediləndən sonra Mikoyan ona telefonla zəng etmiş və öz narazılığını, etirazını bildirmişdi. Bəyan etmişdi ki, Ermənistana təhlükəsizlik orqanının başçısı vəzifəsinə rus təyin etmək mümkün deyildi. Siz bunu nə üçün etdiniz. O vaxt mən Andropova dedim ki, bəs Mikoyan düşünmürmü ki, Azərbaycanda on illərlə bu vəzifəyə heç vaxt azərbaycanlı təyin olunmayıbdır, həmişə Moskvadan göndərilmiş, rus millətinə mənsub olan adam təyin edilibdir.

Beləliklə, görürsünüz, o vaxt Cənubi Qafqazın digər respublikalarına nisbətən Azərbaycana qarşı münasibət tamamilə başqa idi. Bunlar hamısı Azərbaycanı daim təzyiq altında saxlamaq, daim idarə etmək və Azərbaycanda milli dirçəlişin, milli oyanışın qarşısını almaq məqsədi daşıyırdı.

Təəssüflər olsun ki, təxminən 1985–1986-cı illərdə Azərbaycanın Təhlükəsizlik Komitəsində milli kadrların azalması prosesi getdi, kənardan gələn kadrlar burada müəyyən yerlər tutdu. Xatirinizdədir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlamamışdan əvvəl Azərbaycanın həm Milli

Təhlükəsizlik Nazirliyinə, həm də Daxili İşlər Nazirliyinə Moskvadan böyük-böyük briqadalar göndərilirdi və həmin briqadalar respublikamızı dağıtmaq, Azərbaycanın milli mədəniyyətinə, milli sərvətlərinə zərər vurmaq məqsədi daşıyırdı. Belə bir şəraitdə Azərbaycanın təhlükəsizlik orqanlarında 1988-ci ildən ölkəmiz müstəqillik əldə edənə qədər olan dövr, demək olar ki, 1930-cu illərin təkrarı kimi göstərilə bilər.

Beləliklə, təhlükəsizlik orqanlarının tarixində müxtəlif dövrlər, hər dövrün özünəməxsus xüsusiyyəti olubdur. Ölkəmizin XX əsrdəki tarixini doğru-düzgün əks etdirmək, yazmaq üçün mütləq tədqiqatlar, tarixi araşdırmalar aparılmalıdır və obyektiv, ədalətli əsərlər yaradılmalıdır.

Bütün bu dövrlərdə Azərbaycanın təhlükəsizlik orqanlarında mövcud olan nöqsanlarla, qüsurlarla yanaşı, vətənpərvər insanlar, azərbaycanlıların əksəriyyəti öz xalqına, millətinə sədaqətlə xidmət etmişdir. Biz bunu heç vaxt unutmamalıyıq.

Bu gün bu təntənəli mərasimdə Azərbaycan təhlükəsizlik orqanlarının veteranları da iştirak edirlər. Hesab edirəm, biz onların keçmiş dövrdə Azərbaycan Respublikasına göstərdiyi xidmətləri qiymətləndirməliyik və vətənə, xalqa sədaqətlə xidmət etdiklərinə görə onlara təşəkkür etməliyik.

Dövlət müstəqilliyi əldə ediləndən sonra milli təhlükəsizlik orqanlarında çox ciddi proseslər getmişdir. Nəhayət, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ölkəmizin dövlət müstəqilliyinə xidmət etmək səviyyəsinə gəlib çatmışdır.

Şübhəsiz ki, bu proseslərin gedişində Milli Təhlükəsizlik Nazirliyinin işinə çox zərbələr, zərərlər də vurulmuşdur. Ancaq bu gün məmnuniyyətlə qeyd etmək olar ki, bütün bunlar artıq geridə qalmış, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi indi müstəqil Azərbaycanın milli mənafelərinə tam xidmət etməyə qadirdir.

Müstəqil Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinə keçmişdən də çox şey çatmışdır. Bu, birinci növbədə Azər-

baycanın milli kadrlarıdır. Əgər keçmiş dövrlərdə milli kadrlar hazırlanmasaydı, müstəqillik dövründə Milli Təhlükəsizlik Nazirliyində – belə bir mürəkkəb təşkilatda fəaliyyət göstərmək və onun işini təmin etmək mümkün olmazdı.

Bizim təhlükəsizlik təşkilatımıza keçmişdən böyük maddi-texniki baza çatmışdır. Bu baza olmasaydı, bu gün Milli Təhlükəsizlik Nazirliyi öz işini apara bilməzdi. Mən xüsusən Milli Təhlükəsizlik Nazirliyinin gözəl binasını qeyd etmək istəyirəm. Bilirsiniz ki, mən keçmiş illərdə Azərbaycanda, o cümlədən Bakıda bir çox binaların, sarayların yaranmasının, tikilməsinin təşəbbüskarı, təşkilatçısı olmuşam. Bunların içərisində ən görkəmlisi indi müstəqil Azərbaycanın Prezident sarayıdır. Bunlardan biri də Azərbaycanın təhlükəsizlik təşkilatının binasıdır. Bu binalar həm memarlıq nöqteyi-nəzərindən, həm şəhərin memarlıq kompleksinin tərkib hissəsi kimi, həm də öz funksiyalarını həyata keçirmək baxımından müasirdir və çox yararlıdır. İndi Milli Təhlükəsizlik Nazirliyinin belə bir gözəl və öz işləri üçün yararlı olan binada yerləşməsi də keçmişdən bu nazirliyə çatan böyük sərvətlərdən biridir.

Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin son illər gördüyü işlər və əldə etdiyi nəticələr müsbət qiymətə layiqdir.

Nazir Namiq Abbasovun buradakı məruzəsində gətirilən konkret faktlar onu göstərir ki, ölkəmizdə Milli Təhlükəsizlik Nazirliyinin, ümumiyyətlə, təhlükəsizlik orqanlarının fəaliyyəti çox gərəklidir və çox əhəmiyyətlidir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, artıq formalaşan və təşkilatlanan Milli Təhlükəsizlik Nazirliyi qarşısında duran vəzifələri bundan sonra daha da müvəffəqiyyətlə yerinə yetirəcəkdir. Vəzifələr isə çox böyükdür.

Keçmiş dövrlərdə, sovet hakimiyyəti vaxtında Azərbaycanın təhlükəsizlik təşkilatı ümumi sovet hökumətinin qərarlarını və göstərişlərini yerinə yetirməklə məşğul idi. İndi müs-

təqil Azərbaycanda ölkəmizi təhlükəsizlik təşkilatı müstəqil Azərbaycanın, xalqımızın milli mənafelərini təmin etmək vəzifəsini daşıyır. Ancaq bu vəzifəni yerinə yetirmək çox çətindir. Ona görə də biz Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyindən çox şeylər gözləyirik.

Məlum olan, burada elan edilən faktlar onu göstərir ki, Azərbaycana xarici ölkələrin kəşfiyyat orqanlarının marağı günü-gündən artır. Onların qarşısını almaq, Azərbaycanın milli mənafelərini qorumaq üçün təhlükəsizlik təşkilatı daha da fəal işləməlidir. Azərbaycanın bu baxımdan vəziyyətini mürəkkəbləşdirən bir də odur ki, ölkəmiz Ermənistan ilə müharibə vəziyyətindədir. İndi biz Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırıq. Ancaq bununla yanaşı, Azərbaycana qarşı Ermənistan tərəfindən aparılan müxtəlif kəşfiyyat, təxribat işləri davam edir və onların qarşısı alınmalıdır, Azərbaycanda bunlara yol verilməməlidir.

Bir sözlə, Azərbaycan indi bir çox xarici kəşfiyyat orqanlarının diqqətini cəlb edir və Azərbaycanı bunlardan qorumaq lazımdır. Bunun üçün də Milli Təhlükəsizlik Nazirliyi daha da yaxşı işləməlidir. Ölkəmizin daxilində Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə qəsd etmək cəhdləri hələ tükənməyibdir. Bunların da qarşısı alınmalıdır.

Son illərin təcrübəsi onu göstərdi ki, Azərbaycan dövlətçiliyinə qarşı terror, təxribat və başqa düşmənçilik aksiyaları davam edir. Bunların qarşısının alınması üçün lazımi tədbirlər görülməlidir.

Beləliklə, Milli Təhlükəsizlik Nazirliyinin qarşısında çox böyük vəzifələr durur. Bu vəzifələr, birinci növbədə, Azərbaycanın dövlət müstəqilliyini qorumaq, mühafizə etməkdən ibarətdir. Azərbaycanın dövlət müstəqilliyinə təcavüz halları davam edir və dövlətimizin müstəqil siyasəti bəzi dairələri narahat edir. Bu müstəqil siyasətin sarsıdılması üçün həmin siyasətə zidd hərəkətlər həyata keçirilir və Azərbaycanı bu

müstəqillik yolundan müxtəlif təzyiq vasitələri ilə çəkindirməyə çalışırlar. Ona görə də Azərbaycanın müstəqil siyasətinə xidmət etmək, dövlət müstəqilliyimizi qorumaq, mühafizə etmək Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifəsidir.

Bizim qarşımızda duran vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdir. Qeyd etdim ki, biz Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırıq. Burada Milli Təhlükəsizlik Nazirliyinin də vəzifələri var. Bu vəzifələri layiqincə yerinə yetirmək lazımdır.

Terrorizm indi dünyada geniş yayılıbdır. Burada gətirilən faktlar əyani sübut edir ki, Azərbaycanda terror aksiyaları keçirmək cəhdləri, dövlətçiliyimizi sarsıtmaq məqsədi daşıyan cəhdlər son illər olmuşdur. Ancaq bu gün də bunların mümkünlüyü var. Ona görə də Milli Təhlükəsizlik Nazirliyi terror aksiyalarına qarşı xüsusi tədbirlər hazırlayıb həyata keçirməlidir.

Azərbaycan öz iqtisadi imkanlarını genişləndirir. Ölkəmizə xarici investisiyalar gəlir. Azərbaycan neft sənayesinin inkişaf etdirilməsi üçün müqavilələr imzalayıb və onları həyata keçirir. Neft kəmərləri tikilir. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün tədbirlər həyata keçirilir. Ancaq bunlar Azərbaycanın düşmənlərini çox narahat edir və bizim bu işlərimizi pozmaq üçün müxtəlif təxribat aksiyalarının keçirilməsi də mümkündür. Ona görə bizim iqtisadiyyat sahəsində apardığımız işlərin də mühafizə olunması Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifələrindən biridir.

Azərbaycanın sərhədləri daha da etibarlı qorunmalıdır. Sərhəd qoşunlarının fəaliyyəti daha da gücləndirilməlidir. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin kəşfiyyat idarəsi də öz işini gücləndirməlidir. Biz hələ kəşfiyyat idarəsinin fəaliyyətindən lazımi məlumatlar, lazımi materiallar ala bilmirik. Bir sözlə, kəşfiyyat idarəsinin fəaliyyəti zəifdir, burada ciddi tədbirlər görülməlidir.

Milli Təhlükəsizlik Nazirliyi və onun əməkdaşları bilməlidirlər ki, Azərbaycan dövləti nazirliyə və nazirliyin əməkdaşlarına böyük etimad göstərir. Azərbaycanda Milli Təhlükəsizlik Nazirliyi böyük sahəni əhatə edir. Bir çox başqa ölkələrdə təhlükəsizlik sistemində kəşfiyyat ayrıdır, sərhəd qoşunları müstəqildir. Ancaq biz Azərbaycanda bu sahələrin hamısını Milli Təhlükəsizlik Nazirliyinin tərkibində saxlamışıq və hesab edirəm ki, düz etmişik. Bu, Milli Təhlükəsizlik Nazirliyinin üzərinə daha da çox məsuliyyət qoyur, daha da çox vəzifələr qoyur. Bu, eyni zamanda, Milli Təhlükəsizlik Nazirliyinə Azərbaycan dövləti tərəfindən göstərilən böyük etimadı nümayiş etdirir. Mən bu gün bir daha bəyan edirəm ki, Milli Təhlükəsizlik Nazirliyinə tam etibar edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, nazirlik, onun bütün əməkdaşları bu etimadı daim doğruldacaqlar.

Milli Təhlükəsizlik Nazirliyi üzərinə düşən vəzifələri yerinə yetirmək üçün öz peşəkarlıq fəaliyyətini, təcrübəsini daha da artırmalıdır. Bilikli gənc kadrlar hazırlanmalıdır, müasir tələblərə cavab verən kadrlar hazırlanmalıdır.

Məlumdur ki, bu keçid dövründə Təhlükəsizlik Nazirliyini təmizləmək lazım idi. Bu günün tələblərinə cavab verməyən, yaxud da ki, işə sədaqətli olmayan şəxslərdən azad olmaq lazım idi. Bunu bilin, bəlkə buna hələ bu gün də müəyyən qədər ehtiyac vardır. Ancaq eyni zamanda vaxtı itirmədən, müasir tələblərə cavab verən, yüksək professional səviyyədə olan kadr korpusu hazırlanmalıdır. Güman edirəm ki, Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası tezliklə fəaliyyətə başlayacaqdır və bu vəzifənin yerinə yetirilməsi üçün öz xidmətlərini göstərəcəkdir. Hər halda, biz bu sahədə Milli Təhlükəsizlik Nazirliyinə bütün yardımları etməyə hazırıq. Ancaq sədaqətli, bilikli, peşəkar kadrlar hazırlanmalıdır. Əgər bu gün Milli Təhlükəsizlik Nazirliyi Azərbaycana qarşı yönəldilmiş bu casusluq, təxribatçılıq, terrorçuluq faktları ilə bu qə-

dər rastlaşırsa, təsəvvür edin, qarşıdakı dövrdə bu, nə qədər olacaqdır. Azalmayacaqdır, - mən bunu deyə bilərəm, - artacaqdır. Bir daha qeyd edirəm, Azərbaycanın müstəqil siyasəti çoxlarını narahat edir və müxtəlif istiqamətlərdən Azərbaycana təsir göstərmək, bunun üçün casuslardan istifadə etmək, terror aksiyaları keçirmək, təxribatlar həyata keçirmək cəhdləri azalmayacaqdır. Bunların qarşısının alınması üçün Milli Təhlükəsizlik Nazirliyi gərək həm sayca, həm də keyfiyyətcə öz gücünü artırsın.

Milli Təhlükəsizlik Nazirliyində işləmək, dövlətimizin, xalqımızın təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir. Çünki təhlükəsizlik təşkilatının əməkdaşları cəmiyyətdə yüksək etimada, eyni zamanda yüksək səlahiyyətə malikdirlər. Gərək hər bir əməkdaş bunların müqabilində öz məsuliyyətini dərk edə bilsin və üzərinə düşən vəzifəni yerinə yetirə bilsin.

Nazirliyin əməkdaşları yüksək biliyə malik olmalıdırlar, Azərbaycanın daxili və xarici siyasətini yaxşı bilməlidirlər, Azərbaycanın Konstitusiyasını, qanunlarını yaxşı bilməlidirlər. Konstitusiyanın və qanunların həyata keçirilməsi Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının əsas vəzifələridir. Siz beynəlxalq vəziyyəti yaxşı bilməlisiniz, beynəlxalq aləmdə gedən prosesləri izləməlisiniz. Bunlar sizin işlərinizin təşkil olunması üçün əsas şərtlərdən biridir. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları xalqımıza, Azərbaycan dövlətinə, ölkəmizə hədsiz sədaqətli olmalıdırlar. Saf mənəviyyata, əxlaqa malik olmalıdırlar. Yüksək mənəviyyat sizin fəaliyyətinizin əsas şərtidir. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları heç vaxt öz xalqına, dövlətinə xəyanət yoluna düşməməlidirlər. Sədaqət, vətənpərvərlik əsas keyfiyyətlərdir və siz özünüzdə bu keyfiyyətləri daim yaratmalısınız, inkişaf etdirməlisiniz.

Eyni zamanda sizin peşəniz çətin peşədir, böyük qəhrəmanlıq tələb edir, böyük şəxsi cəsarət, iradə, dönməzlik tələb

edir. Güman edirəm ki, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları bu keyfiyyətlərə daim malik olacaqlar.

Bir sözlə, Milli Təhlükəsizlik Nazirliyi Azərbaycanın dövlət orqanları arasında xüsusi yer tutur və arzu edirəm ki, öz əməli işinizlə, fəaliyyətinizlə belə yüksək yer tutmağa həmişə nail ola biləsiniz. Mən Milli Təhlükəsizlik Nazirliyinin son illərdə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdiyimizi bir daha bildirirəm və bu nailiyyətlərə görə Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyinə və əməkdaşlarına təşəkkür edirəm.

80 illik yubiley mərasimləri Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin həyatında yeni bir mərhələ açır. Müstəqillik illərinin arxada qalan dövründə görülən işlərə yekun vurulur və gələcək illərdə qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün daha da əlverişli şərait yaradılır. Əmin olduğumu bildirmək istəyirəm ki, Milli Təhlükəsizlik Nazirliyi, onun bütün əməkdaşları son illər əldə etdikləri təcrübədən bundan sonra daha da səmərəli istifadə edəcəklər, öz vəzifələrini şərəflə yerinə yetirəcəklər.

Mən bu gün, bu bayram günü sizi təbrik edirəm. Bildirirəm ki, biz sizə inanırıq və sizdən Azərbaycanın dövlətçiliyinin qorunması sahəsində daha da çox işlər gözləyirik. Sizi bu bayram münasibətilə bir daha təbrik edirəm. Hər birinizə cansağlığı, səadət arzu edirəm. Gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV VƏ QANUNÇULUQ**

**Kitabı nəşrə hazırladılar**
Əfrahim Təhməzov
Mahir Əhmədov
Afət Əhədova

**Texniki redaktoru**
Səməndər Orucəlioğlu

**Dizayner**
Zaur Qafarzadə

**Kompüter tərtibatçısı**
Rahilə Məmmədova

**Kompüter yığıcısı**
Sədaqət Nərimanova

**Korrektor**
Gözəl Əlibəyli

Çapa imzalanmışdır: 17.04.2008
Kağız formatı: 60x90 1/16
Həcmi: 27 ç.v.; Sifariş: 120 ; Sayı: 1000

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
*Ünvan: Bakı şəh., S.Rəhimov küç., 195/ 17*
*Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;*
*Web: www.adiloglu.az; E-mail: info@ adiloglu.az*

«İlay» MMC-nin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh.,Şərifzadə küçəsi, 202*
*Tel.: 433-00-43*